**Sakit Əliyev**

**Cahangir Cahangirli**

# AZƏRBAYCANIN SİYASİ TƏLİMLƏR TARİXİ

DƏRSLİK

Azərbaycan Respublikasının Təhsil Nazirinin F-167 nömrəli 10.03.2020-ci il tarixli Əmri ilə təsdiq olunmuşdur.

**BAKI – 2020**

**Elmi redaktor:** **Etibar Əli oğlu Nəcəfov**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Fəlsəfə və sosial psixologiya" kafedrasının müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəyçilər:** **Əlikram Zakir oğlu Abdullayev**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I Tədris işləri üzrə prorektoru, fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəcəb Zakir oğlu Rəhimli**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Elmi təşkilat və beynəlxalq əlaqələr" şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

**Məcid Əhməd oğlu Əfəndiyev**
Bakı Dövlət Universitetinin "Politologiya" kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru

**Günay Rza qızı Piriyeva**
Azərbaycan Dövlət İqtisad Universitetinin "Humanitar fənlər" kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru

**Əliyev S.H., Cahangirli C.X. Azərbaycanın siyasi təlimlər tarixi.** Ali təhsilin bakalavr hazırlığı üçün dərslik. Bakı, "Elm və təhsil", 2020, 364 səh.

**Azərbaycanın siyasi təlimlər tarixi**

Dərslikdə Azərbaycan xalqının ən qədim dövrlərdən başlayaraq indiyədək siyasi ideyaları, təlimləri və baxışlarının əsas inkişaf mərhələlərinin qısa təhlili və şərhi verilmişdir. Azərbaycanda müxtəlif dövrlərdə yaşayıb-yaratmış ayrı-ayrı mütəfəkkirlərin, filosofların, tarixçilərin və dövlət xadimlərinin ictimai-siyasi baxışları, onların ideya və təlimlərinin özünəməxsus xüsusiyyətləri göstərilmişdir. Dərslik hazırlanarkən Azərbaycanın ictimai-siyasi fikir tarixi ilə bağlı sovet dövründə buraxılmış nöqsanların və qəsdən edilmiş təhriflərin aradan qaldırılmasına, hadisə və proseslərə obyektiv yanaşılmasına cəhd edilmişdir.

Dərslik ali təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan bakalavrlar üçün nəzərdə tutulmuşdur. Dərslikdən həmçinin, magistrantlar, doktorantlar, müəllimlər və digər oxucular da faydalana bilər.

*© S.H.Əliyev, C.X.Cahangirli, 2020*

# MÜNDƏRİCAT

**Giriş**............................................................................ **9**

**I BÖLMƏ**
**AZƏRBAYCANIN QƏDİM VƏ ORTA ƏSRLƏR DÖVRÜNDƏ SİYASİ İDEYALAR**

**1.1. Azərbaycanın siyasi təlimlər tarixi fənninin predmeti və tədqiqat sahəsi**.......................................................... **15**
1.1.1. Azərbaycanın siyasi təlimlər tarixinin dövrləşdirilməsi və mərhələləri…………........................................................... 16
**1.2. Azərbaycanın şifahi xalq ədəbiyyatında siyasi ideyaların yaranması**.................................................. **20**

**1.3. "Avesta"Azərbaycan xalqının ictimai-siyasi fikir abidəsi kimi**.......................................................................... **24**
1.3.1. "Avesta"da dövlət və cəmiyyətin idarə olunması…......... 27
1.3.2. "Avesta"da müharibə və sülh məsələsi………................. 29
1.3.3. "Avesta"da ailə-nigah münasibətləri, təhsil və tərbiyə məsələləri................................................................................ 30
1.3.4. "Avesta"da iqtisadi həyat və cəmiyyətin sosial strukturu…....................................................................... 31

**1.4. "Kitabi–Dədə Qorqud" dastanında Azərbaycan xalqının ictimai siyasi baxışlarının əks olunması**......... **33**
1.4.1. "Kitabi–Dədə Qorqud" eposunda insan, cəmiyyət və dövlət məsələləri………........................................................ 34

**1.5. Azərbaycanın ilk dövlət qurumlarında ictimai-siyasi ideyaların meydana gəlməsi**......................................... **36**

**1.6. Azərbaycanda İslama qədərki dövrdə ictimai–siyasi ideyalar**.............................................................................. **51**
1.6.1. Mani təlimində sosial-siyasi fikirlər......…...................... 52
1.6.2. Məzdəkilər təliminin sosial-siyasi mahiyyəti……………..... 53
1.6.3. Albaniyada xristianlığın yayılması və onun cəmiyyətin ictimai-siyasi həyatında rolu………................................. 54

**1.7. VII–X əsrlərdə Azərbaycanda İslam dininin yayılması nəticəsində yaranan yeni ictimai–siyasi təlimlər........................................................................ 56**
1.7.1. VII–X əsrlərdə Azərbaycanda ictimai-siyasi şərait.......…... 56
1.7.2. İslam dininin Azərbaycanda yayılması və onun sosial-siyasi mahiyyəti……….................................................... 58
1.7.3. İslam dinində yaranan ictimai–siyasi təlimlər……............. 61
1.7.3.1. Quranın ictimai-siyasi mahiyyəti………..........……......... 61
1.7.3.2. Mötəzililik təliminin ictimai-siyasi mahiyyəti……............ 63
1.7.3.3. Mütəkəllimlər təliminin dini-siyasi mahiyyəti……............ 66
1.7.3.4. İsmailililik təliminin ictimai-siyasi mahiyyəti……….......... 67
1.7.3.5. Sufizm təliminin ictimai-siyasi cəhətləri……….................. 69
1.7.3.6. "Saflıq qardaşları və vəfa munisləri" təşkilatının ictimai-siyasi fəaliyyəti……….........................................…… 71
1.7.3.7. Azərbaycanda pavlikian hərəkatı…................................... 77
1.7.3.8. Xürrəmilər hərəkatının ictimai-siyasi ideyaları……........... 78
1.7.3.9. Azərbaycan xalqının yaranması və formalaşması…........... 80

**1.8. XI–XIV əsrlərdə Azərbaycanda ictimai–siyasi təlimlərin inkişafı........................................................ 86**
1.8.1. XI–XII əsrlərdə ictimai-siyasi təlimlər...............…......... 86
1.8.2. Eynəlqüzat Miyanəcinin baxışlarında insan azadlığı ideyası.........…...................................................... 88
1.8.3. Əfzələddin Xaqani Şirvaninin ictimai–siyasi dünyagörüşü.........…………............................……........ 90
1.8.4. Nizami Gəncəvinin ictimai–siyasi ideyaları...................... 91
1.8.5. XIII-XIV əsrlərdə siyasi fikir…..................……................ 93
1.8.6. Əvhədi Marağayinin siyasi dünyagörüşü.........……......... 94
1.8.7. XIII–XIV əsrlər Azərbaycan hüquqşünas və filosoflarının ictimai-siyasi dünyagörüşləri....................... 96
1.8.8. Siracəddin Urməvinin sosial-siyasi ideyaları....……......... 97
1.8.9. Nəsirəddin Tusinin dövlət idarəçilik nəzəriyyəsi............. 99

| | | |
|---|---|---|
| **1.9.** | **XV–XVIII əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişaf xüsusiyyətləri....................................................** | **104** |
| 1.9.1. | XV–XVI əsrlərdə Azərbaycanda ictimai–siyasi tərəqqi, elm, incəsənət və ədəbiyyatın kamil dövrü....…….....… | 104 |
| 1.9.2. | Hürufiliyin sosial-siyasi mahiyyəti: Fəzlullah Nəiminin və İmadəddin Nəsiminin baxışlarında humanizm............. | 106 |
| 1.9.3. | Şah İsmayıl Xətainin yaradıcılığında dövlətçiliyin möhkəmləndirilməsi ilə bağlı ictimai–siyasi baxışlar........ | 108 |
| 1.9.4. | Məhəmməd Füzulinin yaradıcılığında insan, cəmiyyət və dövlət məsələləri ilə bağlı ictimai–siyasi ideyalar............ | 110 |
| 1.9.5. | XVII–XVIII əsrlərdə rəsmi dövlət sənədlərində ictimai–siyasi ideyalar................................................................. | 111 |
| 1.9.6. | XVII–XVIII əsrlərdə yaşamış mütəfəkkirlərin ictimai-siyasi baxışları................................................................. | 113 |
| 1.9.7. | Saib Təbrizinin XVII əsr Azərbaycanın ictimai–siyasi fikir tarixində yeri........................................................ | 114 |
| 1.9.8. | Hacı Zeynalabdin Şirvaninin utopik dövlət yaratmaq ideyası......................................................................... | 121 |
| | **II BÖLMƏ**<br>**AZƏRBAYCANIN YENİ VƏ ƏN YENİ DÖVRLƏRİNDƏ SİYASİ TƏLİMLƏRİN FORMALAŞMASI** | |
| **2.1.** | **XIX əsrdə ictimai-siyasi fikrin inkişafında maarifçiliyin rolu.........................................................** | **128** |
| 2.1.1. | XIX əsrdə Azərbaycanda maarifçiliyin meydana gəlməsini şərtləndirən ictimai–siyasi amillər…......……... | 128 |
| 2.1.2. | XIX əsrin birinci yarısında ictimai–siyasi fikrin inkişafına maarifçiliyin təsiri………........……....…... | 130 |
| 2.1.3. | Mirzə Cəfər Topçubaşovun siyasi baxışları…................... | 132 |
| 2.1.4. | Abbasqulu ağa Bakıxanovun ictimai–siyasi ideyaları…... | 133 |
| 2.1.5. | Mirzə Şəfi Vazehin əsərlərində dövrün ictimai siyasi ideyaları və motivlərinin əks olunması……….................. | 141 |
| 2.1.6. | Mirzə Kazım bəyin XIX əsrdə Azərbaycanın ictimai-siyasi fikrinin inkişafında yeri………........……........… | 142 |

2.1.7. İsmayıl bəy Qutqaşınlının maarifçilik dünyagörüşü…....... 145
2.1.8. Mirzə Fətəli Axundovun sosial-siyasi baxışları............... 146
2.1.9. Şeyx Cəmaləddin Əfqaninin maarifçilik və demokratik islahatçılıq fəaliyyəti………..….……......…………...... 149
2.1.10. Həsən bəy Zərdabinin ictimai–siyasi baxışları................. 158

**2.2. XIX əsrin sonları – XX əsrin əvvəllərində milli şüurun və millətin formalaşmasına mətbuatın təsiri.... 163**
2.2.1. XIX əsrin sonları – XX əsrin əvvəllərində ictimai–siyasi fikrin formalaşmasında milli burjuaziyanın və ziyalıların rolu……............................................................... 163
2.2.2. "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarının milli–siyasi oyanışa təkanverici təsiri………..……................... 165

**2.3. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi fikrinə türkçülük və islamçılıq ideyalarının təsiri**......................................... 169
2.3.1. Əli bəy Hüseynzadənin ictimai-siyasi baxışlarında türkçülük, islamçılıq və müasirlik.................................... 170
2.3.2. Əhməd bəy Ağayevin (Ağaoğlu) ictimai–siyasi baxışları. 173

**2.4. XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə şəraitində və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir**.............................................................. **176**
2.4.1. XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai təşkilatların və siyasi partiyaların formalaşması............… 176
2.4.2. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir........................................................................... 181
2.4.3. 1918-ci ildə Azərbaycan dövlətçiliyinin bərpasından sonra ictimai-siyasi şərait................................................ 185
2.4.4. Azərbaycan Xalq Cümhuriyyəti Parlament və hökumətinin elm, təhsil, mədəniyyət və demokratik cəmiyyət quruculuğu sahəsində gördüyü işlər.................. 192
2.4.5. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının ictimai-siyasi baxışları.........……………………........…………… 199

2.4.5.1. Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi ideyaları... 199
2.4.5.2. Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyəti..... 209
2.4.5.3. Fətəli xan Xoyskinin dövlət quruculuğu fəaliyyəti........... 217
2.4.5.4. Nəsib bəy Yusifbəylinin Cümhuriyyət quruculuğunda xidmətləri……….......…...…………..........................……….... 222
2.4.5.5. Mirzə Bala Məmmədzadənin ictimai–siyasi baxışları....... 225
2.4.6.6. Üzeyir bəy Hacıbəylinin ictimai–siyasi fəaliyyəti……….... 229
2.4.5.7. Ceyhun bəy Hacıbəylinin ictimai–siyasi fəaliyyəti........... 233

**2.5. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrdə ictimai–siyasi fikir**............................... **236**
2.5.1. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet rejiminə qarşı müqavimət hərəkatı.......................... 236
2.5.2. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevizmə qarşı mübarizədə siyasi təşkilatların gizli fəaliyyəti.......................................................................... 240
2.5.3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətdə olan liderlərin siyasi fəaliyyəti...................... 245
2.5.4. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının mühacirət mətbuatında siyasi təbliğatı............................................. 250

**2.6. XX əsrin birinci yarısında Cənubi Azərbaycanda milli–azadlıq hərəkatı və ictimai–siyasi fikir**................ **252**
2.6.1. XX əsrin birinci yarısında Cənubi Azərbaycanın ictimai–siyasi fikir tarixində milli–azadlıq mübarizəsinin başlıca yer tutması.................................................................... 252
2.6.2. Səttar xanın başçılığı ilə Təbriz milli-azadlıq hərəkatının Cənubi Azərbaycanda xalqın ictimai–siyasi fikrinə təsiri.. 254
2.6.3. Şeyx Məhəmməd Xiyabaninin ictimai–siyasi baxışları və azadlıq ideyaları...................................………...….... 261
2.6.4. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə yaradılan Cənubi Azərbaycan Milli Hökümətinin sosial–siyasi və mədəni quruculuq işləri…........................................................... 266

**2.7. Sovet hakimiyyəti dövründə Azərbaycanda ictimai-siyasi fikir**...................................................................... **269**
2.7.1. Azərbaycanda Sovet hakimiyyəti illərində ictimai–siyasi fikrin marksizm–leninizm təliminin təsiri altında inkişafı.............................................................................. 269

2.7.2. Sovet hakimiyyəti dövründə Azərbaycanın fəlsəfi və ictimai–siyasi fikir tarixinə aid yazılmış müxtəlif tədqiqat əsərləri........................................................................ 270
2.7.3. XX əsrin sonlarında Azərbaycanda totalitar rejimin iflası, kommunist ideologiyasının süqutu və müstəqillik uğrunda mübarizə şəraitində ictimai–siyasi fikirdə oyanış............................................................................. 274
2.7.4. 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin ictimai–siyasi əhəmiyyəti............................................................. 277

**2.8. XX əsrin sonlarında Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai–siyasi fikir**.......................................... **279**
2.8.1. XX əsrin sonlarında Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai–siyasi şərait.................................................................... 279
2.8.2. Ümummilli lider Heydər Əliyevin ikinci hakimiyyəti dövründə dövlət quruculuğu və islahatçılıq fəaliyyəti....... 282
2.8.3. Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində və inkişaf etdirilməsində Prezident İlham Əliyevin islahatçılıq fəaliyyəti................ 290
2.8.4. Azərbaycan Respublikasında ideoloji və siyasi plüralizm şəraitində müxtəlif ictimai–siyasi baxışların meydana gəlməsi və çoxpartiyalılıq.............................................. 295
2.8.5. 1991-ci ildə müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycanın ictimai–siyasi fikir tarixi ilə bağlı dərc olunmuş tədqiqat əsərləri.............................................. 303
2.8.6. Azərbaycan dövlətinin multikulturalizm və tolerantlıq siyasəti........................................................................ 306

**Azərbaycanın siyasi təlimlər tarixi fənni üzrə imtahan sualları**............................................................ 320

**Azərbaycanın siyasi təlimlər tarixi fənni üzrə testlər**... 325

**İstifadə olunmuş ədəbiyyat siyahısı**................................ 348

# Giriş

Azərbaycanın siyasi təlimlər tarixi xalqımızın, dövlətçiliyimizin çoxəsrlik tarixinin mühüm və ayrılmaz hissəsini təşkil edir. Siyasi təlimlərin meydana gəlməsi və təkamülü prosesi öz başlanğıcını qədim dövrlərdə Azərbaycan xalqının şifahi yaradıcılığındakı miflərdən, əfsanələrdən, rəvayətlərdən, "Avesta"dan, "Kitabi-Dədə Qorqud"dan, Azərbaycanın ilk dövlət qurumları olan Aratta, Lullubi, Kuti, Manna, Atropatena və Albaniyadan götürərək bugünümüzədək uzun və mürəkkəb bir inkişaf yolu keçmişdir.

Azərbaycanın siyasi təlimlər tarixi Sovet dövründə qeyri-obyektiv elmi əsaslarla, birtərəfli, qərəzli və yaxud bolşevizm ideologiyasının təsiri altında araşdırılmışdır. Bu dövrdə ali məktəblərdə "Azərbaycanın siyasi təlimlər tarixi" fənni tədris olunmurdu. Yalnız, Azərbaycanın müstəqillik əldə etməsindən sonra siyasi təlimlər tarixinin tədqiqi ilə bağlı obyektiv şərait yarandı, bunun nəticəsində Azərbaycanın siyasi təlimlər tarixinin qaranlıq səhifələri üzərinə işıq düşdü, bu məsələ ilə bağlı çoxsaylı elmi-tədqiqat əsərləri meydana gəldi və bu vaxtdan etibarən "Azərbaycanın siyasi təlimlər tarixi" ayrıca bir fənn kimi universitetlərdə tədris olunmağa başlandı.

Dərslik iki bölmədən ibarətdir:

**"Azərbaycanın qədim və orta əsrlər dövründə siyasi ideyalar"** adlanan birinci bölməyə doqquz mövzu daxildir. Bu bölmə Azərbaycanın ən qədim dövrlərindən başlayaraq XIX əsrə qədər olan dövrünü əhatə edir. Birinci bölmədə Azərbaycanda siyasi ideyaların meydana gəlməsi, təşəkkülü və inkişafı ilə bağlı məsələlər öz əksini tapmışdır. Əsasən, Azərbaycanın şifahi xalq ədəbiyyatında, müxtəlif dini dünyagörüşlərində, xüsusilə də zərdüştlüyün müqəddəs kitabı "Avesta"da, İslamın müqəddəs kitabı "Quran"da, müxtəlif ictimai-siyasi cərəyanlarda, ayrı-ayrı dövrlərdə yaşamış görkəmli mütəfəkkirlərin baxışlarında olan ictimai-siyasi ideyaların şərhinə geniş yer verilmişdir.

Dərsliyin ikinci bölməsi **“Azərbaycanın yeni və ən yeni dövrlərində siyasi təlimlərin formalaşması**” adlanır. Səkkiz mövzudan ibarət olan ikinci bölmə XIX əsrin əvvəllərindən bugünümüzədək olan dövrü əhatə edir.

İkinci bölmədə XIX əsrdə ictimai-siyasi fikrin inkişafında böyük xidmətləri olmuş maarifçilərin, xüsusilə də Mirzə Şəfi Vazehin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun, Şeyx Cəmaləddin Əfqaninin, Mirzə Cəfər Əlimərdan oğlu Topçubaşovun, Mirzə Kazım bəyin, İsmayıl bəy Qutqaşınlının və Həsən bəy Zərdabinin ideya və baxışları verilmişdir. Qeyd etmək lazımdır ki, indiyədək dəsrsliklərdə öz əksini tapmayan və XIX əsr maarifçiləri işərisində özünəməxsus yeri olan, panislamizm ideologiyasının banisi Şeyx Cəmaləddin Əfqaninin demokratik, maarifçilik və islahatçılıq fəaliyyətinə xüsusi diqqət yetirilmişdir.

İkinci bölmədə həmçinin, XIX əsrin sonları, XX əsrin əvvələrində mövcud olan türkçülük, islamçılıq, azərbaycançılıq ideyalarına mühüm yer verilmişdir. Bu bölmədə XIX əsrin sonları, XX əsrin əvvələrində milli şüurun oyanışına müsbət təsir göstərən milli mətbuatın, xüsusiə də “Əkinçi”, “Kaspi”, “Açıq söz” və s. qəzetlərinin, “Füyuzat” və “Molla Nəsrəddin” jurnallarının rolunun mütərəqqi təsiri göstərilmişdir. Milli demoratik ideyaların yayılmasında böyük xidmətləri olan Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev (Ağaoğlu), Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Mirzəbala Məmmədzadə, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları və digər görkəmli şəxsiyyətlərin ictimai-siyasi fəaliyyətlərinə geniş yer verilmişdir.

İkinci bölmədə Azərbaycan Xalq Cümhuriyyətinin demokratik və dövlət quruculuğu fəaliyyətinə, eləcə də Azərbaycan Xalq Cümhuriyyəti qurucularının mühacirətdəki ictimai-siyasi fəaliyyətlərinə də ayrıca mövzular verilmişdir.

Bu bölmədə həmçinin, Sovet dövrünün mütəfəkkirlərinin ictimai-siyasi baxışları qiymətləndirilmiş, xüsusilə də Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixi elminin əsasını qoyan akademik Heydər Hüseynovun baxışları öz əksini tapmışdır.

Dərsliyin ikinci bölməsində Cənubi Azərbaycanda ictimai-siyasi fikrin inkişafı məsələləri diqqətdən kənarda qalmamışdır. Cənubi Azərbaycanın ictimai-siyasi fikir tarixinə aid "XX əsrin I yarısında Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı və ictimai-siyasi fikir" adlı mövzu salınmışdır. Bu mövzuda Səttar xanın, Şeyx Məhəmməd Xiyabaninin və Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatına və ictimai-siyasi ideyalarına da xüsusi diqqət yetirilmişdir.

İkinci bölmədəki "Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai-siyasi fikirdə oyanış" adlı mövzusunda müstəqillik əldə edildikdən sonrakı dövr, xüsusilə də Ümummilli lider Heydər Əliyevin demokratik, hüquqi və milli dövlət quruculuğu fəaliyyətinə geniş yer verilmişdir. Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində və inkişaf etdirilməsində prezident İlham Əliyevin islahatçılıq fəaliyyəti öz əksini tapmışdır.

Dərslik hazırlanarkən Azərbaycan Xalq Cümhuriyyətinin quruculları – Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Əhməd bəy Ağaoğlunun, Əlibəy Hüseynzadənin və digər ictimai–siyasi xadimlərin əsərlərindən, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iki cildlik stenoqrafik hesabatından, iki cildlik Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasından, yeddi cildlik "Azərbaycan tarixi"ndən, iki cildlik "Azərbaycan Republikasının tarixi"ndən, Azərbaycan tarixi ilə bağlı müxtəlif kitablardan, "Azərbaycan fəlsəfəsi tarixi"nin birinci və ikinci cildlərindən, Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyindən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İnkişaf – məqsədimizdir" çoxcildliyindən, akademik Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən", akademik Ziya Bünyadovun "Qırmızı terror", akademik Ramiz Mehdiyevin "Azərbaycanın inkişaf dialektikası", "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik: Demokratik inkişaf və müxalifət", "Fəlsəfə", "Milli məfkurə,

dövlətçilik, müstəqillik yolu ilə”, “Vətəndaş cəmiyyətinə yol açan ideyalar”, “Demokratiya yolunda: irs haqqında düşünərkən”, “İctimai və humanitar elmlər: zaman kontekstində baxış”, “Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu”, “Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti”, “Tarixi idrakın elmiliyi problemlərinə dair”, “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında”, akademik Urxan Ələkbərovun “Davamlı insan inkişafının əsasları”, “İnklüziv inkişafın idarə edilməsinin əsasları”, akademik Nizami Cəfərovun “Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri”, “Azərbaycanşünaslığa giriş”, akademik Kamal Abdullanın “Mifdən yazıya və yaxud Gizli Dədə Qorqud”, Əlikram Abdullayevin “İnsan hüquqları: beynəlxalq və milli müdafiə mexanizmləri”, Etibar Nəcəfovun “İctimai elmlərdə akademik yazı və tədqiqat metodları”, Ağababa Rzayevin “Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi (mənbələrdən XX əsrədək)”, Yusif Rüstəmovun “Siyasi–hüquqi təlimlər tarixi”, Məcid Əfəndiyevin “Siyasi elmin əsasları”, “Siyasi və hüquqi təlimlər tarixi”, Aydın Mirzəzadənin “Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri”, “Yeni Azərbaycan Partiyası: yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri”, “Heydər Əliyev siyasi irsinin politoloji aspektləri”, Şamil Vəliyevin “Füyuzat ədəbi məktəbi”, Aydın Balayevin “1917–1918-ci illərdə Azərbaycan milli hərəkatı”, Fuad Məmmədovun “İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi”, “Kulturologiya Mədəniyyət Sivilizasiya”, Xaqani Məmmədovun “Azərbaycan milli hərəkatı 1875–1918-ci illər”, Məmmədəli Zeynalovun “Xarici ölkələrin fəlsəfə tarixi”, Xaləddin İbrahimlinin “Azərbaycan siyasi mühacirəti”, Nəsiman Yaqublunun “Məhəmməd Əmin Rəsulzadə”, “Cümhuriyyət qurucuları”, Rahib Əkbərovun “Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hüquq tarixi” və s. tədiqiqat əsərlərindən geniş istifadə olunmuşdur.

Azərbaycanın siyasi təlimlər tarixi uzun bir dövrü əhatə etdiyinə görə dərslikdə çatışmamazlıqlar ola bilər. Ona görə də dərsliklə bağlı qeydlərinizi, arzu və təkliflərinizi Azərbaycan

Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Fəlsəfə və sosial psixologiya" kafedrasına göndərə bilərsiniz.

Ali təhsil məktəblərinin müvafiq kafedraları dərslikdə göstərilən mövzuları müxtəlif ixtisaslar üzrə təsdiq olunmuş tədris planlarında "Azərbaycanın siyasi təlimlər tarixi" fənninə ayrılan saatların miqdarına uyğun olaraq tədris edə bilərlər.

Fənnin yeni tədris olunduğunu və fənlə bağlı tədris–metodik vəsaitlərinin azlığını nəzərə alaraq, "Azərbaycanın siyasi təlimlər tarixi" fənni üzrə dərsliyin hazırlanmasını vacib hesab etdik. Dərslik ali məktəblərdə ictimai və humanitar ixtisaslar üzrə təhsil alan bakalavrlar üçün nəzərdə tutulsa da, ondan magistrantlar, doktorantlar, müəllimlər və bu sahə ilə maraqlanan şəxslər də faydalana bilərlər.

**Azərbaycanın siyasi təlimlər tarixi**fənninin (HS 050208 – Politologiya ixtisası üzrə) mövzular üzrə dərs saatlarının bölgüsü:

| № | Mövzular | Auditoriya saatları | | |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | **Cəmi** |
| 1. | "Azərbaycanın siyasi təlimlər tarixi" fənninin predmeti və tədqiqat sahəsi | 2 | 2 | 6 |
| 2. | Azərbaycanın şifahi xalq ədəbiyyatında siyasi ideyaların yaranması | 2 | | |
| 3. | "Avesta" Azərbaycan xalqının ictimai-siyasi fikir abidəsi kimi | 2 | 2 | 6 |
| 4. | "Kitabi–Dədə Qorqud" dastanında Azərbaycan xalqının ictimai–siyasi baxışlarının əks olunması | 2 | | |
| 5. | Azərbaycanın ilk dövlət qurumlarında ictimai–siyasi ideyaların meydana gəlməsi | 4 | 2 | 6 |
| 6. | Azərbaycanda İslama qədərki dövrdə ictimai–siyasi ideyalar | 4 | 2 | 6 |
| 7. | VII–X əsrlərdə Azərbaycanda İslam dininin yayılması nəticəsində yaranan yeni ictimai–siyasi təlimlər | 4 | 2 | 6 |
| 8. | XI–XIV əsrlərdə Azərbaycanda ictimai–siyasi təlimlərin inkişafı | 4 | 2 | 6 |
| 9. | XV–XVIII əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişaf xüsusiyyətləri | 4 | 2 | 6 |
| 10. | XIX əsrdə ictimai-siyasi fikrin inkişafında maarifçiliyin rolu | 4 | 2 | 6 |
| 11. | XIX əsrin sonları – XX əsrin əvvəllərində milli şüurun və millətin formalaşmasına mətbuatın təsiri | 4 | 2 | 6 |
| 12. | XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi fikrinə türkçülük və islamçılıq ideyalarının təsiri | 4 | 2 | 6 |
| 13. | XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə şəraitində və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir | 4 | 2 | 6 |
| 14. | Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrdə ictimai-siyasi fikir | 4 | 2 | 6 |
| 15. | XX əsrin birinci yarısında Cənubi Azərbaycanda milli–azadlıq hərəkatı və ictimai–siyasi fikir | 4 | 2 | 6 |
| 16. | Sovet hakimiyyəti dövründə Azərbaycanda ictimai-siyasi fikir | 4 | 2 | 6 |
| 17. | XX əsrin sonlarında Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai–siyasi fikir | 4 | 2 | 6 |
| | **Cəmi** | **60** | **30** | **90** |

# I BÖLMƏ
# AZƏRBAYCANIN QƏDİM VƏ ORTA ƏSRLƏR DÖVRÜNDƏ SİYASI İDEYALAR

## 1.1. Azərbaycanın siyasi təlimlər tarixi fənninin predmeti və tədqiqat sahəsi

Azərbaycanın siyasi təlimlər tarixinin bir fənn kimi meydana gəlməsi, təşəkkülü, inkişafı, hədləri və imkanlarının öyrənilməsi, həmçinin tədqiq edilməsi olduqca aktualdır. Bu baxımdan fənnin tədris olunması zərurəti dövlətçiliyimiz üçün mühüm və əhəmiyyətlidir. Fənnin obyekt və predmetinin özünəməxsus spesifikası vardır.

Azərbaycanın siyasi təlimlər tarixinin öyrənilməsinin mənbələri və qaynaqları qədim dövrlərdən başlayır. Azərbaycan xalqının mifoloji, dini, fəlsəfi, ictimai-siyasi, etik, estetik, hüquqi fikri onun mənəvi mədəniyyətinin tərkib hissəsidir. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixinin formalaşmasında siyasi təlimlər tarixinin yeri və rolu mühümdür.

İctimai–siyasi fikir tarixi hər bir xalqın meydana gəlməsini, inkişafını, onun yüksəliş və süqutunu, çiçəklənməsi və faciəsini əks etdirən güzgüsüdür. Minilliklər ərzində bir çox dövlətlər süquta uğramış, onların xarabalıqları üzərində yeni dövlətlər meydana gəlmişdir.

Xalqın tarixi haqqında biliklər onun mədəniyyətinin doğru-düzgün göstəricisidir. Tarix bizə hər şeyə kor-koranə və sözsüz inanmamağı, həqiqəti yalandan, mif və əfsanələri real gerçəklikdən fərqləndirmək bacarığına malik olmağı öyrədir.

Tarix xalqları öz ibrət dərsləri ilə tərbiyə edir, həqiqi olanı qiymətləndirməyi, gələcəyi görməyi öyrədir. O, insanlara məhəbbət və doğma xalqın şanlı həyat səhifələrinə, milli adət-ənənələrinə, qələbələrinə hörmət bəsləməyi aşılayır, yaxşı olanların hamısının qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsini öyrədir.

Siyasi təlimlər tarixi, həmçinin bir elm kimi keçmiş nəsillərin faciəli səhvlərinin təkrar olunmamasını da öyrədir. Tarixin dərsləri ondan ibarətdir ki, insanlar keçmiş hadisələrdən özlərinə nəticə

çıxarmağı öyrənsinlər. Tarix xalqın intellektual potensialı haqqında şahidlik edir, keçmişi təhlil edərək onun müasirliklə müqayisə edilməsinə imkan yaradır.

Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixində onun fəlsəfi, ictimai–siyasi, sosioloji fikri mühüm yer tutur. Azərbaycan xalqının ictimai–siyasi fikrinin bir çox əsrlər boyu mövcud olmasına və inkişaf etməsinə baxmayaraq ictimai–siyasi fikir tarixi hələ gənc elmdir. Bu sahədə elmi–tədqiqat işləri keçmiş sovet hakimiyyəti dövründən başlamışdır, hazırda isə Azərbaycan xalqının fəlsəfi, ictimai–siyasi və sosioloji fikir tarixinin öyrənilməsinin ilkin addımları atılır.

Azərbaycanın ictimai–siyasi fikir sahəsindəki irsinin tədqiqi göstərir ki, Azərbaycan xalqının fəlsəfi, sosioloji, ictimai–siyasi, etik və estetik fikri bir çox əsrlər ərzində onun mənəvi mədəniyyətinin ən mühüm tərkib hissəsi olmuşdur və ümumdünya fəlsəfi, ictimai–siyasi fikir tarixinin ayrılmaz hissəsi kimi inkişaf edir.

Məlumdur ki, Azərbaycan Ön Asiya ölkələrinin ən qədim və zəngin ölkələrindən biri kimi bir sıra əlverişli tarixi şərait nəticəsində iqtisadi və mədəni yüksəlişə nail olmuşdur. Azərbaycan müxtəlif tarixi dövrlərdə özünəməxsus dövlətçilik ənənələrinə malik olmuş mədəniyyət mərkəzlərindən biridir.

### 1.1.1. Azərbaycanın siyasi təlimlər tarixinin dövrləşdirilməsi və mərhələləri

Azərbaycan xalqının ictimai–siyasi fikir tarixi başqa xalqlarda olduğu kimi müxtəlif dövrlərə bölünür:

***Birinci dövr*** – Ən qədim zamandan başlayaraq dövlət qurumlarının yaranması və formalaşması dövrünədək olan mərhələni əhatə edir. Bu dövrdə ibtidai–icma quruluşu dağılır, sinifli cəmiyyət bərqərar olur, inkişaf edir, eyni zamanda bu dövrdə sinifli cəmiyyətin ictimai–siyasi fikri yaranır və formalaşır. Ümumiyyətlə Azərbaycan xalqının ictimai siyasi fikirləri və ideyaları ən qədim dövrlərdən miflərin, əfsanələrin, deyimlərin

əsasında yaranmşdır. Qədim Azərbaycanın ictimai–siyasi fikir tarixi üzrə bizə gəlib çatan mənbələr olduqca azlıq təşkil edir. Bu dövrün ictimai–siyasi fikir tarixinin öyrənilməsi üçün başlıca ədəbi mənbə o dövrün ictimai–siyasi, mənəvi dünya görüşlərini özündə ifadə edən, Yaxın və Orta Şərq xalqlarının qədim dini-ədəbi abidəsi olan "Avesta"dır.

Azərbaycan ictimai–siyasi fikir tarixində digər mühüm mənbə "Kitabi–Dədə Qorqud" dastanıdır.

Qədim dövrün mühüm mənbələrindən birini də folklor təşkil edir. Azərbaycan xalqı bir çox yüzilliklər ərzində yadelli işğalçılara qarşı mübarizədə miflər, nağıllar, dastanlar, əfsanələr, aforizmlər və şifahi xalq ədəbiyyatının müxtəlif növlərini yaratmışlar.

Azərbaycan xalqının ictimai–siyasi fikrinin ilk mərhələsindəki inkişafına zərdüştlük, zərvanizm və başqa ideya cərəyanlarının böyük təsiri olmuşdur. Bütün bu cərəyanların hamısı həmin dövrün qabaqcıl ictimai təbəqələrinin baxışlarında aydın şəkildə əks olunmuşdur.

***İkinci dövr*** – Azərbaycan xalqının ictimai–siyasi fikir tarixinin öyrənilməsində orta əsrlər feodalizm dövrünün mənbələri xüsusi əhəmiyyət kəsb edir. Bu dövr Azərbaycan xalqının ictimai–siyasi və fəlsəfi fikir tarixinin ən mühüm dövrlərindən birini təşkil edir. Məhz bu dövrdə fəlsəfi, ictimai–siyasi, sosioloji baxışlar, elmi təlimlər meydana gəlmiş və inkişaf etmişdir. Azərbaycanın ictimai–siyasi fikir tarixinin öyrənilməsində İslam dininin mühüm rolu olmuşdur.

Azərbaycanın, Yaxın və Orta Şərq xalqlarının ictimai-siyasi fikir tarixində mühüm yer tutan maniçilik (III əsrin sonu), məzdəkizm (V əsr) və xürrəmilər hərəkatının (IX əsr) ideyaları olduqca qiymətli mənbələrdir.

Orta əsrlər dövründə Azərbaycanın fəlsəfi, ictimai–siyasi fikrinin başlıca nümayəndələri mühüm fəlsəfi, idealoji-siyasi təlimlər yaratmışlar. Əbülhəsən Bəhmanyar (XI əsr), Şihabəddin Yəhya Şührəvərdi (XII əsr), Əfzələddin Xünəci (XII–XIII əsr), Şiracəddin Urməvi (XII–XIII əsr), Eynəlqüzat Miyanəci (XI əsr), Nəsirəddin Tusi (XIII əsr), Xaqani Şirvani (XII əsr), Nizami Gəncəvi (XII əsr), Mahmud Şəbüstəri (XIII əsr), Məhəmməd Fizuli

(XVI əsr), Yusif Qarabaği (XVII əsr), Hacı Zeynalabdin Şirvani (XVIII əsr) və b. bu dövrün dünya şöhrətli mütəfəkkirləridir. Bu mütəfəkkirlərin əsərlərində həmin dövrün ictimai–siyasi mənzərəsi tam aydınlıqla verilmişdir.

***Üçüncü dövr*** – XIX əsrin 30-cu illərindən Azərbaycanın siyasi təlimlər tarixində yeni dövr başlıyır. Bu dövrdə Azərbaycanda maarifçiliyinin inkişafında Mirzə Şəfi Vazehin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun, Mirzə Kazım Bəyin, İsmayıl bəy Qutqaşınlının, Şeyx Cəmaləddin Əfqaninin və Həsən bəy Zərdəbanin böyük xidmətləri olmuşdur.

***Dördüncü dövr*** – XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın siyasi təlimlər tarixi özünün daha bir yeni, mütərəqqi dövrünə daxil olur. Bu dövrün özünəməxsusluğu ondan ibarətdir ki, XIX əsrin əvvəllərində iki hissəyə parçalanaraq İran və Rusiya imperiyalarının müstəmləkəsinə çevrilən Azərbaycanın həm Cənubunda İran imperiyasına qarşı, həm də Şimalında Rusiya imperiyasına qarşı milli–azadlıq və demokratik hərəkat başladı. Bu dövrdə Cənubi Azərbaycanda Səttar Xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə milli azadlıq hərəkatları baş verdi, lakin bu milli azadlıq mübarizəsi süquta uğradıldı.

***Beşinci dövr*** – 1918-ci il may ayının 28-də Şimali Azərbaycanda milli–azadlıq hərəkatı qələbə çaldı və müstəqillik əldə edildi. Bununla da, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. 1828-ci ildən sonra dövlət müstəqilliyi bərpa edildi və Azərbaycanın milli liderləri dövlətçiliyin milli ideologiyasını yaratdılar. Azərbaycanın dövlət xadimlərinin, o cümlədən, demokratik və maarifçilik hərəkatının görkəmli nümayəndələrinin əsərləri, AXC-nin rəsmi dövlət sənədləri həmin dövrün ictimai-siyasi fikir tarixinin öyrənilməsində qiymətli mənbələrdir. Bu dövrdə Cənubi Azərbaycanda Səttar xanın, Şeyx Məhəmməd Xiyabaninin və Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə milli-azadlıq hərəkatları baş verdi.

***Altıncı dövr*** – XX əsrin əvvəllərindən başlayaraq marksizm təlimi Şimali Azərbaycanda yayılmağa başladı. Bu təlim inkişaf səviyyəsinə görə Azərbaycanın Sovet imperiyasının tərkibinə qatılmasından sonra (1920-ci il 28 aprel) özünün yüksək zirvəsinə

çatdı və 1991-ci ildə sovet imperiyasının çökməsi ilə süquta uğradı.

***Yeddinci dövr*** – XX əsr Azərbaycanın ictimai–siyasi fikir tarixində mühüm bir mərhələni Sovet imperiyasına qarşı aparılan milli–azadlıq hərəkatı təşkil edr. Bu mərhələ 1988–1991-ci illəri əhatə edir.

***Səkkizinci dövr*** – Nəhayət, Azərbaycanın siyasi təlimlər tarixinin sonuncu və ən mühüm mərhələsi – 18 oktyabr 1991-ci il – Azərbaycanın müstəqillik əldə etdiyi, demokratik, hüquqi dövlət quruculuğuna qədəm qoyduğu vaxtdan bugünə qədərki mərhələsidir. Müstəqilliyimizin bu dövrü də bir neçə kiçik mərhələlərə ayrılır.

Müstəqillik əldə etdikdən sonra dövlətçiliyimiz üçün bir sıra mühüm hüquqi aktlar, 1995-ci ilin noyabrında isə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Konstitusiyada dövlətin suverenliyi, əsas hüquqi, siyasi, iqtisadi təminatlarına aid olan məsələlər öz əksini tapdı. Azərbaycan Respublikası beynəlxalq təşkilatların tam hüquqlu subyekti oldu.

Azərbaycanın siyasi təlimlər tarixinin xronoloji ardıcıllıqla öyrənilməsi həm uyğun dövrlərin mütəfəkkirlərinin portretlərinin, həm də həmin dövrlərin əhəmiyyətli və təsiredici məktəb və cərəyanlarının xarakteristikalarının araşdırılmasına yönəldilmişdir.

Keçmiş sovet dövründə Azərbaycanın siyasi təlimlər tarixinin müxtəlif dövrlərində yaşamış ayrı–ayrı mütəfəkkirlərin baxışları təhrif olunmuş və saxtalaşdırılmışdır. Ümumiyyətlə, Azərbaycanın siyasi təlimlər tarixinin öyrənilməsi XX əsrin 40-cı illərindən başlamış və az tədqiq olunmuş sahədir. Hazırda ictimai elmlərin qarşısında Azərbaycanın siyasi təlimlər tarixində boş qalmış ağ səhifələrin doldurulması vəzifələri durur.

Azərbaycanın siyasi təlimlər tarixi elmi bir sıra sosial elmlərlə sıx surətdə qarşılıqlı əlaqədədir. "Azərbaycanın siyasi təlimlər tarixi" elmi "Tarix", "İctimai hərəkatlar və siyasi partiyalar tarixi", "Fəlsəfə", "Fəlsəfə tarixi", "Sosiologiya", "Sosiologiya tarixi", "Politologiya", "Hüquq", "Siyasi–hüquqi təlimlər tarixi", "Ədəbiyyat", "Kulturologiya" və s. sosial elmlərlə qarşılıqlı əlaqədədir. Onun sosial–siyasi elmlər sistemində özünəməxsus yeri və rolu vardır. Azərbaycanın siyasi təlimlər tarixi "Fəlsəfə" elminin tərkib hissəsi və mühüm sahəsidir. Buna görə də o, "Fəlsəfə" və

"Fəlsəfə tarixi" elmi ilə daha sıx bağlıdır. Çünki, hər bir dövrün ictimai–siyasi durumu həmin dövrdə yaşamış mütəfəkkirlərin, filosofların ideyalarında və baxışlarında öz əksini tapmışdır.

Azərbaycanın siyasi təlimlər tarixinin tədqiqində sosioloji və politoloji tədqiqat metodlarından da geniş istifadə olunur.

Azərbaycanın dövlətçilik ənənələrinin öyrənilməsində və Azərbaycan xalqının milli–mənəvi irsinin tədqiq edilib aşkara çıxarılmasında Azərbaycanın siyasi təlimlər tarixi fənninin xidmətləri böyükdür.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. "Azərbaycanın siyasi təlimlər tarixi" fənninin predmeti və tədqiqat sahəsi
2. Azərbaycanın siyasi təlimlər tarixinin dövrləşdirilməsi və mərhələləri
3. Azərbaycanın siyasi təlimlər tarixinin ictimai və humanitar elmlərlə qarşılıqlı əlaqəsi

## 1.2. Azərbaycanın şifahi xalq ədəbiyyatında siyasi ideyaların yaranması

Azərbaycanın siyasi təlimlər tarixi elmi öz başlanğıcını miflərdən, əfsanələrdən, dastanlardan, nağıllardan və rəvayətlərdən götürür. Onlarda ilk dəfə Azərbaycan xalqının qədim nəsillərinin ictimai-siyasi baxışlarının əsası qoyulmuşdur.

Miflər, əfsanələr, deyimlər, nağıllar və dastanlar "Azərbaycanın siyasi təlimlər tarixi" elminin öyrənilməsinin qədim mənbələridir. Azərbaycanın xalq yaradıcılığında əşyaların, predmetlərin və hadisələrin ictimai-siyasi və fəlsəfi mahiyyəti açılır. Azərbaycan xalqının folklorunda xalqın ümumiləşdirilmiş həyat təcrübəsi və dövrün ictimai–siyasi mənzərəsi əks olunmuşdur.

Miflərdə, əfsanələrdə, rəvayət, nağıl və dastanlarda insanlararası münasibətlərin, insanların davranışlarının forma və növləri, dini və dünyəvi xarakterli qanunların müxtəlif aspektləri öz

əksini tapmışdır. Bu miflər, əfsanələr və rəvayətlərdə müəyyən sosial institutlara aid olan ailənin, qəbilənin, tayfanın, nigah münasibətlərinin, müharibə, sülh və ədalət məsələləri geniş şəkildə əks olunmuşdur.

Həyat və təbiət haqqında ilkin təsəvvürlər şifahi ədəbi nümunələrdə və mifologiyada öz ifadəsini tapmışdır. Qədim dövrlərin xalq yaradıcılığında ətraf aləmdə baş verən hadisələr əks edilmişdir. Xalqın folklor nümunələrində müxtəlif ictimai–siyasi konsepsiyaların tarixi prosesə əhəmiyyətli təsiri olmuşdur.

Azərbaycanda ictimai-siyasi baxışlar bütün qədim xalqlarda olduğu kimi müstəqil dünyagörüşü olaraq tez bir zamanda yaranmamışdır. İctimai-siyasi baxışlar və ideyalar əsrlərin uzunmüddətli gedişində yaranmış və inkişaf etmişdir.

Azərbaycan xalqının ilk ictimai-siyasi ideyaları əsrlər boyu nəsillərdən-nəsillərə ötürülən müxtəlif miflərin, əfsanələrin və deyimlərin yaranması nəticəsində meydana gəlmişdir. Azərbaycan xalqının şifahi yaradıcılığında xalq müdrikliyi özünün parlaq ifadəsini daha geniş tapmışdır. Onlarda ictimai həyatın yoxlanılmış və əsrlər boyu sınaqlardan çıxmış qanunları öz əksini tapmışdır.

Azərbaycan folkloru, başqa xalqların folkloru kimi xalqın ümumiləşdirilmiş həyat təcrübəsidir. Bu xalq yaradıcılığında cəmiyyət hadisələrinin fəlsəfi mahiyyəti açılır.

Folklor keçmiş haqqında özünəməxsus informasiya formasıdır, mütləq norma və qaydalar mənbəyidir. İctimai və siyasi təlimlər ciddi və xüsusi mənada yalnız ilkin sinifli cəmiyyətin və dövlətin uzunmüddətli mövcudluğu gedişində meydana çıxmışdır. Nəzəri planda ictimai-siyasi təlimlər (ictimai-siyasi nəzəriyyələr) insan idrakının və fəlsəfənin genezisinin rasionallaşmasının ümumi prosesi gedişində baş verir. İctimai-siyasi baxışların bu proses çərçivəsində inkişaf etməsi miflərin ümumdünyagörüşü vəziyyətinin ilkin aspektidir.

Qədim dövrün ictimai-siyasi tarixinin öyrənilməsi üçün miflərə, əfsanələrə və deyimlərə müraciət onunla bəraət qazanır ki, onlarda dini baxışlarla yanaşı, mövcud dövrün ictimai-siyasi baxışlarının öyrənilməsi zamanı xarakterik olan zəngin məlumatlar olduqca qiymətlidir. Xalqın ictimai-siyasi baxışlarının folklorda əks

olunması müxtəlif tarixi şəraitlərdə xalqın şüurunun təkamülünün mürəkkəb prosesidir. Folklor nümunələrində müxtəlif siyasi konsepsiyalar yaranır və lakonik şəkildə onların tarixi prosesə təsiri baş verir. Onları siyasi əfsanələr, miflər və deyimlər adlandırmaq olar. Ancaq onlardan hər biri ilk növbədə müəyyən iqtisadi, sosial və siyasi şəraitlərdən yaranaraq xalqın şüuruna yeridilir. Xüsusilə, insanların baxışları ibtidai cəmiyyətlərin daxili əlaqələrində ifadə olunmuş miflər, əfsanələr və deyimlərdə güclü olmuşdur. Qəbilənin bir üzvünün təhqir edilməsi bütövlükdə qəbilənin bütün üzvlərinin təhqiri kimi qəbul olunurdu. Qan intiqamı qəbilənin bütün üzvlərinə tətbiq edilirdi.

Folklorun içərisində ən müxtəlif formalarda deyilən sosial utopiya problemləri mühüm yer tutur. Folklor müdrik fikirlərin, müstəqil ideyaların və dəyərlərin ən mühüm ifadə formasına çevrilir. Yalnız miflərdən, əfsanə və rəvayətlərdən toplanmış sosial utopiylar vasitəsi ilə xalqın azadlıq, bərabərlik uğrunda kütləvi hərəkatlara, maddi rifah halına, siyasi azadlığa olan münasibətini düzgün başa düşmək olar.

Azərbaycanın sosial-utopik əfsanələri tarixi optimizm ilə doludur və onlarda mövcud şəraitə qarşı tənqidi münasibət olmaqla yanaşı, hətta mərkəzləşdirilmiş dövlət quruluşunun unifikasiyası öz əksini tapmışdır.

Miflərdə, əfsanələrdə və rəvayətlərdəki ictmai-siyasi fikir tarixini öyrənərkən bir məsələni nəzərə almaq lazımdır ki, onlar ilkin əsaslarında olduqları ilə müqayisədə bizə gəlib çatana qədər xeyli dəyişikliklərə məruz qalmışlar. Onlara bu və ya digər dövrlərin uyğun iqtisadi və siyasi şəraitlərinin əlavələri edilmişdir.

Qədim Azərbaycan mifi “Zərdüştnamə” Zərdüştün fəaliyyəti haqqında eposdur. “Tomris” əfsanəsində isə müharibə və sülh məsələsi, dövlətlərarası münasibətlərdə mübahisəli məsələlərin sülh yolu ilə həlli ideyası irəli sürülmüşdür.

Qədim “Astiaq” əfsanəsi Midiya dövlətində cəmiyyətin sosial vəziyyəti, xalqın ağır güzəranı, hökmdarların zülmü və qeyri-insani hərəkətləri, onların insana nifrət üstündə köklənmiş siyasətləri, hakimiyyət hərisliyi və saraydaxili çəkişmələr haqqında qiymətli

məlumatlar verir. “Astiaq” əfsanəsi hökmdarların qanlı işğalçılıq müharibələrini, acgözlüklərini, vəhşiliklərini açıb göstərir. Bu əfsanədə ölkənin müdafiəsi üçün parçalanmış tayfaların birliyi və döyüş qabiliyyətli ordunun yaradılması ideyaları irəli sürülür. Əfsanədə insanların yüksək əxlaqi keyfiyyətləri qiymətləndirilir.

Xalqın ictmai-siyasi baxışlarının formalaşmasına, həmçinin tayfa adət-ənənələri güclü təsir göstərmişdir. Ailə, qəbilə və xalqın iqtisadi həyatının müxtəlif tərəflərinə aid olan adətlər İslam dininə qədər xeyli inkişaf etmişdir. Adətlərə ictimai münasibətlərin tənzimləyicisi nəzərindən baxsaq, hakim quruluşun dayağı kimi onların rolunun açılmasına zərurət yaranır. Adət və ənənələr sosial-iqtisadi inkişafın, cəmiyyətin siyasi quruluşunun səviyyəsinin öyrənilməsi baxımından əsas mənbə kimi xüsusi dəyərə malikdir.

Azərbaycanın dastan və nağıllarında, həmçinin insanların əxlaqi keyfiyyətləri, xeyir və şər arasında mübarizəsi haqqında məlumatlar verilir. Dastanlarda insanın mənəvi kamilliyi, insan gözəlliyi, əxlaqi keyfiyyətlər aşılanır, zülmə, istismara nifrət oyadılır və hakimlərin ədalətsizliyinə qarşı mübarizə əsas yer tutur. Azərbaycan nağıllarında ənənəvi türk məfkurəsi əsas yer tutur. Məsələn, “Məlikməmməd”, “Tapdıq” və b. nağıllar ilə qədim türk mifləri, hətta “Avesta”dakı süjetlər arasında bağlılıq var. Xeyirlə Şərin mübarizəsi Azərbaycan xalq ədəbiyyatının, xüsusən də dastanların aparıcı prinsiplərindən biridir. Bu cəhətdən “Koroğlu” dastanı daha xarakterikdir.

Azərbaycan atalar sözlərində ictimai-siyasi və əxlaqi fikirlər də qiymətli mənbələrdir. Atalar sözləri dərin sosial-siyasi və fəlsəfi fikirlərlə zəngindir. Burada insan həyatının bütün sahələrinə aid dəyərli tövsiyyələr var. Dostluq, düzgünlük, sədaqət, ədalət mövzusu atalar sözlərində əhəmiyyətli yer tutur. Atalar sözlərində mərdlik, igidlik, zəhmət, vətən, adət, qanun və s. haqqında da müdrik fikirlər var.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. Azərbaycanın şifahi xalq ədəbiyyatında siyasi ideyaların yaranması
2. Miflər, əfsanələr, dastanlar, nağıl və rəvayətlərdə xalqın ictimai-siyasi baxışlarının əks olunması

3. Adət və ənənələrin ictimai–siyasi fikrin formalaşmasına təsiri
4. “Astiaq” və “Tomiris” əfsanələrində müharibə və sülh məsələləri

## 1.3. “Avesta” Azərbaycan xalqının ictimai-siyasi fikir abidəsi kimi

“Avesta” (mənası öyüd-nəsihət vermə, dərk etmə deməkdir) Azərbaycanın, Yaxın və Orta Şərq xalqlarının qədim dini, ədəbi, ictimai–siyasi fikir abidəsidir. “Avesta” Qədim və erkən Orta əsrlər dövründə Azərbaycan xalqının əcdadlarının mənəvi həyatının və ictimai–siyasi baxışlarının öyrənilməsi üçün başlıca mənbədir. “Avesta”nın dini, fəlsəfi, təbii–elmi, sosial–siyasi mahiyyətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. “Avesta”da Azərbaycan xalqının əcdadlarının ictimai–siyasi dünyagörüşünün ümumi əlamətləri əks olunmuşdur.

“Avesta”da bütünlükdə dünyagörüşünün əsasını dualizm ideyası təşkil edir. “Avesta”da müharibə və sülh problemlərinə münasibət, vətəndaş hüququ, ailə–nigah, kişi ilə qadının ailədə və cəmiyyətdə yüksək mövqeyə malik olması məsələlərinə, təhsil, təlim–tərbiyə, cinayət və cəza problemlərinə geniş yer verilmişdir. Güman olunur ki, “Avesta” iki nüsxədə yazılmışdır. Makedoniyalı İsgəndərin hücumu zamanı bir nüsxəsi yandırılmış, digər nüsxəsi isə yunan dilinə tərcümə edilmişdir.

Eramızdan əvvəl VII–VI əsrlərdə meydana gəlmiş Zərdüştlüyün, o cümlədən “Avesta”nın vətəni haqqında ədəbiyyatlarda müxtəlif fikirlər mövcuddur. “Avesta”nın ən böyük tədqiqatçılarından biri olan Aleksandr Osipoviç Makovelskinin və bir sıra başqa tədqiqatçıların qəti gəldikləri fikrə görə zərdüştlüyün və “Avesta”nın vətəni Azərbaycandır. Zərdüştün vətənindən söhbət gedərkən orta əsr müəllifləri, o cümlədən Əhməd Bəlazuri (IX əsr) və Əbu Reyhan Biruni (XI əsr) onun “Azərbaycandan çıxdığını” söyləmişlər. Yaqut Həməvi (1179–1229) Zərdüştün Şizdən olduğunu yazırdı: “Şiz Azərbaycanda nahiyədir. Deyilir: məcusların peyğəmbəri Zərdüşt buralıdır. Bu nahiyənin qəsəbəsi Urmiyadır”. Qütbəddin Şirazi (1236–1311) onu “görkəmli filosof, kamil imam

Zərdüşt Azərbaycani" deyə yad etmişdir. Tanınmış şərqşünas Vilyam Ceksonun (1862–1937) fikrincə Zərdüştlüyün banisi Zərdüşt Azərbaycanda Savalan dağının yaxınlığında doğulmuş, uşaqlıq və gənclik illərini orada keçirtmişdir. Zərdüşt ömrünün ikinci yarısını Baktriyada (Əfqanıstan) sürmüşdür.

"Avesta"nı tədqiq edən alimlərin ən mühüm tədqiqat işlərinə istinad edərək qeyd etmək lazımdır ki, uzun əsrlər ərzində zərdüştlüyün rəhbərləri "Avesta"nın əsas mətninə çoxlu dəyişikliklər, əlavələr etmiş, müxtəlif dövrlərin ictimai-siyasi şəraitindən asılı olaraq onun təlimlərinə yeniliklər gətirmişlər.

İlk dövrlərdə "Avesta" nəsillərdən-nəsillərə keçən şifahi deyimlərdən ibarət olub. Zərdüştlük və "Avesta" tarixinin tədqiqatçıları belə güman edirlər ki, "Avesta" arami əlifbası ilə yazılmış və ehtimal olunur ki, e.ə. V əsrdə, ola bilsin ki, daha əvvəl e.ə. VIII–VII əsrlərdə yazılmışdır, "Avesta"nın bəzi motivləri isə e.ə. II minilliyə qədər gedib çıxır. "Avesta" 12 min inək dərisi üzərində qızıl hərflərlə yazılmışdır.

"Avesta" ilk dövrlərdə şifahi şəkildə yayılmışdır. Ənənəvi məlumata görə onu ilkin yazıya köçürən Zərdüştün katibi və kürəkəni Camasp olmuşdur.

"Avesta"nın qədim hissəsində Zərdüşt real şəxsiyyət, xalqın mənafeyi uğrunda mübarizə aparan insan kimi çıxış edir.

"Avesta" Makedoniyalı İskəndərin Persiyanı işğal etməsinə və "Avesta"nın məhvinə qədər 21 hissədən (nask) ibarət olmuşdur. Bunlardan 7-si dünyanın və insanın yaranması tarixinə, 7-si əxlaq, mülki qanunlar və dini mükəlləfiyyətlərə, 7-si isə tibb və astranomiyaya həsr edilmişdir.

Arşagilər dövründə (e.ə. 250–224) "Avesta" bərpa edilməyə başlanılmış, yenidən yığılmış şerlər birləşdirilmiş və yeni materiallar əlavə edilmişlir. "Avesta"nın toplanması və bərpası sasanilər dövründə (III–VII əsrlərdə) başa çatmışdır. Nəticədə, "Avesta" arami dilində 3 kitabdan, pəhləvi dilində isə 1 kitabdan ibarət olmuşdur.

"Avesta"nın müasir dövrə gəlib çıxmış nüsxəsinin tərkibinə aşağıdakı kitablar daxildir:

– “Avesta”nın I kitabı “Vendidad” (“Devlərin əleyhinə olan Kodeks”) adlanır. Buraya nəsihətlər və göstərişlər daxildir ki, bunların köməyi ilə şər qüvvələrin hərəkətinin qarşısını almaq olar. Vendidad “Avesta”nın bizə bütöv gəlib çıxan yeganə kitabıdır (22 fəsildən – forgerdlərdən ibarətdir). Vendidadın ilk 2 fəslinin məzmununu onun ümumi məzmunu ilə heç bir əlaqəsi olmayan mifoloji material təşkil edir. Onlar qədim etnik və kosmoqonik poeziyanın qalıqlarını xatırladır. I fəsildə Ahuranın yaratdığı 16 ölkədən danışılır. Mahiyyətcə bu fəsil 16 ölkə haqqında povestdən ibarət olan kiçik coğrafi poemadır. Vendidadın I fəsli ilkin başlanğıcda 18 stansdan ibarətdir, bunlardan birincisini giriş, on səkkizincisini isə nəticə hesab etmək olar. Yerdə qalan stanslarda isə 16 ölkə eyni formada təsvir olunur. Vendidadın II və III fəsli sivilizasiyanın yaradıcısı olan İume haqqında mifi özündə birləşdirir;

– “Avesta”nın II kitabı “Yasna” (sitayiş etmə, dua etmə, tapınma deməkidr) adlanır. “Yasna” ibadətlər və qurban vermə zamanı oxunan ayrı-ayrı qatalardan (mətnlərdən) ibarətdir;

– “Avesta”nın III kitabı “Vispered” (bütün hakimlərin hamısı, allahların hamısı deməkdir) adlanır. Təxminən 25 fəsildən ibarətdir. Dua xarakterli mahnılardır və mahiyyətcə “Yasna”ya yaxındır;

– “Avesta”nın IV kitabı “Yaşta”lar adlanır. “Yaşta”lar mifoloji elementlərlə zəngin olan qədim himnlər toplusudur.

“Avesta”da baş Allah Ahura Mazda (Hörmüz) – xeyir qüvvələrini, Anhra Manyu (Əhriman) isə şər qüvvələrini təmsil edir. “Avesta”da dörd ünsür – hava, torpaq, od və su müqəddəs hesab edilir.

“Avesta”da bütün proseslər üç mərhələyə bölünür: birinci, Qumat – xeyirxah fikir, ikinci, Quqta – xeyirxah söz, üçüncü, Qvarşta – xeyirxah əməl. Əvvəlcə fikir yaranır, sonra sözlə ifadə olunur, daha sonra isə əməllə həyata keçirilir.

### 1.3.1. “Avesta”da dövlət və cəmiyyətin idarə olunması

“Avesta”da “cəmiyyət” və “dövlət” anlayışları eynidir. “Avesta”da cəmiyyətin əsas struktur vahidlərinə aşağıdakılar aiddir:

– Ev-ailə cəmiyyətin aşağı vahidi hesab edilir. Buraya kölələri də aid edirlər.

– Qəbilə, qəbilə üzvləri və qəbilə icması. Qohumların evi, ailələr və ya ümumi əcdaddan yaranan qəbilə əhalisinin birliyi qəbiləni yaradır. Tədqiqatçılar belə güman edirlər ki, ənənəyə görə qəbilə üzvləri ən azı 15 ailədən ibarət olmalıdır. Ana xətti üzrə qohumluq nəzərə alınmır, buraya bacının uşaqları daxil edilmir. Ərə gedən qız ərinin qəbiləsinə daxil olur. “Avesta”da qəbilə icması siyasi və hüquqi hakimiyyətə malik olan cəmiyyətin başlıca iqtisadi özəyini təşkil edir. İcma ailədə bütün qarşılıqlı münasibətləri həll edir və nizamlayır, nigaha girmə üçün icazə verir, qan intiqamı, ailələr arasında müxtəlif öhdəliklərlə və mükafatlandırma ilə bağlı məsələləri həll edir. İcmanın başında başçı və yaxud qəbilənin ağası durur, o, həmçinin hakim funksiyasını yerinə yetirir.

– Tayfa bir neçə qohum qəbiləni təşkil edir. Tayfanın başında ağsaqqal durur. “Avesta”nın müxtəlif hissələrində xalq yığıncağının və ağsaqqallar şurasının təşkilinə baxılır.

– Dahya adlanan vilayət tayfaların ittifaqından, əsasən tayfaların etnik birliyindən yaranır. Dahyanın başında böyük iradəyə malik başçı durur. Ancaq başçı qeyri-məhdud hakimiyyətdən istifadə etmir və o, ağsaqqallar şurasının rəyi ilə razılaşmalıdır. O, həmçinin hakim funksiyasını da yerinə yetirirdi.

– Ölkə dahyaların və ya bir neçə vilayətlərin birliyi yaranır. Bu dövlətin yaradılması yolunda ilk başlanğıcdır. Ölkənin başçısının hakimiyyəti dahyaların və ya vilayətlərin nümayəndələrinin şurası ilə məhdudlaşır.

“Avesta”da “cəmiyyət” və “dövlət” anlayışlarının mahiyyəti aydın şəkildə verilmişdir. “Avesta”da dövlətin funksiyaları, hökmdarın obrazı, şəxsi keyfiyyətləri, cəmiyyətin sosial strukturu: ailə, qəbilə, tayfa, vilayət, ölkə əhatəli formada verilmişdir. “Avesta”da monarxiya dövlət quruluşunun ən yaxşı forması olması haqqında baxışlar hakimdir.

Yuxarıda qeyd edildiyi kimi dahyaların birliyi və ya ölkə anlayışı hələ dövlət qurumunu ifadə etmir. “Avesta”ya görə dövlət səmavi hökmranlığın yerdə həyata keçirilməsidir. “Avesta”ya görə dövlətin funksiyalarına aşağıdakılar aiddir: hökmranlıq etmək, nəzarət etmək, idarə etmək, cəzalandırmaq və müdafiə etmək, həmçinin insanların qayğısına qalmaq, onları yedizdirmək, yaşayış yeri və rahatlıqla təmin etmək, əhalinin sayını artırmaq, ölkəni düşmənlərdən müdafiə etmək üçün silahlı qüvvələrə malik olmaq, o cümlədən, ölkələr arasında müqavilə bağlamaq və s.

“Avesta”da dövlət anlayışı adı altında daxili istiqlaliyyət, müstəqillik və suverenlik, ayrı-ayrı ərazilər və zərdüştlük dininin ardıcılları üzərində hökmranlıq nəzərdə tutulur. “Avesta”ya görə dövlətin əsas funksiyalarından biri də müqəddəs odun qorunub saxlanılmasıdır ki, bu da kütlələrin birliyini, xalqın vəhdətini möhkəmləndirir.

“Avesta”da göstərilir ki, dövlətin iqtisadi qüdrətini möhkəmləndirmədən düşmən üzərində qələbə çalmaq olmaz. “Avesta” müəyyən edir ki, dövlət qarşısında duran bu funksiyaları yerinə yetirməsi üçün güclü hakimiyyət lazımdır.

Zərdüştün sosial təlimi humanist xarakter daşıyır və “Avesta”da sosial ədalət məsələlərinə geniş yer verilmişdir. “Avesta”da ictimai–siyasi baxışların yüzilliklər ərzində ayrı–ayrı sosial təbəqələrin maraqlarını ifadə edən müxtəlif sosial–iqtisadi və siyasi ideyalar əks etdirilmişdir. “Avesta”ya görə sosial ədalət təkcə qanunlara riayət olunması ilə bağlı məsələləri özündə birləşdirmir. Sosial ədalət insanların qarşılıqlı münasibətində düzgünlüyü, saflığı, vicdanlılığı, ədaləti, həqiqəti və təmizliyi də özündə ifadə edir. “Avesta”da qeyd olunur ki, “Ədalət insanlar sevinən zaman zəfər çalır”.

“Avesta” insanlardan ictimai faydalı əməklə, ilk növbədə isə əkinçilik və maldarlıqa məşğul olmağı tələb edir. “Avesta”nın sosial ədalətə riayət olunmasında başlıca tələbi ədalətli əmək haqqının verilməsidir. Bu tələbi pozanların özlərini ən ağır cəzaya məhkum edirlər. “Avesta”ya görə insan öz çörəyini şəxsi, halal əməyi hesabına əldə etməlidir. Yoxsullara kömək insanların borcudur. Düşmənlərə kömək isə ədalət qanunları ilə ziddiyyət təşkil edir.

İnsan ədalətin və xeyirxah işin hakim olduğu yerdə qələbə çalır, cəmiyyətin harmoniyası pozulmur, əksinə ədalət qanunlarının pozulduğu yerdə insanlar sıxışdırılır və məhv edilir.

"Avesta"da dövlət başçısına, hökmdara xüsusi yer verilir. Abidədə hökmdar obrazı həddindən artıq şişirdilir. Hökmdar doğru-düzgün, natiq, min qulaqlı, gözəl görünüşlü, on min gözlü, hündür, uzaqgörən, nəhəng, yuxu yatmayan olmalıdır. "Avesta"ya görə dövlətə ən yaxşı hökmdar xeyirxahlığı qoruyan başçılıq etməlidir.

"Avesta"ya görə dövlət başçısı eyni zamanda dini rəhbərdir, o, zərdüştlük dininin ideoloqudur. Yaxşı hökmdar həm dinc dövrdə, həm də müharibə vaxtı əsl rəhbər olmalıdır ki, düşmənə layiqli cavab verə bilsin. "Avesta"nın müəyyən etdiyinə görə hakimiyyətin başında insanları, bütün cəmiyyəti idarə etmək qabiliyyətinə malik olan, xoşbəxt həyat yaratmağa cəhd göstərən, zorakılığı aradan qaldırmağı bacaran müdrik, savadlı monarx durmalıdır. "Avesta"nın fikrincə bu şah olmalıdır.

Beləliklə, "Avesta" zalım hökmdarların, ölkəyə başqa yerlərdən köçüb gələnlərin (abidədə "yadellilər – qeyri-arilər" adlandırılır) iradəsi əleyhinə çıxış edir.

## 1.3.2. "Avesta"da müharibə və sülh məsələsi

"Avesta"da müharibə və sülh məsələləri xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, "Avesta" müharibəyə dini həyatın komponenti kimi toxunmur, onda zərdüştlüyün silah gücünə başqa xalqlara qəbul etdirilməsi haqqında nəsihətlər yoxdur. "Avesta"da müharibə və sülh məsələlərinə xeyirlə şərin mübarizəsi haqqındakı hissələrində toxunulur.

"Avesta"nın gəldiyi ən mühüm nəticə ondan ibarətdir ki, bəşəriyyətin əzabları, o cümlədən müharibələr zamanı baş verən əzablar allahların şıltaqlığından deyil, insanların özlərinin günahları üzündən baş verir. "Avesta"da insanlara xeyirxahlığı, ilahi mahiyyəti aşılayan müharibə və sülh Allahı Mitradır. O, dünyada və cəmiyyətdə əmin amanlığın yaradılması üçün təminatdır.

“Avesta” sülhü təbliğ edir, bunun üçün əqlə və müdrikliyə, düşmənçilik edən tərəflər arasında bütün münaqişələrin sülh, danışıqlar yolu ilə, hərbi gücə müraciət etmədən həllinə çağırır. “Avesta” belə hesab edir ki, sülhün müdafiə edilməsi və etibarlı dinc həyatın yaradılması üçün, qüdrətli hərbi qüvvələr lazımdır. “Avesta”da ölkənin yadelli işğalçılardan qorunmasında Mitranın böyük rola malik olduğu göstərilir. “Avesta” xalqı onun ətrafında birləşməyə çağırır.

### 1.3.3. “Avesta”da ailə-nigah münasibətləri, təhsil və tərbiyə məsələləri

“Avesta” ailə-nigah yaşı, qohumlar və müxtəlif dinlərdən olan şəxslər arasında nigah, ər-arvad münasibətləri, ikinci nigah və boşanma məsələlərinə olduqca geniş yanaşır. “Avesta” nigahların bağlanmasını mükafatlandırır. Orada deyilir ki, “arvadı olan adam, oğlanları olmayanlardan yüksəkdir, evi olan adam, evi olmayandan çox yüksəkdir”. “Avesta”ya görə ailənin möhkəmləndirilməsində kişinin üzərinə böyük məsuliyyət düşür, öz ailəsinə qayğı göstərməyənlər ittiham edilir.

“Avesta” qadının cəmiyyətdəki yerini yüksək qiymətləndirir. Qadın təmiz fikrə, gözəl nitqə, xeyirxah əməllərə, daxili gücə, yüksək əxlaqi keyfiyyətlərə malik olmalıdır.

Kişi ailənin yaradıcısı və onun başçısıdır, qadın isə bu ailənin tam xoşbəxtliyi üçün yaxşı və sadiq qadın olmalıdır. “Avesta”da nigaha həsr edilmiş xüsusi qata vardır – “toy qatası” isə boşanmanın qadağan olunması ilə qurtarır. “Avesta” yad tayfalar arasında nigahı qəti qadağan edir.

Təsərrüfata ər və arvad başçılıq edirdi. Ailə üzvlərinə aşağıdakılar aiddir: ata və ana, ər və arvad, oğullar, qızlar və nəvələr. Bundan əlavə ailəyə atanın qardaşları və onun bacıları, atanın qardaşlarının uşaqları və onun nəvələri daxil idi. Ailəyə ananın qohumları və bacının uşaqları daxil olmurdu, qadın nigahı vasitəsilə ərinin ailəsinə daxil olurdu.

“Avesta”da təhsil və tərbiyə problemi cəmiyyət qarşısında duran mühüm məsələ kimi irəli sürülür. “Avesta” təliminə görə uşaq böyüyən kimi valideynləri danışıqsız onu məktəbə göndərməlidir. Əgər onlar uşağı məktəbə göndərmirlərsə və heç bir şey öyrətmirlərsə, bu böyük cinayətə bərabər tutulur. “Avesta”nın qanunlarına görə maariflənmə və tərbiyə xeyirxahlıq və ədalət prinsiplərinə əsaslanmalıdır. Bu tələb ictimai vəziyyətindən asılı olmayaraq cəmiyyətin bütün üzvləri qarşısında irəli sürülür. Təlim və tərbiyə haqqında qanunların yerinə yetirilməsi insanları maddi rifah əldə etməyə, sərvətə gətirib çıxarır, onları sağlam edir, ailə həyatı yaratmağa kömək edir. Ancaq bu tələblərin yerinə yetirilməsi üçün qanunları öyrənmək, onları dərindən mənimsəmək və təbliğ etmək lazımdır. Təlim və təhsil insanlara müdrik olmaqda və əqllərini inkişaf etdirməkdə kömək edir.

### 1.3.4. “Avesta”da iqtisadi həyat və cəmiyyətin sosial strukturu

“Avesta”da cəmiyyətin 3 təbəqəsi haqqında danışılır:

1) Kahinlər, 2) Döyüşçülər və 3) Kənd təsərrüfatı (maldarlıq və əkinçilik) ilə məşğul olan şəxslər. Sonralar buraya 4-cü təbəqə - sənətkarlar də əlavə olunurdu. “Avesta”da cəmiyyətin bu təbəqələri Misir və Hindistanın kastalarına bənzəmirdi. Burada təbəqələşmə məşğuliyyətə görə idi.

“Avesta”ya görə zərdüştlük dininin bütün ardıcılları üç qrupa bölünür:

Birinci əsas qrup köçəri maldarlardır;

İkinci qrup əkinçilərdir. “Avesta” bu qrupun üzvlərini birinci qrupun dinc oturaq əhalisinin mal-qarasının oğurlanmasında və soyğunçuluqda ittiham edir;

Üçüncü qrupa aid olan şəxslər isə əvvəlki iki qrupa daxil ola bilməyən və cəmiyyətdə həm birinci, həm də ikinci qrupda özünə yer axtaranlardır.

“Avesta”da cəmiyyətin sosial strukturunun müəyyən edilməsi ilə bərabər, həmçinin bəşər cəmiyyəti üç mərhələyə bölünür:

Birinci mərhələ keçmişin cəmiyyətidir və yaxud bəşəriyyətin "qızıl əsridir". Burada qədim icma ideallaşdırılır və göstərilir ki, bu cəmiyyət "xırda və iribuynuzlu mal-qara ilə, həm insanlarla, həm itlərlə, həm quşlarla, həm də şöləlonən qırmızı alovlarla" doludur, burada azadlıq hakimdir, insanlar xoşbəxtdir, insan həm mənəvi, həm də cismanı cəhətdən azaddır.

İkinci mərhələ bəşəriyyət həyatının "Avesta" dövrü adlanır. Bu mərhələ xeyirlə şər arasında baş verən kəskin mübarizə mərhələsi də adlandırılır. "Avesta"ya görə bu mübarizə həm yerdə, həm də kosmosda gedir. "Avesta" gizlətmir ki, bu mübarizə uzun, qəti və çətin olacaq, insanların qurbanları bahasına olacaq, ancaq işıqlı-xeyirxah qüvvələrin qələbəsi ilə başa çatacaq ki, bu da bəşər cəmiyyətinin üçüncü mərhələsinin başlanğıcı üçün şərait yaradacaq.

Üçüncü mərhələ "Avesta"da dirçəliş, oyanış erası adlandırılır. Bu zaman bəşəriyyət yenidən azadlıq və xoşbəxtlik əldə edir, yeni və daha işıqlı "qızıl əsr" yaranır.

"Avesta" insanları ailənin xoşbəxtliyi və cəmiyyətin gələcəyi naminə mübarizəyə çağırır.

"Avesta"da artıq maldarlığın, əkinçiliyin, bağçılığın, quşçuluğun inkişafından danışılır. Ən çox maldarlığa və əkinçiliyə diqqət yetirilir. "Avesta"da buğda, arpa və düyü haqqında məlumatlar var. Təndirdə bişirilmiş çörəyin ətrinin təsirindən danışılır. Suvarma üçün irriqasiya sistemləri, torpaq sahələrinin icma üzvləri arasında bölünməsi qaydası yaradılmışdı. Xüsusilə qeyd etmək lazımdır ki, cinayət edənlərə irriqasiya tikintilərində məcburi işləmək kimi belə bir cəza növü də verilirdi.

"Avesta" ərzaq və ev heyvanlarının çoxaldılması məsələsinə xüsusi fikir verirdi. Artıq primitiv aqronomiya və zootexnika mövcud idi. Əkinçiliyə və maldarlığa "Avesta"da ən yüksək hörmətlə yanaşılırdı.

"Avesta" dövründə ibtidai-icma cəmiyyəti artıq dağılma ərəfəsində idi və bunun hüdudlarında sinifli strukurların cücərtisi var idi. Cəmiyyətdə qəbilə əyanlarının yaranması qulun meydana gəlməsinə səbəb oldu, kəndlilər isə əyanlardan asılı vəziyyətə düşməyə başladılar. Qullar ağanın mülkiyyəti hesab olunur və heç bir hüququ yox idi.

Beləliklə, ibtidai icma quruluşunun dağılması dövrü, daha doğrusu ibtidai icma quruluşundan quldarlıq quruluşuna keçid dövrü baş verir.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. "Avesta" Azərbaycan xalqının ictimai–siyasi baxışlarının öyrənilməsində başlıca mənbə kimi
2. "Avesta"da dövlətin və cəmiyyətin idarə olunması
3. "Avesta"da müharibə və sülh məsələsi
4. "Avesta"da ailə-nigah münasibətləri, təhsil və tərbiyə məsələləri
5. "Avesta"da iqtisadi həyat və cəmiyyətin sosial strukturu

## 1.4. "Kitabi–Dədə Qorqud" dastanında Azərbaycan xalqının ictimai–siyasi baxışlarının əks olunması

"Kitabi–Dədə Qorqud" dastanı Azərbaycan eposunun klassik nümunəsi və xalqın müqəddəs mənəvi xəzinəsidir. Epos qədim dövrün ictimai–siyasi baxışını özündə əks etdirən mühüm mənbədir. Eposda dövrün ictimai–siyasi həyatının və xalqın ictimai–siyasi baxışının tam mənzərəsi əks olunmuşdur. Eposda oğuzların köçəri aristokratiyası bütöv formalaşmış bir cəmiyyət kimi təsvir edilmişdir.

"Kitabi–Dədə Qorqud" dastanında xalqın həyat təcrübəsi və ictmai–siyasi baxışları ümumiləşdirilmiş, əşyaların və hadisələrin, ümumiyyətlə oğuz sosiumunun dəyərlərinin fəlsəfi mahiyyəti açılmışdır.

"Kitabi–Dədə Qorqud" dastanında adət və ənənələrin xalqın ictimai–siyasi həyat tərzinin və ictimai–siyasi təfəkkürünün formalaşmasına güclü təsiri olmuşdur. Dastandakı adət və ənənələr elmi cəhətdən olduqca əhəmiyyətlidir.

## 1.4.1. “Kitabi–Dədə Qorqud” eposunda insan, cəmiyyət və dövlət məsələləri

“Kitabi-Dədə Qorqud” eposu Azərbaycan xalq müdrikliyinin klassik nümunəsidir. Epos həmin dövrün ictimai həyatının ətraflı mənzərəsini verir. Burada oğuzların cəmiyyəti köçəri aristokratiyanın tamamilə formalaşmış cəmiyyəti kimi təsvir olunur. Bütün oğuzların xanı bəylərlə əhatə olunub. O, oğuz xalqlarına aid olan bir çox məsələlərin həllində ali məhkəmə rolunu oynayır. Ancaq, bəylərin məsləhəti və razılığı olmadan o, heç bir mühüm addım ata bilməz. Bəylər xanla birlikdə ova çıxırlar ki, bu da təkcə əyləncə və istirahət deyildi. Buna həm də hərbi yürüş əhəmiyyəti verilirdi. Buna görə də bu ov səhnələri eposda tez-tez xatırlanır.

Oğuz bəylərinin özlərinin nökərləri vardır ki, bunlardan da hərbi yürüşlərdə, ovda, ziyafətlərdə və digər yerlərdə iştirak etmək üçün şəxsi dəstələrini və drujinalarını yaradırdılar. Oğuzlar qəhrəmanlığı insanın ən yaxşı keyfiyyəti hesab edirdilər.

Eposda Dədə Qorqud obrazına böyük yer verilmişdir. Dədə Qorqud obrazı ilə tarixdə şəxsiyyətin rolunun əhəmiyyətinin göstərilməsinə cəhd hiss olunur. O, müdrik, iti ağıla, kütlələri öz arxasınca aparmaq bacarığına və gələcəyi görmək qabiliyyətinə malik olan bir insandır. O, təmkinlidir və riskə getməyi bacarır, şəraitə uyğun hərəkət edir. O, xanların, bəylərin və xalqın müdrik rəhbəridir. Dədə Qorqud xalqa insanların ümumiyaşayış qanunlarını öyrədir, o tayfanın patriarxıdır. O müdrik xalq aşığı və məsləhətçisi, çöl həyatı ənənələrini qoruyan, hərbi adət-ənənələrinə nəzarət edən bir insandır. Oğuz elinin yolgöstərəni olan bu qocanı alim, imam, “peyğəmbər” səviyyəsində tuturdular.

Eposda xalq müdrikliyi açıq-aydın ifadə olunmuş, onda ictimai həyatın əsrlər boyu yoxlanılmış və sınaqlardan çıxmış qanunları əks olunmuşdur. “Kitabi-Dədə Qorqud” eposunda xalqın ictimai-siyasi həyat təcrübəsi ümumiləşmişdir. Epos ibtidai dünyagörüşü sistemi olaraq təkcə dinin rüşeymlərini deyil, həm də fəlsəfənin siyasi nəzəriyyələrini, dünya və insan haqqında elməqədərki təsəvvürlərin rüşeymlərini özündə birləşdirir.

“Kitabi-Dədə Qorqud” eposunda şəxslərarası münasibətlərin, insanların davranışının forma və növləri, dini və dünyəvi qanunların müxtəlif aspektləri əks olunmuşdur. Eposda ailənin, tayfanın, nigah münasibətlərinin statusunu müəyyən edən bəzi sosial institutlar, ədalət məsələlərinə aid olan problemlər xüsusi yer tutur. Eposda dövrün sosial-siyasi mənzərəsi əks olunmuşdur.

Eposda müxtəlif siyasi konsepsiyalar və situasiyalar göstərilir, onların yeri və tarixi prosesə təsiri lakonik şəkildə ifadə olunur. Buna görə də onu siyasi epos adlandırmaq olar. Burada əsas diqqət müəyyən iqtisadi, sosial və siyasi şəraitlərdən yaranmış xalq şüuruna yönəldilir.

Bundan əlavə eposda mühüm yeri müxtəlif formalarda deyilmiş və ictimai-siyasi quruluşun yaranması şəraitində əqidə və inamdan doğan sosial utopiya problemləri tutur.

“Kitabi-Dədə Qorqud” tarixi optimizm dastanıdır. Burada mövcud dövrə tənqidi münasibəti, gözəl gələcəyə müraciəti və keçmişin (qızıl əsrin) bəzi ideallarını görürük. Eposda həmçinin, mərkəzləşdirilmiş dövlət quruluşunun vahid şəklə salınması əks olunmuşdur.

Eposda qullara və kənizlərə humanist münasibət haqqında danışılır. Oğuzların həyatlarında baş verən əlamətdar günlərdə və hadisələrdə kölə və kənizlərə azadlıq bəxş edilirdi.

Dastandakı epik deyimlərdə ictimai münasibətlər tarixinin daha əvvəlki dövrü əks olunmuş və sosial tarix, ictimai inkişaf haqqında məlumatlar verilir.

Tayfalar siyasi təşkilatları təşkil edirdi. Onlar hərbi-müdafiə təşkilatları – hərbi qurumlar formasında bərqərar olur və inkişaf edirdilər. Oğuzların cəmiyyətində daxili və xarici siyasət stabilliyin qorunmasına, ədalətin bərqərar edilməsinə, xalqın şərəf və layaqətinin qorunmasına yönəldilmişdir.

Oğuz liderləri özlərinin xarici siyasətində başqalarının torpaqlarının zəbt edilməsi məqsədini qarşıya qoymur, onlar bütün gücünü bu torpaqların və onun sərhədlərinin qorunmasına yönəldirdilər.

“Kitabi-Dədə Qorqud”da ailəyə, əxlaqa, nizam-intizama, davranış normalarına böyük əhəmiyyət verilir. Ananın ailədə yeri müqəddəsdir, “ananın hüququ – Allahın hüququdur”. Ata ailənin

başçısıdır. O heç vaxt ailədə despotluq etmir, arvadına hörmət və ehtiram göstərir, həmişə onun ağıllı məsləhətlərinə qulaq asmağa hazırdır. Oğullar ata ilə ziddiyyətə girmir və ona ehtiram edirlər. Ailə və tayfa çərçivəsindəki mənəviyyat, həmçinin humanist xarakter daşıyır. Oğuzların cəmiyyətində yalana yer yoxdur, eposun demək olar ki, hər bir epizodunda vurğulanan düzgünlük, sadiqlik və insanlıq elementləri hakimdir.

Uzun əsrlər ərzində "Kitabi–Dədə Qorqud" eposunun yarandığı dövrdə bir çox dövlətlər süquta uğramış və yeniləri yaranmışdır. Ancaq eposda öz əksini tapmış təfəkkür tərzi, xalqın ənənələri, demək olar ki, dəyişməz olaraq qalmış və hər bir yeni dövlətdə dövrün tələblərinə uyğun olaraq dəyişmişdir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanın ictimai-siyasi fikir tarixi öz başlanğıcını miflərdən, əfsanələrdən, dastanlardan, nağıllardan, deyimlərdən götürür. Onlarda ilk dəfə olaraq Azərbaycan xalqının qədim əcdadlarının ictimai-siyasi baxışlarının əsası qoyulmuşdur. Onlar xalqın ən qədim inkişaf mərhələsində əsas dünya görüşü formaları olmuş və xalqın sonrakı təfəkkür tərzinin inkişafına böyük təsir göstərmişdir.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. "Kitabi–Dədə Qorqud" eposu Azərbaycanın ictimai–siyasi fikir tarixinin öyrənilməsində qiymətli mənbə kimi
2. "Kitabi–Dədə Qorqud" dastanında Azərbaycan xalqının ictimai–siyasi baxışlarının əks olunması
3. "Kitabi–Dədə Qorqud" eposunda insan, cəmiyyət və dövlət məsələləri

## 1.5. Azərbaycanın ilk dövlət qurumlarında ictimai-siyasi ideyaların meydana gəlməsi

Azərbaycan sivilizasiyanın ən qədim mərkəzlərindən biridir və Azərbaycanın dövlətçilik tarixi qədim köklərə malikdir. Qədim Azərbaycanda cəmiyyətin siyasi təşkilinin yeni forması kimi yeni dövlət qurumları yaranmışdır.

Azərbaycanın sərhədləri şimaldan Baş Qafqaz dağları, qərbdən Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdən Xəzər dənizi, cənubdan isə Həmədana qədər əraziləri əhatə edir. Ən qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan böyük dövlətçilik təcrübəsinə malikdir.

Azərbaycan dövlətçiliyi üçün bütün dövlətlərin tarixinə xas olan tarixi prosesin sıçrayışları və ziqzaqları xarakterikdir. Qədim dövrlərdə Azərbaycan ərazisində yaranan insan cəmiyyəti öz inkişafında bütün məlum ictimai-iqtisadi formasiyaları keçmişdir. Hər bir quruluşa uyğun olan dövlət tipində və cəmiyyətdə ictimai-siyasi ideyalar meydana gəlmiş və həmin dövlət tipi və siyasi baxışlar da dəyişmişdir.

Azərbaycan ərazisində arxeoloqlar qədim insan məskənlərini aşkar etmişlər. Buna misal olaraq Azıx mağarası, Tağlar, Damcılı, Daş Salahlı yaşayış məskənləri, Qobustan, Naxçıvan və Kəlbəcərdəki qayaüstü rəsmləri göstərmək olar. Mezolit və neolit dövrlərinin abidələri həddindən artıq dəyərə malikdir. Bu dövrdə əkinçiliyin ibtidai mədəniyyəti yaranmış, istehsal təsərrüfatı meydana gəlmişdir.

Daş dövrü mis dövrü ilə əvəz olunduqdan sonra, e.ə. V minilliyin axırlarından tunc dövrü başlayır və e.ə. I minilliyə qədər davam etmişdir. Bütövlükdə tunc dövrü toxa əkinçiliyinin, köçəri maldarlığın, sənətkralığın inkişafı ilə şəhər tipli mədəniyyətin meydana gəlməsi, mülkiyyət bərabərsizliyinin dərinləşməsi – ibtidai-icma quruluşunun varlı və yoxsullara bölünməsi, tayfa əyanlarının güclənməsi ilə xarakterizə edilir. Bütün bunların hamısı Azərbaycanda sinifli cəmiyyətin və dövlətin meydana gəlməsi üçün zəmin yaratdı. Beləliklə, Azərbaycanda ilk dövlət qurumları meydana gəldi ki, bunlar da cəmiyyətin siyasi təşkilinin yeni formaları idi.

Cənubi Azərbaycanın Qərbində və Cənub-Qərbində yaşayan türksoylu lullubi, kuti, turukki, su və hurri tayfa birlikləri qədim şumerlərlə qonşu olmuşlar. Şumerlər Mesapotomiyaya (İkiçayarasına) gəlmə xalq hesab olunurlar. Onlar Mesapotomiyanın cənubunda məskunlaşmışlar. Burada meydana gəlmiş erkən mədəniyyətin yaradıcıları protoşumer (erkən Şumer) və yaxud

ubaidlər (Ubeyd arxeoloji mədəniyyətinə əsasən) adlandırılırlar. Ehtimala görə şumerlər Cənubi Mesapotomiyada e.ə. IV minilliyin əvvəllərində, yaxud II yarısında məskunlaşmışlar. Şumerlərin Anadoludan, Şərqi Qafqazdan, Cənubi Azərbaycandan, Elamdan, Orta Asiyadan, hətta Hindistandan və Hind-Çindən gəlmələri barədə mülahizələr irəli sürülmüşdür. Məşhur Şumerşünas Samuel Kramerin fikrincə Şumerlər e.ə. IV minillikdə Urmiya gölü hövzəsindən Mesapotomiyaya gəlmişlər. Şumer xalqı müxtəlif dillərdə danışan etnosların birləşməsindən yaranmışdı, lakin burada şumerlər üstünlük təşkil etmişlər. Şumer dili elam, sami və başqa qədim dillərlə qohum deyil, şumer dilinin heç bir qədim və müasir dil ilə qohumluğu dəqiq müəyyən edilməmişdir. Tədqiqatçılar şumer dilini müasir dillər ilə Qafqaz, türk, ural-altay, çin-tibet, hind-avropa dilləri ilə bağlamaq cəhdləri etmişlər. Alman alimi Frits Hommel şumerlərin Mərkəzi Asiyadan gəlməsi və şumer dilinin altay-türk dilləri ilə qohum olması müddəasını müdafiə etmişdir. O, bir çox şumer – türk sözlərinin qarşılıqlı müqayisəsini vermişdir. Altay Amonjolov, Oljas Süleymenov, Aydın Məmmədov, İsmayıl Miziyevvə başqa tədqiqatçılar şumer və türk dillərinin leksik uyğunluqlarını qeyd etmişlər. Türk alimi Osman Qədim Tuna şumer və türk dillərinin tarixi əlaqəsinə həsr etdiyi əsərində 170-ə qədər şumer sözünün türk leksikası ilə müqayisəsini vermiş və linqvistik meyarlar əsasında şumer və turk dillərinin leksik uyğunluqlarını müəyyən etmişdir.

Beş min illik dövlətçilik tarixinə malik olan Azərbaycanda ilk dövlət qurumları Urmiya gölü ətrafında e.ə. IV minilliyin sonu – III minilliyin əvvəllərində yaranmışdır. Azərbaycanda o dövrdə mövcud olmuş dövlət qurumları qədim Şumer, Akkad, Aşşur və Het dövlətləri ilə əlaqələr qurmuşdular.

Azərbaycanın şimalında və cənubunda sinifli cəmiyyətin və dövlət qurumlarının bərqərar olması müxtəlif dövrlərə təsadüf edir. Qeyri-bərabər inkişaf nəticəsində Cənubi Azərbaycan sinifli cəmiyyətin yaranması prosesi e.ə. IV minilliyin sonu III minilliyin əvvəlində başlamışdır. Cənubi Azərbaycanın cənub-qərbində Mesapotomiya sivilizasiyasının mərkəzində sinifli cəmiyyət bərqərar olmuşdur. Mesapatomiyada baş verən ictimai-iqtisadi

dəyişikliklər öz təsirini Cənubi Azərbaycanın qərb torpaqlarına da göstərmişdir. Artıq e.ə. III minillikdə Cənubi Azərbaycanda erkən dövlət qurumları meydana gəlmişdir.

Şimali Azərbaycan isə qədim Mesapotomiya sivilizasiyasından xeyli uzaqda yerləşdiyinə görə burada ibtidai-icma quruluşunun dağılması, sinifli cəmiyyətin və dövlət qurumlarının meydana gəlməsi e.ə. II minilliyin sonu I minilliyin əvvəllərində baş vermişdir. Qeyri-bərabər inkişaf Şimali Azərbaycanda dövlət qurumlarının nisbətən gec meydana gəlməsinə səbəb olmuşdur.

**Aratta** Cənubi Azərbaycanda **e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi.** Şumer–Akkad mixi yazılarında Arattalıların ictimai–siyasi baxışları öz əksini tapmışdır. Aratta ilə əlaqədar hadisələr bir neçə Şumer dastanında ("En-Merkar və Aratta hökmdarı", "En-Merkar və En-Sukuşsiranna", "En-Merkar və Luqalbanda", "Luqalbanda və Hurrum dağı") əks olunmuşdur.

Qaynaqlarda Arattada mövcud olan siyasi və ideoloji şərait şumer məvhumları vasitəsilə əks olunmuşdur. Ölkəni ensi rütbəsi daşıyan hökmdar idarə edirdi. Şumerdə bu rütbə ali kahin – hökmdara şamil edilirdi. Ensi rütbəsinin Aratta dilində ifadəsi qalmamışdır. Qaynaq Arattanı "saf ənənələr ölkəsi" adlandırır. Arattanın dövlət idarələri şəhərdə yerləşir, hökmdar sarayda oturur və dövləti idarə edirdi. Əsilzadələr təbəqəsinə daxil olan maşmaş (kahin-vəzir), sukkal (kiçik hökmdar rütbəsi), uqula (rəis) və başqaları dövlət idarəsinin qulluqçuları olmuşlar. Arattada dövlət idarəsində mirzələr də çalışırdılar. Onlar həm Şumer hökmdarına cavab məktubu yazır, həm də En-Merkarın şumer dilində yazdığı məktubları tərcümə edirdilər.

Qaynaqdan göründüyü kimi, Aratta dövlət idarələri şumer-mixi yazıları və şumer dili ilə tanış idilər. Arattada çoxallahlılıq mövcud olmuşdur. "En-Merkar və Aratta hökmdarı" dastanında Arattanın Şumer dövləti ilə siyasi-iqtisadi əlaqələrindən geniş şəkildə bəhs edilir. E.ə. III minilliyin II yarısında Aratta dövləti Şumer və Akkad dövlətlərinin hakimiyyəti altına düşərək süquta uğradı.

**E.ə. III minilliyin II yarısında** Urmiya gölünün cənubunda **Lullubi dövləti yarandı.** Lullubi dövləti Cənubi Azərbaycan ərazisində yaranmış ikinci erkən dövlət qurumu idi. Lullubi dövlətinin qüdrəti hökmdar Anubaninin (e.ə. 2170–2150) dövründə daha da artır. Anubaninin siyasi nailiyyətləri mixi yazı ilə "Daş sütun" üzərinə həkk olunmuşdur. Bu abidə Diyala çayının orta arasında, Kirmanşaha gedən yol üzərində, Zohab şəhəri yaxınlığında, Saripul adlı yerdə aşkar edilmişdir.

Lullubilər də, Aratta dövründə olduğu kimi Mesapotomiya mədəniyyətinin təsirinə məruz qalmışdılar. Onlar da mixi yazı sistemi ilə tanış idilər. Burada akkad dili bilən mirzələr və akkad qələbə abidələri hazırlama ənənəsinə uyğun sənət əsərləri yaradan ustalar var idi. Anubaninin "Daş sütunu" Mesapatomiya nümunələrinə əsasən lullubi ustaları tərəfindən yonulmuşdur. Lullubi dövləti Cənubi Azərbaycan ərazisində yaranmış ikinci erkən dövlət qurumu olmuşdur.

**E.e. III minilliyin II yarısında** Urmiya gölünün qərb və cənub-qərb hissəsində **Kuti dövləti yarandı.** Zaqros dağının şimal və şimal–şərqində Kuti tayfalarının, onların qonşuluğunda Diyala çayının yuxarı axarında yaşayan lullubi, turukki, su və hurri tayfalarının siyasi birliklərinin yaranması haqqında Akkad, Elam, Assur yazılı qaynaqlarında mühüm məlumatlar verilmişdir. Bu tayfa birliklərində ictimai–siyasi dünyagörüşü formalaşmışdır. Kuti dövləti Cənubi Azərbaycan ərazisində yaranmış üçüncü erkən dövlət qurumu idi.

Kutilər Mesapotomiyada baş verən siyasi hadisələrə müdaxilə edirdilər. Onlar şumerlərlə müttəfiqlik edir, Akkad hökmdarlarının işğalçılıq siyasətinə qarşı çıxırdılar. Kutilər Mesapotomiyanı zəbt edərək 80–100 illik hökmranlıq etmişlər. Bu müddətdə kutilərə qarşı heç bir çıxış olmamışdır. Lakin qaynaqlarda sonuncu Kuti hökmdarı Tirikanın adı ilə bağlı narazılıqlar haqqında məlumat verilir.

Qonşuluqdakı digər qədim Şərq dövlətlərindən fərqli olaraq, kutilərdə hökmdarların seçilməsi qaydası vardı. Hakimiyyət irsi keçmirdi. Kuti hökmdarları məmləkəti öz canişinləri vasitəsilə idarə edirdilər. Canişinlər idarəçilik sahəsində geniş müstəqilliyə malik idilər. Görünür, bütün bunlar qədim Azərbaycan dövlətlərinin Dəclə

və Fərat vadiləri də daxil olmaqla Fars körfəzinə qədərki geniş ərazilərdə uzun zaman hökmranlıq etmələrində az rol oynamamışdı.

Kutilər Mesopatamiyada mövcud olan idarə sistemini dəyişmədilər. Kutilərə tabe olan Şumer şəhər hakimləri də ensi rütbəsini daşıyırdılar və müstəqil daxili siyasət yürüdürdülər. Şumer şəhərləri Kuti hökmdarlarının şərəfinə yazılar tərtib edirdilər. Kuti hökmdarı Daharabın (e.ə. 2135–2133) Sippar şəhərində akkad dilində yazısı aşkar edilmişdir. Kuti hökmdarları Yarlaqanda (e.ə. 2120–2113) və Siumun (e.ə. 2112–2105) şərəfinə Umma şəhərində yazı tərtib olunmuşdu. Kuti hökmdarı Puzur Suenin (e.ə. 2127–2120) möhürü üzərində Ur şəhərinin adı göstərilmişdir.

Kutilər Mesapotomiya mədəniyyətini mənimsəmişdilər. Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazısı ilə tərtib olunurdu. Kutilər də lullubilər kimi aya, bərəkət və məhəbbət ilahələrinə sitayiş edirdilər. E.ə. III minilliyin sonunda Lullubi və Kuti dövlətləri süquta uğradılar.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdır. Azərbaycan torpaqlarında e.ə. I minillikdə və bizim eranın I minilliyinin əvvəllərində mövcud olmuş Manna, İskit, Massaget, Atropatena və Albaniya kimi qüdrətli dövlətlər dövlət idarəçiliyinin inkişafında, sosial-iqtisadi və siyasi tərəqqisində əhəmiyyətli rol oynamışlar. Manna dövləti Urmiya gölü ətrafında mövcud olan xırda dövlətləri öz hakimiyyəti altında birləşdirməklə sərhədlərini şimalda Araz çayına, şimal-şərqdə isə Xəzər dənizinə qədər genişləndirdi. Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına – Aşşur və Urartu dövlətlərinə qarşı uğurla mübarizə aparırdı. Aşşur və Urartu təcavüzünə qarşı mübarizədə o zaman Azərbaycanda məskunlaşmış kimmerlər, iskitlər (skiflər) və saklar da fəal iştirak edirdilər. Manna hökmdarları irsi və qeyri-məhdud hakimiyyətə malik idilər. Lakin buna baxmayaraq, onlar ölkəni ağsaqqallar şurasının köməyi ilə idarə edirdilər ki, bu da Azərbaycanın dövlət idarəçiliyi sahəsində qədim məşvərət mədəniyyətinə malik olduğunu sübut edir.

**E.ə. I minilliyin əvvəllərində** (e.ə. IX əsrin ortalarında) Cənubi Azərbaycan ərazisində Urmiya gölü hövzəsində mərkəzləşmiş **Manna dövləti** meydana gəldi**.** Əvvəllər burada Lullubilər yaşayırdı. Manna adı ilk dəfə e.ə. 843-cü ildə Assur qaynaqlarında çəkilmişdir. Manna dövləti İranzunun (e.ə. 740–719) hakimiyyəti dövründə qüdrətləndi. E.ə. VIII əsrin II yarısında Mannada hakimiyyət irsən keçirdi. Mərkəzləşdirilmiş dövlət olan Mannada canişinlik idarə usulu yaradılmışdı. Canişinlər mərkəzi hakimiyyətə tabe idilər. Manna hökmdarları müstəqil daxili və xarici siyasət yürüdürdülər. Dövlət idarəsi müxtəlif əyan və məmurlardan təşkil olunurdu. Mixi qaynaqları onları əyan, ağsaqqal, məsləhətçi, başçı və canişin adlandırmışdı. Dövlət idarəsində hakim ailənin üzvləri də çalışırdılar.

Mənbələrdə belə bir fikir var ki, Mannada erkən sinifli oliqarxik dövlət (yuxarı təbəqənin hakimiyyətinə əsaslanan dövlət) mövcud olmuşdur. Buna uyğun olaraq Manna cəmiyyəti də erkən quldarlıq cəmiyyəti kimi qəbul edilir. Manna dövlətinin idarəetmə sisteminə Ağsaqallar Şurası da daxil idi. Ancaq Ağsaqallar Şurası hökmdarın xarici siyasətini məhdudlaşdıra bilməzdi. Ağsaqallar Şurası əyanlar, dövlət məmurları hökmdarın göstərişlərini icra edən və dövlət işləri ilə məşğul olan idarələrə mənsub idilər.

Manna əhalisi ictimai həyatda fəal iştirak edirdi. Bəzən bunu Mannada ibtidai icma qalıqlarının güclü olması ilə bağlayırdılar.

E.ə. 590-cı ildə Manna dövləti assuriyalılar tərəfindən süquta uğradıldıqsan sonra onun ərazisi Midiya dövlətinin tərkibinə qatıldı.

E.ə. VIII əsrin sonu – VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində mühüm rol oynamış kimmerlər, iskitlər, saklar və massagetlər Şimali Azərbaycan ərazisində məskunlaşdıqdan sonar Mannaya və Anadolunun şərqinə yayıldılar.

Kimmer, İskit və Sakların tərkibində başqa tayfalarla yanaşı türk tayfaları da var idi. Bununla bağlı Herodot (e.ə. V əsr) öz əsərində məlumat verir. İskitlər Marmadan şimaldakı Azərbaycan torpaqlarında qüdrətli İskit şahlığı yaratmış, bununla, ölkə ərazisində vahid xalqın təşəkkül prosesində yaxından iştirak etmişdilər. İskit və Massaget hökmdarları da Azərbaycan torpaqlarını yadellilərin təcavüzlərindən uğurla müdafiə etmişdilər.

Massaget şahlığı o dövrün ən qüdrətli imperiyalarından biri olan Əhəməni–Fars imperiyasını ağır məğlubiyyətə uğratmışdı. Yaxın və Orta Şərqdə geniş işğallar həyata keçirmiş Əhəməni hökmdarı II Kir Azərbaycanın cənub torpaqlarını zəbt etdikdən sonra ölkənin şimalını da ələ keçirməyə cəhd göstərmiş və bu məqsədlə Massaget hökmdarının dul qadını Tomirisə izdivac təklif etmişdi. Lakin II Kirin hiyləsini başa düşən Tomiris II Kirin təklifini rədd etmiş, Günəş allahına and içərək döyüşə atılmış, özündən qat-qat güclü olan düşmən qoşunlarını e.ə. 530-cu ildə darmadağın etmişdi. "Məğlubedilməz Kir"in özü də bu döyüşdə öldürülmüşdü. Midiya imperiyası, Lidiya, Babilistan kimi qüdrətli dövlətləri aradan qaldıraraq, Parfiya torpaqları da daxil olmaqla, Mərkəzi Asiyadan Misir hüdudlarına qədər çox geniş əraziləri ələ keçirmiş və bütün bu işğallara görə "Böyük Kir" və ya "Məğlubedilməz Kir" ləqəbləri qazanmış II Kirin məğlub edilməsi Azərbaycan tarixinin ən parlaq səhifələrindəndir.

**E.ə. IX–VIII əsrlərdə Midiya** tayfaları özlərinin siyasi birliklərinin tərkibinə Cənubi Azərbaycanın da daxil olduğu qüdrətli dövlətlərini yaratdılar.

Midiyada əsas ideya cərəyanları olan zərdüştlük təlimi, maqlar elmi və zərvanizm geniş yayılmışdı. Zərdüştlük təlimində qədim insanlar, ədalət və əxlaq anlayışları haqqında məlumat verilmişdi. Qədim Midiyada məcusilik (maqlar elmi) geniş yayılmışdı. Midiyada yaşayan məcuslar (maqlar) elmi işlərlə məşğul olmuşlar. Onlar cismin bölünməz hissəciyi (atom) haqqında mülahizələr söyləmişlər. Maqlar zərdüştlüyün formalaşmasında və yaşamasında fəal rol oynamışlar. Maqların təlimi dövlət və onun institutlarına güclü təsir göstərmişdir.

Makedoniyalı İskəndərin ölümündən dərhal sonra Azərbaycan dövlətçiliyi yenidən dirçəldi. Ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya dövlətləri meydana gəldi. Azərbaycanın bütün tarixi torpaqları bu iki yerli dövlətin tərkibində cəmləşdi.

**E.ə. IV əsrdə** Cənubi Azərbaycan ərazisində müstəqil **Atropatena dövlətinin meydana gəlməsi** Midiya (Mada) dövlətinin satrapı Atropatın adı ilə bağlıdır. Atropatın adı

mənbələrdə ilk dəfə e.ə. 331-ci ildə baş vermiş məşhur Qavqamela döyüşü ilə əlaqədar çəkilir. Antik müəlliflərin Kiçik Mada adlandırdığı satraplığın başçısı Atropatın rəhbərliyi altında türksoylu kadusilərin, albanlarınvə sakasinlərin Makedoniyalı İsgəndərə qarşı döyüşmələri tarixi mənbələrdə təsdiq olunmuşdur. Atropat böyük dövlət xadimi idi. Çox istedadlı bir insan, arif bir siyasətçi və bacarıqlı bir diplomat kimi Atropat Makedoniyalı İskəndərlə hərbi mübarizənin faydasızlığını gözəl başa düşürdü. Buna görə də o, müdriklik göstərərək, yunan-makedoniyalılarla danışıqlar aparmaq, onlara yaxınlaşmaq, Şərqin yeni hökmdarının müxtəlif tədbirlərində iştirak etmək yolunu seçdi.

Əhəmənilərin hökmranlığı dövründə və sonrakı illərdə Atropat fürsəti əldən vermədi. E.ə. 328-ci ildə o, Makedoniyalı İsgəndər tərəfindən Kiçik Madanın satrapı vəzifəsinə təyin edildi. Nəticədə, Kiçik Mada adlandırılan gələcək Atropatena torpaqları Makedoniya işğalından xilas oldu. Atropat, Yaxın Şərqin və Orta Asiyanın tabe olmayan tayfalarına və xalqlarına qarşı Makedoniyalı İskəndərin apardığı amansız müharibədən öz xeyrinə və vətəninin rifahı naminə istifadə etdi. Atropat makedoniyalılara yaxınlaşmaq siyasətini davam etdirərək, qızını Şərqin yeni hökmdarının qüdrətli sərkərdələrindən biri olan Perdikkiyə ərə verdi.

E.ə. 323-cü ildə Makedoniyalı İsgəndərin ölümü ilə onun imperiyası sərkərdələri arasında bölüşdürüldü, İskəndərin yerini isə Atropatın kürəkəni Perdikki tutdu. E.ə. 321-ci ildə Perdikki öldürüldükdən sonra imperiya yenidən bölüşdürüldü. Beləliklə, e.ə. 321-ci ildə Kiçik Mada, yəni Atropatena müstəqil dövlətə çevrildi. Strabona görə yeni dövlət onun qurucusu olan Atropatın adı ilə Atropatena adlandırılmışdır. Dövlətin paytaxtı Qazaka şəhəri idi. Atropatena hökmdarlarının sarayı da burada yerləşirdi. Sonralar ərəb müəlliflərinin Cənzə adlandırdıqları bu şəhər Urmiya gölünün cənub şərqində, indiki Marağa yaxınlığında yerləşirdi. Atropatenanı Atropat sülaləsindən olan hökmdarlar idarə edirdilər. Hökmdar hakimiyyəti irsi idi. Cəmiyyət əyanlardan, kahinlərdən (maq), kəndlilər, sənətkarlar, tacirlər və qullardan ibarət idi.

Atropatena Makedoniyalı İsgəndərin imperiyasının parçalanması şəraitində Şərqdə siyasi müstəqillik qazanmış ilk

dövlət hesab olunur. Beləliklə, Manna dövlətinin süqutundan iki əsr yarımdan çox zaman keçdikdən sonra Azərbaycan ərazisində yenidən müstəqil dövlət meydana gəldi. Atropatenanın tarixi müqəddəratında bu tarixi hadisənin misilsiz əhəmiyyəti vardı. Bu hadisə Atropatenanın və hətta Ön Asiyanın bir hissəsinin qədim və ilkin orta əsrlər tarixində şübhəsiz, dərin iz buraxmışdı.

Atropatenanın meydana gəlməsində Atropatın şəxsi keyfiyyətlərinin də çox böyük əhəmiyyəti vardır. Öz fəaliyyətində o, yadellilərin hakimiyyətinə tabe olmaq istəməyən yerli əhalinin geniş yardımına arxalanırdı. Atropatenanın və bəzi qonşu vilayətlərin yerli əhalisindən danışarkən türksoylu kadusilərin və skif tayfalarının cəngavərliyini və qüdrətini xüsusilə qeyd etmək lazımdır. III Daranın qoşunlarının bir hissəsini kadusilər və skiflər təşkil edirdi. Atropat məhz bu tayfalara arxalanması sayəsində öz hakimiyyətini qoruyub saxlaya bilmişdir. Bu tayfalar olmasaydı, Atropat, çətin ki, müstəqil dövlət yaradaraq onu qoruya bilərdi.

Atropatın hökmranlıq illərinin necə keçdiyini, onun daxili siyasətinin necə siyasət olduğunu, xarici siyasi həyatda nə kimi hadisələr baş verdiyi bilinmir. Atropatın nə vaxt vəfat etdiyini, taxt-tacı kimə miras qoyduğunu da bilmirik. Lakin sonrakı onilliklərin və hətta yüzilliklərin hadisələri göstərir ki, Atropatın hökmranlıq etdiyi illər gənc dövlətin möhkəmləndiyi bir dövr idi.

Cənubi Azərbaycan ərazisində müstəqil dövlət yaradılması qədim ənənələrə malik ölkədə təsərrüfat həyatının fəallaşmasına, məhsuldar qüvvələrin yüksəlməsinə, ticarətin və sənətkarlığın canlanmasına çox kömək etdi. Daha sonrakı məlumatlar göstərir ki, Atropatenada məbəd-torpaq sahibliyi inkişaf etmişdir. Antik müəlliflərin məlumatına görə, münbit torpaqlar maqlara məxsus idi. Atropatenada quldarlıq da inkişaf etmişdir.

Atropatena dövlətinin təşəkkülü və inkişafı Ellinizm dövrünə təsadüf etmişdi. Bu dövrdə Atropatenada Şərq və Qərbin xüsusiyyətlərini özündə birləşdirən ellin mədəniyyəti yayılmışdır.

Makedoniyalı İskəndərin istilalarından, Əhəməni dövlətinin süqutundan və möhtəşəm imperiya yaradılmasından başlanan dövr qədim tarixdə mühüm mərhələlərdən birinin başlanması və yeni mərhələnin – Ellinizm mərhələsinin başlanması ilə əlamətdardır.

Ellinizm Qərb və Şərq quldarlıq cəmiyyətlərinin inkişafında yeni mərhələdir, Ellin mədəniyyəti ilə bir sıra Şərq mədəniyyətlərinin bir-birinə güclü nüfuzudur. Ellinizm yalnız uzaq vilayətlər arasında iqtisadi əlaqələrin canlanması dövrü deyil, həm də müxtəlif yunan institutlarının, yunan elminin, təhsilinin, ədəbiyyat və incəsənətinin Qədim Şərq ölkələrinə nüfuz etməsi, beləliklə, formaca sinkretik mədəniyyətin təşəkkülü üçün zəmin hazırlanması dövrü idi. Son dərəcə böyük əhəmiyyətə malik olan bir amil də Şərqin geniş ərazilərində, o cümlədən Atropatenada yunan dilinin yayılmasından ibarət idi.

Cənubi Azərbaycanın türksoylu kuti, lullubi, hurri, turukki, su və başqa tayfaların madalılarla qaynayıb-qarışması nəticəsində yeni bir etnos – atropatena etnosu təşəkkül tapdı.

Atropatena dövlətinin ümumi xarakteristikasını verərkən qeyd etmək lazımdır ki, bu dövlət yeni şəraitdə köhnə Midiyanın (Mada) etno-mədəni ənənəsini mahiyyətcə davam etdirsə də Azərbaycan məfhumu ilə bağlı olan siyasi, etno-mədəni xarakterli hadisələr və proseslər məhz Atropatena dövründə təşəkkül tapmağa başlamışdı.

Bu dövrdə Atropatena iqtisadi, sosial, mədəni və siyasi cəhətdən inkişaf ertmişdir. Atropatena ictimai–siyasi quruluşa malik olmuşdur. Atropatenada elmi dünyagörüşü məcusiliklə (Əl–Məcusiyyə – maqiya) bağlı olmuşdur.

Zərdüştlük Atropatenanın rəsmi dövlət dini idi. Zərdüştlük dinin yaradıcısı Zərdüştün e.ə. VII əsrin ortalarında Azərbaycanda anadan olması və e.ə. 595-ci ildə özünü peyğəmbər elan etməsi haqqında tutarlı dəlillər vardır. Zərdüştlüyün baş məbədi Atropatena ərazisindəki Qazaka şəhərində yerləşirdi. Baş məbədin mehrablarında daima od yanır və heç vaxt onu sönməyə qoymurdular.

Orta fars (pəhləvi) abidələrində qeyd olunur ki, Adurbadaqan (hərfən “odun himayəsində olan ölkə”) adlanan qədim Atropatena III yüzillikdən (260-cı ildən) Sasani dövlətinin tərkibinə daxil olur. Bununla da Atropatena dövləti süquta uğrayır. VII əsrdə Sasani imperiyası Ərəb xilafəti tərəfindən süquta uğradıldıqdan sonra isə Xilafətin tərkibinə qatılır. Bundan sonra ərəblər Adurbadaqanı Azərbaycan adlandırırlar.

**E.ə. IV əsrdə** Şimali Azərbaycan ərazisində **Albaniya dövləti** meydana gəlmişdir. Albaniyanın ictimai–siyasi fikir tarixinin öyrənilməsində Moisey Kalankatuklunun "Alban tarixi" əsəri, Alban kilsəsinin "V əsr Aquen məclisi"nin qanunları, alban katalikosu Simeonun VIII əsrdəki qanunları, Mxitar Qoşun (XII əsr) "Alban salnaməsi" və "Qanunnamə" əsərləri, Kirakos Qanzaksinin (XIII əsr) "Tarix" əsəri, Həsən Calalın (XIII əsr) "Aqvanın qısa tarixi" əsərləri olduqca qiymətli qaynaqlardır.

Ölkədə yaşayan və sayları getdikcə artmaqda olan türk etnosları dövlətin həyatında mühüm rol oynayırdılar. E.ə. IV əsrdə Azərbaycanın Araz çayından şimalda yerləşən torpaqlarında yaşayan və qədim türk soylarından biri olan Albanlar öz dövlətlərini qurmuşdular. E.ə. V əsrdə Herodot Araz çayından şimaldakı torpaqlarda kaspi adlı Alban tayfasının yaşaması haqqında məlumat vermişdir. E.ə. 331-ci il Qavqamela döyüşündə alban döyüşçüləri Əhəməni ordusunun tərkibində Makedoniyalı İsgəndərə qarşı vuruşmuşdur.

E.ə. IV–III əsrlərdə Albaniyanı idarə etmiş hökmdarların adları tarixdə qalmamışdır. Buna baxmayaraq e.ə. III əsrdə Makedoniyalı İsgəndərin pullarına oxşar yerli gümüş alban pullarının kəsilməsi, üzərində müxtəlif süjetlərın əks olunduğu üzük formal möhürlərdən istifadə olunması dövlətin mövcudluğundan xəbər verirdi. Dövlət sənədlərini təsdiq etmək üçün hökmdarların daşıdıqları belə möhürlərdən bizim eranın III əsrinədək istifadə olunmuşdur. Qədim Albaniyanın paytaxtı əvvəlcə Qəbələ, sonra isə Bərdə (V əsrdən sonra) şəhərləri olmuşdur.

Antik yunan müəllifi Strabona görə albanlar iberlərlə Kaspi dənizi (Xəzər) arasında yaşayırdılar. Dövlətin şərq sərhədini Kaspi dənizi, qərb sərhədini isə İberiya (İori çayınadək) təşkil etmişdır. İndiki Gürcüstanın şərqindəki Alazan vadisi Alban torpaqları idi. Alban dövlətinin şimal hüdudları Dərbənddən yuxarıdakı Samur dağ silsiləsindən başlayıb, Böyük Qafqaz dağlarının ətəkləri boyu İori çayının yuxarı axarınadək uzanırdı. Araz çayı isə Alban dövlətinin cənub sərhədi hesab olunur. Mənbələrdə Alban və Kür çayının Alban torpaqlarından axıb dənizə tökülməsi haqda geniş məlumatlar

vardır. Strabona görə Araz çayı da Alban ölkəsindən axıb Kaspi dənizinə tökülürdü.

Alban əhalisi vahid dildə danışmırdı. Strabona görə bu ölkədə 26 dil var idi. Albaniyada yaşayan tayfalar içərisində kaspiləri, utiləri, qarqarları, qardımanlıları, leqləri, gelləri və başqalarını göstərmək olar. Kaspilər, utilər və başqaları e.ə. I minilliyin ortalarında daha böyük tayfanın adı ilə albanlar adlandırılmışdır. E.ə. IV əsrdə baş vermiş Qavqamela döyüşündə Azərbaycanın şimalındakı tayfa birliyi artıq "Alban" adını daşıyırdı. Antik dövrdə Kaspi dənizini həm də Alban dənizi adlandırmışdılar. Strabona görə əvvəllər burada hər qəbilənin bir padşahı var idisə, e.ə. I əsrin 60-cı illərində bütün alban qəbilələrinə bir padşah başçılıq edirdi. Albaniyada yaşayan tayfaların dili türk, Qafqaz və s. dillər ailəsinə aid edilir. Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud" dastanında Qazan xan Alban tayfasının başçısı kimi göstərilmişdir.

Albaniyanın ictimai-siyasi quruluşu haqqında əsas məlumatlar arxeoloji abidələr və yazılı qaynaqların öyrənilməsi nəticəsində əldə edilmişdir. Strabon e.ə. 60-cı illərin hadisələri ilə bağlı yazırdı ki, hazırda bütün alban qəbilələrini bir padşah idarə edir. Əvvəllər isə burada hər qəbilənin öz padşahı var idi. E.ə. I əsrdə Pompeyin yürüşləri zamanı Albaniyanı Oroys, Antoninin yürüşləri vaxtı isə Zober adlı hökmdarlar idarə etmişdir. Alban Arşakilərinə qədər, yəni I əsrin ortalarınadək Albaniyanı onun ilk hökmdarı olmuş Aranın nəsli Aranşahlar idarə etmişdir.

Baş kahin Albaniyada hökmdardan sonra ən hörmətli şəxs idi. Baş kahin əhalisi sıx olan böyük bir müqqəddəs əyalətə başçılıq edirdi və məbəd qulları da onun ixtiyarında idi.

Albaniyada hakim zümrəyə əyanlar və kahinlər daxil idi. Cəmiyyət ali zümrə ilə yanaşı, kəndlilər, sənətkarlar və tacirlərdən ibarət idi. Albaniyada kənd təsərrüfatı və sənətkarlıq sahələrində çalışanların böyük hissəsi, ticarətlə məşğul olanların hamısı azad adamlar idi. Əkinçilikdə və sənətkarlığın bəzi sahələrində qul əməyindən də istifadə edilirdi. Strabon alban məbədlərinə məxsus qulların olduğunu qeyd etmişdir. Qul əməyindən padşaha və əyanlara məxsus təsərrüfatlarda da istifadə olunması ehtimal edilir. Lakin Misir, Mesopotamiya, Yunanıstan, Roma kimi klassik quldar

dövlətlərindən fərqli olaraq Albaniyada qul əməyindən az istifadə olunmuşdur. Burada əməkçi əhalinin böyük əksəriyyətini azad adamlar, yəni vergi ödəyən zümrələr (kəndlilər, sənətkarlar və s.) təşkil edirdi. Albaniyada quldarlıq, yalnız bir təsərrüfat ukladı kimi mövcud olmuş və cəmiyyətin bütün sosial-iqtisadi həyatını tamamilə əhatə etməmişdir. Quldarlığın zəif inkişaf etdiyi Alban cəmiyyətində nəsli-qəbilə quruluşunun qalıqları da öz təsirini göstərirdi.

Albanlar zəngin maddi və mənəvi mədəniyyətə malik idilər. Alban əhalisi antik dövrdəyazı mədəniyyətinə malik olmuşdur. Mənbələrə görə albanlar dünyada yazısı olan on beş mədəni xalqdan biri idi. Xristianlığa qədər Albaniyada çoxallahlılıq olmuşdur. Strabona görə albanlar Səma, Günəş və Ay allahlarına sitayiş edirdilər. Albanlar, hətta başqa xalqlarda olmayan çox yüksək əxlaqi dəyərlərin və davranış mədəniyyətinin yaradıcısı və daşıyıcıları idilər. Strabon yazırdı ki, "albanlar öz gözəlliyi və hündür boylu olmaları ilə seçilirlər. Onlar xırdaçı olmayıb ürəyiaçıqdırlar. Albanlar nəinki valideynlərinə, hətta yad qoca adamlara belə həddindən artıq hörmət göstərirlər". Göründüyü kimi, albanlar yüksək əxlaqi keyfiyyətlərə malik olmuşlar. Azərbaycan xalqının qədim əcdadlarından biri olan türksoylu albanların bu yüksək əxlaqi keyfiyyətləri minilliklərin tarixi sınağından çıxaraq bugünədək xalqımız tərəfindən qorunub saxlanmışdır.

Tədqiqatçılar Albaniyanın siyasi tarixini üç dövrə bölürlər:

Birinci dövr Arşakilər sülaləsinin hakimiyyəti dövrüdür (I əsrin ortalarından 510-cu ilə qədər). Moisey Kalankatlının "Alban tarixi" əsərində Arşaki nəslindən olan on hökmdarın adı çəkilmişdir;

İkinci dövr Sasani mərzbanlığı dövrüdür (510–629);

Üçüncü dövr Mehranilər sülaləsinin hakimiyyəti dövrüdür (630–705).

I əsrdə Arşaki nəslindən olan I Cəsur Vaçaqan Albaniyanın bütün vilayətlərini vahid dövlətdə birləşdirmişdi. Tarixdə onun və varislərinin hakimiyyət dövrü haqqında geniş məlumatlar yoxdur.

262-ci ildə Albaniya Sasani dövlətinin nüfuz dairəsinə daxil edilsə də, 272-ci ildə onun asılılığından çıxa bilmişdi. Müxtəlif vaxtlarda Alban hökmdarlarının Sasanilərdən asılılığı formal

xarakter daşıyırdı. Bəzi hallarda bu asılılıq qohumluq münasibətləri ilə tənzimlənirdi. Albaniyanı öz hökmdarları idarə edir və onlar çox zaman müstəqil siyasət yeritməyə çalışırdılar.

Albaniyanın şimal hissəsində xristianlıq, qalan ərazilərində isə zərdüştlük dinləri yayılmışdı. Xristianlıq Albaniyada I əsrdən yayılmağa başlasa da, ancaq I Urnayrın (313–371) dövründə Albaniya əhalisinin bir hissəsi xristianlığı qəbul etmişdi, qalan əhali zərdüşlük dinini saxlayırdı. Alban dövlətinin və Alban katalikosluğunun mərkəzi V əsrə qədər Qəbələ şəhəri idi. Urnayrdan sonra köhnə Alban əlifbası qarqar ləhcəsinə uyğun olaraq yenidən işlənib hazırlanaraq məktəblərdə tədris olunurdu.

510-cu ildən 629-cu ilədək Albaniyanı Sasani canişinləri mərzbanlar idarə edirdilər. Böyük mərzbanlıq adlanan bu dövrdə Azərbaycan dəfələrlə Bizansla Sasanilər arasında gedən müharibənin meydanına çevrildiyindən ölkənin iqtisadiyyatı tənəzzülə uğrayır, şəhər və kəndlər dağıdılır, əhali qırılır və mədəniyyət abidələri məhv edilirdi. 603–628-ci illərdəki Sasani–Bizans müharibəsi Bizansın qələbəsi ilə başa çatdı. Bu qələbənin qazanılmasında Bizansla ittifaqda olan Xəzər xaqanlığı böyük rol oynamışdı. Buna görə də Bizansın razılığı ilə Albaniya ərazisi Xəzər xaqanlığının siyasi təsiri altına düşdü.

Albaniya dövləti Mehranilər sülaləsi (630–705) dövründə, xüsusilə də, Cavanşirin (642–680) dövründə qüdrətləndi. Moisey Kalankatlı "Alban tarixi" əsərində Cavanşiri dövləti ədalətlə idarə edən, bütün gücünü öz ölkəsinin inkişafına və təhlükəsizliyinin təmin olunmasına yönəldən bir hökmdar kimi təsvir etmişdir. Cavanşirin ölkədə quruculuq, təsərrüfat və abadlıq işləri aparması, paytaxt şəhəri olan Bərdədə və digər yerlərdə gözəl saraylar və binalar tikdirməsi, alimləri, şairləri, elm və mədəniyyət xadimlərini himayə etməsi haqqında məlumatlar verir. Onun hakimiyyəti dövründə Albaniyanın sərhədləri qərbdə İberiyaya, şimalda "Hun qapıları" adlandırılan Dərbəndə, cənubda isə Araz çayına gedib çatırdı. Cavanşirin xarici siyasətinin əsas məqsədi Albaniyanın bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaqdan ibarət idi. 705-ci ildə ərəblər Albaniya dövlətinin müstəqilliyinə son qoydular.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. Azərbaycanın ilk dövlət qurumlarında ictimai-siyasi ideyaların meydana gəlməsi
2. Azərbaycanın Cənub hissəsində meydana gələn qədim Aratta, Lullubi və Kuti dövlət qurumlarında ictimai-siyasi ideyalar
3. Manna və Midiya dövlətlərində cəmiyyət həyatının formalaşmasında ictimai–siyasi fikrin rolu
4. Atropatenanın və Albaniyanın sosial, iqtisadi və mədəni inkişafına ictimai–siyasi ideyaların təsiri
5. Qədim Alban tarixçilərinin əsərlərində ictimai–siyasi ideyalar

## 1.6. Azərbaycanda İslama qədərki dövrdə ictimai–siyasi ideyalar

III–V əsrlərdə Azərbaycanda feodalizmə keçid dövründə müxtəlif dini və yeretik təlimlər meydana gəlmişdir. Sasanilər dövründə dini–fəlsəfi dünyagörüşü olan zərvanizm geniş yayılmışdır. Zərdüştlüyün dualist sistemindən fərqli olaraq zərvanilikdə vahid – monist başlanğıc Zaman (zərvan) ideyası inkişaf etdirilmişdir.

Zərvanizm ideyaları zərdüştlüyə və maniçiliyə böyük təsir göstərmişdir. Bu dövrdə dünyanın ilkin başlanğıcını Məkan (Qvasa) hesab edən təlim yaranmış və yayılmışdır. Qvasa “atmosfer” (vay) anlayışını ifadə edir. Bu dövrdə vayizm zərvanizmlə rəqabət aparırdı.

Azərbaycanda Erkən Orta Əsrlər dövründə maniçilik (III əsrin ortalarında) və məzdəkilik (V əsrin sonu VI əsrin əvvəllərində) əsas ideya cərəyanlarına çevrildi. İslama qədərki dövrdə maniçilik və məzdəkilik Yaxın və Orta Şərq xalqlarının ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

VII əsrə qədər Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda fəaliyyət göstərmiş dini–ideoloji, ictimai–siyasi təlimlər uzun müddət yaşamış və sonrakı ictimai–siyasi fikir cərəyanlarına təsir göstərmişdir.

### 1.6.1. Mani təlimində sosial-siyasi fikirlər

Mani (214–276) maniçilik dininin yaradıcısı olmuşdur. Maniçiliyin sosial–siyasi mahiyyəti zərdüştlük, xristianlıq, zərvanizm və buddizmin ayrı–ayrı ünsürlərini qarışıq şəkildə özündə ifadə etmişdir. Mani təlimi dualist xarakter daşıyır və zərdüştlükdən fərqlənir. Maniçilikdə xeyirlə şər və işıqla zülmət arasında kəskin mübarizə gedir, bu mübarizə əbədidir və qalib gələn yoxdur. Maninin “Sirlər kitabı”, “İki prinsiplər haqqında kitab” əsər və traktatlarında maniçilik təlimi geniş ifadə olunmuşdur.

Mani dualizm mövqeyindən çıxış edərək göstərirdi ki, “aləmin başlanğıcı iki varlıqdır: biri işıq, digəri qaranlıq”dır. Maninin fikrincə, “xeyir, mürvət, fayda, sevinc, nizam, birlik İşığın; şər, əskiklik, zərər, kədər, ixtilaf isə Qaranlığın işidir”. İbn Həzm (994–1067) yazırdı ki, “maniçilkdə ləzzət qaranlığa deyil, işığa xasdır, əziyyət isə işığa deyil, qaranlığa xasdır”.

Maniçilik Cənubi Azərbaycanda quldarlıq qurluşunun böhranı və feodal qaydalarının meydana gəldiyi dövrdə yaranmışdır. Maniçilik həm sosial və mülki bərabərsizliyə qarşı, həm dini, həm də dünyəvi hakimiyyət ədalətsizliklərinə qarşı yönəlmişdir.

Rus şərqşünası Vasili Vladimiroviç Bartold (1869–1930) yazır: “Maniçilik hərəkatı dövlət dininə qarşı yönələrək yeni dünya dinlərinin əsasları ilə əlaqəli idi, onun banisi Mani özünü Buddanın, Zərdüştün (o, zaman belə hesab edirdilər ki, zərdüşt Buddadan sonra yaşayıb) və İsanın varisi adlandırırdı, ancaq onun dini asketik idealı zümrə qurluşunun düşmənçilik ideyası ilə bağlı idi… Məzdək dini təbliğatçı kimi Maniyə yaxınlaşırdı”.

Maniçilik feodal istismarına qarşı kəndlilərin və şəhər əhalisinin etirazını, mübarizəsini ifadə edən bidətçi təlim sayıldığı üçün Manini edam etmişlər. Lakin maniçilik təlimi xeyli müddət yaşamış və V əsrin sonunda Məzdəkilərin mühüm ideya mənbəyinə çevrilmişdir.

## 1.6.2. Məzdəkilər təliminin sosial-siyasi mahiyyəti

V–VI əsrlərin hüdudunda (481–529) böyük sosial–dini, ideoloji və siyasi hərəkat olan məzdəkilər hərəkatı Azərbaycanda geniş yayılmışdır. Maniçiliyin təsiri əsasında yaranmış məzdəkizm təlimi güclü sosial dayağa malik olmuş və xalq kütlələri tərəfindən müdafiə edilmişdir. Azad icmaçı kəndlilər, sənətkarlar, xırda və orta əyanlar məzdəkilər hərəkatının sosial bazasını təşkil edirdi. Hərəkatın ideya rəhbəri Məzdəkin ictimai–siyasi baxışları humanist xarakter daşıyırdı. Məzdəkizm təliminə görə əmlak bərabərliyi sosial ədalətin ən yüksək formasını təşkil edirdi.

Məzdəkizm təlimi maniçiliyin bünövrəsi əsasında qurulmuş və güclü sosial aspektə malik olaraq, xalq kütlələri tərəfindən müdafiə olunurdu. Məzdək hərəkatın ümumi proqramını müəyyən edərək deyirdi: "Allah öz nemətlərini ondan ötrü yaradıb ki, insanlar onu öz aralarında bərabər bölsünlər. Ancaq insanlar bir-birilərinə münasibətdə ədalətsizliyə yol verirlər. Buna görə də sərvət varlıların əlindən alınaraq kasıbların arasında bölünməlidir". Məzdəkin dediklərindən aydın olur ki, məzdəkizm ideologiyası xüsusi mülkiyyətin ləğvinə çalışırdı.

Məzdəkizm orta əsrlər dövrünün siyasi təlimi kimi Azərbaycanda feodal münasibətlərinin gələcək inkişafında müsbət rol oynamışdır. Məzdəkizm təliminə görə mülkiyyət bərabərliyi sosial ədalətin ən yüksək formasıdır. Məzdəkilər mövcud sistemin ədalət və bərabərlik prinsiplərinə əsaslanan digər sistem ilə əvəz olunması şüarını irəli sürürdülər. Məzdəkilər hərəkatının başlıca zərbəsi aristokratiyanın iqtisadi və siyasi gücünə qarşı yönəlmişdi. Hərəkatın proqramının məzmununu utopik ideyalar təşkil edirdi, çünki feodal qaydalarının ləğvilə bərabər, məzdəkilər ibtidai-icma quruluşuna qayıtmaq arzusunda idilər.

Məzdəkin təlimi maniçiliyə çox yaxın olsa da nikbinliyi və inqilabi əhval-ruhiyyəsi ilə ondan seçilirdi. Məzdəkilərin ideyaları sonralar xürrəmilər tərəfindən davam etdirilmişdir.

### 1.6.3. Albaniyada xristianlığın yayılması və onun cəmiyyətin ictimai-siyasi həyatında rolu

III–IV əsrlərdə Bizansın güclü təsiri nəticəsində Albaniyada xristianlıq yayılmağa başladı. Şərq xalqlarının fikir tarixində bu dini ideologiyanın öz təsiri vardır. I əsrin ikinci yarısında qulların və məzlum zəhmətkeşlərin etiqadı kimi Romada meydana çıxmış xristianlıq ətraf məmləkətlərə nüfuz edərək, zaman keçdikcə Qərb, qismən də Şərq ölkələri xalqlarının dini-əqidəsinə çevrildi. Buna baxmayaraq Sasanilər tərəfindən Albaniyada xristianlıq sıxışdırılır və təqib olunurdu.

Xristianlığın əsası Bibliyada verilmişdir. İudaizmə və xristianlığa aid müqəddəs kitablar külliyyatı olan Bibliya Əhdi-Ətiq (Tövrat və b.) və Əhdi-Cədid (İncil və b.) kimi iki hissədən ibarətdir. Əhdi-Ətiq qədim yəhudi, qismən də arami dilində, Əhdi-Cədid isə qədim yunan dilində yazılmış vəsiyyətlərdir. Əhdi-Ətiqə yəhudilər və xristianlar, Əhdi-Cədidə isə ancaq xristianlar etiqad edirdilər. İlahiyyatçılar Bibliyanı Allahın nazil etdiyi kəlam, ilahi söz hesab edirlər. Xristianlığın mənbəyi Bibliyadan sonra Müqəddəs rəvayət (hədis) sayılır.

Albaniyada xristianlığı yayanlardan biri müqəddəs Fadeyin şagirdi müqəddəs Yelisey olmuşdur. Moisey Kalankatuklu yazırdı ki, "o, öz təbliğatına Çolada başlayır və müxtəlif yerlərdə şagird toplayaraq, onlara xilaskarı (İsa) andırmağa çalışırdı". Yelisey Albaniyada xrsitianlığı təbliğ edərkən digər dini əqidənin müqavimətinə rast gəlmişdir. Onun 3 şagirdindən birini öldürmüş, qalan ikisini isə hədələyib zorla öz yolundan döndərmişlər.

IV əsrin əvvəllərində hökmdar Urnayr Albaniyada xristianlığı rəsmi din elan etdikdən sonra bu dinin yeri xeyli möhkəmlənmişdi. Zaqafqaziyada xristianlığa çox böyük zərbə Sasani hökmdarı Firuz (459–481) tərəfindən vurulmuşdu. M.Kalankatuklu bildirir ki, "Firuz kilsələri dağıtmaq, xristian dinini ləğv etmək və bütün ondan asılı olan ərazidə atəşpərəstliyi bərqərar etmək istəyirdi. Elə buna görə də o, İsaya sitayiş edənlərin qanını tökmüşdü. Bir çox yerlərdə o, atəşgah tikdirərək atəş önündə ilahilərə ibadətləri gücləndirir və atəşpərəstlərin dinini qəbul etdirirdi. Firuzdan sonra onun yerinə

keçən qardaşı Valarş isə əmr vermişdi ki, hər kəs öz iradəsi ilə öz din və etiqadına sadiq olsun və heç kəs, heç kəsə məcusların dinini zorla qəbul etdirməsin”.

Dini ideoloji mübarizə yalnız xristianlıq ilə başqa dinlər arasında deyil, habelə xristianlığın öz içərisindən çıxmış müxtəlif məzhəblər arasında da gedirdi. Həmin məzhəblərdən nəstorilik və yəqubilik Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda daha artıq dərəcədə yayılmışdı.

Nəstorilik məzhəbinin banisi Nəstor (380–440) o zaman Bizansın əyaləti olan Suriyadan idi və 428-ci ildə Konstantinopol patriarxı seçilmişdi.

Yəqubilik məzhəbinin banisi Yəqub Bərdəi (…–578) Urha (Edessa) şəhərində yepiskop işləmişdir. Yəqub Bərdəi və onun tərəfdarları İsanın ilahi və insan təbiətinin nəinki birliyini, habelə eyniliyini deyir, İlahinin insanda təzahür etdiyinə inanırdılar. Lakin Yəqubilərin fikrincə, insanın ilahiyə çevrilməsi məntiqi çevrilmə deyildir. Bunu ona bənzədirlər ki, “kömür alova dönür, ancaq alov kömürə çevrilmir. Əslində alova atılmış kömür nə mütləq alov, nə də mütləq kömürdür, daha doğrusu, o yanar oddur”.

Hər iki məzhəb – həm Nəstorilik, həm də Yəqubilik ortodoksal xristianlıqla bir araya sığmayan müddəalarla çıxış etmiş, buna görə də rəsmi dairələrdə bidətçilik kimi qarşılanmışdır. İbn Həzm yəqubilərin və nəstorilərin ilahi insanın birliyi haqqındakı baxışlarını tutuşduraraq yazırdı: “Onlar deyirlər ki, ilahi insanla birləşmişdir, yəni eyni bir şey olmuşdur. Yəqubilər deyirlər: bu, suyun şəraba qarışıb, eyni şeyə çevrilən birliyi kimidir. Nəstorilər deyirlər: bu suyun yağa qarışıb həll olmayan birliyi kimidir”.

Nəstorilərin bəziləri Allahı və qeybdəki hər şeyi görməyi mümkün sayırdılar. Məhəmməd Şəhrəstani yazırdı: “Onlar demişlər: adam ibadətlə məşğul olsa, ət-yağ yeməyi tərgitsə, heyvani və nəfsani şəhvətləri atsa, öz cövhərini saflaşdırar, hətta göylərin malakutuna yetişər. Allah-təalanı açıq-aydın görər, qeybdə nə varsa ona agah olar. Nə yerdə, nə də göydə heç bir sirr, onun qarşısında açılmamış qalmaz”.

**Mövzu üzrə мühazirə və seminar planı**

1. Azərbaycanda İslama qədərki dövrdə ictimai–siyasi ideyalar
2. Mani təlimində sosial-siyasi fikirlər
3. Məzdəkilər təliminin sosial-siyasi mahiyyəti
4. Albaniyada xristianlığın yayılması və onun cəmiyyətin ictimai-siyasi həyatında rolu

## 1.7. VII–X əsrlərdə Azərbaycanda İslam dininin yayılması nəticəsində yaranan yeni ictimai–siyasi təlimlər

### 1.7.1. VII–X əsrlərdə Azərbaycanda ictimai-siyasi şərait

Atropatenanın və Albaniyanın Sasanilərin hakimiyyəti altında olduğu dövrdə ictimai–siyasi vəziyyət mürəkkəb idi. VII–X əsrlər Azərbaycan tarixində və mədəniyyətində mürəkkəb dövrlərdən biri olmuşdur. Azərbaycan VII əsrin I yarısında yenə də Sasanilər ilə Bizans arasında davam edən mühabələrdən zərər çəkirdi. Bir yandan da şimaldan Xəzərlərin arasıkəsilməz basqınları vəziyyəti daha da ağırlaşdırırdı.

Ərəblərin işğalçılıq fəaliyyəti başlayan ərəfədə Atropatena və Albaniya Sasanilərin tabeliyində idi. Xəlifə Ömərin hakimiyyəti dövründə (634–644) ərəblər Sasanilər dövlətinə hücuma başladılar. Onlara qarşı döyüşdə Sasani qoşunları ilə birlikdə Girdiman hökmdarı, Mehranilər sülaləsindən Cavanşir (616–681) başda olmaqla alban dəstələri də iştirak edirdi.

636-cı ildə xülafət qoşunları Sasani ordusunu darmadağın etdi və Sasanilərin paytaxtı Mədain şəhərini dağıtdılar. Döyüşlərdə mərdliklə vuruşan Cavanşir Sasanilərin məğlubiyyətindən sonra öz dəstələri ilə Albaniyaya qayıtdı. Öz ölkələrində mülklərindən məhrum olan Sasani feodalları 639-cu ildə Albaniyaya soxularaq Bərdəni qarət etdilər və əhalindən çoxlu əsir götürdülər. Albanlar Cavanşirin rəhbərliyi altında əsirləri azad edib, qəsbkarları qovdular.

Ərəblər Sasani ordusunu tamamilə darmadağın edəndən sonra Zaqafqaziyaya hücum etdilər. Xəlifə Osmanın (644–656) 654-cü

ildə göndərdiyi ordu Təbrizi və Naxçıvanı zəbt edərək Arrana daxil oldu, Beyləqan və Bərdə işğal edildi.

Əməvilər sülaləsindən Müaviyənin (661–680) xəlifəliyi Cavanşir üçün sərfəli oldu. O, xəlifə ilə danışıqlara girdi. Müaviyə Cavanşirə öz hakimiyyət ərazisini genişləndirməyi təklif etdi. Moisey Kalankatuklunun yazdığı kimi, "Lakin, Cavanşir dünyanın dörd tərəfinə hakim olub, özünü hakimi-mütləqə çevirməyi istəmədi. O, bu əlavə şöhrətdən imtina edib, öz təbii səxavətinə görə daha çox abadlıq və tikinti işləri ilə məşğul olmağı və öz ölkəsinin qayğısına qalmağı daha üstün tutdu. Buna görə o, xəlifədən xahiş etdi ki, onun ölkəsinə təyin olunmuş bacın (vergi) miqdarını azaltsın. Cənubun hökmranı buna razı olub əmr etdi ki, vergi onun üçdə biri qədər yüngülləşdirilsin". Daha sonra M.Kalankatuklu Cavanşirin siyasi fəaliyyətini, başçılığını yüksək qiymətləndirək yazırdı: "O, ədalətli hökmlər çıxarıb xalqın etibarlı haqqını verirdi. O, bütün günü nəşəli, keflə yox, öz ölkəsinin qayğısına qalmaqla məşğul olurdu".

Xilafətin tərkibində olan Albaniyada Mehranilər sülaləsi daha bir əsr hakimiyyətdə qalsa da, əslində idarəçilik ərəb əmirlərinin əlində idi. Bu dövrdə Albaniyanın ərazisi Arran, Muğan, Şirvan vilayətlərinə bölünürdü.

Artıq VIII əsrin 30-cu illərində Azərbaycan başdan-başa ərəb xilafətinin tərkibinə qatılmışdı. Azərbaycanın vahid dövlətdə – Xilafətdə birləşdirilməsi onun iqtisadi, ictimai-siyasi və mədəni həyatı üçün əhəmiyyətə malik idi. Bu, ölkənin ayrı-ayrı vilayətləri arasında möhkəm birlik və təmas yaratmaqla yanaşı, onun xarici ölkələrlə qarşılıqlı əlaqəsinin genişləndirilməsinə real imkan verirdi.

Azərbaycanın işğalından sonra torpaqların çox hissəsi xilafətin mülkiyyəti elan edildi. Dövlət torpaqları divani adlanırdı. Yerli feodal əyanların irsi mülkiyyəti olan torpaqlar mülk adlanırdı. Əməvilərin hakimiyyəti dövründə şərti feodal torpaq mülkiyyəti "iqta" (kəsik) adlanırdı. Dövlətdən iqta bəxşiş almış şəxs orada torpaq vergisi – xərac toplamaq hüququna malik idi. Xərac təbii suvarılan torpaqlardan götürülən gəlirin yarısını, süni suvarılan torpaqlardan isə dörddə birini təşkil edirdi. Azərbaycanda dini idarələrin torpaq mülkiyyəti vəqf adlanırdı. Başqa vergilər də var

idi. Xilafət ərazilərini əmirlər, onların məmurları idarə edirdilər. Vergi yığmaq işi amillərin, məhkəmə işləri qazilərin ixtiyarında idi. Maddi məhsulların bolluğu ölkədə bazarların böyüməsinə, daxili və xarici ticarət əlaqələrinin genişləndirilməsinə səbəb olmuşdu.

Feodalizmin bu dövrdə birləşməkdən daha çox siyasi cəhətdən parçalanmasını şərtləndirən inkişafı, həmçinin ölkədəki siyasi vəziyyət – xilafətə qarşı çoxsaylı üsyanlar IX əsrdə Azərbaycan ərazisində bir sıra müstəqil dövlətlərin: paytaxtı Şamaxı olan Şirvanşahlar dövləti, paytaxtı Ərdəbil olan Sacilər dövləti, onun əsasında yaradılan Salarilər dövləti, sonuncunun əsasında isə (Salarilərin torpaqlarının bölünməsi nəticəsində) paytaxtı Gəncə olan Şəddadilər dövləti və paytaxtı Təbriz olan Rəvvadilər dövlətinin yaranmasına səbəb oldu. X əsrin 80-ci illərində müstəqil feodal ölkəsi – Naxçıvan şahlığı yarandı.

Bu dövrdə Azərbaycanın şimal-qərbində – Tiflisə qədərki Azərbaycan torpaqlarında isə Şəki dövləti meydana gəldi. Şəkidən qərbdə paytaxtı Tiflis olan daha bir müsəlman dövləti – Tiflis müsəlman əmirliyi var idi. Albaniya hökmdarı titulunu daşıyan Şəki hakimləri Albaniyanın varisləri sayılırdılar. Albaniya ərazisində xristianlıqla yanaşı İslam dini də geniş yayılmışdı.

Azərbaycanda VII–X əsrlərdə ictimai-siyasi və etik–əxlaqi fikirlərdə zəngin folklor yaranmışdır. VII–X əsrlərdə ictimai–siyasi fikir tarixinin inkişafında görkəmli Azərbaycan mütəfəkkirləri Əbül Həsən Əli bin Harun Zəncani, Musa Şəhavət, İsmayıl ibn Yasar (…–748), Əbubəkr Muhəmməd ibn Abdulla Bərdəinin əhəmiyyətli rolu olmuşdur. Bu dövrdə ərəb dilli poeziya, elm və fəlsəfə meydana gəlmişdir.

### 1.7.2. İslam dininin Azərbaycanda yayılması və onun sosial-siyasi mahiyyəti

Xilafətin fəthləri ilə bir vaxtda Azərbaycanda İslam dini də yayılmağa başlamışdı. Yeni din ölkənin cənub hissəsində – Muğanda və Kaspi (Xəzər) dənizi sahili vilayətlərində nisbətən tez qəbul edilmişdir. İslam dini Azərbaycanın iri şəhərlərində, xüsusilə

tacirlər arasında sürətlə yayılır, əvvəlki dini əqidələri aradan qaldırırdı. Xristianlıqdakı missionerliyə oxşar təbliğata bəzən İslamda da təsadüf edilirdi. Məsələn, Əhməd Bələzuri (820–892) yazırdı ki, "hakim əl-Əşas ibn Qeys Azərbaycana dövlət təqaüdü və maaş alan ərəbləri köçürdü və onlara Azərbaycan əhalisini İslam dininə döndərməyi tapşırdı. Sonralar əl-Əşas buraya gələndə gördü ki, əhalinin çoxu artıq İslamı qəbul etmişdir və Quran oxuyur. O, təqaüd və xəzinədən maaş alan ərəblərin müəyyən hissəsini Ərdəbilə köçürdü, oranı tikdirib abad etdi və orada məscid tikdirdi, sonralar o məscid genişləndirildi". Lakin belə təşəbbüslər mütəşəkkil olmamışdır.

İslam dini bəzilərinin cizyə vergisindən azad olmaları, bəzilərinin hakim dairələrdə mövqe tutmaları və başqa məsələlər üzündən, ümumiyyətlə isə könüllərə daha tez yol tapması, həyatiliyi, munisliyi sarıdan qəbul edilirdi. Monist İslam dünyagörüşü atəşpərəstliklə ziddiyyət təşkil etdiyindən onu daha artıq dərəcədə sıxışdırırdı.

Keçmiş etiqadlarla müqayisədə İslamın mütərəqqi cəhətləri, xüsusən, azad fikirlilik meyllərinə dözümlülüyü ona qarşı rəğbəti artırırdı. Azərbaycanda müsəlmanlaşma prosesi müxtəlif dövrlərdə başa çatmışdır. Lakin əvvəlki dini əqidələr birdəfəlik yox olmamışdır, özünün bir sıra müddəaları və prinsiplərini xalq adət-ənənələrinə qoşaraq əsrlər boyu yaşatmışdır. Ölkədəki maddi mədəniyyət abidələri – atəşgahlar, alban kilsələri də keçmişlə bağlılığı möhkəmlətmişdir. Belə abidələrdən biri Şizdə yerləşirdi. X əsrdə Əbu Düləf yazırdı: "Orada çox möhtəşəm atəşkədə (od evi) vardır. Şərq və Qərbdə yaşayan atəşpərəstlər buradan od aparırdılar. Atəşkədə qülləsinin başında onun tilsimi olan gümüş aypara vardır. Bəzi əmir və fatehlər onu çıxarmaq istəmiş, lakin bacarmamışlar. Bu məbədin möcüzələrindən biri oradakı ocağın yeddi yüz ildən bəri yanmasıdır. Heç vaxt sönməməsinə baxmayaraq orada kül belə yoxdur".

VIII əsrin əvvəllərində İslam Azərbaycanda hakim dinə çevrildi. Ərəblərin hakimiyyəti dövründə Azərbaycanda inzibati siyasət və idarəetmə sistemi dəyişikliyə uğramadı. Sasanilərin

dövründə olduğu kimi qaldı və xilafətin hökmranlığı dövrlərində Azərbaycan müxtəlif vilayətlərin tərkibinə qatıldı.

İslam dini, eyni zamanda, Azərbaycanı idarə edən ayrı-ayrı yerli sülalələrin tez-tez bir-birini əvəz etdiyi bir tarixi şəraitdə bütün Azərbaycan əhalisinin – həm xalqımızın təşəkkülündə həlledici rol oynayan müxtəlif türk tayfalarının, həm də onlarla qaynayıb-qarışmaqda olan qeyri-türk etnoslarının yadelli qəsbkarlara qarşı vahid qüvvə halında birləşməsində də mütərəqqi rol oynadı. Məhz bunun nəticəsində Ərəb xilafətinin zəifləməsindən istifadə edən erməni, gürcü və Bizans təcavüzkarlarından ibarət vahid xristian blokunun Azərbaycan torpaqlarını işğal etmək planları puça çıxdı. Xəzər dənizi vasitəsilə tez-tez basqınlar edən slavyan-rus müdaxiləçiləri də Azərbaycanda möhkəmlənə bilmədilər. İslam dini ölkə əhalisinin etnik-siyasi birliyini daha da möhkəmləndirdi.

IX əsrdə ərəb əsarətinə son qoyulmasının və müstəqil feodal dövlətlərinin yaranmasının ictimai–siyasi fikir tarixinin inkişafına müsbət təsiri olmuşdur. Ərəb xilafətinin süqutundan sonra (IX əsr) Azərbaycanda yaranan müstəqil feodal dövlətləri olan Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövləti ictimai-siyasi fikrin inkişafına əlverişli şərait yaratmışdır. Şirvanşahlar dövləti XVI əsrə qədər mövcud olmuş, Səfəvilər dövründə isə Azərbaycan torpaqları vahid dövlət halında birləşdirildi.

Azərbaycanda xilafət dövründə quldarlıq quruluşunun qalıqları qalırdı. Ancaq İslamın yayılması və İslamın ilahi tələbləri ilə qulların vəziyyəti xeyli yüngülləşdi. Quran qulların azad olması ilə bağlı müraciət edirdi. Bu da müsəlman cəmiyyətində qulların xüsusi statusunun təsdiqi üçün əsas oldu.

Müsəlman qullar öz sahiblərini müşayiət edir, xidmətçi və silahdaşıyan funksiyalarını yerinə yetirirdilər. Onlardan çoxu sədaqətli xidmətə görə azadlıq əldə edərək əvvəlki xidmətlərini davam etdirirdilər. Mənbələr sübut edir ki, keçmiş qul ən yüksək sosial mövqe tuta bilərdi. Bu yolla ilk mərhələ bir çoxları üçün maval səviyyəsində olmasından ibarət idi (qeyri-ərəb mənşəli adamlara yeni müraciət). Sahibinin yüksək mövqeyi qullara böyük işləri görməyə və çoxlu pul qazanmağa imkan yaradırdı. Onlar hətta ordulara sərkərdəlik edirdilər.

## 1.7.3. İslam dinində yaranan ictimai–siyasi təlimlər

### 1.7.3.1. Quranın ictimai-siyasi mahiyyəti

İslam dininin ehkamları İslamın müqəddəs kitabı olan Quranda öz ifadəsini tapmışdır. 114 surədən, 6236-dək ayədən ibarət olan Quran Allah tərəfindən Məhəmməd peyğəmbərə nazil olan ilahi vəhylərin məcmusudur. Burada əsasən dini, etik, tərbiyəvi, hüquqi, təsərrüfat xarakterli məlumatlar, qaydalar, qadağalar, göstərişlər vardır.

İslam dini və onun müqəddəs kitabı olan Qurani–Kərim sosial–siyasi məzmuna malikdir. İslam dininin yaradıcısı olan Məhəmməd Peyğəmbərin ictimai–siyasi baxışları həmin dövrün siyasi ideyalarının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Qurani–Kərimdə dini, fəlsəfi, etik, estetik və ictimai–siyasi ideyalar ifadə olunmuşdur. İslamda Kəlam fəlsəfəsinin mahiyyəti açıqlanmışdır.

Quran ərəb-müsəlman ictimai-siyasi təfəkkürünün təşəkkül tapmasına böyük təsir göstərmişdir. Quran müsəlman təfəkkürünə fövqəladə dərəcədə mühüm amil olan İlahi ədalət haqqında ideyanı daxil etmişdir: Allah ədalətlidir və O, insanlara etdikləri, fikirləşdikləri və danışdıqlarının qarşılığını verir. Mühakimə (Qiyamət) günü "insanlar dəstə-dəstə çıxacaqlar və kim ki, zərrə boyda yaxşılıq etmişsə, onu görəcək və kim ki, zərrə boyda pislik etmişdir, onu görməyəcəkdir". Bütün fərdlər özünəməxsus təfəkkür və davranış tərzi seçmək hüququna malik olduğu üçün öz hərəkətlərinə cavabdeh olmalıdır və həqiqətən də ədalətli Ali Məhkəmədə öz hərəkətləri üçün cavab verməlidir. Öz təbiətini dəyişməyə qadir olmayan insan, buna baxmayaraq, şüurlu surətdə xeyir və ya şəri seçərək və buna müvafiq surətdə mükafat və ya cəzanı seçərək öz hiss və səylərini idarə etməlidir. Allah insana əsas mənəvi məsələnin, onun yerdəki varlığı məsələsinin həllində tam azadlıq vermişdir. Lakin insanın məsuliyyəti də böyükdür və özündən başqa heç kim onun taleyini müəyyən etməyəcəkdir.

Bir ideal olaraq Allahın atributları haqqında Quran təlimi böyük etik məzmuna malikdir. Ona bənzəməyə çalışmaq insanın

mənəvi kamilləşməsinin özək və hərəkətverici qüvvəsini təşkil edir. Əlbəttə, insanın ilahi ideala real surətdə nail olması prinsipcə qeyri-mümkündür, lakin, buna can atmağın özü insanın qarşısında mənəvi inkişaf üfüqləri açır.

Biliyə möhtərəm münasibət təkcə rasionalizmin böyük yer tutduğu Quran vasitəsilə təşviq edilmir, həmçinin, öz dini təfəkkür sistemində biliyə böyük əhəmiyyət verən peyğəmbər Həzrəti Məhəmmədin hədisləri tərəfindən də təşviq olunur. O, bilik axtarışını hər bir müsəlmanın dini borcu hesab etmişdir: “Bilik axtar, əgər o, hətta Çində olmuş olarsa belə”. Həzrəti Məhəmmədə (s.ə.s.) görə dərk etməyə göstərilən səy Allaha doğru yol açır.

Quran şüurlarda düşüncə tərzini dəyişdirərək, insanları yeni dünyabaxışı ilə həyatı anlamağa sövq etmişdi. Beləliklə, islam dəyərləri müsəlman icmasının həyat tərzinin bütün sahələrinə, əxlaqına, məişətinə hopduqca daha sağlam təfəkkür forması da inkişaf etməyə başladı. Yeni düşüncənin inkişafı ilə yanaşı, qədim mənbələr araşdırıldı, dövrə yararlılar yenidən bərpa edildi. Xüsusən qədim yunan filosoflarının əsərləri xilafət saraylarına ayaq açmağa başladı.

Azərbaycan VIII əsrdən etibarən ərəblərin işğalından sonra tədricən İslam mədəniyyətinin təsiri altına düşdü. VIII–X əsrlərdə Azərbaycanda xristianlıq, atəşpərəstlik, şamanizm ilə yanaşı İslam dini tədricən sosial həyatın müxtəlif sferalarını əhatə etməyə başladı.

Quran orta əsrlər İslam mədəniyyətinin başlıca abidəsi idi. Quran müsəlmanların dünyagörüşü ilə bağlı prinsipial məsələləri əks etdirirdi. Quran dövlət və cəmiyyətin sosial, mənəvi və təcrübi sahələri ilə bağlı məsələləri tənzimləyirdi. İslamın təməli hesab edilən Quran islam dünyası mütəfəkkirləri və o cümlədən, filosofları tərəfindən daim şərh və təfsir olunurdu.

Quranda Allahın adı və təzahürü kimi şərh edilən Haqq, Həqiqət, Ədalət Azərbaycan mütəfəkkirləri də daxil olmaqla İslam dünyası ideoloji cərəyanlarının – ismaililiyin, sufiliyin, hürufiliyin, bəktaşiliyin və s. fəlsəfi və ictimai-siyasi əsasını təşkil edirdi.

Sosial problemlərin şərhi Quranda iki istiqamətdə verilir: bir tərəfdən, mövcud sosial bərabərsizliyin Allahdan gəldiyi qeyd

olunur, digər tərəfdən isə var-dövlət toplamaq hərisliyi, tamahkarlıq, xəsislik və s. bu kimi keyfiyyətlər günah sayılır.

VII–VIII əsrlərdən başlayaraq Quranla yanaşı Azərbaycanda həm islamyönlü, həm də qeyri-ortodoksal ideoloji cərəyanlar yayılmağa başladı. VIII–X əsrlərdə Azərbaycanda Züheyr ibn Məhəmməd əl-Baba, İbn Əbu İmran əl-Babi, Misar bin Əli əl-Bərdəi, İbrahim bin Cəfər əl-Babi və başqa görkəmli ilahiyyatçılar fəaliyyət göstərirdi.

VIII əsrdən başlayaraq İslam dünyasında Quranla yanaşı ortodoksal hədis cərəyanı geniş yayıldı. Azərbaycanda da xüsusi hədis toplayanlar var idi. Əhməd ibn Harun Bərdici (844–914), Məkki ibn Əhməd Bərdəi (...–965), Cəfər ibn Məhəmməd Marağayi (889–967), Əbdül Əziz ibn Həsən Bərdəi (...–935), Musa ibn İmran Səlmasi (...–990), Cəfər ibn Məhəmməd Ərdəbili (X əsr) və Süleyman Təbrizi (X əsr) kimi ilahiyyatçılar da hədis toplayanlar cərəyanına aid idilər. Görkəmli Azərbaycan ilahiyyatçısı Məkki Bərdəinin "Əl-əsma əl-müfrəda" (Nadir adlar) əsəri islam ilahiyyatçıları tərəfindən ən yaxşı ilahiyyat şərhlərindən biri sayılırdı.

### 1.7.3.2. Mötəzililik təliminin ictimai-siyasi mahiyyəti

VII–X əsrlərdə Azərbaycanda və müsəlman Şərqində mövcud olan dini–fəlsəfi təlimlər və təriqətlərdə sünnilik, şiəlik, sifatilik, qədərilik, cəbərilik, mötəzililik, əşərilik və ismaililikdə ictimai–siyasi ideyalar irəli sürülmşüdür.

Azərbaycanda İslam dininin müxtəlif təriqət və cərəyanları geniş yayılmışdır. İslamda yaranan sifatilik, qədərilik, cəbərilik, mötəzililik və əşərilik təlimlərində dövrün ictimai–siyasi mahiyyəti göstərilmişdir. Sufilik sosial–fəlsəfi mahiyyət kəsb etmiş və başlıca müxalif cərəyana çevrilmişdir.

Azərbaycanda İslam ideologiyasının digər sahələri ilə yanaşı, ictimai–siyasi fikrin inkişaf etməsinə təsir edən Peripatetik fəlsəfəsi, Kəlam fəlsəfəsi, Sufizm fəlsəfəsi və "Saflıq qardaşları" təlimi geniş yayılmışdır.

VIII–X əsrlərdə İslam dünyasında olduğu kimi Azərbaycanda da antiortodoksal və bidətçi ideoloji cərəyanlar geniş yayılmağa başladı. Ortodoksal islam ilahiyyatından ilk uzaqlaşan cərəyanlardan biri **mötəzililik** (“ayrılanlar”) cərəyanı olmuşdur. **Bu cərəyanın banisi Vasil ibn Əta** və onun tərəfdarları VIII əsrdə əksər İslam ilahiyyatçıları tərəfindən qəbul edilən bir sıra əsas problemlərin – qəzavi-qədər, mükafat ya cəza, iman ilə əqlin əlaqəsi və sair məsələlərin təfsirindən uzaqlaşdıqlarına görə mötəzililər adlandırılmışdılar. İslamda həmçinin rasionalizm kimi də tanınan bu təlim əslində əqli inama qarşı qoyaraq, hesab edirdi ki, insan əqlin vasitəsilə kainat və Allahı dərk, xeyir və şəri isə müəyyən edə bilər.

Mötəzililiyin insanın iradə azadlığını qəbul etməsi və ilahi qəzavi-qədərin inkar edilməsi həmin dövrün ideoloji təsəvvürlərinin inkişafı üçün son dərəcə əhəmiyyətli idi. Mötəzililər hesab edirdilər ki, qəzavi-qədərin qəbul olunması ilahi ədalət anlayışına ziddir, çünki insan öz iradəsindən asılı olmayaraq icra etdiyi əməllərə görə cəzalandırıla bilməz. İslam dünyasında rasionalizmə və azadfikirliliyə əsaslanan mötəzililik Azərbaycanda da geniş yayılmışdı.

IX əsr ərəb tarixçisi Yəqubi Azərbaycanda mötəzililərlə İslam dininin ortodoksal cərəyanın nümayəndələri arasında baş verən mübarizə haqqında yazırdı ki, “bu mübarizə təkcə mübahisə xarakteri daşımırdı. Beləki, Bərdədə mötəzililər və ortodoks müsəlmanlar arasında toqquşmalar baş verirdi və mötəzililər, demək olar ki, son nəfəsədək vuruşurdular”.

Azərbaycanda mötəzililiyin görkəmli nümayəndələri Cəfər Həmədani, Mötəzili Bağdadi, Əbubəkr Məhəmməd ibn Abdulla Bərdəi, Əbusəid Əhməd Bərdəi və digər bu kimi böyük şöhrət qazanmış alim və ilahiyyatçılar idilər.

**Mötəzililik cərəyanının** görkəmli nümayəndələrindən biri olan **Xalid Cəhni (VIII əsr)** adlı müsəlman ilahiyyatçısı cəbrilərin alın yazısı ideyasının əleyhinə çıxaraq iradə azadlığının da mövcudluğunu söyləyirdi və qədəri (alın yazısı) iradə azadlığı ilə məhdudlaşdırdı. Quranın əzəliliyi məsələsində də, daha doğrusu, sonradan yaranıb-yaranmaması ilə bağlı həm qədərilər, həm cəbrilər zidd mövqelərdən çıxış edirdilər. Allahın atributları ilə bağlı

mübahisələrdə qədərilər daha çox sifatilərə qarşı çıxış edirdilər. Sifatilər Allahın ilahi keyfiyyətlərinin şərhində daha çox ifrata vararaq onun insaniləşdirilmiş obrazını (ilahi insan) formalaşdırmağa çalışırdılar. Qədərilər isə əksinə, Allahı ilahi Ruh kimi qəbul edirdilər və onda hər hansı bir formanın qəbulunu inkar edirdilər. Cəbrilər isə Allahın öz yaratdığı ilə (Quran) qədim və əzəli olduğunu söyləyirdilər.

Qeyd olunan problemlərin həllində sistemli şəkildə nəzəri görüşlərlə çıxış edən təlim mötəzililik oldu. Mötəzililər qədərilərin iradə azadlığı ideyalarını daha dəqiq və mükəmməl sistem şəklində inkişaf etdirdilər. Mötəzililərin ən böyük xidməti ondan ibarətdir ki, onlar dini dərk etmək üçün şüuru (əqli) bir meyar kimi götürmüşdülər. Bu prinsip nəticəsində onlar təkallahlılıq ideyasını müsəlman icmasında daha da möhkəmləndirdilər.

Mötəzililik təlimində Allah insan düşüncəsində saf və müəyyənolunmaz tamlıqdır, öz yaratdıqlarına bənzəmir və insanlar tərəfindən dərk olunmağı qeyri-mümkündür. Allah adildir, xeyirxah işlər sahibidir. Şərin törədiciləri isə bəndələr özləridir.

Mötəzililiyin böyük tədqiqatçılarından olan Q.Şteyner yazırdı ki, “mötəzililik tarixi əhəmiyyət kəsb edir, belə ki, onlar sarsılmaz ortodoksallığı dəf etməyə və İslama yeni elementlər gətirməyə səy göstərirdilər”.

Mötəzililərin alın yazısı haqqında ehkama qarşı mübarizəsi, onların insan ağlı və zəkasını idrakın yeganə mənbəyi və meyarı hesab etmələri o dövrdə müstəsna əhəmiyyətə malik idi. Onlar Yaxın və Orta Şərq xalqlarının mütərəqqi qüvvələrinin dünyəvi elmlər və fikir azadlığına doğru can atmalarını əks etdirirdilər. Mötəzililər bildirirdilər ki, alın yazısı nəzəriyyəsi insan azadlığını inkar edir. Mötəzililərin nəzərincə, bütün insan hərəkətlərinin əvvəlcədən fatalistcəsinə təyin olunması ideyası İlahi ədalət haqqındakı ehkama ziddir. Mötəzililər də öz sələfləri qədərilər kimi təsdiq edirdilər ki, insanın iradə azadlığını qəbul etməklə bütün bu ziddiyyətləri həll etmək mümkündür.

Mötəzililər Quranı qəbul edirdilər, lakin belə hesab edirdilər ki, onu Allahın mütləq mahiyyətinin təcəssümü (ifadəsi) kimi dəyərləndirmək olmaz. Onlar belə ehtimal edirdilər ki, Allah

kəlamının əzəliliyinə etiqad Allahın ilkin başlanğıc olması, hər yerdə mövcudluğu və müxtəlif cür təzahürlərə malik olması haqqındakı təsəvvürə ziddir.

Yaxın Şərq xalqlarının fəlsəfı fıkir tarixində islam ideoloqu Əşərinin (873–935) rəhbərliyi altında dini-idealist sistem kəlam fəlsəfəsi yaradıldı. Kəlam siyasi və ideoloji dəyişiklikləri mümkün hesab edir, lakin bunları ortodoksal islam çərçivəsində həll etməyi lazım bilirdi. İslam ehkamından, azacıq da olsa belə yayınma İslamın əsaslarını dəyişdirmək kimi dəyərləndirilirdi. Onlar tələb etdilər ki, Allahın mütləq olmasına dair mötəzililər tərəfindən dağıdılmış inam bərpa edilsin.

### 1.7.3.3. Mütəkəllimlər təliminin dini-siyasi mahiyyəti

Mütəkəllimlər – dünyanın əbədiliyi, təbiətdə baş verən hər bir şeyin obyektiv səbəbiyyət əlaqələri və qanunauyğunluğu haqqında təlimə qarşı çıxırdılar. Alın yazısının əvvəlcədən müəyyən olunması nəzəriyyəsini müdafıə etmək üçün mütəkəllimlər ilk növbədə təbiət hadisələrinin qanunauyğunluğu və səbəbiyyət asılılığı nəzəriyyəsinə qarşı çıxdılar. Onlar bildirirdilər ki, səbəblər və nəticələr mövcud olur, lakin onların mövcudiyyəti Allah tərəfindən müəyyən edilir. Çünki, Allah yerinə yetirilən fəaliyyətləri əlaqələndirmək adətinə malikdir, müəyyən hərəkətlər də onun özü tərəfindən yaradılmışdır. Bununla da, onlar dünyanın heç nədən yaradılması ideyasını nəzəri surətdə əsaslandırmağa səy göstərirdilər. Mütəkəllimlər çalışırdılar ki, Allahın azad iradəsinin dünyanı təkcə yaratmadığına, fasiləsiz və birbaşa surətdə bütün hadisələrə təsir göstərməsinə, daima onları heç nədən yenidən və yenidən yaratmasına olan inamı möhkəmləndirsinlər. Mütəkəllimlər təbiət hadisələri arasındakı səbəbiyyət əlaqəsinin keçici olduğunu elan etmişdilər və keçmiş ilə indi, indi ilə gələcək arasında, əvvəl ilə sonra arasında hər hansı real əlaqənin olmadığını sübut edirdilər.

Mütəkəllimlər mötəzililərin rasionalizmi və azadfıkirliliyinə zidd olaraq təsdiq edirdilər ki, insan nə azad, nə də fəaldır, insan yalnız və yalnız yaradanın sözəbaxan (müti) alətidir. Onlar

deyirdilər ki, insan ağlı qeyri-fəal (passiv) və kordur, insan da Allah tərəfindən yaradılmış bütün başqa cismlər kimi daxili potensiyaya malik deyildir və yalnız Yaradan tərəfindən əvvəlcədən müəyyən olunmuş hadisələri yerinə yetirir. Bununla da, insan ağlının real gerçəkliyi dərk etmək qabiliyyətini inkar edirdilər.

VIII–X əsrlərdə Şərqin İslam bölgəsinin ideologiyasında mütəkəllimlər və mötəzililərin ideya mövqelərini barışdırmağa cəhd edən bir sıra nəzəri cərəyanların da mövcud olduğunu qeyd etmək lazımdır. Bu cərəyan Əbülhəsən əl-Əşərinin (...–941) adı ilə bağlıdır. Onun tərəfdarları İslamın qəzavü-qədər barədəki ehkamlarını sübuta yetirmək üçün qədim yunanların məntiq və fəlsəfəsindən rasionalistcəsinə istifadə etməyi təklif edirdilər. Mötəzililərdən fərqli olaraq əşərilər Allahın sifətlərinin (atributlarının) mövcudluğunu qəbul edir və onları Onun zatından, mahiyyətindən fərqli hesab edirdilər. Onlar dini buyuruqları əxlaqdan üstün tuturdular. İstər mütəkəllimlər, istərsə də əşərilər əsasən İslamın ilahiyyat tərəfini – kəlamı təmsil edir və müxtəlif yollarla İslamın əsas ehkamlarını qorumağa çalışırdılar. Öz ideya düşmənlərilə, xüsusilə mötəzililərlə mübarizə zamanı mütəkəllimlərə dəlil kifayət etməyəndə, lazım gəldikdə, onlar hədis uydurmaqdan da çəkinmirdilər.

### 1.7.3.4. İsmaililik təliminin ictimai-siyasi mahiyyəti

İslam təlimləri içərisində ən böyük təriqət, siyasi və fəlsəfi nəzəriyyəyə malik olan ismaililər tarixdə daha çox məşhurdular. İsmaililər Cəfər əs-Sadiqin oğlu Məhəmməd ibn İsmaili (VIII əsr) sonuncu imam kimi qəbul edirdilər.

İsmaililiyin inkişafı dörd mərhələdən keçmişdir:

Birinci mərhələ – IX əsrin sonlarında yaranan ilkin ismaililik;

İkinci mərhələ – Misirdə Fatimilərin hakimiyyəti dövründə mövcud olmuş ismaililik;

Üçüncü mərhələ – İsmaililiyin parçalanması və Əlamut qalasında yaranan yeni ismaililik (1257-ci ilə qədər);

Dördüncü mərhələ – Şərqin müxtəlif ölkələrində mövcud olan (əsasən Hindistanda, "canlı Allah" ləqəbli Ağa Xanın başçılığı altında) və bugünümüzə kimi yaşayan son ismaililik.

Yeddinci imamın varisləri olan ismaililərdə ən müqəddəs rəqəm məhz yeddidir. Onlara görə, bəşər həyatı yeddi peyğəmbər dövrü kamilliyə gedən yolun mərhələləri ilə qeyd olunmuşdur: Adəm, Nuh, İbrahim, Musa, İsa, Məhəmməd və sonuncu gün Məhəmmədin dövrü olacaqdır. Daxili ismailiyə təliminə görə, dünyanın çoxtərəfli təzahürünün yeganə başlanğıcı vahidlikdir. Onun heç bir atributu yoxdur. İsmaililər insanlar ilə Allah (həqiqət) arasında imamın vasitəçiliyini zəruri hesab edirdilər. İsmaililərin ezoterik təlimi emanasiyanın yeddi mərhələsini ayırır: mütləq olan Allah, dünya zəkası, ali ruh, ilkin materiya (dörd ünsür), fəza, zaman və kamil İnsan. İmamlar məhz kamil insanlardır.

İsmaili təlimində Quran mahiyyət etibarilə iki mənadan: zahiri (hərfı) və batini (məcazi) mənalardan ibarətdir. Onlar birinci mənanı rədd edir, batini mənanı dərk etməyə çalışırdılar. Buna görə də əksər hallarda ismaililəri batinilər kimi tanımışlar. Batinilər Məhəmməd peyğəmbəri Quranın yayıcısı, Əlini isə ayələrin şərhçisi hesab edirdilər. Canlı aləmdə Dünya zəkasını təcəssüm etdirən kamil İnsan məhz Peyğəmbər, yaxud batinilərin adlandırdıqları Natiq ola bilər. Peyğəmbərin köməkçisi Samit isə, canlı aləmdə Ali Ruhu təcəssüm etdirəndir və Peyğəmbər vasitəsi ilə söylənilən Tanrı sözlərinin (ayələr) daxili məzmununu açıqlamaq onun vəzifəsidir. Quran ayələrini təfsir etməyə Əlidən sonra yalnız imamların və ismaili mübəlliğlərinin hüququ çatırdı.

İsmaili təriqətində siyasi təşkilatlar da yeddi dərəcədən ibarət idi ki, bunların fəaliyyətində də onlar aktiv iştirak etmişdilər.

İsmaililik – İslam dünyasının sosial-siyasi həyatının və ideologiyasının mürəkkəb və daxilən ziddiyyətli cərəyanı olmuşdur. Əvvələr ismaililik yalnız şiəliyin bir qolunu təmsil edirdi, lakin IX əsrin ortalarından onun dünyagörüşünə dair təsəvvürləri islamdan o qədər uzaqlaşmışdı ki, şiələrin özləri ismaililəri bidətçi elan etmişdilər.

Əbdülqahir Bağdadi (...–1038) yazırdı ki, "ismaililərin məqsədi islamı məhv edib zərdüştlüyü bərpa etməkdir".

İsmaililik fəlsəfəsi IX–X əsr Azərbaycan mütəfəkkirlərinin irsində kifayət qədər təfsilatı ilə əks olunmuşdur. İsmaililiyin tarixçisi Fidai bildirir ki, Azərbaycanda bu təlimin ardıcılları çox idi. İsmaililərin Azərbaycan hökmdarına qarşı düşmənçiliyini Nizami "Sirlər xəzinəsi" əsərində təsvir etmişdir.

### 1.7.3.5. Sufizm təliminin ictimai-siyasi cəhətləri

VII–X əsrlər və sonrakı dövrlərdə Sufizm və yaxud vəhdət əl-vücud nəzəriyyəsi geniş yayılmışdı. Azərbaycan sufilərinin təlimlərində bir tərəfdən, bu cərəyana xas olan zahidlik və mistisizm, digər tərəfdən isə onun mənəvi və sosial şərə qarşı sonsuz etirazı mühüm yer tuturdu. Sufizmin ideoloji əsasını humanizm, insanpərvərlik və sosial ədalət təşkil edirdi.

VIII əsrdə ictimai–siyasi hadisələrin kəskinləşdiyi dövrdə yeni bir fikir cərəyanı olan sufilik meydana gəlmiş və müsəlman ölkələrinə sürətlə yayılmışdır. Sufizmin ictimai-siyasi mahiyyəti və sufilərin təlimləri neoplatonizmin, maniçiliyin və buddizmin elementlərini eklektik şəkildə özündə ehtiva edirdi.

Sufizmin görkəmli nümayəndələri olan bidətçi-panteist Əbu Yəzid Bistami və Mənsur Həllacın təlimləri Azərbaycanda geniş yayılmışdı. Tarixdən məlumdur ki, Həllac Reydə, Təbəristanda və Azərbaycanda qərmətilik cərəyanına rəhbərlik etmişdir. VII–X əsrlərdə Azərbaycanda və İslam dünyasında Əbülfərəc Əbülvahid Vərəsani Təbrizi, Əbusaib Həmədani, Əli ibn Əbdüləziz Bərdəi və Əbubəkr Məhəmməd ibn Abdullah Əbhəri kimi sufi nümayəndələri nüfuz qazanmışdılar.

X–XI əsrlərdə Azərbaycanda sufiliyin görkəmli nümayəndəsi Baba Kuhi Bakuvi olmuşdur. O, öz poetik Divanında sufi fəlsəfəsinin əsas prinsiplərini izah etmişdir. Baba Kuhinin Divanı Şərqin fəlsəfi poeziyasında sufiliyin şərhinin nisbətən erkən nümunələrindən biridir.

Orta Asiya və Azərbaycan, Yaxın və Qrta Sərq xalqlarının tarixində sufızmin böyük əhəmiyyəti olmusdur. "Sufı" ərəb sözüdür,

“sufı” yun, “sufiy” yun plaş (xirqə) geyinən deməkdir. Sufizm İslamın dini mistik təlimidir.

Sufızmin ardıcılları həyatın ali məqsədini insan ruhunun Allahla mistik surətdə birləşməsində görür, Yer üzündə mövcud olan hər cür nemətdən əl çəkməyi lazım bilirdilər. Yalnız bundan sonra insan varlıqdan yüksək, vahid Allahla mənən təmasda olur.

Allaha inam sufızmin əsas prinsipidir. Sufızm özünəməxsus müsəlman teosofiyasıdır (teosofıya yunanca “Allah” və “müdriklik”, geniş mənada “Allahı mistik dərketmə” deməkdir). Sufizm nöqteyi-nəzərincə, yeganə reallıq Allahdır, qalan hər şey isə duyğuların insanı aldatmasıdır. İnsan nə vaxtsa Allahla bir olmuş, sonra Allahdan ayrılmış və tədricən get-gedə ondan uzaqlaşmışdır.

Lakin Allahdan başqa digər bir gerçəklik olmadığına görə, bu uzaqlaşma da yalnız və yalnız xəyal olmuşdur. Yenidən Allaha mənən qovuşmaq üçün bircə addım atmaq lazımdır. Yəni insan özünün qeyri-real “mən”indən kənara çıxmalı və əsl “mən”in insanda yaşayan Allah olduğunu dərk etməlidir. İnsanın Allahla qovuşmasını həyata keçirən bu qüvvə böyük məhəbbətdir, “ehtirasdan” fərqli olaraq, “özünü” tanımayan məhəbbətdir. Əgər insan bunu dərk etmişsə, deməli, məqsədinə çatmışdır. Buna görə də həqiqət yolunda ilk addım öz-özündən qaçmaq, Allahı dərk etmək və onunla qovuşmaqdan ibarət olmalıdır. Bunun üçün sufı bir sıra pillələrdən keçməlidir:

- Birinci pillə şəriət (qanun) adlanır, İslam və müsəlman ilahiyyatının bütün göstərişlərinin dəqiq və səylə yerinə yetirilməsini tələb edir. Bu mərhələ həqiqi sufizmə getmək üçün hazırlıq və sınaq mərhələsidir;

- İkinci pillə təriqət (yol) adlanır. Bu pillədə sınaq mərhələsini keçmiş və İslamın göstərişlərinə əməl etməkdə kamilliyə nail olmuş insan həqiqət (daha doğrusu, mistisizm) yoluna ayaq basır. Bu yol sufıni Allahla qovuşmağa gətirməlidir. Allahla qovuşmağa insan “mən”i mane olduğu üçün, sufi hər şeydən əvvəl, öz “məni”ni məhv etməyə nail olmalıdır. Bunun üçün insan xarici aləmdən, dünyəvi nə varsa, hamısından ayrılmalı, özünə qapılmalı, özünün daxili aləmi ilə, öz mistik hissləri ilə məşğul olmalı, özünü Allaha xidmətə həsr

etməlidir. Bütün bunlara görə də sufizm asketizmi, tərkidünyalığı, ictimai həyatda fəal iştirak etməkdən imtinanı təbliğ edirdi;

- Ücüncü pillə mərifət (idrak) adlanır. Mərifət mərhələsində insan qəlbən kainatın Allahla vəhdətini, maddi aləmin xəyaliliyini və faniliyini, bütün dinlərin, həmçinin xeyir və şərin bərabərliyini və s. dərk edir. Üçüncü pilləyə yetişən sufi "arif" (bilici, dərk edən, müdrik) adlanır;

- Dördüncü, yekun pillə həqiqət adlanır. Yaxın və Orta Sərq ölkələrində sufizmin mahiyyətinin ümumi cəhətləri bunlardan ibarətdir.

Azərbaycan sufizmin banilərindən biri olan İbn-Mənsur əl-Həllac (848–922) baxışlarına görə edam olunmuşdur.

Sufizm ideyalarını sonrakı dövrlərdə Əbu Hamid əl-Qəzali, Əbuhəfs Ömər Məhəmməd oğlu Sührəvərdi, Əbunnəsib Əbdülqadir Abdulla oğlu Sührəvərdi, Qətran Təbrizi, Xətib Təbrizi, Əbuhəfs Zəncani, Fəxrəddin Marağayi, Şihabəddin Əbül Fütuh Yahya ibn Həbəş Sührəvərdi, Şihabəddin Əbuhəfs Ömər ibn Mühəmməd Sührəvərdi, Eynəlqüzat Miyanəci, Əvhədi Marağayi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Fəzlullah Nəimi, İmadəddin Nəsimi və s. Azərbaycan mütəfəkkirləri davam etdirmişlər.

### 1.7.3.6. "Saflıq qardaşları və vəfa munisləri" təşkilatının ictimai-siyasi fəaliyyəti

X əsrin II yarısında Bəsrədə gizli dini fəlsəfi cərəyan "Saflıq qardaşları və vəfa munisləri ("İxvan əs-səfa va xüllam əl-vəfa")" cəmiyyəti yarandı. Bu cəmiyyətin üzvləri Zeyd ibn Rifaə, Əbu Süleyman Məhəmməd ibn Məşər Bisti (Müqəddəsi), Əbülhəsən Əli Harun oğlu Zəncani (əslən azərbaycanlıdır), Əbuəhməd Məhrəcani və Əvfi olmuşlar. Onlar tərəfindən 52 traktat yazılmışdır. Bu traktatlar həmin dövrün elmi və fəlsəfi biliklərinin özünəməxsus ensiklopediyası kimi qiymətləndirilə bilər.

"İxvan əs-Səfa" ("Saflıq qardaşları") təşkilatının sosial-siyasi ideyalarının Azərbaycanın siyasi təlimlərinin inkişafında xüsusi rolu olmuşdur.

Fəlsəfi biliklərin ensiklopediyası olan “Saflıq qardaşları” cəmiyyətinin fəaliyyəti (X əsr) Azərbaycanla da bağlı olmuşdur. X əsrdə bidət sayılan cərəyanları və təlimləri “Saflıq qardaşları”nın dünyagörüşünə güclü təsir etmişdir. Bu cəmiyyətin hazırladığı “Saflıq qardaşlarının və vəfa munislərinin traktatları” ensiklopediyası ictimai–siyasi mahiyyət daşıyır. “Saflıq qardaşları”nın yaradıcı üzvlərindən əslən azərbaycanlı olan Əbülhəsən Əli Harun oğlu Zəncani böyük nüfuza malik olmuşdur.

Hakim siyasi quruluşa və onun ideologiyasına müxalif olan “Saflıq qardaşları” təşkilatının fəaliyyəti ciddi məxfilik şəraitində aparılırdı, ona görə də onların yazdıqları çoxsaylı elmi, fəlsəfi və ilahiyyata dair traktatlarda müəlliflərin adları göstərilmirdi.

“Saflıq qardaşları”nın müəllifləri arasında təşkilatının görkəmli xadimi, Azərbaycan filosofu Əbülhəsən Əli ibn Harun əz-Zəncaninin də adı aşkar olunmuşdur. Onun haqqında müəyyən məlumatlar Cəmaləddin əl-Qiftinin “Tarix əl-hükəma” kitabında verilir.

Azərbaycan mütəfəkkiri Əli ibn Harun əz-Zəncani “Saflıq qardaşları” təşkilatının ideoloqlarından biri olmuşdur. Onun yaradıcılıq fəaliyyəti bütünlüklə “Saflıq qardaşları” təşkilatı ilə bağlı olmuşdur.

“Saflıq qardaşları”nın məqsədi ərəb xilafətinin əhalisinin geniş təbəqələri arasında elmi bilikləri yaymaq olmuşdur. Onlar hakim quruluşu devirmək və “xeyir dövlət”ini bərqərar etmək məqsədi ilə xalqı mübarizəyə hazırlamaq üçün təşkilatçılıq işi də aparırdılar.

“Saflıq qardaşları” öz təşkilatlarına cəmiyyətin müxtəlif təbəqələrini və xalqların nümayəndələrini cəlb edirdilər. Onlar yazırdılar: “Bizim müxtəlif ölkələrdə alicənab və ləyaqətli insanlar olan qardaşlarımız və dostlarımız var: onlar şahların, hakimlərin, nazirlərin, məmurların və yazıçıların övladlarıdırlar, əsil-nəcabətli və adlı-sanlı insanların, canişinlərin, tacirlərin və ordu başçılarının övladlarıdırlar, alimlərin, ədəbiyyatçıların, fəqihlərin və ruhanilərin övladlarıdırlar, həmçinin sənətkarların, xidmətçilərin və başqa rəiyyətin övladlarıdırlar. Hər qrupa biz gözüaçıqlığına əmin olduğumuz alimlərdən rəhbər təyin etmişik”.

“Saflıq qardaşları” təşkilatının üzvləri dünya mədəniyyətinin məlumatlarını sintez etmək yolu ilə bütün xalqları birləşdirmək, yer üzündə əmin-amanlıq, xeyiri və ədaləti bərqərar edə bilən vahid, həqiqi təlim yaratmaq məqsədini qarşılarına qoymuşdular.

“Saflıq qardaşları” yazırdılar: “Qardaşım, bil ki, bütün insanları birləşdirən və onların möminliyini təmin edən həqiqətin dərkindən özgə bir yolla müxtəlif dinlərə etiqad bəsləyən insanlar arasında münasibətləri yaxşılaşdırmaq və öz aralarında düşmənçilik edən müxtəlif təriqətlərin tərəfdarlarını barışdırmaq mümkün deyil. Nə qədər ki, insanlar arasında əqidələrinə, din və təriqətlərinə görə ixtilaflar mövcuddur, onların arasında düşmənçilik heç vaxt yox olmayacaq və müharibə alovu sönməyəcək”.

“Saflıq qardaşları” təşkilatının ideyalarında sosial-siyasi baxışlar önəmli yer tutur. Onlar cəmiyyətin təşəkkülü prosesini təbii qanunauyğun hadisə kimi izah edirlər: “…Lap əvvəllər insanlar çox az idilər və onları hər yerdə təhlükə gözləyirdi. İnsanlar o zaman dağların, təpələrin zirvəsinə sığınır, dağ mağaralarında (sərt havadan) qorunur, ağacların meyvələri, otlar və bitkilərin toxumları ilə qidalanırdılar; istidən və soyuqdan qorunmaq üçün insanlar ağacların yarpaqlarından istifadə edirdilər… Onlar xüsusilə saysız-hesabsız yırtıcı heyvanlardan qorxurdular”.

Yaşamaq üçün vacib tələbatlarını ödəmək zərurəti – odun saxlanması, iri heyvanların ovu, vəhşi heyvanlardan müdafiə, sonralar mənzillərin tikintisi, qayıqların düzəldilməsi və s. insanların birləşməsini tələb edirdi. Beləliklə, kiçik birliklər yaranırdı, sonra insanların sayı artmağa başladı. Onlar yerin bütün səthinə yayıldılar, heyvanları əhliləşdirməyə, kəndlər, şəhərlər salmağa başladılar. Yaranan birliklər – xalqlar bir-birinə bənzəmirdilər. “Saflıq qardaşları” bu müxtəlifliyin onların formalaşdıqları və inkişaf etdikləri coğrafi şərait, təbii mühitlə şərtlənmiş olduğunu qeyd edirdilər.

“Saflıq qardaşları” “cəmiyyət” və “dövlət” anlayışları arasında fərq qoymur, çox vaxt onları eyni mənalı anlayışlar kimi işlədirdilər. “Saflıq qardaşları” təbiətdəki dəyişikliklərin fasiləsizliyini qəbul edərək, qeyd edirdilər ki, cəmiyyət və dövlət insan kimi öz inkişafında uşaqlıq, yetkinlik, qocalıq və ölüm

mərhələlərini keçir. Traktatlarda deyilir: “Hər bir cəmiyyətin öz başlanğıc dövrü, öz inkişaf dövrü və məhvolma dövrü vardır. Cəmiyyət artıq məqsədinə çatanda, özünün son həddinə gəlib çatanda, o zəifləyir və dağılmağa başlayır, onun əhalisi arasında parçalanma, bədbəxtliklər başlanır. Eyni vaxtda isə başqa bir cəmiyyətdə həyatverici qüvvələr meydana gəlir, o qalxır, möhkəmlənir və genişlənir. Beləliklə, cəmiyyətin biri məhv olur, digəri yeniləşərək, formalaşır və güclənir”.

“Saflıq qardaşları” ictimai dəyişiklikləri insanların öz maddi və mənəvi tələbatlarını təmin etmək zərurəti ilə, habelə cəmiyyətdə həm ayrı-ayrı fərdlər, həm də ayrı-ayrı qruplar arasında baş verən mübarizə ilə əlaqələndirirlər. Lakin, onlar sosial mübarizənin əsas səbəbini hakimiyyət uğrunda mübarizədə görürdülər. Cəmiyyətdə mövcud olan çəkişmələrin səbəblərindən bəhs edərkən dini-ideoloji səbəbləri göstərmələrinə baxmayaraq, uzaqgörənliklə, nəzəri ixtilafların da siyasi əsasının olduğunu qeyd edirdilər. Onlar yazırdılar ki, insanlar hakimiyyətə çatmaq üçün çoxlu əsasnamələr və dini qanunlar uydururlar, insanlar bir-birilərini öldürürlər, lakin bu din uğrunda deyil, hakimiyyət naminə baş verir.

“Saflıq qardaşları” öyrədirdilər ki, ayrıca bir dövlət daxilində müdrik və ədalətli ictimai qaydanın mövcud olması bir şərtlə mümkündür ki, onun vətəndaşları öz naqis maraq və ehtiraslarına üstün gəlməyi bacaran, bilikli adamlar olsunlar və dövlətin başında ədalətli hökmdar dursun.

“Saflıq qardaşları” qeyd edirdilər ki, cəmiyyət həmcins deyil, insanlar “çoxlu qruplara bölünürlər, bu qruplardan hər birinin insanların əmək şərtlərindən, məşğuliyyətlərindən asılı olan öz xasiyyətləri, adətləri, xüsusiyyətləri və məqsədləri vardır və buna görə bir-birindən fərqlənirlər”.

“Saflıq qardaşları” sosial bərabərsizlik faktını təsdiq edərək, onu bir tərəfdən, insanların şəxsi qabiliyyətlərinin və digər tərəfdən, zorakılığın nəticəsi hesab edirdilər və əgər birinci şərti onlar qanunauyğun hadisə kimi başa düşürdülərsə, ikinci şərt insan mahiyyətinə zidd olduğu üçün onun əleyhinə kəskin çıxış edirdilər. Onlar Allahın guya insanların bir qismini ağa, bir qismini qul

yaratması haqqındakı təlimə qarşı çıxır, insanların təbii və sosial bərabərliyini əsaslandırırdılar.

"Saflıq qardaşları" insanların sosial bərabərliyi prinsipini müdafiə edərək, hakimiyyətin hökmdara Allah tərəfindən xüsusi seçilmiş şəxsiyyət kimi verilməsi ideyası əleyhinə çıxış edirdilər. Ayrı-ayrı xalqların, ayrı-ayrı insanların seçilmiş olması haqqında nəzəriyyənin əsassız olduğunu sübut edərək, onlar hökmdarları, dövlət məmurlarını və din xadimlərini kəskin tənqid və ifşa edirdilər.

"Saflıq qardaşları" insanların bir-birinə münasibətdə düşmənçiliyini, hökmdarların hakimiyət uğrunda mübarizədə heç nədən çəkinmədən ağıla sığmayan qəddarlıq və zorakılıq göstərərək insanlıq simasını itirməsini ittiham edərək yazırdılar: "Hökmdarlar və onların məmurları mənfurdurlar, onlarda yaxşı əxlaqdan və ədalətdən əsər-əlamət yoxdur, ...qazılar və fəqihlər onlara bəxşiş və rüşvət gətirməyi tələb edirlər…, bəxşiş və rüşvət şəklində onlara nə isə bir şey gətirəndə,… onlar qanunlarda sənin xeyrinə bir əl yeri tapır və sənə bəraət qazandırırlar…".

"Saflıq qardaşları" dövlətçiliyin siyasi forması kimi monarxiyanı qəbul edirdilər. Onlar yazırdılar: "…ədaləti təmin edən dövlətin, hakimiyyətin olması zəruridir. Möhkəm hakimiyyət, insanlar üzərində hakimiyyəti həyata keçirən və onların bir-birilə razılaşmadıqları məsələlərdə münsif kimi çıxış edən ali hökmdar, güclünün zəifi əzməsinə yol verməyən hökmdar olmasa, insanlar öz şəxsi və ictimai işlərini arxayın həyata keçirə bilməyəcəklər".

"Saflıq qardaşları"nın fikrincə, cəmiyyətə başçılıq edən hökmdar ədalətli və müdrik insan olmalıdır, çünki dövləti idarə etmək "…qanunları və mövcud olan adətləri xalq üçün mühafizə etmə üsullarını bilməkdən, əsas tələbləri açıb söyləməkdən, fəqihin yazdığı qanunları yayaraq pis (əməllərdən) necə çəkindirmək, onları necə məhdudlaşdırmağı bilməkdən, zülmü aradan necə qaldırmaq və düşmənlərin qarşısını almaq, zalımları necə kənarlaşdırmaq və xeyirxahları müdafiə etmək yollarını bilməkdən ibarətdir". "Saflıq qardaşları" traktatlarında bütün məsələlərin mərkəzində insanın mahiyyəti dururdu.

“Saflıq qardaşları”nın təqribən 50 müraciətnaməsi bizim dövrədək gəlib çatmışdır və onlar həmin dövrün elmi-fəlsəfı, ictimai-siyasi fikir ensiklopediyasını təşkil edirlər. Həmin bu ensiklopediyada elmi-fəlsəfı fıkri etiqad ilə barışdırmağa cəhd göstərilmişdir. Bütün bu müraciətnamələr dörd əsas hissəyə bölünür:

1) riyaziyyat və fəlsəfi elmlər; 2) təbiət və cisimlər haqqında elmlər; 3) psixoloji və rasional elmlər; 4) ilahiyyatçı və dini qanunvericilik elmləri.

Birinci hissə 14 müraciətnamədən ibarətdir: burada hesab, astronomiya, astrologiya, musiqi, coğrafiya, tətbiqi incəsənət, sənətkarlıq, əhali haqqında və Aristotel məntiqinin əsaslarından bəhs olunur.

İkinci hissə 17 müraciətnamədən ibarətdir və burada da səma, dünya, yaranma və məhvolma haqqında baxışlar əks olunmuş, minerallar, bitkilər, heyvanlar, insan bədəninin quruluşu, insan mikrokosmos kimi təsvir olunmuşdur.

Üçüncü hissədə 10 müraciətnamə öz əksini tapmışdır və burada ədədlər haqqında pifaqorçuların metafizik prinsipləri və aristotelçilərin rasional prinsipləri, ilahi məhəbbət, dirilmənin təbiəti haqqmda fıkirlər və s. şərh olunur.

Dördüncü hissə mənəviyyat məsələlərinə həsr olunmuş 10 elmi əsərdən ibarətdir.

“Saflıq qardaşları” gerçəkliyin elmi və fəlsəfi dərk olunmasını zəruri hesab edirdilər. Onlar dünyəvi təhsilin tərəfdarları kimi elm və fəlsəfı bilikləri yaymağa çalışırdılar. Müsəlman nəzəriyyəçiləri “Saflıq qardaşları”nın dərketmənin elmin və fəlsəfənin köməyi ilə mümkünlüyü haqqındakı fıkirlərini təhlükəli azadfıkirlilik adlandırırdılar.

Təsadüfi deyildir ki, “Saflıq qardaşları” öz təhlükəsizliklərini təmin etmək üçün mütərəqqi baxışlarını gizli təbliğ edirdilər. Onlar müsəlman ruhanilər tərəfındən təqib ediləcəklərinə ehtiyatla yanaşırdılar.

“Saflıq qardaşları” təşkilatının ideologiyasının əsasını həmin təşkilatın aparıcı ideoloqlarından biri olan Azərbaycanın görkəmli

mütəfəkkiri Əbül Həsən Əli Harun oğlu Zəncaninin ideoloji baxışları təşkil etmişdir.

## 1.7.3.7. Azərbaycanda pavlikian hərəkatı

VII–X əsrlərdə Azərbaycanda Xristian və İslam dinlərinə qarşı yönəlmiş cərəyanlar geniş yayılmışdır. Xristianlığa qarşı yönəlmiş belə bidətçi təlimlərdən biri də Şimali Azərbaycanda feodal zülmünə qarşı geniş yayılmış pavlikian hərəkatı idi. Azərbaycanda VII əsrdən geniş yayılmağa başlayan pavlikian hərəkatının mərkəzləri Girdman və Beyləqan vilayətləri idi. Pavlikianların baxışlarını xeyir və şəri ilk başlanğıc kimi qəbul edən dualizm təşkil edirdi. Pavlikianlar Yer üzündə xeyirin qələbə çalacağına inanırdılar. Onlar bildirirdilər ki, Xeyir Allahı Şər Allahı üzərində qələbə çalacaq. Pavlikianlığın sosial meyarını hüquqi və mülki bərabərlik təşkil edirdi. Pavlikianlar bu meyarları əsas götürərək, yerli və ərəb feodalları ilə mübarizə aparırdılar. Onlar müstəqil icmalar yaradaraq feodallara və kilsəyə tabe olmurdular.

Akademik Ziya Bünyadov qeyd edir ki, pavlikian hərəkatının vətəni Albaniyanın Qardman və Baylakan vilayətləri olmuşdur. Hərəkatın başlanmasının səbəbi ondan ibarətdir ki, ərəblər VII əsrin sonu – VIII əsrin əvvəllərində Albaniyada İslam dinini bərqərar etdilər. Onun əhalisi üzərinə mövcud vergilərdən əlavə, böyük miqdarda tüstü və can vergisi qoydular. Bu vergi sistemi soyğunçuluq xarakteri daşıyırdı. Ərəblərin qoyduğu yeni vergilərdən və yerli feodalların aldığı vergilərdən qəzəblənən kəndlilər, sənətkarlar və şəhər yoxsulları antifeodal hərəkata başladılar.

Pavlikianlar IX əsrdə Karveas və Xrisoxir adlı sərkərdələrin rəhbərliyi ilə Kiçik Asiyada paytaxtı Tefrik şəhəri olmaqla öz dövlətlərini yaratdılar. 878-ci ildə Bizans orduları bu dövləti süquta uğratdılar.

Pavlikian hərəkatının ideoloji mənbəyini Azərbaycanda yayılmış manilik və məzdəkilik təlimləri təşkil edirdi. Pavlikianlarla xürrəmilərin sosial proqramlarının bir-birinə uyğun gəlməsinə baxmayaraq, onların arasında fikir ayrılığı var idi. Babək dəfələrlə

Beyləqanda üsyan edən pavlikianlara qarşı ordu göndərmiş və onları qılıncdan keçirtmişdir.

Pavlikianlar, həmçinin dini ayinlərə və kilsəyə qarşı çıxırdılar. Hərəkat iştirakçıları ayrı-ayrı müstəqil icmalara bölünərək feodallara və kilsəyə tabe olmaqdan imtina edirdilər.

Pavlikian hərəkatı etiraz dalğalarından IX əsrin ortalarında silahlı üsyana keçdilər. Yaratdıqları silahlı dəstələrdə hərbi başçıların vəzifələri seçkili idi. Onları pavlikianların yığıncaqları seçirdi. Mənbələr xəbər verir ki, pavlikianlarda iki rəhbər – ideoloji və hərbi rəhbər seçilirdi. Hərbi başçı ideoloji başçının göstərişlərini yerinə yetirirdi.

Hərəkatın başlanğıcında ərəblər pavlikianları müdafiə edirdilər, onlara qarşı xeyirxah, loyal münasibətdə idilər və bəzi vaxtlar onlarla müttəfiq olurdular. Bunun da səbəbi ondan ibarət idi ki, pavlikianlar xristianlığa və kilsəyə qarşı çıxırdılar.

Hərəkatın genişlənməsi və onun kütləvi xarakter alması feodallarda və alban kilsəsində güclü təşviş yaratdı. 706–707-ci illərdə keçirilmiş kilsə məclisi pavlikian hərəkatını lənətlədi. Buna baxmayaraq hərəkat daha da geniş miqyas aldı. 768-ci ildə keçirilən kilsə məclisi hərəkatı ikinci dəfə ittiham etməyə məcbur oldu. Pavlikian hərəkatı IX əsrin ortalarında ciddi qüvvəyə çevrildi, xüsusilə də Beyləqanda. Ancaq kütləvi qırğın təhlükəsi və yaxud islamlaşma təhlükəsi qarşısında qalan əhalinin böyük əksəriyyəti öz yerlərini tərk edərək Bizans ərazisində məskunlaşdılar, az bir hissəsi isə İslam dinini qəbul etdi.

### 1.7.3.8. Xürrəmilər hərəkatının ictimai-siyasi ideyaları

VIII–X əsrlərdə Şərqin və ilk növbədə Azərbaycanın siyasi və ideoloji həyatında xürrəmilik cərəyanı mühüm yer tuturdu. Xürrəmilər hərəkatı ərəb istilasına və İslam dininə qarşı çıxaraq, bu dövrün bir çox digər cərəyanları kimi sosial-siyasi və ideoloji baxışları özündə əks etdirmişdir.

Azərbaycanın ictimai–siyasi fikir tarixində Xürrəmilər hərəkatı (778–838) xüsusi yer tutur. Xürrəmizmin ideya

mənbələrinin və ictimai–siyasi proqramının əsasını zərdüştlük, maniçilik və məzdəkilik təlimləri təşkil edirdi. Abbasilər hakimiyyətinin ilk dövrlərində meydana çıxan və xilafətə qarşı yönələn Xürrəmilər hərəkatı Xeyir və Şər qüvvələrini qəbul edirdilər. Onlar ilahinin insanlarda təcəssüm etməsinə inanır, İslama və sosial ədalətsizliyə qarşı mübarizə aparırdılar.

Xürrəmilər İslam dinini inkar edir, ədalətli cəmiyyət yaratmaq ideyası irəli sürür və ərəb işğalçılarına qarşı milli–azadlıq mübarizəsi aparırdılar. Xürrəmilər hərəkatının rəhbərləri Cavidan və Babək olmuşdur.

Xürrəmilər hərəkatının sosial proqramında qeyd olunurdu ki, "O, torpaqları ələ keçirəcək, zalımları məhv edəcək və məzdəkiliyi dirçəldəcəkdir. Onun köməyi ilə, sizlərdən ən zəifi qüvvətli olacaq, ən alçağı yüksələcəkdir". Proqramda sosial bərabərlik, torpaq üzərində feodal mülkiyyətinin ləğvi, zülmkarların zor gücü ilə devrilməsi, zəif və məzlumların zülmdən azad edilərək, sosial və mənəvi cəhətdən yüksəldilməsi vurğulanırdı. Xürrəmilərin sosial təlimi ilə məzdəkilərin sosial proqramı arasında varislik əlaqəsi var idi. Demokratizm və humanizm bu təlimlərə xas olan ayrılmaz xüsusiyyətlər idi.

Azərbaycanın ictimai-siyasi fikir tarixində IX əsrin I yarısında Ərəb xilafətinə və yayılmaqda olan İslam dininə qarşı Babəkin başçılığı ilə sosial və milli-azadlıq hərəkatı olan Xürrəmilər hərəkatı xüsusilə yer tutur.

Ərəblər tərəfindən Azərbaycanın işğal olunmasına qədər əhali zərdüştlüyə, maniçiliyə və məzdəkiliyə etiqad edirdilər. İşğalçılar tərəfindən qoyulan ağır vergilərə əhali güclü müqavimət göstərirdi. Feodal istismarının güclənməsi, yerli və yadelli feodalların ikiqat zülmü antifeodal və vətənpərvər azadlıq mübarizəsində Azərbaycan xalqının daxili birliyinə və həmçinin, onun xilafətə daxil olan digər ölkələrin xalqları ilə ittifaqının möhkəmlənməsinə səbəb oldu. Sasanilərlə mübarizədə möhkəm ənənələrə malik olan Cənubi Qafqaz xalqları xilafətə qarşı da birlikdə çıxış edirdilər. Xürrəmilər hərəkatı Azərbaycan ilə yanaşı, Gürcüstan, Təbəristan, Cibəl, Xorasan, Cürcan, Dəyləm, Fars, Kuhistan və digər əraziləri də əhatə etmişdir.

Xürrəmizmin ideologiyası və sosial proqramı zərdüştlüyə, maniçiliyə və məzdəkiliyə çox yaxın olmuşdur. Xürrəmilər İslamı

rədd edir, ədalətli cəmiyyət yaradılmasını təbliğ edir, torpaqların icma üzvlərinə paylanmasını tələb edir, ərəb zülmünə, feodal istismarına qarşı çıxırdılar. Eyni zamanda, bu hərəkat bütün Yaxın və Orta Şərqdə ən güclü antifeodal hərəkat idi.

Xürrəmilər hərəkatının başlanması (778) xırda feodal Cavidanın adı ilə bağlıdır. 816-cı ildə onun ölümündən sonra hərəkat Babəkin rəhbərliyi ilə 21 il davam etmiş və Ərəb xilafətinə ağır zərbə vurmuşdur. Babək hərəkatın proqramını həyata keçirmək üçün ciddi strukturlu, fəal hərəkət edən, nizam-intizamlı süvari döyüş ordusu yaratdı. Əldə olunmuş uğurlarda görkəmli sərkərdə və təşkilatçı kimi Babəkin istedadı da əsas rol oynamışdır. Babək müdrik siyasətçi və diplomat olmuşdur. Babək hərəkatın ağır dövründə özünün diplomatik məharətini göstərərək ərəb işğalçılarına qarşı birgə mübarizə aparmaq üçün Bizansla qarşılıqlı əlaqələr yaratdı.

Bu hərəkat kütləvi kəndli üsyanı idi və hərəkatda 300 min adam iştirak edirdi. Xürrəmilərin ərəblər üzərindəki şanlı zəfərləri yerli hakim sinfi, feodal aristokratiyasını, hətta xilafət canişinlərini və hakimlərini özünə cəlb etmişdi. Şübhəsiz ki, xürrəmilərin uğurları başlıca olaraq onların ərəb zülmündən azad olmağa etdikləri cəhdləri idi.

Xilafət tam əmin idi ki, xürrəmilər hərəkatı onlar üçün ciddi təhlükə törədir. Buna görə də təsadüfi deyil ki, xilafət hərəkatın yatırılması üçün uzun müddətli hazırlıq işləri aparmışdır. Ağır mübarizədən sonra Ərəb xilafəti Babəki satqınlar vasitəsi ilə ələ keçirərək 14 mart 838-ci ildə edam etdi. Xürrəmilər hərəkatı məğlubiyyətə uğradıqdan sonra onların ideologiyası Azərbaycan da daxil olmaqla İslam və Xristian dünyasında uzun müddət yaşadı.

### 1.7.3.9. Azərbaycan xalqının yaranması və formalaşması

Türk dili Xilafətin süqutu və Azərbaycan dövlətçiliyinin dirçəlişindən sonra bütün ölkə ərazisində əsas ünsiyyət vasitəsinə çevrildi. Y.Mahmudov qeyd edir ki, eramızın ilk yüzilliklərində ölkə əhalisinin əksəriyyətini təşkil edən və hərbi-siyasi cəhətdən daha

mütəşəkkil və qüvvətli olan türk etnosları vahid xalqın təşəkkülü prosesində mühüm rol oynayırdılar. Türk etnosları içərisində oğuz türkləri üstünlük təşkil edirdilər. İlk oğuzlar, başqa türk tayfaları kimi, ümumtürk məkanının tərkib hissəsi olan Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazisinə qədim türklərin "Dəmir qapı" adlandırdıqları Dərbənd keçidi vasitəsilə, habelə Böyük Qafqazın başqa dağ aşırımlarından keçərək yayılmışdılar. Oğuzların müqəddəs və müdrik ağsaqqalı Dədə Qorqudun qəbrinin Dərbənddə olması barədə ilk mənbələrin məlumatları, Dərbəndin qala qapılarından birinin Dədə Qorqudun mənsub olduğu Bayat elinin adı ilə "Bayat qapısı" adlanması bunu sübut edir.

Avrasiyanın geniş ərazilərində məskunlaşmış qədim türklər, o cümlədən oğuzlar ümumtürk məkanının şimalı ilə cənubunu, yəni Qıpçaq düzü ilə Cənubi Qafqazı əlaqələndirən bu mühüm keçidi – "Dəmir qapı"nı daim öz əllərində saxlamağa çalışırdılar.

Başqa ilk mənbələrlə yanaşı, Oğuz türklərindən olan ağqoyunluların ən qüdrətli hökmdarı Uzun Həsənin (1453–1478) hökmü ilə Əbu Bəkr əl-Tehrani əl-İsfahaninin yazdığı "Kitabi-Diyarbəkriyyə" adlanan oğuznamədə verilən faktlar da oğuz türklərinin, o cümlədən xalqımızın soykökündə duran ağqoyunlu və qaraqoyunluların Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın və Ön Asiyanın ən qədim sakinlərindən biri olduğunu sübut edir. Müəllif Uzun Həsənin böyük babası – Ağqoyunlu dövlətinin banisi Qara Yuluk Osman bəyin nəsil şəcərəsini bir-bir araşdıraraq, nəhayət, Oğuz xaqana çatdırır. Oğuz xaqanın başçılıq etdiyi böyük türk dövlətinin tərkibinə daxil olan əraziləri sadalayır və bütün oğuz türklərinin kökündə duran bu böyük hökmdarın, yəni Oğuz xaqanın Göyçə dənizi ətrafında vəfat etdiyini göstərir. Azərbaycanın Oğuz xaqanın başçılıq etdiyi dövlətin tərkibinə daxil olması və böyük xaqanın özünün də burada – Göyçə dənizi ətrafında vəfat etməsi faktı bu diyarın ən qədim oğuz-türk məskənlərindən biri olduğunu sübut edir.

"Kitabi-Diyarbəkriyyə"nin müəllifi Oğuzun nəvəsi xanlar xanı Bayandır xaqanın da "Qarabağ qışlağı və Göyçə dənizi yaylaqlarında ömür sürdüyünü", burada "böyük bir qurultay çağırıb, məmləkəti oğlanları arasında qabiliyyətlərinə görə bölüşdürdükdən

sonra Allahın dəvətini qəbul etdiyini" yazır. Əbu Bəkr əl-Tehrani əl-İsfahani təsdiq edirdi ki, ağqoyunlu Qara Yuluk Osman bəyin 20-ci babası Sunqur bəy Məhəmməd peyğəmbərin müasiri idi. O, Alagöz və Göyçə dənizi yaylaqları tərəfdəki sərhədlərdə "kafirlərlə müharibə etmiş" və döyüşlərdən birində həlak olmuşdu.

Qara Yuluk Osman bəyin 14-cü babası Şəktur xan isə Əlincə qalası uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş, onu "kafirlərin" əlindən geri almışdı. Xəlifə Harun ər-Rəşidin müasiri olan Qıpçaq xan da Əlincə qalası uğrunda "kafirlər"lə müharibələr aparmış, onları məğlubiyyətə uğradaraq qalanı azad etmişdi.

"Kitabi-Dədə Qorqud" boyları ilə səsləşən, Məhəmməd peyğəmbərin dövründə və Xilafət işğalları zamanı cərəyan etmiş hadisələrlə üst-üstə düşən bütün bu faktlar tarixi reallıq olmaqla yanaşı, eyni zamanda, Azərbaycanın öz güclü dövlətçilik və müstəqillik ənənələrini qoruyub saxladığını da sübut edir.

Uzun müddət Azərbaycan xalqının mənşəyi bilərəkdən təhrif edilmiş, onun etnik və dil keçmişi saxtalaşdırılmışdır. İran tarixçisi Əhməd Kəsrəvi (1890–1946) Azərbaycan türklərinin mənşəyi məsələsinə toxunaraq onları farslardan dönmə hesab etmişdir. Onun fikrincə XI–XII əsrlərdən əvvəl Azərbaycanda türk etnosları yaşamamış və Səlcuq oğuzlarının gəlməsindən sonra burada məskən salmışlar. Rus alimləri Vasili Bartold (1869–1930), Vladimir Fyodoroviç Minorski (1877–1966) və Boris Vsevolodoviç Miller (1877–1956) eyni fikri təkrar edərək, oğuz türklərinin XI–XII əsrlərdə Azərbaycana gələrək burada məskunlaşdığını bildirmişlər. Azərbaycan xalqının mənşəyini saxtalaşdıran bu tarixçilər XI–XII əsrə qədər olan mənbələrdəki fakt və məlumatlara düşünülmüş şəkildə qərəzli yanaşmışlar. Onlar eramızdan əvvəl III–I minilliklərdəki türk etnosları ilə bağlı mixi yazılarda verilən məlumatların üzərindən susaraq keçmişlər. Sovet dövründə Azərbaycan xalqının tarixini türk etnosları ilə bağlayan tədqiqatçılar "millətçi" və "pantürkist" adlandırılaraq, cəzalandırılmışlar.

Ancaq arxeologiya, antropologiya, tarix, dilçilik və elmin digər sahələrində çalışan alimlərin apardıqları tədqiqatlar tamamilə sübut edir ki, Azərbaycan türkləri bu ərazilərdə yaşayan ən qədim və köklü əhalidir. Azərbaycan türklərinin yayıldığı coğrafi əraziyə

indiki Azərbaycan Republikasının ərazisi ilə yanaşı Cənubi Azərbaycan, İrəvan, Zəngəzur, Göyçə, Borçalı və Dərbənd torpaqları da daxildir. Azərbaycan türkləri bir etnos kimi tarixən ən qədim dövrlərdən başlayaraq Dərbənddən Həmədana qədər, Xəzər dənizindən isə Şərqi Anadoluyadək böyük bir coğrafi ərazidə yaşamışlar. Beləliklə, təkzibedilməz faktdır ki, Azərbaycan əhalisinin əksəriyyəti türkdilli xalqdır və onun mənşəyində başlıca olaraq türk etnosları iştirak etmişlər.

1960-cı illərdən başlayaraq Azərbaycanda səlcuqlardan xeyli əvvəl türk etnoslarının yaşamasına dair müddəa araşdırılmağa başlandı. Akademik Ziya Bünyadov öz tədqiqat əsərlərində Azərbaycanda türkləşmə prosesinin hələ Sasani İmperiyası dövründə getdiyini söyləmişdir. O, ərəb müəlliflərinin məlumatına əsaslanaraq sübut etmişdir ki, ərəb istilasından çox-çox əvvəl Azərbaycanda türk etnosları yaşayırdılar. Z.Bünyadov yazırdı: "Bəzi tədqiqatçıların qeyd etdiyi kimi, türkləşmənin XI–XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki, onda yerli, böyük və çox yığcam türk tayfalarının varlığına göz yumulur. Türkləşmə prosesi yalnız türk aborigenlərinin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimlyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI–XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi".

Azərbaycanın görkəmki tədqiqatçıları Ziya Bünyadov, Sara Aşurbəyli, Tofiq Hacıyev, Firudin Cəlilov, Qiyasəddin Qeybullayev, Voroşil Qukasyan, Yusif Yusifov və başqaları qədim və orta əsrlər dövrlərində Azərbaycanda türk etnoslarının yaşaması məsələsinin müxtəlif tərəflərini elmi cəhətdən obyektiv şəkildə araşdıraraq, sübut etmişlər ki, türklər Azərbaycanda eramızdan əvvəl III minillikdən yaşayan qədim aborigen əhalidir. Beləliklə, türk tayfaları Azərbaycanın qədim sakinlərindən biri olmuşdur.

Mənbələr, Azərbaycanda ərəblərin dövründə onlarca müxtəlif dillərdə danışan tayfaların mövcud olduğunu təsdiq etmələri ilə yanaşı, bildirirlər ki, Azərbaycan qədimdən türk mənşəli tayfaların

yaşadığı ölkə olub. Qeyd etmək lazımdır ki, Azərbaycanın həm şimal, həm də cənub ərazilərində məskunlaşmış qıpçaq, oğuz, sabir və başqa türkdilli xalqlarla yanaşı, burada həmçinin, albanlar – udinlər, qarqarlar, xınalıqlılar, tatlar, talışlar, kürdlər və s. xalqlar da yaşamışlar.

Azərbaycan xalqının yaranması prosesi ölkə əhalisinin etnik müxtəlifliyi ilə əlaqədar mürəkkəb və uzunmüddətli olmuşdur. Bu prosesin gedişində yerli türk əhalisi müxtəlif türk tayfalarının yeni köçləri hesabına daha da artmış və digər etnik qruplar üzərində üstünlük əldə etməyə müvəffəq olmuşlar.

Azərbaycan xalqı, mövcud tarixi şəraitdə ölkənin bir-birindən etnik və dil cəhətdən fərqlənən, lakin tədricən türk dilinə keçmiş və İslamı qəbul etmiş əsas sakinlərinin sintezi bazasında yarandı. Beləliklə, VIII–X əsrlər türkdilli Azərbaycan etnosunun fəal formalaşdığı əsrlərdir.

Y.Mahmudov qeyd edir ki, türk tayfaları, başqa xalqlar və etnik qruplardan fərqli olaraq, Azərbaycanın bütün ərazisinə – həm şimalına, həm də cənubuna yayılmışdılar və çoxluq təşkil edirdilər. Buna görə də, eramızın ilk yüzilliklərindən başlayaraq, türk dili Azərbaycan ərazisində yaşayan və sayca az olan xalqlar, etnik qruplar arasında da başlıca ünsiyyət vasitəsinə çevrilməkdə idi. Türk dili, həm də şimalla cənub arasında birləşdirici, əlaqələndirici rol oynayırdı. Bu amilin o zaman vahid xalqın təşəkkülü prosesində çox mühüm rolu vardı. Çünki bəhs olunan dövrdə bütün Azərbaycan ərazisini əhatə edən vahid dini görüş – təkallahlı din hələ yox idi. Qədim türklərin baş Allahı olan Tanrıya sitayiş – tanrıçılıq hələ başqa dini görüşləri sıxışdırıb tamamilə aradan qaldıra bilməmişdi. Zərdüştlüyə, Günəşə, Aya, Göyə, ulduzlara, torpağa, suya və s. sitayiş davam etməkdə idi.

Hər bir xalqın mənşəyi onun danışdığı dilə uyğun olaraq müəyyən edilir. Dil etnik mənsubiyyəti bildirən başlıca əlamətdir. 1930-cu illərin sonunadək Şimali Azərbaycanda azərbaycanlılara “türk, türk xalqı”, dilinə isə “türk dili” deyilirdi. Azərbaycan dili türk dilləri ailəsinə mənsubdur. Deməli, Azərbaycan türklərinin mənşəyi dil mənsubiyyətinə uyğun olaraq Azərbaycanda yaşamış qədim türk etnoslarının tarixi ilə bağlı olmalıdır. Eyni zamanda

Azərbaycan xalqının mənşəyində və formalaşmasında Azərbaycanda yaşamış və müxtəlif dövrlərdə ona qaynayıb-qarışmış türk etnosları yaxından iştirak etmişlər.

Müxtəlif tarixi dövrlərdə (həm eramızdan əvvəl, həm də sonra) soykökündə, başlıca olaraq, kimmer, iskit (skif), sak, massaget, hun, bulqar, xəzər, barsil, peçeneq, suvar, habelə başqa türk və qeyri-türk etnoslarının iştirak etdiyi və oğuz türklərinin (qaraqoyunlular, ağqoyunlular, səlcuqlar və b.) həlledici rol oynadığı Azərbaycan xalqının təşəkkülü prosesi başa çatdı. Azərbaycan türk dili bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsinə çevrildi. Sadə və anlaşıqlı Azərbaycan türk dili məhdud dairədə fəaliyyət göstərən xırda-məhəlli dilləri, həmçinin ərəb və fars dillərini sıxışdıraraq bütün ölkə miqyasında canlı ümumxalq dilinə çevrildi. Beləliklə, Azərbaycan dilinin və xalqının təşəkkülü III–VII əsrlərdə baş vermiş, VII–VIII əsrlərdə isə başa çatmışdır.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. VII–X əsrlərdə Azərbaycanda İslam dininin yayılması nəticəsində yaranan yeni ictimai–siyasi təlimlər
2. VII–X əsrlərdə Azərbaycanda ictimai-siyasi ideyalar
3. İslam dininin Azərbaycanda yayılması və onun sosial-siyasi mahiyyəti
4. İslam dinində yaranan ictimai–siyasi təlimlər
5. Quranın ictimai-siyasi mahiyyəti
6. Mötəzililik təliminin ictimai-siyasi mahiyyəti
7. Mütəkəllimlər təliminin dini-siyasi mahiyyəti
8. İsmaililik təliminin ictimai-siyasi mahiyyəti
9. Sufizm təliminin ictimai-siyasi cəhətləri
10. “Saflıq qardaşları və vəfa munisləri” təşkilatının ictimai-siyasi fəaliyyəti
11. Azərbaycanda pavlikian hərəkatı
12. Xürrəmilər hərəkatının ictimai-siyasi ideyaları
13. Azərbaycan xalqının yaranması və formalaşması

## 1.8. XI–XIV əsrlərdə Azərbaycanda ictimai–siyasi təlimlərin inkişafı

### 1.8.1. XI–XII əsrlərdə ictimai-siyasi təlimlər

XI–XII əsrlərdə Azərbaycanda ictimai-siyasi vəziyyət mürəkkəb və ziddiyyətli idi. Səlcuq imperiyasının (1157) süqutundan sonra onun yerində yeni tipli dövlət qurumları yarandı. Azərbaycan Atabəylər dövləti (1136–1225) dövründə elm, təhsil, mədəniyyət və ictimai–siyasi fikir inkişaf etməyə başladı.

Eldənizlər dövləti Azərbaycan xalqının etnik-siyasi tarixində mühüm rol oynadı. Eldənizlərin hakimiyyəti dövründə bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində güclü yüksəlişə səbəb oldu. Sənətkarlıq, ticarət, elm və mədəniyyət daha da inkişaf etdi. Daxili və xarici ticarət əlaqələri genişləndi. Mədrəsələr açıldı, məscidlər, nadir memarlıq abidələri ucaldıldı. Azərbaycan İntibah mədəniyyəti özünün Xaqani, Nizami, Əcəmi zirvəsinə yüksəldi. Görkəmli dövlət xadimləri Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan Azərbaycanın dövlət idarəçiliyi tarixinə parlaq səhifələr yazdılar. Eldənizlərin hakimiyyəti dövründə Azərbaycan türklərinin, Azərbaycan türk dili və mədəniyyətinin yayıldığı ərazi daha da genişləndi.

IX əsrin ortalarından başlayaraq Qafqazda, Yaxın və Orta Şərqdə türk-islam dövlətlərinin rolu gücləndi. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Tiflis əmirləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakülər, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Cənubi Qafqazın deyil, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində əhəmiyyətli rol oynamışdılar. Azərbaycan uzun zaman bu dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti, Təbriz isə paytaxtı oldu. Türk-islam dövlətlərinin bir çoxunu Azərbaycan – türk sülalələri idarə edirdilər.

Bu dövrün ictimai–siyasi ideyalarının öyrənilməsində Nizamülmülkün "Siyasətnamə" traktatı başlıca və qiymətli

mənbədir. XI–XII əsrlərdə yaşayıb yaratmış mütəfəkkirlərin ictimai–siyasi baxışlarında həmin dövrün siyasi mənzərəsi əks olunmuşdur. Dövrün ictimai–siyasi fikri bütövlükdə dini xarakter daşıyırdı.

XI əsrdə ictimai-siyasi və hüquqi fikrin görkəmli nümayəndələri Baba Kuhi Bakuvi, Əbül Həsən Bəhmənyar ibn əl-Mərzban əl-Azərbaycani (993–1066) və Xətib Təbrizinin (1030–1109) ictimai–siyasi baxışlarında sosial ədalət, xüsusilə də ədalətli cəmiyyət və ədalətli hökmdar ideyası irəli sürülmüşdür. Bəhmənyarın əsərlərində insan probleminə geniş yer verilmişdir.

XI–XII əsrlərdə Təbriz, Marağa, Naxçıvan və başqa şəhərlərdə fəaliyyət göstərən mədrəsələr müxtəlif sahələr üzrə adlı–sanlı alimlər yetişdirmişdir. Bu dövrdə Azərbaycanın şifahi və yazılı ədəbiyyatında, incəsənətdə parlaq nailiyyətlər qazanılmış, həmçinin "Kitabi–Dədə Qorqud" eposu geniş yayılmışdır.

XI–XII əsrlərdə yaşayıb–yaratmış görkəmli Azərbaycan şairləri Əbülhəsən Miyanəcinin (…–1079), Ömər Gəncəvinin, Qətran Təbrizinin (1012–1088), Məhsəti Gəncəvinin (1089–1160), Fələki Şirvaninin (1107–1147), Əfzələddin Xaqani Şirvaninin (1126–1199), Mücirəddin Beyləqaninin (1130–1194) və Nizami Gəncəvinin (1141–1209) yaradıcılığında dövrün ictimai–siyasi fikri ifadə olunmuşdur.

XI–XII əsrlərdə sufizm geniş yayılmışdır. Sufizmin görkəmli nümayəndələri Bağdadın məşhur Nizamiyyə mədrəsəsində dərs demiş və bir müddət həmin mədrəsəyə rəhbərlik etmiş Əbuhəfs Ömər Məhəmməd oğlu Sührəvərdinin (1063–1137), onun qardaşı oğlu və davamçısı Əbunnəsib Əbdülqadir Abdulla oğlu Sührəvərdinin (1097–1168) əsərlərində dövrün ictimai–siyasi fikri ifadə olunmuşdur.

XI əsr Azərbaycanın görkəmli nümayəndələri – Qətran Təbrizinin (1009–1072) və Xətib Təbrizinin (1030–1109) əsərlərində dövrün ictimai–siyasi hadisələrinə geniş yer verilmişdir.

XI–XII əsrlərdə yaşamış görkəmli alim–hüquqşünaslar – Budeyla Bərzandi (…–1082), Əbülfəz Mühəmməd Urməvi (1066–1152), Əbuhəfs Zəncani (…–1066), Əbülxəlil Təbrizi, Hüseyn Bərdəyi (…–1029), Əbülqasim Zəncani (990–1078), Əbubəkr

Mühəmməd ibn Abdullah Bərdəi, Eyn əd–Kubağa (1097–1130), Osman Dərbəndi (…–1106), Əbdüləziz Uşmuxi (…–1111), Nasir Xoylu (…–1113), Fəxrəddin Marağayi, Fərəc Xoylu (…–1127), Əbubəkr Məhəmməd Urməvi (…–1142), Əbdülməlik Beyləqani (…–1103), İsmayıl Gəncəvi (1105–1192) və Əbdurrəhim ibn Rüstəm Zəncani (…–1168) Azərbaycanın ictimai–siyasi fikir tarixinə zəngin irs bəxş etmişlər.

XII əsrin görkəmli ictimai–siyasi xadimi, alim–hüquqşünas və mütəfəkkirləri – Şihabəddin Əbül Fütuh Yahya ibn Həbəş Sührəvərdinin (1154–1191) və Şihabəddin Əbuhəfs Ömər ibn Mühəmməd Sührəvərdinin (1145–1234) əsərlərində dövlət, cəmiyyət, ədalət, cəza və qanunla bağlı ictimai–siyasi baxışları verilmişdir.

Eynəlqüzat Miyanəcinin (1099–1131) baxışlarında azad fikirliliyə geniş yer verilmişdir.

### 1.8.2. Eynəlqüzat Miyanəcinin baxışlarında insan azadlığı ideyası

Eynəlqüzat Əbdülməali Abdulla Məhəmməd oğlu Miyanəci (1099–1131) orta əsr Şərqinin böyük mütəfəkkirlərindən biri olmuşdur. O, ədəbiyyat, fəlsəfə, hüquq elmləri, ilahiyyat, riyaziyyat sahələrində dərin biliklərə malik olmuş, ərəb və fars dillərini mükəmməl bilmişdir. Eynəlqüzat Miyanəci Məhəmməd əl-Qəzalinin əsərləri ilə tanışlıqdan sonra sufilik ideyasını qəbul edir.

Eynəlqüzat Miyanəcinin həyat və yaradıcılığı geniş və rəngarəng olmuşdur. O, traktatlar, şeirlər yazır, diskussiyalarda iştirak edir, alimlər, teoloqlar və öz müridləri ilə məktublaşma vasitəsilə elmi-nəzəri məsələləri müzakirə edirdi. Onun məktublarının qorunub saxlanılan hissəsi 1972-ci ildə Tehranda “Nameha” (“Məktublar”) adı ilə nəşr edilmişdir.

Eynəlqüzat Miyanəcinin sufi mövqeyinin təbliğində və möhkəmlənməsində göstərdiyi xüsusi fəallıq ortodoksal din xadimlərini qəzəbləndirmişdir. Buna görə də Miyanəci tutularaq bir muddət Bağdadda həbsxanada saxlanılır. Lakin həbsdən azad

olunandan sonra da Eynəlqüzat öz təliminin təbliğini fəal surətdə davam etdirir. 1131-ci ildə o, yenidən həbs edilir və dərs verdiyi mədrəsənin qarşısında edam olunur.

Orta əsrlərdə insan problemi ilə bağlı aktual, mübahisə obyekti olan məsələlərdən biri də iradə azadlığı məsələsi olmuşdur. Həmin məsələ İslam mütəfəkkirləri arasında əsrlər boyu kəskin mübahisələr yaratmışdı. Çünki, Quranın özündə bununla əlaqədər heç də birmənalı olmayan fikirlər mövcuddur. Bəzi ayələrə görə, dünyada ümumiyyətlə Allahın iradəsi olmadan heç bir şey baş vermir və baş verməmişdir. Digər ayələrə görə isə insan iradə azadlığına malikdir və deməli, insan öz əməllərində tam ixtiyar sahibidir. Fəlsəfədə bu problem azadlıq və zərurətin qarşılıqlı əlaqəsi problemi kimi qoyulur.

Onun əsərlərində həm insanların əməl və talelərinin Allah tərəfindən qabaqcadan müəyyən edilməsi haqqında, həm də insanın öz əməl və hərəkətlərində azadlığı və öz taleyinin ağası olması haqqında fikirlərə rast gəlinir. Mütəfəkkir "Təmhidat" əsərində yazır: "Əgər Allahın iradəsi ilə qabaqcadan səadət yazılıbsa, onda insan xoşbəxt doğulacaq və əgər Allahın iradəsi ilə bədbəxtlik yazılıbsa, onda insan bədbəxt doğulacaq… Bizi yaradan və bizim əməllərimizin yaradıcısı Odur (Allahdır)". Deməli, Eynəlqüzat Miyanəcinin təsəvvüründə, insanın əməlləri, fəaliyyəti və taleyi Allahın iradəsi ilə bütünlüklə qabaqcadan müəyyən olunmuşdur, insan faktiki olaraq seçimdən, azad hərəkət etmək imkanından məhrumdur.

Digər tərəfdən elə həmin əsərdə Eynəlqüzat Miyanəci yazır ki, insan öz əməllərində azaddır, ona iradə verilib və bu iradəyə əsasən o özü öz hərəkətlərini müəyyənləşdirə, öz seçimini edə bilər. O, yazır: "Yanma [prosesi] odla [bilavasitə] bağlı olduğu kimi, iradə (azadlığı) də insanla bağlıdır; yanmadan od öz müəyyənliyinə malik olmadığı kimi, insan da iradəsiz öz müəyyənliyinə malik deyil. İradəsini göstərmək zərurəti yarananda, iradəsinin köməyilə [insan] müxtəlif işlər görür… İstəyirsə sakit durur, istəyirsə hərəkət edir, … istəyəndə itaət edir, istəyəndə - etmir".

Göründüyü kimi, azadlıq və zərurət probleminin aspektlərindən biri olan insan fəaliyyətinin determinə edilib-

edilməməsi məsələsində mütəfəkkir ardıcıl deyil, buna isə səbəb, ola bilsin ki, orta əsr təfəkkürünün ənənəviliyi zəminində nisbətən mütərəqqi dünyagörüşün cücərtilərinin dövrə xas stereotiplərin qalın qatını yarıb keçməyə məcbur olması idi.

Eynəlqüzat Miyanəci insanın "Allahın yaratdığının tacı" olması haqqındakı Quran təlimini qəbul etməklə yanaşı, insanın öz Yaradanı ilə eyniliyini də iddia edirdi. Onun bu və ya digər dərəcədə ardıcıllıqla aşılamağa çalışdığı insanın ilahiliyi haqqında fikri, prinsip etibarilə, insanı "kainatda itmiş qum dənəsi", zəif, iradəsiz məxluq, "Allah-Təalanın əlində bir oyuncaq" kimi səciyyələndirən dini təlimə zidd idi. O, insanın Allahla eyniliyini göstərmək üçün Mənsur Həllacın (848–922) məşhur "Ənəl Həqq" (Mən Allaham) kəlamına tez-tez müraciət edir və bu zaman özünü təhlükə altında qoyduğunu da aydın dərk edirdi.

### 1.8.3. Əfzələddin Xaqani Şirvaninin ictimai–siyasi dünyagörüşü

XII–XIII əsrlər ictimai-siyasi fıkir tarixində xüsusi yer tutmuş Əfzələddin Xaqani Şirvani (1126–1199) nəinki Azərbaycanda, eləcə də Yaxın və Orta Şərqdə siyasi fıkrin inkişafinda böyük rol oynamışdır. Onun əsərləri xalqımızın siyasi fikir xəzinəsini zənginləşdirmişdir. Xaqani yaşadığı dövrdə feodal cəmiyyətinin ictimai-siyasi həyat tərzini kəskin tənqid etmişdir. Mütəfəkkir şair cəmiyyətdə qayda-qanun yaradılmasını təklif etmiş və ayrı-seçkiliyə qarşı çıxmışdır.

Xaqaninin ictimai-siyasi baxışlarında dövlətin, xalqın və cəmiyyətin maraqlarının müdafiə edilməsi başlıca yer tutur. Xaqani yaradıcılığında humanist ideyalara geniş yer verilir. O, həmişə hökmdarları ədalətli olmağa çağırırdı. Onun bu ideyası bugün də öz aktuallığını saxlayır. Xaqani, belə hesab edirdi ki, təkmilləşmiş mükəmməl dövlətə güc vasitəsilə deyil, yalnız azadlıq və sosial ədalət yolu ilə nail olmaq mümkündür.

Xaqani "Mədain xarabalıqları" əsərində ərəb işğalçıları tərəfindən Sasani dövlətinin paytaxtı Mədain şəhərinin dağıdılmasını şiddətlə qınamışdır.

Xaqani “Həbsxana qəsidləri” və “Meratüs-səfa” (“Səfa güzgüsü”) əsərlərində cəmiyyətdə baş verən münaqişələri, onların doğurduğu ədalətsizlikləri və xalqa edilən xəyanətləri kəskin şəkildə ifşa edir.

Xaqani cəmiyyətdə zülmə, haqsızlığa, sosial ədalətsizliyə qarşı çıxaraq yoxsulların mənafeyini müdafiə edirdi. O, özünü yoxsullar şairi adlandıraraq yazırdı:

*İstəmirəm adımı çağıralar Xaqani –*
*Mən yoxsullar şairi xəlqaniyəm xəlqani.*

Xaqani dövlətin irsi qaydada idarə olunmasının tərfdarı idi. O, qeyd edirdi ki, dövlətə maarifçi, azadfikirli, xalqı sevən düşüncəli şəxslər başçılıq etməlidir.

Xaqani bildirirdi ki, bütün insanlar azad doğulduğu üçün bərabər hüquqa malik olmalıdırlar və o, cəmiyyətdə sosial ədalətin hökmran olmasının tərəfdarı idi. Onun fikrincə “ədalət yaratmaqdır, qurmaqdır, səma məhz ədalət sayəsində mövcuddur”.

Xaqaninin ictimai-siyasi baxışları bugün də öz əhəmiyyətini saxlayır. Xaqani Azərbaycanın ictimai-siyasi fikir tarixində sosial ədalət, azadlıq və insanın xoşbəxtliyi uğrunda böyük mübariz mütəfəkkir kimi qalmışdır.

### 1.8.4. Nizami Gəncəvinin ictimai–siyasi ideyaları

XII əsr ictimai-siyasi fikrində görkəmli yer tutan Azərbaycanın dahi mütəfəkkirlərindən biri də Nizami Gəncəvidir (1141–1209). Nizami Gəncəvinin əsərlərində dövlətçilik nəzəriyyəsinin və utopik cəmiyyət ideyasının əsası qoyulmuşdur. Nizami öz sosial utopiyasını “İqbalnamə” və “İsgəndərnamə” əsərlərində vermişdir. “İsgəndərnamə” əsərində irəli sürülən qiymətli siyasi ideyalar əsərin ictimai-siyasi məzmununu açır. Nizami “İsgəndərnamə” əsərində zülm və istismarın olmadığı ədalətli siyasi quruluşun ideal mənzərəsini təsvir etmişdir. Onun sosial utopiyasında əmlak bərabərsizliyi ləğv edilir, idarə edənlərə və tabelikdə olanlara təsadüf olunmur, cəmiyyətin sərvətləri onun üzvləri arasında bərabər qaydada bölüşdürülür, vətəndaşların siyasi

hüquq bərabərliyi təmin olunur. Nizaminin arzuladığı ideal dövlətdə adamlar yalan, riyakarlıq nə olduğunu bilmir, ikiüzlülük nəzərə çarpmır, təmiz və nəcib mənəviyyatlı insanların birgə yaşayışı və fəaliyyəti həyata keçirilir. Belə dövlətdə qocalara və zəiflərə, köməksizlərə yardım göstərilir, onlar qayğıkeşliklə əhatə olunur. Bu mülahizələr mahiyyət etibarilə dövlətin ümumi rifah qayğısına qalması funksiyasına dair səmərəli və humanist siyasi ideya kimi səciyyələnir. Nizami elə bir şəhər – dövlət arzulayır ki, burada polis, həbsxana və digər məcburetmə təsisatları yoxdur.

Platonun və İbn-Xaldunun ideal dövlət haqqında görüşləri kimi, Nizaminin də ideal dövlət barədə ideyaları siyasi təlimlər tarixində dövlət haqqında təsəvvürlərin zənginləşməsinə və təkmilləşməsinə böyük töhvədir. Bu baxımdan Nizami Gəncəvi dünya siyasi fikrinin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Nizaminin sosial-siyasi görüşlərinin formalaşmasında gizli fəaliyyət göstərən və şəhər əhalisinin inqilabi əhval-ruhiyyəsini əks etdirən "Əxi" cəmiyyəti mühüm rol oynamışdır.

Nizami öz əsərlərində feodal cəmiyyətinin qüsurlarını açıqlayaraq, şahların və feodalların özbaşınalığını ifşa edərək göstərirdi ki, onların hakimiyyəti zorakılığa əsaslanır. O da Xaqani kimi zəhmətkeşlərin mənafeyini müdafiə edir, xalqı zülmə, haqsızlığa qarşı amansız və dəyanətli olmağa, istibdad üsul idarəsi ilə mübarizəyə və barışmazlığa çağırırdı.

Nizami qətiyyətlə bildirirdi: dövlət o halda qüdrətli ola bilər ki, azadlığı və sosial ədaləti bərqərar etsin. O, dövlətin ədalətli fəaliyyətini şərtləndirən cəhətlərə də diqqət yetirmişdir. Nizaminin fikrincə dövlət quruluşunun başlıca prinsipi ədalət məhkəməsinin mövcudluğudur.

Mütəfəkkir dövlətin mövcudluğunu təmin edən amillər sırasında qanunlara ciddi əməl olunmasına böyük əhəmiyyət verirdi. Hökmdar idarə etdiyi ölkədə qayda-qanunların hökm sürməsinə nail olmalı və dövlətə qayğıkeşliklə rəhbərlik etməlidir, əsl dövlət öz fəaliyyətində qanunlara əsaslanmalıdır.

### 1.8.5. XIII–XIV əsrlərdə siyasi fikir

XIII–XIV əsrlərdə Azərbaycanda ictimai-siyasi şərait mürəkkəbləşdi. Müstəqil feodal dövlətləri – Eldənizlər və Şirvanşahlar dövlətləri ara müharibələri nəticəsində zəiflədi. XIII əsrin əvvəllərində Mərkəzi Asiyadan monqolların Azərbaycana (1220–1222 və 1231–1239) yürüşləri başladı. 1225–1231-ci illərdə Azərbaycan Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin hakimiyyəti altına düşdü. Atabəylər dövləti süqut etdikdən (1225) sonra, Azərbaycan monqol Hülakilər (Elxanilər) dövlətinin (1256–1357), daha sonra isə XIV əsrin ortalarında Elxanilər dövlətinin süqutu nəticəsində Cəlairilər dövlətinin (1358–1410) tərkibinə qatıldı.

XIV əsrin sonlarında bir-birinə düşmən olan iki istilaçının – Orta Asiya hökmdarı Əmir Teymurun cənubdan və Qızıl Orda xanı Toxtamışın şimaldan Azərbaycana yürüşləri başladı. XIV əsrin sonlarında Şirvan və Şəki istisna olmaqla Azərbaycan Teymurilərin hakimiyyəti altına düşdü. Yadelli qəsbkarlara qarşı Azərbaycan xalqı mübarizəyə başladı. Xarici qəsbkarların törətdikləri dağıntılar Azərbaycanın iqtisadiyyatına, mənəviyyatına, mədəniyyətinə və ictimai-siyasi həyatına ağır zərbə vurdu.

Azərbaycanda gərgin ictimai-siyasi hadisələrin cərəyan etdiyi və iqtisadi sarsıntıların baş verdiyi belə bir şəraitdə mədəniyyət, elmi-fəlsəfi fikir heyrətamiz dərəcədə tərəqqi etməyə başladı.

XIV əsrdə əsası Fəzlullah Nəimi (1339–1394) tərəfindən qoyulan dini-siyasi hərəkat olan hürufilik  geniş yayılmağa başladı. Kəskin sinfi qarşıdurma, yadellilərin və yerli feodalların despotizmi yeni yaranmış təlim olan hürufiliyin xalq kütlələrinin mübarizəsinin ideoloji proqramına çevrilməsinə şərait yaratdı. Hürufilik antifeodal xarakter daşıyırdı və İslam dininin bəzi müddəalarına qarşı çıxırdı.

Ümumiyyətlə, XIII–XIV əsrlərdə baş vermiş hadisələr Azərbaycanın ictimai-siyasi fikrinə həlledici təsir göstərdi. XIII–XIV əsrlərdə sührəvərdilik, qadirilik, yasəvilik, rafilik, kübravilik və başqa sufi təriqətlərinin fəaliyyətləri genişləndi. Sührəvərdilik ordeninin yaradıcısı Şihabəddin Əbuhəfs Ömər Məhəmməd oğlu

Sührəvərdinin (1145–1234) ictimai-siyasi və elmi fəaliyyətində dövrün siyasi hadisələri öz əksini tapmışdı.

XIII–XIV əsr Azərbaycanın mütəfəkkir şairləri – Zülfüqar Şirvaninin (1190–1291), Hümam Təbrizinin (1238–1314), İbrahim Urməvinin (1228–1293) və Şeyx Rüknəddin Əhməd Əvhədi Marağayinin (1274–1338) poeziyaları ictimai-siyasi məzmun daşıyırdı.

### 1.8.6. Əvhədi Marağayinin siyasi dünyagörüşü

XIII–XIV əsrlər siyasi mütəfəkkirlərinin aydın zəkalarından biri olan Əvhədi Marağayinin (1274–1338) ictimai–siyasi baxışları onun "Dəhnamə" və "Cəmşid camı" əsərlərində verilmişdir. O, əsərlərində Orta əsrlər dövlət quruluşunu tənqid edir, zülm və zorakılığa qarşı çıxır, hökmdarları ədalətli olmağa və qanuna riayət etməyə çağırırdı. Əvhədi Marağayi əsərlərində dövrün bütün faciələrini açmağa cəhd göstərirdi. Onun fəlsəfi, ictimai-siyasi baxışlarında insan, cəmiyyət, sosial ədalət, elm, təhsil, pedaqogika və gənclərin tərbiyəsi məsələləri başlıca yer tuturdu.

"Cəmşid camı" əsərinin "Ədalət haqqında padşaha məsləhətlər" bölməsində o, şaha müraciət edərək onu insaflı olmağa və yamanlığa qarşı mübarizədə ədalətli olmağa çağırır. Əvhədi yazır: "Əgər şah öz işində ədalətli və insaflı olarsa, onun hökmranlığı möhkəm və uzunsürən olar".

Müsəlman Şərqi mütəfəkkirlərinin sosial-siyasi təlimlərində "ədalət və ədalətli hökmdar" ideyası qırmızı xətlə keçir. Bu, Xaqani, Fərabi, Nizami, İbn Sina və başqalarının baxışlarına da xasdır.

Ölkənin ədalətli idarə olunması dedikdə, Əvhədi aşağıdakıları nəzərdə tutur: şəriətə, ədalət məhkəməsinə, dövlətdə qayda və qanunlara, eləcə də cəmiyyətin hər bir üzvünün hüquqlarının qorunmasına ciddi riayət etmək, özbaşınalıq edənləri və qanunları pozanları cəzalandırmaq.

Əvhədi zorakılığa, əbəs yerə qan tökülməsinə qarşı çıxır. O istəmir ki, hökmdarın ötəri əhvalı zorakılığa və qan tökülməsinə səbəb olsun.

Ədalətli idarə etmək üçün hökmdarlardan birinci növbədə əxlaqi kamilləşmə və daim özünü təkmilləşdirmə tələb olunur. Ədalətli hökmdar mənəvi tələbləri yerinə yetirməklə bərabər, həm də hərtərəfli biliyə, elmə malik olmalıdır.

Əvhədi hesab edir ki, dövlət işlərini apararkən şahın ətrafındakı adamların da üzərinə böyük məsuliyyət düşür. Şahın birinci köməkçisi – "ölkənin dayağı və idarəedəni" vəzirdir. Əvhədi şaha məsləhət verir ki, ölkəni idarə edərkən düz, təmiz və ədalətli insanlara arxalansın.

Orta əsr İslam ölkələrində dövrün tələblərinə uyğun olaraq və şəhərlərin yüksək inkişafını nəzərə alaraq, Əvhədi yeni şəhərlərin tikintisinə, kəndlərin yaradılmasına, eləcə də sosial abadlaşma işlərinə böyük diqqət yetirir. O, evdarlıq işlərinə də aid çoxlu məsləhətlər verir. Əvhədi cəmiyyətin həyatında ailə və gənclərin tərbiyəsi məsələlərinə birinci dərəcəli məsələ kimi baxırdı. O, hesab edirdi ki, tərbiyənin əsasında əmək durur: "Oğlunu ərköyün böyütmə, onu işdən azad etmə".

Cəmiyyətdə sosial təbəqələşməni dərk və qəbul edən Əvhədi buna baxmayaraq, adamları insan həyatını, insan şərəfini qorumağa çağırır. Həyat, kimə (kasıb və ya varlıya, ağaya və ya qula) məxsus olmasından asılı olmayaq, yüksək dəyərə malikdir və hətta sözə baxmayan bir qulun öldürülməsi belə ağılsızlıqdır:

Əgər, sən dirisən və gözlərin görür,
Heç bir canlının həyatına qəsd etmə.

"Ağa olmaq nə deməkdir" sualına Əvhədi cavab verir ki, bu, Allahın qulu olmaq deməkdir, yəni insanlara qarşı rəhmdil olmalısan, əzab çəkənə məlhəm, yıxılana dayaq, genişürəkli və ədalətli, eləcə də var-dövlətə, ad-sana laqeyd olmalısan, zorakılıq, pislik etməməlisən. O, qeyd edirdi ki, alicənablıq, mərdlik, genişürəklilik, insanpərvərlik kimi yüksək keyfiyyətlər iki şəxsiyyətə xasdır: Məhəmməd peyğəmbərə və İmam Əliyə. Bu şəxsiyyətlərin simasına yaxınlaşmaq üçün öz xalqına sədaqətlə xidmət etməli, yoxsullara yardım etməli, pis əməllərdən əl çəkməli, paxıl olmamalısan, bədəncə və qəlbən təmiz olmalısan. İnsanın gücü, namusu, şərəfi və şan-şöhrəti onun məqsəd və əməllərinin vəhdətindədir.

Söz və işin bağlılığı, daxili məqsədlərin xarici əməllərə uyğunluğu insanın müdrikliyini sübut edən amillərdir. Əvhədi öyrədirdi ki, əvvəlcə müdrikin əməlinə bax, sonra sözlərini qəbul et. Müdrik çox bilən deyil, o öz təmiz məqsədlərinə uyğun hərəkət edəndir.

Əvhədi Marağayinin ictimai-siyasi baxışları, insana və onun ləyaqətinə yüksək qiymət verən, cəmiyyət həyatında ədalətin və xeyirxahlığın təntənəsinə inam humanist mütəfəkkirin mütərəqqi həyat mövqeyindən xəbər verir.

Mütəfəkkir sosial ədalət ideyasını "ədalətli hökmdar" ideyası ilə əlaqələndirir. Onun fikrincə, hər bir siyasi və sosial fəaliyyət mənəvi-əxlaqi prinsiplərə söykənməlidir. Sosial bərabərsizlik və ictimai ədalədsizlik problemlərini düşünüb təhlil edərək o, bu problemlərin həlli yolunu hökmdarın və xalqın əxlaqi kamilləşməsində görürdü.

## 1.8.7. XIII–XIV əsrlər Azərbaycan hüquqşünas və filosoflarının ictimai-siyasi dünyagörüşləri

XIII–XIV əsrlər Azərbaycanda sünni hüquq məktəblərinin görkəmli nümayəndələri – Əminəddin Müzəffər Əbülxeyir oğlu Təbrizi Varaninin (1163–1124), Əbülmənaqib Mahmud Əhməd oğlu Zəncaninin (1177–1258), Əbuəhməd Zəki Həsən oğlu Beyləqaninin (1186–1277), Tacəddin Məhəmməd Hüseyn oğlu Urməvinin (1174–1254), Şəmsəddin Əbülabbas Əhməd Xəlil oğlu Xoylunun (1187–1240), onun oğlu Şihabəddin Məhəmməd Xoylunun (1229–1294) və Müslihəddin Əbülfəth Musa ibn Əmirhac Məhəmməd Təbrizinin (1270–1336) ictimai-siyasi və hüquqi təlimləri Azərbaycanın dövlətçilik nəzəriyyəsinin ideya əsasını təşkil edirdi.

XIII–XIV əsrlərdə yaşayıb-yaratmış görkəmli Azərbaycan filosofları – Kəmaləddin Musa ibn Yunusun (1156–1242), Şəmsəddin Əbdülhəmid ibn İsa Xosrovşahinin (1181–1252), Nəcməddin Əhməd Əbubəkr oğlu Naxçıvaninin (...–1253), Əfzələddin Məhəmməd Hamavər oğlu Xunəcinin (1194–1248),

Siracəddin Mahmud Əkbər oğlu Urməvinin (1198–1283), Nəsirəddin Məhəmməd Tusinin (1201–1274) və Səadəddin Mahmud Əbdülkərim oğlu Şəbustəri Təbrizinin (1287–1320) ictimai-siyasi fəaliyyətlərində və elmi-fəlsəfı baxışlarında insan, cəmiyyət və dövlətin idarəedilməsi problemləri qoyulmuşdur. XIII–XIV əsrlərin ictimai-siyasi fıkrində ədalətli insan, ilk növbədə ədalətli hökmdar – şah, sultan arzusu Orta əsrlərdə ictimai-siyasi ideyaların mərkəzində dururdu.

## 1.8.8. Siracəddin Urməvinin sosial-siyasi ideyaları

Azərbaycanın böyük fılosofu, təbiətşünas alimi, ictimai-siyasi xadimi Siracəddin Urməvi (1198–1283) öz əsərlərində insanın ailədə, cəmiyyətdə, ictimai-sıyasi həyatda mövqeyini və rolunu səciyyələndirmişdir. Filosof feodal cəmiyyətində yaşayan insanları sosial təbəqələrə ayırmışdır. Mütəfəkkir əsərlərində dövlətin, cəmiyyətin idarə olunmasında hökmdarın və ayrı-ayrı vəzifəli şəxslərin sosial ədaləti özləri üçün əsas prinsip götürməsi ideyasını irəli sürmüşdür. Filosof haqqı-ədaləti hər şeydən, hətta peyğəmbər nüfuzundan üstün tuturdu.

Siracəddin Urməvi əsərlərində ədalətli insan, xüsusilə ədalətli hökmdar obrazı yaratmışdır. Filosof cəmiyyətdəki müxtəlif insanlar, qruplar, təbəqələr arasında hüquq bərabərliyinə riayət edilməsini ədalətin bərqərar olması üçün ən mühüm amil saymışdır. Siracəddin Urməvinin – “Bərabərlik olmayan yerdə sosial ədalətdən danışmağa dəyməz” fikri zaman etibarı ilə əbədidir.

Siracəddin Urməvinin mütərəqqi sosial-siyasi görüşləri, xüsusilə ədalətə və tutduqları mövqedən asılı olmayaraq insanlar arasında hüquq bərabərliyinə səsləyən humanist ideyaları, zəhmətkeş insanlara dərin rəğbət bəslənməsi müsəlman Şərq xalqlarının orta əsr ictimai-siyasi fikir tarixində mühüm əhəmiyyət kəsb edirdi.

Urməvi yaradıcılığında insanın cəmiyyətdə (ailə, şəhər, dövlət) rolunun işıqlandırılmasına da müəyyən yer ayrılır. İnsan iradə və hakimiyyət sahibidir, hökm etməyi isə o, hər şey üzərində

hökm edən Allahdan öyrənməlidir. Mütəfəkkir insanın maddi və mənəvi tələbatlarından, onların ödənilməsinin cəmiyyətin mühafizəsi üçün zəruri amil olmasından bəhs edir.

O, tələbatların birinci növünə bitki, heyvanat aləmini və i.a. əhatə etdiyi suyu, yəni şəxsən heç kəsə məxsus olmayan şeyi, ikinci növə xüsusi mülkiyyəti, yəni ayrı-ayrı insanlara məxsus əmlakı, var-dövləti aid edir. Mütəfəkkirin fikrincə, məhz xüsusi mülkiyyət ədavət və müharibələrin səbəbidir, məhz o, həsəd və tamah obyektidir. Əgər cəmiyyətdə bunların qarşısını alan başlanğıclar olmasaydı, qarışıqlıq və zorakılıq qələbə çalardı. Dünyada qayda yaratmaq üçün qanunlar və hakimiyyət zəruridir.

Urməvi müxtəlif təbəqələr və cəmiyyətdə onların qarşılıqlı əlaqələri haqqında yazaraq, hökmdar və rəiyyət arasındakı münasibətlər barədə fikirlərini insan orqanizmi timsalında izah edirdi. Hökmdarı başa, rəiyyəti bədənə bənzədirdi, baş və bədən vahid olduğu üçün, hökmdar və rəiyyət də bir olmalıdır. Daha sonra göstərirdi ki, ağlın mənbəyi, yəni baş bədəni qoruduğu kimi, hökmdar və onun əyanları da dövlətin əsası olan rəiyyətini qorumalı və müdafiə etməlidirlər. Cəmiyyətdə rəiyyət arasında əkinçiləri mütəfəkkir daha yüksək qiymətləndirirdi.

Urməviyə görə, hökmdar vəzifələri paylayanda öz təbəələrinin real imkan və qabiliyyətlərini nəzərə almalıdır. O, hökmdarları zorakılıq və rüşvətxorluqdan çəkindirməyə çalışırdı. Hökmdar öz cəmiyyətinin gələcəyini qabaqcadan görməyi bacarmalı, hamını dinləyərək ətrafındakı müdrik insanların məsləhətlərini nəzərə almağı bacarmalıdır.

Urməvi sosial baxışlarında müdrik və ədalətli hökmdar obrazının səciyyəsinə xüsusi yer ayırır. O, təşəbbüskarlıq və soyuqqanlılıq kimi keyfiyyətlərə malik olmalıdır. Hökmdarın ölkənin həyatı haqqında doğru məlumatlar çatdıran xəbərçilər şəbəkəsi olmalıdır. Ölkədə ədalətli qanunlar fəaliyyət göstərməli və zorakılıq ciddi cəzalandırılmalıdır.

Cinayətkarlara rəhm edib, himayə göstərmək olmaz. Ədalət hər şeydən yüksəkdir. Çünki, göy də, yer də, onların arasında mövcud olanlar da ədalətə söykənir. Ədalət peyğəmbərin nüfuzundan yüksəkdir. O, cəmiyyətın rifahının təməlidir. Hökmdar

sosial vəziyyətindən asılı olmayaraq bütün təbəələrinə eyni gözlə baxmalıdır. Urməvinin nəzərində ədalət odur ki, hökmdar bütün təbəələrinin hüquqlarını bərabərləşdirir və özünü onlarla bərabər hüquqlu hesab edir.

Urməvinin etik baxışlarında insanın özünüidarəetməsi problemi xüsusi yer tutur, bu isə onun mənəvi cəhətdən saflaşması və kamilləşməsi üçün ölçü sistemini yaradır. Mütəfəkkirin təsəvvürünə görə, insanın mənəviyyatı xasiyyətinə uyğun olur və onun yerləşdiyi yer qəlbdir. Xasiyyətin mənbələri dörd qüvvədən ibarətdir: ağıl qüvvəsi, qəzəb qüvvəsi, ehtiras qüvvəsi və ədalət qüvvəsi. Urməvi onlardan hər birini ayrı-ayrılıqda və qarşılıqlı əlaqədə nəzərdən keçirir.

Urməviyə görə, cəmiyyətdə var-dövlətin iki növü movcuddur: şəxsiyyətin və cəmiyyətin rifahına çalışan tərifəlayiq var-dövlət və öz əxlaqi naqisliyinə görə mahiyyətcə şəxsiyyətə də, cəmiyyətin rifahına da ziyan vuran məzəmmətəlayiq var-dövlət.

Urməvinin əsərlərində ailə münasibətləri, ailə və cəmiyyətdə davranış qaydaları, o cümlədən, uşaqların tərbiyə prinsipləri də öz əksini tapmışdır. Etik-sosial problemlərin şərhində Urməvinın movqeyi peripatetizmə meyilli idi.

### 1.8.9. Nəsirəddin Tusinin dövlət idarəçilik nəzəriyyəsi

Böyük ensiklopediyaçı alim, görkəmli filosof, ictimai-siyasi xadim və Hülakü xanın (1256–1265) vəziri olmuş Nəsirəddin Məhəmməd Tusinin (1201–1271) ictimai-siyasi fəaliyyəti və təlimləri də bu dövrdə yaranmışdır. Filosof “Əxlaqi-nasiri” əsərində kamil insan problemi ideyasını irəli sürmüşdür. N.Tusi bu əsərində cəmiyyəti ayrı-ayrı sosial birliklərə və təbəqələrə, siyasəti isə müxtəlif formalara ayırmışdır.

Nəsirəddin Tusi Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisidir. Onun dövlət nəzəriyyəsinə görə dövlət ilahinin bəxş etdiyi hadisə deyil, cəmiyyətin kollektiv və təkmil formalarından biri kimi, insanların öz maraqları naminə yaratdıqları könüllü birlikdir. N.Tusinin ictimai–siyasi baxışlarında “dövlət” və

“cəmiyyət” anlayısları eynilik təşkil edir. Mütəfəkkir dövlət və cəmiyyətin strukturunu verərək, onu ayrı-ayrı elementlərə – ailə, məhəllə (və ya rayon, qrup), şəhər icması, böyük xalqların icması və ümumdünya icmasına ayırmışdır. N.Tusi “Əxlaqi-Nasiri” əsərində cəmiyyəti dörd sinfə ayırmışdır:

Birinci sinfə - “qələm əhli” – alimlər, hüquqşünaslar, qazılar, xəttatlar, riyaziyyatçılar, həndəsəşünaslar, astronomlar, həkimlər, şairlər;

İkinci sinfə - “qılınc əhli” – hərbçilər, əqidə uğrunda mübarizə aparanlar, mücahidlər, qazilər, mütəbbələr, dövlətin sərhəddini və daxili asayişini qoruyanlar, müxtəlif səviyyəli məmurlar;

Üçüncü sinfə - “iş adamları” – tacirlər, sənətkarlar, vergi yığanlar;

Dördüncü sinfə - “təsərrüfat adamları” – bütün kəndlilər.

Nəsirəddin Tusinin fikrincə dördüncü sinfə daxil olanlar əvvəlki üç sinfə daxil olan insanları yedizdirir və dünyanın çiçəklənməsi və inkişafı dördüncü sinifdən asılıdır.

N.Tusi dövlətin idarəedilməsini iki formaya – xeyirxah və bədxah idarəetmə formalarına ayırmışdır. O, xeyirxah idarəetmə formasına ideal dövlət (şəhər), zəka dövləti, hüquq və rifah məsələlərində xalqın razılığı ilə yaradılan şəhər dövlətini aid edir. Onun sakinləri dərrakəli və ədalətlidirlər. Burada əqlin hakimiyyəti müdrik idarəetməyə əlverişli şərait yaradır və ədalətli qanunlar verir.

N.Tusi ideal dövlət tipi ideyasını irəli sürmüşdür. Onun “ideal dövlətində” dinlə dövlət, dünyəvi hakimiyyətlə dini hakimiyyət vəhdət təşkil edir. İdeal dövlətdə din dövlətin əsası, onun dayağıdır. İdeal şəhərə (dövlətə) mütləq monarx rəhbərlik edir. Uyğun ləyaqətli insan olmadıqda isə rəhbərin funksiyasını “Qanunverici kişilərin Ali Məclisi” yerinə yetirir. İdeal şəhər və dövlətdə üç tip vətəndaş yaşaya bilər:

- Anadangəlmə müdrikliyə malik olan vətəndaşlar;
- Filosoflar səviyyəsinə çatmağa cəhd göstərən vətəndaşlar;
- Dini qanunların müdrik olmağa məcbur etdiyi vətəndaşlar.

N.Tusi idarəetmə üzrə müxtəlif funksiyaları yerinə yetirməli olan orqanları müəyyən etmişdir:

- Qanunların nizamlayıcıları - müsəlman hüquqşünaslığı, ritorika, poeziya və kalliqrafiya üzrə mütəxəssislər;

- Qanunların ədalətliliyini qoruyanlar, dövlətin sakinlərinin bərabərliyini təmin edənlər;

- Şəhər – dövlətin müdafiəçiləri;

- Şəhərin yaşaması üçün vasitələrin qayğısına qalan xidmətçilər.

Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində xeyirxah dövlətə qarşı xeyirxahlığın mövcud olmadığı dövləti qoyur. O, xeyirxah olmayan dövləti üç tipə ayımışdır:

1) "cahil"; 2) "kafir"; 3) "nöqsanlı" şəhər–dövlətləri.

Mütəfəkkir "cahil" şəhər–dövlət tipini aşağıdakılara ayırmışdır:

- İstehlakçı şəhər–dövlətləri – burada insanlar xoşbəxtliyə nail olmağa deyil, yaşamaq üçün vasitələr əldə etməyə cəhd göstərirlər;

- Asılı şəhər–dövlətləri – burada əhalinin bütün gücü əsasən sərvət toplanılmasına yönəldilmişdir;

- Eqoist şəhər–dövlətləri – buranın əhalisinə xəsislik, xırdaçılıq və acgözlük xasdır;

- Əyanların şəhər–dövləti – buranın əhalisinə nüfuz, şərəf və ləyaqət xasdır;

- Hökmranlığın mövcud olduğu şəhər-dövlətləri;

- Azadlığın, müstəqilliyin (hürriyyətin) mövcud olduğu şəhər–dövləti – burada hərə öz üzərində mütləq hakimiyyətə malikdir, hər bir insanın hüququ onun öz əlindədir, hərə öz bildiyini və istədiyini edir. Bu şəhər–dövlətinin bütün əhalisi müstəqil yaşayır.

Beləliklə, Nəsirəddin Tusi özünəməxsus dövlət idarəçilik nəzəriyyəsini yaratmışdır. O, dövlət aparatının ayrı-ayrı hissələrinin və vəzifəli şəxslərin funksiyalarının sxemini işləyib hazırlamışdır. Mütəfəkkirin ideyasına görə dövlət idarəetməsi beş elementdən ibarətdir:

- Müdriklər;

- İnsanların kamilləşdirilməsi məsələləri ilə məşğul olan maarifçilər;

- Qanunvericiliyin, ədalətin, ticarət qaydalarının təmin olunmasında dövlət nəzarətini həyata keçirən nəzarətçilər;

- İctimai qayda-qanunu qoruyan, əhalinin və onun mülkünü oğrulardan və fırıldaqçılardan mühafizə edən keşikçilər;

- Əhalinin bütün təbəqələrini ərzaqla təmin edən və maliyyə işləri ilə məşğul olan maliyyəçilər və təsərrüfat işləri ilə məşğul olanlar.

N.Tusi siyasəti iki formaya ayırmışdır: xeyirxah siyasət və bədxah siyasət. *Xeyirxah* siyasətin məqsədi "xalqı xoşbəxt etməkdən, onlarda ədalət hissi aşılamaqdan, əhaliyə dostcasına münasibət yaratmaqdan, şəhərlərdə xalqın xeyrinə xeyirxah işlər görməkdən ibarətdir".

*Bədxah* siyasəti isə N.Tusi despotik siyasət adlandırmışdır. Bu siyasətin məqsədi xalqı kölə vəziyyətinə salmaqdan, şəhərlərdə xalqın zərərinə ziyanlı işlər görməkdən ibarətdir. Bu siyasətin nəticəsi bədbəxtliyə gətirib çıxara bilər.

N.Tusiyə görə "dünya iki şeydən daha çox əziyyət çəkır: birincisi ölkədə despotik idarəetmənin hökm sürdüyü zaman; ikincisi isə ölkədə özbaşınalığın hökm sürdüyü zaman".

"Dövlətin gücü onun doğru-düzgün, ağıllı siyasət yeritməsindən asılıdır. Dövlətin gücü şaha əsaslanır, şahın gücü siyasətə əsaslanır, siyasətin gücü isə müdrikliyə əsaslanır".

N.Tusi dövlətin xarici siyasətini düşünərək başlıca diqqəti müharibələrin dayandırılmasına vermişdir. "Əgər dövlətə düşmənin hücumu təhlükəsi yaranarsa, sülhsevər siyasət yeridilərək müharibə dayandırılmalıdır".

Müharibə hər iki tərəfə çoxlu bədbəxtliklər gətirir. N.Tusi müharibəyə tərif vermişdir: "Müharibə dünyada qayda–qanunların pozulmasına yönəldilmiş hərc–mərclikdir. O, bütün alçaqlıqlar, əclaflıqlar və iyrəncliklər içərisində ən təhlükəlisidir".

N.Tusi müharibəni ədalətli və ədalətsiz müharibəyə ayırmışdır. O, Vətənin və dinin qorunmasına yönəldilən müharibəni ədalətli, başqa xalqdan qisas almağı isə ədalətsiz müharibə hesab edirdi. Tusi belə bir əqidəyə gəlmişdi ki, ədalətli müharibə aparan qüvvələr qələbə çalır, ədalətsiz müharibələr isə hökmən məğlub olmalıdır. Mütəfəkkir hökmdarları ədalətsiz müharibələr

aparmaqdan çəkindirir, onları bütün mübahisəli məsələləri sülh yolu ilə, əqlin, dərrakənin köməyi ilə həll etməyə çağırırdı.

N.Tusi dövlətə hücum təhlükələrinin qarşısını almaq üçün ordu yaradılmasını; düşmənin qəflətən hücumunun qarşısının alınması üçün sayıq olmağı; dövlətin sərhədlərinin mühafizəsiz qoymamağın zəruriliyini məsləhət görürdü.

Dövlətlərarası münasibətlərin yaxşılaşdırılması məsələlərində mütəfəkkir dövlət başçılarının ardıcıl görüşlər keçirmələrinə mühüm əhəmiyyət verirdi. Tusinin ideyasına görə belə görüşlər ayrı–ayrı xalqlar, şəhərlər arasında da təşkil edilməlidir. Mütəfəkkir dövlətlərarası qarşılıqlı münasibətlərin müxtəlif məsələlərinə baxmaq üçün Ümumdünya forumunun çağırılması ideyasını irəli sürmüşdür.

Tusi məğlub olmuş ölkənin xalqının qisasçılıq hissinə qarşı çıxaraq, həmçinin qalib gəlmiş ölkələrin hökmdarlarını zülmə, qisasçılığa və münaqişələrə son qoymağa, eləcə də məğlub olmuş ölkələrin əsgərlərinə qarşı qəddar münasibətə və onların məhv edilməsinə qarşı çağırırdı.

N.Tusinin əsərlərində sosial ədalət problemi hərtərəfli təhlil edilərək, bunu mövcud dövlətlə əlaqələndirirdi. Onun fikrincə, sosial ədalət dövlət daxili ictimai münasibətlərin nizamlayıcısıdır. N.Tusi dövlət quruluşunun möhkəmliyini, onun inkişafını, uzunömürlü və etibarlılığını da sosial ədalətlə əlaqələndirirdi.

N.Tusi sosial ədalətin üç əsas şərtini müəyyən etmişdir:

- Ədalətin birinci şərti xalqın müxtəlif sinfi təbəqələr arasında harmoniya yaratmasından ibarət olması;
- Ədalətin ikinci şərti xalqa diqqətli münasibətdən, hər bir kəsin talant və qabiliyyətinə görə xidmətinin müəyyən edilməsindən ibarət olması;
- Ədalətin üçüncü şərti isə ümumi sərvətin qorunmasına cəhddən, hər bir kəsə öz payının verilməsindən, bunun üçün hüquq və xidmətə layiq olmağa diqqətin yetirilməsindən ibarətdir.

Mütəfəkkir ümumi və birgə əmək nəticəsində qazanılan gəlirin ədalətli bölgü məsələsinə, zənginlik və yoxsulluq probleminə xüsusi diqqət yetirmişdir. N.Tusinin ideyasına görə sosial ədalət hökmdarın öz əlindədir. Sosial ədaləti "vicdanının səsi" olan

hökmdar bərqərar edə bilər. Hökmdarla rəiyyət arasındakı münaqişədə günahkar həm hökmdar, həm də rəiyyət ola bilər.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. XI–XIV əsrlərdə Azərbaycanda ictimai–siyasi təlimlərin inkişafı
2. Eynəlqüzat Miyanəcinin baxışlarında insan azadlığı ideyası
3. Əfzələddin Xaqani Şirvaninin ictimai–siyasi dünyagörüşü
4. Nizami Gəncəvinin ictimai–siyasi ideyaları
5. Əvhədi Marağayinin siyasi dünyagörüşü
6. XIII–XIV əsrlər Azərbaycan hüquqşünas və filosoflarının ictimai-siyasi dünyagörüşləri
7. Siracəddin Urməvinin sosial-siyasi ideyaları
8. Nəsirəddin Tusinin dövlət idarəçilik nəzəriyyəsi

## 1.9. XV–XVIII əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişaf xüsusiyyətləri

### 1.9.1. XV–XVI əsrlərdə Azərbaycanda ictimai–siyasi tərəqqi, elm, incəsənət və ədəbiyyatın kamil dövrü

XV–XVI əsrlərdə Şirvanşahlar dövləti xeyli gücləndi, Qaraqoyunlu (1410–1467) və Ağqoyunlu (1468–1503) dövlətlərində ictimai–siyasi şərait mürəkkəbləşdi. Lakin, Səfəvilər dövlətinin (1501–1736) meydana gəlməsi ilə ölkədə ictimai–siyasi sabitlik bərqərar oldu, sosial-iqtisadi və mənəvi sahələrdə tərəqqi baş verdi, vahid, mərkəzləşdirilmiş dövlət yarandı.

XV–XVIII əsrlərdə və bundan sonrakı dövrdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacar imperiyaları bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil Azərbaycanın beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkəmizin və xalqımızın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da

inkişaf etməsinə əlverişli şərait yaradırdı. Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa–Şərq münasibətlərində də çox fəal iştirak edirdilər.

Azərbaycanın böyük dövlət xadimi Uzun Həsənin hakimiyyəti illərində (1468–1478) Ağqoyunlu imperiyası bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi dövlətə çevrildi. Azərbaycanın dövlətçilik mədəniyyəti daha da inkişaf etdi. Uzun Həsən bütün Azərbaycan torpaqlarını əhatə edən güclü mərkəzləşdirilmiş dövlət yaratmaq siyasəti yeridirdi. O, bu məqsədlə xüsusi "Qanunnamə" hazırlatmışdı.

Y.Mahmudov yazır ki, görkəmli dövlət xadimi elmin, maarifin inkişafına xüsusi diqqət yetirirdi. O, dövrünün ən qabaqcıl alimlərini öz sarayına toplamışdı. Hökmdarın şəxsi kitabxanasında 60-a qədər alim çalışırdı. Uzun Həsən sarayında dövrün görkəmli alimlərindən ibarət elmi məclis fəaliyyət göstərirdi. Böyük hökmdar Qurani-Kərimi azərbaycancaya çevirtmiş, dövrün görkəmli elm adamı Əbu Bəkr əl-Tehraiyə "Kitabi-Diyarbəkriyyə" adlı Oğuznamə yazdırtmışdı. Uzun Həsən dövründə Azərbaycanın Şərq və Qərb dövlətləri ilə əlaqələri daha da artmışdı. Azərbaycanın ənənəvi əlaqələr saxladığı Şərq ölkələrindən başqa, Avropa dövlətləri ilə də geniş diplomatik münasibətlər yaratmışdı. Uzun Həsən dövründə Azərbaycan elçiləri Venesiya Respublikası, Papalıq, Neapol krallığı, Albaniya, Macarıstan, Polşa, Almaniya, Burqundiya hersoqluğu, Kipr, Trabzon imperatorluğu, Böyük Moskva knyazlığı ilə, həmçinin bir çox qonşu Şərq ölkələri hökmdarlarının saraylarında diplomatik danışıqlar aparmışdılar. Xarici ölkələrlə aparılan danışıqlarda Uzun Həsənin anası – o zaman bütün Şərqdə yeganə qadın diplomat olan Sara Xatun mühüm rol oynayırdı. Təbrizdə Uzun Həsənin sarayında Venesiya Respublikasının daimi səfirliyi fəaliyyət göstərirdi.

XV–XVI əsrlərdə Azərbaycan incəsənətinin bütün sahələrində parlaq nailiyyətlər əldə edilmişdir. Bu dövrdə Azərbaycan ədəbiyyatı özünün zəngin və kamil dövrünə qədəm qoymuşdur. Ənvər Qasımi (1356–1434), Seyid İmadəddin Nəsimi (1369–1417), Cahanşah Həqiqi (1397–1467), Gülşəni Bərdəi

(1427–...), Nemətulla Kişvəri (XV əsr), Həbibi (1470–1520), Bədrəddin Seyid Əhməd Seyid Məhəmməd oğlu Laləvi (1436–1506), Şah İsmayıl Xətai (1486–1524) və Məhəmməd Füzulinin (1494–1556) yaradıcılığında dövrün ictimai–siyasi ideyaları öz əksini tapmışdır.

## 1.9.2. Hürufiliyin sosial-siyasi mahiyyəti: Fəzlullah Nəiminin və İmadəddin Nəsiminin baxışlarında humanizm

XV–XVI əsrlərin dini–siyasi təlimləri olan hürufilik və xəlvətilikdə ictimai–siyasi və humanist ideyalar başlıca yer tutmuşdur. Bu dövrdə mövcud olan təlimlər içərisində hürufilik təlimi daha geniş yayılmışdır. Hürufilik təlimi fəlsəfi-ictimai və siyasi mahiyyət kəsb edirdi. Hürufiliyin banisi **Fəzlullah Nəimi Təbrizi Əstrabadi əl-Hürufi (1340–1401)** olmuşdur. Dini pərdə altında fəaliyyət göstərən hürufilik mahiyyət etibarı ilə siyasi xarakter daşıyırdı. Fəzlullah Nəiminin ideyalarının mübariz təbliğatçısı olan Nəsimi hürufilik təlimini inkişaf etdirdi.

Hürufilik təlimi əsasən teymurilər əleyhinə çevrilmişdi. Hürufıliyin ideya mənbələri ismaili və sufi təlimləri olmuşdur. Onun təşəkkülünə Şərq peripatetizmi də müəyyən təsir göstərmişdir. XIV–XVI əsrlərdə Osmanlı imperiyası, İran, Suriya, Yaxın və Orta Şərqin bir sıra digər ölkələrində geniş yayılmış hürufi hərəkatının və onun ideologiyasının vətəni Azərbaycan idi.

Hürufiliyin İslama və həmin dövrün digər monoteist dinlərinə münasibəti özünəməxsus idi. Hürufilik həmin dinləri qəbul edib onlara istinad etsə də, mahiyyətcə öz təlimlərini əsaslandırarkən onları inkar edir, Allahı insan və təbiətlə, dini biliklə eyniləşdirir, axirət dünyası, cəza və mükafat haqqında təlimi tamamilə inkar edən fərqli anlayış və təsəvvürlərlə əvəz edirdi. Hürufilərə görə, cənnət bilik və əxlaqi kamillik, cəhənnəm cəhalət və əxlaqi naqislikdir ki, onlar bu dünyada insana xasdırlar. Bununla belə, hürufilər əmin idilər ki, İslamın həqiqi şərhi məhz onlara məxsusdur. Təəccüblü deyil ki, İslam ilahiyyatçıları hürufiliyi

allahsızlıq və bidət elan edərək, onun nümayəndələrini amansızcasına təqib etmişlər.

Hürufiliyin sosial-siyasi ideyaları mövcud quruluşa münasibətdə müxalifliyi və demokratik istiqaməti ilə seçilirdi, bu cəhətdən hürufilik qərmətiliyə və sərbədar hərəkatlarının ideologiyasına daha yaxın olmuşdur. Allahın zühuru və mehdilik haqqında təlim onun sosial ideallarının həyata keçməsinə kömək edirdi. Hürufilik nümayəndələrinin hakimiyyət əleyhinə daimi çıxışları bunu göstərirdi.

Hürufiliyin Nəiminin təlimində şərh və inkişaf etdirilən əsas müddəaları sonradan çoxsaylı ardıcıllarının yaradıcılığında təmsil olunmuş və həmin cərəyanın ideologiyasının əsasında durmuşdu.

XIV əsrin sonları – XV əsrin əvvəllərində Azərbaycanda hürufilik ideologiyasının və ictimai-siyasi fikir tarixinin ən parlaq nümayəndəsi dünya şöhrətli Azərbaycan mütəfəkkiri və şairi **İmadəddin Nəsimi (1369–1417)** olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə 2019-cu ili "Nəsimi ili" elan etmişdir.

Azadlıq və ədalət carçısı olan Nəsimi dövrün bütün faciələrini açmağa cəhd göstərmişdir. Nəsimi yaradıcılığının qiyamçı ruhu zorakılığa, qanunsuzluğa, ədalətsizliyə, feodal və yadelli zülmə qarşı çevrilmişdir. Onun siyasi ideyalarının başlıca istiqaməti dövrün eybəcərliklərini ifşa etməkdən ibarət idi.

Nəsiminin humanist ideyaları insanın və bəşəriyyətin xidmətinə yönəldilmişdir. Ümumiyyətlə, Nəsimi hürufılik cərəyanının korifeylərindən biridir. Nəsimi bütün istismar olunanları hürufılik bayrağı altında birləşməyə çağırırdı. Nəsimiyə görə həqiqətə, azadlığa, xoşbəxtliyə gedən yol ağır və çətindir, bu yolda mübarizə isə əzab və qurbanlar tələb edir.

Nəsimi keçmişin, bugünün və gələcəyin böyük siyasi mütəfəkkiri səviyyəsində duran bir şəxsiyyətdir. Onun dünyagörüşü özündən sonra gələn mütəfəkkirlərin, xüsusilə də Məhəmməd Füzulinin və Şah İsmayıl Xətainin dünyagörüşünə böyük təsir göstərmişdir.

Bu dövrdə sufilik cərəyanı zəminində yaranmış **Xəlvətilik** təlimi də yayılmışdır. Xəlvətilik təlimi, onun görkəmli nümayəndələri – Əbu Abdulla Siracəddin Lahicinin (...–1397), Seyid Yəhya Bəhzəddin oğlu Şirvani Bakuvinin (...–1463), Dədə Ömər Röşəninin (...–1486) və qardaşı Əlaəddin Xəlvətinin, Şeyx İbrahim Məhəmməd oğlu Gülşəni Bərdəinin ictimai-siyasi ideyalarında öz əksini tapmışdır.

### 1.9.3. Şah İsmayıl Xətainin yaradıcılığında dövlətçiliyin möhkəmləndirilməsi ilə bağlı ictimai–siyasi baxışlar

XV əsrin sonu – XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xətai (1501–1524) babasının başladığı işi başa çatdırdı, bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti – Səfəvi dövləti meydana gəldi.

Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Azərbaycan dili Səfəvi imperiyasının dövlət dilinə çevrildi.

Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu islahatlar, daxili və xarici siyasət nəticəsində Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

Geniş ərazili Səfəvi imperiyasım idarə etmək üçün mükəmməl dövlət idarəçiliyi mexanizmi yaradıldı. Səfəvi hökmdarları dünyəvi hakimiyyətlə yanaşı, dini hakimiyyəti də ələ keçirdilər. Bununla, mərkəzi hakimiyyət daha da qüvvətləndirildi. Şah sarayında Ali məşvərət məclisi və ya Ali səltənət şurası fəaliyyət göstərirdi. Mərkəzi və yerli idarə orqanlarının işini tənzimləyən mükəmməl bir bürokratik sistem yaradılmışdı. Ölkə ərazisindəki bütün məhkəmə işlərinə Ali divan nəzarət edirdi. Səfəvi hökmdarlarının, xüsusən Şah Abbasın keçirdiyi islahatlar nəticəsində səfəvilərin hərbi qüvvələri dünyanın ən qüdrətli

ordularından birinə çevrilmişdi. Səfəvilərin hakimiyyəti illərində bütün Yaxın və Orta Şərqdə Azərbaycan dilinin rolu daha da artdı. Səfəvi sarayına gəlmiş xarici ölkə elçiləri ilə diplomatik danışıqlar, bir qayda olaraq, Azərbaycan dilində aparılırdı.

Ağqoyunluların xarici siyasət xəttini davam etdirən Səfəvilərin hakimiyyəti dövründə də Azərbaycan Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış, uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqə saxlayırdı. Şah İsmayıl Xətai, Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah Abbas və b. Səfəvi hökmdarlarının saraylarında çoxsaylı qərb diplomatları Səfəvi dövləti ilə sıx qarşılıqlı əlaqələr yaratmaq üçün danışıqlar aparmışdılar. Azərbaycan ağqoyunlular dövründə olduğu kimi, səfəvilərin hakimiyyəti zamanında da Şərqlə Qərb arasındakı qarşılıqlı əlaqələrdə mühüm rol oynamaqda davam edirdi.

XVI əsrdə Azərbaycan dövlətçiliyinin inkişafı tarixində mühüm rol oynamış görkəmli dövlət və siyasi xadim, mütəfəkkir Şah İsmayıl Xətainin (1487–1524) dövlətçilik ideyası mühüm əhəmiyyət kəsb edir. Xətai Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində yaradıcılıq və təşkilatçılıq fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi fikir, dövlətçilik və hərb tarixində parlaq səhifə açmışdır.

Şah İsmayıl Xətai vahid Azərbaycan Səfəvilər dövlətinin qurucusudur. Xətainin dövlətçiliklə bağlı ictimai-siyasi baxışları xüsusi əhəmiyyət kəsb edir. Xətai vahid mərkəzləşdirilmiş Səfəvilər dövlətinin yaradılmasında, özünün dövlətçilik və ictimai–siyasi fəaliyyətində İslam dininin müddəalarına, Qurana və şəriətə əsaslanmışdır.

Şah İsmayıl Xətainin hakimiyyəti illərində Azərbaycan Yaxın Şərqdə qüdrətli bir dövlətə çevrilmiş, feodal ara müharibələrinə son qoyulmuş, daxili sabitlik yaradılmış, vergilərin miqdarı azaldılmış, ticarət yollarında təhlükəsizlik təmin edilmiş, silah istehsal edən emalatxanalar yaradılmış, dövlət strukturları möhkəmləndirilmiş, güclü döyüş qabiliyyətinə malik olan qızılbaş ordusu yaradılmış, elmin, təhsilin, mədəniyyətin inkişafına zəmin yaradılmış, xarici

dövlətlərlə diplomatik münasibətlər qurulmuş, Azərbaycan dili dövlət dili olmuşdur.

Xətai fəaliyyət və yaradıcılığını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etmişdir. Onun əsərləri dini–siyasi xarakter daşıyır, dünyagörüşündə din və siyasət vəhdət təşkil edirdi.

### 1.9.4.Məhəmməd Füzulinin yaradıcılığında insan, cəmiyyət və dövlət məsələləri ilə bağlı ictimai–siyasi ideyalar

XV–XVI əsrlər Azərbaycanın ictimai–siyasi fikir tarixinin inkişafında Məhəmməd Füzuli (1498–1556) görkəmli rol oynamışdır. Füzulinin ictimai–siyasi baxışları əsas etibarı ilə onun sələflərinin ictimai–siyasi baxışları ilə səsləşirdi. Onun rübai və qəsidələri üsyankar ruh və siyasi xarakter daşıyırdı. Füzulinin "Şikayətnamə" və "Bəngü–badə" əsərləri hakim təbəqələrə, feodal sinfinə, hökmdarların və monarxların qeyri–məhdud hakimiyyətinə, şəriət adı altında pərdələnmiş qanunçuluğa qarşı yönəldilmiş siyasi satiranın klassik nümunəsi idi.

Füzuli əsərlərində insan problemini, insanın özü-özünə, təbiətə, cəmiyyətə, əməyə, xeyirə və şərə olan münasibəti məsələlərini irəli sürmüşdür. Füzulinin ictimai–siyasi baxışlarında bərabərlik, sosial münaqişələrin aradan qaldırılması prinsipləri, ədalət və qanunçuluq ideyaları humanizm problemləri ilə vəhdət təşkil edir. Mütəfəkkir cəmiyyətin insana, onun ləyaqətinə, qüdrət və əzəmətinə olan münasibətinə geniş yer verirdi.

Füzuli dövlətə, cəmiyyətə və insana böyük maraq göstərirdi. Füzuli sələfləri olan Azərbaycan mütəfəkkirləri kimi dövlətin ilahi mənşəyə malik olması fikrini müdafiə edirdi. O, dövlətin məqsəd və funksiyalarını dəqiq müəyyən etmişdir.

Füzuli siyasi baxışlarında dövlət aparatını – vəzirdən tutmuş vergi yığanlaradək bütün dərəcələrə aid olan məmurları, haqsızlıq və zülm üzərində qurulmuş bütünlükdə dövlət mexanizmini – kəskin tənqid edirdi. Füzulinin baxışlarında hökmdarlara, şahlara mənfi münasibət xüsusi yer tuturdu. Füzuli "hökmdar", "padşah"

anlayışlarını qorxu anlayışı ilə əlaqələndirirdi. Füzuli dini elmlərin mahir bilicisi idi.

### 1.9.5. XVII–XVIII əsrlərdə rəsmi dövlət sənədlərində ictimai–siyasi ideyalar

XVII əsrin sonlarında Səfəvilərin mərkəzləşdirilmiş dövləti zəiflədi. Bu dövrdə Osmanlı dövləti ilə aparılan müharibələr nəticəsində Azərbaycan ərazisinin əksər hissəsi (Azərbaycanın Cənub-Şərq hissəsindəki Qaradağ, Ərdəbil, Talış istisna olmaqla) Osmanlı Sultanlığının tərkibinə qatıldı. İşğal olunmuş ərazilərdə Osmanlı dövlətinin inzibati idarəetmə sistemi tətbiq edildi.

Azərbaycanın əfşar-türk soyundan olan Nadir şah Əfşar (1736–1747) Səfəvilərin süqutundan sonra hakimiyyətə gəldi. O, Səfəvi dövlətinin ərazilərini xeyli genişləndirdi. Nadir şah 1739-cu Hindistanın şimal ərazilərini ələ keçirdi. Lakin hakimiyyəti ələ keçirməyə çalışan saray qruplaşmalarının xəyanəti nəticəsində böyük hökmdar qətlə yetirildi.

XVIII əsrin 20-ci illərində Azərbaycanda siyasi vəziyyət gərginləşdi. 1724-cü il İstanbul müqaviləsinə görə Azərbaycan ərazisi Osmanlı və Rusiya dövlətləri arasında iki hissəyə parçalandı. XVIII əsrin I yarısında Nadir şah Əfşar (1736–1747) Azərbaycan torpaqlarını işğalçılardan azad edərək, sərhədləri bərpa etdi. Nadir şah Əfşar mərkəzləşdirilmiş, güclü dövlət yaratdı. Ancaq, Nadir şahın 1747-ci ildə sui-qəsd nəticəsində öldürülməsindən sonra vahid Azərbaycan dövləti xanlıqlara parçalandı. Müstəqil feodal dövlətləri olan xanlıqların paytaxtaxları da var idi. XVIII əsrin II yarısında Azərbaycanın xanlıqlara parçalanması mövcud ictimai-siyasi hadisələrlə qırılmaz surətdə bağlı idi.

Nadir şahın hakimiyyəti dövründə müstəqilliyə cəhd edən kiçik dövlətlər yarandı. Nadir şahın ölümündən sonra böyük imperiya süquta uğradı. XVIII əsrin II yarısında xanlıqlara və sultanlıqlara parçalanan Azərbaycanda tənəzzül dövrü başlandı.

Xanlıqlarda ali hakimiyyət xana məxsus idi. Xanlıqlarda divan-məsləhət şurası fəaliyyət göstərirdi. Şəhərin idarə edilməsində

xana tabe olan vəzifəli şəxslər – naib (canişin), darğa, xassis başı (polis rəisi) mühüm rol oynayırdı.

XVII–XVIII əsrlərdə Azərbaycanın şifahi və yazılı xalq ədəbiyyatında – "Koroğlu" qəhrəmanlıq eposunda, xalq dastanlarında və aşıq yaradıcılığında dövrün ictimai-siyasi hadisələri geniş əks olunmuşdur.

XVII əsrin sonu XVIII əsrin əvvəllərində dövrün xarakteri və I Şah Abbasın ictimai-siyasi dünyagörüşü iki sənəddə: görkəmli Azərbaycan alimi İsgəndər Münşinin (1561–1634) hüquqi traktat olan "Tarixi-aləm arayi-Abbasi" əsərində və "Came və Abbas" adlanan qanunlar toplusunda öz əksini tapmışdır.

"Tarixi-aləm arayi-Abbasi" əsərində Azərbaycanın yarım əsrlik bir dövrünün siyasi tarixi təsvir edilmişdir. İsgəndər Münşi ayrı–ayrı şah fərmanlarından, Şahın dövlət əhəmiyyətli rəsmi dəftərxana sənədlərindən geniş istifadə etmişdir. İsgəndər Münşi bu əsərindən Azərbaycan kəndlilərinin ağır vəziyyəti haqqında məlumat vermişdir. İsgəndər Münşinin "Tarixi-aləm arayi-Abbasi" əsərində dövlətin idarəetmə işlərinə yüksək vəzifəli şəxslərin təyin edilməsi, ədalətli hökmdar, onun rəiyyətə qayğısı, yolların təhlükəsizliyi, ölkənin çiçəklənməsi, sərt cəzaların tətbiq edilməsi, dövlətin idarəedilməsi üsulları məsələlərinin geniş verilməsi dövrün ictimai-siyasi fikrinin öyrənilməsində qiymətli mənbədir.

Dövrün ictimai-siyasi fikir tarixinin öyrənilməsində I Şah Abbasın fərmanları əsasında yaradılan "Came və Abbas" qanunlar toplusunun da əhəmiyyəti böyükdür. 1726-cı ildə yazılmış "Təzkirat əl-mülk" sənədində dövlətin strukturu, dövlət quruluşu, məhkəmə sistemi, inzibati və hərbi quruluş, vergi sistemi haqqında zəngin məlumatlar verilmişdir.

XVIII əsrin sosial-iqtisadi, ictimai-siyasi vəziyyətinin öyrənilməsi üçün "Dəstur əl-amal" və yaxud Məhəmməd Həsən xanın qanunları sənədinin, XVIII yüzillikdə Car müharibələrinin salnaməsi və ona əlavə olunan 20 dekabr 1751-ci ildə Ağdam məclisində qəbul edilmiş "Caro-Tal qanunnaməsi"nin əhəmiyyətli rolu var. Osmanlı imperiyasına məxsus olan və İstanbul arxivində saxlanılan "İrəvan əyalətinin qısa dəftəri", "Naxçıvan sancağının müfəssəl dəftəri", "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"

sənədlərinin Azərbaycan dövlətçiliyi tarixinin iki yüzillik bir dövrünün öyrənilməsində qiymətli mənbədir. Sənədlərdə İrəvanın əsasının Şah İsmayıl Xətai tərəfindən qoyulması və Səfəvilər dövlətinin bəylərbəyliklərindən (vilayətlərindən) biri olması haqqında məlumatın verilməsi xüsusi tarixi əhəmiyyətə malikdir.

XVII–XVIII əsrlərin bütün mürəkkəb və faciəli hadisələri həmin dövrün Azərbaycan mütəfəkkirlərinin ictimai–siyasi baxışlarında öz əksini tapmışdır.

## 1.9.6. XVII–XVIII əsrlərdə yaşamış mütəfəkkirlərin ictimai-siyasi baxışları

XVII–XVIII əsrlərdə Azərbaycanda bır sıra görkəmli şəxsiyyətlər yaşayıb-yaratmışlar. Onlar əsərlərində dövrün ictimai–siyasi hadisələrinin mahiyyətini göstərmişlər.

Yusif Məhəmmədcan oğlu Qarabağinin (…–1645) ictimai–siyasi baxışları onun "Anlaşılmazlıqların aradan qaldırılmasında haşiyələrin tamamlanması" traktatında öz əksini tapmışdır. O, feodal cəmiyyətində hüquq və mənəviyyatın nisbətinin bir çox məsələlərini tədqiq etmişdir. Qarabağinin əsərlərində sosial ədalət məsələlərinə daha çox diqqət yetirilmişdir.

Məhəmməd Əmin Sədrəddin oğlu Şirvaninin (…–1626) "Dünya əhlinin danışıqlarının və xalqların tayfalarında müxtəlif məzhəblərin bəyanına dair xülasə", "Həqiqətlərdən seçmələr və incəliklərdə əsas mətləb", "Xaqan tayfaları" traktatlarında elmin mahiyyəti və təsnifatı, hökmdarların davranış qaydaları, siyasət və etika məsələləri geniş və dürüst araşdırılmışdır.

Məhəmməd Əli–Saib Təbrizi (1601–1677) Azərbaycanın ictimai-siyasi fikir tarixində nəzərə çarpan iz qoymuşdur. Saib Təbrizinin əsərlərində humanizm və azadlıq problemi başlıca yer tuturdu. Mütəfəkkir əsərlərində müharibə və zülmün əleyhinə çıxır, xalqı birliyə çağırır, hökmdarları dövləti qorumaq üçün ayıq olması haqqında xəbərdarlıq edirdi.

XVII–XVIII əsrlərin mütəfəkkirləri – Mirzə Məhəmməd Həsən oğlu Şirvaninin (…–1686), Mirzə Həsən Mirzə Əbdürrəsul

Zünzinin (1758–…), Molla Rəcəbəli Təbrizinin (…–1669) əsərlərində ictimai–siyasi hadisələr şərh edilmişdir.

XVIII əsr ictimai–siyasi fikir tarixinin görkəmli nümayəndələri – Molla Vəli Vidadinin (1709–1809) və Molla Pənah Vaqifin (1717–1797) yaradıcılıqlarında dövrün ictimai–siyasi hadisələri geniş şəkildə əks olunmuşdur.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycanın görkəmli alim–səyyahı, filosof və pedaqoqu Hacı Zeynalabdin İsgəndər oğlu Şirvaninin (1779–1839) əsərlərində onun dövlət və cəmiyyətlə bağlı ictimai–siyasi baxışları verilmişdir.

### 1.9.7. Saib Təbrizinin XVII əsr Azərbaycanın ictimai–siyasi fikir tarixində yeri

Mirzə Məhəmməd Əli Saib Təbrizi (1601–1677) Azərbaycanın görkəmli filosofu, alimi və bədii söz ustadıdır. O, XVII əsr Azərbaycan, eləcə də Yaxın və Orta Şərq xalqlarının mütərəqqi fikirli mütəfəkkirləri sırasına daxil olmuşdur. Saib Təbrizinin sosial ədalətsizliklərə, zorakılıq və cəhalətə qarşı açıq etiraz etməsi, hakimiyyətdə olanları ədalətli olmağa çağırması, azadlıqsevər ideyaların təbliği onun əsərlərinin sosial-siyasi mahiyyətini təşkil edirdi.

Saib Təbrizi Yaxın və Orta Şərq ölkələrinə səyahət etmiş, Ərəbistanın, Kiçik Asiyanın, Əfqanıstanın və Hindistanın böyük mədəni mərkəzlərində olmuşdur. Bu ölkələrdə o, yüksək ziyalı təbəqəsinə mənsub olan alimlər, filosoflar, şairlər, rəssamlar, eləcə də hökmdarlarla yaxın ünsiyyətdə olmuşdur.

Saib Təbrizi hələ gənc yaşında Məkkə və Mədinəni ziyarət etdikdən sonra İsfahana qayıdır. Burada olan ictimai mühitin mənəvi təzyiqlərindən və yaltaq saray şairlərinin paxıllığından narazı qalıb, İsfahanı tərk etmək qərarına gəlir. O, Herat və Kabilə gedir, altı il Hindistanda yaşayır. Lakin, atasının təkidi ilə yenidən vətənə qayıdır. Saib Təbrizi bir müddət ölkəni səyahət edir, Məşhəd, Qum, Qəzvin, Ərdəbil, Yəzd, Təbriz və başqa şəhərləri gəzib-dolanır.

Səfəvi hökmdarı II şah Abbas Səfəvi Saib Təbrizinin yaradıcılığını yüksək qiymətləndirir və ona saray rütbəsi olan “Məlik üs-şüəra” (“Şairlərin Şahı”) ləqəbi verir. Lakin o, haqsızlıqlara və ədalətsizliyə görə şah sarayından çıxıb gedir və ömrünün axırınadək sarayla heç bir əlaqə saxlamır. Öz şeirlərində sarayda keçirdiyi vaxtın hədər getdiyindən təəssüflənərək bunu özü üçün böyük itki hesab edir.

Ömrünün sonuna yaxın Saib Təbrizi öz yaradıcılığını nəzərdən keçirərək onu yenidən tərtib etmiş və öz divanlarından müxtəlif mövzuları seçərək onları “Mir’ət ül-camal” (“Gözəlliyin güzgüsü”), “Arayişi-nigar” (“Nigarın (gözəlin) bəzəyi”), “Vacib ül-hifz” (“Vacibin qorunması”) adları ilə müntəxəbat halına salmışdır.

Şair gözəl, lirik qəzəllərini Azərbaycan və fars dillərində yazmışdır. Onun II Şah Abbasın Hindistan hökmdarı Cahan şah ilə apardığı müharibədə qələbə qazanması münasibətilə yazdığı “Qəndəhar-namə” və “Mahmud və Əyaz” adlı əsərləri böyük şöhrət qazanmışdır.

Saib Təbrizi, həm də tədqiqatçı kimi məşhur olmuşdur. Dövrünün məşhur kitabxanalarında olan qiymətli və nadir kitabları ilə tanış olaraq o, Şərqin bir çox görkəmli söz ustadlarının əsərlərini tədqiq etmiş və 25 min beytdən ibarət olan 800 nəfər sələf və müasir şairin gözəl sözlərindən “Bəyaz” adında nəfis bir külliyyat tərtib etmişdir.

Saib Təbrizinin Şərq ölkələrinə etdiyi uzunmüddətli səfərlər, regionun mədəniyyət mərkəzlərində müxtəlif xalqların həyatı, adət-ənənəsi və mədəniyyətilə tanışlığı xüsusilə sələfləri və müasirlərinin əsərləri üzərində dərin mütaliə və tədqiqat aparması, ədəbi, elmi fəaliyyəti şairin dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Azərbaycan, fars və hind mədəniyyəti klassiklərindən ilham alan mütəfəkkir özünü başqalarına bənzətməyi sevmirdi və ideallarının təbliğində özünəməxsusluğu və təkrarolunmazlığı ilə fərqlənirdi.

Saib Təbrizinin fəlsəfi və sosial-siyasi görüşlərini müəyyən edərkən mütəfəkkirin dinə münasibətini qeyd etmək vacibdir. Öz dövründə geniş yayılmış və güclü təsirə malik olan sufi panteist görüşlərin çıxış nöqtələrindən birini təşkil edən belə bir fikrə

tərəfdar olmuşdur ki, insanlar Vahid Varlığın üzvləri olduqları üçün bunlar arasında dini təriqət ayrılığı uydurmadır.

Saib Təbrizi insan nəslinin vahid mənşəyi haqqında, insanları "din" və "küfr" anlayışlarına görə bir-birindən ayırmağın mənasızlığı, bəşəri planda insanlar arasında fərqin olmaması, eləcə də, xristian və müsəlmanların etiqad ümumiliyi haqqında yazmışdır.

Mütəfəkkir göstərir ki, küfr və dini, eləcə də müsəlmanlıq və xristianlığı bir-birinə qarşı qoymaq olmaz, çünki onlar vahid varlığın təzahürlərinin müxtəlif formalarıdır, onlar bir-birinin elementlərini özlərində daşıyırlar.

Orta əsrlər üçün səciyyəvi olan təriqət və dinlər arasındakı fikir ayrılıqlarını mütəfəkkir mənasız hesab edirdi, o, əminliklə təbliğ edirdi ki, sonda insanlar arasındakı fikir ayrılığı və ədavət deyil, onların birliyi və ümumiliyi qələbə çalacaq.

Mütəfəkkir müxtəlif din nümayəndələri arasındakı düşmənçiliyin mənasızlığını açıqlamaqla bərabər, eyni zamanda, ortodoksal ruhanilərin bu məsələlərdə müdrik olmamalarını, onların cahilliyini və ikiüzlülüyünü ifşa edirdi.

Sufilik təliminə müvafiq, sufi rəmzlərindən istifadə etməklə mütəfəkkir dinə, məscidə və ruhanilərə münasibət bildirirdi. Saib Təbrizi insanları fanatizm və cahillikdən qorunmağa, dünya nemətlərindən ləzzət almağa, cənnət və cəhənnəm haqqında əfsanələri düşünərək həyatını boş-boşuna keçirməyin qarşısını almağa çalışırdı.

Saib Təbrizinin ruhaniləri tənqid etməsi, qeyri-ortodoksal düşüncəsi, təbii ki, ruhaniyyətin diqqətini cəlb edirdi. Mütəfəkkir yazırdı ki, "onu söz xəncəri ilə doğramağa cəhd edirdilər", ancaq əbəs yerə, çünki, o, əyilən deyil.

Nadan ruhanilərin ifşa, eləcə də bir sıra dini müddəaların sufilik mövqeyindən şərh edilməsini Saib Təbrizinin dini inkar etməsi, yaxud onun ateizmi kimi dəyərləndirmək olmaz. Qeyd etmək lazımdır ki, mütəfəkkir həyat fəaliyyətinin başlanğıcında İslam dininə tərəfdar kimi çıxış etmişdir. Lakin zaman keçdikcə, dövrün qeyri-ortodoksal ideologiyasına, xüsusən sufiliyə qoşularaq yeni həqiqətləri dərk edir, din və varlığın yeni şərhinə gəlirdi.

Eşqi bir fəlsəfi kateqoriya kimi şərh edən Saib Təbrizi onda

varlığı hərəkətə gətirən qüvvənin olduğunu görür. Məlumdur ki, sufilikdə eşq varlığın əsası kimi qəbul olunur. Ölümdən sonra bu dünyanı tərk edən insanı Vahidin əbədiliyi və kamilliyi ilə bağlayan yalnız eşqdir. İnsanın varlıq ətrafında hərəkətinin mənbəyi məhz eşqdir, o, insanı bir dünyadan başqasına aparır, hadisələr dövranını hərəkətə gətirir. Göy cisimləri arasındakı cazibə qüvvəsini, hissələri vahid tamında birləşdirən qüvvə, bitki və heyvanların əmələ gəlməsi və məhv olması, bir sözlə, varlığın bütün dəyişiklikləri onun (eşqin) vasitəsilə hərəkətə gəlir.

Məhz eşq insanı kamilliyə – Allaha aparır. Neoplatonizm və sufi təliminə müvafiq olaraq, mütəfəkkir Allaha olan eşqi tərənnüm edir. O, inanır ki, ilahi eşq insanı dünyəvi bağlılıqdan azad edir və bu, Allahla birləşmə yolu, əbədilik yoludur. Buna görə də Saib Təbrizi belə eşq naminə ölməyi dünyaya sahib olmağa bərabər tutur.

Mütəfəkkirin yaradıcılığında ilahi eşq dünyəvi hisslərin, dünyəvi əqlin, gözəlliyin və nəhayət, dünyəvi eşqin qəbul edilməsi ilə uzlaşır. Saib Təbrizi böyük həssaslıqla məhz real həyatdan ilham almışdır. Onun yaradıcılığının əsas obyekti real dünya və ümumbəşəri dəyərlərə və ideallara malik olan kamil, real insandır. Saib Təbrizini oxuyarkən istər-istəməz böyük ehtiras hissilə real dünyaya bağlanırsan, onun divanlarını mütaliə edən şəxsdə həyat eşqi, insanlıq və vətənpərvərlik hissləri oyanır.

Saib Təbrizi Orta əsrlərdə, yaşadığı regionda geniş yayılmış "alın yazısı" haqqındakı təlimi tənqid edir. Bu təlimə əsasən, insanın həyatının müqəddəratı, əvvəldən axıradək bütün əməlləri öncədən İlahi iradə ilə müəyyən edilmişdir və insan sadəcə itaətlə bu təqdirə baş əyir. Saib Təbrizi insanın əməllərini onun öz iradəsi və qərarı ilə əlaqələndirirdi.

Mütəfəkkir bütün ümidlərini qəzavü-qədərin iradəsinə və ilahi yardımına bağlayaraq öz şəxsi iradəsini boğanları da tənqid edirdi. O, yazır ki, "bu insanlar zəif iradəlidir". Mərd insanlar isə işlərini təvəkkülə tapşırmaz və öz qüvvələrinə və ağlına güvənərlər. "İstixarə" (müqəddəs kitablara və əşyalara görə fala baxma) və "təvəkkül" (Allaha ümid bəsləmək) yolunu seçmiş zahidlər haqqında şair kinayə ilə yazırdı. Saib Təbrizi insanın əmək qabiliyyətini Allaha olan ümidi ilə qarşılaşdıraraq qeyd edir ki,

xoşbəxtliyi öz əməyindən gözləmək lazımdır. Mütəfəkkir insanları daim iş görməyə çağırır, o, öyrədir ki, insanın həyatı, maddi nemətlər əldə etməyi, "çörək qazanmaq" imkanları, yəni firavan yaşayışı yalnız əmək fəaliyyətindən asılıdır. Bütün bunların göydən düşəcəyini umanlar nadan, xam adamlardır. Saib Təbrizi insanların müstəqilliyinə, əqlinə və iradəsinə uyğun olan azad əməllərinə xüsusi əhəmiyyət verir, öz qüvvəsinə inanan insanları yüksək qiymətləndirirdi. Lakin mütəfəkkir eyni zamanda, insanın iradə azadlığı ilə "alın yazısının" üst-üstə düşməsindən də yazırdı.

Saib Təbrizini xüsusən narahat edən faktlardan biri də cəmiyyətdə maddi və mənəvi bərabərsizliyin olmasıdır. Mütəfəkkir öz xalqının orta əsrin dumanlı və cəhalətpərəst mühitində batıb qaldığını görərək onun taleyi və gələcək müqəddəratı barədə düşünür və bu acınacaqlı vəziyyətin təsirini riyakar din xadimlərinin hərəkət və rəftarında görürdü. Bir rasionalist mütəfəkkir kimi Saib Təbrizi gördüyü fəlakətli ictimai mühiti də insan əqli və zəkasına qiymət verilməməsinə görə tənqid atəşinə tutur və yaşadığı dövrü başına əmmamə qoyan və qarnını güdən ruhanilərin hökmdarlıq dövrü hesab edirdi.

Saib Təbrizinin yaradıcılığı haqqında tam təsəvvür yaratmaq üçün filosof-şairin vətənpərvərliyi, onun doğma vətəni Azərbaycana olan sevgisini qeyd etmək lazımdır. Mütəfəkkirin uzun illər vətəndən uzaqlarda yaşamasına baxmayaraq, o, öz ölkəsinə məhəbbəti, ona doğma olan xalqa xidmət etməyi özünün mənəvi və əxlaqi borcu hesab edir. Vətən haqqında fikirlər onu heç vaxt tərk etmir.

Öz Vətənini və xalqını dərindən sevən şair təkcə bu sevgi ilə məhdudlaşmır. O, özünü başqa xalqlarla əlaqəli hiss edir, özünü Azadlığın, Sülhün və İnsanlığın carçısı hesab edirdi. Saib Təbrizi onun dövründə hökmran olan əxlaq normalarını tənqid, var-dövlətə və ad-sana olan meyli məzəmmət edirdi.

Mütəfəkkir xalqa zülm edənləri, bədbəxtlik gətirənləri mühakimə edərək, xalqın qüvvəsinə və imkanlarına möhkəm əminliyini bildirirdi. Saib Təbrizi üçün xalq feodal elitanın hesab etdiyi kimi "rəiyyət", "avam kütlə" deyil, cəmiyyətin mərdlik və ləyaqətdən yoğrulmuş dayağıdır. Mütəfəkkir cəmiyyətin

çiçəklənməsinin və inkişafının rəhnini xalqda görürdü. Xalq kütlələrinin iradəsi və gücünü yüksək qiymətləndirən Saib Təbrizi hökmdarlara bu qüvvə ilə hesablaşmağı və cəmiyyətdə ədalətli münasibətlərin qurulmasını tövsiyə edirdi. Yuxarıda göstərilən fikir xalqa zülm edənlərə bir işarədir ki, cəmiyyətin əməkçi zümrələrinə qarşı qanunsuz əməllərdən çəkinsinlər, hökmdarlara oturduğu budağı kəsməmək, damı dayağından – divardan məhrum etməmək çağırışıdır.

Xalqın zülmə və əsarətə qarşı mübarizədə qələbəsinə inanan Saib Təbrizi göstərir ki, bunun üçün xalq birlikdə olmalıdır. İnsanlar sülh, dostluq və həmrəylik şəraitində yaşamalıdır, çünki bu, onların öz problemlərini həll etməsi və onların firavanlığı üçün başlıca şərtdir. Qlobal miqyasda insanların xoşbəxtliyinin şərti belədir və bununla bütün dünya xalqları hesablaşmalıdır.

Dünya xalqlarının xoşbəxtliyinin onların dostluğunda, qarşılıqlı münasibət və bir-birinə köməkdə olduğunu anlayan filosof dəfələrlə və müxtəlif variantlarda bu fikri təkrarlayır və çalışır ki, onu eşidə və oxuya biləcək insanların hamısına bu fikirləri çatdırsın.

İnsanların və xalqların harmonik birliyi insanpərvər mütəfəkkirin yaradıcılığının ana xətlərindən biridir və bu ideyalar Saib Təbrizinin həm fars, həm də Azərbaycan dilində yazdığı şeirlərində əhəmiyyətli yer tuturdu. Bu şeirlərdə şair insanları “nar dənələri kimi” sıx birləşməyə çağırırdı.

Yüksək erudisiyaya malik olan, həyatın bir çox sirlərini dərk etmiş Saib Təbrizi öz zəngin təcrübəsinə əsaslanaraq öyrədir ki, insan xəta etdikdə tezliklə peşman olub ondan üz döndərməlidir. Səhv etmək insana xas olan xüsusiyyətdir, lakin buna görə onu cahil hesab etmək düzgün olmaz, əsl cahil odur ki, etdiyi səhvi düzəltmək istəməsin.

Mütəfəkkir həyatın ibrətamiz dərslərinə böyük əhəmiyyət verir. O, əminliklə qeyd edir ki, insanlar öz ağılsızlıqlarından və qüsurlu olması səbəbindən nöqsanların aradan qaldırılmasına yönəlmiş tərbiyəvi öyüd-nəsihətləri qəbul etmirsə, onda zəmanə öz dərslərini verər.

“Xoşbəxt həyata nail olmağın” yollarından birini Saib Təbrizi zamanla müdrikləşmiş yaxşı adamın təcrübəsi ilə gənc nəslin

gücünün vəhdətində görürdü. Mütəfəkkirin irsində müəllimin roluna insanların maariflənməsində, onlarda yüksək mənəvi keyfiyyətlərin tərbiyə olunmasında böyük yer ayrılır. Saib Təbriziyə görə, müəllimin xidməti valideynin xidmətindən böyükdür:

*Ağı-qaranı tanımış hər bir adam,*
*Müəllimini atadan da üstün tutar.*

Saib Təbrizinin ictimai-siyasi görüşləri bilavasitə mütəfəkkirin didaktik və etik görüşləri ilə əlaqədardır. Hər şeydən əvvəl onlarda cəmiyyətin iki təbəqəyə bölünməsi əks olunmuşdur – zalım və məzlum. Saib Təbrizi istismarçı zalımlarla istismar olunan məzlumların daim qarşıdurmasını, onların qarşılıqlı əlaqələrini sadəcə müşahidə etmir, həm də bu qarşıdurmanın nəticələrini qabaqcadan görür və xəbər verirdi. Zülmkar məzlumun əlindən xilas ola bilməyəcək və əvvəl-axır, öz cəzasına çatacaqdır.

Saib Təbrizi öz əsərlərində Şərqin məşhur mütəfəkkirlərinin baxışlarını və bir çox zərb-məsəllərini özünəməxsus tərzdə ifadə edərək ədalətli bir cəmiyyət yaratmaq uğrunda çalışırdı.

Saib Təbrizi irsinin təhlili göstərir ki, mütəfəkkir cəmiyyətin müxtəlif təbəqələrini bir-birindən ayırd etməsinə, cəmiyyət daxilində baş verən ixtilafları görməsinə baxmayaraq, bunların ictimai və iqtisadi köklərini müəyyən edə bilmədi.

Mütəfəkkir bərabər hüquqlu insanların yaşadığı cəmiyyətin arzusunda idi. Onun fikrinə görə, bu cəmiyyətə aparan yol onun üzvlərinin mənəvi kamilləşməsindən, onların yüksək əxlaqi prinsipləri mənimsəməsindən keçir. Lakin o, belə cəmiyyət uğrunda mübarizənin real yollarını görə bilmirdi. Mütəfəkkir mövcud quruluşun inqilabi yolla dəyişdirilməsinin tərəfdarı deyildi, onun idealı – ədalətli şah idi.

Cəmiyyətin qüsurlarını tənqid edərək Saib Təbrizi onun xilasını mənəvi yeniləşmədə, demokratikləşmədə, mövcud baxışların və normaların humanistləşməsində görürdü.

Fərdiyyətçilik, riyakarlıq, ikiüzlülük, yalançılıq, xəsislik, hərislik, tamahkarlıq, mənfəət və qazanc dalınca qaçmaq, lovğalıq, möhtəkirlik və s. bu kimi nöqsanları mühakimə edən Saib Təbrizi çalışırdı ki, insanların mənəvi təmizlənməsi vasitəsilə sosial firavanlığın və cəmiyyətdə harmoniyanın təmin edilməsinə təsir etsin.

Heç bir əməli nəticə verə bilməyən boş, mənasız sözləri tənqid edən Saib Təbrizi boş danışıqların xeyir verə bilməməsini dəfələrlə qeyd edir.

Saib Təbrizinin fəlsəfi, sosial, siyasi, etik və estetik görüşləri Yaxın və Orta Şərq ölkələri xalqlarının fəlsəfi, sosial, siyasi, etik və estetik fikrinin inkişafı tarixində əhəmiyyətli yer tutmuşdur.

### 1.9.8. Hacı Zeynalabdin Şirvaninin utopik dövlət yaratmaq ideyası

Hacı Zeynalabdin Şirvaninin XVIII əsrin axırı və XIX əsrin əvvəllərində Azərbaycan fəlsəfəsi və ictimai-siyasi fikrinin görkəmli nümayəndələrindən biridir. Mütəfəkkir mədəniyyət tarixində böyük səyyah və Şərq ölkələrinə səyahət haqqında kitabların müəllifi kimi şöhrət qazanmışdır.

H.Z.Şirvani 1779-cu ildə Şamaxı şəhərində ruhani ailəsində anadan olmuşdur. O, beş yaşına çatanda atası İsgəndər Şirvani bütün ailə üzvləri ilə birlikdə vətəni tərk etməyə məcbur qalıb Kərbəlaya köçür. Şirvani 17 yaşınadək öz valideynləri ilə birlikdə yaşayır və altı yaşından başlamış bir sıra alimlərin yanında ədəbiyyat və rəsmi elm adlanan dini elmlər sahəsində mükəmməl bilik və təhsil almağa müvəffəq olur. O, gənc yaşlarından böyük alim kimi məşhurluq qazanır.

H.Z.Şirvani 17 yaşından biliklərini təkmilləşdirmək məqsədilə bir çox ölkələrə səyahət edir. Məlumdur ki, o ömrünün 37 ilini Azərbaycan, İran, Əfqanıstan, İraq, Türkiyə, Yunanıstan, Misir, Suriya, Hindistan, Orta Asiya və başqa ölkələrin şəhər və kəndlərinə səyahətlərdə keçirir, bu ölkə xalqlarının məişəti, əxlaqi və mənəvi həyatını tədqiq edir. Səyahətlər zamanı mütəfəkkir müxtəlif sosial təbəqəyə mənsub olan məşhur şəxsiyyətlərlə görüşür, hökmdarlarla və alimlərlə görüşlər keçirir, onlarla söhbət aparır və onların həyatı ilə tanış olurdu.

H.Z.Şirvaninin əsərlərindən məlum olur ki, o Avropa ölkələrinə səyahət etməyə vaxt və imkan tapa bilməmişdir. Buna baxmayaraq o öz əsərlərində bu ölkələrdən bəziləri haqqında,

xüsusən “Yeni dünya” adı altında Amerikaya dair bir sıra məlumatlar verməyə çalışmışdır.

Avropa ölkələrinin mədəniyyətini işıqlandırmaq üçün H.Z.Şirvani bu ölkələrin Şərqdəki səfirləri, siyasi nümayəndələri ilə görüş sayəsində əldə etdiyi məlumatlardan istifadə edirdi. Onlarla söhbətdən mütəfəkkir Avropa xalqlarının həyat şəraiti, mənəviyyatı və ənənələri haqqında bilgilər əldə edirdi.

1838-ci ildə H.Z.Şirvani Məkkəyə gedərkən gəmidə vəfat edir və Ciddə şəhərində dəfn olunur.

H.Z.Şirvani bir sıra böyük əsərlərin müəllifidir. Onu “Riyazus–səyahə” (Səyahət çəməni), “Hədaikus–səyahət” (Səyahət bağları), “Bustanus–səyahət” (Səyahət gülləri) əsərlərində ictimai–siyasi, fəlsəfi, etik və hüquqi baxışları öz əksini tapmışdır.

Yuxarıda göstərilən əsərlərdən əlavə, H.Z.Şirvani çoxlu məqalələrin də müəllifidir. Mütəfəkkirin son məqalələrindən biri XIII əsrdə yaşamış görkəmli sufi şair və filosof Cəlaləddin Rumiyə həsr olunmuşdur. Bu məqalə 1895-ci ildə Bombey şəhərində çap olunmuş Ruminin “Məsnəvi” əsərinə müqəddimə kimi daxil edilmişdir. Bu da H.Z.Şirvaninin böyük alim, fəlsəfə və onun tarixinin bilicisi kimi məşhur olduğunu təsdiq edir.

Yaxın və Orta Şərq xalqlarının təfəkkür tərzinin öyrənilməsində, eləcə də, müxtəlif siyasi, ictimai, dini və fəlsəfi cərəyanların, xüsusilə, mürəkkəb və ziddiyyətli cərəyan olan sufiliyin tədqiq olunmasında H.Z.Şirvaninin əsərləri bir mənbə kimi çox qiymətlidir. Bu əsərlərin dəyəri həm də əsərin yazılmasında istifadə olunan materialların real həyatdan, müəllifin şəxsi müşahidələrindən götürülməsindən ibarətdir.

“Riyazü-s-səyahə” və “Bustanü-s-səyahə” əsərlərində Yaxın və Orta Şərq xalqlarının malik olduğu çoxşaxəli dini məfkurə haqqında geniş məlumata rast gəlinir ki, bunların da həmin xalqların fəlsəfi təfəkkürünü öyrənməyə böyük köməyi olur. H.Z.Şirvani oxuculara əsrlər boyu mövcud olmuş ideya və etiqadlar haqqında məlumat verir. Bunların sırasına məzdəkilik, hürufilik, nəqşbəndlik, ismaililik, xətailik, zəhəbilik, nurbəxşilik və başqaları aiddir. O, həmçinin ərəb ölkələrindəki analoji cərəyanlar – zeydilər, mütəvəllilər, kəyanilər, vəhhabilər, qibtilər, mülhidlər, əməvilər,

şeytanpərəstlər, cəbərilər, qədərilər, samirilər və başqaları haqqında da məlumat vermişdir. Bunlarla bərabər, bektaşilər, nəsirilər, rifailər, üşşaqilər, safilər, xəlvətilər, mövləvilər, fəramuşilər və s. təriqətlərini də təsvir edir. Mütəfəkkir bu təriqət və cərəyanların nümayəndələri ilə şəxsən görüşür və onlarla etdiyi söhbətlər zamanı topladığı materiallardan istifadə edərək öz əsərlərini yaradır və bu əsərlərdə o, Şərq ölkələrinin ideoloji həyatının rəngarəngliyini əks etdirmişdir.

H.Z.Şirvaninin əsərlərində şərh olunan materialların böyük hissəsi qədim və ya o dövrün mənbələrindən əxz edilməmişdir, bunlar böyük zəka və bilik sahibi olan mütəfəkkirin öz şəxsi axtarışlarının və analitik şərhlərinin nəticəsidir.

H.Z.Şirvaninin zəngin mədəni irsi akademik Heydər Hüseynovun "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikri tarixindən" kitabının müqəddiməsində öz yüksək qiymətini almışdır.

Mütəfəkkir İslam dininə inanırdı, lakin onu başqa müsəlman dindarlardan fərqləndirən başlıca cəhət bundan ibarət olmuşdur ki, o, dini ehkama fanatik və ortodoksal münasibət bəsləməmişdir. Onun dünyagörüşü üçün azadfikirlilik və başqa dinlərə, təriqətlərə hörmət etmək hissi böyük üstünlük təşkil etmişdir.

H.Z.Şirvaninin irsində ictimai-siyasi, etik və didaktik problemlərinin şərhi xüsusi yer tutur. Əsasən "Bustanüs-səyahə" və "Riyazüs-səyahə" əsərlərində mütəfəkkirin ideyaları yüksək insanpərvərliyi və demokratikliyi ilə fərqlənir. Bu ideyalar həm mütəfəkkirin müasiri olduğu dövr, həm də sonrakı dövrlərdə bölgə mədəniyyətində insanpərvərlik və demokratikliyi təmsil edən ideyaların inkişafı üçün böyük əhəmiyyətə malik olmuşdur.

H.Z.Şirvani feodal cəmiyyətinin mürtəce ideologiyasını və ortodoksal müsəlman ruhanilərinin mənafeyini müdafiə etmirdi. Mütəfəkkirin ictimai-siyasi görüşləri demokratik əhval-ruhiyyəsi ilə fərqlənirdi. Onun əsərləri səyahətlərində müşahidə etdiyi sultan və xanların xalqın yoxsul təbəqələrinə etdiyi zülmün dəhşətli səhnələrinin təsvirləri və mənfi qiymətləri ilə zəngindir.

H.Z.Şirvani mövcud quruluşun dəyişdirilməsini istəmirdi, onun islahatlar yolu ilə təkmilləşdirilməsinin zəruriliyini qeyd

edirdi. H.Z.Şirvani sosial vəziyyətin təkmilləşməsində əsas diqqəti ideyalara və şüurun dəyişdirilməsinə yönəltmişdir.

H.Z.Şirvani xalqın xoşbəxt və azad həyatını ədalətli hökmdarlarla əlaqələndirirdi. Bilavasitə, feodal mütləqiyyətinə qarşı açıq çıxış etməsə də, mütləqiyyətin törətdiyi zülm və zorakılığa qarşı ədalət və bərabərliyin təmin olunmasını tələb edirdi. Mütəfəkkir cəmiyyətdə geniş yayılmış mənfi halların, xüsusilə də hakimiyyətdə olanlara təzim və yaltaqlıq etməyin, onlara mədhiyyələr söyləməyin, hətta saraylara məxsus qaydalara məcburi riayət etməyin ciddi surətdə əleyhinə olmuşdur.

H.Z.Şirvani ideal cəmiyyətin yaradılması barədə öz utopiyasını inkişaf və təbliğ edərək göstərirdi ki, hələ qədim yunan filosofları Platon və Aristotel bu məsələ barədə bəhs etmişlər. O yazırdı ki, Platona görə ədalət bir formaya, pislik isə bir neçə formaya malikdir. Buna görə də pislik etmək asan, ədalətli olmaq isə çətindir. Bir-birini inkar edən bu iki keyfiyyət oxun uçuşunu xatırladır – ya nişana dəyir, ya da yan keçir. Əgər bacarıqlı oxatanın bilikli təlimatçıya ehtiyacı varsa, bacarıqsızın isə heç bir şeyə bağlılığı yoxdur. Mütəfəkkir davam edərək qeyd edir ki, Aristotelə görə, hökmdar dənizə, dövlət məmurları isə bu dənizdən ayrılmış su kanallarına bənzəyir. Kanalların suyu dad və təmizlikdə dəniz suyuna bənzədiyi kimi, dövlət məmurların rəftar və hərəkətləri də hökmdarların rəftar və hərəkətlərini əks etdirir. Başqa sözlə, hökmdar ədalətli olarsa, məmurlar da ədalətli olacaqlar, zalım hökmdarın hakimiyyətində isə məmurlar da zalım olacaqlar.

Dövlət başçısı öz siyasətini ədalət və etiqad əsasında qurmalıdır. Məlum olduğu kimi, Aristoteldən gələn etiqad ("qızıl orta", mötədillik) nəzəriyyəsinə peripatetiklərin, işraqilərin, sufilərin və başqalarının təlimlərində də rast gəlinir. H.Z.Şirvaninin irəli sürdüyü ideal dövlət ideyası utopiya olaraq özündə insanpərvər və demokratik ideyaları daşımış və regionda demokratik yönümlü ideologiyanın formalaşmasında müəyyən rol oynamışdır.

H.Z.Şirvani Yaxın və Orta Şərq ölkələrində müxtəlif etnos, dil, din, adət və ənənələrin birgə mövcudluğunu nəzərə alaraq, onların hər birinə loyal, ehtiramla münasibət bəsləməyin vacibliyi

haqqında yazır və bunu dövlətin öz vətəndaşlarına münasibəti siyasətinin zəruri hissəsi hesab edirdi.

Cəmiyyətin sosial-ictimai quruluşu proqramını şərh edərkən mütəfəkkir dövlət xadimlərinin müdrik, təmiz, öz sahəsində işini bacaran və müxtəlif dinlərə qarşı dözümlü olmalarını tələb edirdi.

Sosial ədalətsizliyi müşahidə və mühakimə edən H.Z.Şirvani bu ədalətsizliyin mövcud olmasında dövlətin hansı rolu oynadığının fərqinə varmırdı. O, hesab edirdi ki, dövlət bütün münasibətlərdən yüksəkdə durur və cəmiyyətin bütün təbəqələrinə bərabər xidmət göstərməlidir. H.Z.Şirvani bütün həyatı boyu hakimiyyətə müdrik və ədalətli hökmdarın gəlməsini arzulamışdır.

Mütəfəkkirin müxtəlif din və etiqad nümayəndələrinə bərabər hörmət qoyulmasını tələb etməsi bəzi fanatik ortodoksal ruhanilər tərəfindən birmənalı qəbul olunmurdu. Mütəfəkkirin başqa din və etnos nümayəndələrinə münasibəti bir şəxsiyyət, eyni zamanda sufi təliminin nümayəndəsi kimi ona xas olan yüksək humanistliyi ilə fərqlənirdi.

Uzun səyahətlər zamanı görüşdüyü xalqları səciyyələndirən mütəfəkkir onları dini mənsubiyyətinə görə deyil, onların mədəniyyətə verdikləri töhfələrə görə qiymətləndirirdi.

H.Z.Şirvaninin ictimai-siyasi görüşlərinin şərh edilməsində Avropa ölkələrinin Şərqdə müstəmləkəçilik siyasətinə münasibəti maraq doğurur. Müxtəlif ölkələrə səyahətlərinin təəssüratlarını danışan mütəfəkkir böyük ustalıqla onların siyasətinin əsl mahiyyətini açıqlayır. Belə ki, Hindistanın Kəlküttə şəhərini təsvir edən H.Z.Şirvani ingilislərin Hindistana basqını haqqında yazır və xüsusən qeyd edir ki, onlar yaşamaq üçün ən yaxşı və səfalı əraziləri seçir və orada əzəmətli binalar tikirdilər. Hindistanı zəbt edərək, onlar orada ancaq silah gücünə qala bilirdilər. Bununla əlaqədar H.Z.Şirvani yazır: "Onlar şəhərin bir tərəfində beşbucaqlı həndəsə şəklində dağ kimi əzəmətli bir qala salaraq, onu müharibə alətləri olan o qədər top-tüfəng ilə təchiz edib möhkəmləndirmişlər ki, müdrik əql onu gördükdə kiçilir və bu qalanı müharibə yolu ilə almaqdan imtina edir".

H.Z.Şirvaninin yaradıcılıq irsi göstərir ki, mütəfəkkir Şərqin avropalılar tərəfindən əsarətdə saxlanmasından təəssüflənir və bu problemi ictimaiyyətin diqqətinə çatdırmağa çalışmışdır.

H.Z.Şirvani cəmiyyətdə islahatların aparılması mövqeyindən çıxış edərək ideal dövlət quruluşu haqqında bir sıra maraqlı mülahizələr söyləmiş və utopik dövlət yaradılması ideyasını irəli sürmüşdür. Mütəfəkkir gələcək dövlət quruluşunun siyasi, iqtisadi, mədəni və hərbi prinsiplərini əhatə edən 50 təklifdən ibarət xüsusi sosial proqram tərtib etmişdir. Proqramda ağıllı insanların təlim-tərbiyəsi, yoxsulların həyat səviyyəsinin yaxşılaşdırılması, hökumətin yanında Alimlər Şurasının yaradılması, ləyaqətli insanların vəzifələrə təyin edilməsi kimi təxirəsalınmaz vəzifələr hökmdarlar qarşısında qoyulmuşdur.

H.Z.Şirvani sosial-iqtisadi, ictimai-siyasi, mədəni-maarifçilik proqramını əsaslandıraraq elm öyrənənlər üçün məktəblərin, xəstələr üçün müalicəxanaların açılmasını, sənət və peşə öyrətmək üçün təlim-tərbiyə ocaqlarının yaradılmasını, dövlət aparatına yaramaz adamların buraxılmamasını arzu və təklif etmişdir.

Mütəfəkkirin ideal dövlət şəraitində məhkəmə, cinayət və cəza problemlərinə münasibəti xüsusi əhəmiyyət kəsb edir. H.Z.Şirvani cinayətkarın cəzalandırılmasında tələskənliyə yol verilməməsini, heç bir kəsin istintaq olmadan edam edilməməsini tövsiyə etmişdir. O, ədalətsiz, dağıdıcı müharibələrə qarşı çıxmışdır. H.Z.Şirvaninin proqramında kəndlilərin həyat şəraitinin, rifahının yaxşılaşdırılması, əkinçiliyin, ticarətin, sənətkarlığın, nəqliyyatın, mədəniyyətin inkişafı, tarixi və mədəniyyət abidələrinin qorunması ideyaları irəli sürülmüşdür. Mütəfəkkirin bütün bu təkliflərinin hamısı İslam dini çərçivəsindən kənara çıxmır. H.Z.Şirvani həmçinin, insanın iradə azadlığı, cəmiyyətdə yeri və rolu problemlərinə də əhəmiyyətli diqqət yetirmişdir.

## Mövzu üzrə mühazirə və seminar planı

1. XV–XVIII əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişaf xüsusiyyətləri
2. XV–XVI əsrlərdə Azərbaycanda ictimai–siyasi tərəqqi, elm, incəsənət və ədəbiyyatın kamil dövrü
3. Hürufiliyin sosial-siyasi mahiyyəti: Fəzlullah Nəiminin və İmadəddin Nəsiminin baxışlarında humanizm

4. Məhəmməd Füzulinin yaradıcılığında insan, cəmiyyət və dövlət məsələləri ilə bağlı ictimai–siyasi ideyalar
5. Şah İsmayıl Xətainin yaradıcılığında dövlətçiliyin möhkəmləndirilməsi ilə bağlı ictimai–siyasi baxışlar
6. XVII–XVIII əsrlərdə rəsmi dövlət sənədlərində ictimai–siyasi ideyalar
7. XVII–XVIII əsrlərdə yaşamış mütəfəkkirlərin ictimai-siyasi baxışları
8. Saib Təbrizinin XVII əsr Azərbaycanın ictimai–siyasi fikir tarixində yeri
9. Hacı Zeynalabdin Şirvaninin utopik dövlət yaratmaq ideyası

# II BÖLMƏ
# AZƏRBAYCANIN YENİ VƏ ƏN YENİ DÖVRLƏRİNDƏ SİYASİ TƏLİMLƏRİN FORMALAŞMASI

## 2.1. XIX əsrdə ictimai-siyasi fikrin inkişafında maarifçiliyin rolu

### 2.1.1. XIX əsrdə Azərbaycanda maarifçiliyin meydana gəlməsini şərtləndirən ictimai–siyasi amillər

XVIII əsrin sonlarında hakimiyyətə gəlmiş Qacarlar sülaləsi (1796–1925) Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiyyət altında birləşdirməyəyə cəhd etdilər.

Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya imperiyası ilə Qacarlar arasında uzun sürən müharibələr dövrü başlandı. Azərbaycan iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi. Rusiya tərəfindən ərazi vədləri ilə şirnikləndirilərək hərbi əməliyyatlara başçılıq edən erməni və gürcü mənşəli generallar əllərinə düşmüş fürsətdən istifadə edərək Azərbaycanın dinc əhalisinə qarşı dəhşətli soyqırımları törətdilər. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan iki imperiya arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə qacarların idarə etdiyi İran şahlığına qatıldı.

Azərbaycanın bundan sonrakı tarixində yeni siyasi-coğrafi anlayışlar meydana gəldi: "Şimali Azərbaycan" və "Cənubi Azərbaycan". Azərbaycan xalqının şimalda ruslaşdırılması, cənubda isə farslaşdırılması dövrü başlandı. Beləliklə, həm Çar Rusiyası, həm də İran şahlığı öz aralarında bölüşdürdükləri tarixi Azərbaycan torpaqlarında Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yeridirdilər.

XIX əsr Azərbaycan xalqı üçün faciəli bir əsr oldu. 1813-cü il 12 oktyabr Gülüstan, 1828-ci il 10 fevral Türkmənçay müqavilələri ilə Azərbaycan Rusiya və İran imperiyaları tərəfindən bölüşdürülərək iki yerə parçalandı.

XIX əsr Azərbaycan tarixçilərinin – Əhməd bəy Cavanşirin (1823–1903) "Qarabağ xanlığının 1747–1805-ci illərdə siyasi

mövcudluğu haqqında” (Şuşa, 1901), Əbdul Lətif Əfəndinin “Şəki xanlarının tarixi” (Bakı, 1926), Qarabaği Mirzə Camal Cavanşirin (1173–1853) “Qarabağ tarixi” (Bakı, 1959), Mirzə Adıgözəl bəyin (1780–1848) “Qarabağnamə” Abbasqulu ağa Bakıxanovun (1794–1847) “Gülüstani–İrəm” (Bakı, 1926) əsərlərində İran və Rusiya işğalçılarının milli zülmləri ilə bağlı faktlar verilmişdir. Bu əsərlər XIX əsr Azərbaycanın ictimai–siyasi fikir tarixinin tədqiqi üçün qiymətli mənbələrdir.

Şimali Azərbaycanın Rusiyaya ilhaqı dövründə patriarxal-feodal münasibətlər hökmranlıq edirdi. Geniş kəndli kütlələri xanların, bəylərin və ağaların zülmü altında idilər.

Çarizm təhkimçilik münasibətlərini nəinki ləğv etdi, hətta onu hərtərəfli müdafiə etdi və möhkəmləndirdi. Kəndlilərin vəziyyəti çox ağır idi. Canlı adamları alıb-satırdılar. 1826-cı ildə hansısa Hacı Kərbəlayı Nur Əli oğlu öz təhkimli kəndlisini 4 azyaşlı uşağı ilə birlikdə Quba sakini poruçik Məmmədxan bəyə satmışdır.

Azərbaycanda faktiki olaraq təhkimçilik hüququnun özünəməxsus formasının mövcud olması mübahisəsizdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda formal, “qanuni” olaraq təhkimçilik hüququ olmamışdır. Bu işin yalnız zahiri tərəfi idi, mahiyyətcə isə kəndlilər xanlardan, bəylərdən və ağalardan tam asılı idilər. Azərbaycanda kəndlilər 2 əsas qrupa bölünürdülər: 1) rəiyyətlər, 2) rəncbərlər. Rəiyyət və rəncbərlərin heç bir hüququ yox idi.

Abbasqulu ağa Bakıxanovun bəylərin imtiyazları və onların kəndlilər üzərində hakimiyyətləri haqqında fikirləri çox maraqlıdır. A.Bakıxanovun 7 iyul 1843-cü ilə dair məlumat qeydlərində deyilir ki, xanlar həm daxili, həm də xarici münasibətlərdə müstəqil hakimiyyətə malikdirlər. Xanın uşaqları, qohumları və xüsusilə bəylər, sultanlar, məliklərin hər biri özlərinin rütbələrinə uyğun olaraq xanın iradəsinə tabe olmalı idilər.

Azərbaycanın xalq kütlələri çarizmin müstəmləkəçilik siyasətinə qarşı çıxaraq 1830-cu ildə Zaqatalada, 1831-ci ildə Lənkəranda, 1837-ci ildə Qubada, 1863-cü ildə yenidən Zaqatalada üsyan etdilər. Xalq hərəkatı yatırıldı. Ancaq bu üsyanlar çar hökumətini narahat etməyə bilməzdi. Ona görə də vəziyyətdən çıxış edən general Paskeviç çar hökuməti qarşısında Zaqafqaziyada köhnə kolonial idarəetmə sisteminin əsaslı şəkildə dəyişdirilməsi məsələsini qoymuşdur.

1841-ci ildə Azərbaycanda yeni inzibati idarəetmə sistemi tətbiq edildi. Quberniya və sahə idarələri yaradıldı. Bakı, Şamaxı quberniyasının sahə şəhəri oldu. 1859-cu ildə quberniyanın mərkəzi Şamaxıdan Bakıya köçürüldü. Ancaq idarəetmə sahəsindəki bu dəyişikliklər əhalinin vəziyyətini daha da ağırlaşdırdı. Stats-katib baron M.İ.Pozen Qafqazın baş hakimi Yevgeni Qolovinə 5 aprel 1842-ci il tarixdə yazdığı məktubda bildirir ki, Şamaxıya gəldiyi 10 saat ərzində əhalidən ona çoxlu şikayətlər daxil oldu. Bütün şikayətlərin məzmunu ondan ibarət idi ki, xalq polis tərəfindən və məhkəmədə müdafiə olunmur. Baron M.İ.Pozen yenə Y.Qolovinə yazır ki, Qarabağ uyezdindəki idarə faktiki olaraq fəaliyyət göstərmir, bütün işlər qarışıb bir-birinə, təəssüf ki, əhalinin şikayətləri olduqca ədalətlidir. Uyezd rəisləri əhali ilə çox sərt davranırlar. Çarizm Azərbaycan feodalları ilə ittifaqı möhkəmləndirmək və özünə möhkəm dayaq yaratmaq məqsədinə 1846-cı ildə bəylərin mülkiyyətlərinin irsən keçməsi haqqında qərar verdi və faktiki olaraq bəylərin hüquqları rus zadəganlarının hüquqları ilə bərabərləşdirildi.

Azərbaycanda təhkimçilik hüququ 1870-ci ildə ləğv edildi. Lakin, təhkimçilik hüququnun ləğvi kəndlilərin həyat səviyyəsini yüksəltmədi. Onların vəziyyəti əvvəlki dövrdə olduğu kimi ağır olaraq qalırdı. Ancaq kəndli islahatından sonra da Azərbaycanda mahiyyətcə təhkimçilik münasibətləri ləğv edilmədi.

Torpaq sahibinin icazəsi olmadan kəndli hətta öz torpaq sahəsində ev tikə bilməzdi. Çarizm Azərbaycandakı təhkimçilik hüququnu özünəməxsus şəkildə ləğv etməklə özünün sosial dayağını möhkəmləndirilməsini təmin edirdi. Azərbaycanda kəndlilərin vəziyyəti əvvəllərdə olduğu kimi ağır olaraq qalırdı.

### 2.1.2. XIX əsrin birinci yarısında ictimai-siyasi fikrin inkişafına maarifçiliyin təsiri

XIX əsrdə qabaqcıl ictimai–siyasi fikrin formalaşması və inkişafı prosesi başlandı. XIX əsrin görkəmli Azərbaycan mütəfəkkirləri Qasım bəy Zakir (1784–1857), Mirzə Cəfər Əlimərdan oğlu Topçubaşov (1790–1869), Abbasqulu ağa

Bakıxanov (1794–1847), Mirzə Şəfi Vazeh (1794–1852), Mirzə Kazım bəy (1802–1870), İsmayıl bəy Qutqaşınlı (1806–1861), Mirzə Fətəli Axundov (1812–1878), Şeyx Cəmaləddin Əfqani (1838–1897), Həsən bəy Zərdabi (1837–1907) və başqaları əvvəlki əsrlərin mütəfəkkirlərindən fərqli olaraq kəskin siyasi baxışları ilə fərqlənmiş və dövrün siyasi münaqişələrini öz fikirlərində daha aydın şəkildə əks etdirmişlər. XIX əsrdə Azərbaycanın ictimai–siyasi fikrində iki ən mühüm istiqamət – maarifçilik və inqilabçı demokratizm aydın təsvir edilmişdir. Azərbaycan ziyalıları başlıca olaraq çarizmin müstəmləkəçilik siyasətinə və feodal qaydalarına qarşı çıxır və maarifçilik ideyalarını təbliğ edirdilər.

Azərbaycan maarifçiliyi rus və Qərbi Avropa maarifçiliyindən fərqlənən bir çox xarakterik əlamətlərə malikdir. Ümumiyyətlə, Azərbaycan maarifçiliyi dövrün ictimai–siyasi fıkir tarixi ilə bağlı olmuşdur. Onun yaranması və gələcək inkişafı Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni vəziyyəti ilə şərtlənmişdir. Tədqiqatçılar Azərbaycan maarifçiliyini özünün yetkinlik dərəcəsinə, həcminə və əhatə etmə əhəmiyyətinə görə şərti olaraq iki mərhələyə – erkən və klassik maarifçiliyə bölürlər.

Erkən maarifçilik XIX əsrin 20-ci illərindən başlayır. Bu dövrdə Rusiya və Qərbi Avropanın mütərəqqi maarifçi ideyaları Azərbaycanda maarifçiliyin yaranmasına təsir göstərmişdir. Erkən maarifçilik antifeodal xarakterə malik olmuş, dini fanatizmə qarşı çıxmış, maarifçiliyin, dünyəvi təhsilin və elmin inkışafını təbliğ etmiş, yüksək əxlaqi məsələləri, insanlararası münasibətləri geniş əhatə etmiş, zülmü və despotizmi ittiham etmişdir.

Klassik maarifçilik isə dövrün hadisələrinə qarşı radikal mövqe tutmuş, feodal quruluşunu, xüsusilə də istismarı, dini xurafatı, insanlararası münasibətlərdəki haqsızlığı və ədalətsizliyi kəskin tənqid etmişdir. Klassik maarifçilik məzmun zənginliyinə, qoyduğu problemlərin dərinliyinə, ictimai, sosial və siyasi gərginliyi əhatə etmə dərəcəsinə görə fərqlənirdi. Erkən maarifçilikdə humanizmin təmiz-mənəvi məsələləri əhatə etməsindən fərqli olaraq, klassik maarifçilikdə humanizm ictimai-siyasi sahəni daha çox əhatə edirdi.

Klassik maarifçilik dövründə yazılmış əsərlərdə yüksək

humanist ideyalar – azadlıq və bərabərliyin ən mühüm sosial–siyasi dəyişikliklər nəticəsində mümkün olması fikri əsas müddəa kimi verilmişdir.

Klassik maarifçilikdə mütləqiyyətin, cəhalətin, özbaşınalığın, monarxiyanın qeyri-məhdud hakimiyyətinin tənqidi baçlıca yer tutmuş, dini fanatizmə qarşı mübarizə ön plana keçmişdir.

Azərbaycanda maarifçiliyin yaranması və onun klassik formasının bərqərar olması, ictimai-siyasi fikrin digər bir istiqamətinin – inqilabi demokratizmin yaranmasına və inkişafına zəmin yaratdı. Maarifçilik ideyaları inqilabi-demokratik ideyaların formalaşması üçün əsas şərt oldu.

### 2.1.3. Mirzə Cəfər Topçubaşovun siyasi baxışları

Mirzə Cəfər Əlimərdan oğlu Topçubaşov (1790–1869) XIX əsr Azərbaycan maarifçilərinin ən görkəmli nümayəndələrindən biridir. O, şair, mütəfəkkir və pedaqoq olmuşdur. Onun görkəmli rus mütəfəkkirləri A.S.Puşkinin, A.S.Qriboyedovun, polyak şairi A.Mitskeviçin yaradıcılığına böyük təsiri olmuşdur. O, Yaxın və Orta Şərq ölkələrində işləmiş rus diplomatlarının böyük bir dəstəsinin tərbiyəçisi, görkəmli Azərbaycan alim-şərqşünası Mirzə Kazımbəyin dostu və məsləkdaşı olmuşdur.

M.C.Topçubaşov Peterburq Universitetinin Şərqşünaslıq kafedrasında professor və kafedra müdiri vəzifəsində işlədiyi müddətdə Rusiyanın aparıcı alimləri sırasına daxil olmuş, çoxlu sayda alim, diplomat və şairlərin müəllimi olmuşdur. M.C.Topçubaşov Şərq tarixi və mədəniyyəti məsələlərinə xüsusi diqqət yetirmişdir. O, Çin, Hindistan, Ərəbistan, Fars və digər Asiya ölkələri tarixinin mahir bilicisi idi.

M.C.Topçubaşov monqol dövlətçiliyinə və monqol istilasına aid ayrıca əsər yazmışdır. O, monqol zülmünün qəddarlığını və despotizmini açıb göstərə bilmişdi. O, xüsusilə monqolların Çin, Hindistan, Fars, Rus, Avropa ölkələrini istila edərkən özlərinin mədəniyyətlərindən çox yüksək olan mədəniyyətlərin və tarixi abidələrin vəhşicəsinə məhv edilməsini açıb göstərmişdir. O,

monqolların qələbələrini Timurçinin (Çingiz xan) şəxsi keyfiyyətləri ilə əlaqələndirmişdir.

M.C.Topçubaşov rus çarizminin müstəmləkəçilik siyasətinin ittiham edilməsi ideyasından uzaq idi.

### 2.1.4. Abbasqulu ağa Bakıxanovun ictimai-siyasi ideyaları

Görkəmli Azərbaycan mütəfəkkiri, ensiklopedik təfəkkürə malik alim – tarixçi, filosof, siyasətçi, diplomat, filoloq, astronom, coğrafiyaşünas, pedaqoq və şair Azərbaycan maarifçiliyinin banisi və ictimai–siyasi fikrinin tanınmış nümayəndəsi Abbasqulu ağa Bakıxanovun (1794–1847) ictimai–siyasi baxışlarında maarifçilik ideyaları aydın şəkildə ifadə olunmuşdur. O, tarixi proseslərə ictimai-siyasi hadisələrin prizmasından baxırdı. A.Bakıxanovun əsərlərində insan və cəmiyyətin qarşılıqlı əlaqəsi, azadlıq, sosial ədalət, cinayət və cəza problemlərinə münasibət, insanın formalaşması və inkişafının baş verdiyi mühit haqqında məsələlər geniş yer tutmuş və kəskin şəkildə qoyulmuşdur.

A.Bakıxanovu Qafqazdakı rus qoşunlarının generalı Yermolov xidmət üçün yanına dəvət edir. O, xidmət zamanı bir çox ölkələrə səyahət etmişdir. A.Bakıxanov Rus-Türk, Rus-İran müharibələrində və Rusiya ilə həmin ölkələr arasında sülh müqaviləsi bağlanarkən Rusiya tərəfindən iştirak etmişdir.

A.Bakıxanov elmin bir çox sahələri üzrə zəngin irs qoymuşdur. Onun çoxsaylı əsərləri içərisində böyük məhəbbətlə Azərbaycan tarixinə həsr olunmuş məşhur "Gülüstani–İrəm" elmi–tədqiqat əsəri xüsusi yer tutur. "Gülüstani-İrəm" Azərbaycan xalqının tarixinə həsr edilmiş ilk böyük elmi-tədqiqat əsəridir. Əsər girişdən, 5 fəsildən və nəticədən ibarətdir. Girişdə başlıca olaraq Şirvanın və Dağıstanın coğrafi təsvirini, bu ölkələrin əhalisinin mənşəyi və onların dilləri haqqında məlumat verir. Birinci fəsildə Şirvan və Dağıstanın ərəb istilasına qədərki tarixini vermişdir. İkinci fəsildə ərəb işğalından monqol əsarətinə qədərki, üçüncü fəsildə monqol işğalından Səfəvilərə qədərki, dördüncü fəsildə Səfəvilər dövründən Nadir şahın ölümünə qədərki, beşinci fəsildə isə Nadir

şahın ölümündən Gülüstan müqaviləsinə qədərki dövrlərin tarixini təsvir etmişdir.

“Gülüstani-İrəm” əsərinin nəticə hissəsində Azərbaycan xalqının mədəniyyəti tarixində ilk dəfə olaraq Azərbaycanın görkəmli mütəfəkkirləri, şairləri, yazıçıları və dövlət xadimləri haqqında yazmışdır, həmçinin Azərbaycan xalqının dövlət rəhbərlərinə (Babək, Şirvanşah I İbrahim, Fətəli xan və s.) mühüm əhəmiyyət vermişdir. O, tarixdə şəxsiyyətin rolunu xarakterizə edərək qeyd etmişdir ki, tarixi ayrı-ayrı böyük şəxsiyyətlər yaradır. A.Bakıxanov XVIII əsrdə Azərbaycan xalqının tarixində mühüm yer tutan, görkəmli diplomat və sərkərdə Quba xanı Fətəli xanı və onun xanımı Tutu Bikə haqqında böyük maraqla yazmışdır.

A.Bakıxanov “Gülüstani-İrəm” əsərini rus və fars dillərində yazmış, rus dilində olan əlyazmanı isə çar I Nikolaya təqdim etmişdir. Ancaq “Gülüstani-İrəm”ə verilən yüksək qiymətə baxmayaraq, əsər çar Rusiyası dövründə nəşr olunmamışdır. Əsər 1926-cı ildə “Azərbaycanı tədqiq edən və öyrənən” cəmiyyət tərəfindən nəşr olunmuşdur.

A.Bakıxanovun bu əsəri ədəbi mənbələr, əlyazmalar və özünün qədim maddi-tarixi abidələrin tədqiqi əsasında yaranmışdır. A.Bakıxanov bu əsəri yazmazdan əvvəl Şərq, rus və Qərbi Avropa dillərində olan çoxsaylı əlyazmaları və əsərləri dərindən öyrənmişdir. O, antik alimlərin (Herodot, Strabon, Plutarx) əsərlərini, Nikolay Mixayloviç Karamzinin “Rusiya dövlətinin tarixi” əsərini, Təbəri, Rəşidəddin, Həmdullah Qəzvini, Xətib Çələbi kimi ərəb, fars, türk tarixçi və coğrafiyaşünasların əsərlərini öyrənmişdi.

A.Bakıxanov Azərbaycanı gəzərkən maddi mədəniyyət abidələrinin qalıqları ilə, xalq əfsanələrilə, deyimlərlə, nağıllarla tanış olaraq Azərbaycan arxeologiyası və etnoqrafiyasının əsasını qoymuşdur. “Gülüstani-İrəm” əsərində bunlardan geniş istifadə etmişdir.

A.Bakıxanov öz Vətənini, öz xalqını sevmiş və onlarla fəxr etmişdir. Təsadüfi deyil ki, o demişdir: “…bu ölkədən olduğuma görə fəxr edirəm”.

A.Bakıxanovun maraqlı əsərlərindən biri də “Kəşfül-Qəraib”

(“Maraqlı kəşflər”) əsəridir. Əsər iki hissədən ibarətdir, Amerikanın kəşfinə və coğrafi təsvirinə həsr olunub. Onun əsərləri içərisində etika məsələlərinə aid olan “Təkzibül-Əxlaq” və “Nəsihətnamə” əsərləri xüsusi maraq doğurur. 102 nəsihətdən ibarət olan “Nəsihətnamə” A.Bakıxanovun pedaqoji baxışlarının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Əsərdə A.Bakıxanov nəzəriyyəçi-pedaqoq kimi çıxış edir.

A.Bakıxanovun hərbi və diplomatik fəaliyyəti bir sıra mükafatlarla təltif olunmuşdur. 1828-ci il yanvarın 1-də Sərdarabad və İrəvanın tutulmasına görə “III dərəcəli bantla Müqəddəs Anna” ordeni ilə, 1828-ci il oktyabrın 16-da türklərə qarşı döyüşdə və Qars şəhərinin alınmasında göstərdiyi igidliyə görə “IV dərəcəli bantla Müqəddəs Vladimir” ordeni ilə, 1829-cu il oktyabrın 29-da Rusiya ilə İran dövləti arasındakı Türkmənçay müqaviləsinin bağlanmasında danışıqlarda iştirakına görə İran şahı tərəfindən almazla bəzədilmiş “Şir və Günəş” ordeni ilə, 1829-cu il iyunun 19–20-də Soğanlıq dağının alınmasındakı döyüşdə fərqləndiyinə görə “II dərəcəli bantla Müqəddəs Anna” ordeni ilə, 1829-cu ildə iyulun 24-də Xart və sentyabrın 27-də Bayburt döyüşlərində iştirakına görə “imperator tacı ilə bəzədilmiş II dərəcəli Müqəddəs Anna” ordeni ilə təltif edilmişdir.

Qeyd etmək lazımdır ki, A.Bakıxanov rus ordusunda xidmətinə görə mükafatlar almasına baxmayaraq o, çarizmin müstəmləkəçilik siyasətinə qarşı çıxdığına görə rəhbərlikdə həmişə ona siyasi cəhətdən etibarsız bir adam kimi baxırdılar. Qafqazdakı rus ordusunun baş komandanı baron Qriqori Rozen Bakıxanova hökumətə müxalifətdə olan bir insan kimi baxaraq bildirmişdir ki, ona etibar etmək olmaz. Ancaq əhalinin hiddətinə səbəb olmamaq üçün baron Q.Rozen A.Bakıxanovla ehtiyatla davranmağı məsləhət görmüşdür. Tamamilə aydındır ki, bu “ehtiyatlı davranış” A.Bakıxanovun Azərbaycanda böyük nüfuza və hörmətə malik olduğundan irəli gəlirdi. Bununla bağlı A.Bakıxanovun 1837-ci ildə Quba üsyanına olan münasibətini göstərmək olar. O, xalq qəhrəmanları Yarəmi və Hacı Məmmədin rəhbərliyi ilə baş verən üsyanı diqqətlə izləmişdir. Üsyana 1837-ci ildə Şeyx Şamil də maraq göstərmişdir. Üsyan rus qoşunları tərəfindən amansızlıqla yatırıldı.

A.Bakıxanovun üsyançılara olan rəğbəti Zaqafqaziyanın çar hakimiyyətinin yüksək çinli məmurlarına məlum idi. Hərbi nazir qraf A.S.Çernışev 9 yanvar 1838-ci ildə çar I Nikolaya bu məsələ ilə bağlı raportda yazırdı: "A.Bakıxanov Tiflisə gəldikdən sonra bir çox bədxah adamlarla birləşərək, yerli məmurlardan narazılığını açıq şəkildə bildirir və Qubadakı hadisələrlə əlaqədar onların hərəkətlərini pisləyirdi". Quba üsyanının başlanması ərəfəsində A.Bakıxanov Qubadan Tiflisə çağırılmışdır. 1837-ci il Quba üsyanının səbəblərinin tədqiqi ilə məşğul olan qraf İ.İ.Vasilçikov baron Q.Rozenə özünün məlumatında bildirir ki, Quba sakini podpolkovnik A.Bakıxanov artıq bir neçə ay bundan əvvəl kəndli üsyanı ilə bağlı izahat alınması üçün Tiflis şəhərinə çağırılmışdır. Aydındır ki, çar hakimiyyəti belə bir addım atmaqla A.Bakıxanovu üsyan etmiş kəndlilərdən təcrid etmək istəyirdi. Kəndli üsyanı yatırıldıqdan sonra hakim dairələr A.Bakıxanova Qubaya qayıtmağı və üsyançılara təsir göstərməsini təklif etmişlər. O, demişdir: "…Mən belə bir təklifi yerinə yetirə bilmərəm".

Beləliklə, A.Bakıxanovun dünyagörüşündə onun siyasi baxışları başlıca yer tutur. O, tarixi prosesə siyasi hadisələrin prizmasından – hökmdarların fəaliyyəti, qanunvericiliyi, işğalları və onların antixalq siyasəti prizmasından baxırdı. Tarixi hadisələri təhlil və tədqiq edərək, xalqı ayıq-sayıq olmağa çağırırdı. O, "Gülütani-İrəm" əsərində yazır: "Bu elm (tarix) insanı gözəl əxlaqlı və bilikli edir, ona güzəran və yaşayış işlərini öyrədir. Buna görə də, onu mənəvi elmlərin qiymətlilərindən hesab edib demək olar: tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir. Onun təlim məktəbində dünyanın müəllimləri əlifba oxuyan uşaqdırlar. Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır. Xüsusən, hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır, çünki tarix ona öz millətini təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin xeyir və zərərini ona məlum edər".

A.Bakıxanovun siyasi baxışları onun son qeydlərində, əsərlərində və məktublarında daha aydın təzahür etmişdir. Burada o, bu və ya digər formada dövlət, hüquq, siyasət problemlərinə özünün münasibətini bildirməyə səy göstərmişdir.

Əgər A.Bakıxanov yaradıcılıq yolunun başlanğıcında Azərbaycanın Rusiyaya birləşdirilməsində müsbət motivləri müəyyən edirdisə, sonralar isə o, rus çarizminin Azərbaycanda müstəmləkəçilik siyasətini yeritdiyini dərk etməyə başladı. Mütəfəkkir çar Rusiyasının rəsmi yüksək vəzifəli şəxslərinə ünvanladığı bir sıra qeydlərində çar hakimiyyətinin müdafiə etdiyi ermənilərin və erməni kilsəsinin antiazərbaycan-antimüsəlman manevrlərini və siyasi intriqalarını açıb göstərirdi.

Məlum olduğu kimi rus qoşunlarının Azərbaycana müdaxiləsindən sonra erməni millətçiləri, xüsusilə Qriqoryan kilsəsi, dərhal antiazərbaycan, antiislam fəaliyyətlərini gücləndirməyə başladılar və şovinist fəaliyyətə başladılar.

Rusiya Şimali Azərbaycanı işğal etdikdən sonra burada rus və erməni şovinistlərinin təşkilatları yaranmağa başladı. Praktiki olaraq sənaye və təsərrüfatın bütün sahələrində, xüsusilə də iqtisadiyyat və ticarətdə rəhbər vəzifələr, hüquq, təhsil və mətbuat ermənilərin əlində idi.

A.Bakıxanov yüksək vəzifəli rus məmurlarına ünvanladığı bir çox qeydlərində diqqətə çatdırırdı ki, Zaqafqaziyadakı çar canişinləri ətrafına erməniləri yığır ki, bu da ölkədə vəziyyəti gərginləşdirir. A.Bakıxanov çar Rusiyasının yüksək rütbəli məmurlarını inandırmağa çalışırdı ki, onların erməni millətçilərini müsəlman əhalisi əleyhinə qızışdırması səhv siyasətdir. O, belə bir siyasətin təhlükəli olduğunu onlara xəbərdarlıq edirdi.

A.Bakıxanovun ictimai-siyasi və hüquqi baxışları axıradək açılmamış qalır. Çar hakimiyyətinin, ona olan inamsızlığı və şübhəsi, onun zadəgan məhdudluğu, sosial dayağının olmaması, dövrün dini fanatizmi ona axıradək özünün “sirlərini” açmağa imkan vermirdi. Mütəfəkkirin özü yazır: “Mən çox sirlər bilirəm, ancaq onları açmağa imkan yoxdur. Əgər onları açsam belə, heç kim mənə inanmaz”. Ancaq qəti şəkildə demək olar ki, onun ictimai-siyasi və fəlsəfi-hüquqi fikri bizim tariximizdə mühüm yer tutur. Onun idealı öz xalqına xidmətə yönəlmişdir.

A.Bakıxanovun fəlsəfi, xüsusilə də etik baxışlarının xarakteristikası üçün onun, "Təkzibul-Əxlaq" ("Mənəviyyatın yaxşılaşdırılması") əsəri böyük əhəmiyyət kəsb edir. A.Bakıxanovun bu əsəri fəlsəfə, psixologiya, etika və pedaqogika məsələlərinə həsr edilmişdir. O, "Mənəviyyatın yaxşılaşdırılması" əsərində elmlə praktikanın münasibəti məsələsinə böyük diqqət yetirir.

A.Bakıxanov sosial mühitin insanların etik baxışlarının formalaşmasına təsiri haqqında yazır: "Kim ki, hər hansı bir ictimai mühitdə yaşayırsa, həmin mühitin etikasını mənimsəyir…".

A.Bakıxanov insan xarakterinin mahiyyəti məsələsinə toxunaraq onu iki növə ayırır: bunlardan birincisi anadangəlmə xassələr, ikincisi isə öz əməyi ilə qazanılmış xassələrdir. A.Bakıxanov qeyd edir ki, anadangəlmə xassələrin əlamətlərindən xilas olmaq, eləcə də onlara yiyələnmək olduqca çətindir. O, yazır ki, bu məqsəd üçün böyük əziyyət və zəhmət çəkmək lazımdır.

A.Bakıxanov insan təbiətinin mahiyyəti haqqında danışaraq məhəbbət üzərində xüsusi olaraq dayanır. O, qeyd edir ki, məhəbbətsiz insan ola bilməz, ancaq məhəbbət müxtəlif insanlarda müxtəlif formada təzahür edir.

A.Bakıxanov məhəbbət anlayışına geniş məna verirdi. Bu xüsusiyyət (məhəbbət) insan təbiətindən və maddi aləmdən törəmədir, olduqca müxtəlif növdə təzahür edir. Birinci növ *meyldir* ki, bu da hər yerdə, həm bitkilər aləmində, həm də cansız təbiətdə baş verir. Məsələn, dəmirin maqnitə, samanın kəhrəbaya meyli kimi. İkinci növ *ünsiyyətdir* ki, buna yalnız heyvanlar aləmində rast gəlinir. Ünsiyyət meylin uzun müddət ərzində yaranan yüksək dərəcəsidir. Məsələn, hər hansı bir heyvan bu və ya digər səbəbdən başqa bir heyvanla ünsiyyətə girir, onunla görüşməkdən zövq alır, ondan ayrı düşəndə isə kədərlənir. İnsanlar isə əqlə malik olduqlarına görə onlardakı bu ünsiyyət daha mükəmməl olur.

A.Bakıxanova görə ünsiyyətin yüksək zirvəsi məhəbbətdir. Yaxşı və pis adam arasında, ədalətli adamla zülmkar arasında məhəbbət ola bilməz. Buna görə də hər kəsin əxlaqının necəliyini onun dostlarının əxlaqından da öyrənmək olar. "İnsanın dostu onun əqlinin dərinliyini müəyyən edən meyardır". A.Bakıxanov

məhəbbətin ən yüksək dərəcəsini "eşq" adlandırır. "Eşq elə bir oddur ki, özündən başqa hər şeyi yandırar".

A.Bakıxanov özünün etik prinsiplərindən bəhs edərkən düzgünlüyü, düz sözü əxlaqın ən gözəl xüsusiyyətlərindən biri kimi qiymətləndirir. O qeyd edir ki, həqiqəti deyən insan qorxu və həyəcandan həmişəlik azaddır. "Həqiqət dərman kimi acı və faydalıdır. Filosoflardan biri öyrədir ki, böyüklərə sözün düzünü demək lazımdır, belə ki, əgər onlar onu qəbul etməsələr də, səni ona görə cəzalandırmazlar; necə ki, deyirlər: yalançılıqda ölüm olduğu kimi, doğruçuluqda nicat var".

A.Bakıxanov özünün etik mühakimələrini insanlar arasında qarşılıqlı münasibətlə sıx əlaqələndirir. Onun fikrincə dostluğa əsaslanan münasibət insana yüksək zövq verir. Buna görə də A.Bakıxanov belə bir nəticəyə gəlmişdir ki, xoşbəxt insan odur ki, onun çoxlu vicdanlı və sədaqətli dostu var. "İnsanların əksəriyyətinin xarakteri elədir ki, onların sənə işi düşən zaman sənə təzim etməyə başlayırlar, əgər sənin onlara işin düşsə, onlar səndən təzim etməyi tələb edirlər. Mən bunların hamısını müxtəlif formalarda (vəziyyətlərdə) sınaqdan keçirmişəm".

A.Bakıxanov iddia edir ki, mükəmməl əqilə malik insanda mükəmməl əxlaq olmalıdır, onun dostları isə dərin zəkaya və böyük ürəyə sahib olmalıdır. Yaxşı deyiblər: "Ağıllı düşmən axmaq dostdan yaxşıdır". O, əxlaq prinsiplərinin düzgün tərbiyə olunması və inkişafı üzərində xüsusi dayanaraq qeyd edirdi ki, bəzən əxlaqın tərbiyəsi və inkişafı düzgün müəyyənləşdirilmədikdə, kiçik səbəblər böyük xoşagəlməz hadisələrin yaranmasına kömək edir və əksinə, əxlaq prinsiplərinin düzgün tərbiyəsi və inkişafı ən böyük xoşagəlməz hadisələri aradan qaldırmağa imkan yaradar.

A.Bakıxanova görə insan öz işində mümkün qədər sadə və təmənnasız olmalıdır. Böyük işləri görən insanlara köməkçi lazımdır. Bəzən xırda işlər insanı böyük işlərdən ayırır. Buna görə də bir çoxları özünün ikinci dərəcəli işlərini inanılmış, sağlam əxlaqlı adamlara tapşırmalı və onlara ümumi rəhbərlik etməlidir. Ancaq köməkçiləri başlı-başına buraxmaq olmaz. Rəhbər işçi bu adamların mövcud iş üçün yararlı və qabiliyyətli olduğunu bilməlidir.

A.Bakıxanova görə insanın təbiətində onun həyatının müxtəlif

dövrlərində xasiyyətinin müəyyən əlamətləri üstünlük təşkil edir. Pis hərəkət edən insanlar, tezliklə ətrafdakılar arasında öz hörmətini itirir. Hakimiyyətpərəst, vəzifə axtaran adamlar həmişəlik olaraq özlərinin ehtiraslarının köləsinə çevrilirlər. Şöhrətpərəst və mənsəbpərəst vəzifə hərisi olan insanlar özlərini bədbəxt edirlər. Qara qəlbli adam öz günahlarına görə öz-özünü cəzalandırır. "Bir sözlə, əsl insan odur ki, özünün çatışmazlıqlarını başqalarından yaxşı görür, özünün qabiliyyətini isə az əhəmiyyətli hesab edir. Bir filosof deyib ki, yetkin adam odur ki, özünü dərk edə bilir".

A.Bakıxanov yalanı var gücü ilə qamçılayaraq yazır: "Yalanı özündən uzaq et. Əgər insanlar bu nöqsanı səndə hiss etsələr, onda sənin doğru sözünə də inanmazlar". O, boşboğazlara qarşı kəskin çıxış edərək deyir: "Əclaf, boşboğaz və səfehlərdən qaç ki, sənin özün də bələlərinə çevrilməyəsən".

A.Bakıxanov özünün etik baxışlarında təvazökarlıq üzərində xüsusi dayanaraq, yazırdı: "Bu xassə insanın zinəti, onun yaşayış və mənəviyyat tərzinin mənbəyidir.Təvazökar adamların dostları çox, düşmənləri isə az olur. Hətta, təvazökar adamların düşmənləri də həmişə onlarla dostluq etməyə cəhd göstərirlər. Təvazökar adamlar hər gün özünə baxır və özündəki nöqasanları düzəldir".

Təvazökar adam mənsəb və rəsmi vəzifə axtarmır o, hamıdan çox işləyir, onu gözə soxmağa çalışmır və öz işinə ciddi yanaşır. Dünya malı təvazökar adamı yoldan çıxartmır. Var-dövlət arzusanda olmaq, hətta onu varisə vermək məqsədilə olsa belə mənasızdır, çünki, "qabiliyyətli oğulun sərvətə ehtiyacı yoxdur, ləyaqətsiz oğul isə ata-baba ocağını rüsvay edər". A.Bakıxanov təvazökarlığı ən gözəl əxlaqi keyfiyyətlərdən biri hesab etməklə yanaşı, belə bir fikri də irəli sürür ki, "təvazökarlığı alçalmaq səviyyəsinə yenməkdən qorumaq lazımdır". Çünki həddindən artıq təvazökarlıq bəzi adamlara zəiflik kimi görünə bilər və belə insan üçün çətinlik və əzab-əziyyət yaradar.

Alovlu maarifçi olan Abbasqulu ağa Bakıxanov maarifi, elmi və mədəniyyəti təbliğ edirdi. O, dəfələrlə qeyd edirdi ki, maarifsiz insan heç bir vaxt cəmiyyətin dəyərli üzvü ola bilməz. Mədəniyyət və maarif bəşər övladının yaraşığıdır.

## 2.1.5. Mirzə Şəfi Vazehin əsərlərində dövrün ictimai siyasi ideyaları və motivlərinin əks olunması

Mirzə Şəfi Vazeh XIX əsr Azərbaycan ədəbiyyatının böyük şəxsiyyətlərindən biridir. Onun əsərlərində dövrün siyasi ideyaları və motivləri öz əksini tapmışdır. Şairin yaradıcılığı və şəxsi taleyi çox kədərli olmuşdur. Onun taleyi və yaradıcılıq irsi başdan-başa faciədir. Doğma torpağı Gəncədən Tiflisə köçməyə məcbur olmuş və burada həqiqətin əzablı axtarışlarını davam etdirmişdir.

Mikayıl Rəfili yazmışdır: "Mirzə Şəfi bir çox gözəl mahnıları ilə ictimai həyata fəal nüfuz etmişdir". M.Rəfili şairin "dərin lirizmi" ilə onun siyasi ideallarının qırılmaz əlaqələrini ustalıqla açmışdır. M.Rəfiliyə görə Mirzə Şəfi "şair-mübarizdir, ruhaniliyin və despotik dövlətin qatı düşmənidir".

M.Ş.Vazehin ictimai-siyasi baxışlarının əsas istiqamətlərini mövcud quruluşa, sosial zülmə qarşı etiraz və qiyam, insan azadlığı, sosial ədalət problemləri, insan hüquqları uğrunda mübarizəyə çağırış və azadfikirlilik motivləri təşkil edir.

Mirzə Şəfiyə görə yalanın və ikiüzlülüyün mənbələri şah saraylarıdır. M.Ş.Vazehin baxışlarında dövrün gerçəkliyinə, insan şəxsiyyətinin zülmə məruz qalmasına qarşı etiraz motivləri öz ifadəsini tapır. Öz humanist ideallarına sadiq qalan M.Ş.Vazeh dərk edirdi ki, insanlığa qarşı olan zülm təkcə onun torpağında deyil, hər yerdə, bütün bəşəriyyət üzərində hökmranlıq edir. Mütəfəkkirin etirazı əzab çəkən, zülmə məruz qalan xalqın etirazıdır, onun içərisindən çıxdığı, yazıb-yaratdığı və yaşadığı mühitin etirazıdır. Qamçılayıcı sarkazm, kəskin replikalar Vazehin yaradıcılığı üçün xarakterikdir. Zəngin mənəvi aləm, uzun illər ərzində möhkəmlənmiş ideya mövqeyi M.Ş.Vazehi əmin edirdi ki, xoşbəxtlik şah taxtı deyil və buna görə də irsən keçmir, onu mübarizədə əldə etmək lazımdır.

M.Ş.Vazehin ideyasına görə mübarizəsiz xilas yoxdur, mübarizə isə qorxusuz olmalıdır. O, xəbərdarlıq etmişdir ki, mübarizə qeyri-bərabərdir və qələbə asan əldə olunmur. İnsanı bu mübarizədə nəinki qələbə, həm də məğlubiyyət gözləyir.

M.Ş.Vazehin ictimai-siyasi baxışlarının ən mühüm elementini

şər qüvvələrinin köklərinin axtarışı təşkil edir. Mirzə Şəfinin sözlərinin gücü və nəhəngliyi ondadır ki, Almaniyada faşizm illərində onun şeirləri qadağan olundu. Gücə və ədalətsizliyə qarşı nifrət yaradan, yüksək humanizm ideallarını təbliğ edən Vazehin poeziyası faşistlərdə qəzəb oyatdı. Onun şerlər toplusu bütün dövrlərin və xalqların görkəmli yazıçı və şairlərinin kitabları ilə birlikdə yandırıldı.

### 2.1.6. Mirzə Kazım bəyin XIX əsrdə Azərbaycanın ictimai-siyasi fikrinin inkişafında yeri

XIX əsr Azərbaycanın ictimai-siyasi fikrin inkişafına görkəmli alim Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu Kazım bəy qiymətli xəzinə bəxş etmişdir. Onun Rusiyada və Yaxın Şərqdəki ictimai-siyasi, fəlsəfi cərəyanlara həsr edilmiş əsərləri Azərbaycan və Rusiya elminin qızıl fonduna daxil edilmişdir. Rusiyanın, Böyük Britaniyanın, Fransanın, Almaniyanın, Hollandiyanın, ABŞ-ın akademiya və elmi cəmiyyətlərinin üzvü olan M.Kazım bəy öz adını Yaxın və Orta Şərq xalqlarının tarix, fəlsəfə, hüquq, siyasət, ədəbiyyat üzrə görkəmli alim-tədqiqatçılarının siyahısına həkk etdirib. O, İslam hüququnun nəhəng bilicisi olub. İllərlə Vətəndən uzaqda yaşamasına baxmayaraq, həyatının sonuna qədər Azərbaycana, doğma xalqına, onun tarixinə, elminə, poeziyasına və dilinə olan bağlılığını və məhəbbətini qoruyub saxlamışdır. “Dərbəndnamə” əsərində o, doğma diyarın gözəlliyini, xalqın müdrikliyini, onun qəhrəman keçmişini vəsf etmişdir. M.Kazım bəy Nizaminin, Fizulinin, Bakıxanovun, Axundovun yaradıcılığını yüksək qiymətləndirmişdir.

M.Kazım bəyin dünyagörüşünün müəyyənedici mənbəyini Şərq və qədim yunan filosofları və mütəfəkkirləri olan Firdovsi, Nizami, Qəzəli, Platon, Aristotel, Epikürün, İskəndəriyyə fəlsəfi məktəbinin və klassik alman fəlsəfəsinin nümayəndələrinin əsərlərinin hərtərəfli öyrənilməsi təşkil edir.

M.Kazım bəyin dövlət problemlərinə həsr olunmuş xüsusi əsəri yoxdur. Dövlətçiliklə bağlı onun ideyaları başqa əsərlərində öz

əksini tapmışdır. M.Kazım bəyin geniş və hərtərəfli yaradıcılığında siyasət problemlərinə geniş yer verilmişdir. Qətiyyətlə demək olar ki, tariximizdə onun adı XIX əsr ictimai-siyasi fikrinin formalaşması ilə bağlıdır ki, bu da müasirlik üçün öz əhəmiyyətini itirməmişdir.

M.Kazım bəyin ictimai-siyasi baxışları daha aydın və geniş şəkildə əsasən onun iki əsərində – "Müridizm və Şamil", "Bab və babilər" əsərlərində əks olunmuşdur. Birinci əsər çarizmin müstəmləkəçilik siyasətinə qarşı Qafqaz xalqlarının hərəkatı olan müridizmin öyrənilməsi üçün böyük bir xəzinədir. Çar mürtəce ideoloqlarının hamısının təsdiqinə görə M.Kazım bəy ilk dəfə bu hərəkatı təmiz dini hərəkat kimi deyil, dini bayraq altında siyasi hərəkat kimi xarakterizə etmiş və onu Rusiyanın daxili vəziyyəti ilə əlaqələndirmişdir.

"Müridizm və Şamil" əsəri təkcə faktiki material deyil, həm də müridizmin siyasi xarakteri haqqında, xüsusilə dağlıların azadlıq uğrunda mübarizəsi haqqında qiymətli məlumatları özündə ifadə edir.

M.Kazım bəy qəti əmin idi ki, silah gücünə xalqın azadlığa olan məhəbbətini fəth etmək olmaz. Mütəfəkkir yazır: "Üç silah gücünə – geniş ürəklilik, təmənnasız cəsarət və ədalət məhkəməsi – yalnız bu üç silah gücünə bütün Qafqazı fəth etmək olar; bunlardan biri olmadan uğur əldə etmək olmaz".

M.Kazım bəy dahiyanə şəkildə demişdir ki, dağlıların mübarizəsi hələ qurtarmayıb və istənilən an yenidən başlaya bilər. Mütəfəkkir "Şimal arısı" qəzetinin Qafqaz xalqlarının milli-azadlıq hərəkatının müvəqqəti xarakteri haqqında fikrinə qarşı çıxaraq yazır: "Cənab «NN» (qəzetin anonim şərhçisi) Qafqazda hələ qurtarmayan və ola bilsin ki, hələ uzun müddət davam edən və yenidən başlaya bilən yarım əsrlik mübarizəmizi müvəqqəti hesab edir".

M.Kazım bəy xalq hərəkatında ayrı-ayrı şəxsiyyətlərin, nüfuzlu insanların roluna böyük əhəmiyyət verirdi. O, Qafqaz dağlılarının qəti qələbələrinin səbəbini hərəkatın həm dini, həm də dünyəvi rəhbəri olan Şamilin şəxsiyyətində görürdü. Mütəfəkkir yazır: "Şamil çox maraqlı və görkəmli insandır. O, eyni zamanda böyük rəhbər, qəhrəman və imamdır. O, həm müsəlman qanun və ənənələrinin, həm də ərəb elmlərinin bütün sahələrinin çox gözəl

bilicisi idi. O, çox sakit və əzəmətli və təmtəraqlı və eyni zamanda sadə və xeyirxah idi". M.Kazım bəy Şamil haqqında daha sonra yazırdı: "Şamilin adında bir çox tarixi və vətənpərvərlik fikirləri gizlənib... o, qəhrəmandır və qəhrəmanlar yaradandır."

XIX əsrin 40–50-ci illərində Avropanın bir sıra ölkələrində inqilabi hərəkatlar baş verdi. Bu çıxışların əks-sədası əsrlər boyu despotizm və fanatizm şəraitində yaşayan Şərq ölkələrinə də gəlib çatdı. Bu dövrdə Şərqdə ən böyük çıxış İrandakı 1848-ci il babilər üsyanı oldu. M.Kazım bəy bu böyük xalq hərakatına aid "Bab və babilər" əsərini yazmışdır.

Mütəfəkkir babilərin siyasi doktrinasını despotizmə və dini fanatizmə qarşı mübarizə kimi başa düşürdü. M.Kazım bəy xalq-azadlıq hərəkatı iştirakçılarını üç kateqoriyaya bölürdü: 1) kortəbii pərəstişkarlar; 2) hərəkatın siyasi rəhbərləri və şagirdləri; 3) sui-istifadəçilər və dağıdıcılar.

Mütəfəkkir babilərin uğursuzluqlarından təəssüflənir və inanır ki, onların hərəkatı izsiz qalmayacaq. Babilər hərəkatının silah gücünə yatırılmasına baxmayaraq, M.Kazım bəy inanırdı ki, İranda belə bir sosial hərəkat yenidən alovlanacaq.

M.Kazım bəyin ictimai-siyasi baxışlarını dərindən dərk etmək üçün onun xalq-azadlıq hərəkatında dinin roluna, inqilaba və xalq hərəkatında şəxsiyyətin roluna münasibətinə xüsusi diqqət yetirmək lazımdır. M.Kazım bəy dinin müsəlman dövlətinin sosial-siyasi strukturunda yerini və rolunu müəyyən etməyə cəhd göstərmişdir. O, belə hesab edir ki, din siyasiləşir, siyasət isə dini bayraq altında həyata keçirilir. O, "Siyasi babizm" ifadəsini elmə gətirərək, İslam dininin ictimai həyatın gedişinə fəal təsirinin əhəmiyyətli rolunu açıb göstərmişdir. M.Kazım bəyə görə İslam canlı hiss və canlı gücdür. Söhbət İslam şüurunun, müsəlman cəmiyyətinin tədrici inkişafında həlledici rolundan gedir. M.Kazım bəy həm Qafqaz dağlılarının, həm də İrandakı babilər hərəkatının antifeodal və antihökumət xarakterli olduğunu göstərir. O, İslamın monarxiyanın əsaslarını dağıtmaqda oynadığı mütərəqqi rolunu sübut etməyə çalışırdı.

M.Kazım bəy İslamın əxlaqi-siyasi təlim kimi ideoloji roluna xüsusi əhəmiyyət verirdi. M.Kazım bəy fanatizmi həm islam üçün,

həm də istənilən başqa dinlər üçün olduqca təhlükəli hal hesab edirdi. Alimin fikrincə fanatizm bütün dinlər üçün xasdır. O, Tiflisdəki İran konsuluna yazdığı məktubda deyir: “Fanatizm pis şeydir… söhbət təkcə müsəlmanlar arasındakı fanatizmdən getmir, həm də Avropadakı… fransızlar, ruslar, polyaklar arasındakı fanatizmdən gedir”.

Şamilin başçılığı ilə dağlıların xalq azadlıq hərəkatının və babilərin məğlubiyyət səbəblərini təhlil edən Kazım bəy belə bir nəticəyə gəlmişdir ki, dini islahatların tələbləri despotizmlə, milli zülmlə mübarizə problemlərinə üstün gəlmişdir. Hərəkatın bir çox iştirakçıları sıx əlaqədə deyildilər, onlar ictimai-siyasi məsələlərin radikal həllində düşmənlərə güzəştə getdilər, şəxsi məqsədlər üstün gəldi.

M.Kazım bəyin siyasi baxışlarına yekun vuraraq qeyd etmək lazımdır ki, o, öz dövrünün siyasi hadisələrinin uzaqgörən tədqiqatçılarından biri olmuşdur.

### 2.1.7. İsmayıl bəy Qutqaşınlının maarifçilik dünyagörüşü

İsmayıl bəy Qutqaşınlı (1806–1861) ilk Azərbaycan maarifçiləri sırasına daxildir. O, öz dövrünün qabaqcıl, mütərəqqi mütəfəkkirlərindən biri olmuşdur. İ.Qutqaşınlının həyat və dünyagörüşü ilə, onun vətənindən ayrı düşməsi ilə bağlı mübahisəli və ziddiyyətli fikirlər vardır. O, 25 il rus ordusunda xidmət etmiş və general-mayor rütbəsinə qədər yüksəlmişdir. Ancaq bütün bunlara baxmayaraq o, doğma Vətəni Azərbaycana, öz xalqına, onun milli mədəniyyətinə, adət-ənənələrinə bağlı olmuşdur ki, bu da öz əksini onun 1835-ci ildə Varşavada fransız dilində çap olunmuş “Rəşid bəy və Səadət xanım” adlı əsərində tapmışdır. O, qeyd edir ki, xalqı başa düşmək onun arzularını, istəklərini bilmək üçün o ölkədə doğulmaq lazımdır.

İ.Qutqaşınlı xalqı zülmdən, soyğunçuluqdan və istismardan azad olmağa çağırırdı. Onu Şərq qadınının hüquqsuzluğu narahat edirdi. İ.Qutqaşınlı ömrünün sonuna qədər dini əqidəli bir insan kimi yaşamışdır. Görkəmli Azərbaycan ədəbiyyatşünası Əziz

Mirəhmədov qeyd etmişdir ki, Qutqaşınlı ortodoksal müsəlman cərəyanına mənsub olan ilk Azərbaycan maarifçisidir. Onun dinə olan münasibəti M.F.Axundov və M.Şəfinin mövqeyi ilə müqayisədə A.Bakıxanovun mövqeyinə yaxın olmuşdur.

İ.Qutqaşınlının çar ordusunda xidmət etməsi və hakimiyyətdən xidməti asılılığı onun dünyagörüşündə dərin iz buraxmışdır. O, öz yaradıcılığında çarizmin Azərbaycandakı müstəmləkəçilik siyasətinə toxunmağa cəhd göstərməmişdir.

### 2.1.8. Mirzə Fətəli Axundovun sosial-siyasi baxışları

Azərbaycanın ictimai-siyasi fikir tarixində M.F.Axundov (1812–1878) mühüm yer tutur. Onun nəzəri irsi Azərbaycan xalqının mənəvi mədəniyyəti xəzinəsinə daxildir. M.F.Axundovun dünyagörüşü Azərbaycan gerçəkliyinin, Şərq klassik ədəbiyyatının, qabaqcıl rus və Qərbi Avropa fəlsəfəsinin və ictimai-siyasi fikrinin təsiri altında formalaşmışdır.

M.F.Axundov Nizami Gəncəvinin və qabaqcıl Qərbi Avropa mütəfəkkirlərinin yaradıcılığına müraciət etmişdir. Onun əsərlərində Aristotelin, B.Spinozanın, Ş.L.Monteskyenin, Volterin, J.J.Russonun, H.Boklın və digərlərinin əsərlərindən tez-tez iqtibaslar gətirilmişdir.

M.F.Axundovun yaradıcılığında mühüm mərhələni 1850–1855-ci illərdə yazdığı 6 komediya təşkil edir. Bununla o, Azərbaycan dramaturgiyasının əsasını qoymuşdur. Onun komediyalarında insan azadlığı ideyası öz əksini tapmışdır. İkiqat zülmün – çarizmin və yerli feodalların zülmü altında yaşayan Azərbaycan xalqının ağır vəziyyəti M.F.Axundova dərin təsir göstərərək, onun ictimai-siyasi fikrinin radikallaşmasına şərait yaratdı. 1857-ci ildən başlayaraq onun əsərlərində ictimai-siyasi məsələlər başlıca yer tutmağa başladı.

M.F.Axundov bir filosof, ədib, ən başlıcası, həyat hadisələrini daim izləyən realist yazıçı kimi cəmiyyətdə gedən proseslərdəki ictimai-siyasi məsələlərlə dərindən maraqlanmışdır. O dövrdə Şərq xalqlarının iqtisadi, elmi və mədəni sahələrdə tənəzzülü böyük

mütəfəkkiri ciddi narahat edir, düşündürürdü. Bu gerilikdən xilas olmaq üçün daim yollar arayan filosof cəmiyyətin siyasi və mədəni həyatında əsaslı dəyişikliklər aparılmasını zəruri sayırdı.

1857-ci ildə yazdığı "Aldanmış kəvakib" əsərində ilk dəfə olaraq bütövlükdə ədalətsiz ictimai quruluşa qarşı çıxış edir. M.F.Axundovun "Aldanmış kəvakib" povesti təkcə Azərbaycan ədəbiyyatında deyil, həm də Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm yer tutur. Həcmcə böyük olmayan bu əsər bədii əsər çərçivəsindən çox kənara çıxaraq mütəfəkkirin siyasətə, fəlsəfəyə, ictimai-siyasi və sosial, dövlət və hüquq problemlərinə olan baxışlarını əks etdirirdi. M.F.Axundovun "Aldanmış kəvakib" povesti Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində siyasi pamfletin (kiçik həcmli, sosial-siyasi tənqidi əsər) ilk klassik formasıdır.

M.F.Axundovun ilk tədqiqatçılarından biri olan Mikayıl Rəfili yazır ki, "Aldanmış kəvakib"də M.F.Axundov "…Artıq aydın başa düşürdü ki, dövlətin başında xalqın içərisindən çıxmış ağıllı, ədalətli, qayğıkeş, güclü hökmdar olan insan durmalıdır ki, o, özünün mövcudluğunu deyil, xalqın rifahı haqqında, ölkənin həyatının, iqtisadi, sosial və mədəni yüksəliş haqqında düşünməlidir".

Firudin bəy Köçərli M.F.Axundovun "Əsərləri"nin ikinci cildinə ön sözdə yazır: "M.F.Axundov «Aldanmış kəvakib» povestini özünün ağıllı, maarifçi hökmdara olan ümidi ilə əlaqələndirir, guya əgər dövlətin başında ağıllı, ədalətli hökmdar durarsa, nəticədə zorakılığa son qoyulacaq, xalq azadlıq və xoşbəxtlik əldə edəcək. Ancaq çox keçmədən Axundov bu islahatçı ideyalarından geri çəkildi".

M.F.Axundovun dünyagörüşünun tədqiqinə bir sıra əsaslı əsərlər həsr etmiş Şeydabəy Məmmədov qeyd edir: "O, deyir ki, yeni ədalətli quruluş feodalizm çərçivəsində islahatlar və mövcud qanunlarda bəzi dəyişikliklər yolu ilə qurula bilər. M.F.Axundov «Aldanmış kəvakib» əsərində maarifçi monarxiyanın tərəfdarıdır… Bu dövrdə mütəfəkkir, öz fəaliyyətində hələ inanırdı ki, əgər dövlətin başında maarifçi monarx durarsa mövcud qaydaları dəyişmək olar".

M.F.Axundov irsinin görkəmli tədqiqatçılarından olan Fuad Qasımzadə yazır: “«Aldanmış kəvakib»də Axundov tam olmasa da mütləq monarxiyanı xalq hakimiyyəti ilə əvəz edir, ancaq o, belə bir hakimiyyət arzusu ilə yaşamışdır”.

M.F.Axundov ictimai-siyasi problemlərə “Aldanmış kəvakib” povestindən səkkiz il sonra, 1865-ci ildə yazdığı “Kəmalüddövlə məktubları” fəlsəfi traktatında da böyük diqqət yetirmişdir. O, ümumbəşəri xoşbəxtliyə çatmaq yolunu sosial islahatlarda deyil, inqilab yolunda görürdü. M.F.Axundov belə hesab edirdi ki, bu konsepsiya təkcə Şərq xalqlarına deyil, həm də Qərb xalqlarına tətbiq edilməlidir.

M.F.Axundov üçün islahat ideal deyil, vasitədir. Mütərəqqi islahatlar inqilabi situasiyanın hazırlığına bünövrə və etibarlı vasitə olmalıdır. Bu baxımdan “Aldanmış kəvakib” mütəfəkkirin mini proqramıdır. M.F.Axundov yazır: “Bütün islahatlar və yeniliklər yaxşıdır, ancaq səmərəsizdir, bünövrəyə malik deyil, möhkəm deyil, müvəqqətidir. Bir neçə gündən sonra məhv olacaq. Elm və maarif istinasız olaraq yuxarıdan aşağıya, kasıbdan varlıya, əhalinin bütün təbəqələri arasında yayılmalıdır.

Həm çoban, həm əkinçi həm tacir, həm dükançı nazirlərin imkanlarını və qabiliyyətlərini mənimsəməlidirlər. Bütün xalq hakimiyyətin qəbul etdiyi tədbirlərdə iştirak etməlidir”.

M.F.Axundov nəhəng tarixi miqyaslı siyasi mütəfəkkirdir. M.F.Axundovun ictimai-siyasi idealı konkret sosial şəraiti və milli xüsusiyyətlərin təsiri altında işlənmişdir. Buna görə də onun ictimai-siyasi konsepsiyaları insanın feodal zülmündən azad olunması uğrunda mübarizəyə tuşlanaraq, təkcə mütərəqqi xarakter deyil, həm də obyektiv-inqilabi xarakter daşıyırdı.

Dərin analitik ağıla, ensiklopedik təhsilə, yüksək ideallara sadiqlik M.F.Axundova XIX əsr Azərbaycan ictimai-siyasi fikrində həqiqi çevriliş etməyə və öz dövrünü qabaqlayaraq dünya ictimai-siyasi fikrinin inkişafı tarixinə daxil olmağa imkan verdi.

## 2.1.9. Şeyx Cəmaləddin Əfqaninin maarifçilik və demokratik islahatçılıq fəaliyyəti

Tarixdə yaradıcılıq-quruculuq fəaliyyəti, düşüncə və təfəkkür tərzi, idealı yaşadığı dövrün, zamanın hədlərinə, mənsub olduğu dövlətin və millətin sərhədlərinə sığmayan şəxsiyyətlər çox nadir olur. Şəxsi həyatını, yaradıcılığını və ictimai-siyasi fəaliyyətini Şərq xalqlarının, xüsusilə də Türk dünyasının milli oyanışına, maariflənməsinə, müstəmləkəçilik zülmündən, cəhalət və nadanlıq girdabından xilas olunmasına həsr edən belə şəxsiyyətlərdən biri XIX əsrdə yaşayıb-yaratmış, keşməkeşli və şərəfli həyat keçirmiş görkəmli Azərbaycan maarifçi-filosofu, dinşünas alim, islahatçı, azadlıq və istiqlal mücahidi Böyük İnsan Şeyx Cəmaləddin Əfqanidir (1838–1897).

Əslən Azərbaycanın Marağa şəhərindən olan Cəmaləddin Əfqani Həmədan şəhəri yaxınlığında yerləşən və əhalisi Azərbaycan türklərindən olan Əsədabad qəsəbəsində ziyalı ailəsində doğulmuşdur. 8 yaşında olarkən atası ilə Kabilə köçmüşdür.

Fikri, ideya və məfkurəsi bolşevizm ideologiyasının ölçülərinə uyğun gəlmədiyinə görə Sovet hakimiyyətinin mövcud olduğu dövr ərzində bir çox milli ziyalılarımız kimi ona da "pantürkist", "panislamist" damğası vurulmuş və adının çəkilməsi yasaq olunmuşdu. Yalnız müstəqillik əldə olunandan sonra Cəmaləddin Əfqani yenidən "vətəndaşlıq" hüququ əldə etdi və tanınmış Azərbaycan ədəbiyyatşünası, professor Şamil Qurbanov tərəfindən tədqiq olunaraq, əsərləri toplanılıb milli mədəniyyət xəzinəmizə daxil edildi. Ancaq C.Əfqani elə bir şəxsiyyətdir ki, onun haqqında daha çox yazılmalıdır, onun irsinin dərindən öyrənilməsi vacib və aktualdır.

Cəmaləddin Əfqani panislamizm adlandırılan demokratik cərəyanın yaradıcısı olmuş, ərəb, fars, fransız və rus dillərini mükəmməl bilmiş və əsərlərini də həmin dillərdə yazmışdır. Bir müddət Əfqanıstanın Baş naziri, Osmanlı dövlətinin "Maarif və övqaf" naziri vəzifələrində işləmişdir. O, yaşadığı dövrdə təkcə Şərq ölkələrində deyil, Qərb ölkələrində də böyük nüfuza malik olmuşdur.

Şeyx Cəmaləddin Əfqaninin nəşr olunmuş əsərləri azdır. Güclü məntiqi təfəkkürə, natiqlik istedadına malik olan, söhbətləri zamanı müsahiblərini asanlıqla ələ alan və sözünün sehrinə sala bilən C.Əfqani ictimai-siyasi və maarifçilik fəaliyyətini daha çox təbliğat işlərinə sərf etmişdir.

Yaradıcılığı və gördüyü irimiqyaslı işlər Cəmaləddin Əfqanini şöhrətləndirmiş və dövrünün məşhur şəxsiyyətləri tərəfindən yüksək qiymətləndirilmişdir. Cəvahirləl Nehru onu XIX əsrdə Misirin ən böyük reformisti, Mehmet Akif Ərsoy Cəmaləddin Əfqanini Şərqin yetişdirdiyi fitrətlərin yüksəklərindən biri, Şəmsəddin Günaltay Şeyxin Peyğəmbər qədər şayani-hörmətə layiq olduğunu, Məhəmməd Əmin Rəsulzadə Şeyxin nüfuz və tərəfdarlarının artdıqca düşmənlərinin çoxalmasını, Məhəmməd Mühit Təbatəbai Cəmaləddin Əfqaninin İran üçün etdiyi xidmətləri dəyər etibarı ilə Şah İsmayılın və Nadir şahın İran tarixinə göstərdikləri xidmətlərdən daha üstün olduğunu söyləmişlər. Eyni zamanda XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın görkəmli milli-maarifçi, demokrat ziyalıları Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev (Ağaoğlu), Məhəmməd Əmin Yurdaqul, Cəfər Cabbarlı və s. kimi böyük şəxsiyyətlər də Cəmaləddin Əfqani haqqında heyranlıqla yüksək fikirlər söyləmişlər, həmçinin müxtəlif ölkələrdə nəşr olunan məşhur mətbuat orqanları onunla bağlı çoxlu yazılar vermişlər.

Fransız filosofu, Sarbon Universitetinin professoru Ernest Yozef Renan (1823–1892) demişdir: "Onunla mən hər dəfə söhbət edəndə mənə elə gəlir ki, İbn-Sina, İbn-Rüşd və yaxud insanları əsarət zəncirindən qurtarmaq üçün çalışmış başqa Şərq dahilərindən biri ilə üzbəüz oturub söhbət edirəm".

Cəmaləddin Əfqani hər şeydən əvvəl, böyük maarifçi ziyalı olmuşdur. O, elmə, maarifə yüksək qiymət verərək Şərq xalqlarının geriliyini və cəhalətin səbəbini onlarda maarif və elmin olmamasında görürdü. O, Şərq xalqlarının oyanışının və tərəqqisinin elmdə və maarifdə olduğunu bildirərək deyirdi ki, "hər bir millət elmi ilə məşhurlaşır. İnsanları elmi ilə qiymətləndirmək, elmi ilə tanımaq lazımdır, elmi insanlarla yox". Dünyanın sultanının elm olduğunu, hələ indiyə qədər elm sarayından heç bir hökmdarın

qovulmadığını söyləyən C.Əfqani 1872-ci il noyabrın 8-də Hindistanın Kəlküttə şəhərində ingilis məktəbində oxuyan müsəlman gənclərinin qarşısında çıxışında onları elmlə məşğul olmağa çağırmış və elmin dəyərini belə vermişdir: "Mənim fikrimcə, elmin tədqiqi ilə məşğul olanların hamısı yəqin edir ki, dünyanın sultanı həmişə elm olmuşdur, elmdir və elm olaraq qalacaqdır".

Elmə, maarifə yüksək qiymət verən Cəmaləddin Əfqani cəmiyyətin sosial-iqtisadi inkişafında təbiət elmlərinin mühüm əhəmiyyətini qeyd etməklə yanaşı, insanın bir şəxsiyyət kimi yetkinləşməsində, əxlaqi cəhətdən formalaşmasında, bəşər cəmiyyəti həyatının və mənəviyyatının zənginləşməsində humanitar elmlərin, xüsusilə də fəlsəfə elminin böyük rola malik olduğunu göstərmişdir. O, bütün elmlərin ruhunu özündə ehtiva edən bir elmə də ehtiyac olduğunu qeyd edərək deyirdi ki, "Elə bir elm gərəkdir ki, bütün elmlərin ümumi ruhu kimi olsun və onların hər birinin tərəqqi və inkişafına zəmin yaratsın. Bu fəlsəfə elmidir".

Ümumiyyətlə, Cəmaləddin Əfqaninin əsərlərinin hamısı fəlsəfi məzmunludur. Ancaq, onun əsərləri içərisində "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" əsəri, fransız filosofu "Ernest Renana cavab" məktubu, "1872-ci il noyabrın 8-də Hindistanın Kəlküttə şəhərində Albert Halın məktəbində söylədiyi nitq" fəlsəfi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Şeyxin fəlsəfə elminin predmeti ilə bağlı söylədiyi uzaqgörən fikri, fəlsəfə elminə olan müasir ziddiyyətli münasibətlər baxımından çox əhəmiyyətlidir. O, millətin millət kimi formalaşmasında və yetkinləşməsində fəlsəfə elminin əhəmiyyətinin və dəyərinin əvəzsiz olduğunu bildirərək məktəblərdə fəlsəfə elminin tədris olunmasının çox vacib və zəruri olduğunu söyləyərək deyirdi ki, "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər. Osmanlı dövləti, eləcə də Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir götürməmişlər. Səbəb aydındır. Çünki, o məktəblərdə fəlsəfə tədris olunmur və fəlsəfə ruhu olmadığından lazımi nəticə də alınmamışdır".

C.Əfqani xüsusi olaraq fəlsəfə elminin insanın bir şəxsiyyət kimi formalaşmasında, əxlaqi və mənəvi cəhətdən zənginləşməsində onda insanlıq hissi oyatmasında, insanlara doğru-düzgün yol göstərməsində oynadığı rolu göstərirdi. Şeyx milli-mənəvi tənəzzülə uğrayan millətin hər şeydən əvvəl fəlsəfi ruhunun əziyyət çəkdiyini, bundan sonra isə həmin millətin ayrı-ayrı elmlərinin və ədəb-ərkan qaydalarının tamam yox olub aradan getdiyini bildirərək deyir: "İnsanda insanlığı oyadan, insan şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənən tənəzzülə uğrayan millətin, hər şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir". Bu baxımdan akademik Ramiz Mehdiyev fəlsəfi ruhun insana verdiyi mənəvi qidanın əhəmiyyətini qeyd edərək yazır: "Fəlsəfə biliyin ən humanist nəzəri formasıdır. O, insanla xüsusi dildə danışır, ona kim olduğunu, insani ləyaqət və vəzifənin nədən ibarət olduğunu, onun cəmiyyətə, təbiətə, başqa insana, bütün Kainata münasibətdə bir insan kimi hüquq və vəzifələrinin nədən ibarət olmasını izah edir". Professor Əbülhəsən Abbasovun sözləri ilə desək "milləti millət eləyən onun fəlsəfəsidir".

Cəmaləddin Əfqani fəlsəfə ilə din arasındakı ziddiyyətli münasibətlərə və onların arasında gedən barışmaz mübarizəyə də açıq-aydın şəkildə öz münasibətini bildirmişdir. O, "Ernest Renana cavab" məktubunda yazırdı: "Dinlər hansı adı daşıyırlarsa daşısınlar, hamısı bir-birinə bənzəyir. Bu dinlərlə fəlsəfə arasında heç bir anlaşma və barışma mümkün deyildir. Din insana inam və inanc təlqin edir. Halbuki, fəlsəfə insanı tamamilə və qismən dindən uzaqlaşdırır. Din və fəlsəfənin arasında anlaşmanın nə şəkildə olmasını istəmək lazımdır... Din üstün olduğu zaman fəlsəfəni aradan qaldırmaq istəmişlər. Fəlsəfə üstün olduğu zaman isə bunun əksi mövcud olmuşdur". Şeyx dinlə fəlsəfə, məzhəblə vicdan azadlığı arasındakı mübarizənin bitməyəcəyini və bu kəskin mübarizədə vicdan azadlığının qalib gələ bilməyəcəyindən ehtiyat edərək deyirdi: "Bəşəriyyət durduqca məzhəb ilə vicdan azadlığı, din ilə fəlsəfə arasındakı mübarizə bitməyəcəkdir. Bu kəskin mübarizədə vicdan azadlığının qalib gəlməyəcəyindən ehtiyat edirəm. Çünki, böyük həqiqət xalqın xoşuna gəlmir və həqiqət haqqındakı biliklər yalnız bir qism seçilmiş zəkalar tərəfindən

anlaşılır. Çünki, elm nə qədər faydalı olursa olsun, insanlığı tamamilə təmin etməməkdədir. İnsanlıq ideala sığmır, filosof və alimlərin görmədikləri və şərh etmədikləri uzaq və qaranlıq yerlərdə faydalı olmağı sevir".

C.Əfqani doğru olaraq qeyd edir ki, bəşəriyyət elmin faydasından nə qədər bəhrələnsə də onun törətdiyi mənfi nəticələr insanlığı təmin etməyəcəkdir və insanlığa təhlükə ola bilər. Çernobıl və Yaponiyanın atom elektrik stansiyalarında baş verən qəzalar bugün elmin həm də bəşəriyyətə vurduğu zərərin acı nəticələrdir. Elmin nəticələrindən bəşəriyyətin məhvi üçün deyil, onun xilası üçün istifadə olunmalıdır.

Elmin, maarifın, təhsilin millətin inkişafında rolunu yüksək qiymətləndirən Əfqani elmlə təhsilin və təlim-tərbiyənin sıx surətdə qarşılıqlı əlaqəsinin, vəhdətinin zəruri olduğunu söyləyərək qeyd edirdi ki, elmlə məşğul olan alim həm də təhsilə, yəni həmin elmin tədrisinə, öyrənilməsinə xüsusi diqqət yetirməlidir. Əfqani hər kəsə təfəkkür tərzi və bilik meyarı olan məntiq elmini öyrənməyi məsləhət görür ki, düzü əyridən seçə bilsin. Müsəlman məntiqçilərinin çoxunun avam və cahil olduğunu deyən Əfqani onların başının mövhumatla və boş-boş şeylərlə dolu olduğunu və onların təfəkkürü ilə avamların təfəkkürü arasında heç bir fərq olmadığını göstərir. Əfqani müsəlman məntiqçilərini əsl hikmət elmi ilə məşğul olmağa çağırır. O, təəssüf hissi ilə deyir ki, "Qəribə burasıdır ki, bizim alimlər «sədri» və «Şəmsül-bariə» oxuyur və fəxrlə özlərini hikmət sahibi hesab edirlər. Di gəl ki, sağ əlləri ilə sol əllərini seçib tanıya bilmirlər".

Cəmaləddin Əfqani alimlərişəriət fəlsəfəsini öyrənməyə çağıraraq, deyirdi ki, bu elmi oxuyub bilən hər bir şəxs dünyanın mədəni normalarını həyata keçirməyə qadir bir adam olmalıdır. Əfqani yenə də təəssüf hissi ilə elmin müsəlman bilicilərinin qanunun faydasından, mədəniyyət qaydalarından və dünyanın islahatından tam xəbərsiz və məhrum olduqlarını bildirir. Müsəlman alimlərini başlarında ufacıq bir işıq olan nazik bir piltəyə bənzədən Əfqani deyirdi ki, belə alimlər nə öz ətraflarını işıqlandırar, nə də başqalarına işıq verərlər. Alim nur mənbəyi olmalıdır, o, bütün dünyaya nur saçmalıdır.

İnsanın bir insan kimi formalaşmasında və mənəvi cəhətdən

zənginləşməsində dinin böyük təsiri olduğunu və fəlsəfı dünyagörüşün dini dünyagörüşdən sonra gəldiyini göstərən Əfqani yazır ki, "İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüş sonra yaranır".

Əfqani elmlə dinin münasibəti məsələsinə doğru, obyektiv və elmi cəhətdən əsaslandırılmış şəkildə yanaşaraq, elmlə İslam dini arasında heç bir ziddiyyət olmadığını göstərərək yazırdı: "Haqqı, həqiqəti sübut edən elmi bizim alimlər qadağan edirlər, elə bilirlər ki, bununla İslamı qoruyub saxlayırlar. Belə adamlar əslində İslamın düşmənidirlər. Elmə və mədəniyyətə ən yaxın və ən doğma din İslam dinidir, elm və maarifin inkişafı ilə İslam qanunları arasında heç bir ziddiyyət yoxdur".

C.Əfqaninin "Mançestr qardyan" qəzetinin 18 dekabr 1891-ci il nömrəsindəki müsahibəsində müxbirin – İslama yeni və demokratik ruhu necə açıqlamaq olar – sualına verdiyi cavabda deyir: "Quranın həqiqi ruhu azadxah və eləcə də müasir fikirlərə uyğun gəlir. İndiki nizam-intizamsızlığın İslam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin İslama etdikləri əlavələrdir. Tarixi təkamül və inkişaf onların bu səhvlərini islah edəcək. Demək, bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurələrinə tamam aşina olsa o, Quranın təlimlərinə əsaslanaraq xalqı mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər. Bu iş isə Lüterin üzləşdiyi maneələrlə üzləşməz".

XIX əsrdə müsəlman aləmindəki geriliyi, tənəzzülü və başıpozuqluğun səbəblərini üləmalarda, din başçılarında görən Əfqani deyirdi ki, "Məsələyə diqqətlə yanaşdıqda aydın olur ki, müsəlman aləminin tənəzzülü, pozuqluğu əvvəlcə din başçılarında, üləmalarda əmələ gəlmiş, sonra ümmətə siraət etmişdir".

Şeyx Cəmaləddin Əfqaninin bu uzaqgörən və dahiyanə fıkirləri bugün də öz aktuallığını saxlayır. Doğrudan da, müasir dövrdə Şərqin müsəlman dünyasının tənəzzülünün başlıca səbəblərindən biri İslam dinində mövcud olan ayrı-ayrı təriqət başçılarının yürütdükləri səhv siyasətdir. Şeyx zindandan yazdığı son məktubunda insanlara xəbərdarlıq edib, onları mövhumatçılara uymamağa çağırırdı.

Şeyx Cəmaləddin Əfqaninin maarifçilik və demokratik islahatçılıq fəaliyyəti coğrafi məkan çərçivəsinə sığmadığı kimi,

ictimai-siyasi baxışları da zaman çərçivəsinə sığmır. Xüsusilə də, onun azadlıq, bərabərlik, istiqlal, sosial ədalət, elm, maarif, fəlsəfə, din, dil, İslam, demokratiya və s. ilə bağlı fikir və düşüncələri hazırki şərait və zamanla səsləşərək öz aktuallığını saxlayır.

C.Əfqaninin maarifçilik fəaliyyəti milli-azadlıq və demokratik islahatçılıq fəaliyyəti ilə qırılmaz vəhdət təşkil edir.

Ayətulla Mürtəzə Mütəhərri "Son yüzillikdə İslam hərəkatlarının xülasə təhlili" əsərində yazır: "XIX əsrdən sonra İslam dünyasında bir islahatçı hərəkat başlamışdır. Bu hərəkat İran, Misir, Suriya, Livan, Şimali Afrika, Türkiyə, Əfqanıstan və Hindistana şamildir. Bu ölkələrdə az-çox islahat iddiaçıları üzə çıxmış və onlar islahatçı düşüncələr irəli sürmüşlər. Bu hərəkatlar neçə əsrlik bir durğunluq və gerilikdən sonra baş verdi və müəyyən dərəcədə Qərbin siyasi, iqtisadi və mədəni istismarına qarşı bir əks əməl oldu, bir növ İslam dünyasında oyanış və dirçəliş – renesans yaratdı. Şübhəsiz son yüzillikdə olan islahatçı hərəkatlar karvanının qafilə başçısı Əfqani adı ilə məşhurlaşan Seyid Cəmaləddin Əsədabadi idi. İslam ölkələrində oyanış yaradan, müsəlmanların ictimai dərdlərini gerçəkliklə deyən, islahetmə və nicat yolunu göstərən məhz o idi".

C.Əfqaninin milli-azadlıq və demokratik islahatçılıq fəaliyyəti İran, Osmanlı, Rusiya imperiyalarına və Avropa müstəmləkəçiliyinə qarşı yönəlmişdi. Onun başlıca mübarizə hədəfi monarxiya və despotizm olmuşdur.

Ona yaşadığı dövrün üç böyük imperiyasının hökmdarları olan Osmanlı Sultanı II Əbdülhəmidlə, İran şahı Nəsrəddin şahla və Rusiya çarı II Aleksandrla görüşmək qismət olmuşdur. Onlar Əfqaninin cəsarəti və məntiqi qarşısında aciz qalmışlar. Əfqani onlara demokratik islahatlar aparmağı və hakimiyyətlərini xalqla bölüşdürməyi təklif etmişdir. Nəsrəddin şahın Əfqani ilə görüşü zamanı ilk sualı belə olur: "Məndən nə istəyirsən?" Cəmaləddin "İki qulaq!" – deyə cavab verir və söhbətə başlayır.

Şah müsahibinin bu cəsarətindən və qeyri-adi tələbindən əsəbləşsə də, zahirən özünü sakit aparır və ona qulaq asırdı. Cəmaləddin şaha demokratik islahatlar aparmağı, konstitusiyalı quruluş yaratmağı, ölkəni ədalətlə, parlament yolu ilə idarə etməyi təklif edirdi.

Sonralar Şeyx Cəmaləddin Rusiyada yaşayarkən dostları onu çar II Aleksandrla görüşdürürlər. Söhbət əsnasında çar ondan şahla ixtilaflarının səbəbini soruşur. Cəmaləddin isə cavabında demişdir: "Mən bu fikirdəyəm ki, şah parlaman təşkil etməlidir. Şah isə buna razı deyildir". Bu gözlənilməz cavabdan diksinən çar deyir: "Əlbəttə, şah haqlıdır, kəndlilərin onun hökumətini idarə etməsinə o necə razı ola bilər?" Bundan sonra Cəmaləddin halını pozmadan təmkinlə çara deyir: "Əlahəzrət qeysər! Mən bu fikirdəyəm ki, hər padşah üçün milyonlarla rəiyyətin onu sevməsi, ona düşmən olmasından, onun əleyhinə qiyam etmək fürsətini gözləməsindən yaxşıdır". Bu sözlərin qarşısında aciz qalan çar dərhal ayağa qalxmış və söhbəti kəsmişdir.

Fəaliyyəti böyük bir coğrafi məkanı əhatə edən bu böyük şəxsiyyət arzu və məqsədlərinə çatmaq, ideya və baxışlarını təbliğ etmək üçün Şərq xalqlarının istiqlalı və milli oyanışı naminə Misiri, İranı, Əfqanıstanı, Hindistanı, Türkiyəni, Rusiyanı, Avropa dövlətlərini və Amerikanı gəzib dolaşmışdı. İstiqlalı, azadlığı, bərabərlik və sosial ədaləti özünə amal seçən, milli zülmün və müstəmləkəçiliyin barışmaz düşməni olan bu zəki insan sosial-siyasi baxışlarına görə heç bir yerdə rahatlıq tapa bilməmiş, həm Avropanın müstəmləkəçi dövlətləri, xüsusilə də İngiltərə tərəfındən, həm də Türkiyə, İran və Rusiya müstəbidləri tərəfindən daim təqib olunmuş, həyatının ən gözəl çağlarını zindanlarda keçirmişdir.

Professor Şamil Qurbanov onun demokratik islahatçılıq fəaliyyətini təhlil edərək yazır: "Cəmaləddin Əfqani mütəfəkkir adam idi, «gəzgin filosof» adlanırdı və bütün şüurlu həyatını Şərq xalqlarının azadlığı uğrunda mübarizəyə sərf etmişdir. Mən burada «Şərq xalqlarını» ona görə ayrıca qeyd edirəm ki, əvvəla onun özü də bu termini işlətməkdən çəkinmirdi, burada şovinistlik, başqa xalqlara nifrət hissi yox idi. Sadəcə XIX əsrdə Şərq xalqları «mədəni» Avropanın yem bazasına çevrilmişdi və yer üzündə ən çox məşəqqətlərə düçar olan da bu xalqlar idi. Onları zülmdən, istismardan qurtarıb mədəni Avropa səviyyəsinə qaldırmaq, Avropada olduğu kimi Şərqdə də «Azadlıq, Bərabərlik, Qardaşlıq» prinsipləri üzərində bir «səadət sarayı» ucaltmaq Cəmaləddinin əsas idealı idi. Onun «panislamizm» adı ilə yaratdığı fikir cərəyanının demokratik xarakteri də bundan doğurdu".

Avropadan öyrənməyin zəruriliyini ilk dəfə geniş miqyasda meydana çıxaran və onu şərh etməyə çalışan Cəmaləddin Əfqani olmuşdur. O, Avropaya meyli İslami dəyərlər üzərində yüksəlməkdə görürdü və bunu mümkün hesab edirdi. Onun siyasi modelinə görə, Avropaya meyl həm Şərq ölkələrini Avropanın istismarından xilas edəcək, həm də Avropanın yeniliyini çəkib Şərqə gətirəcək, yerli xalqda milli şüuru, milli mənliyi yüksəldəcək.

C.Əfqani İslam ölkələrində demokratiyanın bərqərar olması məsələsinə olduqca nikbin və ümidlə baxırdı. O, İslam dini və İslam mədəniyyəti ilə Qərb demokratik dəyərlərinin nisbəti məsələsinə xüsusi diqqət yetirirdi.

Cəmaləddin Əfqaninin uzaqgörənliyinin bu cəhətini xüsusi vurğulayan M.Ə.Rəsulzadə yazırdı: “Panislamizmin liberal islahatçı cərəyanı özünün sonrakı təkamül prosesində müsəlman ziyalıları arasında milli-mədəni dünyagörüşün formalaşması üçün əslində çox əlverişli zəmin yaratdı. Məsələn, panislamizmin görkəmli ideoloqu məşhur C.Əfqani liberal-islahat tələb edənlərdən idi və müsəlman aləmində azadlıq üçün öncə milli şüurun oyanmasının zəruriliyini ilk dəfə o göstərmişdir”.

Panislamizmin demokratik ruhu haqqında Ş.Qurbanov yazır: “Panislamizmin demokratik cəhətləri çox idi, türkçülük də, turançılıq da, azərbaycançılıq da öz mənbəyini müəyyən dərəcədə həmin cərəyanın mütərəqqi qolundan götürmüşdür. Buna görə də panislamizmin banisi və ideoloqu Cəmaləddin Əfqanini Azərbaycanın ictimai fikrinin inkişaf tarixindən ayırmaq olmaz. Həm də ona görə ki, o, milliyyət etibarilə türk idi, xalis Azərbaycan türkü”.

Həbsi və ölümü özünə xoş hesab edən və özü kimilərinin azadlığı naminə öldürüləcəyini özünə şərəf hesab edən Şeyx bir şeydən daha çox təəssüfləndiyini bildirirdi. O, təəssüflənirdi ki, əkdiyi ideyaların məhsulunu biçə bilmədi, bəslədiyi arzularına çata bilmədi. Şeyx ürək ağrısı və can yanğısı ilə həbsxanadan göndərdiyi son məktubunda yazırdı ki, “Qəddarlıq qılıncı qoymadı ki, Şərq xalqlarının oyanmasını görəm. Cəhalətin mənfur əli imkan vermədi ki, xalqların «azadlıq» deyən səsini eşidəm”.

Şeyx son məktubunda arzularının həyata keçmədiyindən çox

təəssüfləndiyini və əməyinin hədər getdiyini bədbinliklə ifadə edirdi: "Kaş bütün fikirlərimin toxumlarını xalqın ağıl şırımlarına əkə biləydim. Yaxşı olardı ki, faydalı və məhsuldar toxumlarımı bu çürük səltənətin şoran torpağına səpməyəydim. Bu tarlada nə əkdimsə, hamısı puç oldu. Bütün cücərtilər zay çıxdı".

Ancaq, zaman göstərdi ki, Şərq xalqlarının oyanması arzusu ilə yaşayan Şeyxin əməyi hədər getmədi. Şeyxin səmərəli fikir toxumlarının heç də hamısı şoran torpaqlara düşüb puç olmadı. Onun münbit torpaqlara düşən fikir və ideya toxumları nəticəsində XX əsrdə Cənubi Azərbaycanda Səttar xan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri hərəkatı kimi milli-azadlıq hərəkatları baş verdi. Şərq xalqlarının oyanmasını görməyən Şeyx Əfqaninin şagirdləri və davamçıları olan Şimali Azərbaycanın milli liderlərinin – M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və s. ağıl şırımlarına əkdiyi azadlıq, istiqlal və demokratiya ilə bağlı fikir və ideya toxumlarının cücərtiləri nəticəsində 1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, 1991-ci ildə onun varisi olan müasir demokratik Azərbaycan Respublikası, 1923-cü ildə Türkiyə Cümhuriyyəti, 1950-ci ildə azad Hindistan, Pakistan və s. kimi müstəqil respublikalar yarandı.

Avropa müstəmləkəçiləri, İran, Türkiyə, Rusiya müstəbidləri Şeyx Cəmaləddin Əfqanini öz əqidəsindən, tutduğu doğru-düzgün yolundan döndərə bilmədilər. O, bu amal uğrunda ömrünün sonunadək mübarizə apararaq həyatını qurban verdi.

### 2.1.10. Həsən bəy Zərdabinin ictimai-siyasi baxışları

Azərbaycanın ictimai-siyasi fikir tarixində görkəmli yerlərdən birini böyük mütəfəkkir Həsən bəy Zərdabi (1837–1907) tutur. O, ilk təhsilini mədrəsədə almış, orada fars və ərəb dillərini öyrənmiş. Sonra Tiflis gimnaziyasını və Moskva Universitetini əla qiymətlərlə bitirmişdir. Onun 1860–1865-ci illərdə Universiteti bitirməsi haqqında aldığı attestatda deyilir: "Verilir, Əlahəzrət İmperatorun fərmanı ilə imperatorluğun Moskva Universiteti tərəfindən praporşik oğlu Həsən bəy Məlikova, ondan ötrü ki, o 1861-ci ilin

avqust ayında Tiflis gimnaziyasının tam kursunu bitirərək, imtahan vermədən həmin universitetin tələbələri sırasına daxil olmuş, orada əla davranışla Fizika-riyaziyyat fakültəsinin Təbii elmlər şöbəsi üzrə kursu Zaqafqaziya diyarının vəsaiti ilə bitirmişdir. Əldə etdiyi yüksək nailiyyətlərə görə o, cari iyun ayının 10-da Universitet Şurasının qərarı ilə namizəd dərəcəsinə təsdiq olunmuşdur".

Moskva Universitetinin tələbəsi olarkən Zərdabi Rusiyanın qabaqcıl ziyalıları ilə sıx əlaqə saxlayırdı. O, rus tarixçisi Sergey Mixayloviç Solovyovla (1820–1879) çox yaxın idi. Moskvadan Azərbaycana qayıdan Zərdabi dövlət qulluğuna işə düzəldi. Bu zaman Azərbaycan kəndliləri ikiqat zülm altında idilər: bir tərəfdən bəylərin və ağaların, digər tərəfdən isə çar müstəmləkəçilərinin. Ona görə də Zərdabi həm çar müstəmləkəçilərinə, həm də yerli bəylərin və ağaların zülmünə qarşı mübarizə aparırdı. Zərdabi dövlət qulluğunda işlədiyi üçün müdiriyyətin bütün tapşırıqlarını sözsüz yerinə yetirməli idi. Lakin o, bunu edə bilmirdi, çünki bütün bu tapşırıqlar onun arzularının tam əksinə idi. Müdiriyyətin tapşırıqlarını yerinə yetirmədiyinə görə Zərdabi dəfələrlə şiddətli töhmət almışdır. Yaranmış vəziyyət Zərdabini dövlət qulluğundan getməyə vadar etdi. O, deyirdi: "məndən məmur çıxmaz". Bu zaman dövlət təsisatlarında, o cümlədən inzibati və məhkəmə idarələrində dəyişikliklər edildi. Zərdabi islahat aparılmış Bakı quberniya idarəsində işə düzəldi. Quberniya idarəsinin səciyyəvi xüsusiyyətləri – süründürməçilik, bürokratizm, rüşvətxorluq Zərdabini hiddətləndirirdi. O, mövcud qaydalarla barışa bilmir, kəndliləri müdafiə edərək müdiriyyəti qınayırdı. Nəticədə Zərdabi quberniya idarəsindən qulluqdan getməli oldu.

Bu zaman çar hökuməti Qafqazda barışıq, dairə, ərazi məhkəmələrini təsis etdi. Zərdabinin azərbaycan və rus dillərini gözəl bildiyini və belə adamların tək-tək olduğunu nəzərə alaraq çar məmurları öz istəklərinin əksinə olaraq onu yeni yaradılmış məhkəmədə işə dəvət etməyə məcbur oldular. Zərdabi də fürsətdən istifadə edərək xalqa kömək etmək məqsədilə bu təklifi qəbul etdi və o, Quba şəhərində məhkəmə katibi vəzifəsinə təyin olundu. O, məhkəmədə işləyərkən qanunları izah və şərh edir və pulsuz ərizələr yazırdı.

Zərdabi təqiblərə baxmayaraq xalq kütlələri içərisində öz işini davam etdirirdi. Buna görə də o, Bakıya qayıtdıqdan sonra pedaqoji fəaliyyətlə məşğul olmağı qarşısına məqsəd qoydu. Bu zaman məktəblərdə azərbaycanlı şagirdlərin sayı çox az idi, həmçinin müsəlman ruhaniləri də uşaqların dünyəvi məktəblərdə təhsil almalarının əleyhinə çıxırdılar. O, əhali arasında təhsil və maariflə bağlı güclü təbliğat aparırdı. O, bir dəmirçinin oğlunu gimnaziyaya oxumağa göndərməsi ilə bağlı dilə tutmuş, uşağın atası şikayət edəndə ki, dərs ləvazimatı almaq çətindir, cavabında Həsən bəy ona demişdir: "öz zindan-çəkicini sat, ancaq oğlunu oxut".

Zərdabinin azərbaycanlı, rus, gürcü və digər millətlərdən olan şagirdlər arasında çox böyük hörməti var idi. Şagirdlər həmişə ona öz doğma ataları kimi baxırdılar. Zərdabi bütün çətinlikləri dəf edərək, 1872-ci ildə yoxsul şagirdlərə maddi yardım göstərmək və maarifi yaymaq məqsədilə xeyriyyə cəmiyyəti yaratdı. Zərdabi 1873-cü ildə öz şagirdləri, ilk növbədə Həsən bəy Vəzirovun köməyi və iştirakı ilə Mirzə Fətəli Axundovun məşhur "Hacı Qara" pyesini tamaşaya qoydu. Bununla da Zərdabi Azərbaycan teatrının əsasını qoydu. Tamaşa çox əla keçdi. Ondan yığılan vəsait ehtiyacı olan tələbələr arasında bölündü.

Köhnə və yeni dövrün mütərəqqi ənənələri əsasında tərbiyə almış H.Zərdabi yarım əsrlik bir dövr ərzində xalqın sosial və siyasi azadlığı uğrunda barışmaz mübarizə aparmışdır. Azərbaycan dilində çıxan ilk qəzet olan – "Əkinçi" qəzetinin yaradıcısı H.Zərdabinin ideyalarından mütərəqqi Azərbaycan ziyalılarının böyük bir dəstəsi vətənpərvərliyi, humanizmi və demokratizmi öyrənərək tərbiyə almışlar.

Zərdabi qeyd edirdi: hər bir xalqın inkişafı və maariflənməsi üçün elə bir qəzet lazımdır ki, onu kəndlilər də oxuya bilsin. Odur ki, o, Azərbaycan dilində "Əkinçi" adlı qəzetin nəşri üçün icazə istədi. Qafqaz Senzura Komitəsi Qafqaz canişini Baş İdarə rəisinə cavabında "Əkinçi" qəzetinin həqiqi məqsəd və vəzifələrinə şübhə ilə yanaşdığını ifadə edərək qeyd edirdi: "...Yalnız bir şərtlə ki, elmi məqalələr müstəsna olaraq əhalinin iqtisadi və ən yaxın məişət şəraitindən bəhs etsin və dəbdə olan siyasi görüşlərlə, yaxud müasir həyatın bütün quruluşunun müzakirəsi ilə doldurulmasın". Uzun sürən süründürməçilik və maneələrdən sonra "Əkinçi" qəzetinin

birinci nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxdı. Bununla da Azərbaycanda Milli Mətbuatının əsası qoyuldu. Bu münasibətlə H.Zərdabinin şagirdi olmuş yazıçı-dramaturq Nəcəf bəy Vəzirov və Abdullah ağa Bakıxanov onu təbrik etmişlər.

"Əkinçi" qəzetinin birinci nömrəsində H.Zərdabi onu rolunu, xalq arasında elm və mədəniyyəti təbliğ etmək işində ümumi şəkildə bir tribuna kimi səciyyələndirdi.

H.Zərdabi dəfələrlə demişdir ki, "Əkinçi" qəzetinin məqsədi xalqın gözünü açmaq, xalqı elm, mədəniyyət və maarif sahəsinə istiqamətləndirməkdən ibarətdir. "Əkinçi" müəllim deməkdir. O, yalnız xalqın xeyrini düşünür. "Əkinçi" qəzetinin nəinki Zaqafqaziyada, həmçinin Sibirdə, Volqaboyunda, Uralda, habelə xarici ölkələrdə abunəçiləri var idi.

"Əkinçi" qəzetinin tez bir zamanda hörmət və nüfuz qazanması çar müstəmləkəçilərini narahat etməyə başladı. H.Zərdabiyə qarşı təqib və təzyiqlər ara verilmədən gücləndirilirdi. Qəzetdə siyasi mövzularda məqalələrin nəşr olunması qəti olaraq qadağan edilmişdi. H.Zərdabinin bütün səylərinə baxmayaraq "Əkinçi" qəzetinin nəşri 1877-ci ilin sentyabr ayının 29-da dayandırıldı.

Doğma Zərdab kəndinə qayıdan Həsən bəy məktəb açmaq üçün pul topladı və kiçik bir məktəb açdı. Burada da Zərdabini yerli din xadimləri rahat buraxmırdılar. Ancaq Zərdabinin kənddə nüfuzu dayanmadan artırdı. Kəndlilərinin ağır vəziyyəti və istismar olunması H.Zərdabinin diqqət mərkəzində idi. Çar hakimiyyəti kəndlilərin torpağı becərməsinə heç bir qayğı göstərmirdi və kəndlilər üzərinə ağır vergilər qoyurdu. O, kənddə müəllimlik etməklə yanaşı, kəndliləri qarət edən çar məmurlarının özbaşınalıqları, qanunsuz hərəkətləri və rüşvərxorluqları ilə bağlı Bakı və Tiflis qəzetlərinə məqalələr göndərirdi. Zərdabi Kaspi qəzeti ilə daha çox əməkdaşlıq edirdi.

H.Zərdabinin müəllim-maarifçilikdən mütərəqqi siyasi mütəfəkkirliyə qədər keçdiyi yol XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi fikir tarixinin bir hissəsini təşkil edir.

H.Zərdabinin Azərbaycan xalqının mənəvi dirçəlişində rolu böyük olmuşdur. Onun bütün əsərlərində insanın insan tərəfindən istismarının olmadığı, demokratik özünüidarəetmənin təsdiq olduğu,

zülmün və milli hüquqsuzluğun olmadığı cəmiyyət haqqında ideya əsas bir xətlə keçir. Zərdabi əmin idi ki, yalnız maarifçilik xalqı dini fanatizmdən azad olmağa kömək edə bilər.

Zərdabinin böyük xidməti ondan ibarət idi ki, o, yeni kapitalist sisteminin yaranmasını və onun köhnə feodal-patriarxal quruluşla müqayisədə mütərəqqi əhəmiyyətini görürdü. Ancaq əhalinin vəziyyəti ağır olaraq qalırdı. Zərdabi göstərirdi ki, çar hökuməti Azərbaycanda xalqı istismar etmək siyasəti həyata keçirir, milli mədəniyyətin inkişafına mane olur. Hökumət idarələrində kargüzarlıq işləri, həmçinin məhkəmə işləri rus dilində aparılırdı, məktəblərdə ana dilində dərs aparılmasına imkan yaradılmırdı.

H.Zərdabi Azərbaycanın ictimai-siyasi fikir tarixinə parlaq və özünüməxsus bir mütəfəkkir kimi daxil olmuşdur. O, öz ideyalarının gücünə və ədalətli olmasına inanmış və ömrünün axırına qədər onlara sadiq qalmışdır.

Həsən bəy Zərdabi 1907-ci il noyabr ayının 18-də Bakı şəhərində vəfat etdi. Ölümündən əvvəl vəsiyyətnaməsində “mən öz həyat yoldaşıma vəsiyyət edirəm ki, … ehsan və dəfn xərcləri əvəzinə öz qərarı ilə xalq təhsilinin ehtiyaclarını ianə etsin” sözlərini yazmışdır.

Həsən bəy Zərdabinin ölümü haqqında təkcə Bakının deyil, eləcə də Qafqazın, Rusiyanın bir çox şəhərlərinin qəzetlərində məqalələr dərc olundu. Dərbənd şəhərində nəşr olunan “Dağıstan xəbərləri” qəzetində Zərdabinin ölümünə həsr olunmuş məqalədə deyilirdi: “Əlvida, Həsən bəy! Sən Zaqafqaziyada müsəlmanları oyadan ilk insan idin”.

## Mövzu üzrə mühazirə və seminar planı

1. XIX əsrdə ictimai-siyasi fikrin inkişafında maarifçiliyin rolu
2. XIX əsrdə Azərbaycanda maarifçiliyin meydana gəlməsini şərtləndirən ictimai–siyasi amillər
3. Mirzə Cəfər Topçubaşovun siyasi baxışları
4. Abbasqulu ağa Bakıxanovun ictimai-siyasi ideyaları
5. Mirzə Şəfi Vazehin əsərlərində dövrün ictimai-siyasi ideyaları və motivlərinin əks olunması
6. Mirzə Kazım bəyin XIX əsrdə Azərbaycanın ictimai-siyasi fikrinin inkişafında yeri

7. İsmayıl bəy Qutqaşınlının maarifçilik dünyagörüşü
8. Mirzə Fətəli Axundovun sosial-siyasi baxışları
9. Şeyx Cəmaləddin Əfqaninin maarifçilik və demokratik islahatçılıq fəaliyyəti
10. Həsən bəy Zərdabinin ictimai-siyasi baxışları

## 2.2. XIX əsrin sonları – XX əsrin əvvəllərində milli şüurun və millətin formalaşmasına mətbuatın təsiri

### 2.2.1. XIX əsrin sonları – XX əsrin əvvəllərində ictimai–siyasi fikrin formalaşmasında milli burjuaziyanın və ziyalıların rolu

XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi fıkrində yeni intibah dövrü başlandı. Rus çarizminin Şimali Azərbaycanda milli zülmü daha da gücləndirilməsi milli hərəkatın genişlənməsinə zəmin yaratdı. Azərbaycan milli azadlıq hərəkatı tarixi köklərə malikdir. Bu dövrdə Azərbaycan cəmiyyətinin feodalizmdən kapitalizmə keçid mərhələsinin və Azərbaycan türk millətinin formalaşması prosesinin başlanğıcı qoyulur.

Rusiya imperiyasının tarixin obyektiv gedişi qarşısında gücsüz olması nəticəsində XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın iqtisadi və ictimai–siyasi həyatında əsaslı kəmiyyət və keyfıyyət dəyişiklikləri baş verdi.

Azərbaycanda kapitalist münasibətlərinin bərqərar olması iqtisadi inkişafa səbəb oldu. Kapitalist sənayesinin inkişaf etməyə başladığı şəhərlərdə milli burjuaziyanın, milli ziyalıların, xalqın zəhmətkeş təbəqələrinin və təhsil alan gənclərin cəmlənməsi şəhərləri milli-azadlıq təşkilatlarının mərkəzinə çevirdi. Bakı şəhəri həm milli vətənpərvər qüvvələrin sıx toplaşdığı mərkəzə, həm də ruslaşdırma siyasətinin aparıldığı mərkəzə çevrildi. Beləliklə, Azərbaycan şəhərləri milli-azadlıq hərəkatının başlanmasında və milli şüurun oyanışında mühüm rol oynadı.

XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin sosial strukturunda əsaslı dəyişikliklər baş verdi.

Burjua cəmiyyəti üçün xarakterik olan siniflər və sosial qruplar – milli burjuaziya, ziyalılar və fəhlə sinfı meydana gəldi. Bu dövrdə Azərbaycan iqtisadiyyatında milli burjuaziya müəyyən mövqeyə malik idi.

Milli burjuaziyanın görkəmli nümayəndələri Hacı Zeynalabdin Tağıyev (1823–1924), Ağa Musa Nağıyev (1849–1919), Şəmsi Əsədullayev (1840–1913) və Murtuza Muxtarov (1855–1920) özlərinin maarifçilik və xeyriyyəçilik fəaliyyətləri ilə milli hərəkata yardım edirdilər.

Rus müstəmləkəçiləri tərəfindən milli və sosial zülmün gücləndirilməsi şəraitində Azərbaycantürk millətinin formalaşması prosesi özünəməxsus xarakterik xüsusiyyətlərə malik idi.

1905-ci ildən etibarən Azərbaycan ziyalıları Çar Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı mübarizəyə başladılar. Bu mübarizənin önündə Əlimərdan bəy Topçubaşov, Şəmsi Əsədullayev, Əhməd bəy Ağayev, Ədil xan Ziyadxanov, Əli bəy Hüseynzadə və digər Azərbaycan ziyalıları gedirdilər.

Artıq XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan milli ziyalıları formalaşmış və yetkinləşmişdir. Milli ziyalılar milli hərəkatın rəhbər və başlıca hərəkətverici qüvvəsinə çevrildilər. Onların sıralarından Azərbaycan milli hərəkatının görkəmli nümayəndələri, siyasi liderləri və ideoloqları çıxmışdır. Milli ziyalılar ictimai–siyasi fikrin formalaşması və milli mənlik şüurunun yetkinləşməsində milli hərəkatın taktika və strategiyalarının hazırlanmasında aparıcı rola malik olmuşlar.

XIX əsrin sonları – XX əsrin əvvəllərində yaranan və inkişaf edən yeni ideya cərəyanları – maarifçilik, liberalizm, milli–demokratizm, inqilabi–demokratizm, islamçılıq, türkçülük, turançılıq, romantizm və realizm kimi məfkurə və baxışlar milli mənlik şüurunun oyanmasına, milli–istiqlal ideyalarının formalaşmasına və milli hərəkatın inkişafına güclü təsir göstərdilər. XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən sosial–demokrat, bolşevik, daşnaksutyun, menşevik, kadet və s. partiyalar antimilli və antiazərbaycan siyasəti aparırdılar.

XIX əsrin sonları – XX əsrin əvvəllərində görkəmli alim, ədib, tənqidçi və publisist Firudin bəy Köçərlinin (1863–1920),

Azərbaycan dramaturgiyasının ən görkəmli simalarından Nəcəf Bəy Vəzirovun (1854–1926), Əbdürrəhim bəy Haqverdiyevin (1870–1933) və Nəriman Nərimanovun (1870–1925) əsərlərində mövcud ictimai–siyasi quruluşun naqisliyi, xurafat, nadanlıq tənqid olunur və maarifçilik təbliğ olunurdu.

Azərbaycanda romantizm ədəbi cərəyanın meydana gəlməsində bu cərəyanın görkəmli nümayəndələri – Hüseyn Caivdin (1882–1941), Məhəmməd Hadinin (1879–1920), Abdulla Şaiqin (1881–1959), Abbas Səhhətin (1874–1918) və Əhməd Cavadın (1892–1937) Azərbaycan türklərinin milli-azadlıq, mütərəqqi mədəniyyət mücadiləsində xalqın arzu və ideyalarının gerçəkləşdirilməsində misilsiz xidmətləri olmuşdur.

1875-ci ildə Həsən bəy Zərdabinin redaktorluğu ilə "Əkinçi", 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadənin redktorluğu ilə Tiflisdə "Ziya", 1880-ci ildə Şamaxıda "Ziyayi–Qafqaziyyə" adlı ictimai–siyasi qəzetlərinin, 1883-cü ildə Cəlal Ünsizadənin redaktorluğu ilə "Kəşkül" jurnalının, 1896-cı ildə Hacıbaba Mahmudbəyovun və Soltan Məcid Qənizadənin rəhbərliyi ilə Bakıda "Novbar" jurnalının, 1898-ci ildə Əlimərdan bəy Topçubaşovun redaktorluğu ilə "Kaspi" qəzetinin, 1903-cü ildə Tiflisdə Məmmədağa Şahtaxtinskinin redaktorluğu ilə "Şərqi – Rus" qəzetinin, 1905-ci ildə Əhməd bəy Ağaoğlunun redaktorluğu ilə "Həyat", "İrşad" qəzetlərinin, 1906-cı ildə Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunan "Füyuzat", 1906-cı ildə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə "Molla Nəsrəddin" jurnal və qəzetlərinin milli ictimai–siyasi fikir tarixində təkanverici xidmətləri olmuşdur.

### 2.2.2. "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarının milli–siyasi oyanışa təkanverici təsiri

İki yerə parçalanmış Azərbaycanın tarixi taleyi füyuzatçıların – Əlibəy Hyseynzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq, Əhməd Cavad və Cəfər Cabbarlının həmişə diqqət mərkəzində olmuşdur. "Füyuzat" jurnalında türkçülük, müasirlik və islamçılıq ideyaları irəli sürülmüşdür.

“Füyuzat” kəlməsi mənşəcə ərəb sözü olub lüğəti mənası həyat gerçəklərini duymaq, dərk etmək, onlardan həzz almaq, zövq almaq, feyz almaq, feyziyab olmaqdır. Jurnalın səhifələrində onun baş redaktoru Əlibəy Hüseynzadə ilə birgə Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səid Səlmasi, Abdulla Şaiq və Əhməd Kamal kimi onlarla müəllifin müxtəlif mövzulu yazıları dərc edilmişdir. Jurnal Azərbaycanda neoromantizm cərəyanını yaradan mətbuat orqanı kimi xarakterizə olunur. “Füyuzat”da Əlibəy Hüseynzadənin yazdığı məqalələrdən birində deyilirdi: “Bizə fədai lazımdır! Türk hissiyatlı, islam etiqadlı, Avropa (müasir) qiyafəli fədai!”. Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və “Tazə həyat”, “İrşad”, “Yeni Füyuzat”, “Həqiqət”, “Tərəqqi”, “İqbal”, “Sədayi–həqq”, “Şəlalə”, “Açıq söz”, “Bəsirət”, “Qurtuluş”, “Dirilik”, “Azərbaycan”, “Övraqi–nəfisə” və s. mətbuat orqanları tərəifndən “Türkləşmək, islamlaşmaq, müasirləşmək” azərbaycançılıq ideyası şəklində təbliğ olunurdu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya–mənəvi dəyərləri Əlibəy Hüseynzadənin həmin tezisi və füyuzatçıların tarixi xidmətləri ilə bağlı idi.

1906-cı ildən Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşrə başlayan “Molla Nəsrəddin” jurnalının milli-mənlik şüurunun formalaşmasına mütərəqqi təsiri və milli-demokratik ideyaların yayılmasında böyük xidmətləri olmuşdur. “Molla Nəsrəddin” jurnalı demokratik ideyaların və realist ədəbi cərəyanın mərkəzinə çevrildi. Realist ədəbi cərəyanın nümayəndələri – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Nəcəf bəy Vəzirov və Firudin bəy Köçərli Azərbaycan xalqının istiqlal mübarizəsinin önündə gedirdilər.

“Molla Nəsrəddin” jurnalı yarandığı gündən əsl xalq sənətkarlarını öz ətrafında birləşdirən mərkəzə çevrildi. Jurnalda “daimi yazıçı” kimi tanınan təxəllüslər – “Lağlağı”, “Molla Nəsrəddin”, “Cırcırama”, “Mozalan”, “Dəli”, “Hərdəmxəyal”, “Hop–hop”, “Sijimqulu”, “Kefsiz”, “Xortdan”, “Dabanıçatdaq xala”, “Cüvəllağı” və b. fəaliyyət göstərirdilər. Bu imzalarla Cəlil

Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar və b. “Molla Nəsrəddin” ədəbi məktəbinin görkəmli nümayəndələri yazıb-yaratmışlar. Jurnalın ideya–siyasi məzmununun zənginləşməsində nəzərə çarpacaq dərəcədə xidmətləri olan Ömər Faiq Nemanzadə, Qurbanəli Şərifov, Məşədi Həbib Zeynalov, Əli Məhzun Rəhimov, Müseyri, Salman Mümtaz, Firudin bəy Köçərli və Mirzə Məhəmməd Axundovun xidmətləri daha böyük olmuşdur.

“Molla Nəsrəddin” həm milli tarixin konkret dövrunün ensiklopediyası rolunu oynamış, həm də təcrübə məktəbi kimi müstəsna əhəmiyyət daşımışdır. “Molla Nəsrəddin”in meydana çıxması ilə Azərbaycan ictimai–mədəni həyatında islahatçılıq hərəkatı güclənmiş, milli gerçəklikdə özünüdərk, özünütəhlil, özünütəşkil və özünütəsdiq işinə geniş meydan açılmışdır. Molla Nəsrəddinçilər yeni satira ədəbi məktəbi əsasında xalqın mədəni tərəqqi konsepsiyasını formalaşdırmış, milli maarifçilik əsasında realizm cərəyanını populyarlaşdırmış, azadlıq, inqilabi–demokratiya, bərabərlik (müsavat), dövlət suverenliyi və vətən bütövlüyü kimi ideyaları gerçək həyatda reallaşmasına xüsusi önəm vermişlər. Bu və digər ictimai–tarixi, elmi–nəzəri və ədəbi–mədəni problemlərə islahatçı münasibətinə görə “Molla Nəsrəddin”in xüsusi xidmətləri olmuşdur.

XX əsrin əvvəllərində ictimai–mədəni xidmət arenasına çıxan “Füyuzat” və “Molla Nəsrəddin” ədəbi məktəbləri ədəbi–mədəni intibah tariximiz üçün paralel (romantik və satirik) istiqamətli milli mədəniyyət nümunəsi və Azərbaycanda dünya standartlarına cavab verən bədii sənət yaddaşıdır. Sovet dövründə bir milli mədəniyyətin iki müxtəlif tərəfini təmsil edən “Füyuzat” və “Molla Nəsrəddin” jurnalları yanlış olaraq və qəsdən barışmaz tərəflər kimi qələmə verilmişdir.

“Füyuzat”la “Molla Nəsrəddin” arasında olan bədii–estetik qarşıdurma, bəzi hallarda isə ziddiyyətlər radikal düşmənçilik xarakteri daşımır, tərəflər arasında təsir və əks-təsir mahiyyəti ilə səciyyələnirdi. Bu təsir bəzən ciddi ziddiyyət daşısa da, bütövlükdə Azərbaycanın ədəbi–mədəni inkişafının məntiqini şərtləndirirdi.

Daha doğrusu, tərəflər arasında əksliklərin vəhdəti və ziddiyyəti həm milli, ictimai, həm də ədəbi–bədii inkişafın dialektikasını təmin edirdi. Bunun nəticəsidir ki, təkamülçü – demokrat Əlibəy Hüseynzadənin rəhbərlik etdyi "Füyuzat" ədəbi məktəbi Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqalarını öz ətrafına toplamışdır. İnqilabçı – demokrat Cəlil Məmmədquluzadənin rəhbərlik etdiyi "Molla Nəsrəddin" ədəbi məktəbi isə Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Əli Razi Şamçızadə, Bayraməli Abbaszadə (Hambal), Əli Məhzun Rəhimov və başqalarına meydan açmışdır.

"Füyuzat" jurnalında formalaşan orijinal ədəbi axtarış meyili, elmi–nəzəri və estetik prinsiplər sonrakı illərdə daha geniş və çoxplanlı şəkildə inkişaf etdirilirdi. "Füyuzat"çı ədəbi–bədii konsepsiya təkcə həmin jurnalda çıxış edən müəlliflər tərəfindən deyil, ədəbiyyat səhnəsinə gələn gənclər tərəfindən də yeni mətbuat orqanlarının səhifələrində davam etdirilirdi. Bu zaman sənət və ictimai həyat, sənət və sənətkar azadlığı, bədii təfəkkürün nəzəri əsasları, din və onun mahiyyəti, qadının ictimai həyatda yeri, mətbuat, maarif və mədəni tərəqqi məsələləri, milli dil, ədəbi janrlar, inqilabi gerçəklik, bədii tərcümə, klassik irsin öyrənilməsi və s. məsələlər füyuzatçılar tərəfindən daha çox qabardılır, elmi ictimaiyyətin diqqəti belə məsələlərin həllinə yönəldilirdi.

## Mövzu üzrə mühazirə və seminar planı

1. XIX əsrin sonları – XX əsrin əvvəllərində milli şüurun və millətin formalaşmasına mətbuatın təsiri
2. XIX əsrin sonları – XX əsrin əvvəllərində ictimai–siyasi fikrin formalaşmasında milli burjuaziyanın və ziyalıların rolu
3. "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarının milli–siyasi oyanışa təkanverici təsiri

## 2.3. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi fikrinə türkçülük və islamçılıq ideyalarının təsiri

XIX əsrin sonları – XX əsrin əvvəllərində türkçülük ideyası Azərbaycanda geniş yayılmış və ictimai–siyasi hərəkatın ana xəttini təşkil etmişdir. Türkçülük həmçinin, milli şüurun və millətin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. İslamçılıq və türkçülük ideyaları milli liderlər Məhəmməd Əmin Rəsulzadənin, Əlibəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Əlimərdan bəy Topçubaşovun, Ceyhun Hacıbəylinin və Mirzə Bala Məmmədzadənin ictimai–siyasi baxışlarının əsasını təşkil etmişdir.

Əlibəy Hüseynzadənin ilk irihəcmli "Türklər kimdir və kimlərdən ibarətdir?" əsəri 1905-ci ildə "Həyat" qəzetində (№ 4, 9, 16, 22, 35, 52, 81, 82) silsilə şəkildə nəşr edilmişdir. Ə.Hüseynzadə bu əsərinə və türkluyün tarixi həqiqətləri ilə bağlı digər əsərlərinə görə uzun müddət sovet ideoloqları tərəfindən pantürkist, milliyyətçi, turançı, irqçi, mürtəce və s. bu kimi damğalarla milli və elmi düşüncə dövriyyəsindən kənarlaşdırılmışdır.

XIX əsrin birinci yarısından etibarən milli özünüdərk prosesinə qoşulan bir sıra xalqlar kimi, azərbaycanlılar da "Biz kimik?" sualına cavab axtarımış, ona verilən "tatar", "müsəlman" adının ümumiliyi içərisində özünün yerini müəyyənləşdirməyə çalışmışdır. Ə.Hüseynzadədən öncə bu məsələyə bir çox Azərbaycan ziyalıları, o cümlədən Mirzə Fətəli Axundov, Axund Əhməd Səlyani, Həsən bəy Zərdabi və "Əkinçi"lər, Məhəmməd Ağa Şaxtaxtlı, Səid Ünsizadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov və digərləri öz əsərlərində toxunmuşlar.

Ə.Hüseynzadənin babası, Qafqazın şeyxülislamı Axund Əhməd Səlyani özünün "Tarixi–ədəbiyyati–türki" adlı araşdırmasında dünya türklərinin tarixinə ilk konseptual baxış nümayiş etdirmişdir, "türk əqvamının başlıcaları" sırasında yakut, sibir, altay, telaut türklərini göstərir, tu–ku–yelər, Orxon–Yenisey abidələri, taciklər, uyğurlar, cığataylar və s. barədə danışır, "Qutadqu bilik", "Seracnamə", "Təzkirətül övliya", "Bəxtiyarnamə", "Baburnamə", "Tarixi güzidə", "Şeybaniyət" və digərləri haqqında qısa məlumat vermişdir.

Bu dövrdə islamçılıq başlıca ictimai–siyasi cərəyanlardan biri idi. Şeyx Cəmalləddin Əfqani panislamizm ideologiyasını yaradaraq İslam dinini əsl mahiyyətinə qaytarmaq istəyirdi. Azərbaycanda islamçılığın xarakterik xüsusiyyətləri və istiqamətləri mövcud idi. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan ictimai–siyasi fikrinə İslam ideologiyası təsir göstərirdi. Azərbaycanın ictimai–siyasi və fəlsəfi fikir tarixində əzəmətli yer tutan, görkəmli xadimlər və Azərbaycan milli hərəkatının liderləri Məhəmməd Əmin Rəsulzadənin, Əhməd bəy Ağaoğlu və Əlibəy Hüseynzadənin islamçılığın inkişafında xüsusi xidmətləri olmuşdur.

### 2.3.1. Əlibəy Hüseynzadənin ictimai-siyasi baxışlarında türkçülük, islamçılıq və müasirlik

Əlibəy Hüseynzadə (1864–1940) İslam dinini milli tərəqqinin mənəvi əsası hesab edirdi. Azərbaycanın ictimai-siyasi inkişafı tarixində əhəmiyyətli yer tutan Əlibəy Hüseynzadə eyni zamanda Şərq və Qərb dəyərlərinə dərindən bələd olan görkəmli mütəfəkkir, istedadlı nasir, şair, rəssam, tərcüməçi, publisist, musiqişünas, tənqidçi kimi tanınır. O, dövrünün məşhur redaktor və müəllimi kimi də böyük rəğbət qazanmış, ictimai-siyasi həyatda və milli şüurda islahatların aparılmasında fəaliyyət göstərmiş şəxsiyyətdir.

1875–1885-ci illərdə Tiflis gimnaziyasında oxuyan Əlibəy rus, fars və ərəb dillərini öyrənməyə başlayır. Gimnaziyanı bitirdikdən sonra Sankt–Peterburq Universitetinin fizika və təbiət fakültəsinə daxil olan Ə.Hüseynzadə 1889-cu ildə oranı uğurla bitirərək İstanbula gəlir. Rusiyada aldığı təhsilinin tanınmaması səbəbindən o, yenidən imtahanları verərək İstanbul Əsgəri-Tibbiyəsinə (1890–1895) daxil olur. Oranı hərbi həkim, yüzbaşı rütbəsilə bitirir. İstanbuldakı tələbəlik həyatında da Ə.Hüseynzadəni romantik inqilabi ruh müşayiət edir. O, həmin dövrün tənzimatçı gənc türkləri ilə yaxından dostluq edır, "İttihat və Tərəqqi" partiyasının ilk yaradıcılarından biri olur.

İstanbulda tələbə ikən siyasi problemlərə ardıcıl maraq göstərən Ə.Hüseynzadə milli-etnik dəyərlərə dair fikirləri ilə də

tələbə mühitində böyük rəğbət qazanır, ümumtürk dünyasının Turan idealını formalaşdırmaq yolunda ilk addımlarını atır. Ə.Hüseynzadənin bu illərdəki fəaliyyətində əsas istiqamət ümumtürk maarifçiliyi və milli-etnik türkçülükdür. O, türk millətinin özünü və dünyanı dərk etməsinə çalışır, "üsuli-cədid" məktəblərinin köməyilə türk dünyasının təcəddüd (yeniləşmə) yoluna çıxacağına inanırdı.

1903-cü ilin axırlarında Azərbaycana qayıdan Ə.Hüseynzadə 1904-cü ildən etibarən Bakıda rus dilində nəşr olunan "Kaspi" qəzetində məqalələrlə çıxış edir. İstər rusdilli, istərsə də anadilli məqalələrində Ə.Hüseynzadə "gənc türkçülük nədir?" sualına geniş cavab verməyə çalışır, Azərbaycanda təcəddüd hərəkatının lideri kimi tanınmağa başlayır, yeni məktəb və təhsil sistemi, çağdaş səhiyyə, müasir milli mədəniyyət uğrunda mübarizənin alovlu təəssübkeşi kimi böyük rəğbət qazanır.

Şərq siyasətində Yaponiyaya uduzan çar Rusiyası Port-Arturda, Susima ətrafındakı döyüşdəki məğlubiyyətdən sonra 1904-cü ildə Port-Smut sülhünə razı oldu. Bunun nəticəsində Rusiya imperiyasında tətillər, nümayişlər, üsyanlar, konstitusiya, müstəqillik tələbləri artmağa başladı.

1905-ci ildə Azərbaycanın adından Peterburqa göndərilən on nəfərlik nümayəndə heyətinin tərkibində Əhməd bəy Ağaoğlu, Adil xan Ziyadxan, Əlimərdan bəy Topçubaşov, Fərrux bəy Vəzirov və başqaları ilə birlikdə Ə.Hüseynzadə də var idi. Nümayəndə heyəti general Trepovun maneələrinə baxmayaraq tələbnamələrində cüzi dəyişikliklər edərək onu "Baş vəkil Vitteyə qəbul etdirə" bilmiş və az sonra Qafqaza yeni təyin olunan canişin Qraf Vorontsov–Daşkovla goruşərək "Rusiya müsəlmanlarının ilk qövmi qəzetçisi olmaq üzrə «Həyat» (1905–1906) adlı gündəlik anadilli qəzetin Bakıda nəşrinə icazə ala bilmişdilər. Əhməd bəy Ağaoğlu və Əlibəy Hüseynzadə "Həyat" qəzetini 102-ci nömrəsinə qədər birlikdə idarə etmişlər. Sonra Ə.Hüseynzadə "Həyat" qəzetinin, Ə.Ağaoğlu isə "İrsad" qəzetinin nəşri ilə məşğul olmuşlar. Cəmi 325 sayı dərc olunan "Həyat" qəzeti bağlandıqdan sonra Ə.Huseynzadə "Füyuzat" jurnalının nəşrinə (1 noyabr 1906) nail olur, onun müdiri və baş redaktoru kimi fəaliyyətə başlayır. Jurnal 32 sayı dərc olunduqdan

sonra (1 noyabr 1907) bağlanır və Ə.Hüseynzadə "Kaspi" qəzetinın baş redaktoru (1907) vəzifəsini icra etməyə başlayır. Çünki qəzetin redaktoru Ə.Topçubaşov Birinci Dövlət Dumasının dağılmasına görə bir çox müasirləri ilə birlikdə Rusiya müsəlmanları və kadetlər partiyasının nümayəndəsi kimi Finlandiyada "Vıborq bəyənnaməsi"ni imzalamış və buna görə də həbs edilərək qəzetçilik haqqından da məhrum edilmişdi.

Bakıda uzun müddət yaşamayan Ə.Hüseynzadə 1910-cu ildəTürkiyəyə getdikdən sonra İstanbulun qaynar həyatına qoşulur, "Türk ocağı" cəmiyyəti üzvləri ilə yaxından əlaqə saxlayır, onların nəşr etdirdiyi "Türk yurdu" jurnalında məqalələrlə çıxış edir.

Ə.Hüseynzadə Türkiyəyə mühacirətindən sonra Azərbaycana iki dəfə gəlib. Birinci dəfə o, çar Rusiyasının süqutu və Azərbaycanın müstəqillik əldə edərək sərbəst siyasət yürütdüyü vaxt vətənə gəlib. İkinci gəlişi isə Birinci Beynəlxalq Türkoloji qurultayda (26 fevral – 6 mart 1926) iştirakı ilə bağlıdır. Bu gəliş Ə.Hüseynzadənin böyük alimlər, ictimai xadimlər və türkoloqlarla birgə fəaliyyətinin beynəlxalq səviyyəsinə aydınlıq gətirmək baxımından son dərəcədə əhəmiyyətlidir. Dünya türkoloqlarının toplandığı bu məclisdə Əlibəy Hüseynzadə, tənqidçi-ədəbiyyatşünas Mustafa Quliyev (1893–1938), alman türkoloqu Villi Banq (1869–1934), rus və sovet şərqşünası, akademik Nikolay Yakovleviç Marr (1865–1934), rus inqilabçısı, sovet dövlət xadimi, yazıçı və publisist Anatoli Vasilyeviç Lunaçarski (1875–1933) və danimarkalı tarixçi və türkoloq Vilhelm Tomsenlə (1842–1927) birgə qurultayın fəxri rəyasət heyətinə üzv seçilir, "Qərbin iki dastanında türk" mövzusunda məruzə edir. Bu gəlişi zamanı Ə.Hüseynzadə M.Quliyevlə birlikdə Gəncədə də olur, şəhər ziyalıları ilə görüşür və onların qarşısında çıxış edir.

Ə.Hüseynzadə Türkiyəyə qayıtdıqdan sonra ömrünün axırınadək İstanbul Universitetinin professoru kimi çalışmış, tibbə dair "Eksiklopedik tibb lüğəti" (professor Kamal Cənabla birlikdə) əsərlərini, tərcümə, şeir və məqalələrini yazıb dərc etdirmişdir. Ədəbiyyata bağlı işıqlı bir ömür yaşayan Ə.Hüseynzadə İohan Volfqanq Hötenin vəfatının 100 illiyi münasibətilə nəşr etdirdıyi "Faust"dan bir parçanın tərcüməsi ilə əlaqədar türk şairi Əbdülhaq

Hamidin (1852–1937) əməyini ömrü boyu xoş xatirə kimi yad edib. Bu barədə özü deyirdi: "Böyük ozanımız Ə.Hamid Tarhan göndərdiyi bir məktubda bu tərcüməni belə təqdir etmişdi: «Əsli nəfis olan bu əsərin tərcüməsi də ənfəs olmuş hikmətı-ədəbiyyəniz şayani-təbrikdir»".

Ümumtürk coğrafiyasında ortaq dəyərlərin mühafizəsinə, zənginləşdirilməsinə çalışan Əlibəy Hüseynzadə 1940-cı ildə İstanbulda vəfat edib.

## 2.3.2. Əhməd bəy Ağayevin (Ağaoğlu) ictimai-siyasi baxışları

Əhməd bəy Həsən bəy oğlu Ağaoğlu (1869–1939) zəngin yaradıcılığı, fenomenal şəxsiyyəti ilə yalnız Azərbaycanın deyil, ümumrusiya ərazisində, türk və İslam dünyasında əhəmiyyətli yer tutan görkəmli mütəfəkkir kimi tanınmışdır. O, vətəninə, xalqına və mənsub olduğu milli mədəniyyətə xidmət edən tarixi şəxsiyyət kimi Azərbaycanın ictimai-siyasi fikri, ədəbiyyatı, mədəniyyəti tarixində islahatçı, siyasətçi və nəzəriyyəçi-ideoloq kimi tanınmışdır.

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Atasının və əmisi Mirzə Məhəmmədin ərəb, fars və rus dillərini bilməsi onun ailəsinin öz dövrünə görə mükəmməl ziyalı ailəsi olduğunu təsdiqləyir. Anası Qarabağ köçəriləri içərisində məşhur olan Sarıcıalı ailəsindən Rəfi bəyin qızı Tazə xanım dövrünün savadlı qadınlarından olub.

Elmə, təhsilə böyük rəğbət göstərən bir ailədə yetişdiyi üçün Əhməd bəy yüksək təhsil ala bilir. Əvvəlcə Şuşa gimnaziyasında ilk təhsilini alır, sonra isə orta məktəb təhsilini Tiflis şəhərində davam etdirir. Bu zaman Tiflis şəhəri çar Rusiyası Qafqaz canişinliyinin mərkəzi kimi məşhur idi və siyasi, elmi-mədəni mərkəz olaraq tanınırdı. Burada mətbuatın olması, gizli siyasi təşkilatların fəaliyyəti Əhməd bəy Ağaoğlunun da dünyagörüşündə azadlıq və müstəqillik rüşeymlərini cücərtməyə başlayır.

1905–1907-ci illərin hadisələri bütün ölkə həyatında dəyişikliklərə səbəb olduğu kimi Ə.Ağaoğlunun da tərcümeyi-halına ciddi təsir göstərmişdir. Xüsusilə, 1905-ci il 17 oktyabr manifestinin

söz, mətbuat və vicdan azadlığına meydan açması Ə.Ağaoğlunun çoxillik arzuları ilə üst-üstə düşdü. 1905-ci ilin əvvəllərindən ölkədə başlayan mitinq, üsyan və ictimai-siyasi etiraz dalğaları gücləndi, "xalqlar həbsxanası" olan Rusiya imperatorluğunda islahatların həyata keçirilməsi sürətləndi. Belə bir vaxtda Ə.Ağaoğlu görkəmli mütəfəkkir Əlibəy Hüseynzadə ilə birlikdə, H.Z.Tağıyevin maddi yardımı ilə "Həyat" qəzetinin nəşrinə (1905-ci il 7 iyun) başlayır.

Bu dövrdə erməni-daşnak birləşmələri bolşeviklərlə birlikdə Azərbaycanı təhdid edərək, tanınmış şəxsiyyətlərə qarşı sui-qəsdlər törətməyə başladılar. 1906-cı ildə Ə.Ağaoğlunun yaratdığı "Difai" partiyası erməni-daşnaklarının törətdiyi sui-qəsdlərin qarşısını aldı.

Ə.Ağaoğlu Azərbaycan cəmiyyətinin möhkəmlənməsi üçün ictimai-siyasi və ədəbi-mədəni tədbirlərdə tez-tez iştirak edərək, "Cəmiyyəti-xeyriyyə", "Nicat", "Nəşri-maarif", "Səadət", "İttihad" kimi təşkilatların yaranması və fəaliyyətinə yaxından kömək göstərirdi. Yeni məktəblər, qiraətxanalar, teatr, kitabxana və s. açılmasında fəallıq göstərən Ə.Ağaoğlu "Həyat" qəzetinin 102-ci nömrəsindən sonra redaksiyadan ayrılır və 17 dekabr 1905-ci ildən etibarən Bakıda gündəlik çıxan ədəbi, elmi, iqtisadi və ictimai-siyasi qəzet olan "İrşad"ın nəşrinə başlayır. Qəzet "Hürriyyət, Müsavat, Ədalət" şüarı ilə nəşr olunur və öz ətrafında dövrün ən məşhur ziyalılarını, o cümlədən Əlibəy Hüseynzadə, Məhəmməd Hadi, Ömər Faik Nemanzadə, Soltan Məcid Qənizadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Nəriman Nərimanov, Abdulla Sur, Firudin bəy Köçərli, Abbas Səhhət, Abdulla Şaiq, Nəcəf bəy Vəzirov və başqalarını birləşdirirdi.

Ə.Ağaoğlu Türkiyənin də ictimai-siyasi həyatında fəal olmuşdur. O, Türkiyə sərhədlərindən kənarda yaşayan türklərin haqq və hüquqları uğrunda mübarizə aparan bir şəxsiyyət kimi tanınmışdı. Anadoluya gələndən sonra Ə.Ağaoğlu "Xalqa doğru", "Siratül-müstəqim", "Səbilülrəşad", "Hikmət", "Türk yurdu" və s. mətbuat orqanlarında çoxsaylı məqalələr yazır, ictimai-siyasi və mədəni tədbirlərin təşkilində iştirak edirdi. Burada 1911-ci ildə o, Türk Yurdu Cəmiyyətinin qurucularından biri kimi cəmiyyətin ideoloqları sırasında fəxri yer tutur. Ə.Ağaoğlu Türkiyədə Əhməd Rza, Yusif Akçura, Ziya Göyalp, Mehmet Akif Ərsoy, Mehmet

Emin Yurdaqul, Həmdullah Sübhi, Əhməd Naim Babanzadə, Süleyman Nazif kimi tanınmış şəxsiyyətlərlə fikir mübadiləsi aparmış və müzakirələrdə iştirak etmişdir.

Ə.Ağaoğlu 1915-ci ildə çar Rusiyasının milli azlıqları tərəfindən Lozannada keçirilən beynəlxalq konfransda Azərbaycan nümayəndəsi kimi çıxış edərək, antiimperialist fikirlər söyləmişdir. O, 1917-ci ildə Rusiya türklərinin ağır vəziyyəti barədə ABŞ prezidenti Vidro Vilsona təqdim edilən sənədi imzalayanlardan biri olmuşdur.

Görkəmli mütəfəkkir və ictimai-siyasi xadim Ə.Ağaoğlu 1918-ci ildə "Gənc Türklər" tərəfindən Azərbaycana göndərilən Qafqaz-İslam ordusunun siyasi müşaviri kimi Bakıya gəlir, vətənini erməni-daşnak və bolşevik birləşmələrindən azad edilməsində iştirak etmişdir. Həmin zaman o, Gəncədə olarkən "Türk sözü" qəzetinin iki nömrəsini nəşr etdirmişdir. 1918-ci ildə Ə.Ağaoğlu Azərbaycan Milli Məclisinə üzv seçilir və Ənzəlidəki ingilis qoşunlarının rəhbərliyi ilə danışıq aparan qrupa başçılıq edir.

Ə.Ağaoğlu 1919-cu ildə Paris Sülh konfransına getmək üçün Türkiyəyə qayıdır və bu zaman ingilislərin İstanbuldakı işğal qüvvələri tərəfindən həbs edilir və "İttihad və Tərəqqi" partiyasının liderləri ilə birgə Malta adasına sürgünə göndərilir. Ədib özünün məşhur "Üç mədəniyyət" əsərini burada yazmışdır. Ə.Ağaoğlu azadlıq uğrunda mübarizə xatirələrini, N.Nərimanova, oğlu Səmədə və qızı Sürəyyaya dərin ictimai-siyasi məzmun daşıyan məktublarını da bu dövrdə yazmışdır.

Malta adasından İstanbula qayıdan Ə.Ağaoğlu bir müddət sonra Şimal-Şərqi Anadolu ərazisində Ankara Milli Hökumətinin dəstəyi ilə "İrşad heyətlərinə" qoşulur və Qarsda Mətbuat-Çap Baş İdarəsinə müdir təyin edilir, sonra isə Ankaraya çağrılır. Beləliklə, Mustafa Kamal Atatürk və onun silahdaşları ilə bir sırada olan Ə.Ağaoğlu Türkiyə Milli Mübarizəsi və Qurtuluş Savaşının liderlərinin yanında yer tutur. Ə.Ağaoğlu bu illərdə "Hakimiyyəti-milliyyə" qəzetinin baş redaktoru işləyir. O dövrdə onun bir-birinin ardınca "Üç mədəniyyət", "İslamiyyətdə qadın", "İngiltərə və Hindistan", "Sərbəst insanlar ölkəsində", "Sərbəst firqə xatirələri", "Könülsüz olmaz", "1500 ilə 1900 arasında İran", "Mən kiməm?",

“Altmış yeddi il sonra”, “Etrüsk mədəniyyəti və bunların Roma mədəniyyəti üzərinə təsiri”, “Hüquq tarixi”, “Dövlət və fərd”, “İran və İnqilabı”, “İxtilalmı, inqilabmı?” və s. bu kimi kitabları nəşr olunur, tərcümə materialları, çoxsaylı publisistik yazıları işıq üzü görür.

Ə.Ağaoğlu Qurtuluş Savaşından sonra iki dəfə Qarsdan Millət vəkili seçilir, Ankara Universitetinin hüquq fakültəsində konstitusiya fənni üzrə professor olur. M.K.Atatürkün istəyi və Əli Fəthi bəy Okyarın rəhbərliyi ilə Sərbəst Cümhuriyyət Firqəsinin qurulmasında iştirak edir və “Axın” qəzetinin baş yazarı kimi fəaliyyət göstərir.

Əhməd bəy Ağaoğlu 19 may 1939-cu ildə İstanbulda vəfat etmişdir.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi fikrinə türkçülük və islamçılıq ideyalarının təsiri
2. Əli bəy Hüseynzadənin ictimai-siyasi baxışlarında türkçülük, islamçılıq və müasirlik
3. Əhməd bəy Ağayevin (Ağaoğlu) ictimai-siyasi baxışları

## 2.4. XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə şəraitində və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir

### 2.4.1. XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai təşkilatların və siyasi partiyaların formalaşması

“Kürəkçay” (1804), “Gülüstan” (1813) və “Türkmənçay” (1828) müqavilələrinin imzalanması ilə xanlıqlar dövrünün ictimai-siyasi gərginliyini yaşayan Azərbaycan ikiyə bölündü. “Əkinçi”, “Ziya”, “Ziyayi-Qafqaziyyə” və “Kəşkül” kimi mətbuat orqanlarında çıxış edən ziyalılar xalqın və vətənin bütövlüyü, milli

kimlik problemlərini diqqət mərkəzində saxlayırdılar. Bu dövrdə qərbçilik, islamçılıq, türkçülük, turançılıq kimi ideyalar yaranırdı.

XX əsrin əvvəllərində mədəni-maarif ocaqlarının, müsəlman xeyriyyə cəmiyyətlərinin, müsəlman qadın və tələbə gənclər cəmiyyətlərinin Şimali Azərbaycanda ictimai-siyasi hərəkatın təşkilatlanmasında böyük rolu oldu.

1906-cı ildə Yelizavetpolda (Gəncə) Ələkbər bəy Rəfibəyovun rəhbərliyi ilə Azərbaycan mülkədar və burjuaziyasının yaratdığı "Qeyrət", 1906-cı ildə Əhməd bəy Ağaoğlu tərəfindən əsası qoyulan "Difai", 1907-ci ildə Ağabəy Qiyasbəyov, Hacı Kərim Saniyev, Əlibəy Xəlilbəyov, İbrahim bəy Vəkilov və İsmayıl xan Ziyadxanov tərəfindən "Müdafiə", 1911-ci ildə isə Tağı Nağıyev, Məhəmmədəli Rəsulzadə və Abbasqulu Kazımzadə tərəfindən "Müsavat" partiyaları yaradıldı. Bu partiyaların ətrafında toplaşan görkəmli ziyalılar XX əsrin əvvəllərində Azərbaycanın milli–azadlıq və ictimai–siyasi hərəkata rəhbərlik edirdilər.

"Müsavat" partiyasının yaranması ilə Azərbaycan milli hərəkatın yeni mərhələsinə qədəm qoydu. "Müsavat" partiyası ictimai–siyasi fəaliyyəti ilə milli ideologiyanın formalaşması və milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizəyə başladı. Bununla da "Müsavat" partiyası millətçiliyi, türkçülüyü, istiqlalçılığı, xalqçılığı, cümhuriyyətçiliyi, vətənçiliyi, azərbaycançılığı, milli dövlətçiliyi və inqilabçılığı ilə bütün İslam Şərqində ilk təşəkkül tapan Avropa tipli bir partiyaya çevrildi.

1917-ci il iyunun ikinci yarısında "Müsavat" partiyası ilə əsası 1917-ci ildə Gəncədə Nəsib bəy Yusifbəyli tərəifndən qoyulmuş "Türk ədəmi–mərkəziyyət" partiyası birləşərək "Türk ədəmi–mərkəziyyət partiyası Müsavat" adı altında fəaliyyətə başladı.

"Müsavat" partiyası türk və islam həmrəyliyinə istinad edərək Azərbaycanın milli müstəqilliyi uğrunda ardıcıl mübarizə aparırdı. Azərbaycançılıq ideyası "Müsavat" partiyasının başlıca prinsipi idi. Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Əhməd bəy Ağaoğlu və general Həbib bəy Səlimov ictimai–siyasi fəaliyyətləri ilə Azərbaycanın istiqlalı uğrunda milli hərəkata liderlik edirdilər.

XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi mühiti çoxpartiyalı sistemi ilə diqqəti cəlb edir, müxtəlif təyinatlı xeyriyyə cəmiyyətlərinin fəaliyyəti maraq doğurur, ən vacibi isə ictimai–siyasi münasibətlərlə sinfi–silki fərqlər əsas götürülür, kapitalizm dünyasının ziddiyyətlərindən yaranan burjua–mülkədar hökmranlığı, fəhlə–kəndli məzlumluğu cəmiyyətin əsas mənzərələrini, ictimai–tarixi lövhələrini meydana çıxarırdı.

1917-ci ilə qədər çar Rusiyası ərazisindəki 53 müxtəlif yönlü siyasi partiya və ictimai təşkilatlardan 22-si Azərbaycanda fəaliyyət göstərirdi. Rusiya, İran və Türkiyədəki ictimai–siyasi hadisələri ardıcıl izləyən və analitik münasibət göstərən bu partiya və təşkilatlar anarxist, monarxist, bolşevik, menşevik, eser, kadet və s. xətti-hərəkatını yürütməklə yanaşı, ölkənin iqtisadi-mədəni həyatı ilə yaxından maraqlanır və mövcud ictimai–siyasi şəraitdən faydalanmağı məqsədəuyğun sayırdılar.

Bakı, Gəncə, Şəki, Şuşa, Naxçıvanda siyasi dayaqları güclü olan "Hümmət", "İctimaiyyun–amiyyun", "Mücahid", "İttifaq", "İttifaqi–müslimin", "Qeyrət", "Difai", "Müdafiə", "Müsavat", kimi azərbaycanlıların yaratdıqları partiyalarla yanaşı, erməni, rus, yəhudi partiya və təşkilatları da fəaliyyət göstərirdilər. Bu partiyalar dövrün ictimai-siyasi mənzərəsini təhlil edir, mətbuatın roluna mühüm əhəmiyyət verir, öz ideyalarını yaratdıqları çoxsaylı mətbuat orqanları ilə xalqa çatdırmağa çalışırdılar.

"Difai" partiyası "Daşnaksutyun" partiyasının sui-qəsdçi fəaliyyətinin qarşısını almaq məqsədilə yaradılsa da, ictimai-siyasi təfəkkürün formalaşması və milli-azadlıq uğrunda mübarizəni qarşılarına başlıca vəzifə kimi qoymuşdu.

1909-cu ildə yaradılmış "İttifaqi-müslimin partiyası" Rusiyada yaşayan türk-müsəlman xalqlarının müstəqilliyi uğrunda mübarizəsini qarşılarına məqsəd qoymuşdur. İsmayıl bəy Qaspıralı, Yusif Akçura, Alim Əfəndi Maksud, Səlim-Girey Çanturin, Rəşid Əfəndi İbrahimov, Kutluq Məhəmməd Tevkelov ilə birlikdə Əlimərdan bəy Topaçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və digər Azərbaycan ziyalıları partiyanın siyasi-ideoloji fəaliyyətini müəyyən edirdilər. 1905–1906-cı illərdə "Müsəlman Xeyriyyə Cəmiyyəti", "Nəşri-maarif", "Nicat", "Səadət", "Səfa"

kimi mədəni-maarif cəmiyyətləri də eyni məqsədlər uğrunda mübarizə aparırdılar.

1913-cü ildə Rusiya çarı II Nikolayın Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verdiyi əfv fərmanından sonra siyasi mühacir olan Məhəmməd Əmin Rəsulzadə Azərbaycana qayıdaraq "Müsavat" partiyasına rəhbərlik etməyə başladı. M.Ə.Rəsulzadə siyasi mühacirətdə olduğu dövrdə yazıları ilə partiyanın ideologiyasının "hümmətçilikdən millətçiliyə", "islamçılıqdan türkçülüyə" istiqamətləndirilməsinə təsir göstərdi. O, "Füyuzat", "Şəlalə", "Dirilik" jurnallarında, "İqbal" qəzetində dərc etdirdiyi məqalələrində sadə və təmiz türk dili tezisini irəli sürərək, milliyyəti təşkil edən amilləri təhlil edir, "diriliklərin ən qiymətlisi milli dirilikdir…, milli istiqlala malik olmayan bir millət öz mövcudluğunu saxlaya bilməz" fikirlərini dönə-dönə qeyd edirdi.

Birinci Dünya müharibəsi illərində milli azadlıq mübarizəsi yüksəldi. Rusiya ilə Osmanlı Türkiyəsi arasında baş verən müharibə Azərbaycanın ictimai–siyasi fikrində güclü əks-səda doğurdu. Bu müharibə Azərbaycanda türkçülük və islamçılıq ideyalarını xeyli genişləndirdi, Rusiya əleyhinə etirazları çoxaltdı və əhali arasında Türkiyəyə rəğbəti artırdı. Azərbaycanda fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri Qars, Ərdəhan və Ərzurum vilayətlərində rus–erməni qırğınına məruz qalmış türk əhalisinə maddi və mənəvi yardım göstərdilər.

1915-ci il oktyabrın 2-dən Rəsulzadənin baş redaktorluğu ilə nəşrə başlayan "Açıq söz" qəzeti "Müsavat" partiyasının orqanı kimi Azərbaycan xalqının bütövlüyünü, xalqın bütün təbəqə və zümrələrinin birliyini, milli-mənəvi və dini vəhdətini təbliğ edir, xalqı özünü tanımağa, oyanmağa, haqqını, hüququnu və milli mənliyini dərk etməyə çağırırdı.

Məhəmməd Əmin Rəsulzadə Əli bəy Hüseynzadənin milli ideologiyamızın əsasını təşkil edən "türk qanlı, islam inamlı, Avropa qiyafəli" tezisinin hərtərəfli izahını verərək təhlil edir və "türkləşmək, islamlaşmaq və müasirləşmək" kimi formulə edirdi.

1917-ci il fevral burjua inqilabının çar Rusiyasının 300 illik monarxiya quruluşuna son qoyması nəticəsində Şimali Azərbaycanda müstəmləkəçilik əleyhinə azadlıq hərəkatı genişləndi.

Bu dövrdə “Müsavat”, “Türk ədəmi-mərkəziyyət”, milliyyətçi mövqedə dayanan Əlimərdan bəy Topçubaşovun və Fətəli xan Xoyskinin rəhbərlik etdiyi “Müstəqil demokrat qrupu”, Nəriman Nərimanovun rəhbərliyi ilə bolşevizm təmayüllü “Hümmət” təşkilatı, İbrahim Əbilov, Səmədağa Ağamalıoğlu, Əhməd bəy Pepinov, Əliheydər Qarayevin rəhbərliyi ilə menşevik təmayüllü “Hümmət” təşkilatı (əsası 1917-ci ilin iyununda Tiflisdə qoyulmuşdur), əsas liderləri Qara bəy Qarabəyov, İsa bəy Aşurbəyov, Soltan Məcid Qənizadə, Üzeyir bəy Hacıbəyli olan “İttihad” və “Hümmət” partiyasının bolşevik qanadı tərəfindən Bakıda yaradılan və Cənubi Azərbaycan fəhlələrini əhatə edən “Ədalət” partiyası açıq fəaliyyətə başladı.

1917-ci il fevral burjua inqilabından sonra milli azadlıq hərəkatı əsasən üç istiqamətdə inkişaf etmişdir:

1) Mərkəzləşdirilmiş dövlətdə mədəni muxtariyyət;

2) Federativ dövlət içərisində məhəlli muxtariyyət;

3) Müstəqil dövlətçilik.

1917-ci ildə Bakıda “Müsavat”, “Türk ədəmi–mərkəziyyət” partiyalarının rəhbərliyi altında keçirilən Qafqaz müsəlmanlarının I qurultayında islamçılardan tutmuş bölşevik partiyasına (N.Nərimanov, M.Əzizbəyov qurultayda bolşevik partiyasını təmsil edirdilər) qədər bütün siyasi qüvvələr təmsil olunurdu. Qurultayda ölkənin siyasi quruluşu mövzusunda çıxış edən M.Ə.Rəsulzaldə gələcək Rusiyanın federativ şəkildə təşkil olunması, xalqların öz müqəddəratını təyin etmək hüququna malik olması, muxtariyyət təşkil olunduqdan sonra Rusiya xalqlarının ittifaqında birləşmək ideyasını irəli sürdü. Rusiyanın dövlət quruluşunun ərazi–federativ əsasda olması prinsipi uzun müzakirələrdən sonra yekdilliklə bəyənildi.

Qurultayda “Türk ədəmi–mərkəziyyət” partiyasının Gəncə nümayəndəsi Nəsib bəy Yusifbəyli öz çıxışında çarizmin milli zülmünə ən çox məhz türk xalqlarının məruz qaldığını bəyan etdi. Qurultayda təhsil və mədəniyyət məsələləri ilə bağlı problemlərin həlli üçün milli fond yaradıldı. Qurultayda fəxri qonaq kimi çıxış edən Hacı Zeynalabdin Tağıyev milli fonda 50 min rubl məbləğində pul bağışladı.

1917-ci ilin may ayında Moskvada Bakı milyonçusu Şəmsi Əsədullayevin Moskva müsəlmanlarına bağışladığı binada keçirilən Ümumrusiya müsəlmanlarının I qurultayına sədrlik edən Əhməd Salikov Rusiyada yaşayan xalqlara milli–mədəni muxtariyyət verilməsini təklif etdi. Onun "Rusiya dövlətinin ərazi–federativ əsasda yenidən təşkil edilməsi müsəlman əhalisinin geniş təbəqələrinin maraqlarına uyğun deyildir" fikrinin əksinə olaraq M.Ə.Rəsulzadə Qafqaz müsəlmanlarının Birinci Bakı qurultayında irəli sürdüyü "milli–ərazi federasiya prinsirləri əsasında yaradılmış demokratik respublika" fikrini daha qətiyyətlə müdafiə etdi. Əhməd Salikovun mədəni muxtariyyətlə məhdudlaşan və mərkəzi dövlət sistemini müdafiə edən layihəsi səs çoxluğu ilə (294 səs lehinə, 422 səs əleyhinə) rədd edildi. M.Ə.Rəsulzadənin federasiya sistemini əsas tutan layihəsi (446 səs lehinə, 271 səs əleyhinə) səs çoxluğu ilə qəbul edildi.

### 2.4.2. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı çoxsaylı tədqiqat əsərləri yazılmağa başlandı. Dərslikdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mövzusunda Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının iki cildliyindən və yuxarıda qeyd olunan çoxsaylı tədqiqat əsərlərindən geniş istifadə olunmuşdur.

1917-ci ilin fevralında Rusiyada Romanovlar sülaləsi devrildikdən sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratdı. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrın 25-də bolşeviklərin hakimiyyət çevrilişindən sonra Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Bolşevikler Müəssislər Məclisini buraxdıqdan sonra onlar 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini yaratdılar.

Zaqafqaziya seymində Müsəlman fraksiyasını Rusiyanın Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, həmçinin bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Xalqın seçdiyi deputatlardan ibarət olan Zaqafqaziya seyminin Müsəlman fraksiyası, əslində, Zaqafqaziya Müsəlman Şurası idi və bütün Cənubi Qafqazın müsəlman parlamenti funksiyasını yerinə yetirirdi.

Zaqafqaziya seyminin ən fəal üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 22-də Zaqafqaziya seymi Cənubi Qafqazın müstəqilliyini elan etdi və Zaqafqaziya Demokratik Federativ Respublikası yaradıldı. Lakin Zaqafqaziya seymindəki daxili ziddiyyətlər seymin dağılmasına səbəb oldu. Nəticədə, gürcü nümayəndələri Seymdən çıxdılar və 1918-ci il mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

1918-ci il may ayının 27-də Seymin Müsəlman fraksiyasının üzvləri də özlərinin ayrıca iclaslarını keçirdərək, Azərbaycan Milli Şurasının yaradılmasını elan etdilər və bununla da Azərbaycanın ilk parlamentli respublikasının bünövrəsi qoyuldu. Həmin iclasda Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri seçildi. Həsən bəy Ağayev və Mir Hidayət Seyidov isə sədrin müavinləri təsdiq olundular. Azərbaycan Milli Şurasının mayın 27-də keçirilən iclasında Fətəli xan Xoyski yekdilliklə Milli Şuranın icra orqanının sədri seçildi. İcra orqanının tərkibinə Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik Aslanov, Camo bəy Hacınski, Əkbər ağa Şeyxülislamov, Xosrov Paşa bəy Sultanov daxil oldular.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu bəy Məmmədbəyov, Mehdi bəy Hacınski, Ələsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacinski, Şəfi bəy Rüstəmbəyov,

Xosrov Paşa bəy Sultanov, Cəfər bəy Axundov, Məhəmməd Məhərrəmov, Cavad bəy Məlik Yeqanov və Hacı Səlim Axundzadənin iştirak etdiyi həmin iclasda Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi (Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov səsvermədə bitərəf qaldılar). Həmin dövrdə Əqdnamə və ya Misaqi milli adlanan bu sənədi Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacinski, Şəfi bəy Rüstəmbəyov, Nəriman bəy Nərimanbəyov, Cavad bəy Məlik Yeqanov, Mustafa Mahmudov imzaladılar.

İstiqlal bəyannaməsi bütün türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi.

**Azərbaycan Milli Şurasının İstiqlal bəyannaməsində deyilirdi**:

1. Bugündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir;

2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir;

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir;

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir;

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır;

6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi:

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və daxili işlər naziri;

Xosrov Paşa bəy Sultanov – Hərbi nazir;

Məmməd Həsən Hacınski – Xarici işlər naziri;

Nəsib bəy Yusifbəyli – Maliyyə və xalq maarifi naziri;

Xəlil bəy Xasməmmədov – Ədliyyə naziri;

Məmməd Yusif Cəfərov – Ticarət və sənayə naziri;

Əkbər ağa Şeyxülislamov – Əkinçilik və əmək naziri;

Xudadat bəy Məlik-Aslanov – Yollar və poçt-teleqraf naziri;

Camo bəy Hacınski – Dövlət nəzarəti naziri.

Yenicə yaradılmış Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski 1918-ci il may ayının 30-da bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan olunduğunu bəyan etdi. Konstantinopol (İstanbul), Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen və Tokioya göndərilən həmin radioqramda, eyni zamanda, bildirilirdi ki, Cümhuriyyət Hökuməti, müvəqqəti olaraq, Yelizavetpolda (Gəncədə) fəaliyyət göstərəcəkdir. Bundan əlavə, xarici işlər naziri M.H.Hacinski Türkiyənin xarici işlər naziri Əhməd Nəsimi bəydən məxfı teleqramla xahiş etdi ki, Avropa dövlətlərinin paytaxtlarındakı türk səfirlikləri Azərbaycanın həmin ölkələrdəki nümayəndəlikləri funksiyasını da öz üzərlərinə götürsünlər.

Beləliklə, Şimali Azərbaycanda 100 ildən artıq bir dövr ərzində davam etmiş azadlıq mübarizəsi nəticəsində, çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında xalqın qədim dövlətçilik ənənələri yenidən, özü də bu dəfə parlamentli respublika formasında bərpa edildi.

Cümhuriyyət xadimlərinin çox böyük tarixi xidməti bu idi ki, onlar yurdun şimalında Rusiya işğalından sonrakı dövrdə unutdurulmuş müqəddəs "Azərbaycan" möhürünü xalqa qaytardılar. Xalqın dirçəldilən yeni dövləti dünyanın siyasət meydanına "Azərbaycan" adı ilə qədəm qoydu.

Cümhuriyyət xadimləri Azərbaycan tarixində parlament mədəniyyətinin də əsasını qoydular. Onlar İstiqlal bəyannaməsinin

6-cı bəndində “Azərbaycanın başında xalqın seçdiyi Milli Şura durur” fikrini qanuniləşdirməklə, Milli Şuranın ilk Azərbaycan Parlamenti olduğunu, həm də onun elan etdiyi Cümhuriyyətin Azərbaycan xalqının qanuni dövləti olduğunu təsdiq etdilər.

### 2.4.3. 1918-ci ildə Azərbaycanın dövlətçiliyinin bərpasından sonra ictimai-siyasi şərait

1918-ci il iyunun 16-da Milli Şura və Hökumət özünün fəaliyyət mərkəzini Tiflisdən Gəncəyə köçürdü. Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin tarixində ilk Hökumət böhranı baş verdi. Bu zaman Batum müqavilələrinin (1918) şərtlərinə əsasən, soyqırımına məruz qalan Azərbaycan xalqının köməyinə gələn və artıq Gəncədə olan Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşa ilə Milli Şura üzvləri arasında fikir ayrılığı meydana gəldi. Çətinliklə qazanılmış istiqlalın itirilməsi təhlükəsi yarandı. İyunun 17-də M.Ə.Rəsulzadənin başçılığı ilə Milli Şuranın keçirdiyi qızğın müzakirələrdən sonra böhran çox çətinliklə aradan qaldırıldı. Ölkədə yaranmış real vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etməyə məcbur oldu. Birincisi, Milli Şura öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı, ikincisi isə Milli Şura bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağırılanadək Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış yeni – ikinci Müvəqqəti hökumətə həvalə etdi. Hökumətin tərkibinə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski, nazirlərdən Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud xan Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdüləli bəy Əmircanov və Musa bəy Rəfiyev daxil oldular.

Azərbaycan Milli Şurası istiqlalın itirilməsindən ehtiyat edərək qərara aldı ki, qısa müddət ərzində Müəssislər Məclisi çağırılmalı və Müəssislər Məclisi çağırılanadək Fətəli xan Xoyski

Hökuməti hakimiyyəti öz əlində saxlayaraq, heç kimə güzəştə getməməlidir.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti – Azərbaycan Milli Şurası özünün ilk addımlarını atmağa başladı. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 27-dən iyunun 17-dək keçirdiyi 7 iclasda iki mühüm qərar qəbul edildi. Birincisi, Azərbaycanın istiqlalı elan olundu və İstiqlal bəyannaməsi qəbul edildi, ikincisi isə Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan Hökuməti formalaşdırıldı. Bununla da, 1813-cü ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqilliyi və dövlətçiliyi bərpa olundu. Beləliklə, Şimali Azərbaycanda demokratik respublika quruluşu yaradıldı.

1918-ci il iyunun 17-də hakimiyyətə gələn Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti çox ağır bir beynəlxalq və daxili şəraitdə, faktiki olaraq, soyqırımı taleyini yaşayan Azərbaycan xalqını tarixin qanlı burulğanından çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu. Vəziyyəti daha da mürəkkəbləşdirən bu idi ki, Bakıda S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin ermənilərdən ibarət olan silahlı qüvvələri Gəncəyə doğru yürüşə başlamışdılar. Artıq Göyçay ətrafında qanlı döyüşlər gedirdi. Belə bir şəraitdə, təcili olaraq, müstəqil Azərbaycanın dövlət quruculuğuna başlandı. Hökümət yaranmış vəziyyətdən çıxmaq üçün elə ilk günlərdən qəti tədbirlərə əl atdı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 21-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da Müsəlman hərbi korpusu Əlahiddə Azərbaycan Korpusuna çevrildi və həmin korpusun komandirinə general rütbəsi verildi. Diviziya komandiri səlahiyyətlərinə malik olan Azərbaycan Korpusunun komandiri Hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da, faktiki olaraq, Azərbaycan Silahlı Qüvvələrinin yaradılması demək idi. İyunun 27-də Azərbaycan-türk dili dövlət dili elan olundu. Dövlət quruculuğu daha da genişləndirildi. Türkiyədən dərsliklər gətirmək və müəllimlər dəvət etmək barədə qərar qəbul olundu. Məktəblər milliləşdirildi. Yeni müəllim kursları və məktəblər açıldı.

Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Milli orduya səfərbərlik keçirildi. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci Dünya müharibəsi (1914–1918) dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhalisinə qarşı törədilən soyqırımı vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb, cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Hökumətin bu qərarı ilə əslində, azərbaycanlıların soyqırımlarına hüquqi qiymət verilməsinin əsası qoyuldu. 1918-ci il avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında qanun qəbul olundu. Tarixən çox qısa vaxt ərzində həyata keçirilən bütün bu tədbirlərə baxmayaraq, Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini ölkənin bütün ərazisində bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. Bu isə asan məsələ deyildi. Çünki Qafqaz İslam Ordusunun və Azərbaycan Hökumətinin hərbi planlarından xəbərdar olan S.Şaumyan Cümhuriyyət Hökumətinə əl-qol açmaq imkanı verməmək üçün Bakı Sovetinin, əsasən, ermənilərdən ibarət olan yaxşı silahlanmış bolşevik-daşnak qoşunlarına Gəncə üzərinə yürüş əmri vermişdi. 1918-ci il 12 iyunda Kürdəmir daşnakların əlinə keçmişdi. Lakin, Göyçay uğrunda gedən qanlı döyüşlərdə türk və azərbaycanlılardan ibarət Qafqaz İslam Ordusu xalq könüllülərinin fəal köməyi ilə bolşevik-daşnak hərbi birləşmələrini darmadağın etdi. İyunun 20-də Şamaxı azad olundu. Bakıya yol açıldı. Türk əsgərlərinin Azərbaycan hərbi qüvvələri ilə birlikdə həyata keçirdiyi müzəffər İstiqlal yürüşünün növbəti hədəfi Bakı idi.

1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu və xalq könüllü dəstələrinin birləşmiş qüvvələri Bakını azad etdi. Şəhər S.Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirən və ingilis generalı Denstervilin hərbi qüvvələrinin müdafiə etdiyi daşnak və eser-menşevik qruplaşmasından – “Sentro-kaspi diktaturası”ndan təmizləndi.

1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Cümhuriyyət Hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin iyunda qəbul edilmiş dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. Fətəli xan Xoyski hökuməti Müəssislər Məclisinin çağırılması məqsədi ilə xüsusi komissiya yaratdı.1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən fəaliyyətə başladı. Hökumətin sədri F.Xoyskinin təklifi ilə Azərbaycan Milli Şurası Müəssislər Məclisi çağırmaq işini öz üzərinə götürdü. Lakin, Azərbaycan Hökuməti bütün bu tədbirləri olduqca mürəkkəb tarixi şəraitdə həyata keçirirdi. Məsələ burasında idi ki, Bakının azad olunması nəticəsində yaranmış əlverişli daxili vəziyyət uzun sürmədi. Birinci Dünya müharibəsində (1914–1918) məğlub olan Türkiyə Mudros barışığına (1918) əsasən öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu. Cənubi Qafqaz Böyük Britaniyanın təsir dairəsinə keçdi. Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı general Tomsona Bakını tutmaq əmri verildi. İngilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918-ci il noyabrın 17-də general Tomsonun hərbi qüvvələri Bakıya daxil oldu. Bakıda Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı. Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi. Azərbaycanın istiqlalının əleyhinə olan qüvvələr, xüsusən daşnaklar yenidən fəallaşdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratı üçün yaranmış həmin ağır şəraitdə Fətəli xan Xoyski Hökuməti müvazinətini itirmədi. Dövlət quruculuğu davam etdirildi. Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında Azərbaycan parlamentçiliyi tarixinin çox mühüm qərarları qəbul olundu. O zaman Azərbaycan Xalq Cümhuriyyəti fövqəladə dərəcədə çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, son dərəcə demokratik inkişaf yolu tutdu. Həmin iclasda qeyd olundu ki,

Azərbaycanın əhalisi yalnız azərbaycanlılardan ibarət olmadığı üçün Azərbaycan Milli Şurasında qeyri-millətlər də təmsil olunmalıdır, daha doğrusu, Azərbaycan ərazisində yaşayan bütün xalqlar Parlamentdə təmsil olunmalıdır. Azərbaycan Milli Şurası 120 deputatdan ibarət olmalı idi. Onlardan 80 nəfər türk-müsəlman əhalisini, 21 nəfər erməniləri, 10 nəfər rusları, 1 nəfər almanları və 1 nəfər yəhudiləri təmsil etməli idi. Hətta, sayları çox az olduğu üçün, Parlament seçkilərində iştirak edə bilməyən gürcülər və polyakların da hərəsinin Parlamentdə bir deputat təmsil olunması qərara alındı.

Azərbaycan Milli Şurasının 1918-ci il 19 noyabr tarixli iclasının qanununa əsasən, hələ 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman deputat birbaşa yeni yaradılacaq Parlamentin tərkibinə daxil edilirdi. Müsəlmanlar üçün nəzərdə tutulmuş qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli idi. Yeni Parlamentin formalaşdırılması 1918-ci il dekabrın 3-də başa çatdırılmalı idi.

Göründüyü kimi, 1918-ci ilin mart soyqırımından hələ cəmi yarım il keçməsinə baxmayaraq, Azərbaycan Parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakına yol verildı. O zamankı tarixi şəraitdə atılan bu addım Azərbaycan xalqının demokratik təbiətinə, insan haqlarına nə qədər dərin hörmətlə yanaşmasına parlaq sübutdur.

1918-ci il dekabrın 7-də saat 13.00-da Hacı Zeynalabdin Tağıyevin qız-məktəbinin binasında Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış Parlament idi. Azərbaycan Milli Şurasının 1918-ci il 19 noyabr tarixli qanununa əsasən, Parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar, hətta sayca çox az olduqlarına görə Parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da təmsil olundular. Cümhuriyyət Parlamentində yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk-müsəlman əhali – 80, ermənilər – 21, ruslar – 10, almanlar – 1, yəhudilər – 1, gürcülər – 1, polyaklar – 1, Bakı həmkarlar ittifaqları – 3, Bakı Neft Sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı – 2.

Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə geniş təbrik nitqi söylədi. “Müsavat” fraksiyasının

təklifi ilə bu zaman səfərdə olan Əlimərdan bəy Topçubaşov, qiyabi olaraq, Parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Rəhim bəy Əlağa oğlu Vəkilov Parlamentin katibi təsdiq olundu. Ə.Topçubaşov Azərbaycanda olmadığı üçün Parlamentin fəaliyyətinə H.Ağayev rəhbərlik etdi. Parlamentin ilk iclasında Fətəli xan Xoyski Hökumətinin istefası qəbul edildi və yeni Hökumətin təşkil olunması qərara alındı. Yeni Hökumətin təşkili yenidən Fətəli xan Xoyskiyə tapşırıldı.

1918-ci il dekabrın 26-da F.Xoyski Parlamentdə öz proqramı ilə çıxış etdi və yeni Hökumətin tərkibini təsdiq olunmağa təqdim etdi. Parlament Hökumətin proqramını qəbul etdi və F.Xoyskinin təşkil etdiyi Hökumətə etimad göstərilməsi barədə qərar çıxardı. Elə həmin gün Fətəli xan Xoyskinin başçılıq etdiyi yeni Hökumətin tərkibi elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin xalq tərəfindən müdafiə olunduğunu görən general Tomson dekabrın 28-də Fətəli xan Xoyski Hökumətini Azərbaycanın yeganə qanuni yerli hakimiyyət orqanı kimi tanıdı. Beləliklə, Cümhuriyyət Hökuməti ilə ingilis hərbi komandanlığı arasındakı münasibətlərdə yumşalma başlandı. Nəticədə şəhərdəki erməni hərbi birləşmələri tərksilah olundu və ləğv edildi.

O zamankı tarixin ibrət dərslərindən biri də budur ki, həmin dövrdə Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən ermənilər də Rus Milli Şurasını müdafiə etdilər və iki aydan çox müddət ərzində Parlamentin iclaslarında iştirak etmədilər. Parlamentə qatıldıqdan sonra isə həmişə Azərbaycan dövlətçiliyinə qarşı xəyanət mövqeyindən çıxış etdilər. Parlamentdə fəaliyyət göstərən 11 fraksiya və qrup mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqil dövlət quruculuğuna ciddi əngəl törədirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin parlament tarixi iki dövrə ayrılır:

Birinci dövr, 1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk deputatdan ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdir. İlk Parlament 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi

İstiqlal bəyannaməsini qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə - Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal bəyannaməsi Azərbaycanın demokratiya və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bugün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan Parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas 1918-ci il mayın 27-də Tiflisdə, son iclas – 1918-ci il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağırmaq şərti ilə, bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti Hökumətə vermişdir. Xalq Cümhuriyyəti Hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdir. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Müəssislər Məclisinin – geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və öz fəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərmişdir.

İkinci dövr, Bakı dövrü 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək 17 ay davam etmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti İstiqlal bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi.

Birinci Dünya müharibəsi (1914–1918) illərində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici

mərhələyə daxil olduğu və ölkənin yeni işğal təhlükəsi ilə üz-üzə qaldığı çox mürəkkəb daxili və beynəlxalq şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Qeyd olunmalıdır ki, Parlamentin bu sahədə qəbul etdiyi qanun və qərarların müzakirəsində Parlament üzvləri, bir qayda olaraq, həmrəylik və yekdillik nümayiş etdirirdilər.

### 2.4.4. Azərbaycan Xalq Cümhuriyyəti Parlament və hökumətinin elm, təhsil, mədəniyyət və demokratik cəmiyyət quruculuğu sahəsində gördüyü işlər

Çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan xalqının milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət Hökuməti və Parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan Parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı.

Ölkədə Elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət Parlamenti və Hökuməti, vaxt itirmədən, bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan Parlamenti Hökumətin təklifinə əsasən, 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etmişdi. Bu işə nə qədər böyük əhəmiyyət verildiyi ondan görünür ki, Parlament

xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün M.Ə.Rəsulzadənin başçılığı ilə Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi müsabiqə komissiyası yaratmışdı. Komissiyanın qərarına əsasən, ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərilmişdi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər gənc orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilməmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınmasından ötrü də böyük iş aparırdı. Bununla bağlı olaraq 1918-ci il dekabrın 28-də Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Ə.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında iştirak edən müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınmasına nail oldu. Lakin bolşeviklərin Şimali Azərbaycanı işğal etməsi nəticəsində onun bu uğurlu işləri sona çatmadı. Ə.Topçubaşov və onu müşayiət edən digər Cümhuriyyət xadimləri vətənə dönə bilmədilər və siyasi mühacir həyatı yaşamağa məcbur oldular.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti fəaliyyətə başladığı ilk günlərdən, real vəziyyəti nəzərə alaraq və münasibətləri nizama salmaq məqsədilə, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan İrəvanı ermənilərə güzəştə getdi və onların “siyasi mərkəzi” kimi tanıdı (1918-ci il, 29 may). Lakin buna baxmayaraq, Ermənistan Respublikası Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdü və qəsbkarlıq planlarından əl çəkmədi.

Azərbaycan Cümhuriyyəti dövründə İranla da bir sıra müqavilə və sazişlər imzalandı və həmin sənədlər Parlamentdə təsdiq olundu. 1920-ci ilin martında İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıdı.

Azərbaycan Xalq Cümhuriyyətiqısa tarixi dövr ərzində olduqca fəal xarici siyasət yeritdi. Azərbaycan dövləti 1920-ci il yanvarın 11-də Paris sülh konfransında Azərbaycan haqqında xüsusi

qərar qəbul edilməsinə nail oldu. Həmin qərara əsasən, konfrans iştirakçısı olan ölkələr Azərbaycanı müstəqil dövlət kimi de-fakto tanıdılar.

Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə, İran, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Ukrayna, Polşa, İtaliya, Belçika, Hollandiya, Yunanıstan, İsveçrə, İsveç, Danimarka, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya və başqa ölkələrlə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratdı, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər imzaladı.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ümumilikdə 155 iclası keçirilmişdir. Bunların 10-u Milli Şuranın (1918-ci il, 27 may – 19 noyabr), 145-i isə Parlamentin fəaliyyət göstərdiyi dövrdə (1918-ci il, 7 dekabr – 1920, 27 aprel) olmuşdur.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə olunur, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər. Parlamentdə 11 komissiyası fəaliyyət göstərirdi. Parlamentin fəaliyyəti "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" əsasında idarə olunurdu.

Hökumətin yeritdiyi xarici və daxili siyasətin nəticələrindən asılı olmayaraq, o zamankı beynəlxalq vəziyyətdə Şimali Azərbaycanın (habelə digər Cənubi Qafqaz respublikalarının) müstəqil dövlət halında yaşaması mümkün deyildi. Bakı neftinə yiyələnməyə can atan və ingilisləri regiondan sıxışdırıb çıxarmağa çalışan Sovet Rusiyası, Denikini məğlub etdikdən sonra yerli bolşevik təşkilatlarını səfərbərliyə alaraq, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün daxildə geniş pozuculuq fəaliyyətinə başlamışdı. Moskvadan göstəriş alan Azərbaycan Kommunist (bolşeviklər) Partiyası hakimiyyət çevrilişi həyata keçirmək üçün xüsusi qərargah yaratmışdı. Parlamentin və Hökumətin fəaliyyətini iflic vəziyyətinə salan "sosialistlər", "Daşnaksutyun fraksiyası", "Erməni fraksiyası", "Slavyan-rus cəmiyyəti" və digər Parlament fraksiyaları sovet-bolşevik müdaxiləsindən ötrü əlverişli zəmin

yaradılmasında fəal iştirak edirdilər. Bundan əlavə, Azərbaycandan yeni ərazilər qoparmaq üçün əlverişli şərait yarandığını görən ermənilər bolşevik Rusiyası ilə əlaqəyə girib Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə əlbir plan hazırladılar. Həmin plana əsasən, Ermənistan Respublikası Qarabağda və Gəncəbasarda ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı qiyamlarını təşkil etdi. Bununla, Ermənistan Respublikası qiyamçılara kömək pərdəsi altında Azərbaycana qarşı müharibəyə başladı. Cümhuriyyət Hökuməti özünün bütün hərbi qüvvələrini Qarabağ cəbhəsinə yönəltməyə məcbur oldu. Beləliklə, ölkənin şimal sərhədləri bolşevik müdaxiləçilərinin üzünə açılmış oldu.

Sovet Rusiyası 1918-ci ilin noyabrından Bakını və bütün Cənubi Qafqazı ələ keçirmək üçün konkret hərbi hazırlıq tədbirləri görməyə başlamışdı. Rusiya hərbi-inqilab şurasının qərarı ilə 11-ci və 12-ci orduların, həmçinin Həştərxan – Xəzər donanmasının daxil edildiyi ayrıca Xəzər-Qafqaz cəbhəsi yaradılmışdı. Bakını ələ keçirmək, bütün Şimali Azərbaycanı (habelə Cənubi Qafqazı) işğal etmək üçün "Bakı əməliyyatı" adlı xüsusi hərbi əməliyyat planı hazırlanmışdı. V.İ.Lenin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına Bakının ələ keçirilməsi barədə konkret göstəriş vermişdi. Martın 30-da isə Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə yaradılmış "operativ qərargah"ın sədri Əliheydər Qarayev bu zaman Dağıstanda olan sovet qoşunlarının komandanına teleqram göndərərək bildirirdi ki, "ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq. Hərəkat başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq". Aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda (Mahaçqala) 11-ci Qırmızı ordunun komandanlığı, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsi və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası nümayəndələrinin müşavirələri keçirildi. Müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planı təfsilatı ilə müzakirə edildi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün 11-ci Qırmızı ordunun Azərbaycan sərhədini keçməsini nəzərdə tuturdu. AK(b)P rəhbərliyi dövlət çevrilişi planının reallaşdırılması üçün vaxtın yetişdiyini qət etdi.

Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası veriləcəkdir.

İşğalçıların hərbi əməliyyat planına əsasən, müdaxiləçi sovet qoşunları müstəqil Azərbaycanın dövlət sərhədlərini bu zaman Anadoluda Qazi Mustafa Kamal Paşanın başçılıq etdiyi İstiqlal savaşına "köməyə getmək" pərdəsi altında keçməli idilər. Belə də oldu. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə işğalçı 11-ci Qırmızı ordu hissələri müharibə elan etmədən müstəqil Azərbaycan dövlətinin sərhədlərini keçdi və Bakıya hücum etdi. Bakı, eyni zamanda, dənizdən də mühasirəyə alındı. Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında mühüm obyektləri ələ keçirdilər.

Əslində Azərbaycan Xalq Cümhuriyyətinin devrilmiş olduğu həmin şəraitdə, işğalçıların diktəsi ilə hərəkət edən kommunistlərin nümayəndə heyəti Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşevikler) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum verdi. Bununla əlaqədar olaraq, hələ martın 30-da Nəsib bəy Yusifbəylinin istefasından sonra, yeni Hökumətin (VI kabinə) təşkil olunması tapşırılmış Məmməd Həsən Hacınskinin başçılığı ilə xüsusi komissiya (M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, S.Ağamalıoğlu) yaradıldı. Azərbaycan bolşevikləri ilə sıx əlaqə saxlayan M.H.Hacınski kommunistlərlə danışıqlar apardı. Göstərilən ultimatum və komissiyanın apardığı danışıqların nəticələri Məmməd Yusif Cəfərovun sədrliyi ilə Parlamentin sonuncu (145-ci) iclasında müzakirə olundu. İclas aprelin 27-də axşam saat 20:45-də başlandı və 23:25-dək davam etdi. M.Ə.Rəsulzadənin təklifi ilə müzakirələr zamanı Parlamentin qapıları xalqın üzünə açıldı: "Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə Parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək".

Ultimatum barədə məlumat verən M.H.Hacınski bildirdi ki, hakimiyyət bugün axşam kommunistlərə təhvil verilməlidir. Lakin Səməd ağa Ağamalıoğlu, Qara bəy Qarabəyov, Aslan bəy Səfikürdski, Məhəmməd Əmin Rəsulzadə və Sultanməcid Qənizadə M.H.Hacınskinin hakimiyyətin kommunistlərə qeyd-şərtsiz təslim edilməsi təklifinə qarşı çıxdılar. Parlament səs çoxluğu ilə aşağıdakı şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;

2. Azərbaycan Kommunist Firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;

4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;

5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti Parlament və Hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. Qırmızı Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;

7. Yeni hökumət, haradan baş verməsindən asılı olmayaraq, Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan vasitələrlə qəti tədbirlər görəcəkdir ("Kommunist" qəzeti, 1920-ci il, 6 may).

Azərbaycan Parlamenti mühasirə şəraitində keçirdiyi həmin iclasında da özünün demokratik ənənələrinə və istiqlalçılıq ideyalarına sadiq qaldı.

Sovet Rusiyasının 11-ci Qırmızı Ordu hissələri Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradaraq onun ərazisini işğal etdi. Azərbaycan xalqınının müqavimət hərəkatı qan içində boğuldu, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hakimiyyət strukturları məhv edildi. Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatıldı.

Azərbaycan Xalq Cümhuriyyəti, cəmi 23 ay yaşamasına baxmayaraq, sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya

rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir. Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, müsəlman Şərqində, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Uğursuz sonluğa baxmayaraq, Azərbaycan Cümhuriyyətinin iyirmi üç aylıq fəaliyyəti xalqımızın yaddaşına əbədi həkk olundu. Azərbaycan Sovet Sosialist Respublikası 70 ilə yaxın bir dövrdə kommunist ideologiyasının hökmran olduğu Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olmuşdur. Mürəkkəb, ziddiyyətli hadisələrlə dolu bu 70 il müddətində xalqımız böyük məhrumiyyətlərə uğramış, soyqırıma məruz qalmış, böyük itkilər vermişdir. Eyni zamanda, bu müddətdə bütün məhrumiyyətlərə baxmayaraq xalqımız yaşamış, yaratmış, inkişaf etmişdir. Bu 70 il ərzində itkilərimizlə yanaşı, Azərbaycan xalqı böyük nailiyyətlər qazanmış, iqtisadi, elmi, mədəni yüksəlişə nail olmuşdur. Azərbaycan bu dövrdə öz müstəqilliyini faktiki olaraq itirsə də, müstəqil dövlətin atributları olan konstitusiyaya, əraziyə, sərhədlərə formal olaraq malik idi.

Məhz dövlətçilik ənənələrinin, mədəni, elmi, iqtisadi, kadr potensialının mövcudluğu Azərbaycan xalqına öz varlığını, mədəniyyətini, milli mənliyini qorumağa və yenidən dirçəlib 1991-ci ildə milli dövlət – Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikası kimi tarix səhnəsinə çıxmağa imkan verdi.

1918–1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin topladığı böyük tarixi təcrübə, əsasını qoyduğu demokratik dövlət quruculuğu bugün onun hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikasında dönmədən həyata keçirilir və inkişaf etdirilir. Tam əsasla demək olar ki, varis öz sələfinin müstəqillik və suverenlik prinsipini hər şeydən əziz və uca tutur.

## 2.4.5. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının ictimai-siyasi baxışları

### 2.4.5.1. Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi ideyaları

Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884–1955) Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" və bitərəflər fraksiyasının sədri, jurnalist və publisist olmuşdur.

O, ilk təhsilini Sultan Məcid Qənizadənin 2 saylı rus-Azərbaycan məktəbində almış və Bakı texniki məktəbini bitirmişdir. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, "Müsəlman Gənclik Təşkilatı" adlı gənc azərbaycanlı inqilabçılar dərnəyi yaratmış və ona başçılıq etmişdir (1902–1903-cü illər). 1904-cü ildə o, Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. M.Ə.Rəsulzadə bu dövrdə mətbuatda dərc olunmuş yazılarında xalqa söz, mətbuat, vicdan, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqları verilməsi, vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış edir, xalqı maariflənməyə çağırır, Rusiyanın Azərbaycanda yeritdiyi milli qırğın siyasətini kəskin tənqid edirdi. Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına 1905–1907-ci illər rus-burjua demokratik inqilabının gedişində və sonrakı dövrdə baş verən milli oyanış, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Həsən bəy Zərdabivə başqalarının çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi, getdikcə genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək" məfkurəsi güclü təsir göstərmişdir.

M.Ə.Rəsulzadə 1905–1907-ci illər inqilabının məğlub olmasından sonra Rusiyada təqiblərin artdığı şəraitdə İrana mühacirət etdi. Rəsulzadə 1908–1911-ci illərdə Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmiş, Səttar xan və Bağır xanla görüşmüşdü. M.Ə.Rəsulzadə 1910–1911-ci

illərdə Tehranda Avropa tipli ilk gündəlik "İrane-nou" ("Yeni İran") qəzetini dərc etmişdir. Həmin dövrdə o, Seyid Həsən Tağızadə ilə birlikdə İran Demokrat Partiyasını yaratmış və onun Mərkəzi Komitəsinə üzv seçilmişdir. 1911-ci ildə İran inqilabı yatırıldıqdan sonra Rəsulzadə S.H.Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət etmişdir. Burada çar Rusiyasının təqiblərindən qurtularaq Türkiyəyə sığınmış Əlibəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu ilə sıx əməkdaşlıq etmiş, "Türk ocağı"təşkilatına daxil olmuş, "Türk yurdu" jurnalında Cənubi Azərbaycan türklərinə həsr olunmuş məqalələrində onların milli-siyasi hüquqlarını müdafıə etmişdir. Rəsulzadə, eyni zamanda, bu dövrdə türkçülük ideyaları ilə daha dərindən tanış olur, böyük Azərbaycan mütəfəkkiri şeyx Cəmaləddin Əfqaninin "Milli Birlik fəlsəfəsi"nə yiyələnir, onu farscadan türkcəyə çevirib "Türk yurdu" jurnalında çap etdirir.

M.Ə.Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv fərmanından sonra Bakıya qayıdır, "Müsavat" partiyasının rəhbərliyinə keçir və milli azadlıq mübarizəsində daha fəal iştirak edir.

1915-ci ildə "Açıq söz" qəzetini nəşr edir. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparır, 1914–1916-cı illərdə "Dirilik" jurnalında "Milli dirilik" başlığı ilə silsilə məqalələr dərc etdirir, millətin tərifində dini birliyi deyil, dil və mədəniyyət birliyini önə çəkir, milli istiqlal ideyalarını geniş təbliğ edir. Onun rəhbərlik etdiyi "Müsavat" partiyası milli azadlıq mübarizəsinin önünə keçir.

1917-ci ildə Rusiyada Fevral inqilabı qalib gəldikdən sonra milli əsarət altında olan xalqlara, o cümlədən Azərbaycan xalqına yeni yaradılacaq demokratik Rusiyada "Milli-məhəlli (ərazi) muxtariyyət" verilməsi uğrunda mübarizə aparır. 1917-ci ilin aprel ayında Qafqaz müsəlmanlarının Bakı və 1917-ci ilin may ayında Rusiya müsəlmanlarının Moskvada keçirilmiş qurultaylarında öz mövqeyini uğurla müdafıə edir. Moskva qurultayında onun Azərbaycan dilində etdiyi çıxışda irəli sürülən "Milli-məhəlli (ərazi) muxtariyyət" proqramı Əhməd Salikovun "milli-mədəni muxtariyyət" proqramından fərqli olaraq böyük səs üstünlüyü ilə qəbul olunur. Bu, Rusiyanın türk xalqları arasında onun nüfuzunu daha da artırdı. Nəticədə o, Rusiyanın gələcək dövlət idarəçiliyi

formasını müəyyən edəcək Müəssislər məclisinə Azərbaycanla yanaşı Türküstandan da deputat seçildi.

1917-ci ilin iyununda "Müsavat" partiyası ilə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi-Mərkəziyyət" Partiyası birləşdi. Rəsulzadə birləşmiş "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın sədri seçildi. 1917-ci ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın I qurultayında M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin sədri seçildi. O, qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirdi: "Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal".

1918-ci il may ayının 27-də Zaqafqaziya seymi dağıldıqdan sonra Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq Azərbaycan Milli Şurasının (parlamentinin) sədri seçilir. 1918-ci il iyunun 4-də M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri kimi xarici işlər naziri Məmməd Həsən Hacınski ilə birlikdə Osmanlı dövləti ilə Batum müqaviləsini imzalayır. Müqavilənin 4-cü maddəsinə əsasən Osmanlı dövləti Bakı sovetinin daşnak-bolşevik hərbi birləşmələri və erməni-daşnak quldur dəstələri tərəfindən soyqırıma məruz qalmaqda olan Azərbaycan xalqına qardaşlıq yardımı göstərir. Azərbaycanın və bütün Cənubi Qafqazın türk-müsəlman əhalisi qırılıb məhv olmaqdan qurtarır. Rəsulzadə dövlət xadimi kimi Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin iyununda baş vermiş ilk hökumət böhranın aradan qaldırılmasında mühüm rol oynamış, istiqlalın qorunub saxlanması naminə sədri olduğu Milli Şuranın müvəqqəti olaraq, istefasına razılıq vermişdir. O, 1918-ci ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul beynəlxalq konfransına göndərilən səlahiyyətli nümayəndə heyətinə (Rəsulzadədən başqa Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfıkürdski daxil idi) sədrlik etmiş, çox mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanın mənafeyini uğurla müdafıə etmiş, Azərbaycanda hərbi işin təşkili, maliyyə problemi, ərazi məsələsi haqqında Türkiyə rəsmiləri ilə danışıqlar aparmış, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur. 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurasının fəaliyyəti bərpa olunduqdan sonra onun sədri kimi Azərbaycan Xalq

Cümhuriyyəti Parlamentinin formalaşdırılmasında mühüm rol oynamışdır.

1918-ci ilin 07 dekabrında Parlamentin təntənəli açılışında parlaq nitq söyləmiş və sonra "Müsavat" partiyasi adından gənc Cümhuriyyətin dövlət quruluşu, daxili və xarici siyasətinin əsas prinsipləri barədə bəyannamə ilə çıxış etmişdir. Onun "...müstəqil Azarbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarnəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir" sözləri Parlament üzvlərinin ayaq üstə sürəkli alqışları ilə qarşılanmışdı. Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" fraksiyasına başçılıq etmiş, digər istiqlalçı qüvvələrlə birlikdə Azərbaycanın milli və dövlət maraqlarına cavab verən qanunların qəbulunda həlledici rol oynamışdır.

M.Ə.Rəsulzadə Parlamentdə Bakı Dövlət Universitetinin açılması ətrafında gedən müzakirələrdə də qətiyyətli çıxışlar etmişdi. O, milli kadrların azlığına görə Universitetin açılmasını vaxtsız hesab edənlərə və başqa dildə açılmasına qarşı çıxanlara cavabında demişdi: "...Universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu, başqa dildə də olsa, Universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır. ...Universitetdə türk dili keçiləcək, tələbələrin özləri də Bakıda, öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər". M.Ə.Rəsulzadə Universitet fəaliyyətə başladıqdan sonra tarix-filologiya fakültəsində Osmanlı ədəbiyyatı tarixindən dərs demişdir.

M.Ə.Rəsulzadə bu dövrdə Borçalı və Qarabağla bağlı Azərbaycan Xalq Cümhuriyyətinə qarşı qaldırılmış ərazi iddialarında prinsipial mövqe tutmuşdur. Borçalı ilə bağlı Azərbaycan hökumətini "qan tökməklə" hədələyən gürcü nümayəndəsinə "nə etmək olar, əgər məcbur etsələr, qan da tökmək olar" deyə qətiyyətlə cavab vermişdi. O, Qarabağ məsələsində də eyni cür qətiyyət göstərmişdi: "bizim fikrimizcə və hökumətin

fikrinə görə Qarabağ məsələsi yoxdur. Necə ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə olan hər növ təklifi rədd edirik".

M.Ə.Rəsulzadə "Müsavat" partiyasının 1919-cu ilin dekabrında keçirilmiş II qurultayının rəyasət heyətinin sədri seçilmiş, partiyanın Mərkəzi Komitəsinin və Parlament fraksiyasının fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etmişdir. Yenidən partiyanın Mərkəzi Komitəsinin sədri seçilmişdir.

1920-ci il aprelin 27-də 11-ci Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra gizli fəaliyyətə keçən M.Ə.Rəsulzadənin göstərişi ilə Bakıda "Müsavat"ın gizli mərkəzi yaradıldı.

M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də həbs olunmuş, lakin İosif Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, Rusiya Sovet Federativ Sosialist Respublikasının Milli İşlər Komissarlığında işlə təmin olunmuşdu. Bir müddət sonra Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etdi.

1922-ci ilin sonlarında onun İstanbulda siyasi mühacir həyatı başlandı. O, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müxtəlif xarici ölkələrə getməyə məcbur olan azərbaycanlıların istiqlal mübarizəsini vahid mərkəzdən idarə etmək məqsədilə Azərbaycan Milli Mərkəzini (İstanbulda), "Müsavat" Partiyasının Xarici Bürosunu yaratdı və "Müsavat"ın Azərbaycanda fəaliyyət göstərən gizli təşkilatına istiqamət verdi. O, eyni zamanda siyasi mühacirətin parçalanmasının qarşısını almağa, onun vahid mərkəzdən idarə olunmasına çalışırdı.

1926-cı ildə onun fəal iştirakı ilə Parisdə "Prometey" təşkilatı yaradıldı. "Prometey" sovet rejiminə qarşı müxtəlif xalqların nümayəndələrinin vahid mübarizə blokunu yaratmalı idi. O, 1931-ci ildə sovet hökumətinin tələbinə əsasən, Türkiyəni tərk etməyə məcbur oldu. 1932-ci ildə Rəsulzadənin siyasi mühacirətinin Polşa dövrü başlandı.

1934-cü ildə Ə.Topçubaşovla birlikdə Brüsseldə Qafqaz Konfederasiyası sazişini imzaladı. Sazişə əsasən Qafqazda Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikalarından ibarət konfederasiya dövləti – respublikası yaratmaq nəzərdə tutulurdu.

M.Ə.Rəsulzadə 1936-cı ildə Varşavada "Müsavat"ın qurultay səlahiyyətli konfransını keçirdi. Konfransda "Milli hərəkatda Firqə" mövzusunda hesabat məruzəsi ilə çıxış edərək, partiyanın həm Azərbaycan daxilində, həm də mühacirətdə öz taktiki xəttini düzgün müəyyənləşdirdiyini bildirdi. O, "şəxslər müvəqqəti, ideologiya əbədidir" tezisini əsas tutaraq, siyasi mühacirləri istiqlal ideologiyasına sadiq olmağa çağırdı.

1939-cu ildə İkinci Dünya müharibəsinin başlanması ilə Polşadan Fransaya, İsveçrəyə, İngiltərəyə, nəhayət Rumıniyaya keçdi. 1942-ci ildə Azərbaycanın istiqlalına nail olmaq məqsədilə, Almaniyanın Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi ilə danışıqlara girdi. Lakin danışıqlar uğursuzluqla nəticələndi. M.Ə.Rəsulzadə Berlində "Azərbaycanın milli haqlarını qorumaq, vətənin xilası və istiqlalı üçün mübarizə etmək, qafqasiyalı millətlərin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıx surətdə işbirliyi təmin etmək" məqsədilə Milli Azərbaycan Komitəsi yaratdı. Almaniya tərəfindən Azərbaycan müstəqilliyinin tanınması məsələsində müsbət nəticə əldə olunmadığını görən Rəsulzadə, 1942-ci ilin sonlarında Almaniyanı tərk edib Buxarestə getdi. Müharibənin sonuna yaxın Münhendə gizli şəraitdə yaşayan Rəsulzadənin yaratdığı "Azərbaycan Demokrat Birliyi" cəmiyyəti azərbaycanlıların faşist əsirliyindən azad olunmasına, bir müddət sonra yaratdığı "Türkiyə-Azərbaycan" cəmiyyəti isə onların Türkiyəyə aparılmasına kömək gostərdi. Müharibədən sonra, 1947-ci ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirdi. 1949-cu ilin fevralın 1-də o, bütün Azərbaycan mühacirlərini vahid mərkəz ətrafında birləşdirmək məqsədilə, Ankarada Azərbaycan Kültür Dərnəyini yaratdı. 1952-ci ilin dekabrında Münhendə keçirilən Ümumi Qafqaz Konfransında iştirak etdi. Konfransın qərarına əsasən, Azərbaycanın, Gürcüstan və Şimali Qafqazın təmsil olunduğu Qafqaz İstiqlal Komitəsi yaradıldı. Amerika Birləşmiş

Ştatlarına gedərək Azərbaycanın Xalq Cümhuriyyətinin yaradılmasının 35-ci ildönümü münasibətilə 1953-cü il mayın 28-də "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciət etdi.

**M.Ə.Rəsulzadənin 1953-cü ilin 28 Mayında "Amerikanın səsi radiosu"ndan Azərbaycana xitabı**

Əziz vətəndaşlarım!

"Amerikanın səsi" radiosunun verdiyi imkanlardan istifadə edərək, bugün, Azərbaycan tarixinin ən böyük günü olan 28 Mayısda, Sizlərə xitab edirəm. 100 il sürən çar əsarətindən sonra bundan 35 il əvvəl Azərbaycan Şurayi-Millisi Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün dünyaya elan etdi. O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq bir dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır. Mədəni bütün birtərəkəyə (mirasa) malik olan Vətənimiz siyasət sahəsində çox böyük və dəyərli həmlələr göstərmişdir. İstiqlal uğrunda yapılan tarixi savaşların ən qanlısı XIX əsrin başlanğıcında Rusiya çarlığına qarşı yapılmışdır. 30 il qədər sürən bu savaş qəhrəmanlıqlarla doludur. Cavad xanın 1804-də Gəncədəki Şanlı qəzası dillərdə dastandır. "Ölmək var, dönmək yoxdur!" Bu, həqiqi vətənpərvərlərin tətbiq etdikləri ən müqəddəs şüardır.

28 Mayıs 1918-ci ildə istiqlalını elan etməklə Azərbaycan tarixinin təbii bir nəticəsini fikirdən işə keçirdi. Eyni zamanda o, zəmanəyə hakim olan əsrin böyük şüarından istifadə edirdi. "Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyətdardır" düsturunu xalqın ümumi rəyinə uyaraq istiqlalını elan edirdi.

İstiqlal elanı üzərində qurulan milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü:

- 100 ildən bəri əsgərlikdən mən edilən Azərbaycanda bir ordu yaratdı;
- Çarlıq zamanında dövlət idarəsinə yaxın buraxılmayan azərbaycanlılardan zabit və əmniyyət qüvvələri vücuda gətirdi;
- Sosial sahədə əsaslı islahata girişdi;
- Kəndlilərə torpaq vermək üçün qanunlar hazırladı;
- Fəhlələrin haqlarını qorumaq üçün tədbirlər aldı;

- Xalqı az zamanda oxutmağa başladı;

- Türkcəni dövlətin rəsmi dili elan etdi;

- Orta və ali məktəblər açdı;

- Qərbi Avropa demokratiyaları tipində xalq nümayəndələri cavabdeh bir hökumət üsuli-idarəsi yaratdı;

- Hakimiyyət Milli Məclisinin əlində idi. Parlamentodan etimad almadıqca heç bir hökumət iş başında qala bilməzdi;

- Məmləkətdə tam bir azadlıq vardı;

- O zaman indi sovet zamanında olduğu kimi terror deyilən şeydən bir əsər yoxdu;

- Şəxslər də, məskənlər də əmin və amanda idi;

- Vətənin qapıları indi olduğu kimi bütün dünyaya qapalı deyildi. Hər azərbaycanlı istədiyi zaman hara istərsə gedərdi;

- Qonşu və Avropa dövlətləri ilə dostluq münasibətləri təsis edilmişdi;

- Bütün millətlərlə alış-veriş vardı.

Bütün bunların nəticəsində idi ki, Cümhuriyyətimizin istiqlalı Avropa dövlətləri ilə Birləşik Amerika tərəfindən tanındı. Onları təqibən böyük bir çox dövlətlər də istiqlalımızı tanıdılar. Türkiyə ilə İran Azərbaycanla münasibətə gəldilər. Aralarında dostluq və qardaşlıq müqavilələri imzalandı. 12 yanvar 1920-ci il Cümhuriyyətin dövlətlər tərəfindən tanınması günü idi. Bugünü Azərbaycan xalqı candan bayram etdi. Haqlı idi. Bu, həqiqətən böyük bir bayramdı. Çünki bugündən etibarən Azərbaycan davası Rusiyanın bir iç məsələsi olmaqdan çıxmış, millətlərarası birməsələ olmuşdur.

Mədəniyyət tariximizin şanlı fikir adamları tərəfindən alqışlanan azadlıq və istiqlal fikri məmləkətimizdə yerləşdi və bu işləri dünya demokratiyası tərəfindən təqdirlə qarşılandı. 100 ildən bəri üstümüzə çökən istibdad və istila artıq bizdən uzaqlaşdı.

Heyhat! Qədər imtahanları tamam deyildi. Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu. Beləcə istiqlalımız qızıl istilaçıların ayaqları altında əzildi. Müqavimət edən məmləkətdə qan gövdəyə çıxdı. Bundan bir ay əvvəl, 28 aprel Sovet propaqandaçıları bu qanlı istila hərəkatını sizə azadlıq və istiqlal hadisəsi kimi göstərdilər.

Sözdə sizə dünyanın ən azad və demokrat rejimi kimi qələmə verilən sovet quruluşu işdə qəddar və ən yalançı bir istibdad rejimidir. Müqayisə etmək imkanında olsaydınız, bunun nə qədər doğru olduğunu gözünüzlə görərdiniz.

Azadlığımızı əlimizdən alanlar millətdən qorxmurlarsa, dəmir pərdəni qaldırsınlar. Azadlıq elan etsinlər. Edə bilməzlər! Çünki ağla-qara meydana çıxar. Onlar şəbpərə kimidirlər, günəşdən qaçarlar.

Azərbaycan, onunla bərabər bütün Qafqasiya Cümhuriyyətləri həqiqi azadlıq və istiqlalına 1918-ci ilin Mayısında qovuşdular. 1920-ci ildə isə bu azadlıq və istiqlal qızıl rus ordusu tərəfindən üstün qüvvələrlə, qanla və atəşlə basdırıldı. Faciələr və qəhrəmanlıqlarla dolu olan bu mücadilədə on minlərlə vətəndaş şəhid oldu. 1920-ci il istilasına qarşı 1918 istiqlal haqqını müdafiə edən Qafqasiya millətləri indi 33 ildir ki, müxtəlif vasitələrlə mücadilə edirlər. Zaman-zaman dramatik şəkillər alan bu mücadilədə vaxtilə yalançı kommunist şüarlarına aldanan, yol azmış bəzi vətəndaşlar belə, bugün həqiqi milliyyətçilər və vətənpərvərlər cəbhəsinə keçmişlərdir. Yabançı istilası üzərinə əcnəbi məmləkətlərə çıxmış olan Qafqasiya emiqrantları milli istiqlal davasını mədəni dünya əfkari-ümumiyyəsinə anlatmaqdadırlar. Bu vəzifəni ifadədə nə kimi müşküllərə uğradığımızdan bəhs etmənin burada yeri deyildir. Bu qədər demək lazımdır ki, sovetlərdə kommunist rejiminə düşən millətlərin hər türlü haqq və hüquqdan məhrum qullardan ibarət cəmiyyətlər halına gəldiyini azad dünyaya anlatmaq çox çətin olmamışdır. Şükür ki, hadisələr bizə kömək edir. Dünya Sovet həqiqətini görməyə başlayır. Səkkiz ildən bəri hərbi bitirmişkən sülhə qovuşa bilməyən dünya artıq məsələni anlayır. Bilir ki, azadlıq və insan haqlarını inkar edən kommunistlər müəzzəm bir dövlət halında ayaqda durduqca və dünya inqilabı atəşi ilə yandırmaq könlündən keçdikcə yer üzündə heç bir zaman sülh və asayiş buluna bilməyəcəkdir.

Azadlıq cahanşümul bir fikirdir. "Bir tək əsir insan, bir tək əsir millət qaldıqca, dünya həqiqi azadlıq və əmniyyət üzü görə bilməz".

1918-ci ilin Mayısındakı tarixi qərarları ilə azad millətlər cəbhəsində yer alan Qafqasiya millətlərinin müqəddəratları azad millətlərin müqəddəratları ilə bağlanmışdır.

Rusiyadan ayrılmanın bir irtica, başqalarından ayrılmanın bir inqilab olduğunu söyləyən sovet diktatoru Stalin ölmüşdür, amma onun ikiüzlü sistemi – stalinizm hələ ayaqdadır. Bu sistem gün keçdikcə dünya həqiqətləri ilə daha çox qarşılaşmaqda, həqq ilə batil, yalan ilə doğru üz-üzə gəlməkdədir. Şübhəsiz ki, bir gün həqiqət parıldayacaq, azadlıq əsasını, Birləşmiş Millətlər prinsipini və insan haqlarını tutan tərəf qalib gələcəkdir.

Bu qalibiyyət günəşi qızıl istibdad zülmü altında inləyən əziz Vətənimizdə 1918-ci ilin 28 Mayısı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyiniz.

Vətəndaşlar! Üçrəngli istiqlal bayrağını döşlərində gəzdirən buradakı Vətən ayrısı bizlərdən, orada hər türlü qorxu və təhdid altında qəlbləri istiqlal eşqi ilə çırpınan azadlıq ayrısı sizlərə candan salamlar göndərir, 28 Mayıs istiqlal qurbanlarının əziz ruhları hüzurunda hörmətlə əyilir və hər iki tərəfi birləşdirən milli böyük həsrəti şairin deyişi ilə dilə gətirirəm:

**“Sən bizimsən, bizimsən, durduqca bədəndə can.**
**Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!”**
**“Azərbaycan” jurnalı, 1984, №247 Ankara.**

M.Ə.Rəsulzadə Azərbaycanın mətbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. Tədqiqatlar göstərir ki, onun 1903–1920-ci illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi-publisistik fəaliyyətini siyasi mühacirət illərində də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir. Bu dovrdə “Yeni Qafqasya” (1923), “Azəri Türk” (1928), “Odlu yurd” (1929), “Qurtuluş” (1934), “Müsavat bülleteni” (1936), “Azərbaycan” (1952) jurnallarını, “İstiqlal” (1932) qəzetini nəşr etdirmişdir. Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. M.Ə.Rəsulzadə 6 mart 1955-ci ildə Ankara şəhərində vəfat etmişdir.

### 2.4.5.2. Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyəti

Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşov (1863–1934) Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, AXC Parlamentinin sədri, Rusiyanın müsəlman-türk xalqlarının milli azadlıq hərəkatının liderlərindən biri olmuşdur. Onun babası XIX əsr Azərbaycan maarifçilərindən biri olan Mirzə Cəfər Əlimərdan oğlu Topçubaşov (1790–1869) 1819–1849-cu illərdə Peterburq Universitetinin Şərqşünaslıq fakültəsində professor olaraq çalışmış və mühazirələr oxumuşdur.

O, Tiflis gimnaziyasını (1884) və Peterburq Universitetinin hüquq fakültəsini (1888) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini başa vurduqdan sonra bir neçə il Rusiyada işləmiş, 1894-cü ildə Bakıya gələrək, hüquq-mühafızə orqanlarında çalışmış, sonralar müstəqil vəkil kimi fəaliyyət göstərmişdir. Hüquq elmlərinə dərindən bələd olan, Azərbaycan və rus dillərindən əlavə fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilən Topçubaşov tezliklə Hacı Zeynalabdin Tağıyevin diqqətini cəlb etmiş və 1897-ci ildə "Kaspi" qəzetinin redaktorluğu ona tapşırılmışdı.

Bakının ictimai-siyasi həyatında fəal iştirak edən Topçubaşov Bakı şəhər Dumasının üzvü seçilmiş, bir müddət onun sədri olmuşdur. I rus inqilabı (1905–1907) Rusiyada yaşayan türk-müsəlman xalqlarının milli şüurunun oyanmasında mühüm rol oynamışdır. Bu dövrdə müsəlman xalqlarının azadlıq mübarizəsinin təşkilində Ə.Topçubaşovun əvəzsiz xidmətləri olmuşdur. İnqilabın gedişində Azərbaycanda da genişlənən petisiya kampaniyasında Ə.Topçubaşovun əməyi son dərəcə böyükdür. Bütün petisiyalar – xahişnamələr, müraciətlər və i.a. bilavasitə onun iştirakı ilə tərtib və təqdim edilirdi. 1905-ci ilin aprelində Cənubi Qafqaz müsəlmanları adından Rusiya Nazirlər Kabinetinə təqdim edilən petisiyalar da Ə.Topçubaşov tərəfindən tərtib olunmuşdur. Ə.Topçubaşov Ümumrusiya müsəlmanlarının 1905-ci il avqustun 15-də Nijni Novqorodda keçirilən birinci qurultayına sədrlik etmiş, qurultay onun çıxışı ilə açılmışdı. Çıxışda deyilirdi: "Biz türk övladları, əslimiz bir, nəslimiz bir, dinimiz birdir. Qərbdən Şərqə qədər bizim

atalarımızın mülkü idi. Atalarımız o qədər qəhrəman millət olduqları halda, bugün Qafqaz dağlarında, Krım bağlarında, Kazan çöllərində və Orta Asiya ovalıqlarında, atalarımızın mülkü olan öz vətənimizdə, öz torpaqlarımızda öz ehtiyaclarımızı bildirməyə imkanımız qalmamışdır".

Topçubaşov Rusiya müsəlmanlarının sonrakı qurultaylarının da keçirilməsində müstəsna rol oynamışdı. Rusiya müsəlmanlarının 1906-cı il yanvarın 13-23-də Peterburqda keçirilən II qurultayı Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanmış "Ümumrusiya Müsəlmanları İttifaqı" partiyasının nizamnamə və proqram layihələrini bəyəndi, təkmilləşdirilmək şərti ilə, qəbul üçün növbəti qurultaya təqdim olunmasını tövsiyyə etdi. 1906-cı il avqustun 15–21-də Nijni Novqorodda keçirilən III qurultayda "Ümumrusiya Müsəlmanları İttifaqının proqramı qəbul olunmuş və Ə.Topçubaşov partiyanın sədri seçilmişdi. Bununla bağlı qurultayda çıxış edən Ə.Topçubaşov demişdi: "Ey mömінlər, ey qardaşlar. Mən bugün o qədər məmnun oldum ki, bu məmnuniyyətimi sizə heç bir dillə tərif edə bilmirəm. Mən bu günü heç vaxt unutmayacağam. Bugünün indən belə Ümumrusiya müsəlmanları üçün milli bayram günü olacağı şübhəsizdir".

Bakı quberniyasından I Dövlət Dumasına deputat seçilən (1906) Ə.Topçubaşovun təşəbbüsü ilə Dumada müsəlman fraksiyası yaradılmışdı. Topçubaşov həm fraksiyanın sədri, həm də 7 nəfərlik büro üzvündən biri idi. Dumadakı fəalliyyəti dövründə çarizmin ucqarlarda yeritdiyi milli ayrı-seçkilik siyasətini kəskin tənqid etmişdi. Aqrar komissiyanın məruzəsinin müzakirəsində iştirak edən Ə.Topçubaşov komissiyanın məlumatının geniş şəkildə nəşr olunmasını zəruri sayır və bir "ucqarlı", "qafqazlı" kimi təklif edirdi ki, məlumat təkcə dövlət dilində deyil, həm də, imkan daxilində, "yerli dillərə" də tərcümə olunub dərc edilsin. O deyirdi: "Bütün Rusiya təbəələrinin hüquq bərabərliyi, vicdan azadlığı, söz azadlığı, şəxsiyyətin toxunulmazlığı, kəndlilərə torpaq verilməsi kimi məsələlərin işlənib hazırlanmasında, bu qəbildən olan ümumi dövlət məsələlərində milli xarakterli heç bir məsələyə yol verilə bilməz. Rusiyanın bütün xalqlarının mənafeləri buna yol vermir, dövrün bütün şəraiti bunun əleyhinədir".

Dumanın müsəlman fraksiyasının, o cümlədən Azərbaycan deputatlarının siyasi amalı Ə.Topçubaşovun "Müsəlman parlament fraksiyası" məqaləsində dəqiq ifadə olunmuşdu: "Müsəlman proqramı ciddi surətdə konstitusiya əsasları üzərində dayanaraq, torpaqların milliləşdirilməsi, din məsələlərində tam muxtariyyət, bütün imperiya ərazisində özünü idarə edən kiçik vahidlərin və vilayət məclislərinin təsis edilməsi ilə yerlərdə geniş muxtar idarəçilik prinsipini irəli sürür".

Ə.Topçubaşov Dumanın buraxılmasına etiraz edən deputatların Vıborq müraciətnaməsini imzaladığına görə üç ay həbs cəzasına məhkum olunmuş, Dumaya seçilmək hüququndan məhrum edilmiş, "Kaspi" qəzetinə rəhbərlikdən uzaqlaşdırılmış, Bakı şəhər Duması üzvlüyündən çıxarılmışdı. Buna baxmayaraq, Ə.Topçubaşov II Dövlət Duması Müsəlman fraksiyasının əməli işlərində xüsusi fəallıq göstərirdi. O, dəfələrlə Peterburqa getmiş, bəzən isə müsəlman parlament fraksiyası və Ümumrusiya Müsəlman İttifaqı Mərkəzi Komitəsi üzvlərinin Dumada müzakirəyə çıxarılan qanun layihələri, həmçinin sorğular üzrə fraksiyanın ümumi mövqeyini işləyib hazırlayan iclaslarına sədrlik etmişdi. Dövlət Dumasının müsəlman deputatları və "İttifaqi-müslimin" partiyasının üzvləri Topçubaşovun fəaliyyətini davam etdirməsi üçün Moskvada "Daimi təmsilçilik" bürosu açmışdılar. Moskvada Əlimərdan bəyin rəhbərliyi ilə tez-tez toplantılar keçirilmiş müxtəlif məsələlər, o cümlədən "Torpaq islahatı" məsələsi müzakirə olunmuş, onun hüquq elmləri sahəsində bilik və təcrübəsindən geniş istifadə edilmişdir. Rusiya müsəlmanlarının digər görkəmli şəxsiyyəti, Baxçasarayda (Krım) çıxan "Tərcüman" qəzetinin naşiri və redaktoru İsmayıl bəy Qaspralı 1908-ci il aprelin 11-də Topçubaşova yazdığı məktubda onun fəaliyyətini yüksək qiymətləndirmişdir: "Əzizim Mərdan! Hər şeydən əvvəl, sən Peterburqda qalmalısan... kütbeyinlər və yaramazlar istisna olmaqla, sağlam düşüncəli bütün insanlar sənin Peterburqda olmağının əhəmiyyətini anlayır. Ona görə də sən orada qalmalı və yaşamalısan. Sonra hər hansı hadisə baş versə belə, səni, sənin biliyini, təcrübəni və ürəyini xalqdan heç kim məhrum edə bilməz və bunu sən bilməlisən ki, sən xalqa daha çox lazımsan".

Lakin 1905–1907-ci illər inqilabının məğlubiyyətindən sonra irticanın yenidən baş qaldırması nəticəsində Ə.Topçubaşov 1910-cu ildə Moskvanı tərk edərək, Bakıya dönməli olmuşdur.

Topçubaşov 1914-cü ildə Bakıda 45 nəfərdən ibarət “Məşvərət məclisi” təşkil etmiş, müsəlmanların “Tələblər paketi”ni hazırlayaraq, çar hakimiyyəti orqanlarına göndərmişdir. O, 1916-cı ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmişdir. Rusiya Dövlət Şurasının müşavirəsində (12–15 avqust 1917, Moskva) Topçubaşov Rusiya müsəlmanlarının 8 demokratik təşkilatı adından geniş nitq söyləmiş, Rusiyada “dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarını təyini şüarının qoyulduğunu” da bəyan etmişdir. Topçubaşov 1917-ci ilin sonuna kimi Müsəlman Milli Komitəsinə sədrlik etmiş, həmin il Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, Topçubaşov yeni yaranmış müstəqil milli dövlətin dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərmişdir. Fətəli xan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi II hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən xarici işlər naziri olmuş, avqustun 23-də isə Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdir. İstanbulda qızğın diplomatik fəaliyyət göstərən Topçubaşov 1918-ci il oktyabrın 2-dən 1919-cu il yanvarın 16-dək burada 36 rəsmi görüş keçirmiş, danışıqlar aparmış, 1919-cu il yanvarın 10-da Sultan Mehmetlə görüşmüşdür. Əlimərdan bəy Sultana “... azərbaycanlıların bədxahları həmişə olub və yenə də var. Amma, Sizi əmin etməyə cürət edirəm ki, Azarbaycan türkləri heç vaxt bu düşmənlərdən qorxmamışlar. Çünki, bilirdilər ki, onların Türkiyə kimi böyük dostu var” dedikdə, Sultan “Dostu yox, qardaşı!” deyə onun sözlərinə düzəliş etmişdir.

İstanbulda olarkən Əlimərdan bəy İngiltərənin, ABŞ-ın, İtaliyanın, Hollandiyanın, İsveçin, İranın, Ukraynanın buradakı səlahiyyətli nümayəndələri – İranın xarici işlər naziri M.Əliqulu xanla, Rusiyanın keçmiş xarici işlər nazirləri P.Milyukov və S.Sazonovla, Ermənistanın Paris Sülh Konfransına gedən

nümayəndə heyətinin rəhbəri A.Aqaronyan və başqaları ilə görüşmüşdür.

Topçubaşovun İstanbulda yaratdığı Azərbaycan mətbuat bürosu ölkə haqqında məlumat toplamaq, yaymaq və Azərbaycanı xaricdə tanıtmaq işində mühüm xidmət göstərmişdir. Topçubaşov Qafqaz millətlərinin vahid bir federasiyada birləşməsini istəyirdi. O, hesab edirdi ki, bununla xalqlar aralarındakı münasibətləri daha yaxşı qura və kənar müdaxilələrin qarşısını birlikdə daha uğurla ala bilərlər. İstanbuldan hökumətin sədri F.Xoyskiyə yazdığı 1918-ci il 16 dekabr tarixli məktubda Cənubi Qafqaz cümhuriyyətlərinin Paris Sülh Konfransında vahid nümayəndə heyəti ilə çıxış etməsi təklif olunurdu. Topçubaşov məktubda bu məsələ ilə əlaqədar konfrans iştirakçısı olan ölkələrə xüsusi memorandumla müraciət etdiyini də bildirirdi. Bununla belə, Topçubaşov ermənilərin bu işə razı olacaqlarına şübhə ilə yanaşırdı, "...çünki ermənilərin iştahası çox böyükdür və həm də bu iştahalarını özgələrinin, ilk növbədə isə, bizim hesabımıza doydurmaq istəyirlər. Az qala, bütün paytaxtlarda bizim mənafeyimizin zərərinə təbliğat aparır, bizi dövlət həyatı qurmağa qabil olmayan və başqa millətlərlə barışmaz millət kimi qələmə verirlər".

Topçubaşovun İstanbulda fəaliyyət göstərdiyi dövr Osmanlı dövlətinin hərbi və sosial-iqtisadi vəziyyətinin ən böhranlı zamanlarına təsadüf edir. Birinci Dünya müharibəsində (1914–1918) Almaniya–Osmanlı ittifaqı məğlub olduqdan sonra Türkiyə Mudros barışığı (1918*)* ilə razılaşmaq məcburiyyətində qaldı.

Ə.Topçubaşov noyabrın 3-də İstanbulda Mudros barışığını imzalamış dənizçilik naziri, Batum və Trabzon konfranslarında Türkiyə nümayəndə heyətinin rəhbəri Rauf bəylə, noyabrın 4-də xarici işlər nazirinin müavini Rəşid Hikmət bəylə, noyabrın 5-də isə xarici işlər naziri Naib bəylə görüşərək, onun Azərbaycana aid 11 və 15-ci maddələri ilə əlaqədar öz etirazını bildirmişdi. Onlar cavablarında məğlub tərəf kimi, Türkiyənin bu barışığı imzalamaq məcburiyyəti qarşısında qaldığını, Azərbaycanın isə müstəqil dövlət kimi öz hüquqlarını qorumağa haqlı olduğunu bildirmişdilər.

1918-ci il dekabrın 7-də öz işinə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti elə ilk iclasında Məhəmməd Əmin

Rəsulzadənin təklifi ilə bu zaman İstanbulda olan Topçubaşovu, qiyabi olaraq, Parlamentin sədri seçmişdir. Dekabrın 28-də Azərbaycan Hökumətinin və Parlamentin ağsaqqallar Şurasının birgə iclasında Ə.Topçubaşov Paris Sülh Konfransına (1919–1920) göndərilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin sədri təyin olundu və İstanbuldan birbaşa Parisə yola düşdü.

Böyük çətinliklərdən sonra, nəhayət, 1919-cu il mayın birinci ongünlüyündə Parisə gəlib çatan nümayəndə heyətinin apardığı intensiv diplomatik görüşlər, danışıqlar getdikcə öz bəhrəsini verməyə başlamışdı. ABŞ Prezidenti V.Vilsonun təşəbbüsü ilə İngiltərə, Fransa və İtaliya dövlət başçıları səviyyəsində Azərbaycan məsələsinin gündəliyə salınaraq, müzakirə olunduğu yığıncaqda bilavasitə Prezident Vilsonun Ə.Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı olaraq tanıması və Azərbaycanın Paris Sülh Konfransına qatılması təklifı qəbul edilmişdi. 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının birinci ildönümü günü ABŞ prezidenti V.Vilson başda Topçubaşov olmaqla, Azərbaycan nümayəndə heyətini qəbul etmişdi. Görüşdə Topçubaşov ABŞ nümayəndə heyətinin konfransda Azərbaycanı dəstəkləməsini V.Vilsondan xahiş etmiş və ona müraciətində demişdi: "Qüdrətli Amerikanın nümayəndəsi kimi Sizə müraciətlə xahiş edirik ki, cənab prezident, bizim ölkəmiz, xalqımız, eləcə də özümüz haqqında məlumatları bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatlar verilməsinin şahidi oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz, indi birinci dəfədir ki, Avropadayıq, lakin Sizi əmin edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq. Biz, əminik ki, bütün xalqlar kimi, Sizin böyük prinsipləriniz əsasında yardım alacağıq". Çıxışının sonunda Ə.Topçubaşov qətiyyətlə demişdi: "Biz bildiririk ki, nə Kolçakı, nə Denikini, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz Parlamentimizi və öz Hökumətimizi tanıyırıq və tanıyacağıq". Ə.Topçubaşov Qafqaz xalqlarının – azərbaycanlıların, ermənilərin, gürcülərin və dağlıların

konfederasiyasının mümkünlüyünü prezident Vilsona bildirmiş və Azərbaycan Cümhuriyyəti nümayəndələrinin memorandumunu Amerika prezidentinə təqdim etmişdi.

Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin, xüsusilə onun başçısı Ə.Topçubaşovun gərgin fəaliyyəti tezliklə öz nəticələrini verdi. Nümayəndə heyəti müxtəlif partiya və fraksiyaların üzvlərindən ibarət olmasına baxmayaraq, Sülh Konfransında vahid mövqedən – gənc Azərbaycan Cümhuriyyətinin mənafeyi mövqeyindən çıxış edirdi. Ə.Topçubaşov bu barədə Bakıya – Cümhuriyyət hökumətinin sədrinə ünvanladığı 1919-cu il 6–10 noyabr tarixli məktubunda yazırdı: "Nümayəndə heyəti ayrı-ayrı partiyalara mənsub şəxslərdən təskil olunsa da, özünün indiyə qədərki fəaliyyətində bütünlüklə partiya maraqlarına deyil, Azərbaycanın mənafelərini əsas tutan ümumi mülahizələrə əsaslandığını bildirməyi özümə borc sayıram. Məncə bu, nümayəndə heyətimiz üçün müsbət haldır və onun üzvlərinə şərəf gətirir".

Parisdə olmağına baxmayaraq, o, 1919-cu ilin dekabrında yenidən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri seçilmişdi.

1919-cu ilin axırlarına yaxın Rusiyada bolşeviklərin mövqeyinin getdikcə möhkəmlənməsi, habelə müttəfiq ölkələrin son ümidi olan Denikinin, Yudeniçin və Kolçakın məğlubiyyəti, qalib dövlətlərin Rusiyanın bütövlüyunü bərpa etmək arzusunu puça çıxardı. Nəticədə, onların keçmiş çar Rusiyasına daxil olan və rus inqilabından sonra öz müstəqilliklərini elan etmiş ölkələrə münasibətləri dəyişdi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Qafqaz məsələsini çox gərgin şəraitdə müzakirə etdi və Böyük Britaniyanın xarici işlər naziri Corc Kerzonun təklifi ilə Azərbaycan və Gürcüstanın müstəqilliyini de-fakto tanıdığını açıqladı. Hazırlanan sənəd yanvarın 12-də Ali Şura üzvləri tərəfindən imzalandı, yanvarın 15-də isə Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov və Məhəmməd Məhərrəmov Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular və qərar rəsmən onlara təqdim edildi. Bu, xalqımızın və

xüsusilə Ə.Topçubaşovun rəhbərliyi ilə çox gərgin fəaliyyət göstərmiş Azərbaycan nümayəndə heyətinin böyük qələbəsi idi.

Aprel işğalından (1920) sonra Parisdə qalıb, mühacir həyatı yaşamağa məcbur olan Topçubaşov siyasi fəaliyyətini dayandırmamış, sovet nümayəndə heyətinin etirazlarına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ona verdiyi mandatla 1920-ci ilin noyabrında Millətlər Cəmiyyətinin Cenevrə toplantısında, 1920-ci ildə London və Genuya, 1923-cü ildə isə Lozanna konfranslarında iştirak etmiş, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunduğu və bolşeviklərin Azərbaycanda törətdikləri cinayətlər haqqında geniş məlumat vermişdir.

Topçubaşov siyasi fəaliyyətini digər Qafqaz respublikaları nümayəndələrinin fəaliyyəti ilə əlaqələndirməyə çalışmışdır. Bu məqsədlə onlar 1921-ci il mayın 8-də Parisdə bir araya gələrək, Qafqaz Konfederasiyası yaradılması məsələsini müzakirə etmiş, iyunun 10-da isə üç Qafqaz respublikasının səlahiyyətli nümayəndələri Topçubaşovun sədrliyi ilə keçirilən iclasda siyasi və iqtisadi ittifaq yaratmaq haqqında razılığa gəlmişdilər. Həmin iclasda Topçubaşov Azərbaycan nümayəndələrinin Qafqaz Konfederasiyasının qəti tərəfdarı olduqlarını vurğulamışdı.

Topçubaşov 1934-cü ildə, ölümündən bir qədər əvvəl, Azərbaycan Milli Mərkəzinin divan üzvü kimi, M.Ə.Rəsulzadə ilə birlikdə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfederasiyası bəyannaməsi"ni imzalamışdı.

Həyatını təkcə öz xalqının deyil, həm də bütün Rusiyanın türk-müsəlmanlarının istiqlalı uğrunda mübarizəyə həsr etmiş Topçubaşov xaricdəki digər siyasi mühacirlərlə birlikdə Azərbaycanın müstəqilliyinin bərpa olunması yolunda fəaliyyətini ömrünün sonuna qədər davam etdirmişdir. Ə.Topçubaşov 1934-cü ildə Paris şəhərində vəfat etmişdir.

### 2.4.5.3. Fətəli xan Xoyskinin dövlət quruculuğu fəaliyyəti

Fətəli xan İsgəndər xan oğlu Xoyski (1875–1920) Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olmuşdur. Əslən Cənubi Azərbaycanın Xoy Şəhərindən olan Şəki xanı Cəfərqulu xanın nəslindən olan general-leytenant İsgəndər xan Xoyskinin oğludur. Fətəli xan Xoyski Gəncə klassik gimnaziyasını, 1897-ci ildə isə Moskva Universitetinin hüquq fakültəsini birinci dərəcəli diplomla bitirmişdir. Həmin ildən Gəncə dairə məhkəməsində işə başlayan Xoyski sonradan Kutaisi dairə və qəza məhkəmələrində, Zuqdidi barışıq məhkəməsində çalışmışdır. 1904–1907-ci illərdə Xoyski Yekaterinodar (Krasnodar) dairə məhkəməsi prokurorunun müavini vəzifəsində çalışmışdır. Fətəli xan Xoyski 1907-ci ildə Gəncə quberniyasından II Dövlət Dumasına deputat seçilmişdir. Dumanın iclaslarında müsəlman deputatları fraksiyası adından çar hökumətinin ucqarlardakı ayrı-seçkilik və köçürmə siyasətinə qarşı kəskin çıxışlar etmişdir. Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğvinə dair Dövlət Dumasına təqdim edilmiş qanun layihəsini imzalayan 173 deputatdan biri də Xoyski olmuşdur. II Dövlət Duması buraxıldıqdan sonra Xoyski Gəncəyə qayıtmış, əvvəlcə dairə məhkəməsinin, sonra isə Tiflis məhkəmə palatasının andlı iclasçısı seçilmişdir.

Fətəli xan Xoyski 1913-cü ildə Bakıya köçərək, şəhər dairə məhkəməsində andlı iclasçı olmuş, Bakının ictimai-mədəni həyatında, xeyriyyə cəmiyyətlərinin işində fəal iştirak etmişdir. Rusiyada Fevral inqilabından sonra Bakıda yaradılmış Müsəlman Milli Şurası müvəqqəti icraiyyə komitəsinin üzvü seçilən Fətəli xan Xoyski 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayının təşkilatçılarından və fəal iştirakçılarından olmuşdur. 1917-ci ilin oktyabrında Bakı şəhər Dumasına seçkilərdə müsəlman bloku 10 mindən çox səs almış və bu bloku təmsil edən Fətəli xan Xoyski Dumanın sədri seçilmişdi.

1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı olan Zaqafqaziya Seymi işə başladı. Seymə

Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlar daxil idi. Seymin Müsəlman fraksiyasına mənsub 44 deputatın arasında Fətəli xan Xoyski də vardı. 1918-ci ilin aprelində elan olunan müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində Xoyski xalq maarifi naziri vəzifəsini tutdu. Məhz bu vəzifədə olarkən Fətəli xan Xoyski Tiflisdə yaradılması qərarlaşdırılmış Avropa tipli universitetin Bakıda açılması təklifini irəli sürdü və sonralar bu işin həyata keçirilməsində mühüm rol oynadı.

Cənubi Qafqazın müstəqilliyinin elanı və yeni hökumətin yaradılması regiona nə daxili və nə də xarici siyasət sahəsində heç bir yenilik gətirmədi. Zaqafqaziya Komissarlığında, sonra isə nazirliklərində fəaliyyət göstərən hər üç Cənubi Qafqaz millətinin nümayəndələri müxtəlif maraqlar üzündən vahid mövqedə birləşə bilmədilər. Belə bir şəraitdə, 1918-ci il may ayının 26-da gürcü nümayəndələri Zaqafqaziya Federasiyasından çıxıb öz istiqlaliyyətlərini elan etdilər.

Mayın 27-də Seymin azərbaycanlı deputatları fövqəladə iclas keçirərək, Azərbaycan Milli Şurası yaratdılar. Azərbaycanın idarəsini öz üzərinə götürən Milli Şura mayın 28-də keçmiş Qafqaz canişininin iqamətgahında keçirilən birinci iclasında, ətraflı müzakirələrdən sonra, Cənubi Qafqazın Cənub-Şərqində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və İstiqlal Bəyannaməsinin qəbul olunması haqqında qərar qəbul etdi. Azərbaycan Milli Şurasının üzvü Fətəli xan Xoyski yekdilliklə Azərbaycan Hökumətinin sədri seçildi və ona Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hökumətini təşkil etmək tapşırıldı. Xoyski elə həmin gün öz hökumətinin tərkibini elan etdi. Bu Hökumətdə Fətəli xan Baş nazir vəzifəsi ilə yanaşı, Daxili işlər naziri vəzifəsini də tuturdu.

1918-ci il may ayının 30-da Tiflisdə yeni müstəqil dövlətin yaradılması ilə əlaqədar təşkilati tədbirləri həyata keçirdikdən və onu bütün dünyaya bəyan etdikdən sonra, Azərbaycan Milli Şurası və Azərbaycan Hökuməti fəaliyyətini bilavasitə öz ərazisində həyata keçirmək məqsədilə 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Milli Şura və Azərbaycan Hökuməti burada mürəkkəb daxili və xarici

çətinliklərlə üzləşdi. Xoyski istefa verdi. Lakin Milli Şura Hökumətin təşkilini yenidən ona tapşırdı. Müxtəlif partiyaların nümayəndələrindən təşkil olunmuş yeni hokumətdə Xoyski Baş nazir vəzifəsi ilə yanaşı, Ədliyyə naziri vəzifəsini də tutdu. Yeni Hökumət proqramı ilə çıxış edən Xoyski bildirdi ki, Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə onun Hökumətinin başlıca vəzifəsi olacaqdır.

Azərbaycan Milli Şurası 1918-ci il 17 iyun tarixli iclasında özünün buraxılması, bütün qanunvericilik və icra hakimiyyətinin Azərbaycan Müvəqqəti Hökumətinin əlində cəmləşdirilməsi haqqında iki mühüm qətnamə qəbul etdi. Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq, Azərbaycan Milli Şurası bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış Hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin.

Fətəli xan Xoyskinin başçılıq etdiyi Hökumətin hüquq və vəzifələrindən bəhs edən ikinci sənəddə qeyd olunurdu ki, Azərbaycan Hökuməti Azərbaycanın istiqlaliyyətini və siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişməyə Hökumətə səlahiyyət verilmir, qalan məsələlərdə Hökumətə bütün hüquqlardan istifadə etmək səlahiyyəti verilirdi. F.Xoyski Hökuməti altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. Beləliklə, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atmağa başladığı son dərəcə ağır daxili və beynəlxalq şəraitdə qanunverici və icra hakimiyyətinin əsas ağırlığı Xoyskinin üzərinə düşdü.

Fətəli xan Xoyskinin ikinci Hökuməti Gəncədə çox çətin və mürəkkəb bir dövrdə fəaliyyətə başladı. Yaranmış mürəkkəb şəraitdə Hökumət, ilk növbədə, dövlət aparatının təşkili işini davam etdirdi, əsas diqqəti Nazirlər şurasının və ayrı-ayrı nazirliklərin idarə aparatlarının yaradılmasına yönəltdi.

Xoyski Hökumətinin Gəncədə ilk tədbiri iyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyətin elan edilməsi oldu. Azərbaycanın dövlət müstəqilliyini müdafiə edəcək ordunun yaradılması işinə

başlandı və avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qanun qəbul edildi. Qanuna müvafıq olaraq, 19 yaşına çatmış vətəndaşlar ordu sıralarına çağırıldı. Xoyski Hökuməti iyunun 27-də Azərbaycan (türk) dilini dövlət dili elan etmiş, iyulun 15-də daşnakların Azərbaycan xalqına qarşı törətdikləri soyqırımın vəhşiliklərini aşkara çıxarmaq məqsədilə Fövqəladə Təhqiqat Komissiyası yaratmış, avqustun 30-da Gəncənin və Cəbrayılın 26 qəzasının tarixi adlarını özünə qaytarmışdı. Paytaxt Bakıya köçürülənədək Xoyski Hökuməti bir sıra digər mühüm tədbirlər də həyata keçirmişdir. Sözun əsl mənasında, Azərbaycanın "olum, ya ölüm" məsələsinin həll edildiyi olduqca ağır və mürəkkəb olan o dövrdə ölkəyə rəhbərlik etmək son dərəcə çətin bir iş idi.

1918-ci il sentyabr ayının 17-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdükdən sonra Xoyski Hökuməti həm ictimai-siyasi, həm də təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başladı. Hökumət Parlamentin çağırılması üçün Komissiya yaratdı, daha sonra bu iş fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurasına həvalə edildi. 1918-ci il noyabrın 9-da Xoyskinin məruzəsi əsasında Hökumət Azərbaycanın üçrəngli bayrağını təsdiqlədi. Noyabrın 19-da Milli Şura Azərbaycan Parlamentinin yaradılması haqqında Hökumətin qanun layihəsini bəyəndi.

Azərbaycan Parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də açıldı. Xoyski çox mürəkkəb tarixi şəraitdə Hökumətin fəaliyyəti barədə Parlamentə hesabat verdi. Çıxışının sonunda o, istefasını qəbul etməyi Parlamentdən xahiş etdi. Parlament Hökumətin istefasını qəbul edərək, onun təşkilini yenidən Xoyskiyə tapşırdı. Fətəli xan dekabrın 26-da Hökumətin proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Geniş müzakirələrdən sonra Parlament Xoyski Hökumətinin proqramını bəyəndi və onun yeni üzvlərinə etimad gostərdi. Bu Hökumətdə Xoyski Baş nazir vəzifəsi ilə yanaşı, Xarici işlər naziri vəzifəsini də tutdu.

Azərbaycan Parlamentindəki bir sıra partiya fraksiyaları, xüsusilə Azərbaycanın istiqlalına qarşı çıxan qüvvələr, elə ilk aylardan Xoyski Hökumətinə qarşı kəskin müxalif mövqe tutdular. Bu fraksiyalar, xüsusilə "İttihad", "Əhrar" və sosialistlər Hökuməti

fəaliyyətsizlikdə təqsirləndirir, ölkənin bütün problemlərini onun üstünə yıxmağa çalışırdılar. Onların əksinə, Məhəmməd Əmin Rəsulzadə Xoyski Hökumətini müdafiə edərək bildirmişdi ki, Hökumət “bu az müddətdə, nə mümkündürsə, etmişdir”. Parlamentin 1919-cu il fevralın 5-də keçirilən iclasında cəmi beş həftə fəaliyyət göstərən Hökumət xüsusilə kəskin və qərəzli tənqidə məruz qalmışdı.

Müxalifətçi partiyalar və fraksiyaların Hökumətə qarşı yaratdığı dözülməz vəziyyətlə əlaqədar 1919-cu il fevralın 25-də Xoyski Hökuməti yenidən istefa verdi. Parlament istefanı qəbul etdi və yeni Hökumətin təşkilinə qədər Xoyski Hökumətindən fəaliyyətini davam etdirməsi xahiş olundu. Hökumət öz fəaliyyətini martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi IV Hökumətinə qədər davam etdirdi. Təcrübəli və səriştəli dövlət xadimi Fətəli xan Xoyskinin o zamankı son dərəcə mürəkkəb şəraitdə istefa verməyə məcbur olması Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratına mənfı təsir göstərdi. İstefaya çıxdıqdan sonra Xoyski Parlament üzvü kimi bir sıra siyasi, iqtisadi və maliyyə məsələlərinin həllində yenə də fəal iştirak etmiş, Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərini araşdırmaq üçün yaradılan Azərbaycan nümayəndə heyətinin sədri təyin olunmuşdu.

1919-cu ilin dekabrında Nəsib bəy Yusifbəylinin təşkil etdiyi V Hökumətin tərkibində Xoyski Xarici İşlər naziri vəzifəsini tutdu. Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən tanınmasına çalışan Xoyski bununla əlaqədar Rusiya Sovet Federativ Sosialist Respublikası xalq xarici işlər komissarı Georgi Vasilyeviç Çiçerinə dəfələrlə notalar göndərmiş, Azərbaycanın istəyinə məhəl qoymayan Rusiya Xarici İşlər komissarının Azərbaycan Xalq Cümhuriyyətini Denikin qüvvələri ilə mübarizə ittifaqına cəlb etmək barədə məkrli planını cəsarətlə rədd etmişdi. Çiçerinə cavabında Xoyski birdirirdi ki, Azərbaycan Hökuməti Sovet Rusiyasının Denikinlə mübarizəsinə rus xalqının daxili işi kimi baxır və ona qarışmağı yolverilməz hesab edir.

Fətəli xan Xoyski Azərbaycan Cümhuriyyətinin ilk Hökumət başçısı kimi Azərbaycan istiqlalının elanı barədə dünya dövlətlərinə ünvanlanan radioteleqramı imzalamış, V Hökumət kabinetinin

Xarici İşlər naziri olarkən isə istiqlalın Paris Sülh Konfransı tərəfindən tanınması haqqında Parlamentdə məlumat vermişdi.

1920-ci il aprelin ortalarında 11-ci Qırmızı ordu Şimali Qafqazda Denikin qüvvələrini məğlub edərək, Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərinə yaxınlaşdı. Aprelin 15-də Xoyski Hökumət adından Sovet Rusiyası hökumətinə nota göndərsə də, nota cavabsız qaldı və aprelin 27-də 11-ci Qırmızı ordu beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycan sərhədlərini keçdi və Bakıya doğru hücum əməliyyatına başladı. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyuldu.

Aprel işğalından sonra Tiflisə mühacirət etməyə məcbur olan F.Xoyski 1920-ci il iyunun 19-da "Daşnaksutyun"un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirildi və Azərbaycan qəbiristanlığında Mirzə Fətəli Axundovun qəbrinin yanında dəfn olundu.

### 2.4.5.4. Nəsib bəy Yusifbəylinin Cümhuriyyət quruculuğunda xidmətləri

Görkəmli dövlət və siyasi xadim Nəsib bəy Yusif oğlu Yusifbəyli (1881–1920) Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və hökumət başçılarından biri olmuşdur. O, Gəncə klassik gimnaziyasını bitirmiş və 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. 1907-ci ildə tələbələrin inqilabi mübarizəsindən qorxuya düşən çar hökuməti universiteti müvəqqəti olaraq bağladıqdan sonra, Nəsib bəy Bağçasaray şəhərinə (Krım) getmiş, burada İsmayıl bəy Qaspralının nəşr etdiyi "Tərcüman" qəzetində əməkdaşlıq etmişdir. Qaspralının qızı Şəfiqə Soltan xanımla evlənərək, bir müddət orada yaşamışdır. Krım tatarlarının ədəbi-mədəni həyatında fəal iştirak etmişdir. Ehtiyac üzündən təhsilini yarımçıq qoyan Nəsib bəy çar xəfıyyələrinin təqibindən yaxa qurtarmaq üçün 1908-ci ildə Türkiyəyə mühacirət etmişdir. 1909-cu ildə Gəncəyə qayıdaraq, şəhər bələdiyyəsində çalışan və tez-tez Bakıya gələn Yusifbəyli burada "Açıq söz" qəzeti redaksiyasında onun redaktoru Məhəmməd Əmin Rəsulzadəilə tanış olmuşdur.

Fevral inqilabından dərhal sonra 1917-ci ilin mart ayında Nəsib bəy Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını yaratmış, 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz və həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanları qurultaylarında iştirak etmişdir. 1917-ci ilin iyununda Türk Ədəmi-Mərkəziyyət partiyası M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə birləşmiş, yeni partiya "Türk Ədəmi-Mərkəziyyət firqəsi Müsavat" adlanmışdır. Yusifbəyli bu partiyanın oktyabrın 26-31-də Bakıda keçirilən və Azərbaycanın siyasi həyatında böyük hadisəyə çevrilən I qurultayının hazırlanmasında və keçirilməsində fəal iştirak etmiş, partiya proqramının müəlliflərindən biri olmuş, onun mərkəzi komitəsinin üzvü seçilmiş, Gəncə şöbəsinə rəhbərlik etmişdir.

Rusiya Müəssislər məclisinə nümayəndə seçilən, lakin 1917-ci ildə Oktyabr çevrilişi baş verdiyi üçün Petroqrada gedə bilməyən Yusifbəyli Zaqafqaziya seyminin yaradılmasında fəal iştirak etmiş, 1918-ci il aprelin 22-də elan olunan Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində maarif naziri vəzifəsini tutmuş, milli siyasətin ən çətin və ən məsul vəzifələrini icra etmişdir. M.Ə.Rəsulzadə qeyd etmişdir ki, "Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir".

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra F.Xoyskinin təşkil etdiyi I hökumət kabinetində Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini, Xoyskinin II və III hökumət kabinetlərində də xalq maarifı və dini etiqad naziri vəzifələrini tutmuşdur. Xalq maarifi nazirliyinin həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi idi. Bu vəzifəni həyata keçirrnək üçün isə təhsil sistemini milli zəmin üzərində tamamilə yenidən qurmaq və Azərbaycan dilini mükəmməl bilən ixtisaslı milli kadrlar yetişdirmək tələb olunurdu. Məhz buna görə N.Yusifbəylinin təqdimatı ilə hökumət 1918-ci il avqustun 28-də Azərbaycan məktəblərinin milliləşdirilməsi haqqında qərar qəbul etdi. Xalq Maarifı Nazirliyinin səyləri nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsilli məktəbi fəaliyyət göstərirdi.

1919-cu ildə IV hökumət kabinetinin təşkil eilməsi Yusifbəyliyə tapşırıldı və aprelin 14-də elan olunan tərkibdə o, baş nazir vəzifəsindən əlavə, daxili işlər naziri vəzifəsini də tutdu. Parlamentdə daxili və xarici siyasət haqqında hökumət proqramı ilə çıxış edən N.Yusifbəyli bildirmişdi ki, hökumətin xarici siyasət sahəsində başlıca məqsəd və vəzifəsi böyük dövlətlərin Azərbaycanın istiqlaliyyətini tanımasına nail olmaq, ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq, daxili siyasət sahəsində isə iqtisadiyyatı dirçəltmək, əhalinin sosial rifahını yaxşılaşdırmaq, demokratik azadlıqları, o cümlədən söz, mətbuat, yığıncaq və s. azadlıqları təmin etməkdir. Yusifbəylinin başçılıq etdiyi hökumət Denikin qüvvələrinin xaricdən, bolşeviklərin isə daxildən törətdikləri təhlükələrlə qarşılaşırdı. İyunun 5-də keçirilən parlament iclasında Denikinin könüllü orduları ilə bağlı məsələ təkrar müzakirə olundu. Denikin təhlükəsi ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Yusifbəylinin 1919-cu ilin dekabrında özünün təşkil etdiyi II hökumət kabineti 1920-ci ilin martına kimi fəaliyyət göstərdi. Yusifbəylinin baş nazir olduğu dövrdə Azərbaycan xalqının tarixində ən mühüm hadisə 1920-ci il yanvarın 11-də Azərbaycanın istiqlaliyyətinin böyük dövlətlər tərəfindən de-fakto tanınması oldu. Bu münasibətlə yanvarın 14-də Yusifbəylinin Azərbaycan xalqına etdiyi müraciətdə deyilirdi: "Azərbaycanın müstəqilliyi Böyük Avropa millətlərinin Ali Şurası tərəfindən yekdilliklə tanınmışdır. Azərbaycanın Qərb xalqları ailəsinin tamhüquqlu üzvlüyünə daxil olması onun tarixində ən işıqlı gündür. Bugündən onun mənəvi qüvvələrinin yeni çiçəklənmə dövrü başlanır. Hökumət inanır ki, bütün vətəndaşlar yenidən hər hansı bir maneə və təhlükə yaranarsa belə, azad və müstəqil Vətənin xoşbəxtliyini təmin etmək üçün birləşəcəklər. Yaşasın müstəqil Azərbaycan xalqı!"

Bakı Dövlət Universitetinin yaradılması, 100 nəfərə yaxın azərbaycanlı gəncin Avropanın müxtəlif ali məktəblərinə göndərilməsi, torpaq islahatları haqqında qanun layihəsinin hazırlanması, savadsızlıqla mübarizə kurslarının açılması, məktəb dərsliklərinin hazırlanması və nəşrinə başlanılması da Yusifbəyli

hökuməti dövrünün mühüm hadisələri sırasındadır. Yusifbəyli hökumətinin qəbul etdiyi son qərarlardan biri hərbi ordenlərin, milli himnin, dövlət gerbi və möhürü layihələrinin hazırlanması haqqında 1920-ci il 30 yanvar tarixli qərar idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti öz planlarını axıra qədər həyata keçirə bilmədi. Diplomatik əlaqə yaratmaq haqqında Azərbaycan hökumətinin bütün təkliflərini cavabsız qoyan sovet Rusiyası tərəfindən təhlükənin artdığı və işğal üçün zəmin hazırlayan daxili qüvvələrin fəallaşdığı şəraitdə Yusifbəylinin başçılıq etdiyi II hökumət 1920-ci il martın 30-da istefa verməyə məcbur oldu. Məmməd Həsən Hacınskinin yeni hökumət (VI kabinet) təşkil etmək cəhdi uğursuzluqla nəticələndi. Aprelin sonlarında sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və 11-ci Qırmızı ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Paris Sülh Konfransının (1919–1920) iştirakçısı olan dövlətlər tərəfindən tanınmış müstəqil Azərbaycan dövləti – Azərbaycan Xalq Cümhuriyyəti aradan qaldırıldı və onun ərazisi işğal olundu. 1920-ci il aprelin 28-də bolşeviklər Bakını işğal etdikdən sonra Nəsib bəy Yusifbəyli ölkəni tərk edərkən yolda qarətçilər tərəfindən faciəvi surətdə qətlə yetirilmişdir.

### 2.4.5.5. Mirzə Bala Məmmədzadənin ictimai-siyasi baxışları

Mirzə Bala Məmmədzadə (1898–1959) Azərbaycan Milli İstiqlal Hərəkatının görkəmli xadimlərindən biri olmuşdur. O, 1914-cü ildə Bakıdakı 7-ci "rus-tatar" məktəbini, 3-cü ali ibtidai məktəbi bitirdikdən sonra təhsilini Bakı Texniki Sənaye Məktəbində davam etdirmişdir. Ədəbi yaradıcılığa təhsil illərində başlamış, 1912-ci ildə İsa bəy Aşurbəyovun "Kaspi" mətbəəsində "Nəfı-elm və yaxud elmin sonu" adlı kitabı çap olunmuşdur. Fevral inqilabından sonra açıq siyasi fəaliyyətə qoşulmuş, "Müsavat" partiyası sıralarına daxil olmuşdur. "Açıq söz", "Bəsirət" və s. mətbuat orqanlarında dövrün siyasi problemləri ilə bağlı məqalələr dərc etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra M.B.Məmmədzadə "Müsavat" partiyası nəzdində yaradılmış "Gənclər cəmiyyəti"nin orqanı "Gənclər yurdu" (1918, iyun-noyabr) jurnalının redaktoru (T.F.Hacızadə ilə birgə) olmuşdur. Həmin dövrdə Mirzə Balanın Tiflisdə "İki inqilab arasında" adlı kitabı çap edilmişdi. Kitabda 1905–1917-ci illər arasında Azərbaycanda mətbuat, maarif, ədəbiyyat, teatr, din və qadın məsələləri tarixinə ümumi nəzər salınırdı.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində stenoqrafçı işləyən M.B.Məmmədzadə 1919-cu ilin oktyabrında "Müsavat" partiyası Bakı Komitəsinin üzvü seçilmişdi. Həmin ilin sentyabrında Azərbaycan Dövlət Teatrında onun 1918-ci il mart soyqırımından bəhs edən "Bakı uğrunda mübarizə" pyesi tamaşaya qoyulmuşdu.

Aprel işğalından sonra M.B.Məmmədzadə Bakıda "Müsavat"ın gizli təşkilatının rəhbəri olmuş, 1923-cü ilə qədər onun orqanı olan "İstiqlal" qəzetini nəşr etdirmişdir. Həmin dövrdə Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi və orta məktəbdə müəllim işləyən M.B.Məmmədzadə mətbuatla əlaqəsini kəsməmiş, "Yeni yıldız" jurnalında Azərbaycan tarixinə dair silsilə məqalələr dərc etdirmiş, 1922-ci ildə Bakıda "Azərbaycan türk mətbuatı" adlı kitabı nəşr olunmuşdur.

1923-cü ilin iyulunda "İstiqlal" qəzeti mətbəəsinin yeri hökumət orqanları tərəfindən aşkar edildikdən sonra "Müsavat"ın gizli təşkilatının üzvləri həbs olunduqda M.B.Məmmədzadə həbsdən qurtula bilmiş, həbs olunanların bir qrupunun sovet hakimiyyətini müdafiə etmələri barədə verdikləri bəyanatın əleyhinə vərəqələr yaymışdır. 1924-cü ilin yayına qədər gizli fəaliyyət göstərən M.B.Məmmədzadə mayda İranın Ənzəli şəhərinə gedərək, buradakı mühacirlərin fəaliyyətinə başçılıq etmişdir. Bir müddət Təbrizdə yaşayan, sonra isə Sulduz şəhəri ətrafında şosse yolu çəkilişində mühəndis-texnik işləyən M.B.Məmmədzadə İstanbulda M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan "Yeni Qafqasya" jurnalına məqalələr göndərmişdir.

Bolşevizmin, sovet ideologiyası və rejiminin, partiya-sovet aparatının tərkib hissəsi kimi bolşevik mətbuatının ifşası M.B.Məmmədzadənin bu dövr publisistikasının əsas mövzularından

idi. M.B.Məmmədzadə 1927-ci ildə İstanbula köçmüş, elə həmin il İstanbulda onun “Azərbaycan misaqi-millisi: 28 Mayıs İstiqlal Bəyannaməsinin təhlili”, “Ermənilər və İran” kitabları çap olunmuşdur. M.Ə.Rəsulzadənin redaktorluğu ilə çıxan “Azəri türk” (1928–1931) və “Odlu yurd” (1929–1931) jurnalları, habelə “Azərbaycan yurd bilgisi” jurnalı ilə də yaxından əməkdaşlıq etmişdir. “Azəri türk” və “Odlu yurd” jurnallarının əsas yazarlarından olan Mirzə Balanın “Fətəli xan Xoyski”, “Doktor Həsən bəy” adlı məqalələri Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərini səciyyələndirmək baxımından çox qiymətlidir.

M.Məmmədzadənin “Bolşevizm və türkçülük”, “Azərbaycan və bolşeviklər”, “Mədəniləşdirmə ünvanı altında ruslaşdırma”, “Kommunistlər və istila”, “On illik istismar”, “Rusiya əsarətində türk Bakı”, “Sovet Azərbaycanında Hürriyyəti-mətbuat”, “Yeni türk əlifbası və bolşevik mətbuatı” və s. məqalələrində bolşevizmin iç üzü açılır, sovet hakimiyyətinin antimilli siyasəti ifşa olunur. M.B.Məmmədzadə mühacirət illərində İstanbul Universitetinin hüquq fakültəsini bitirmişdir.

1931-ci ildə Sovet İttifaqının tələbi ilə Türkiyə hökuməti “Müsavat”ın xarici bürosunun Türkiyədə fəaliyyətini qadağan etdikdən sonra, M.Ə.Rəsulzadə və onun digər silahdaşları ilə birlikdə M.B.Məmmədzadə də İstanbulu tərk edərək Varşavaya köçdü. Bu dövrdə onun Berlində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan “İstiqlal” (1932–1934) qəzetində və “Qurtuluş” (1934–1938) jurnalında Azərbaycanın istiqlalı probleminə aid xeyli məqaləsi çap olunmuşdur. M.B.Məmmədzadə “Milli Azərbaycan "Müsavat" xalq firqəsi”nin 1936-cı ildə Varşavada keçirilmiş konfransında yaxından iştirak etmişdir.

“Müsavat” partiyasının nəşr etdiyi bülletenlərdə rus müstəmləkə üsuli-idarəsini ifşa edən xeyli məqaləsi dərc olunmuş, Polşada keçirilən bir neçə elmi konfransda məruzə ilə çıxış etmişdir. 1938-ci ildə Berlində “Qurtuluş” jurnalı mətbəəsində Mirzə Bala Məmmədzadənin “Milli Azərbaycan hərəkatı. Milli Azərbaycan "Müsavat" xalq firqəsinin tarixi” adlı kitabı çapdan çıxmışdır.

İkinci Dünya müharibəsinin başlanması və Polşanın Almaniya tərəfindən işğalı ilə əlaqədar yenidən İstanbula köçən

M.B.Məmmədzadənin “Milliyyət” və “Cümhuriyyət” qəzetlərində, “Türk ensiklopediyası”nda, “İslam ensiklopediyası”ında və digər nəşrlərdə Azərbaycan tarixinə dair çoxlu məqaləsi dərc edilmişdir.

1949-cu ildə M.B.Məmmədzadənin yaxından iştirakı ilə Ankarada “Azərbaycan Kültür Dərnəyi”nin əsası qoyulmuş, 1951-ci ildə “Azərbaycan tarixində türk Albaniya” adlı əsəri həmin dərnək tərəfindən çap olunmuşdur. 1952-ci ildən Ankarada onun “Azərbaycan Kültür Dərnəyi”nin “Azərbaycan” jurnalında da Azərbaycan tarixi ilə bağlı çoxsaylı məqaləsi dərc edilmişdir. Jurnalda Mirzə Bala Məmmədzadənin “Qafqaz ölkələri istiqlal elanın 40-cı ildönümü münasibətilə” adlı iri həcmli məqaləsi Qafqaz problemini, bu regionun beynəlxalq aləmdə yerini və rolunu düzgün dəyərləndirmək baxımından əhəmiyyətlidir.

1951-ci ildə Visbaden konfransında siyasi mühacirətin görkəmli nümayəndələri Ceyhun bəy Hacıbəyli, Əkbər ağa Şeyxülislamov və İsmayıl Əkbərin “Vahid antibolşevik cəbhə” yaradılması haqqında Rusiya mühacirət təşkilatları ilə müştərək bəyannamə imzalamaları Azərbaycan mühacirət təşkilatlarının ciddi narazılığına səbəb oldu.

O, 1954-cü ildən Münhendəki SSRİ-ni öyrənən institutda çalışmış, burada iki il Elmi Şuranın sədri, iki il isə sədr müavini vəzifəsini icra etmişdi. Türkiyənin bir çox qəzet və jurnallarında da onun SSRİ-dəki totalitar rejimi kəskin tənqid edən məqalələri dərc olunmuşdur. Onun “Proletar ədəbiyyatı milliyyətçi ədəbiyyatın vahid cəbhəsi qarşısında”, “Ədəbi hakimiyyət qovğası”, “Azəri türk ədəbiyyatının dünəni və bugünü”, “Müasir Azərbaycan şairləri”, “Romantik və realist cərəyanlarının mücadiləsi”, “Milli dil və milli kültür”, “Cəfər Cabbarlı”, “Mirzə Ələkbər Sabir”, “Sovet dil siyasətinin bugünkü səhifəsi”, “Dədə Qorqud”, “Milli dastanlarımıza dair” və s. məqalələrində ədəbiyyatımızın dünəni və bugünü ilə bağlı mülahizələr irəli sürülür, Azərbaycanda yeridilən ruslaşdırma siyasətinin (dil, mədəniyyət, ədəbiyyat və s. sahələrdə) mahiyyəti aşkarlanır.

M.B.Məmmədzadənin “Mirzə Bala”, “Nuhoğlu”, “A.Kut”, “M.M.Məmmədzadə”, “M.B.Daşdəmir” və “Əli Kutluk” imzaları ilə 2000-dən çox məqaləsi vardır.

1955-ci ildə M.Ə.Rəsulzadənin vəfatından sonra "Müsavat" partiyasına və Azərbaycan Milli Mərkəzinə M.B.Məmmədzadə rəhbərlik etmişdir. O, 1957-ci il iyulun 26-da Münhendə keçirilən "Qırx illik sovet hakimiyyəti" adlı elmi konfransın təşkilatçısı olmuşdur. Mirzə Bala Məmmədzadə 1959-cu ildə martın 8-də vəfat etmişdir. İstanbulda Qaracaəhməd məzarlığında dəfn edilmişdir.

### 2.4.5.6. Üzeyir bəy Hacıbəylinin ictimai-siyasi fəaliyyəti

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (1885–1948) dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq, ictimai xadim, müasir Azərbaycan peşəkar musiqisinin və milli operasının banisi, xalq artisti, Elmlər Akademiyasının həqiqi üzvü, professor, Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru olmuşdur. O, 1899–1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Onun dünyagörüşünün formalaşmasında Seminariya böyük rol oynamışdır. Üzeyir bəy Hacıbəyli Seminariya illərində qabaqcıl dünya mədəniyyəti, rus və Qərbi Avropa musiqi klassiklərinin əsərləri ilə yaxından tanış olmuş, skripka çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. 1905-ci ildə Bakıya köçərək, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demiş, 1907-ci ildə Bakıda "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir.

Üzeyir bəy Hacıbəyli bədii yaradıcılığa publisistika ilə başlamış, "İttihad", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, sosial, mədəni-maarif məsələlərinə dair çoxlu publisistik məqalə, felyeton, hekayə və satirik miniatürlər dərc etdirmiş, Nikolay Vasilyeviç Qoqolun "Şinel" povestini Azərbaycan dilinə çevirmişdir.

Üzeyir bəy Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən “Leyli və Məcnun” operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Bəstəkar operanın librettosunu Məhəmməd Füzulinin eyni adlı poeması əsasında yazmışdır. Üzeyir bəy Hacıbəyli 1909–1915-ci illərdə bir-birinin ardınca “Şeyx Sənan” (1909), “Rüstəm və Söhrab” (1910), “Şah Abbas və Xurşid banu” (1912), “Əsli və Kərəm” (1912), “Harun və Leyla” (1915) muğam operalarını bəstələmişdir. Bu operaları bəstəkar xalq dastanları, rəvayətləri və Firdovsinin “Şahnamə” eposunun motivləri əsasında yazmışdı. Üzeyir bəy Hacıbəylinin dramaturgiya sahəsindəki fəaliyyəti Azərbaycan ədəbiyyatında mühüm yer tutur. O, Azərbaycanda musiqili komediya janrının yaradıcısı və mətnin müəllifidir. Onun “Ər və arvad” (1910), “O olmasın, bu olsun” (1911), “Arşın mal alan” (1913) musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır.

Üzeyir bəy Hacıbəyli 1912-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il Filarmoniya Cəmiyyətinin musiqi kurslarında, 1914-cü ildə isə Peterburq konservatoriyasında oxumuşdur. Peterburq dövrü bəstəkarın yaradıcılığında mühüm rol oynamışdır. Lakin Birinci Dünya müharibəsinin başlanması və maddi çətinliklər Üzeyir bəy Hacıbəylini təhsilini yarımçıq qoymağa məcbur etdi.

Üzeyir bəy Hacıbəylinin Azərbaycan teatr sənətinin inkişafında da mühüm xidmətləri olmuşdur. Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının hələ 1916-cı ildə yaratdıqları “Hacıbəyli qardaşlarının opera-operetta artistləri dəstəsi” Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusilə coşğun fəaliyyət göstərmişdir.

Hərtərəfli istedadını doğma xalqının milli və sosial-siyasi azadlığı, tərəqqisi uğrunda mübarizəyə həsr etmiş Üzeyir bəy Hacıbəyli Milli İstiqlalın təcəssümü olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılamış, var qüvvə və bacarığı ilə milli dövlətçiliyin təşəkkülü və inkişafı işinə qoşulmuşdur. Onun 1918–1920-ci illərdəki fəaliyyəti Cümhuriyyətin rəsmi orqanı olan “Azərbaycan” qəzeti ilə bilavasitə sıx bağlıdır. Üzeyir bəyin publisistik məqalə və felyetonları hər gün,

yaxud günaşırı “Azərbaycan” qəzetində çap olunur, bəzən isə bir nömrədə müxtəlif imzalarla iki yazısı çıxırdı. Qəzetin ilk redaktoru Üzeyir bəy Hacıbəylinin kiçik qardaşı Ceyhun bəy olmuşdu. Üzeyir bəy Hacıbəylinin özü isə 1919-cu il yanvarın 16-dan – 89-cu sayından başlayaraq “Azərbaycan” qəzetinin redaktoru olmuşdur. Bu vaxtdan “Azərbaycan” qəzeti “Müvəqqəti müdir: Üzeyir bəy Hacıbəyli” imzası ilə buraxılmış və bu imza qəzetin həmin il 30 iyun tarixli 215-ci sayına qədər davam etmişdir. Üzeyir bəy iki aylıq müalicədən qayıtdıqdan sonra, 1919-cu ilin sentyabrından etibarən yenidən “Azərbaycan” qəzetində işə başlamış və 1920-ci il aprelin 27-nə kimi qəzetin müdiri işləmişdir.

Üzeyir bəy qəzetə rəhbərlik etməklə, onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinə çalışmışdır. “Azərbaycan”dakı fəaliyyətində Üzeyir bəy özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və milli məsləkli publisist kimi göstərmişdir. Qəzetin səhifələrində Üzeyir bəyin Azərbaycan tarixinə, siyasi vəziyyətinə, iqtisadiyyatına, sənayesinə (xüsusilə, neft sənayesinə), maarif və mədəniyyətinə və s. aid 100-dən çox məqaləsi dərc olunmuşdur. Müasir ictimai-siyasi durumla yaxından səsləşən “Mühüm məsələlər”, “Partiyalarımıza”, “Təəssürat”, “İstiqlal və istiqbal ümidi”, “Tarixi günümüz”, “Andronik məsələsi”, “Vəzifəmiz nədir”, “Lənkəran faciəsi”, “Kim nəyin fikrində imiş”, “Fitnələr qarşısında”, “Naxçıvan və Qarabağ”, “Qarabağ haqqında”, “İçimizdəki denikinlər”, “Ermənistan və Azərbaycan münasibəti” və s. yazılar Üzeyir bəyin uzaqgörən siyasətçi, əqidəli publisist olduğunu bariz şəkildə göstərir. Üzeyir bəy redaktor işlədiyi müddətdə Azərbaycan və onun ətrafında baş verən hadisələri qəzetin səhifələrində əks etdirməklə yanaşı, burada dərc etdirdiyi çoxsaylı məqalələrində həmin hadisələrə özünün şəxsi münasibətini bildirirdi. Bu məqalələrdə o, Azərbaycan Cümhuriyyəti Parlamentinin, Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Hökumətlərinin yeritdiyi siyasi xətti qızğın müdafiə edirdi.

“Bir yaş” məqaləsində Üzeyir bəy yazırdı: “Bugün, istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanımanlarımızı xərabə qoyduğumuz bir dövlətin,

yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür... Bir yaşlı dövlətimiz – gələcəkdə - yaxın gələcəkdə türklügün ümidgahı, islamlığın pənahi və aləm mədəniyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirmədədir. ...ÖLMƏK VAR, DÖNMƏK YOXDUR. Bu əziz bayram günü sidq dil ilə yaşasın müstəqil Azərbaycan deyənlər əmin olmalı: onu müstəqil yaşatmağa qadir olarlar" ("Azərbaycan", 28 may, 1919).

"Qara təhlükə" məqaləsində Üzeyir bəy həyəcanla bildirirdi: "İstiqlalımızın bir ilinin bayramını yenicə keçirmişdik ki, üfüqümüzdən qəflətən nümayan olan bir qara əl haman istiqlalımızı qırmaq və bizi murdar pəncəsi altında əzmək xəyalilə şimalımızdan uzanmağa başladı".

İncəsənətin mənasını xalqa xidmətdə görən Üzeyir bəy Aprel işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra da fəaliyyətini eyni vətəndaşlıq qeyrəti və əzmi ilə davam etdirmiş, milli musiqi xəzinəsini yeni janr və formalarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan dahiyanə "Koroğlu" operasını bəstələmişdir. Üzeyir bəy Azərbaycan Respublikası Dövlət himnlərinin (1945, 1992) musiqisinin müəllifidir. O, eyni zamanda, elmi musiqişünaslığın, xüsusilə, musiqi nəzəriyyəsinin ("Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası, 1945), musiqi təhsilinin əsasını qoymuş və musiqi mədəniyyətimizin inkişafına ömrünün sonunadək fasiləsiz rəhbərlik etmiş, onun bugünkü yüksək professional səviyyəyə yüksəlməsinin, müasir bəstəkarlıq məktəbinin beşiyi başında durmuş, qabaqcıl dünya bəstəkarlıq məktəbləri ilə yanaşı dura bilməsi üçün fədakarcasına çalışmış, habelə ictimai xadim kimi geniş fəaliyyət göstərmişdir. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyəti xəzinəsinin qızıl fonduna daxil olmuşdur. Görkəmli musiqi xadimləri onu "professional Şərq musiqisinin atası" adlandırmışlar. Üzeyir bəyin "Arşın mal alan" musiqili komediyası dünyanın bir çox dillərinə, o cümlədən ingilis, alman, rus, Çin, ərəb, fars, gürcü, Ukrayna dillərinə tərcümə olunaraq, Moskva, Nyu-York, Paris,

London, İstanbul, Tehran, Qahirə, Berlin, Varşava, Sofiya, Budapeşt və Buxarestdə, habelə başqa yerlərdə, “O olmasın, bu olsun” (“Məşədi İbad”) musiqili komediyası Cənubi Qafqazda, Dağıstan, Orta Asiya, Türkiyə, Bolqarıstan, İran və Yəməndə, “Koroğlu” operası isə Aşqabadda (türkmən dilində), Yerevanda (erməni dilində), Daşkənddə (özbək dilində) uğurla tamaşaya qoyulmuşdur. “Arşın mal alan” 1916, 1917, 1945 və 1965-ci illərdə, “O olmasın, bu olsun” (“Məşədi İbad”) isə 1956-cı ildə ekranlaşdırılmışdır. “Arşın mal alan”ın motivləri əsasında ABŞ-da da film çəkilmişdir (1937). Üzeyir bəy Hacıbəyli 23 noyabr 1948-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan Üzeyir bəy Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd edilmişdir.

### 2.4.5.7. Ceyhun bəy Hacıbəylinin ictimai-siyasi fəaliyyəti

Ceyhun bəy Əbdülhüseyn oğlu Hacıbəylinin (1891–1962) Azərbaycanın görkəmli ictimai xadimi, dilçisi, tarixçisi, jurnalisti və tərcüməçisi olmuşdur. Üzeyir bəy Hacıbəylinin kiçik qardaşıdır. İbtidai təhsilini Şuşada rus-tatar məktəbində almış, orta təhsilini Bakıda tamamlamışdır. “Leyli və Məcnun” operasının yaradılmasında yaxından iştirak etmiş, ilk tamaşada (1908) iki rolda – İbn Səlam və Nofəl rollarında çıxış etmişdir. 1908-ci ildə Üzeyir bəylə birlikdə Əlibəy Hüseynzadənin “Səadət” məktəbində müəllim işləmişdir.

1909-cu ildə Ceyhun bəy Hacıbəyli milyonçu-xeyriyyəçi Murtuza Muxtarovun vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuş, oradan Parisə gedərək, Sorbonna Universitetində təhsil almışdır. C.Hacıbəylinin Parisdən göndərdiyi məqalələr Bakıda rus dilində çıxan qəzetlərdə dərc olunmuşdur. O, 1909-cu ildə “Bakı” qəzetində dərc olunmuş “Müsəlmanlar və incəsənət” məqaləsində dövrün aktual məsələlərinə toxunurdu. C.Hacıbəyli “Leyli və Məcnun” operasının yaranması və ilk

tamaşası haqqında Fransa mətbuatında çıxış etmiş, opera barədə Qərbi Avropa xalqlarına geniş məlumat vermişdir (“Revyü de Monde müzülman” jurnalı, aprel, 1910).

1916-cı ildə ali təhsilini başa vurub Bakıya qayıdan Hacıbəyli mühərrirliklə məşğul olmuş, doğma xalqının acınacaqlı vəziyyəti haqqında mətbuat səhifələrində çoxlu məqalə dərc etdirmişdir (“Kaspi”, № 18, 22, 24, 28, 34, 1917). Məqalələrini, əsasən, “C.Dağıstani” təxəllüsüilə yazırdı. “Bakı müsəlman ictimai təşkilatları komitəsinin xəbərləri”ni (rus dilində) redaktə etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə C.Hacıbəyli Cümhuriyyət Hökumətinin rəsmi orqanı olan “Azərbaycan” qəzetinin redaktorlarından biri olmuşdur. Qəzet Azərbaycan dilində çıxan altıncı nömrəsindən, rus dilində isə beşinci nömrəsindən “mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli” imzaları ilə buraxılmışdır. 1918-ci il noyabrın 28-dən Azərbaycan dilində olan nömrələr C.Hacıbəylinin, rus dilindəki nömrələr isə Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə çıxmışdır. Paris Sülh Konfransında (1919–1920) iştirak etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin tərkibinə müşavir kimi “Azərbaycan” qəzetinin redaktoru C.Hacıbəyli də daxil edilmişdi. Qəzetin 1919-cu il 9 yanvar tarixli, 83-cü nömrəsində Ceyhun bəy Hacıbəyli “Möhtərəm qarelərimizə” müraciətində yazırdı: “Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü”. Bununla əlaqədar olaraq, 1919-cu il yanvarın 16-da buraxılmış 89-cu nömrəsindən etibarən “Azərbaycan” qəzetini redaktor kimi Üzeyir bəy Hacıbəyli imzalamışdır.

Parisdə C.Hacıbəylinin fransız dilində “İlk müsəlman respublikası Azərbaycan” (1919) adlı kitabı çapdan çıxmışdır. Həmin ildə C.Hacıbəylinin Parisdə “Revyü de Monde müzülman” jurnalında 1918-ci ildə Bakıda, eləcə də Şamaxı, Kürdəmir və Xaçmazda erməni-daşnak quldur dəstələrinin azərbaycanlı əhalini kütləvi şəkildə qırmasını kəskin ifşa edən məqaləsi çap olunmuşdur. O, Parisdə “Fransa-Qafqaz” komitəsinin işinə cəlb edilmişdi. C.Hacıbəyli Aprel işğalından sonra Vətənə dönə bilməmiş, Parisdə

qalmağa məcbur olmuş, ömrünü mühacirətdə başa vurmuşdur. Parisdə Azərbaycan mədəniyyətinin təbliği yönündə qızğın fəaliyyət göstərmişdi. 1920-ci ilin əvvəllərində Ü.Hacıbəylinin “Arşın mal alan” musiqili komediyasını fransız dilinə tərcümə etmiş və əsər həmin il tamaşaya qoyulmuşdur. 1926-cı ildə çap etdirdiyi “Azərbaycan teatrı” adlı məqaləsində o, fransız oxucularına Hüseyn Cavid və Cəfər Cabbarlının yaradıcılığı haqqında məlumat vermişdir (“Revyü de Monde müzülman”, №3). “Ümumi yenidənqurma problemində Azərbaycanın iqtisadi bərpası” əsərində (1922–1923) C.Hacıbəyli təbii sərvətlərdən səmərəli istifadə edilməklə Azərbaycanın müstəqil iqtisadi inkişafı ideyasını əsaslandırmışdır. 1928-ci ildə nəşr etdirdiyi “XIX əsrin əvvəlləri Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov” məqaləsində Azərbaycan tarixşünaslığı və arxeologiyasının banisi, ensiklopedik biliyə malik Abbasqulu ağa Bakıxanovu fransız oxucularına tanıtmışdır (“Jurnal Aziatik”, iyul-sentyabr, 1928). Onun 1905–1910-cu illər Azərbaycan mətbuatı tarixinə dair məqaləsi (“Aziatik Revyü” jurnalı, 27-ci cild, №90, 1931) isə xalqımızın mədəniyyətini öyrənən Qərbi Avropa alimləri üçün istiqamətverici mənbə rolu oynamışdır. C.Hacıbəylinin 1933-cü ildə çap etdirdiyi “Qafqaz Azərbaycanının Qarabağ dialekti” adlı elmi məqaləsi (“Jurnal Aziatik” yanvar-may, 1933) Azərbaycan və Qərbi Avropa dilçiliyi üçün indi də öz əhəmiyyətini itirməmişdir.

Məşhur fransız şərqşünasları A.Beniqsen və Ş.Lemerse Kelkejenin 1964-cü ildə Parisdə fransız dilində nəşr etdirdikləri “Rusiyada 1920-ci ilə qədər çıxan müsəlman mətbuatının tarixi” adlı əsərin müqəddiməsindən məlum olur ki, Azərbaycan mətbuatına dair fəslin hazırlanmasında C.Hacıbəyli də iştirak etmişdir.

C.Hacıbəyli Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin təşkil etdiyi “Azərbaycan Milli Birlik Məclisi” idarə heyətinin üzvü, Məclisin orqanı olan “Azərbaycan” jurnalının (Münhen) redaktoru olmuşdur (1954-cü ildə nəşri dayandırılmışdır).

Ceyhun bəy Hacıbəyli ömrünün son illərində SSRİ-ni öyrənən institutun Parisdə fransızca nəşr etdiyi “Qafqaz” jurnalının Azərbaycan bölməsində gedən yazıların redaktəsi ilə məşğul olmuşdur. 1959-cu ildə həmin institutun xətti ilə Münhendə

C.Hacıbəylinin "Azərbaycanda islam əleyhinə təbliğat və onun metodları" əsəri çap olunmuşdur. Ceyhun bəy Hacıbəyli 22 oktyabr 1962-ci ildə Paris şəhərində vəfat etmişdir.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə şəraitində ictimai–siyasi fikir
2. XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai təşkilatların və siyasi partiyaların formalaşması
3. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir
4. 1918-ci ildə Azərbaycan dövlətçiliyinin bərpasından sonra ictimai-siyasi şərait
5. Azərbaycan Xalq Cümhuriyyəti Parlament və hökumətinin elm, təhsil, mədəniyyət və demokratik cəmiyyət quruculuğu sahəsində gördüyü işlər
6. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının ictimai-siyasi baxışları
7. Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi ideyaları
8. Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyəti
9. Fətəli xan Xoyskinin dövlət quruculuğu fəaliyyəti
10. Nəsib bəy Yusifbəylinin Cümhuriyyət quruculuğunda xidmətləri
11. Mirzə Bala Məmmədzadənin ictimai-siyasi baxışları
12. Üzeyir bəy Hacıbəylinin ictimai-siyasi fəaliyyəti
13. Ceyhun bəy Hacıbəylinin ictimai-siyasi fəaliyyəti

## 2.5. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrdə ictimai-siyasi fikir

### 2.5.1. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet rejiminə qarşı müqavimət hərəkatı

Sovet işğalından dərhal sonra ölkədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış müstəqil dövlət idarəçiliyi sisteminin dağıdılmasına başlandı. 1920-ci ilin aprel işğalından sonra bolşeviklər Azərbaycanda kütləvi qətllərə, açıq qarətlərə və

soyğunçuluğa başladılar. Həmin ilin payızında Bakıda olmuş bir fransız yazırdı ki, "bir vaxtlar Şərqin ən çiçəklənən şəhəri olan Bakını bolşeviklər 6 ay ərzində demək olar ki, məhv etmişlər. Əgər onların hakimiyyəti bir neçə ay da davam etsə Azərbaycan səhraya dönəcəkdir". Sovet cəza orqanları 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək siyasi baxışlarına görə Azərbaycanda əksəriyyətinin milli ziyalı kadrların təşkil etdiyi 48000 adamı güllələmişdilər. Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu hökumətinin baş naziri Nəsib bəy Yusifbəyli Kürdəmirdə qətlə yetirilmişdir. Aprel işğalından sonra Gürcüstana mühacirət etmiş baş nazir Fətəli xan Xoyski və Azərbaycan Parlamentinin bütün iclaslarına sədrlik etmiş Həsən bəy Ağayev erməni terrorçuları tərəfindən Tiflisdə qətlə yetirildilər.

1918-ci ilin Mart soyqırımından sonra, faktiki olaraq, Azərbaycan xalqına qarşı yeni soyqırımına başlanmışdı. Fərq onda idi ki, bu dəfə millətin say-seçmə şəxsiyyətləri – Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimləri, generallar, Milli Ordunun yüksək rütbəli zabitləri, qabaqcıl ziyalılar, din xadimləri, partiya rəhbərləri, siyasi xadimlər, məşhur alimlər məhv edilirdi. Bolşevik-daşnak güruhu bu dəfə düşünülmüş surətdə xalqın ancaq qaymağını məhv edir, onu başsız qoymağa çalışırdı. Bu, əslində 1918-ci ilin Mart soyqırımından daha amansız, daha dəhşətli soyqırımı idi. Bütün bu kütləvi qırğınlar AK(b)P MK-nın və BK-nın rəhbərliyi, XI Qırmızı Ordunun xüsusi şöbəsi, qırmızı milis, ÇK, Ali Hərbi Tribunal tərəfindən həyata keçirilirdi. Bütün bu strukturlara erməni, rus və gürcü cəlladları rəhbərlik edirdilər.

Azərbaycan xalqının qabaqcıl övladlarına qarşı qanlı qırğın bilavasitə Orconikidze, Kirov, Mikoyan, Sarkis, Mirzoyan, Lominadze, Yeqorov və başqaları kimi bolşevik-daşnak cəlladlarının göstərişi ilə həyata keçirilirdi. Ölkənin bütün hakimiyyət strukturlarında möhkəmlənmiş ermənilər "qırmızı terror"un həyata keçirilməsində, xüsusilə, fəal rol oynayırdılar. Ölkənin güc strukturlarına soxulmuş ermənilər azərbaycanlıları kütləvi surətdə istintaqsız və mühakiməsiz güllələyirdilər.

İşğal prosesində və "qırmızı terror" zamanı bolşevik-daşnak cəlladları güllələnənlərin əmlakını müsadirə edir, bununla

kifayətlənməyərək bütün əhalini, o cümlədən yoxsulları qarət edir, xalqın olan-qalanını, hətta nəsillərdən yadigar qalmış zinət şeylərini və qiymətli əşyalarını da zorla əlindən alırdılar. Azərbaycanlıların boşaldılmış mənzillərinə ermənilər, ruslar və qeyri millətlərin nümayəndələri köçürülürdü.

İşğaldan dərhal sonra "ordunun və donanmanın yenidən təşkil olunması pərdəsi" altında ölkənin silahlı qüvvələri Moskvanın – Qırmızı Ordunun tabeliyinə verildi. Xalq öz ordusundan məhrum edildi. Bununla, Azərbaycanın müstəqilliyi, faktiki olaraq, tamamilə aradan qaldırılmış oldu.

Bolşevik rejimi müstəqil dövlətçilik ənənəsini, milli mənlik ruhunu əhalinin şüurundan çıxarmaq üçün xalqın mənəviyyatına qarşı da hücuma keçdi. Cümhuriyyət dövründə dövlət dili olan Azərbaycan dili sıxışdırıldı. Milli kadrlar hazırlanması kəskin surətdə məhdudlaşdırıldı. Ruslaşdırma siyasətinə başlandı. Qədim memarlıq abidələri olan məscidlərin, minarələrin uçurulmasına başlandı. Azərbaycan xalqının mənəviyyatına və milli mədəniyyətinə hücum dövrü başlandı.

XI Qırmızı Ordunun əsgər və zabitləri Azərbaycanın türk-müsəlman əhalisinin evlərinə soxulur, istədəyi şəxsi güllələyir, həbs edir, əlinə keçəni isə soyub-talayırdı. Azərbaycanlı əhalidən qarət olunan zinət əşyaları, xalılar, mebellər, qiymətli qablar qatarlara və gəmilərə yüklənərək Sovet Rusiyasına göndərilirdi. Qarət olunmuş əşyaları aparan gəmi və qatarların üzərinə əhalini ələ salan belə şüarlar yazırdılar: "Bakı şəhərinin xeyirxah əhalisininin hədiyyəsi", "Sovet Azərbaycanının Rusiyaya hədiyyəsi".

Bolşeviklərin Bakıda törətdikləri qırğın və talanlar 1918-ci il mart hadisələrini xatırladırdı. Bolşeviklər bu cür qırğın və talanları Azərbaycanın hər yerində həyata keçirdirdilər. 1920-ci il may ayının 29-da Şuşada bolşeviklər daşnaklarla birlikdə 30 müsəlman kəndini yandırmış, çoxlu sayda qadın və uşaqları öldürmüşlər. Qırmızı Ordu hissələri Göyçayda, Yevlaxda, Bərdədə və Qubada çoxlu sayda azərbaycanlıları güllələmiş və həbs etmişlər. Bu cür vəhşilikləri Qırmızı Ordu hissələrindəki çoxsaylı erməni əsgərləri həyata keçirirdi.

Sovet Azərbaycanında real hakimiyyət Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun başçılıq etdiyi hökumətin əlində deyildi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin əlində idi. AK(b)P MK-ya daşnak erməni və gürcülər rəhbərlik edirdilər. AK(b)P MK-nın Bakı Komitəsinə Mikoyan Sarkiz və Mirzəyan rəhbərlik etmişdir. Bakı Komitəsinə böyük səlahiyyətlər verilmişdi. Bakı Komitəsi hətta Azərbaycan XK-nin sədri N.Nərimanovun qərarlarını da ləğv edə bilirdi. Azərbaycan SSRİ-nin Rusiyadakı səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski Vladimir İliç Leninə göndərdiyi 1920-ci il 20 sentyabr tarixli məktubunda yazırdı: "Çevriliş zamanı özünü əla aparan Qırmızı Ordu, indi mürtəce qüvvəyə çevrilmişdir. Azərbaycan kəndlisi yalnız bir şeyi xahiş edir və yalvarır ki, nə istəyirsiz, hamısını birdəfəlik alın, lakin hər gün evlərə soxulub, çoxlu ailə-ocaqlarımızı təhqir etməyin. Həmişə öz çörəyi ilə yaşayan Azərbaycan, indi çörəksiz qalıb. Ancaq həmişə ac-yalavac olan Ermənistan və Gürcüstanın isə indi artıqlaması ilə çörəyi var".

Bolşeviklərin Azərbaycanda həyata keçirdiyi "qırmızı terror", XI Ordu hissələrinin Bakıda və bölgələrdə özünü əsl işğalçılar kimi aparması Milli Ordu və Donanmanın ləğv edilməsinə və milli zabit-kadrların məhvinə yönəldilmiş tədbirlər, dinc əhaliyə qarşı kütləvi represiyalar və hər cür özbaşınalıqlar geniş talançılıq və müsadirələr Azərbaycanda Sovet rejiminə qarşı üsyan və çıxışlara səbəb oldu. M.Ə.Rəsulzadə bununla bağlı haqlı olaraq yazırdı: "Azərbaycan xalqı istiladan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müthiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdir... Xalq dözməyib, üsyan etdi".

Azərbaycanda Sovet işğal rejiminə qarşı 1920-ci ilin mayında Gəncə şəhərində baş vermiş üsyan öz miqyasının böyüklüyünə görə daha əzəmətli idi. Azərbaycanın bolşevik hökumətinin milli ordunun rəhbər heyətinin dəyişdirilməsi və əsgərlərin tərk-silah edilməsi haqqındakı qərarı Gəncədə güclü üsyana gətirib çıxartdı. Azərbaycan milli ordu hissələrinin 1920-ci il mayın 25-dən 26-na keçən gecə Sovet rejiminə qarşı başlayan üsyanında 1800 nəfər hərbçi ilə birlikdə Gəncə şəhərinin əli silah tutan 10 min nəfərdən çox sakini iştirak edirdi. Gəncədə işğalçı rus ordusuna müqavimət o

qədər güclü olmuşdu ki, düşmən üsyanı yatırarkən 8500 nəfərdən çox əsgər itirmişdi. Gəncə üsyanı zamanı 13000 nəfərdən çox vətənpərvər şəhid olmuşdu. Üsyanda iştirak edən milli ordunun 76 nəfər yüksək rütbəli zabiti, o cümlədən 6 general həbs olunaraq Bakıya aparılmış və Nargin adasında güllələnmişdi. Sovet rejiminə qarşı Qarabağ, Tərtər, Ağdam, Şuşa, Zaqatala, Qax, Şəmkir və Lənkəranda baş verən üsyanları rus ordusu çox çətinliklə 1921-ci ilin əvvəllərində yatıra bilmişdi.

Azərbaycanda Sovet işğal rejiminə qarşı müqavimət hərəkatının genişlənərək ölkənin bütün bölgələrini bürüməsi Sovet Rusiyasını o dərəcədə qorxutmuşdu ki, Abşeronu və neft Bakısını əldə saxlamaq üçün XI Ordu komandanlığı 1920-ci ilin iyunun 2-də şəhərin ətrafında müdafiə istehkam xəttinin yaradılması haqqında əmr imzalamışdı. Azərbaycanı tamamilə itirəcəyindən ehtiyatlanan Sovet Rusiyası ölkəmizə təcili olaraq əlavə yeddi diviziya göndərmişdi.

### 2.5.2. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevizmə qarşı mübarizədə siyasi təşkilatların gizli fəaliyyəti

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevik qırğınlarına, talan və həbslərinə qarşı baş verən böyük silahlı çıxışlar və üsyanlar yatırıldıqdan sonra siyasi təşkilatlar gizli fəaliyyətə keçməyə məcbur oldular. “Əhrar” Partiyası sovet hakimiyyətinin ilk günlərində özünü buraxmaq haqqında qərar çıxararaq Müsavat partiyasına qoşuldu. Sosialist fraksiyasına daxil olan “xalqçı sosialist firqəsi” bolşevik platformasını qəbul edərək üzvlərini məsul vəzifələrə yerləşdirə bildi. Lakin, fəal xalqçılardan olan Aslan Səfikürdski, Rza Qaraşarlı, Cəmo Hacınski, Rza Şabanov, Kərim Feyzullayev, Xankişi Şahverdiyev və digər 26 nəfər 1922-ci ilin sonlarında Azərbaycan SSR Ali İnqilabi Tribunalının “eser partiyasının Zaqafqaziya təşkilatının işi” adlı qondarma ittihamla mühakimə olunub müxtəlif müddətli həbs cəzaları aldılar. İttihad partiyası da digər partiyalar kimi ilk günlər özlərini buraxaraq bolşevik platformasına keçdiklərini bəyan

etmişdilər. Lakin 1920-ci ilin yazından İttihad gizli fəaliyyətə keçərək özünü güclü antisovet bir partiya kimi göstərə bildi. "Vətən ya ölüm", "Mərkəzi İttihad", "Quranın əmin-amanlığı" adlı üç müstəqil qrupa bölünən partiya Azərbaycanın qəzalarındakı təşkilatlarını gizli mübarizə şəraitinə keçirmiş, eyni zamanda Dağıstan və İranla əlaqələr yarada bilmişdi. XI Ordunun Xüsusi Şöbəsinin qaldırdığı cinayət işinin materiallarına görə "İttihad" partiyası 1920-ci ilin axırlarında Azərbaycanda silahlı üsyan yolu ilə hakimiyyəti ələ almağa çalışırdı. Onlar Dağıstanda İmam Qotsinski və Əlixanovun başçılıq etdiyi qiyamçıların, eləcə də Lənkəran və Zəngəzur üsyançılarının köməyi ilə qarşıya qoyulan məqsədə çatmağın mümkün olacağı qənaətində idilər.

1921-ci ilin əvvəllərindən başlayaraq "İttihad" partiyasına yaxın olan dini təmayüllü bir neçə partiyanın da fəaliyyəti gücləndi. Bunlardan "İslam" partiyasının fəaliyyəti daha çox nəzərə çarpırdı. "İslam" partiyasının əsas rəhbərləri də türk zabitləri idi". "İttihad" və "İslam" partiyalarıı birləşərək yeni "İttihadi-İslam" (İslam Birliyi) partiyasını yaratdılar. Əsasən yoxsul və ortabab kəndliləri öz sıralarına cəlb edən "İttihadi-İslam" partiyası çox sürətlə böyüyürdü. 135 nəfərdən ibarət rəhbərlik heyətinə malik olan yeni birliyin "təkcə Şəmkir rayonunda 3000 nəfər üzvü var idi".

Şəkidə "İttihadi-İslam" partiyası "İstiqlal-İttihad" partiyası adı altında fəaliyyət göstərirdi. Lənkəranda isə demək olar ki, bütün ruhanilər bu partiyanı müdafiə edirdi. Partiyanın Bakıdakı rəhbərləri İsfəndiyar Məmmədov, Nadir Şirinbəyov, Xan Əli Tapdıq oğlu və Miri Mircabbarov idi.

1921-ci il 5 may tarixli Bakı konfransında "İttihadi-İslam" partiyası "İslam Əl-Quran" partiyası ilə birləşib "Milləti-İslam" partiyası adlandırıldı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin informasiya bülleteninin məlumatına görə əsas şüarları – "Din üçün ölümə hazır ol!", "Ya ölüm, ya vətən!" olan "Milləti-İslam" partiyasının nəzdində terrorçu qrup da fəaliyyət göstərirdi. Bu qrup Miri Mircabbarovun rəhbərliyi ilə Yevlaxda Əliheydər Qarayevə, Gəncədə Həmid Sultanova və Gəncə Siyasi Bürosunun rəisi İbrahim Əliyevə sui-qəsd planlaşdırmışdı.

1921-ci ilin əvvəllərində Gəncədə təşkilatçılarının əksəriyyəti türk zabitləri olan “Günəş-Qafqaz” partiyası da yaranıb fəaliyyətə başlamışdı. Rəhbərliyinə Cabbar Qoşqarov, Abbas bəy Usubbəyov (Nəsibbəy Yusifbəylinin qardaşı oğlu) və Seyidəli İsrafilverdiyevin daxil olduğu bu partiyanın nəzdində güclü hərbi mərkəz formalaşdırılmışdı.

Azərbaycanın qərbində öz fəaliyyətini daha da gücləndirmək məqsədilə 1921-ci il iyunun 3-də “Milləti-İslam” və “Günəş-Qafqaz” partiyaları Gəncədə birləşərək “Azərbaycan Milli Müdafiə İslam Firqəsi” (AMMİF) adlanmağa başladı. AMMİF-ə yeni sədr Cabbar Qoşqarov, sədr müavini Əli Səmədov, katib Abbas bəy Usubbəyov seçildi və partiyanın 21 nəfərdən ibarət MK tərkibi formalaşdırıldı. Bundan əlavə Xosrov Əfəndiyevin rəhbərlik etdiyi hərbi şöbə (köməkçi İsfəndiyar Məmmədov idi), Seyidəli İsrafilverdiyevin rəhbərlik etdiyi təbligat-təşkilat şöbəsi yaradıldı, Xəlil Şakirov, Tahir Quliyev isə Osmanlı dövləti ilə vasitəçilər təyin edildi.

Osmanlı dövlətindən xeyli zabitin cəmləşdiyi AMMİF-i hərbi təşkilat idi. 1921-ci ilin iyununda AMMİF-in rəhbərlik də daxil olmaqla 230 nəfər fəal üzvü həbs edildi. Həbs edilənlərdən 22 nəfəri güllələndi (əsasən rəhbərlik), 61 nəfər 5 il müddətinə, 15 nəfər 1 il müddətinə azadlıqdan məhrum edildi, 14 nəfərə isə 5 il icbari həbs cəzası hökmü oxundu. Partiyanın ələ keçmiş qalan üzvlərinin bir hissəsi sürgünə göndərildi, bəziləri də şərti olaraq azadlığa buraxıldı. Həbslərdən yayına bilən Molla Miri, Əhməd Şükür, Nadir Şirinbəyov, Hüseyn Xəlil, Kərbəlayi Ağa, Kərbəlayi Rəsul, Məmməd Tağı Tağızadə, Adil Əlizadə və Zeynal Zeynalov kimi tanınmış fəallar gizli fəaliyyətə keçdilər.

Tədiqatçılar “İttihad” partiyasının gizli fəaliyyət dövrünü üç mərhələyə bölürlər:

- Birinci mərhələ, 1920–1923-cü illər fəal antisovet çıxışları, silahlı üsyanlar, eyni zamanda məqsədi və sosial bazası oxşar olan partiyalarla birləşmə;
- İkinci mərhələ, 1923–1926-cı illər nisbətən ehtiyatlı fəaliyyət və Müsavatla əsaslı şəkildə yaxınlaşma;

- Üçüncü mərhələ, “Müsavat” partiyası ilə 1927-ci ildən başlanan birləşmə mərhələsi. Bu mərhələdə “İttihad” bir partiya kimi demək olar ki, “Müsavat” partiyasının içərisində tədricən əriyib tarix səhnəsindən çıxdı.

Azərbaycanda milli müqavimət hərəkatının aparıcı qüvvəsi, ideoloji istiqamətvericisi “Müsavat” partiyası olmuşdu. Partiyanın gizli fəaliyyətə keçməsi barədə qərar 27 aprel gecəsi qəbul edildi. M.Ə.Rəsulzadənin tövsiyəsi ilə gizli “Müsavat” partiyasının rəhbərliyinə M.B.Məmmədzadə gətirilmişdir. 1920-ci ilin aprel-may-iyun aylarında “Müsavat” partiyasının leqal fəaliyyəti qadağan edilmədiyindən partiya hələ bütövlükdə gizli şəraitə keçməmişdi. Azərbaycan SSR Xalq Komissarları Şurası ilə bağlanan müqaviləyə görə “Müsavat” partiyası açıq surətdə fəaliyyət göstərirdi. Müsavatçılar özlərini “solçu” adlandırıb, partiyadan ayrıldıqlarını elan etmişdilər. Belə görünür ki, özünü “solçu” adlandırmaq müsavatçıların leqal fəaliyyət göstərmək və hakimiyyət dairələrini çaşdırmaq cəhdi idi. 1920-ci ilin iyun ayında “Müsavat” partiyasının gizli şəraitdə ümumi toplantısı oldu. Toplantıda partiyanın yaxın gələcəkdə qarşısında duran vəzifələr və onun leqal fəaliyyətinin təminatı üçün Sovet hökuməti ilə danışıqlar aparılmasının zəruriliyi müzakirə edildi. Lakin, danışıqlar nəticəsində məlum oldu ki, partiyanın açıq fəaliyyətinə icazə verilmir. Bununla da Azərbaycanda fəaliyyəti qadağan olunan “Müsavat” partiyası tam şəkildə bütün strukturlarını gizli şəraitə keçirmək məcburiyyətində qaldı.

Tədqiqatçılar “Müsavat” partiyasının Azərbaycanda gizli fəaliyyət dövrünü xarakterinə görə dörd mərhələyə bölürlər: I mərhələ 1920–1923-cü illər, II mərhələ 1923–1927-ci illər, III mərhələ 1927–1931-ci illər və IV mərhələ 1931-ci ildən II Dünya müharibəsinin başlanmasına qədər olan dövr.

“Müsavat” partiyasının gizli fəaliyyətinin I mərhələsində müsavatçılar özlərini gəncləşmiş, nisbətən yeniləşmiş və Sovet hökuməti ilə dil tapmağa meyli olan bir partiyanın nümayəndələri kimi təqdim etməyə çalışırdı. Əslində parlamentdə və hökumətdə təmsil olunan nüfuzlu, həm də təcrübəli müsavatçıların, eyni zamanda bolşeviklərlə sərt rəftarın tərəfdarları hesab edilən Şəfibəy

Rüstəmbəyli və Nağı Şeyxzamanlı kimi radikalların böyük əksəriyyətinin Azərbaycandan mühacirət etmələri nəticəsində əksəriyyəti gənclərdən ibarət olan yeni rəhbərlik yaradıldı. 1920–1923-cü illərdə gizli Müsavatın demək olar ki, Azərbaycanın bütün qəzalarında təşkilatları və özəkləri yaradılmış, onlarla Müsavat" partiyası Mərkəzi Komitəsinin əlaqəsi qurulmuş, hərbçilər, zabitlər arasında iş aparılaraq çoxsaylı hərbi özəklər formalaşdırılmışdı. 1923-cü ilin payızında Əbdül Vahab Məmmədzadə (Yurtsevər), Kərbəlayı Vəli Mikayılzadə, Rəhim Vəkilov və b. müsavatçılar təkrar həbs edilib Yaroslav vilayətinə sürgünə göndərildilər. Beləliklə, "Müsavat" partiyası MK-nın birinci tərkibi dağıdıldı. 1920–1923-cü illərdə "Müsavat" partiyasının güclü təşkilatları Bakı və Qarabağ qəza təşkilatları, ən güclü silahı isə gənclər arasında iş, təbliğat idi.

"Müsavat" partiyasının gizli fəaliyyətinin II mərhələsi 1923-cü ilin sonlarında MK-nın ikinci tərkibinin formalaşdırılması ilə başladı. "Müsavat" partiyası MK-nın ikinci tərkibi 1923-cü ilin sonlarında formalaşsa da onun ilk yığıncağı 1925-ci ildə keçirildi. Bu yığıncaqda hərbi özəklərlə və tələbə gənclərlə işin sürətləndirilməsi məsələləri müzakirə edildi. 1926-cı ilin payızında gizli Müsavat Mərkəzi Komitəsinin ikinci tərkibi də dağıdıldı, onun üzvləri və digər fəallarından 34 nəfəri həbs edildi. "Müsavat" partiyasının Azərbaycanda gizli fəaliyyətinin II mərhələsi bir sıra məqamlarda özündən əvvəlki mərhələyə bənzəsə də, (gözləmə taktikası, gizli strukturların bərpası, təbliğata önəm vermə və s.) başlıca xüsusiyyətlərinə görə (Kommunist Partiyasının tərkibinə və Sovet dövlət aparatına öz adamlarını yerləşdirmək, əlifba islahatına, ruslaşdırmaya qarşı çıxmaq və s.) ondan kəskin fərqlənirdi. Bu mərhələ Sovet mənbəşünaslığında "avantüra" və "şpionaj dövrü" adlanır.

"Müsavat" partiyasının gizli fəaliyyətinin III mərhələsi 1927–1931-ci illəri əhatə edən bu mərhələdə taktika dəyişdi. Partiyanın ümumi rəhbər orqanı dəyişdi. Partiyanın ümumi rəhbərlik orqanı yaradılmır, onun üzvləri ancaq iki nəfərdən artıq bir yerə yığışmadan əlaqə saxlamaq yolunu seçdilər. Heç bir gizli iclas və toplantı keçirilmirdi. Əsas fəaliyyət növü çox məhdud idi, öz

aralarında və Xarici Büro ilə əlaqə, informasiya mübadiləsi, tövsiyə və tapşırıqların alınması yolu ilə aparılırdı. Lakin, bunlara baxmayaraq yenə təşkilata üzvlər cəlb olunur, gənclər və ordu hissələri arasında, məktəblərdə təbliğat aparılır, xaricdən qəzet və jurnallar (Azərbaycan mühacirlərinin dərc etdikləri) gətirilib daxildə yayılırdı. "Müsavat" partiyası MK-nın üçüncü və sonuncu tərkibi dağıdıldıqdan sonra, 1927-ci ildə digər qüvvələrin də iştirak etdiyi Milli Müqavimət Hərəkatına Azərbaycan Milli Mərkəzi (AMM) rəhbərlik edirdi. 1930-cu ildə Azərbaycan Dövlət Siyasi İdarəsi yeni kütləvi həbslər keçirdi. 1931-ci ildə Bakı təşkilatı yenidən dağıdıl və 200 nəfər fəal üzv həbs edildi. Gizli "Müsavat"ın əsas fəaliyyət sahələrindən biri də gənclərin ideya-siyasi tərbiyə işi və onların partiyaya cəlb edilməsi idi. 1927-ci ilin yayında müsavatçı gənclər "Gənc Azər" təşkilatını yaratdılar.

"Müsavat" partiyasının gizli fəaliyyətinin IV mərhələsi Azərbaycanda mütəşəkkil partiya təşkilatlarının mövcud olmaması ilə səciyyələnir. Müsavatçılar çalışırdılar ki, Azərbaycanda müstəqillik, türkçülük və istiqlaliyyət ideyaları ölməsin.

Beləliklə, II Dünya müharibəsinin və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsinin başlanması ilə Azərbaycanda "Müsavat" partiyasının gizli şəraitdə apardığı milli-azadlıq mübarizəsi təxminən yarım əsrlik fasilə verdi. Gizli siyasi təşkilatların apardığı mübarizənin əhəmiyyəti çox böyükdür. Bu mübarizə ilk növbədə milli azadlıq idealını sönməyə qoymadı, saysız qurbanlar verilsə də sovetlərin repressiya maşını istiqlaliyyət məfkurəsini məhv edə bilmədi. Başda "Müsavat" partiyası olmaqla siyasi partiyalar yeni rejimin mahiyyətini açıqlayaraq, ona qarşı bütöv milli müqavimət hərəkatı yaratdılar.

### 2.5.3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətdə olan liderlərin siyasi fəaliyyəti

1920-ci il aprel işğalından sonra Azərbaycan Xalq Cümhuriyyəti liderləri, görkəmli dövlət adamları və siyasi xadimlər Azərbaycanı tərk etmək məcburiyyəti qarşısında qaldılar. Fətəli xan

Xoyski, Mustafa Vəkilli, Şəfi Rüstəmbəyli, Nağı Şeyxzamanlı və digər dövlət xadimləri Gürcüstana keçdilər. İlk dəfə Gürcüstanda fəaliyyətə başlayan mühacirlər, bolşeviklərin xalqın iradəsi və tarixin hökmü ilə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətini hərbi yolla devirməsini dünya ictimaiyyətinə çatdırmaq üçün kəskin etiraz bəyannaməsi ilə çıxış etdilər. Bu etiraz bəyannaməsi imzalanıb yayıldıqdan heç bir ay keçməmiş – iyunun 19-da Fətəli xan Xoyski və Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildi.

Məhəmməd Əmin Rəsulzadə və Abbas bəy Kazımzadə həbs olundular. 1920-ci il noyabrın 1-də Bakıya gələn Stalin Xüsusi Şöbə rəisi Pankratova "M.Ə.Rəsulzadə ilə A.Kazımzadəni azad etmək və sərəncama qatara göndərmək" göstərişi verdi və noyabrın 16-da ikisini də özü ilə Moskvaya apardı.

1919-cu ildə Azərbaycan Parlamenti tərəfindən Ə.M.Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına göndərilmiş nümayəndə heyətinin əksər üzvləri – Mir Yaqub Mehdiyev, Ceyhun Hacıbəyli, Məmməd Məhərrəmov, Əkbəraga Şeyxülislamov və Abbas bəy Ataməlibəyov 27 apreldən sonra Avropada qalaraq, çox faydalı işlər gördülər. 1920-ci il sentyabrın 8-də Parisdə Azərbaycan Cümhuriyyəti heyəti Millətlər Cəmiyyətinə bəyanatla müraciət etdilər. Azərbaycan nümayəndə heyəti faktiki itirilmiş müstəqilliyin hüquqi mühafizəsi sahəsində beynəlxalq aləmdə gərgin iş aparır, öz fəaliyyətlərini digər Qafqaz respublikalarının təmsilçilərinin fəaliyyətləri ilə əlaqələndirməyə çalışırdılar.

Finlandiyadan 1922-ci ildə Türkiyəyə gələn M.Ə.Rəsulzadə İstanbulda, Gürcüstan sovetləşən ərəfədə oradan da qaçmağa məcbur olan müsavatçı mühacirlərlə "Müsavat" partiyasının Xarici Ölkələr Bürosunu qurdu. Xarici Büro bütöv partiyanın fəaliyyətinə rəhbərlik edən bir orqan idi və yarandığı vaxtdan etibarən Azərbaycandakı gizli "Müsavat" təşkilatı ilə əlaqəyə girmişdi. "Müsavat" partiyasının Xarici Bürosunun İran və Türkiyədə çoxsaylı yerli komitələri qurulduqdan sonra M.Ə.Rəsulzadə siyasi mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan mühacirlərinin təmsil oluna biləcəyi yeni siyasi təşkilat yaratmaq qərarına gəldi.

Belə bir təşkilatın yaradılmasında əsas məqsəd bütün siyasi mühacirləri bir araya gətirmək, xarici ölkələrdə, dünya birliyi qarşısında Azərbaycanı təmsilçilikdə meydana gələ biləcək paralelliklərə yol verməmək idi. Elə bu missiya ilə 1924-cü ildə İstanbulda gizli fəaliyyət göstərən yeni siyasi təşkilat – Azərbaycan Milli Mərkəzi (AMM) yaradıldı. AMM-in sədri M.Ə.Rəsulzadə, MK üzvləri Xəlil Xasməmmədov, Mustafa Vakilli (Müsavat), Əbdüləli bəy Əmircanov (bitərəf), Əkbərağa Şeyxülislamov (xalqçı – sosialist) idi.

Azərbaycan mühacirlərinin bir mərkəzdə birləşməsi ideyasına Ə.M.Topçubaşov də tərəfdar idi. Ə.M.Topçubaşov çalışırdı ki, bütün Qafqaz respublikalarının mühacirləri bir səlahiyyətli təşkilat vasitəsilə Qafqaz Birliyində təmsil olunsun. O, parçalanmış gürcü mühacirlərini də milli birliyə dəvət edir, Qafqaz Birliyi ideyasının gerçəkləşdirilməsi üçün ciddi səy göstərirdi.

Qafqaz mühacirlərinin müştərək təşkilatını yaratmaq M.Ə.Rəsulzadənin də arzusu idi. Bu məqsədlə o, Avropanın Qafqaz Birliyinin reallaşmasında maraqlı olan dairələri, Polşanın Türkiyədəki səfiri, eləcə də gürcü və Şimali Qafqaz mühacirləri ilə gizli danışıqlar aparır, müştərək təşkilatın yaradılmasının imkan və yollarını arayırdı.

Avropada Azərbaycan mühacirlərinin yaratdığı ilk siyasi təşkilat "Azərbaycan İstiqlal Komitəsi" idi. 1924-cü ildə Almaniyada təhsil alan azərbaycanlı tələbələrin bazası əsasında yaradılan bu təşkilatın ilk sədri Heydər adlı bir mühacir olmuşdu. Sonralar Almaniyada yaxşı tanınan Hilal Münşinin sədri olduğu AİK, yaydığı ideoloji-siyasi ədəbiyyat, məcmuə, eləcə də verdiyi konfranslarla uzun illər Avropa ictimaiyyətinin və dövlətlərinin diqqətini Azərbaycanın müstəqilliyi məsələsinə cəlb edə bilmişdi.

İkinci Dünya müharibəsi başlayanda M.Ə.Rəsulzadə və Hilal Münşi tərəfindən Berlində Milli Azərbaycan Komitəsi yaradıldı. M.Ə.Rəsulzadənin rəhbərliyi ilə 1945-ci ildə Münhendə yeni bir təşkilat da meydana gəlmişdi. Bu Azərbaycan Demokratik Birliyi idi və müharibə qurtardıqdan sonra çox acınacaqlı vəziyyətə düşmüş azərbaycanlı hərbçiləri müxtəlif ölkələrdə yerləşdirməyə çalışırdı. ADB-nin sədri M.Ə.Rəsulzadə vətənə dönmək istəməyən

soydaşlarına müraciət edərək, onları qarşıdakı çətinliklərə, məhrumiyyətlərə baxmayaraq ruhdan düşməməyə çağırırdı.

1943-cü ildə, müharibənin gedişində könüllü alman tərəfinə keçən mayor Əbdürrəhman Fətəlibəyli-Düdənginski tərəfindən "Azərbaycan Milli Birlik Məclisi" adlanan bir siyasi təşkilat da yaradılmışdı. Müharibədə Azərbaycan müstəqilliyinin Almaniya tərəfindən tanınması uğrunda mübarizə aparan bu təşkilat müharibədən sonra bir sıra yeni mühacirləri, o cümlədən əski mühacirlərdən Ə.Şeyxülislam, C.Hacıbəyli, İ.Əkbər, C.Kazımbəy və b. öz ətrafında birləşdirərək Müsavatın Xarici Ölkələr Bürosuna və AMM-ə müxalifət mövqeyində dayanırdı. 1954-cü ildə Ə.Fətəlibəyli Sovet casusu tərəfindən Almaniyada qətlə yetirildikdən sonra "Azərbaycan Milli Birlik Məclisi" də dağıldı.

1947-ci ildə Avropada məskunlaşan Azərbaycan mühacirlərinin əksəriyyəti Türkiyəyə qayıtdı. 1949-cu il fevralın 1-də M.Ə.Rəsulzadə başda olmaqla siyasi mühacirlər Ankarada "Azərbaycan Kültür Dərnəyi"ni yaratdılar. Əsas cəhətlərdən biri də o idi ki, "Azərbaycan Kültür Dərnəyi" bütöv Azərbaycan həyatını və problemlərini özündə ehtiva etməyə çalışır, onu bütöv halda öyrənib təbliğ etməyi əsas məqsədi sayırdı. Bu amil 1960-cı illərdən sonra özünü daha qabarıq büruzə verməyə başladı.

Bütün bunlardan başqa Türkiyə və Qərb dövlətlərində o qədər də populyar olmayan qrupların yaratdıqları aşağıdakı təşkilatlar da fəaliyyət göstərirdi:

- 1948-ci ildə Ankarada İsmayıl Saryal, Məmməd Altunbay, Əziz Alpaut və Nurəddin Ardıcoğlu tərəfindən yaradılan "Azərbaycan Müdafiə Hüquq Cəmiyyəti";
- 1952-ci ildə Ankarada Əhməd Ulusoy, Əli Daşkənd, Hidayət Turanlı, Nağı Bayramgil, Niyazi Kürdəmir (Usubbəyov) və b. tərəfindən yaradılan "Azərbaycan Milliyyətçilər Dərnəyi";
- 1952-ci ildə Ankarada yaradılan "Azərbaycan Mühariblər Birliyi";
- 1952-ci ildə Əziz Alpaut tərəfindən yaradılan "Azərbaycan Millət Partiyası";
- 1952-ci ildə yaradılan "Cəbhəçilər İttifaqı";

- Məmməd Sadıq Axundzadə tərəfindən yaradılan “Azərbaycan Qarşılıqlı Yardım Cəmiyyəti”;

- 1951-ci ildə keçmiş legioner Məcid Musazadə tərəfindən yaradılan “Amerika-Azərbaycan Cəmiyyəti”;

- 1920-ci illərin ortalarında Əlimərdan bəy Topçubaşovun tövsiyəsi ilə Parisdə yaradılan “Azərbaycan Neftçilər Cəmiyyəti”;

- 1961-ci il mayın 16-da İstanbulda İldəniz Qurtulan tərəfindən yaradılan “Azərbaycan Gənclik Dərnəyi”;

- İstanbulda prof. Əhməd Cəfəroğlu tərəfindən yaradılan “Azərbaycan Türk Kültürünü Tanıtma Dərnəyi”.

1938-ci ildə M.Ə.Rəsulzadə İrana gələrək “Federalistlər və Millətçilər” adlı bir partiya yaratmışdır. Bu partiya sərhədyanı məntəqələrdə güclü özəklər yaratmışdı. Onun üzvləri tez-tez Sovet Azərbaycanına gedir, oradan ölkə daxili vəziyyətlə bağlı maraqlı məlumatlar toplayaraq mühacirlərə çatdırırdı. Qarşısına Sovet hakimiyyətini devirmək məqsədi qoymuş bu partiyanın ideologiyasında pantürkçülük dayanırdı.

1920–1930-cu illərdə “Qafqaz Konfederasiyası Şurası” və “Prometey” beynəlxalq təşkilatları yaradıldı. “Prometey” Birliyində SSRİ-dən olan bütün milli mühacir təşkilatlarının nümayəndələri təmsil olunurdu. “Prometey”in yaradılmasında ilk təşəbbüs Başqırdıstan mühaciri prof. Əhməd Zəki Vəlidi Toğana və M.Ə.Rəsulzadəyə məxsusdur. “Prometey”in başlıca fəaliyyət sahələrindən biri də öz jurnalını yayınlamaqla yanaşı, ayrı-ayrı mühacir təşkilatları tərəfindən dərc olunan və birliyin mənafeyinə uyğun olan qəzet və jurnalları maliyyələşdirmək idi. Bu məqsədlə Parisdəki “Sakartvelo” (Gürcüstan), Rumıniyadakı “Əməl” (Krım tatarları) Varşavadakı “Severnıy Kavkaz” (Şimali Qafqaz), “Yana Milli Yol” – “Yeni Milli Yol” (İdil-Ural), Berlindəki “Qurtuluş” (Azərbaycan) və “Yaş Türküstan” – “Gənc Türküstan” (Türküstan) jurnalları maliyyələşdirilirdi. 1939-cu ildə Almaniyanın Polşanı işğal etməsilə “Prometey” təşkilatı əsasən dağıdıldı.

1934-cü ilin iyul ayının 14-də Brüsseldə Qafqaz Konfederasiyası Şurası yaradıldı. Qafqaz Konfederasiyası Şurası Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Milli təşkilatlarının nümayəndələrindən ibarət olub, paritet əsaslarla qurulmuşdu. Şura

nizamnaməyə uyğun olaraq mütəmadi toplanır, Qafqaza aid bütün siyasi məsələlərlə məşğul olur və rəyasət Divanının tətbiq edəcəyi siyasətin əsas xətlərini müəyyənləşdirirdi. Azərbaycanı Şurada təmsil edən səlahiyyətli nümayəndə Milli Mərkəzin sədri M.Ə.Rəsulzadə idi.

"Prometey" və "Qafqaz Konfederasiyası Şurası"nın yaranması və fəaliyyəti mühacirətdə milli azadlıq ideologiyasının, dövlətçilik şüurunun formalaşmasında da xüsusi rol oynadı. Azərbaycana, eləcə də digər Qafqaz Cümhuriyyətlərinə göndərilən qəzet və jurnallar ("Prometey", Qurtuluş, İstiqlal, Bildiriş və b.) milli azadlıq ideyalarının məhv edilməsi yolunda ciddi maneə oldu.

## 2.5.4. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının mühacirət mətbuatında siyasi təbliğatı

Azərbaycan mühacirlərinin təşkilatlanmasını mətbuatsız təsəvvür etmək mümkün deyil. Mətbuat təkcə fikir, məlumat yayan deyil, həm də insanları fikir, ideya ətrafında birləşdirən bir vasitədir. Mühacirət mətbuatının əsasını M.Ə.Rəsulzadə "Yeni Qafqasya" jurnalının nəşrinə başlamaqla qoydu. "Yeni Qafqasya" jurnalı ideoloji–siyasi cəhətdən mühacirlər arasında xeyli işlər gördü. Jurnal öz yerini 1928-ci ildə eyni proqramla "Azəri Türk" jurnalına verdi. "Azəri Türk" jurnalının məsul redaktoru Azərbaycan Gənclər Birliyinin sədri Məmməd Axundzadə idi. 1929-cu ildə "Azəri Türk" jurnalının nəşri dayandırıldıqdan sonra M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə 1929–1931-ci illərdə "Odlu Yurt" jurnalı dərc olunmağa başladı. "Odlu Yurt" jurnalı Azərbaycan mühacirlərinin İkinci Dünya müharibəsi başlayana qədər Türkiyədə dərc etdirdikləri sonuncu siyasi xarakterli məcmuə oldu.

1930-cu il avqustun 7-dən etibarən Azərbaycan mühacirləri ilk siyasi qəzet olan "Bildiriş" qəzetinin nəşrinə başladılar. SSRİ-nin təzyiqi ilə 1931-ci ildə Azərbaycan siyasi mühacirləri Türkiyədən çıxarıldıqdan sonra, siyasi mətbuatın fəaliyyətində də uzunmüddətli fasilə oldu.

1931-ci ildən mühacirət mətbuatının Avropa dövrü başlayır. M.B.Məmmədzadə yazır ki, "Bolşeviklərin bayram etdikləri günlərdə, 1932-ci il dekabrın 10-da Berlində "Yeni Qafqasya", "Azəri Türk", "Odlu Yurt" və "Bildiriş" redaksiyalarının iştirakıyla və eyni proqramla "İstiqlal" qəzeti nəşrə başlamışdı". 1934-cü ildə isə Berlində Hilal Münşinin redaktorluğu ilə əsası qoyulan "Qurtuluş" jurnalı, 1939-cu ilin sentyabrına qədər fasiləsiz olaraq dərc edildi. 1936-cı ildə "Müsavat" partiyasının xüsusi bülleteni olan "Müsavat" öz nəşrinə başladı. 1932-ci ildə Helsinkidə Azərbaycan mühacirləri tərəfindən "Turan" qəzeti nəşr olunurdu. Müharibə dövründə Azərbaycan legionları "Azərbaycan", "Hücum" qəzetlərini və "Milli Birlik" jurnalını dərc etdirirdilər. 1952-ci ildə Ankarada Azərbaycan Kültür Dərnəyinin və Münhendəki Azərbaycan Milli Birlik Məclisinin orqanı olan "Azərbaycan" jurnalı Ceyhun Hacıbəylinin redaktorluğu ilə dərc olunmağa başladı.

Ümumiyyətlə, azərbaycanlı mühacirlər 1960-cı ilə qədər, ayrı-ayrı illərdə və ölkələrdə otuzdan artıq qəzet və jurnal dərc etmişlər. Bunlara "Yeni Qafqasya", "Azəri Türk", "Odlu Yurt", "Azərbaycan Yurt Bilqisi", "Qurtuluş", "Müsavat", "Azərbaycan" (Ankara), "Azərbaycan" (Paris), "Azərbaycan" (Berlin), "Milli Birlik", "İstiqlal", "Bildiriş", "Yaşıl Yarpaq", "Birlik Dirilikdir", "Türk izi", "Koroğlu", "Türk Yolu", "Xəzər", "Dərgi", "Araz", "Hücum", "Turan", "Mücahid" və s. qəzet və jurnalları aid etmək olar.

Azərbaycan mühacirlərinin yaratdıqları təşkilatların və mətbuat orqanlarının çoxluğuna baxmayaraq istiqlal mübarizəsinin ana xətlərini müəyyənləşdirən, milli azadlıq ideyasının təməl prinsiplərini hazırlayan əsas təşkilatlar Azərbaycan Milli Mərkəzi və Müsavat Partiyası, Mərkəzi orqanlar isə bu təşkilatların dərc etdiyi qəzet və jurnallar idi. Qalan təşkilatlar və mətbuat orqanları isə bir növ milli müstəqillik ideyasının daha geniş coğrafiyanı əhatə etməsi üçün köməkçi qollar vəzifəsini yerinə yetirirdi. Milli istiqlaliyyət ideyasının yaşamasında, dolğunlaşmasında bu təşkilatların və mətbuat orqanlarının xidmətləri əvəzsiz olmuşdu.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrdə ictimai-siyasi fikir
2. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevizmə qarşı mübarizədə siyasi təşkilatların gizli fəaliyyəti
3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətdə olan liderlərin siyasi fəaliyyəti
4. Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin mühacirət mətbuatında siyasi təbliğatı

## 2.6. XX əsrin birinci yarısında Cənubi Azərbaycanda milli–azadlıq hərəkatı və ictimai–siyasi fikir

### 2.6.1. XX əsrin birinci yarısında Cənubi Azərbaycanın ictimai–siyasi fikir tarixində milli-azadlıq mübarizəsinin başlıca yer tutması

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda İranın müstəmləkəçilik zülmünə qarşı narazılıq getdikcə artmağa başladı. Ümumiyyətlə, XX əsrin birinci yarısında Cənubi Azərbaycanın ictimai–siyasi fikir tarixində milli–azadlıq hərəkatı mübarizəsi başlıca yer tuturdu. Bu dövrdə Cənubi Azərbaycanın ictimai–siyasi və milli–azadlıq mübarizəsi tarixinə Səttar xan hərəkatı (1908–1911), Şeyx Məhəmməd Xiyabani hərəkatı (1920), Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə 21 Azər hərəkatı (1945–1946) adlı üç böyük milli–azadlıq hərəkatı bəxş etmişdir. Bir-birinin davamı və tamamlayıcısı olan bu hərəkatların hər biri özü-özlüyündə gələcək hərəkatların dirçəlişi üçün milli-mənəvi zəmin yaratmışdır.

Mütləqiyyətə və irticaçı ruhanilərə qarşı maarifçi ziyalılar tərəfindən gizli cəmiyyətlər və siyasi təşkilatlar yarandı. 1900-cü ildə Təbrizin maarifçi, vətənpərvər və azad fikirli ziyalılarından bir qrupu – Seyid Hüseyn Müstəşari, Hacı Axund, Mirzə Əhməd Basirat, İbrahim Şəmsəvari, Hacı Mirzə Əhməd Müdərris, Mirzə Əbdüləli Zeyni, Mirzə Əli Rüşdi, Mirzə Hüseyn xan Kamal, Seyid Həsən Şərifzadə, Məhəmmədəli Tərbiyyət, Seyid Hüseyn xan

Ədalət, Seyid Həsən Tağızadə, Hacı Əli Davafürüş və başqaları “Azərbaycan maarif əncüməni” təşkilatını yaratdılar.

XX əsrin əvvəllərində Təbrizdə və bütün Cənubi Azərbaycanda kütlələrin mütləqiyyətə qarşı mübarizəsinin təşkil edilməsi və hərəkata düzgün istiqamət verilməsi üçün güclü siyasi təşkilatın yaradılması zərurəti meydana gəldi. 1906-cı ildə Əli Müsyönün rəhbərliyi ilə Təbrizdə gizli cəmiyyətlərin birləşməsi ilə “İctimaiyyun–Amiyyun” (“Mücahid”) adlı vahid bir təşkilat – sosial-demokrat təşkilatı yaradıldı.

Cənubi Azərbaycanın görkəmli maarifçiləri Zeynalabdin Marağayi (1838–1910) “İbrahim bəyin səyahətnaməsi” əsəri ilə və digər görkəmli simalardan biri – maarifçi, alim və yazıçı kimi şöhrət qazanmış Mirzə Əbdürrəhim Talıbov (1834–1911) “Pak adamların məsləkləri”, “Həyat məsələləri”, “Talibinin siyasəti” əsərləri ilə Təbriz hərəkatını ideoloji və siyasi cəhətdən hazırlamış, şah istibdadını və Qərb dövlətlərinin müstəmləkəçilik siyasətlərini ifşa etmişlər.

Bu dövrdə Cənubi Azərbaycanda “Molla Nəsrəddin”çi nəşr ənənələrinə əsaslanan ictimai–siyasi publisistika bədii ədəbiyyatın aparıcı janrlarından birinə çevrilmişdir. Bu səpkidə yazılan əsərlər içərisində Əbülziya Şəbüstəri və Seyid Hüseyn Ədalətin “İrane–nou”, “Ana dili”, “Ədalət” qəzetlərindəki felyetonları, Cəmşid Ərdəşir Əfşarın pamflet və ədəbi–bədii esse yazıları xüsusi əhəmiyyət kəsb etmişdir.

XX əsrin birinci yarısında milli–azadlıq hərəkatları Cənubi Azərbaycanda mətbuatın inkişafına güclü təkan vermişdir. İlk dəfə olaraq ana dilində “Azərbaycan”, “Ana dili”, “Təbriz”, “Müsavat”, “Əncümən”, “Məzəli”, “Zənbur”, “Mücahid”, “Şəfəq”, “Mükafat”, “İslam” kimi qəzet və jurnallar dərc olunaraq yayılmışdır. Azərbaycan Əyalət Əncüməninin (şurasının) fars və Azərbaycan dillərində “Naleyi–millət” adlı qəzeti nəşr edilmişdir. Cənubi Azərbaycanda çıxan qəzet və jurnalların əksəriyyəti milli hərəkatın tərəfdarı olan demokratik mətbuatı təmsil edirdi. Milli hərəkatların məğlubiyyətindən sonra bir çox qəzet və jurnallar bağlandı.

1917-ci ildən sonra mətbuat yenidən inkişaf etməyə başladı. Cənubi Azərbaycanda ictimai–siyasi fikrin inkişafında, milli şüurun

oyanmasında və azadlıq uğrunda mübarizədə əsası Əbülqasim Fiyuzat və Şeyx Məhəmməd Xiyabani tərəfindən qoyulan "Təcəddüd" qəzetinin əhəmiyyətli rolu oldu.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda maarif və mədəniyyətin sürətli inkişafı Cənubi Azərbaycanın mədəniyyət və incəsənətinin tərəqqisinə təsir göstərdi. Şimali Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələri Cənubi Azərbaycanın, xüsusilə Təbrizin maarif, mədəniyyət və incəsənət xadimləri ilə geniş əməkdaşlıq edirdilər. 1916-cı ildə Təbrizdə ilk teatr binası tikildi.

1905–1911-ci illər İran məşrutə (konstitusiya) inqilabında Cənubi Azərbaycan milli–azadlıq hərəkatının əhəmiyyətli yeri vardır. 1907-ci ildən İran inqilabının mərkəzi Təbrizə, bütünlükdə Cənubi Azərbaycana keçdi.

### 2.6.2. Səttar xanın başçılığı ilə Təbriz milli-azadlıq hərəkatının Cənubi Azərbaycanda xalqın ictimai–siyasi fikrinə təsiri

Azərbaycan xalqının istilaçılara və zülmkarlara qarşı azadlığı uğrunda mübarizəsi şanlı səhifələrlə doludur. Bu mübarizələr həm özünün qəhrəmanları, adlı-sanlı sərkərdələri və fikir bahadırları ilə, həm də döyüş ənənələri ilə xalqımızın milli-azadlıq hərəkatı tarixi xəzinəsini zənginləşdirmişdir. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Cavad xan, Qaçaq Nəbi, Sərdari milli Səttar xan, Salari milli Bağır xan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri və başqalarının döyüş ənənələri və mübarizlik irsi, onların adları ilə bağlı olan qəhrəmanlıq dastanları nəsillərdən keçib gələrək təkmilləşmiş, müasirləşmiş və hazırda xalqımızın milli şüurunun formalaşması prosesində mənəvi irs rolunu oynayaraq onun mübarizə əzmini gücləndirən, döyüş təcrübəsini artıran bir zərurətə çevrilmişdir. Bu baxımdan XX əsrin birinci yarısında xalqımız tarixin sinəsinə məşrutə inqilabı, Xiyabani hərəkatı və 21 Azər hərəkatı adı ilə milli azadlıq hərəkatının üç böyük qəhrəmanlıq dastanını yazmışdır. Bir-birinin ardı və tamamlayıcısı olan bu hərəkatların hər biri özlüyündə gələcək hərəkatların dirçəlişi üçün

milli-mənəvi zəmin yaratmışlar. Cənubi Azərbaycan milli-azadlıq hərəkatının bir hissəsi olan Səttar xanın başçılığı altında gedən Təbriz hərəkatı Cənubi Azərbaycan milli-azadlıq hərəkatında mühüm yerlərdən birini tutur.

Səttar xanın başçılığı ilə Təbriz milli–azadlıq hərəkatının (1908–1911) XX əsr Cənubi Azərbaycanın milli–azadlıq uğrunda mübarizəsi tarixində xüsusi yeri və rolu olmuşdur. Səttar xan hərəkatı Azərbaycan xalqının ictimai–siyasi və milli şüurunun inkişafı üçün əlverişli şərait yaratdı. "Sərdare–milli" (millətin atası) Səttar xanın, "Salare–milli" (xalqın atası) Bağır xanın başçılığı ilə Təbriz hərəkatının zəngin mübarizə irsindən 1920-ci ildə baş vermiş Şeyx Məhəmməd Xiyabani hərəkatında və 1945–1946-cı illərdə Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə baş vermiş 21 Azər hərəkatında geniş istifadə olunmuşdur.

Bu hərəkatın iştirakçılarının özünəməxsus xüsusiyyətləri, mübarizə təcrübəsi, igidliyi, xalq işinə hədsiz sədaqəti, azadlıq və istiqlal işinə dərin inam hissi olmuşdur. Onlarda olan ümumxalq məhəbbəti və azadlıq eşqi kimi xüsusiyyətlər Sərdari milli Səttar xan kimi əfsanəvi lider yetişdirmişdir. Onun ətrafında on minlərlə insanlar birləşərək ən ağır bir vaxtda, min bir məhrumiyyətlər içərisində düşmən ordusunun mühasirəsində on bir ay döyüş əməliyyatları aparmış və düşmənə təslim olmamışlar. Belə bir ağır şəraitdə əli tüfəng tutan kişilərlə birlikdə gənclər, qocalar, hətta qadınlar da iştirak etmişdir. Öz qəhramanlıqları ilə xalqın ürəyində ən səmimi hislər və həyəcan oyadan Səttar xan öz fəaliyyətində cavanların qaynar enerjisinə yüksək qiymət verərək belə demişdir: "Əgər məşrutə yolunda bir müvəffəqiyyət varsa, bu da cavanların fəallığı nəticəsində əldə edilmişdir". Təbriz hərəkatında iştirak edən qadınlar fədailərə paltar tikmiş, hədiyyələr toplamış, səngərlərdən boş patronları yığıb cəbbəxanaya təhvil vermiş və yaralılara qulluq etmişlər. Əli silahlı Təbriz qadınları səngərlərə girmiş, döyüşlərdə iştirak etmişlər. "İran istiqlaliyyət mübarizəsi uğrunda" kitabının müəllifi Mixail Pavloviç (1871–1927) o dövrə aid qiymətli bir sənəddən – üzü rübəndli, əli silahlı 60 qadınla birlikdə çəkdirdiyi şəkildən danışır. Bu qadınlar Təbriz səngərlərindən birini qəhrəmanlıqla müdafiə etmişlər. Sənədlərdə qeyd edilir ki, fədailərlə

şah ordusu arasındakı vuruşmalardan birində fədailərin meyitləri arasında kişi paltarı geymiş 20 qadının meyidi tapılmışdır.

Başqa bir mənbədə deyilir ki, Əmirəxiz məhəlləsində Səttar xanın qərargahı yerləşdiyi yerə bir neçə yaralı cavan mücahid gətirilir. Onlardan biri budundan yaralanmışdı, ancaq o, yarasının açılıb sarınmasına icazə vermirdi. Bu zaman həkimlər Səttar xana müraciət etməli olurlar. Səttar xan şəxsən cavan mücahidin yanına gəlir və ona nəvaziş göstərdikdən sonra, nə üçün yarasının sarınmasına icazə vermədiyini soruşur. Bu zaman cavan mücahid Səttərxandan xahiş edir ki, ondan başqa otaqda heç kim qalmasın, hamı otaqdan çıxdıqdan sonra mücahid paltarı geymiş cavan Səttar xana müraciətlə deyir: "Axı mən qadınam. Ona görə də kişilərin yanında soyunmağa utanıram". Qadının cavabından təsirlənən Səttar xanın gözləri yaşarmış və qadına belə cavab vermişdir: "Qızım, məgər mən ölmüşdüm ki, sən döyüşə getdin". Bu hadisə Səttar xanın xalq arasında nə qədər böyük ehtirama malik olduğunu, xalqın ona nəinki var-dövlətini, canını əsirgəmədiyini, hətta namusunu da tapşırmağa etibar etdiyini göstərir.

Təbriz qadınları mitinq və yığıncaqlarda iştirak edir, maddi cəhətdən mücahid təşkilatlarına yardım göstərərək, üzük, sırğa, qolbaq və gəlinlik cehizlərini iftixarla bağışlamışlar. Səttar xanın döyüşçülərinə çadralarının altında qarınlarına çörək bağlayıb daşıyan qadınlar da çox olmuşdur.

Dəvəçi məhəlləsindəki qadınların Səttar xana göndərdikləri məktub da bu cəhətdən olduqca maraqlıdır. Onlar həmin məktubda yazırlar: "Sizin bizim barəmizdə bir tədbir görməməyiniz eyib deyilmi? Rəhim xanı və başqalarını qova bildiyiniz halda, bizləri 50 günün müddətində (Təbrizdə hərəkatın başlandığı gündən keçən dövr) zindandakı kimi saxlayırsınız? Gəlin bizləri xilas ediz, bizim hamımızın məhəbbəti siz tərəfədir" ("Tərəqqi" qəzeti, Bakı 1908, №385). Deyilənlərə görə, Dəvəçi qadınları həmin məktubla yanaşı Səttar xana bir bağlama göndərmişdir ki, onun içərisində olan qadın yaylığını görən Səttar xan əvvəlcə gülümsəmiş, sonra isə ciddi vəziyyət alaraq demişdir: "Bunu da göndəriblər ki, onları azad edə bilməsək, başımıza örtək". Səttar xan göndərilmiş yaylığın mənasını düzgün izah etmişdi. Tarixdən məlum olduğu kimi Səttar xan həmin

hadisədən bir neçə gün sonra Dəvəçi məhəlləsinə hücum edərək, irticaçıların qüvvələrini darmadağın etmişdi.

Səttar xan bu ümumxalq məhəbbətini özünün şəxsi keyfiyyətləri və göstərdiyi qəhrəmanlığı ilə qazanmışdı. Təbriz döyüşlərinin birində Səttar xanın şücaətinin əfsanəvi şəkildə rəvayət edildiyini xatırlayan yazılardan birində deyilir: "Əmirəxiz, Lilava, Xiyaban, Əhrab və Hökməvardan başqa, Təbrizin hər yeri istibdadçıların əlində idi. Maku sərdarı 9 min süvari ilə Təbrizə yaxınlaşdı. Hamı təşvişə düşdü... bu zaman birdən Səttar xan at üzərində uzaqdan göründü. Onun simasından mərdlik və qəzəb tökülürdü. O, bir anlığa atının cilovunu çəkdi, ağ dəsmalını çıxarıb gözlərinə çəkdi və dəhşətli nərə çəkib şimşək kimi düşmənin üzərinə hücum etdi".

O dövrün bütün sənədlərində, o cümlədən Səttar xanın müasirlərinin və hərəkat iştirakçılarının yazılarında onun yüksək insani keyfiyyətlərə malik olması haqqında çoxlu məlumat verilmişdir. Onun ali keyfiyyətlərinin ən başlıcası təvazökarlığı, gələcəyə və xalqa inamı, rəşadəti, şücaəti, uzaqgörənliyi və genişürəkliliyi idi. O zaman Təbriz əhalisi Səttar xanın cəsarətindən, əzm və iradə möhkəmliyindən danışaraq, onu əfsanəvi qəhrəman səviyyəsinə qədər yüksəltmişlər. Xalqın Səttar xanı dastanların ağıllı, zəkalı, qorxmaz əfsanəvi qəhrəmanlarına oxşatması təbii idi. Çünki, o zaman kiçik bir qüvvə ilə böyük bir qüvvənin qabağına çıxmaq, bu qüvvəyə qarşı döyüşüb qalib gəlmək böyük cəsarət, əzm, irədə, təşkilatçılıq bacarığı tələb edirdi. Milli azadlıq hərəkatı xadimini, xalq qəhrəmanını məhz başqalarından fərqləndirən, onu adilikdən çıxarıb fövqəlinsan səviyyəsinə qaldıran məhz bu keyfiyytələri olmuşdur.

Azadlıq qartalı bu keyfiyyətləri ilə xalqımızın yaddaşında əbədi bir əfsanəyə dönərək onun xatirindən silinməmişdir. O, Azərbaycanın azadlığı və gələcəyi naminə bügünkü və gələcək nəsillərimizin mübarizlik simvoluna çevrilmişdir.

Təbriz hərəkatının ən ağır vaxtlarında milli zülmə qarşı Səttar xanla birlikdə mübarizə aparan, onunla çiyin-çiyinə səngər yoldaşı olan bir çox fədai başçıları və görkəmli mücahidlər də böyük qəhrəmanlıqlar göstərmişlər. Lakin çox təəssüflər olsun ki, onların

əksəriyyətinin adı zəmanəmizə qədər gəlib çıxmamışdır. Təbrizin ən çətin günlərində xalqımızın ən yaxşı, cəsarətli, qeyrətli, ağıllı oğulları onun müdafiəsində iştirak etmişlər. Bağır xan Salari-milli, Şeyx Məhəmməd Xiyabani, Əli Müsyö, Heydər xan Əmioğlu, Hacı Mehdi Kuzəkənani, Hüseyin Bağban, Hacı Əli Davaçı, Kirmanşahlı Yarməhəmməd xan, Hacı Məhəmməd Mirab, Məşədi Məhəmməd xan, Kərim Əsgəndani və başqaları azadlıq hərəkatında sədaqət və fədakarlıqları ilə Səttar xanın ən yaxın silahdaşları səviyyəsinə yüksələ bilmişlər. Bunlardan isə birincisi Bağır xan Salari-milli olmuşdur. Məşrutə hərəkatı zamanı Bağır xanın adı həmişə Səttar xanla birgə çəkilmişdir.

Səttar xanla Bağır xanı bir-birinə yaxınlaşdıran onların həyat və mubarizə yolunun oxşarlığı, keçdikləri fikir inkişafı mərhələlərinin yaxınlığı, əqidə birliyi olmuşdur. Xalqını və vətənini sevmək, onların azadlığı uğrunda fədakarlıq göstərmək bu iki şəxsiyyəti azadlıq hərəkatının iki sərkərdəsi kimi yetişdirmişdir.

Bağır xan yaşca böyük olmasına baxmayaraq, Səttarxana həmişə hörmət etmiş, onun məsləhətlərinə, hərbi zəkasına tabe olmuşdur. Onların arasında şəxsi dostluq, fikir və əqidə vəhdəti azadlıq hərəkatının uğurla irəliləməsinə xidmət etmişdir. Səttarxan Təbrizin ən ağır günlərində Bağır xanın köməyinə yetmiş sərkərdə əlini dostunun çiyninə qoyaraq “dostun qulluğundadır, daha nə lazımdır” deyə onunla məsləhətləşərmiş. İrtica qüvvələri bu iki dostu, silahdaşı bir-birindən ayırmaq üçün çoxlu fitnələrə əl atmışlar. Lakin Səttar xanın ayıqlığı və uzaqgörənliyi bu qüvvələrin qarşısını vaxtında almışdır. Bağır xan isə ömrünün axırına qədər Səttar xana və azadlıq hərəkatına sadiq qalmışdır.

Təbriz hərəkatının görkəmli iştirakçılarından biri də **Əli Müsyödür.** O, ömrünün sonuna qədər azadlıq hərəkatına sədaqətlə xidmət etmişdir. O, elmi, biliyi, xalq hərəkatı ilə yaxından tanışlığı nəticəsində mütərəqqi fikirli, mübariz azadlıq carçısı kimi yetişib, bərkimişdi. Əli Müsyö məşrutə hərəkatından əvvəl ticarətlə məşğul olmasına baxmayaraq, onu həmişə ən çox maraqlandıran və narahat edən istiqlal, azadlıq, tərəqqi və rifah uğrunda mübarizə idi. O, Təbriz hərəkatı ərəfəsində ziyalılarla tək-tək görüşür, məsləhətləşir, mübariz qüvvələrin təşkili haqqında yollar axtarırdı. Əli Müsyönün

ictimai-siyasi fəaliyyəti məhz Təbriz hərəkatı zamanı tam parlaqlığı ilə üzə çıxmışdır. O, Təbriz döyüşlərinin qızğın vaxtında həm mücahidlərin paltar, təzhizat, maddi təminatı ilə məşğul olmuş, həm də hərəkatın ideya istiqamətinə öz müsbət təsirlərini göstərmişdir. Xariclə əlaqə saxlamaq, mücahid postlarını təyin etmək, onlara parol vermək, Səttar xanla Bağır xanın təhlükəsizliyini təmin etmək Əli Müsyönün əlində olmuşdur. O, bu məsul işi həmişə qeyrətlə yerinə yetirmişdir. O, öz nitqlərindən birində demişdir: "Əziz həmməsləkdaşlarımız! Ey qorxmaz fədailər... uzun müddətdən bəridir ki, İran xalqları əsirdirlər. Siz gərək əsarət zəncirlərini parçalayasınız. Onu bilin ki, siz tək deyilsiniz".

Səttar xanın ən yaxın silahdaşlarından biri də **Əmoğlu** adı ilə məşhur olan **Heydər xan Əfşar** olmuşdur. O, Səttar xan, Bağır xan, Əli Müsyö və digər görkəmli hərəkat xadimləri ilə səngər yoldaşı olmuş, düşmənə qarşı rəşadətlə döyüşmüşdür.

Heydər Əmoğlu Səttar xanın məhəbbət və hörmətini təsadüfi qazanmamışdır. O, özünün göstərdiyi igidliyi, ciddiliyi və istedadı ilə, xalq hərəkatına xeyir verən ağıllı tədbirləri ilə buna nail olmuşdur. Heydər Əmoğlu son nəfəsinədək xalqımızın azadlığı uğrunda başladığı mübarizəsinə sadiq qalmış və şəhid olmuşdur.

Təbriz hərəkatı öz içərisində görkəmli döyüş sərkərdələri ilə bərabər həm də böyük fikir bahadırları, diplomatlar da yetişdirmişdir. Bu fikir bahadırlarının içərisində elələri vardır ki, onlar həm əldə silah səngərlərdə döyüşmək, həm də öz ideya və fikirləri ilə hərəkata rəhbərlik etmişlər. Belə şəxsiyyətlərin ən görkəmlilərindən biri də xalqımızın qəhrəman oğlu, alovlu vətənpərvər, görkəmli siyasətçi, atəşin natiq, yazıçı, jurnalist, filosof **Şeyx Məhəmməd Xiyabani** idi. Şeyx sonralar Sərdari-milli Səttar xanı xatırlayarkən demişdir: "Bəli, yaxşı yadımdadır ki, bir dəfə məşrutəçilərin mücahidlərə verməyə pulları yox idi. Səttar xan öz pulunu gətirib səngərlərdə mücahidlərə payladı. Bir neçə min tüməndən ibarət olan və Səttar xanın var-dövlətini təşkil edən o pul, Sərdarın gözündə deyildi. Azərbaycanın bu qeyrətli oğlu canı ilə bərabər var-dövlətini də xalq yolunda sərf etdi və şərafət qazandı".

Şübhəsiz ki, Şeyx Məhəmməd Xiyabaninin elmi-nəzər və təcrübi cəhətdən yetkinləşib inkişaf etməsində, 1920-ci ildə

Azərbaycan xalqının azadlıq mübarizəsinin rəhbəri kimi yetişməsində Səttar xanın başcılıq etdiyi Təbriz hərəkatı böyük bir rol oynamışdır. Məşrutə hərəkatının fəal iştirakçısı Şeyx Məhəmməd Xiyabani hərəkatı dövründə demokratik qüvvələr Təbriz hərəkatının mübarizə ənənələrindən geniş istifadə etmişlər. Hərəkata başcılıq edən Xiyabani demokratik qüvvələrin qələbəsi üçün məşrutə hərəkatı zamanı Azərbaycan xalqının göstərdikləri igidliklərdən nümunə götürməyi nəzərdə tutaraq "Azərbaycan və Azərbaycanın demokratik qüvvələri" adlı məşhur əsərində yazırdı ki, "Nə kütləvi surətdə edam edilmək, nə çapılıb talanmaq, nə də rəhmsiz zülmə, qəddarlığa məruz qalmaq azərbaycanlıları öz istiqlal və azadlığı uğrunda mübarizədə sarsıda bilmədi... Azərbaycanın möhkəm iradəli gəncləri və qəhrəman qocaları özlərini igidliyin ən yüksək zirvəsinə çatdırdılar. Başlarını qaldıraraq dünyanı – zülm və qəddarlıqla dolu olan bu davamsız dünyanı, ayaqları altında gördələr". Xiyabani möhkəm iradəli gənclər və qəhrəman qocalar dedikdə Təbriz hərəkatının başcıları Səttar xanı, Bağır xanı, onların silahdaşlarını və minlərlə mərd mücahidləri nəzərdə tuturdu.

Səttar xanın yaxın silahdaşlarından biri də Azərbaycanın azadlığı yolunda canını və varını qoyan azadfikirli tacirlərdən biri olan **Hacı Mehdi Kuzəkənani** olmuşdur. O, oğlanlarını da silahlandıraraq səngərlərə göndərmişdir. Hacı Mehdi Kuzəkənani görkəmli bir məşrutəçi kimi mücahidlərin rəğbətini qazanmışdır. Səttərxan ona həmişə xüsusi ehtiramla yanaşmışdır. Təbrizin mühasirəsinin ağır günlərində Səttərxan Hacı Mehdini qəmgin gördükdə deyir: "Hacı mən ölməmişəm ki, siz qəmgin olasız. Nə qədər canım sağdır qoymaram azadlıq aradan getsin". Dəfələrlə Hacı Mehdi Kuzəkənaniyə qarşı terror aktları törədilməsinə baxmayaraq, o heç bir şeydən qorxmayaraq nitqlərində və çıxışlarında xalqı axıra qədər mübarizə aparmağa çağıraraq deyirdi: "Öz hüququnuzdan əl çəkməyin və birləşib məşrutəni qoruyun ki, sizin övladlarınız asudə yaşayıb, adınızı həmişə yaxşılıqla yad etsinlər".

Təbriz hərəkatının görkəmli mücahid başçılarından biri də **Hüseyn xan Bağbandır**. Məşrutə hərəkatına lap əvvəldən qoşulan Hüseyn xan Bağban cəsurluğu və döyüşgənliyi ilə Səttar xanın və

xalqın məhəbbətini qazanmışdır. O, cəsur döyüşçü, sərrast atıcı olmuşdur. Səttar xan həmişə onu ən məsul işlərə və döyüşün ən ağır yerlərinə göndərmişdir. O, tapşırıqları ləyaqət və cəsarətlə yerinə yetirirdi. Təbrizin İstanbul qapısı adlanan yerindəki döyüşlərdə qəhrəmanlıqla vuruşaraq qələbə çalmış və Səttar xanı ağır vəziyyətdən xilas etmişdir. Təsadüfi deyil ki, xalq arasında onu mücahidlərin dayağı adlandırırdılar. Təbrizin Sərxan məhəlləsindəki döyüşlərdə azadlıq fədaisi Hüseyn xan Bağban qəhrəmanlıqla həlak olmuşdur. Onun həlak olması Səttar xanı, Bağır xanı və bütün mücahidləri mütəəssir etmişdir.

Hüseyn xan Bağban özünün səmimiyyəti, sədaqəti, rəşadəti və mübarizlik əzmi ilə Səttar xanın, Bağır xanın silahdaşı səviyyəsinə yüksələrək üzərində Səttar xan Sərdari-milli və Bağır xan Salari-millinin şəkilləri olan iftixar medalı ilə təltif olunan ilk mücahidlərdən biri idi.

Səttar xanın başçılığı ilə Təbriz hərəkatının zəngin mübarizlik irsindən 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin, 1945–1946-cı illərdə Seyid Cəfər Pişəvərinin başçılığı ilə baş vermiş azadlıq hərəkatları zamanı geniş istifadə olunmuşdur. Həmin hərəkatlar dövründə azadlıq və istiqlal uğrunda döyüşlərə gedən mücahidlərin başı üzərində Səttar xanın bayrağı dalğalanmışdır.

### 2.6.3. Şeyx Məhəmməd Xiyabaninin ictimai–siyasi baxışları və azadlıq ideyaları

1879-cu ildə Təbrizin Xamnə qəsəbəsində anadan olmuş Şeyx Məhəmməd Xiyabani hələ gənc yaşlarından əlində tüfəng Təbriz hərəkatının səngərlərində gedən qızğın döyüşlərdə iştirak etmiş, tez bir zamanda özünün igidliyi, ağlı, istedadı və zəkası ilə Səttar xanın və Bağır xanın rəğbətini qazanmışdır.

1906–1911-ci illərdə Cənubi Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçısı olmuş Şeyx Məhəmməd Xiyabani bu hərəkatda həm döyüş tərcübəsi, həm də ideoloji-siyasi təcrübə toplayaraq 1920-ci ildə Cənubi Azərbaycanda milli azadlıq hərəkatının yeni bir mərhələsinə rəhbərlik etmişdir.

Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi azadlıq mücahidləri daxili irticaya və yadelli işğalçılara qarşı mübarizə aparmaqla bərabər, ölkə miqyasında yeniləşmə – demokratik dəyişikliklər aparılmasını tələb edir, bütün İranda xalq inqilabının qələbəsinə, şahlıq rejiminin ləğvinə və respublika tipli demokratik dövlət yaradılmasına çalışır, yeni yaradılacaq demokratik İran dövlətinin tərkibində Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparırdılar. Cənubi Azərbaycan əhalisinin vahid cəbhə halında azadlıq mücadiləsinə qalxmasında Azərbaycan Demokrat Partiyası (ADP) mühüm rol oynayırdı. ADP-nin Mərkəzi Komitəsinə Şeyx Məhəmməd Xiyabani rəhbərlik edirdi.

Xiyabaninin göstərişi ilə hərəkət edən demokratlar Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. Azərbaycan şəhərlərində əhalini mitinqlərə çağırır, ingilispərəst İran hökumətinin istefasını və ölkədə demokratik islahatlar keçirilməsini tələb edirdilər.

Cənubi Azərbaycanda milli azadlıq hərəkatı getdikcə həlledici mərhələyə daxil oldu. 1920-ci il aprelin 7-də Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə Təbrizdə silahlı üsyan başlandı. Bütün Təbriz əhalisi üsyançıların müdafiəsinə qalxdı. Üsyanı yatırtmaq üçün mərkəzdən göndərilmiş polis dəstələri buna cəsarət göstərməyərək şəhəri tərk etdilər. Xalqın misli görünməmiş fəallığı nəticəsində 1920-ci ilin 7 aprel üsyanı qan tökülmədən qalib gəldi. Üsyanın qalib gəldiyi 7 aprel günü xalq qarşısında çıxış edən Şeyx Məhəmməd Xiyabani həmin gündən etibarən Azərbaycanın adının dəyişdirilərək “Azadıstan” adlandırılacağını bəyan etdi.

Təbriz üsyançıları dərhal əməli fəaliyyətə başladılar. Mərkəzdən göndərilmiş dövlət məmurları və hərbi qulluqçular vəzifələrindən kənarlaşdırıldılar. Bütün dövlət idarəçiliyi ADP fəallarının əlinə keçdi, İran ərazisində demokratik dəyişikliklər və yeniləşmə uğranda başlanmış hərəkat, nəticə etibarilə, milli azadlıq hərəkatına çevrildi. Azərbaycanın müstəqil dövlətçilik ənənələrinin dirçəldilməsinə başlandı.

Təbrizdə silahlı üsyan qələbə çaldıqdan sonra Xoy, Ərdəbil, Astara, Marağa, Əhər və Zəncanda da üsyanlar baş verdi. Cənubi Azərbaycanda baş verən milli azadlıq hərəkatı İranın başqa

yerlərində də daxili irticadan və ingilislərdən narazı olan qüvvələr tərəfindən rəğbətlə qarşılandı.

İrticaya və ingilis ağalığına qarşı ümumxalq narazılığının bütün İranı əhatə etdiyi şəraitdə Təbriz üsyançıları daha qəti addımlar atmağa başladılar. 1920-ci il iyunun 23-də Təbrizdə Ş.M.Xiyabaninin başçılığı ilə Milli Hökumət yaradıldı. ADP fəallarından ibarət olan Milli Hökumətin tərkibi əhalinin müxtəlif təbəqələrinin nümayəndələrindən ibarət idi.

Milli Hökumətin fəaliyyətə başladığı 24 iyun günü Təbrizdə ümumxalq bayramına çevrildi. Bütün müəssisələrdə, tədris ocaqlarında iş dayandırıldı, bazarlar bağlandı. Milli Hökumətin qərarı ilə, mərkəzdən göndərilmiş bütün dövlət məmurları, İran valisi də daxil olmaqla, Təbrizdən çıxarıldılar. Bu, faktiki olaraq, Cənubi Azərbaycanda mürtəce şahlıq rejiminin – İran hakimiyyətinin devrilməsi və milli dövlətçilik ənənələrinin dirçəlişi demək idi. Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi Milli Hökumət isə müstəqil demokratik respublika funksiyasını yerinə yetirirdi.

Milli Hökumət iqtisadiyyat, maarif, səhiyyə və b. sahələrdə islahatlara başladı. İlk növbədə, dözülməz vəziyyətə düşmüş yoxsul əhalinin, o cümlədən təbrizlilərin vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif xarakterli tədbirlər görüldü. Savadsızlığın ləğvinə başlandı. Milli məktəblər, xəstəxanalar açıldı. Təbrizdə yoxsul uşaqları üçün pulsuz qız məktəbi fəaliyyətə başladı. Yeni açılmış milli məktəblərdə dərs demək üçün Bakıdan, Türkiyədən, habelə Tiflisdən müəllimlər dəvət olundu. Milli qvardiya yaradılması üçün hazırlıq işlərinə başlandı. Milli Hökumətin öz jandarm və polis dəstələri yaradıldı. Polis məktəbi açıldı. Eyni zamanda, yeni iş yerlərinin açılması, pul islahatının keçirilməsi, bank-maliyyə sisteminin yaradılması, bələdiyyə seçkilərinin keçirilməsi üçün hazırlıq işlərinin görülməsinə və torpaq islahatına başlandı. Bu məqsədlə yeni idarələr, müəssisələr, nazirliklər yaradıldı. Milli Hökumətin həyata keçirdiyi bütün tədbirlərin, habelə nəzərdə tutulan islahatların özü də, əslində, Cənubi Azərbaycanda Respublika tipli müstəqil, demokratik dövlət yaradılmasına yönəlmişdi.

Xiyabani öz doğma xalqını daim maariflənməyə, inkişaf naminə mübarizəyə çağırır, müstəqilliyin, azadlığın yalnız bu yolla əldə olunacağına inanırdı. O, Təbrizin şəhər bağında təşkil olunmuş yığıncaqlarda tərəqqipərvər fikirlərini təbliğ edirdi. Xiyabaninin 15 iyun 1920-ci ildə söylədiyi nitqində onun mübarizəsinin əsas ideyaları öz əksini tapıb: "Azad və müstəqil olmaq istəyən bir xalq, öz həyatına və ictimai məsələlərə laqeyd qala bilməz. Biz dəxi mütərəqqi xalqlar cərgəsinə çatmaq üçün öz fikir və hissiyyatımızı onların dərəcəsinə qaldırmalıyıq. Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir".

Azadıstan Məmləkətinin uğurları bütün İranı hərəkətə gətirmişdi. Lərzəyə düşən şahlıq reijimi, həmçinin, İranı öz asılılığında saxlamağa çalışan və Bakı neftinə can atan ingilislər real təhlükə qarşısında qalmışdılar. Odur ki, İran irticası və ona yaxından kömək edən ingilislər Tehranda Milli Hökumətə qarşı qəsd hazırlamağa başlamışdılar.

Tehran rejimi bir tərəfdən Milli Hökumətin başını qarışdırmaq üçün Ş.M.Xiyabani ilə danışıqlar aparır, müxtəlif vədlər verir, digər tərəfdən isə Təbrizə hücum planı hazırlayırdı. Bütün hazırlıq işləri başa çatdırıldıqdan sonra 1920-ci il sentyabrın 12-də irtica qüvvələri Təbrizə hücum etdilər. Təbriz üsyançıları iki gün ərzində qəhrəmancasına müqavimət göstərdilər. Sentyabrın 14-də Xiyabani öldürüldü və üsyan qan içərisində boğuldu. Azərbaycan xalqının istiqlal mübarizəsinin daha bir parlaq səhifəsi tarixə qovuşdu. Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanı öz aralarında iki yerə bölmüş qüvvələr onun azadlığa çıxmasına yol vermədilər. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın tərkibində qaldı.

1920-ci il Cənubi Azərbaycan milli–azadlıq hərəkatının rəhbəri Şeyx Məhəmməd Xiyabaninin ictimai–siyasi və fəlsəfi baxışlarının hərəkatın inkişafında müsbət rolu olmuşdur. Ş.M.Xiyabani "Azərbaycan və Azərbaycanın demokratik qüvvələri" adlı məşhur əsərində, "Təcəddüd" qəzetində nəşr etdirdiyi

“Azərbaycan”, “Qorxu və cəsarət” və s. məqalələrində, “Təcəddüd” qəzeti yanında təşkil etdiyi “Təcəddüd səhnəsində” söylədiyi nitqlərində xalq azadlığı və demokratiya haqqında fikirləri hərəkatın ideya mənbəyi idi.

Şeyx Məhəmməd Xiyabani öz şəxsi mütaliəsi, zəngin elmi biliyə malik olması ilə Azərbaycan fəlsəfi fikrinin inkişafı tarixində yeni bir dövr açmaq şərəfinə nail olmuşdur. Onun belə bir yüksək səviyyəyə qalxmasına rus, ərəb, fars, fransız və digər dilləri bilməsi və bu dillər vasitəsilə dünya milli-azadlıq hərəkatının mübarizəsi tarixini öyrənməsinin böyük təsiri olmuşdur. Şeyx Məhəmməd Xiyabaninin qaldırdığı fikir bayrağının üzərində azadlıq bərabərlik, məstəqillik sosial ədalət şüarları yazılmışdır. Xiyabani özünün yüksək insani keyfiyyətləri, bilik və ləyaqəti ilə həm xalq arasında, həm də mücahidlər  arasında böyük hörmət və nüfuz qazanmışdır.

Xiyabanini milli azadlıq hərəkatına bağlayan onun sönməz vətənpərvərliyi və azadlıqsevərliyi olmuşdur. Əldə tüfəng səngərlərdə döyüşməklə kifayətlənməyən Xiyabani tüfəngini qələmlə əvəz edərək xalqı azadlığa və müstəqilliyə ideoloji-siyasi cəhətdən hazırlamasının ən mühüm amillərdən biri olduğunu dərk etmişdir. Məhz belə ağır bir vaxtda xalqının müstəqilliyi və azadlığı naminə qəzet və jurnallarda yazdığı məqalələr, meydan, səngər və küçələrdə söylədiyi nitqlərdən tutmuş silaha qədər bütün vasitələrdən məharətlə istifadə etmişdir.

Xiyabani nadir natiqlik istedadı, dərin zəkası, güclü və sehrli məntiqi, aydın və səlis nitqləri ilə kütlələri istiqlala cağırmışdır. Xiyabani universal zəkaya malik bir şəxsiyyət olmuşdur. Onun nitqləri, cıxışları, məruzələri və silahdaşları ilə olan söhbətləri geniş dünyagörüşünə malik olan mahir bir filosofun, mütəfəkkirin çıxışlarıdır. Xiyabani üçün yeganə bir məqsəd, amal var idi ki, bu da istiqlaldır. Azadlıq fədaisi deyirdi: “Bir millətin şərəfli olması üçün birinci şərt onun istiqlaliyyətidir”. Bir sözlə, Xiyabani siyasi liderlərə xas olan bütün müsbət keyfiyyətləri özündə cəmləşdirmişdir. Xiyabani mənəvi igidliyi maddi igidlikdən üstün tutaraq deyirdi: “Mənəvi igidlik insanın öz ehtiraslarını ixtiyarına alıb, onlara hakim olmaqdan ibarətdir”.

Xiyabaninin nitqləri və məqalələri içərisində "Təcəddüd" qəzetində nəşr etdirdiyi "Azərbaycan" məqaləsi ən görkəmli yer tutur. Xiyabani Azərbaycanın azadlığı uğrunda mübarizədə onun başına gətirilən müsibətləri ürək yanğısı ilə deyir və xalqı istiqlal uğrunda döyüşlərə çağırırdı: "Hələ də Azərbaycanın qanı axıdılmaqdadır. Bugün Tehranın gözü Azərbaycanın vücuduna dikilmişdir. Dodaqlardan eşidilən kəlmələrdə qələmlərin yazdığı sözlərdə təqdir və təhsin nəvaları eşidilməkdədir. Lakin, ey qeyrətli Azərbaycan, ey Vətən məftunlarının istiqamətli övladları, ey azadlığın qorxu bilməyən qəhrəmanı, ey təriflərə ehtiyacı olmayan Azərbaycan! Ey Azərbaycan! Vətən bu təqdir və təqdislər sənin verdiyin şəhidlərin qanı bahasıdır. Bunlar sənin həqiqətən ölməmiş cavanlarının, cavan-mərd qocalarının, əzmkar uşaqlarının, təsəlli tapmamış qadınlarının və qızlarının səsidir ki, təqdir və təqdisləri İran səmalarında tərənnəm edir. Bu eşitdiyin onların səsidir, dinlə və ayıl. Ey Azərbaycan, ey demokratik Azərbaycan başını qaldır!".

XX əsr dünya və Şərq xalqlarının milli-azadlıq hərəkatları tarixində özənəməxsus yeri olan Şeyx Məhəmməd Xiyabani müstəqillik yolunda apardığı mübarizəsində öz amalından dönməmiş və bu amal uğrunda son nəfəsinədək, ölümdən qorxmayaraq, vuruşaraq şəhid olmuşdur.

### 2.6.4. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə yaradılan Cənubi Azərbaycan Milli Hökumətinin sosial–siyasi və mədəni quruculuq işləri

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra Cənubi Azərbaycandakı milli-demokratik oyanışın vüsəti xeyli artmışdı. Tehran hökuməti İran türklərinin azadlıq mübarizəsini beşikdə boğmaq üçün Güney Azərbaycanı iqtisadi blokadaya almışdı. Azərbaycan şəhərlərində fabrik-zavodlar bağlanır, ərzaq məhsulları Tehrana daşınırdı. İranın dövlət bankları Azərbaycandakı müəssisə və idarələrin maliyyələşdirilməsini dayandırmışdı. Jandarm hissələri Azərbaycanın şəhər və kəndlərində minlərlə türkü müxtəlif bəhanələrlə həbsxanalara salırdı.

Seyid Cəfər Pişəvəri başda olmaqla Azərbaycan demokratları ilk vaxtlar milli muxtariyyət əldə etmək məsələsini dinc yolla həll etmək istəyirdilər. Ancaq Tehran hökuməti Azərbaycana muxtariyyət vermək fikrində deyildi. Mövcud şərait Azərbaycan türklərini seçim qarşısında qoymuşdu: ya müstəqil hakimiyyət qurumu yaradaraq milləti əzəli arzularına qovuşdurmaq, ya da ki, əvvəlki kimi fars şovinizminin hakimiyyəti altında milli zülm şəraitində yaşamaq.

Azərbaycan demokratları geniş xalq kütlələrinin dəstəyinə arxalanaraq birinci yolu seçdilər və qəti addımlar ataraq milli hakimiyyət yaratmaq yolunu tutdular. 1945-ci il noyabrın 20-21-də Təbrizdə ölkənin hər tərəfindən gəlmiş nümayəndələrin iştirakı ilə Azərbaycan Xalq Konqresi öz işinə başladı. Onun işində 700 nəfər xalq nümayəndəsi iştirak edirdi. Konqress özünü Müəssislər Məclisi elan edib Azərbaycan Milli Məclisinə seçki aparmağı, dövlət orqanları yaratmağı qərara aldı.

Müəssislər Məclisi mərkəzi hökumətdən İran dövləti çərçivəsində Azərbaycana milli muxtariyyət verilməsini tələb etdi. Pişəvəri Konqresdəki nitqində mövcud durumu geniş təhlil edərək göstərdi ki, azadlıq və demokratiya uğrunda mübarizəyə qalxan Azərbaycan xalqının çıxış yolu ancaq xalq üsyanındadır.

Pişəvəri Azərbaycan xalqı adından İran hökumətinə müraciətlə dedi: "…bizə ixtiyar verilməlidir ki, biz öz evimizin sahibi olaq, onu istədiyimiz kimi idarə edək… Bizim milli qüdrət və milli qüvvəmiz olmalıdır". Pişəvərinin bu çıxışında Azərbaycan xalqının arzu və istəkləri əks olunmuşdu. Xalq konqresi Azərbaycanda xalq hakimiyyətinin yaradılması, qəbul olunmuş qərarların əməli olaraq həyata keçirilməsi və Milli Məclisə seçkilərə başlamaq işini Pişəvəri başda olmaqla 39 nəfərdən ibarət seçilmiş Milli Komitəyə tapşırdı. Bu işləri uğurla yerinə yetirmək üçün ona tam ixtiyar verdi.

Pişəvərinin başçılıq etdiyi Milli Komitə Tehran hökumətinin tədbirlərini gözləmədən Azərbaycan xalqının milli muxtariyyətini təmin etməyi əsas vəzifə olaraq öz qarşısına qoydu. Bu istiqamətdə bir sıra tədbirlər görüldü. Milli Komitə faktiki olaraq Azərbaycan xalqının iradəsini təmsil edən müvəqqəti inqilabi hökumət idi. Pişəvəri Milli Komitənin səlahiyyətlərindən bəhs edərək göstərirdi

ki, “Xalq Konqresi tərəfindən seçilmiş bu heyətə daşıdığı vəzifəyə görə müvəqqəti hökumət adı vermək olar, çünki 20 gün Azərbaycanda xalqın əmniyyət və asayişini qorumaq bu heyətin ixtiyarında idi”.

Azərbaycan demokratları ölkəni idarə etməyin yeganə yolunu şəhər və vilayət əncümənlərinin (yerli özünüidarəetmə orqanları) təşkilində görürdülər. Belə bir təcrübə Səttar xan hərəkatı dövründə sınaqdan çıxmışdı. Pişəvəri əncümənlərin vəziyyəti barəsində demişdi: “Azərbaycan xalqı 40 il bundan əvvəl təşkil etdiyi vilayət əncüməni vasitəsilə özünün siyasi inkişaf və istedadını sübut etmişdir. Firqəmiz bu istedad və ləyaqəti dünyaya sübut edib, onun qabağına çıxarılan maneələri aradan qaldırır”.

1945-ci il noyabrın 26-dan dekabrın 3-dək Azərbaycan tarixində (bütövlükdə həm də İran tarixində) ilk dəfə olaraq demokratiya üsulu əsasında və qadınların iştirakı ilə gizli, azad seçkilər keçirildi. Xalq Milli Məclisə bütün təbəqələri təmsil edən 101 nəfər nümayəndə seçdi.

1945-ci il dekabrın 12-də (Azər ayının 21-də) Təbrizdə Azərbaycan Milli Məclisi öz işinə başladı. Məclisin ilk iclası Səttar xanın qardaşı Hacı Əziz xan tərəfindən açıldı. Məclis ilk iclasında özünün daxili nizamnaməsini qəbul etdi. Bu nizamnamədə milli-azadlıq və İran daxilində muxtariyyət prinsipi tamamilə gözlənilmişdi. Elə həmin gün Milli Məclisin ikinci iclasında Azərbaycan Milli hökuməti təşkil olundu və M.C.Pişəvəri Azərbaycan Milli hökuməti Nazirlər Şurasının sədri seçildi. Məclis xalqın azadlığını qorumaq üçün Azərbaycan Milli hökumətinə geniş səlahiyyət verdi. Tarixə həm də “21 Azər” adı ilə düşmüş bu hərəkat milli və demokratik hərəkat idi ki, Güney Azərbaycanında Milli hakimiyyət qurdu.

1945-ci il 21 Azər hərəkatı qələbə çalandan sonra yaranan Milli Hökumət Səttar xanın, Bağır xanın və Təbriz Hərəkatında iştirak etmiş xalqımızın qəhrəman oğullarının xatirəsini əbədiləşdirməyə başladı. Milli Hökumətin təklifi və Milli Məclisin qərarı ilə Təbrizin mərkəzi küçələrinə Səttar xanın və Bağır xanın adları verilmişdir. Gülüstan bağında Azərbaycan xalqının mərd oğlu Səttar xanın heykəli ucaldılmışdır. Milli Hökumət Səttar xanla birlikdə Bağır xanın da xatirəsini əbədiləşdirmişdir. Onların hər

ikisinin həyat və fəaliyyətlərinə dair muzeylər və ev muzeylərinin yaradılmasına xüsusi diqqət yetirilmişdir. Dövrü mətbuatda, dərs kitablarında onların qəhrəmanlıqlarını əks etdirən yazılar verilmiş, rəssamlar, heykəltaraşlar, xalçaçılar bu ölməz xalq qəhrəmanlarının obrazlarını yaratmışlar. Milli Məclisin qərarı ilə Səttar xanın adına orden təsis edilmişdir.

Ancaq 21 Azər hərəkatı və Milli Azərbaycan hökuməti xain qüvvələrin əli ilə süquta uğradıldıqdan sonra İranda Azərbaycan xalqının bu qəhrəman oğullarının xatirələrinin əbədiləşdirilməsi və yad olunması yasaq olunmasına baxmayaraq Səttar xan, Bağır xan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri və XX əsr Cənubi Azərbaycan milli-azadlıq hərəkatının digər qəhrəmanlarının xatirəsi həmişə xalqımızın qəlbində əbədi yaşayacaq və yad ediləcəkdir.

**Mövzu üzrə mühazirə və seminar planı**

1. XX əsrin birinci yarısında Cənubi Azərbaycanda milli–azadlıq hərəkatı və ictimai–siyasi fikir
2. XX əsrin birinci yarısında Cənubi Azərbaycanın ictimai–siyasi fikir tarixində milli azadlıq mübarizəsinin başlıca yer tutması
3. Səttar xanın başçılığı ilə Təbriz milli-azadlıq hərəkatının Cənubi Azərbaycanda xalqın ictimai–siyasi fikrinə təsiri
4. Şeyx Məhəmməd Xiyabaninin ictimai–siyasi baxışları və azadlıq ideyaları
5. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə yaradılan Cənubi Azərbaycan Milli Hökumətinin sosial–siyasi və mədəni quruculuq işləri

## 2.7. Sovet hakimiyyəti dövründə Azərbaycanda ictimai-siyasi fikir

### 2.7.1. Azərbaycanda Sovet hakimiyyəti illərində ictimai–siyasi fikrin marksizm–leninizm təliminin təsiri altında inkişafı

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra ictimai–siyasi fikir marksizm–leninizm təliminin təsiri və kommunist partiyasının rəhbərliyi altında formalaşmışdır. Sovet dövründə

marksizm–leninizm ideologiyası zorakılıq yolu ilə insanların şüuruna yeridilirdi. Azərbaycan kommunistlərinin liderləri – Nəriman Nərimanov, Soltan Məcid Əfəndiyev, Səmədağa Ağamalıoğlu, Ruhulla Axundov, Əliheydər Qarayev və başqaları marksizm ideyalarını təbliğ edirdilər.

XX əsrin 30-cu illərində Azərbaycanın mütərəqqi fikirli mütəfəkkirləri – Məhəmməd Hadi, Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşviq, Salman Mümtaz və bir çox görkəmli ziyalılar ictimai–siyasi baxışlarına görə repressiyaya məruz qalaraq, totalitar bolşevik rejimi tərəfindən məhv edildilər.

1920-ci ilin 28 aprel bolşevik istilasından sonra Azərbaycan Xalq Cümhuruyyətinin qurucuları, ictimai–siyasi xadimləri, görkəmli ziyalılar mühacirətə getməyə məcbur oldular. Azərbaycanın siyasi mühacirləri ictimai–siyasi fəaliyyətlərini xarici ölkələrdə davam etdirdilər.

Azərbaycanda ictimai–siyasi və fəlsəfi fikir tarixinin öyrənilməsi respublikada mütəxəssislərin hazırlanması ilə əlaqəli getmişdir. 1920–1940-cı illərdə Azərbaycan ictimai–siyasi və fəlsəfi fikir tarixinə dair axtarışlar aparılmış, bir sıra mənbələr aşkara çıxarılaraq öyrənilməyə başlanmış, ciddi elmi əhəmiyyəti olan məqalələr yazılmışdır. Azərbaycan xalqının fəlsəfə mədəniyyətini öyrənmək sahəsində 30-cu illərdən Aleksandr Makovelski (1884–1969), Heydər Hüseynov (1908–1950), Mehbalı Qasımov (1906–1963) və Əhməd Zəkuyev (1888–1968) böyük xidmət göstərmiş, Azərbaycan ictimai–siyasi və fəlsəfi fikir tarixi elminin ilk yaradıcıları olmuşlar.

### 2.7.2. Sovet hakimiyyəti dövründə Azərbaycanın fəlsəfi və ictimai–siyasi fikir tarixinə aid yazılmış müxtəlif tədqiqat əsərləri

1949-cu ildə akademik Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai–siyasi və fəlsəfi fikir tarixindən" adlı fundamental əsərinin nəşri Azərbaycan ictimai–siyasi fikir tarixi elminin bir elm kimi formalaşmasında müstəsna rolu olmuşdur. H.Hüseynov bu

əsərindəki ictimai–siyasi baxışlarına görə təqib olunmuşdur. O, haqsız tənqidlərə məruz qalmış və bu ədalətsizliklərə dözməyərək intihar etmişdir.

1960–1980-ci illərdə Bəhmənyar əl-Azərbaycaninin "ət-Təhsil" (idrak), Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri", Mahmud Şəbüstərinin "Gülşani-raz", Şihabəddin Yəhya Sührəvərdinin "Filosofların görüşləri" əsərləri, Abbasqulu ağa Bakıxanovun, Mirzə Kazımbəyin, Həsən bəy Zərdabinin, Nəriman Nərimanovun, habelə XX əsrin əvvəlləri Azərbaycan inqilabçı demokrtlarının görkəmli nümayəndələrinin seçilmiş əsərləri nəşr edilmişdir. Bu əsərlər Azərbaycanın ictimai–siyasi və fəlsəfi fikir tarxinin yazılması üçün qiymətli mənbələr olmuşdur.

Orta əsrlər Azərbaycanın ictimai–siyasi və fəlsəfi fikir tarixi üçün səciyyəvi cəhətlərdən biri onun xüsusi elmi-nəzəri traktatlarla yanaşı, bədii, poetik əsərlər vasitəsilə inkişafıdır. Azərbaycan mədəniyyətinin Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi və Məhəmməd Füzuli kimi görkəmli nümayəndələri öz dövrlərinin yüksək istedadlı şairləri, mütəfəkkirləri, filosofları olmuşdur. Onların əsərlərində əxlaq, məntiq, sosial ədalət, cəmiyyət və dövlət məsələlərinə geniş yer verilmişdir.

Sovet hakimiyyəti dövründə ictimai–siyasi fikir tarixinə dair tədqiqatlar aydın şəkildə sübut etmişdir ki, Orta əsrlərdə Azərbaycanda, ümumiyyətlə, Yaxın Şərqdə elmi biliklər öz dövrünə görə geniş inkişaf etmişdir. Bu dövrdə Azərbaycanın milli fəlsəfi və ictimai–siyasi fikrinin öyrənilməsi sahəsində mühüm işlər görülmüşdür. Zümrüd Quluzadə "Hürufılik  və onun Azərbaycanda nümayəndələri", "Qasımi Ənvarın dünyagörüşü", "XIII–XVI əsrlər Şərq fəlsəfəsinin inkişaf qanunauyğunluqları və Qərb–Şərq problemi", "Şərq mədəniyyətinin nəzəri problemləri və Nizamişünaslıq", Solmaz Rzaquluzadə "Xaqani Şirvaninin ictimai–siyasi və fəlsəfi görüşləri", "Baba Kuhi Bakuvinin dünyagörüşü", "X–XII əsrlərdə Azərbaycanda panteizm", Zakir Məmmədov "Azərbaycanda XI–XII əsrlərdə fəlsəfi fikir", "Bəhmənyarın fəlsəfəsi", Şaiq İsmayılov "Mahmud Şəbüstərinin fəlsəfəsi", Camal Mustafayev "Nizaminin fəlsəfəsi və estetik görüşləri", Fuad Qasımzadə "Qəm karvanı (Füzulinin dünyagörüşü)", Əhməd

Əminzadə “Azərbaycanda fəlsəfi və ictimai–siyasi fikir tarixindən (XII–XIII əsrlər)” və s. tərəfindən tədqiqatlar aparılmış və əsərlər nəşr edilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ictimai–siyasi fikrinə dair Əliəşrəf Səidzadənin “Mirzə Şəfi Vazeh”, Ziyəddin Göyüşovun “Zərdabinin dünyagörüşü”, Şeydabəy Məmmədovun “Mirzə Fətəli Axundovun dünyagörüşü”, Şükufə Mirzəyevanın “Mirzə Fətəli Axundovun estetik görüşləri”, Ənvər Əhmədovun “Azərbaycan maarifçiliyinin fəlsəfəsi”, “Abbasqulu ağa Bakıxanov: dövrü, həyatı, fəaliyyəti”, Ağababa Rzayevin “Məhəmməd Əli Mirzə Kazım bəy”, “Mirzə Kazım bəy”, “Dərbənddən başlanan əzablı yol”, İzzət Rüstəmovun “Həsən Bəy Zərdabi”, Əziz Mirəhmədovun “Məhəmməd Hadi”, Midhət Ağamirovun “Sabirin dünyagörüşü”, “Məhəmməd Hadinin fəlsəfəsi”, Firudin Köçərlinin “Nəriman Nərimanov: həyatı, fəaliyyəti, dünyagörüşü”, “Üzeyir bəy Hacıbəylinin ictimai–siyasi görüşləri”, Qədim Mustafayevin “XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi” adlı əsərləri və başqa kitablar nəşr edilmişdir.

Bu kitabların marksizm–leninizm ideologiyasının təsiri altında yazılması nəticəsində Azərbaycanın ictimai–siyasi fikrinin bəzi məsələləri obyektiv şəkildə araşdırılmamış və qaranlıqda qalmışdır. Sovet dövründə totalitar sistem Azərbaycanın ümumilikdə fəlsəfi və ictimai–siyasi fikir tarixinin yazılmasına imkan verməmişdir. Sovet hakimiyyəti illərində cəmiyyət həyatında din ictimai–siyasi fikirdən kənarlaşdırılmış və ateizm hökmran olmuşdur. Ateizmin təbliği nəticəsində cəmiyyətin ictimai–siyasi həyatına böyük zərər vurulmuşdur.

1966-cı ildə Azərbaycan Sovet Sosialist Respublikası Elmlər Akademiyasının nəşriyyatında “Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər” (I cild) kitabı dərc olunmuşdur. Bu kitab, o dövr üçün Azərbaycan fəlsəfəsi tarixinin öyrənilməsində diqqətəlayiq hadisə olmuşdur. Kitab marksizm-leninizm mövqeyindən yazılmasına baxmayaraq, burada diqqəti cəlb edən müsbət cəhət milli fəlsəfənin bir çox görkəmli nümayəndələrinin yaradıcılığının verilməsidir. 1970–1980-ci illərdə ictimai elmlər sahədə xeyli səmərəli tədqiqatlar aparılmış, əsərlər nəşr edilmişdir.

Sovet hakimiyyəti dövründə vətənindən didərgin düşmüş və xarici ölkələrdə mühacirət həyatı yaşamış Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçupaşov, Mirzə Bala Məmmədzadə və digərlərinin yaradıcılığı obyektiv tədqiq olunmamış, onlara müxtəlif böhtanlar atılmış və uydurma damğalar vurulmuşdur.

70 illik Sovet hakimiyyəti və bolşevik diktaturası nəticəsində milli-mədəni irs iflasa uğradıldı və milli-mədəni irslə məşğul olan ziyalıların hamısına millətçi damğası vurularaq məhv edildi. Milli mədəniyyət proletar mədəniyyəti ilə, rəhbər vəzifələrdəki milli kadrlar isə erməni, rus, gürcülərlə əvəz edildilər. Azərbaycanın milli-mədəniyyət abidələri "Kitabi-Dədə Qorqud" – tarixi eposu, "Muğam" və s. qadağan edildi. Azərbaycanın dövlət dili rus dili oldu. Nəriman Nərimanov, Əziz Əliyev kimi görkəmli dövlət xadimləri, Mikayıl Müşviq, Hüseyn Cavid, Heydər Hüseynov, Vəli Xuluflu, Tağı Şahbazi və s. kimi görkəmli ziyalılar məhv edildi. Azərbaycan tarixi, fəlsəfəsi və ədəbiyyatı saxtalaşdırıldı.

Respublikadakı bu vəziyyət Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinədək davam etdi. 1970–1980-ci illərdə Azərbaycan xalqının tarixində misilsiz xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsində və bərpa edilməsində böyük işlər gördü.

Bu dövrdə Heydər Əliyev Azərbaycanın görkəmli sənət adamlarına – şairlərə, yazıçılara, bəstəkarlara, aktyorlara, müğənnilərə ilk dəfə olaraq Sosialist Əməyi Qəhrəmanı fəxri adlarını verdirdi.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan xalqının milli-mənəvi həyatının bütün sahələrində intibah baş verdi. Böyük, mütəfəkkir şair Rəsul Rzanın rəhbərliyi ilə Azərbaycan Ensiklopediyası hazırlandı. Ensiklopediyada Azərbaycan xalqının təşəkkülündə türk etnosunun rolu, Şimali Azərbaycanın İran və Rusiya tərəfindən işğalı, repressiya qurbanları olan ziyalılara obyektiv qiymətin verilməsi, milli-mənəvi dəyərlərin dirçəlməyi ilə bağlı digər məsələlər öz əksini tapdı.

Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyində işlədiyi dövrdə ziyalıların təqib edilməsinin və

yaradıcılığına qadağalar qoyulmasının qarşısını aldı. Onun Azərbaycan SSR-nə rəhbərliyi dövründə heç kim millətçiliyə, antisovet təbliğatına və dissident hərəkatında iştirakına görə cinayət məsuliyyətinə cəlb edilmədi. O, ziyalıları, elm, mədəniyyət və incəsənət xadimlərini qoruyaraq, onlara qayğı göstərirdi.

Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan edildi. Bu milli-mədəni irsin bərpası yolunda atılan ən əhəmiyyətli addımlardan biri oldu.

Heydər Əliyevin birinci siyasi hakimiyyəti dövründə Azərbaydan ədəbiyyatı və mədəniyyətinin klassikləri ilə yanaşı, həmin dövrün görkəmli şair, yazıçı, rəssam və müğənniləri dünya səviyyəsində tanınmağa başladılar. Onların yaradıcılıq və fəaliyyətlərinə əlverişli şərait yaradıldı, əsərləri xarici dillərə tərcümə edildi, SSRİ-nin ən yüksək fəxri adlarına layiq görüldülər.

Heydər Əliyev yaradıcılıq ittifaqlarının – Azərbaycan Yazıçılar İttifaqı, Rəssamlar İttifaqı, Bəstəkarlar İttifaqı, Teatr Xadimlər İttifaqının fəaliyyətlərinə xüsusi diqqət verirdi. Yaradıcı insanların inkişafına hər cür şərait yaradılırdı. Heydər Əliyev milli-mədəni və mənəvi dəyərlərimizə, milli tariximizə dair teatr tamaşaları hazırlatdı, kinofilmlər çəkdirdi.

### 2.7.3. XX əsrin sonlarında Azərbaycanda totalitar rejimin iflası, kommunist ideologiyasının süqutu və müstəqillik uğrunda mübarizə şəraitində ictimai–siyasi fikirdə oyanış

XX əsrin 80-ci illərindən başlayaraq Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) totalitar rejimin çökməsi ərəfəsində müstəqillik uğrunda mübarizə şəraitində ictimai-siyasi fikirdə oyanış baş verdi. Bu dövrdə baş verən sosial-iqtisadi və siyasi böhranların dərinləşməsi son nəticədə Sovet İttifaqının süquta uğramasına səbəb oldu. 1985-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilmiş Mixail Qorbaçovun ziddiyyətli siyasəti nəticəsində SSRİ nəinki böhrandan xilas olundu, əksinə, onun dağılmasına səbəb oldu. Bu

zaman Sovet rəhbərliyi SSRİ-ni dağılmaqdan xilas etmək üçün ölkənin müxtəlif yerlərində milli münaqişələri qızışdırmağa başladı.

1987-ci ilin payızında SSRİ-nin rəhbəri Mixail Qorbaçov Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsindən uzaqlaşdırılmasına nail olduqdan sonra Azərbaycana qarşı erməni millətçilərinin təcavüzkar siyasəti gücləndi. 1987-ci ilin noyabrında M.Qorbaçovun Fransaya səfəri zamanı Sovet nümayəndə heyətinin tərkibində olan Abel Aqambekyan bütün dünyaya Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsinə SSRİ rəhbərliyinin müsbət yanaşdığını bəyan etdi. Bu hadisədən sonra Ermənistanda yaradılan silahlı quldur dəstələri tərəfindən azərbaycanlıların öz tarixi torpaqlarından qovulması prosesi başlandı. Nəticədə, 1988-ci ildə Ermənistandakı 185 azərbaycanlı kəndindən və digər yaşayış məntəqələrindən 250 minə yaxın azərbaycanlı qovulub-çıxarıldı. Baş verən bu hadisələrə Sovet rəhbərliyinin biganə yanaşması və Ermənistanı müdafiə etməsi Azərbaycan xalqının haqlı qəzəbinə səbəb oldu. Azərbaycan rəhbərliyində olan Kamran Bağırovun və Əbdürrəhman Vəzirovun Moskvanın ermənipərəst siyasətini müdafiə etməsi xalqın qəzəbini daha da artırdı.

1988-ci ilin payızında Dağlıq Qarabağın tamamilə Azərbaycanın nəzarətindən çıxarılması xalqı ayağa qaldırdı. İndiki Azadlıq meydanında yüz minlərlə insan etiraz nümayişinə başladı. Meydanda Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı dalğalanmağa başladı. Meydan hərakatına 1989-cu il iyunun 16-da yaranan Azərbaycan Xalq Cəbhəsi rəhbərlik edirdi. Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev (Elçibəy) oldu. Xalqın qabaqcıl ziyalıları AXC-nin ətrafında birləşməyə başladılar. AXC-nin güclü təzyiqi ilə 1989-cu il sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti növbədənkənar sessiya çağıraraq "Azərbaycan SSR-nin suverenliyi haqqında" Konstitusiya qanununu qəbul etdi. Bu Konstitusiya qanununda Azərbaycan SSR qanunlarının SSRİ qanunlarından üstün olması, hətta Azərbaycanın SSRİ-nin tərkibindən çıxa bilməsi öz əksini tapmışdı. 1989-cu ildə Kirovabad adlandırılan qədim Gəncə şəhərinin tarixi adı özünə qaytarıldı.

1989-cu ilin dekabrın 1-də Ermənistan Ali Sovetinin "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında" qərar verməsi və Stepanakertdə (Xankəndində) Ermənistan bayrağını qaldırması Azərbaycan xalqını qəzəbləndirdi. Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyi 1989-cu ilin noyabrından 1990-cı ilin yanvar ayınadək fasiləsiz mitinqlər, nümayişlər və tətillər keçirtməyə başladı. Nəticədə Naxçıvan, Biləsuvar və Cəlilabad rayonlarında əhali İranla sərhəd dirəklərini və qurğuları sökdülər.

1990-cı il yanvar ayında iflic vəziyyətinə düşən respublika hökuməti hadisələrə nəzarəti tamamilə itirdi. SSRİ hökuməti Azərbaycanda Sovet hakımiyyətinin devriləcəyindən və Azərbaycanı itirəcəyindən, nəticədə respublikanın müstəqillik qazanacağından bərk qorxuya düşərək Bakı ətrafına çoxlu sayda əlavə qoşun hissələri və ağır texnika cəmləşdirməyə başladı. 1990-cı il yanvar ayının 17-də AKP MK-nın binası qarşısında başlayan mitinqdə Moskvadan Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına qəti şəkildə son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa və sərhəd bölgələrinə göndərilməsi, respublikanın rəhbəri Ə.Vəzirovun istefaya göndərilməsi və onun yerinə hakimiyyətə xalqın istədiyi namizədin gətirilməsi qətiyyətlə tələb edilirdi.

Həmin gün SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan "Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi" haqqında fərman verdi. Lakin 1990-cı il yanvar ayının 20-si səhərədək bu fərman xalqdan gizli saxlanıldı. Yanvar ayının 19-da axşam saat 19:30-da Azərbaycan televiziyasının enerji bloku partladıldı. Yanvann 19-dan 20-nə keçən gecə Bakıda gizli kod adı "Tayfun" olan döyüş əməliyyatına başlandı. Hücum əməliyyatında Azərbaycana gətirilmiş Sovet qoşun hissələri, Bakı qarnizonunun qüvvələri və dənizdən hərbi gəmilər iştirak edirdi. Bakı şəhərinin küçələri çoxlu sayda günahsız insanların – qoca, qadın və uşaqların qanına boyanmışdı. Sovet ordusu tərəfindən həyata keçirilən qırğınlar nəticəsində Bakı şəhərində və digər bölgələrdə 131 nəfər dinc sakin öldürülmüş, 734 nələr yaralanmış, yüzlərlə yaşayış evi yandırılmış, əhaliyə və şəhər təsərrüfatına böyük ziyan vurulmuşdu. Xalqın qəzəbindən qorxan Əbdürrəhman

Vəzirov hərbi təyyarə ilə Moskvaya qaçdı. Qanlı yanvar qırğınına etiraz əlaməti olaraq Azərbaycanda 40 günlük ümummilli matəm elan edildi.

Fövqəladə vəziyyət rejimi olmasına baxmayaraq, 1990-cı il yanvar ayının 22-də Bakının "Azadlıq" meydanında böyük bir matəm mitinqi keçirildi. Dəfn mərasimində iki milyona qədər adam iştirak edirdi. Şəhidlər Dağüstü Parkda (Şəhidlər Xiyabanı) dəfn edildilər.

1990-cı il yanvar ayının 24-də Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov Moskvanın göstərişi ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təyin edildi. 1990-cı il may ayının 19-da Azərbaycan Respublikasında Prezidentlik institutu təsis edildi və həmin gün Azərbaycan Ali Soveti Ayaz Mütəllibovu prezident seçdi. 1990-cı il may ayının 21-də Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 28 may günü Azərbaycanın dövlət müstəqilliyinin bərpası günü elan edildi. 1991-ci il sentyabnn 14-də Azərbaycan Kommunist Partiyasının ləğv edilməsilə marksizm-leninizm ideologiyası da süquta uğradı.

### 2.7.4. 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin ictimai-siyasi əhəmiyyəti

1990-cı il noyabrın 17-də Ümummilli lider Heydər Əliyevin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin sessiyasında Naxçıvan MSSR-in Naxçıvan Muxtar Respublikası adlandırılması və Cümhuriyyətin üçrəngli bayrağının Naxçıvanda Dövlət bayrağı kimi qəbul edilməsi haqqında çox mühüm qərarlar qəbul edildi.

1991-ci il fevral ayının 5-də Azərbaycan SSR Ali Sovetinin keçirilən sessiyasının qərarı ilə respublikanın adından "Sovet və Sosialist" sözləri çıxarıldı və dövlət Azərbaycan Respublikası adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli və ay-ulduzlu bayrağı Dövlət bayrağı kimi təsdiq olundu.

1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası Azərbaycanın Dövlət müstəqilliyinin bərpası haqqında "Bəyannamə"ni qəbul etdi.

1991-ci ilin oktyabrın 18-də Ali Sovetinin keçirilən sessiyasında “Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı” qəbul edildi.

Azərbaycanın ictimai-siyasi fikri varislik ənənələrinə malikdir. Varislik ənənələri əsas götürülərək 1920-ci ilin aprelin 28-də bolşeviklər tərəfindən süquta uğradılmış Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçiliyi bərpa edildi və Azərbaycanın demokratik inkişaf yolunu seçdiyi bəyan olundu.

Bu dövrdə Sovet dövləti süquta uğramaq ərəfəsində idi. 1991-ci il dekabrın 28-də Brest şəhəri yaxınlığında Rusiya, Ukrayna və Belorusiya respublikalarının rəhbərləri Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradıldığını və beynəlxalq hüququn subyekti kimi SSRİ-nin mövcudluğuna son qoyulduğunu elan etdilər.

1991-ci il dekabrın 29-da respublikada referendum keçirildi. Referendumun bülleteninə yalnız bir məsələ daxil edilmişdi: “Siz, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı ilə razısınızmi?” – Respublikanın səsvermə hüququ olan əhalisinin 95 faizindən çoxu Referendumda iştirak edərək Azərbaycanın dövlət müstəqilliyinə tərəfdar olduğunu bildirdi.

Beləliklə, dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan tarixində yeni bir səhifə açıldı. Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il noyabrın 9-da Türkiyə, Pakistan, Rumıniya, İsveçrə, İran, 1992-ci ilin əvvəliərində isə ABŞ və Rusiya tanıdı. 1993-cü ilin əvvəllərində Azərbaycanın müstəqilliyini artıq 116 dövlət tanımışdı. Azərbaycan Respublikası 1991-ci ilin dekabrında İslam Konfransı Təşkilatına (İKT), 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) qoşuldu. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv qəbul olundu.

## Mövzu üzrə mühazirə və seminar planı

1. Sovet hakimiyyəti dövründə Azərbaycanda ictimai-siyasi fikir
2. Azərbaycanda sovet hakimiyyəti illərində ictimai–siyasi fikrin marksizm–leninizm təliminin təsiri altında inkişafı

3. Sovet hakimiyyəti dövründə Azərbaycanın fəlsəfi və ictimai–siyasi fikir tarixi ilə bağlı ayrı–ayrı əsərlərin və tədqiqat işlərinin yazılması
4. Ümumilli lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə milli-mənəvi dəyərlərin dirçəldilməsində və bərpa edilməsində gördüyü böyük işlər
1. XX əsrin sonlarında Azərbaycanda totalitar rejimin iflası, kommunist ideologiyasının süqutu və müstəqillik uğrunda mübarizə şəraitində ictimai–siyasi fikirdə oyanış
2. 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin ictimai-siyasi əhəmiyyəti

## 2.8. XX əsrin sonlarında Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai–siyasi fikir

### 2.8.1. XX əsrin sonlarında Azərbaycanda ictimai–siyasi şərait

Azərbaycanın dövlət müstəqilliyin ilk illərində ictimai–siyasi vəziyyət gərginləşdi və hakimiyyət böhranı baş verdi. Ayaz Mütəllibov hakimiyyəti dövründə Dağlıq Qarabağı erməni silahlılarının hücumundan qorumaq mümkün olmadı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində ermənilər azərbaycanlılara qarşı xüsusi amansızlıqla soyqırım törətdilər. Axşam saat 9-da başlayan Xocalıya hücum əməliyyatında erməni hərbi hissələri ilə yanaşı, xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar və Rusiyanın 366-cı motoatıcı alayı da iştirak edirdi. Şəhər işğal olunarkən düşmən Azərbaycan əhalisinə qarşı milli-etnik zəmində dəhşətli qətliamvə əsl soyqırım törətdi. Azərbaycan xalqının başına gətirilmiş bu dəhşətli faciə nəticəsində 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla qətlə yetirildi. 1275 nəfər dinc sakin – uşaq, qadın və qoca girov götürülərək, ağlasığmaz işgəncələrə məruz qaldı**.** Xocalı qətliamı nəticəsində 7 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 224 uşaq bir valideynini, 200 ailə isə öz başçısını itirmişdi**.** Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadın

və 26 uşağın taleyi hələ indiyədək də məlum deyil. Xocalı soyqırımı ermənilərin nəinki azərbaycanlılara, bütün bəşəriyyətə qarşı törətdiklərıən dəhşətli cinayət hadisəsidir.

Xocalı faciəsi Azərbaycanda dərinsiyasi böhrana səbəb oldu. 1992-ci il martın 5-də erməni təcavüzünün qarşısını ala bilməyən Azərbaycan Ali Sovetinin sədri, martın 6-da isə Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov istefa verməyə məcbur edildi. Ali Sovetin sədri Yaqub Məmmədov seçildi**.** Lakin, onun qısa hakimiyyəti dövründə (6 mart, 14 may 1992) siyasi böhran daha da dərinləşdi. Siyasi hərc-mərclik şəraitində 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu. Azərbaycan Xalq Cəbhəsi 1992-ci il may ayının 15-də Ayaz Mütəllibovun yenidən hakimiyyətə qayıtmaq cəhdinin qarşısını alaraq silahlı qüvvələr və zirehli texnikanın köməyi ilə parlamentin, teleradionun binalarını, Prezident sarayını və başqa strateji obyektləri ələ keçirdi. Parlamentın 1992-ci il 18 may sessiyasında Xalq Cəbhəsinin liderlərindən birı olan İsa Qəmbərov Respublika Ali Sovetinin sədriseçildi və yeni seçkilərə qədər prezident səlahiyyətlərinin icrası da ona tapşırıldı. Respublika Ali Sovetinin Milli Şurası “Milli Məclis” adlandırıldı və parlamentin bütün səlahiyyətlərı Milli Məclisə verildi. Belə bir şəraitdə Ermənistan silahlı qüvvələri tərəfindən mayın 18-də Laçın rayonu işğal olundu. Azərbaycanın strateji mövqeyinə çox ağır zərbə olan Laçın rayonunun işğalı nəticəsində Ermənistanla Dağlıq Qarabağ geiş bir ərazidə birləşdirildi.

1992-ci il iyunun 7-də keçirilən seçkilərdə Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəy (Əliyev) Prezident seçildi. Xalq Cəbhəsinin hakimiyyəti dövründə dövlət quruculuğu, sosial–iqtisadi və mədəni həyat sahəsində bir sıra mühüm tədbirlər görülmüşdü. 1992-ci il may ayının 27-də Cümhuriyyət dövrünün Milli marşı Dövlət Himni kimi qəbul olundu. 1992-ci ilin avqust ayının 15-də Azərbaycanın Milli valyutası olan manat dövriyyəyə buraxıldı. Keçmiş Sovet məkanında ilk dələ olaraq 1992-ci ildə respublikada ali məkləblərə tələbə qəbulu Türkiyə təcrübəsi əsasında test üsulu ilə keçirildi. Test üsulunun tətbiqi qəbul imtahanlarında olan qanunsuzluq və rüşvətxorluq hallarının qarşısının alınmasında

mühüm rol oynadı. 1992-ci il lyunun 3-də o dövr üçün demokratik olan “Siyasi partiyalar haqqında” Qanun qəbul edildi. 1993-cü ilin fevralında Azərbaycan Respublikasının Dövlət Gerbi təsdiq edildi. 1993-cü ilin ortalarında artıq respublikada 30-a qədər siyasi partiya və təşkilat fəaliyyət göstərirdi. Çoxpartiyalılıq sistemi yaradılaraq formalaşmağa başladı. Kommunist ideologiyasının süqutundan sonra ideoloji və ictimai–siyasi fikir plüralizmi meydana gəldi. Belə bir şəraitdə türkçülük, azərbaycançılıq, islamçılıq, sosial–demokrat və s. ideyalar dirçələrək inkişaf etməyə başladı. Dini etiqad azadlığı, milli bayramlar, yeni milli orden və medalların təsis edilməsi və s. haqqında da qanunlar qəbul edildi.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti dövründə Kəlbəcərin Ermənistan dövləti tərəfindən işğal edilməsi (03 aprel, 1992) xalqın onlara olan inamının qırılmasına və respublikada dərin siyasi böhranın başlamasına səbəb oldu. 1993-cü il iyunun əvvəllərində Surət Hüseynovun başçılığı ilə Gəncədə hərbi qiyam baş verdi. İyunun 4-də qiyamçılara qarşı aparılan hərbi əməliyyatda hökumət qüvvələri məğlub oldular. Qiyamçıların tələbi ilə Parlament sədri, Baş nazir və güc nazirləri istefaya göndərildi. Lakin, bu heç bir nəticə vermədi və hakimiyyətin qiyamçıların əlinə keçməsi təhlükəsi yarandı.

Siyasi böhranın dərinləşdiyi şəraitdə Rusiyanın Dağıstan bölgəsində yaratdığı “Sadval” təşkilatının silahlı quldur dəstəsi 1993-cü ilin iyununda Qusarda təxribatlar törədərək, Azərbaycan dövlətçiliyinə qarşı mitinqlər təşkil etmişdi. Azərbaycanın cənubunda isə Əlikram Hümbətov S.Hüseynovun dəstəyi ilə 1993-cü il iyunun 15-də Lənkəranda qanuni hakimiyyəti devirdi. Beləliklə, 1993-cü ilin iyununda respublikada tam bir xaos və hakimiyyət boşluğu yaranmışdı.

Belə bir ağır şəraitdə xalqın ayrı-ayrı təbəqələrinin, o cümlədən bir qrup ziyalının müraciəti ilə Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdı. 1993-cü il 4 iyun qiyamını yatıra bilməyən AXC və Müsavat hakimiyyəti ölkədə siyasi böhranın çox təhlükəli həddə çatdığını görərək vəziyyətdən çıxış üçün Heydər Əliyevi Bakıya dəvət etdi.

## 2.8.2. Ümummilli lider Heydər Əliyevin ikinci hakimiyyəti dövründə milli dövlət quruculuğu və islahatçılıq fəaliyyəti

Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev 10 may 1923-cü ildə Azərbaycan SSR Naxçıvan şəhərində anadan olmuşdur.

Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur. İkinci dünya müharibəsinin başlaması ilə əlaqədar yarımçıq qalan təhsilini sonradan davam etdirmiş və 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Heydər Əliyev 1941-ci ildən dövlət təhlükəsizlik orqanlarında çalışmışdır. 1965-ci ildə Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967–1969-cu illərdə isə sədri vəzifəsində çalışmış, general-mayor rütbəsi almışdır. Bu dövrdə Heydər Əliyev təhlükəsizlik orqanlarına milli kadrların cəlb edilməsinə xüsusi fikir vermişdir.

14 iyul 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi vəzifəsinə seçilmişdir. 1969–1982-ci illərdə Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda altı yeni ali məktəb – Naxçıvan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, Azərbaycan Texnologiya İnstitutu, Xankəndi Pedaqoji İnstitutu və Sumqayıt Ali Texniki Təhsil Məktəbi açıldı. Bunlarla yanaşı, Sovet İttifaqının müxtəlif şəhərlərinin nüfuzlu ali məktəblərində Azərbaycan üçün yüksək ixtisaslı kadr hazırlığına yüksək diqqət yetirilməyə başlandı. Heydər Əliyev hər il iki min nəfərə yaxın tələbəni SSRİ-nin 49 şəhərinin 170 ali məktəbinə təhsil almağa göndərirdi. Tələbələr təhsillərini başa vurduqdan sonra Azərbaycana dönərək mütəxəssis kimi çalışır, bəziləri isə təhsil aldıqları şəhərlərdə qalaraq elm, incəsənət, iqtisadiyyat sahələrində fəaliyyət göstərmişlər.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan edildi. Bu, milli özünüdərk yolunda atılan ən mühüm addımlardan biri oldu. Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusunu almasını

sadəcə dil məsələsi kimi deyil, həm də azərbaycançılıq məsələsi kimi dəyərləndirirdi.

Heydər Əliyevin xidmətləri nəticəsində ədəbiyyat və mədəniyyət sahələrinin görkəmli klassikləri ilə yanaşı, həmin dövrdə yaşamış yazıçı və şairlər Mirzə İbrahimov, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Məmməd Araz, bəstəkarlar Qara Qarayev, Niyazi, Fikrət Əmirov, müğənnilər Müslüm Maqomayev, Polad Bülbüloğlu, Zeynəb Xanlarova, Rəşid Behbudov və başqalarının fəaliyyətlərinə əlverişli şərait yaradıldı, əsərləri xarici dillərdə dərc edildi, onlara SSRİ-nin ən yüksək fəxri adları verildi.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi ilə SSRİ-nin əsas rəhbərlərindən biri olmuşdur. Heydər Əliyevin yüksək siyasi nüfuzu və işgüzarlığı 1985-ci ildə Sov.İKP MK-nın Baş Katibi seçilmiş Mixail Qorbaçovu narahat etmiş və o, Heydər Əliyevi 1987-ci il MK-nın oktyabr plenumunda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyündən, az sonra isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırmışdır.

Mixail Qorbaçovun ermənipərəst siyasətinə etiraz edən Azərbaycan xalqına qarşı Sovet qoşunları 1990-cı ilin 20 yanvarında Bakıda qanlı qırğın törətdilər. Azərbaycan xalqının bu ağır günlərində böyük siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş və buraya toplaşan minlərlə azərbaycanlı qarşısında bəyanatla çıxış edərək, bu hadisəyə qəti etirazını bildirmişdi. Heydər Əliyev SSRİ rəhbərliyinin Bakıya qoşun yeridilməsi haqqındakı qərarını insanlığa, demokratiyaya və Konstitusiyaya zidd addım kimi qiymətləndirmiş, törədilmiş qanlı cinayətin təşkilatçısı olan Mixail Qorbaçovun və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Heydər Əliyev bu məşhur çıxışında ilk dəfə 20 yanvar hadisələrinə siyasi qiymət vermişdir. Bu bəyanatın mətni dünyaya yayılmışdı. O, 1991-ci ilin iyulunda Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətdə SSRİ

rəhbərliyinin siyasətinə etiraz edərək, Kommunist Partiyasının sıralarından çıxmışdır.

1990-cı ilin iyulunda Moskvadan Azərbaycana qayıdan Heydər Əliyev əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. 1990-cı ilin sentyabrın 30-da o, Azərbaycan Respublikası Ali Sovetinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir.

1990-cı il noyabrın 17-də Heydər Əliyevin təklifı ilə Naxçıvan MSSR Ali Sovetinin sessiyasında Naxçıvan MSSR-in Naxçıvan Muxtar Respublikası adlandırılması və Azərbaycan Xalq Cümhuriyyətin üçrəngli bayrağının Naxçıvanda Dövlət bayrağı kimi qəbul edilməsi haqqında çox mühüm qərarlar qəbul edildi.

Heydər Əliyev 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. O, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cüil iyunun 15-də Milli Məclisin fövqəladə sessiyasında Hevdər Əlivev Ali Sovetin sədri seçildi. 1993-cü ilin iyunun 24-də Milli Məclis Respublika Prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Hevdər Əliyevə həvalə etdi. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Heydər Əliyev səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Prezident seçiləndən sonra onun əsas fəaliyyəti ordu quruculuğu oldu.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qısa müddət ərzində ölkədə sabitliyi bərpa etdi, separatçı qüvvələri zərərsizləşdirdi, 1994–1995-ci illərdə dövlət çevrilişinin qarşısını aldı. O, hakimiyyətə gələndən sonra xalqımız sülh, təhlükəsizlik və əmin-amanlıq şəraitində yaşamağa başladı. Heydər Əliyev tərəfindən Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun bünövrəsi qoyuldu.

Müasir dövrdə demokratik inkişaf yolunu seçən hər bir ölkə və xalq özünün milli-tarixi adət-ənənələrini, siyasi-mədəni köklərini, milli-mənəvi dəyərlərini nəzərə alaraq özlərinə xas olan milli demokratiyanı reallaşdırır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Azərbaycan xalqının milli mentalitetinə və

dövlətçilik ənənələrinə əsaslanan demokratik idarəetmə qurmaq yolunu seçdiyini bildirərək demişdir: "Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycan demokratik, hüquqi dövlət qurmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və biz məhz bu yolla gedəcəyik".

Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi ilk gündən müstəqil Azərbaycan dövlətində və cəmiyyətində idarəetmə münasibətlərinin demokratikləşdirilməsi sahəsində dərin sosial, iqtisadi, siyasi və hüquqi islahatlar aparmağa başladı. Demokratik idarəetmə sahəsində aparılan bu islahatlar ilk növbədə idarəetmənin demokratik institutlarının və mexanizminin formalaşmasına yönəlmişdir. Demokratik idarəetmə institutlarının və mexanizminin formalaşması isə ümumbəşəri demokratik və milli-mənəvi dəyərlərə əsaslanan konstitusiyanın qəbul edilməsində reallaşa bilər.

1995-ci il noyabrın 12-də Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası ümumxalq referendumu yolu ilə qəbul edildi.

Müstəqil Azərbaycan Respublikası Konstitusiyasında insan hüquq və azadlıqlarının geniş şəkildə təsbit edilməsi, demokratik idarəetmə mexanizminin əsas prinsip və normalarının müəyyənləşdirilməsi, hakimiyyət bölgüsü prinsipi, ümumiyyətlə demokratik idarəetmə institutları və onların fəaliyyət mexanizminin əsas istiqamətləri öz əksini tapmışdır. Konstitusiyada təsbit olunmuş demokratik idarəetmə ilə bağlı olan dəyərlərə uyğun olaraq təsisatların yaradılması demokratik idarəetmə yolunda aparılan islahatların başlıca istiqaməti kimi səciyyələndirilə bilər.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1998-ci ilin fevralında ölüm cəzası ləğv olundu, iyulunda Konstitusiya Məhkəməsi yaradıldı, avqustunda mətbuat üzərində senzura ləğv edildi.

1999-cu ilin dekabr ayında ilk bələdiyyə seçkiləri keçirildi, 2000-ci ildə məhkəmə hakimlərinin xüsusi test imtahanlan ilə seçilməsi təcrübəsi tətbiq edildi və 2001-ci ilin dekabrı ayında Milli Məclisin “Azərbaycan Respublikasının İnsan Hüquqlan üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanununu qəbul etməsilə Ombudsman istitutu yaradıldı.

1998-ci il oktyabr ayının 11-də Heydər Əliyev yenidən prezident seçildi. O, demokratik idarəetmənin bərqərar edilməsi yolunda ilk vaxtlar bir sıra çətinlik və problemlərlə rastlaşdı:

Birincisi, Azərbaycanın müharibəyə cəlb olunduğu və ərazisinin iyirmi faizə qədəri Ermənistan tərəfindən işğal olunduğu bir şəraitdə Ümummilli lider Heydər Əliyev təcavüzə qarşı mübarizə aparmaqla bərabər, həm də demokratik dövlət quruculuğu işləri ilə məşğul olurdu;

İkincisi, Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyi ilə barışmaq istəməyən həm xarici, həm də daxili düşmən qüvvələrin dövlətçiliyimizə və müstəqilliyimizə qarşı törətdikləri separatizmin, vətəndaş müharibəsi təhlükəsinin, dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla yanaşı, sosial-iqtisadi və siyasi problemlərin aradan qaldırılması kimi ağır işlərin həlli ilə məşğul olurdu;

Üçüncüsü, Ümummilli lider Heydər Əliyev siyasi sabitliyi təmin etməklə yanaşı demokratik idarəetmənin başlıca əsası olan vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində böyük işlər gördü. Onun rəhbərliyi ilə insanların dövlət və cəmiyyətin idarəçiliyi sahəsində fəal iştirakı üçün zəmin yaradıldı. Ümumilikdə vətəndaşlara Azərbaycan Respublikası Konstitusiyası əsasında azadlıq, bərabərlik və hüquqlar verildi. Vətəndaşlara verilən bu siyasi və hüquqi azadlıqlar onların ölkənin ictimai həyatında və dövlətin idarə edilməsində fəal iştirakını təmin etməyə yönəldilmişdir. Bu hüquq və azadlıqlar insan və cəmiyyət, vətəndaş və dövlət münasibətlərinin möhkəmləndirilməsi üçün geniş şərait və zəmin yaratdı.

Məşhur Amerika sosioloqu və politoloqu Robert Alan Dahl demişdir ki, “Demokratiya vətəndaşlara qeyri-demokratik quruluşun vermədiyi və heç vaxt verə bilməyəcəyi əsas hüquq və azadlıqları

verir. Demokratiya – yalnız dövləti idarəetmək üsulu deyil. O, həm də hüquqlar sistemidir, belə ki, hüquqlar demokratik siyasi institutların ayrılmaz hissəsidir. Hüquq və azadlıqlar elə bir «kərpiclərdir» ki, onlardan demokratik idarəetmə prosesi «yapılır»”.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı qanunvericilik bazası yaradıldı, senzura ləğv edildi, Azərbaycan dövləti insan hüquqlarının və demokratiyanın qorunması ilə bağlı beynəlxalq təşkilatlara üzv qəbul edildi, beynəlxalq konvensiya və sazişlərə qoşuldu.

Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya seçdikləri nümayəndələrin vasitəsi ilə həyata keçirirlər. Vətəndaşların dövlətin idarəedilməsində istər bilavasitə, istərsə də dövlət hakimiyyət orqanlarına seçdikləri nümayəndələr vasitəsi ilə iştirakı xalqın suverenliyinin ifadəsi, xalq hakimiyyətinin həyata keçirilməsi formasıdır.

Azərbaycan Respublikası vətəndaşları öz iradələrini dövlət hakimiyyətinə, yerli özünüidarəetmə orqanlarına keçirilən demokratik, azad seçkilər vasitəsilə həyata keçirirlər. Vətəndaşlar dövlətin və cəmiyyət həyatının ən mühüm problemləri ilə bağlı məsələlərdə öz fikirlərini bildirirlər. Hər bir vətəndaş dövlət orqanlarında qulluq etmək imkanlarına malikdir.

Azad və demokratik seçki sisteminin mövcudluğu demokratik idarəetmənin başlıca təminatıdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə keçirilən və demokratik idarəetmə üçün son dərəcə vacib olan ən əhəmiyyətli islahatlardan biri də Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbul edilməsidir. Bu Məcəllə ölkədə keçirilən parlament, prezident və bələdiyyə seçkilərinin əsas mexanizmlərini müəyyən etmişdir. Demokratik idarəetmə sisteminin mövcud olduğu cəmiyyətdə vətəndaşlar seçkilərdə iştirak edən zaman öz hüquqlarını həyata keçirir və kimin onların adından idarəedəcəyini həll edirlər.

Demokratik idarəetmənin başlıca prinsiplərindən biri də hakimiyyət bölgüsü prinsipidir. Azərbaycan Respublikası Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi, demokratik

idarəetmə institutları və onların fəaliyyət mexanizminin istiqamətləri təsbit olunmuşdur. Hakimiyyət bölgüsü aparılmadan, qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin azad, sərbəst fəaliyyəti üçün hərtərəfli şərait yaradılmadan demokratik idarəetmə mümkün deyil. Konstitusiyaya görə Azərbaycanda Prezidentlik institutu fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik idarəetmənin mövcud olduğu hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəm bünövrəsi qoyuldu. Bu möhkəm bünövrə əsasında müstəqillik illəri ərzində vətəndaş cəmiyyəti və hüquqi dövlətin bərqərar edilməsi istiqamətində çoxsaylı islahatlar aparılmışdır. Aparılan bu islahatlar içərisində məhkəmə-hüquq islahatlarını xüsusilə qeyd etmək lazımdır. 2002-ci ilin sentyabrından Respublikada üçpilləli məhkəmə sistemi və Apellyasiya Məhkəməsi yaradıldı. Məhkəmə sistemindəki islahatların əsas məqsədləri hüquqi dövlət çərçivəsində müstəqil məhkəmə sisteminin fəaliyyət göstərməsinin təmin edilməsindən, vətəndaşların ədalətli məhkəmə araşdırmasından, məhkəmə qərarlarından şikayət hüququnun həyata keçirilməsindən ibarətdir. Qəbul edilmiş qanunlar məhkəmələrin, prokurorluğun, vəkilliyin, polisin, ədliyyə orqanlarının və digər hüquq-mühafizə orqanlarının statusunu müəyyənləşdirmişdir. Məhkəmə-hüquq islahatları ilk növbədə əhalinin məhkəmələrə müraciətini asanlaşdırmağa, məhkəmə sisteminə etimadı möhkəmləndirməyə istiqamətləndirilmişdir. Hakimlər aşkarlıq şəraitində test imtahanları verməklə seçilir və təyin olunurlar. Milli Məclisin qəbul etdiyi “Prokurorluq haqqında” Qanuna uyğun olaraq, prokurorluğun bir sıra səlahiyyətləri məhdudlaşdırılmışdır. Keçmiş inzibati-amirlik metodundan miras qalmış və prokurorluq orqanlarına xas olmayan səlahiyyətlər ləğv edilmişdir.

Ümummilli lider Heydər Əliyev dövlət quruculuğu və islahatçılıq fəaliyyəti ilə yanaşı milli şüurun, milli mənəvi dəyərlərin, milli ideyanın və Azərbaycan dilinin dirçəlişi və inkişafında böyük xidmətləri olmuşdur. Bu baxımdan o, “Azərbaycançılıq” idealogiyasının banisidir.

“Azərbaycançılıq” ideyası tarixi köklərə malikdir. Bu ideya “Azərbaycançılıq” anlayışı ilə qırılmaz surətdə bağlıdır. “Azərbaycançılıq” ideyasının meydana gəlməsi Azərbaycanda ictimai-siyasi, fəlsəfi təfəkkürün, milli-mənəvi dəyərlərin və müstəqil dövlətçilik ənənələrin inkişafı prosesində formalaşmışdır. “Azərbaycançılıq” ideyası XIX əsr Azərbaycan maarifçilərinin baxışlarında irəli sürülmüş, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları tərəfindən formalaşdırılmışdır. Ancaq “Azərbaycançılıq” ideyası Cümhuriyyətin süqutu ilə milli şüurdan silinmişdir.

Ümummilli lideri Heydər Əliyev Azərbaycan xalqının milli mentalitetinə və dövlətçilik ənənələrinə əsaslanan demokratik idarəetmə sistemi yaratdı.

Ümumilli lider Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində dönüş yaratdı və 1994-cü ilin mayın 12-də atəşkəs əldə edildi. O, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq və soykökə qayıdışla bağlı mühüm işlər gördü.

Ümummilli lider Heydər Əliyev “Azərbaycançılıq” ideyasını ideologiyaya çevirdi. Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında “azərbaycançılıq” ideyasının mahiyyətini səciyyələndirərkən demişdir: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.

Bugün demokratik Azərbaycan dövlətində baş verən sosial, iqtisadi, siyasi, hüquqi və demokratik dəyişikliklər dövlət qulluqçularından, məmurlardan və rəhbər işçilərdən demokratik idarəçiliyə uyğun yeni keyfiyyətlər və vərdişlər tələb edir. Vaxtilə bütün bunları görən Ümummilli lider Heydər Əliyev 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını və ayrı-ayrı sahələr üzrə bir sıra digər Akademiyaları yaratdı. Dövlət proqramları vasitəsilə minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu universitetlərində təhsil alırlar. Həm Respublikamızda, həm də xaricdə təhsil alan gənclərimiz

demokratik idarəetmənin müasir metodlarını və vasitələrini dərindən mənimsəyərək Azərbaycanın demokratik dövlət quruculuğu prosesində fəal iştirak edirlər.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 2003-cü il dekabrın 12-də müalicə olunduğu Klivlend Klinikasında (ABŞ) vəfat etmiş, dekabrın 15-də Bakıda Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

### 2.8.3. Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində və inkişaf etdirilməsində Prezident İlham Əliyevin islahatçılıq fəaliyyəti

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan vətəndaş cəmiyyətinin və hüquqi dövlətin formalaşması prosesi Heydər Əliyev siyasi kursunun yaradıcı davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyev vətəndaş cəmiyyətinin və hüquqi dövlətin, demokratikləşmə prosesinin möhkəmlənməsi ilə bağlı deyir: “Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmiləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir”.

İqtisadi inkişafla demokratiya bir-biri ilə qarşılıqlı şəkildə sıx bağlıdır. İqtisadi artım olmadan demokratiya inkişaf edə bilməz. Ümummilli lider Heydər Əliyevin apardığı dərin iqtisadi islahatlar nəticəsində bugün ölkəmiz dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına çıxmışdır. Demokratiya ilə iqtisadi tərəqqinin vəhdət təşkil etdiyini bildirən Prezident İlham Əliyev deyir: “İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan

hüquqları qorunmursa, uğur qazana bilməzsən”. Daha sonra Prezident İlham Əliyev əhalinin rifah halı, əmin-amanlığı və yaşayış səviyyəsinin artması ilə bağlı deyir: “Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl yaşasınlar, rifah içində yaşasınlar”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti regionda iqtisadi cəhətdən güclü dövlətə çevrilmiş, əhalinin rifah halı yüksəlmiş, əmin–amanlıq yaradılmış və yaşayış səviyyəsi durmadan artmışdır.

Demokratiya üçün ən mühüm şərtlərdən biri cəmiyyətin çoxsaylı və nüfuzlu orta sinfə malik olmasıdır. Orta sinif təhsil səviyyəsinin yüksəkliyinə, mənlik şüurunun inkişafına, ləyaqət hissinə, siyasi mühakimələrinə, fəallığına, bilik və bacarıqlarına görə fərqlənir. Çünki, orta sinif daha çox demokratiyanın marağındadır və onlar demokratiyanı daha çox qoruyub saxlamağa cəhd göstərirlər. Ölkəmizdə orta sinfin formalaşması dövlətimizin və prezidentimizin xüsusi diqqət mərkəzindədir, bu istiqamətdə xüsusi dövlət proqramları hazırlanaraq həyata keçirilir və orta sinfin formalaşması prosesi yüksələn xətlə inkişaf edir.

Orta siniflə yanaşı idarəetmənin demokratik formasının dayağı bazarla əlaqəsi olan sahibkarlardır. Ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı xüsusi dövlət proqram və layihələri həyata keçirilir, rayonlarda sənaye məhəllələri yaradılır. Yaradılan sənaye parkları öz bəhrəsini verir.

Demokratiyanın daha mühüm şərtlərindən biri də Kütləvi İnformasiya Vasitələridir. KİV vətəndaşlara siyasət haqqında, xüsusilə də, qəbul edilmiş siyasi qərarlar, partiyalar, seçkili vəzifələrə iddialar və s. haqqında mühakimə yürütməyə kömək edir. Böyük əraziyə və çoxmilyonlu əhaliyə malik olan ölkələrdə demokratiya KİV-siz praktiki cəhətdən qeyri-mümkündür.

Ölkəmizdə çoxpartiyalılıq, iqtisadiyyatın liberallaşdırılması, fikir və söz azadlığının təmin edilməsi sahəsində mühüm işlər görülmüşdür. Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı qanunvericilik bazasını

yaratdı, beynəlxalq konvensiya və sazişlərə qoşuldu. Söz, mətbuat azadlığının təmin edilməsinə mane olan və köhnə totalitar rejimə xas olan senzura ləğv edildi. Hazırda insan hüquqlarının müdafiəsi ilə bağlı müxtəlif institutlar (Ombudsman institutu), qurumlar və ictimai təşkilatlar fəaliyyət göstərir. Çoxlu sayda kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, telekanallar, radiolar, xəbər agentlikləri, elektron media, partiya və şəxsi orqanlar müstəqil fəaliyyət göstərərək istədikləri fikri deyə bilir, dövlət sirri təşkil etməyən istənilən faktları açıqlamaq üçün qeyri-məhdud imkanlara malikdirlər.

Demokratik idarəetmə sisteminin mühüm şərtlərindən biri də vətəndaşlarda siyasi əqidə və mədəniyyətin formalaşmasıdır. Siyasi mədəniyyət özündə mentaliteti, siyasətin qavranılması və dərk edilməsi üsullarını, insanların hakimiyyətə münasibətini əks etdirir. Respublikamızda söz və mətbuat azadlığının təmin edildiyi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin bərpa olunduğu şəraitdə insanlar cəmiyyətin və dövlətin siyasi həyatında fəal iştirak edir. Bu da vətəndaşların siyasi mədəniyyətinin formalaşmasına müsbət təsir göstərir. Bu baxımdan, demokratiya yalnız vətəndaşların siyasi mədəniyyətinin inkişafı əsasında möhkəmlənir. Artıq ölkəmizdə vətəndaşların siyasi mədəniyyəti xeyli formalaşmış, onlar cəmiyyətin və dövlətin həyatında baş verən siyasi proseslərdə fəal iştirak edərək doğru-düzgün qərar qəbul edirlər.

Prezident İlham Əliyev vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində görülən işlərin uğurla davam etdirilməsi ilə bağlı deyir: “Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir”.

Vətəndaş cəmiyyətinin strukturuna daxil olan mühüm institutlardan biri də Qeyri-Hökumət Təşkilatlarıdır. Bəşəriyyətin vacib problemlərinin həllində – dünyada sülhün bərqərar olmasında,

ümumi təhlükəsizliyin təmin edilməsində, iqtisadi, hərbi, ekoloji mühitin qorunmasında mühüm səlahiyyətlərə malik olan dövlət qurumları ilə yanaşı QHT-lər də aparıcı rol oynayır. QHT-lər hüquq, humanitar, səhiyyə, təhsil, ekologiya, insan hüquqları, sülh və s. sahələrdə fəaliyyəit göstərən qurumlardır.

Vətəndaş cəmiyyətinin demokratik institutu olaraq QHT-lərin cəmiyyətdə əsas rolu vətəndaşların tələbatının ödənilməsi istiqamətində potensial qüvvələrin səfərbər edilməsindən ibarətdir. Qeyri-hökumət təşkilatları, məqsədlərinin müxtəlifliyinə baxmayaraq, dövlətlə vətəndaş arasında əsas əlaqə və körpüdür.

QHT-dövlət, QHT-cəmiyyət münasibətlərinin inkişafı Azərbaycanda əhalinin vətəndaş cəmiyyəti quruculuğu prosesində fəallığını artırmışdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi və 13 dekabr 2007-ci il tarixli Prezident fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması QHT-lərin inkişafında vətəndaş cəmiyyətinin rolunu daha da artırmışdır. Hazırda Azərbaycan Respublikasında 2000-dən artıq qeyri-hökumət təşkilatı fəaliyyət göstərir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən QHT-lərin strukturuna daxil olan mühüm təşkilatlardan biri də Azərbaycan xalqının milli dövlətçilik tarixində müstəsna yeri olan Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının müasir və gələcək nəsillərə çatdırılması məqsədilə 2004-cü ildə yaradılan Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondunun Prezidenti Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır.

Heydər Əliyev Fondunun başlıca məqsədi Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı proqramların reallaşdırılması işinə dəstək vermək; azərbaycançılıq ideologiyasının və Azərbaycan mədəniyyətinin geniş təbliğ etmək; milli-mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək; gənclərin sağlam, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə dəstək vermək; Azərbaycan

Respublikasının beynəlxalq nüfuzunu artıran tədbirlərin həyata keçirilməsinə yardım göstərmək; Azərbaycan həqiqətlərini beynəlxalq miqyasda tanıtdırmaq; Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönələn müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə dəstək vermək; elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına yardımçı olmaq və s. ibarətdir.

Demokratik idarəetmə sisteminin formalaşması və inkişafının mühüm şərtlərindən biri də əhalinin savadlı olmasıdır, bütövlükdə onun təhsilidir. Aydındır ki, təhsildən şəxsiyyətin siyasi mühakimələrinin səviyyəsi, onun intellektual inkişafı, təfəkkür azadlığı, ləyaqət hissi birbaşa asılıdır. Təhsilsiz insan mahiyyətcə siyasətdən və demokratiyadan kənar olur, hakimiyyətin və yaxud başqa siyasi qüvvələrin inhisar obyektinə çevrilir. Ölkəmiz təhsil sahəsində aparılan islahatlar nəticəsində demokratiyanın yüksək inkişaf etdiyi Qərb ölkələrinin təhsil sisteminə inteqrasiya edərək 2005-ci ildən Boloniya prosesinə qoşulmuşdur. Bugün tələbələrimiz dünyanın nüfuzlu universitetlərində təhsil alaraq yüksək elmi biliklərə yiyələnir.

Demokratik idarəetmə sahəsində aparılan islahatlar ixtisaslı mütəxəssislərin hazırlanmasını aktual vəzifə kimi qarşıya qoyur. Sosial, iqtisadi və siyasi dəyişikliklər bugün dövlət qulluqçularından demokratik idarəçiliyə uyğun yeni keyfiyyətlər və vərdişlər tələb edir. Onlar dövlət təşkilatlarında dəyişikliklər aparılmasının müasir metodlarını və vasitələrini mənimsəməli, innovasiya proseslərinin idarəedilməsi qabiliyyətlərinə malik olmalı, bürokratik strukturun sosial və təşkilati ətalətini aradan qaldırmağa qadir olmalıdırlar. Dövlət idarəçiliyində çalışan yeni nəsil özlərinin qulluq fəaliyyətində demokratik dəyərləri və mənəviyyat normalarını formalaşdırmalı, dövlət idarəçiliyinin bütün səviyyələrində, bütövlükdə cəmiyyətin maraqlarına uyğun olaraq işin səmərəliliyini artırmalıdırlar. Dünya təcrübəsi göstərir ki, demokratikləşmənin inkişaf sürəti, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, hüquqi dövlətin təşəkkül tapması, ümumiyyətlə, ölkənin sosial, iqtisadi, siyasi və mənəvi tərəqqisi yaradılmaqda olan yeni məmurlar ordusunun keyfiyyətindən, onların peşəkarlığından, öz işlərinə məsuliyyət və vicdanla yanaşmalarından, insanlara olan

qayğılarından, ən başlıcası isə dövlətçiliyə, müstəqilliyə olan sadiqliklərindən, milli-mənəvi dəyərlərə olan hörmət və məhəbbətlərindən asılıdır. Ölkəmizdə bu sahədə görülən işlər yeni məmurlar ordusunun formalaşmasını təsdiq edir.

Demokratiyanın başlıca amillərindən biri də vətəndaşların gündəlik həyatlarında hakimiyyət strukturlarından məmnun qalmasıdır. Ölkəmizdə vətəndaş məmnunluğunu təmin edən və dünyanın inkişaf etmiş ölkələri üçün nümunə olan institut – ASAN xidmət institutu uğurla fəaliyyət göstərir. ASAN xidmətin fəaliyyətində vətəndaşların məmnunluğu 98 faiz təşkil edir.

### 2.8.4. Azərbaycan Respublikasında ideoloji və siyasi plüralizm şəraitində müxtəlif ictimai–siyasi baxışların meydana gəlməsi və çoxpartiyalılıq

SSRİ dağıldıqdan və təkpartiyalı sistem – Kommunist partiyası süquta uğradıqdan sonra Azərbaycan Respublikasında təkpartiyalılıqdan çoxpartiyalılığa, vahid marksizm-leninizm ideologiyası iflasa uğradıqdan sonra isə ideoloji plüralizmə keçid baş verdi. Hələ 1988-ci ildən etibarən keçmiş SSRİ-də siyasi və ideoloji proseslər inkisaf etməyə başlamışdır. Siyasi plüralizm şəraitində bir çox yeni partiyalar yarandı. Hazırda, Azərbaycanda 75 siyasi partiya fəaliyyət göstərir. Bunlardan 55-i Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçmişdir. Azərbaycanın siyasi həyatında fəal iştirak edən partiyalar aşağıdakılardır:

Azərbaycan Xalq Demokrat Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası, Azərbaycan Milli Demokratik İdrak Partiyası, Azərbaycan Sosial-Demokrat Partiyası, Birlik Partiyası, Ana Vətən Partiyası, Vahid Azərbaycan Partiyası, Azərbaycan Kəndli Partiyası, Azərbaycan Demokrat Partiyası, Dirçəliş və Tərəqqi Partiyası, Demokratik Azərbaycan Dünyası Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, “Ümid” Partiyası, Müsavat Partiyası, Yeni Azərbaycan Partiyası, Vahid Azərbaycan Milli Birlik Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası, Müstəqil Azərbaycan Partiyası, “Yurddaş” Partiyası, Milli Qurtuluş Partiyası,

“Qorqud” Partiyası, Azərbaycan Kommunist Partiyası, Azərbaycan Demokrat Sahibkarlar Partiyası, Vətənpərvərlər Partiyası, Azərbaycan Milli Dövlətçilik Partiyası, Azərbaycan Liberal Partiyası, Azərbaycan Naminə Alyans Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Azərbaycan Vahid Kommunist Partiyası, Sosial Ədalət Partiyası, Vəhdət Partiyası, Milli Konqres Partiyası, Azərbaycan Respublikaçılar Partiyası, Azərbaycan Liberal-Demokrat Partiyası, Azərbaycan Xalq Partiyası və s.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı. Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi arenasına gəlməsi həmin dövrdə ağır və mürəkkəb problemlərlə üzləşmiş gənc müstəqil dövlətin xaos və anarxiyadan xilas edilməsi, dövlətçiliyin itirilməsi təhlükəsinin qarşısının alınması zərurətindən irəli gəlmişdi. 1993-cü ildən etibarən Yeni Azərbaycan Partiyası hakim siyasi partiyadır.

Siyasi partiyaları və ictimai-siyasi təşkilatları qruplaşdırarkən ideoloji mənsubiyyət, sosial baza, təşkilati prinsiplər əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar bir-birindən proqram məqsədlərinə, ideya-siyasi istiqamətlərinə, təşkilati strukturlarına, iş formaları və metodlarına görə fərqlənirlər. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar müxtəlif ideya-siyasi cərəyanların daşıyıcılarıdır. Marksizm-leninizm ideologiyası iflasa uğradıqdan sonra yaranmış ideoloji boşluqda XX əsrin əvvəllərində mövcud olan və bolşeviklər tərəfindən süquta uğradılan ideologiyalar yenidən dirçəlməyə başladı. Bu ideologiyalar içərisində liberalizm, konservatizm (mühafizəkarlıq), türkçülük, millətçilik, azərbaycançılıq, islamçılıq, sosial demokratiya, sol, sağ və mərkəzçi ideyalar geniş yayılmağa başladı. Bu anlayışlara bir sıra istiqamətlər – “sağlara” mötədil, qatı konservatorlar, “sağ” radikallar və nasist baxışları, “sollara” isə kommunistlər, sosialistlər, sosial-demokratlar və digərləri daxildir.

1990-cı illərin əvvəllərində – milli-azadlıq hərəkatının yüksəlişi dövründə meydana çıxan millətçi-radikal qüvvələr Azərbaycanın öz inkişaf modelinə daha çox üstünlük verirdilər. Bu

dövrdə mühafizəkar, liberalizm, sosial-demokratiya ilə yanaşı, cəmiyyətdə turançılıq, türkçülük, azərbaycançılıq, islam və kommunist ideologiyaları da özünə yer tutdu. Demokratik-hüquqi dövlətə və vətəndaş cəmiyyətinə keçid şəraitində birpartiyalılıq sisteminin yeri çoxpartiyalılıq sistemi ilə əvəz olundu. Bununla da, keçmiş marksizm-leninizm ideologiyasının tərəfdarlarının çox hissəsi yeni ideologiyaların daşıyıcılarına çevrildi, qalan çox cüzi hissəsi isə öz ideologiyalarına sadiq qalaraq mübarizələrini davam etdirdilər. Hazırda həmin qüvvələr Azərbaycan Kommunist Partiyası – 1, Azərbaycan Kommunist Partiyası – 2 və Azərbaycan Vahid Kommunist Partiyasının daxilində fəaliyyət göstərirlər.

Azərbaycanda hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin inkişaf etdiyi bir şəraitdə təbii olaraq siyasi hakimiyyət uğrunda mübarizə ideoloji prinsiplərə söykənir.

***Akademik Ramiz Mehdiyev*** milli ideyanın formalaşmasını aşağıdakı mərhələlərə bölmüşdür:

“...milli ideyanın təşəkkülünün **birinci mərhələsi** 1828–1875-ci illəri əhatə edir. Rusiya-İran müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin ərazisi Rusiya imperiyasının tərkibində qalmış, burada azərbaycanlıların tədricən həmrəy olması prosesi başlanmışdır. O dövrdə Azərbaycan cəmiyyətinin qabaqcıl hissəsi hələ fars və ərəb ruhanilərinin təsiri altında idi. Bununla bərabər, məhz həmin dövrdə milli realist ədəbi məktəb formalaşmağa başlayır. Bu məktəbin səpdiyi milli oyanış toxumları sonrakı onilliklərdə cücərmişdir.

Özlərinin ensiklopedik bilikləri ilə fərqlənən Abbasqulu ağa Bakıxanov, Mirzə Kazımbəy, Mirzə Fətəli Axundov və başqaları yaranmaqda olan yeni ziyalıların ən parlaq nümayəndələri idi. Mütərəqqi rus mədəniyyətinin əhatə dairəsinə cəlb edilmiş azsaylı Azərbaycan ziyalılarının bu ilk nümayəndələri həmin mədəniyyət vasitəsilə XIX əsr Avropa mədəniyyəti ilə tanış olmuşlar. Şimali Azərbaycan əhalisinin etnik baxımdan oyanışı bu görkəmli mütəfəkkirlərin fəlsəfi, tarixi və ədəbi əsərlərindən qaynaqlanmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan xanlıqları Rusiya imperiyasının tərkibinə daxil olanda yerli zadəganlar öz titullarından məhrum edilmiş və Rusiyanın tərkibində analoji titullar almamış,

bunun əvəzinə "müsəlman ruhaniləri" deyilən yeni zümrə yaranmışdı. Həmin dövrdə Azərbaycan cəmiyyətində identifikasiyanın əsas meyarı da bu idi.

**İkinci mərhələnin başlanğıcı** 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən Bakıda Rusiya müsəlmanları arasında Azərbaycan dilində ilk qəzetin – "Əkinçi"nin təsis edilməsi ilə bağlıdır və XX əsrin əvvəlinə qədər olan dövrü əhatə edir. Bu ilk Azərbaycan qəzeti milli oyanış tarixində müstəsna rol oynamışdır. Azərbaycan teatrının banilərindən biri və ədəbiyyatda realizm tərəfdarı olan Həsən bəy Zərdabi bu qəzetin səhifələrində dərc olunan məqalələrində dini-mistik poeziyaya qarşı çıxış edirdi. Qəzet öz redaktorunun dili ilə həmvətənləri milli məhdudiyyətə qarşı mübarizə aparmağa və o dövrün elmi nailiyyətləri ilə tanış olmağa çağırırdı.

Maarifçilik ideyalarının daşıyıcısı kimi "Əkinçi" qəzeti sayca çox olmayan Azərbaycan ziyalılarında milli mənlik şüurunun formalaşmasının təməlini qoymaqla tarixi rol oynamışdır. Seyid və Camal Ünsizadə qardaşlarının yaratdığı "Ziya" və "Kəşkül" nəşrləri isə "Əkinçi"nin ideyalarını davam etdirərək oxucularını Avropa elm, təhsil və mədəniyyətinin nailiyyətləri ilə tanış edirdi. Bu nəşrlər öz dövrünün ictimai fikir tarixində nəzərəçarpacaq iz qoymasalar da, hər halda XIX əsrin son rübündə Azərbaycan ziyalılarının yaradıcı fəallığının başlanmasının göstəricisi idi. Şübhəsiz, bu nəşrlər mətbuat işinə maraq oyatmış və ən başlıcası – həmin nəşrlərdə dərc edilən məqalələrin tənqidi baxımdan dərk edilməsi günün tələblərinə cavab verən yeni nəşrlər yaranmasına güclü təkan vermişdir.

Azərbaycan ziyalılarının XIX əsrin axırlarında formalaşmış ikinci nəsli artıq türk mədəniyyəti ənənələrinə müraciət etməyə başlamışdı. Məhəmməd ağa Şahtaxtinskinin (1846–1931) 1891-ci ildə "Kəşkül" qəzetində dərc edilmiş məqaləsində "Azərbaycan türkləri" terminindən istifadə etmək təklif olunurdu. Beləliklə, türklərin milli mənlik şüurunu Azərbaycan identikliyi ilə əlaqələndirməyə cəhd edilmişdi.

Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi "Kaspi" qəzeti rus dilində çıxdığına baxmayaraq, xalqın əsas tribunasına çevrilmişdi.

Nəcəf bəy Vəzirov, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə və digər şəxsiyyətlər ikinci dövr maarifçilər nəslinin görkəmli nümayəndələri idi.

**Üçüncü mərhələ** Rusiyada 1905–1907-ci illər inqilabından başlanır və 1918-ci ilin may ayında Zaqafqaziya Seyminin süqutu ilə başa çatır. Bu illərin siyasi hadisələri Azərbaycan xalqının həyatında çox böyük rol oynamış, onun ictimai-siyasi şüurunun inkişafına ciddi təsir göstərmişdir. Yeni yüzilliyin birinci onilliyində mühüm ictimai irəliləyişlər nəzərə çarpır, xalqın oyanışı, milli mənlik şüurunun sonrakı formalaşması və Avropa sivilizasiyası dəyərləri ilə tanışlıq prosesinə fəal cəlb olunan ilk siyasi partiyalar yaranır, yeni jurnal və qəzetlər təsis edilir. "Həyat", "İrşad" qəzetlərinin və "Füyuzat" jurnalının nəşri milli ideologiyanın yaranmasına, dövlətçilik təfəkkürünün və milli azadlıq ideyasının formalaşmasına təkan verir.

Türkçülük ideyaları milli burjuaziyanın, yaradıcı və siyasi ziyalıların şüuruna hakim kəsilməyə başlayır, bu dövrdə yaradılmış siyasi təşkilatların əsas platformasına çevrilir. Bu ideyalar milli ideal xarakteri kəsb etməklə milli hərəkata güclü təkan verir.

Bu dövrün səciyyəvi cəhəti ondan ibarətdir ki, Azərbaycan elitası milli ideyanın son məqsədi kimi Rusiya imperiyasının tərkibində milli ərazi muxtariyyəti yaradılması uğrunda mübarizə yolunu seçir. Tam azadlıq, milli və dövlət müstəqilliyi uğrunda mübarizə 1918-ci ilə qədər hələ siyasi təşkilatların gündəlik işinə çevrilməmişdi.

Dünya tarixində bu dövr dünya geosiyasətində tektonik dəyişikliklər, Rusiya imperiyasının dağılması və müstəmləkə xalqlarının müstəqil dövlət qurması üçün şərait yaranması ilə əlamətdardır. Məhz həmin illərdə ictimai fikrin avanqardı rolunda çıxış edən yeni ictimai-siyasi xadimlər təbəqəsi yaranır. Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və bır sıra başqaları Azərbaycan milli ideyasının daşıyıcıları olmaqla milli ideallar uğrunda mübarizəni demokratik dəyərlər və prinsiplərlə birləşdirirdilər.

Azərbaycan milli ideyasının formalaşması tarixinin **dördüncü mərhələsi** 1918-ci il mayın axırlarında Tiflisdə, Milli Şuranın birinci iclasında Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul edildiyi vaxtdan 1920-ci il aprelin sonuna qədər olan dövrü əhatə edir.

Beləliklə, 1918-ci il 28 may tarixi Azərbaycan milli ideyasının həyata keçməsinin ilk rəmzi olmuşdur. Xalqın ən yaxşı övladları bu ideyanın təntənəsi uğrunda mübarizə aparmışlar. Gənc dövlətin baniləri Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə tanınması uğrunda gərgin mübarizə aparmalı olmuşlar. Lakin böyük dövlətlərin maraqları, siyasi konyunktur bu məqsədə nail olmaq üçün ciddi maneəyə çevrilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən az sonra Müvəqqəti Milli Şura ölkənin müvəqqəti paytaxtına – Gəncə şəhərinə köçmüş və yalnız sentyabrın ortalarında Bakı "Sentrokaspi diktaturası" qoşunlarından azad ediləndən sonra hökumət fəal dövlət quruculuğuna və ölkənin daxili həyatını tənzimləməyə başlaya bilmişdi. Lakin vaxt əldən verilmişdi. Təcili həll edilməsi tələb olunan çoxlu problemlər yığılıb qalmışdı, ixtisaslı milli kadrların olmaması isə ölkənin səmərəli idarə edilməsini xeyli ləngidirdi. Üstəlik, hökumətdə mövcud qarışıqlıq, rəhbər vəzifələrin proteksiya yolu ilə – "öz adamları" ilə və ya müxtəlif xarici siyasi qüvvələrin mənafelərinə xidmət edən etibarsız kadrlarla komplektləşdirilməsi, xarici dövlətlərin ölkənin daxili işlərinə qarışması, dərin sosial-iqtisadi böhran və sair – bütün bunlar, əlbəttə, dövlət hakimiyyətinin möhkəmlənməsi işinə əsla xidmət etmirdi.

Nəticədə 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Sovet Rusiyasının təzyiqi altında hakimiyyəti Azərbaycan bolşeviklərinə təhvil verməyə məcbur oldu, onlar isə Azərbaycanda sovet hakimiyyəti elan etməklə tamamilə bolşevik Rusiyasının tabeliyinə keçdilər.

Beləliklə, əsas məqsədi müstəqil demokratik dövlət yaratmaq olan Azərbaycan milli ideyasını reallaşdırmağa yönəlmiş ilk təcrübə uğursuz oldu...

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu dövlətin demokratik xarakterini, Azərbaycan cəmiyyətinin

siyasi təşkilini dəyişmiş və Azərbaycan millət-dövlət modelinin beynəlxalq miqyasda tanınmasına mənfi təsir göstərmişdir.

1920-ci ildən 1988-ci ilin əvvəlinə qədər olan dövrdə kommunist ideologiyasının səyləri sayəsində Azərbaycan xalqı sovet xalqının bir hissəsi kimi təmsil olunmuş, rus dili millətlərarası ünsiyyət dili elan edilmiş, milli maraqlar unudulmuşdur.

Milli ideyanın formalaşması prosesinin **beşinci mərhələsini** Azərbaycan xalqının siyasi oyanışı, onun siyasi proseslərdə fəal iştirakı dövrü kimi səciyyələndirmək olar. Bu mərhələ 1987-ci ilin axırları – 1988-ci ilin əvvəlində başlanmış, 1990-cı ilin yanvarından sonra keyfiyyətcə yeni hərəkata – milli azadlıq hərəkatına çevrilmiş xalq hərəkatı ilə bağlıdır...

Milli ideyanın formalaşmasında **altıncı mərhələni** milli şüurun inkişaf edərək Azərbaycan milləti tərəfindən müstəqil dövlətini yaratmaq zərurətinin dərk edilməsi dövrü kimi səciyyələndirmək olar. 1990-cı ilin yanvar hadisələri bu şüurun, bu hisslərin oyanmasına güclü təkan verdi. Bu mərhələ 1990-cı ilin yanvarından 1993-cü ilin iyununa qədər olan dövrü əhatə edir.

Bu dövrün xüsusiyyəti ondan ibarət idi ki, kollektiv özünü identifikasiya formalarından biri, məhz müstəsna türkçülüklə eyniləşdirilən sosiomədəni özünü identifikasiya dövlət siyasətinin əsası olmuşdur. Titul millətin özünü identifikasiya prosesində prioritet kimi müəyyən edilmiş türk bazis komponenti milli ideyanın yeganə forması kimi təklif edilmişdi və istər daxili, istərsə də xarici siyasi fəaliyyətdə bütün sonrakı addımlar yalnız bu amildən irəli gəlirdi. Səhv milli siyasətin nəticələri tezliklə etnik komponentin və separatçı əhval-ruhiyyənin kəskin ifadə olunduğu müxtəlif milli qrupların nümayəndələrinin ictimai təşkilatlarının yaranmasında özünü göstərdi. Hakimiyyətə gəlmiş siyasi qruplar milləti birləşdirməyə, cəmiyyətdə sabitliyi və asayişi bərpa etməyə yönəlmiş fəaliyyət xəttini həyata keçirə bilmədilər.

Oxlokratiyaya – kütlənin hakimiyyətinə doğru yuvarlanma, dövlətçiliyin tənəzzülü, ölkə ərazisinin bir hissəsinin işğal edilməsi, qeyri-sabitlik və siyasi kataklizmlərlə səciyyəvi olan bu dövrü respublikanın tarixində müstəqil dövr kimi təsnif etmək çətindir. Azərbaycan dövlətinin tam azadlıq və müstəqillik yoluna qədəm

qoyması üçün dövlətçilik iradəsi və siyasi dəyişikliklər tələb olunurdu.

Milli ideyanın formalaşması tarixinin **yeddinci mərhələsi** 1993-cü ilin yayından başlanır və 2003-cü ildə həmin ideyanın gerçəkləşməsi ilə başa çatır. İctimai-siyasi sabitliyin bərqərar olması, ölkənin gələcək iqtisadi artımının və siyasi inkişafının əsaslarının yaradılması bu dövrün səciyyəvi cəhətləridir. Bu illər ərzində milli ideya milli müstəqillik – suveren dövlət formulunda qəti inkişaf mərhələsinə çatmışdır. Heydər Əliyevin siyasəti nəticəsində "millət" anlayışının strukturuna özünü identifikasiyanın etnik, dini, sosiomədəni, siyasi və bütün başqa kollektiv formaları daxil edilmişdir...

Qeyd etmək lazımdır ki, 2003-cü ilin axırlarından başlayaraq milli ideya müstəqil dövlətin inkişafının və dünya ilə münasibətlər qurulmasının keyfiyyətcə yeni aspektləri ilə zənginləşir. Bu dövrdə dövlətin inkişaf vektorları regional və qlobal perimetrlərdə ölkənin yeni mövqeyini müəyyən etmişdir. Dövlətin iqtisadi qüdrətinin fəal artması nəticəsində ictimai şüur tədricən elə istiqamətləndirilir ki, o, ətraf aləmlə ahəngdar şəkildə qarşılıqlı fəaliyyət göstərir, inkişafın perspektivlərini və prioritetlərini real hiss edir. İqtisadi və demokratik tranzitin, dövlət həyatının bütün sahələrində innovasiyalı inkişafa keçidin intensivləşdirilməsi ideyaları getdikcə daha artıq dərəcədə rəqabətədavamlı paradiqmaya yönələrək hakim və ictimai-siyasi elitanın şüurunda üstünlük təşkil edir".

1993-cü ildən hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasının ideologiyası "azərbaycançılıq"dır. Yeni Azərbaycan Partiyasının və "azərbaycançılıq" ideologiyanın yaradıcısı Ümummilli lider Heydər Əliyevdir. O, "azərbaycançılıq" ideyasını "azərbaycançılıq" ideologiyasına çevirdi.

Dünya Azərbaycanlılarının I qurultayında Heydər Əliyev bu barədə demişdir: "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Akademik Ramiz Mehdiyev qeyd edir ki, "Azərbaycançılıq ideyası Azərbaycanda yaşayan və onu özlərinin ümumi Vətəni hesab edən bütün etnik qrupların ideyası kimi çıxış etmişdir. Azərbaycanın polietnik təbiəti bizim böyük sərvətimizə çevrilmişdir. Biz müasir Azərbaycanı səciyyələndirən bu sərvətin qədrini bilməliyik. Bu dövrdən etibarən milli identifikasiyanın yeni forması daha geniş və yenilənmiş formatda "azərbaycançılıq" ideologiyası ilə eyniləşdirilir. Məhz həmin dövrdə Azərbaycan millətinin dövlət müstəqilliyinin yaranması və möhkəmlənməsi kontekstində milli ideyanın formalaşması prosesi tam başa çatmışdır".

### 2.8.5. 1991-ci ildə müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycanın ictimai–siyasi fikir tarixi ilə bağlı dərc olunmuş tədqiqat əsərləri

Müstəqilliyin əldə edilməsi nəticəsində ideoloji, ictimai–siyasi, mənəvi–psixoloji dəyərlərə, həmçinin elmin humanitar sahələrinə yeni baxışın yaranması zərurətə çevrildi. Azərbaycanın ictimai–siyasi fikir tarixinin Sovet dövründə dərc edilmiş əsər və kitablarda birtərəfliliyin, təhriflərin aradan qaldırılması, qaranlıq mətləblərə aydınlıq gətirməsi ilə bağlı yeni tədqiqat əsərləri yazılmağa başlandı.

Müstəqillik dövründə Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları – Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Əhməd bəy Ağaoğlunun, Əlibəy Hüseynzadənin və digər ictimai–siyasi xadimlərin əsərləri, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin iki cildlik stenoqrafik hesabatı, iki cildlik Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, yeddi cildlik "Azərbaycan tarixi", iki cildlik "Azərbaycan Republikasının tarixi", Azərbaycan tarixi ilə bağlı müxtəlif kitablar, "Azərbaycan fəlsəfəsi tarixi"nin birinci və ikinci cildləri, Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyi, Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyevin "İnkişaf – məqsədimizdir" çoxcildliyi və bir çox başqa kitablar nəşr etdirilmişdir.

Akademik Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən", akademik Ziya Bünyadovun "Qırmızı terror", akademik Ramiz Mehdiyevin "Azərbaycanın inkişaf dialektikası", "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik: Demokratik inkişaf və müxalifət", "Fəlsəfə", "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)", "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "Demokratiya yolunda: irs haqqında düşünərkən", "Yeni siyasət: inkişafa doğru", "Azərbaycan – 2003–2008: Zaman haqqında düşünərkən", "İctimai və humanitar elmlər: zaman kontekstində baxış", "Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu", "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti", "Tarixi idrakın elmiliyi problemlərinə dair", "Yeni dünya nizamı və milli ideya", "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında", akademik Urxan Ələkbərovun "Davamlı insan inkişafının əsasları", "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları", "Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları", "İnklüziv inkişafın idarə edilməsinin əsasları", akademik Nizami Cəfərovun "Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri", "Azərbaycanşünaslığa giriş", akademik Kamal Abdullanın "Mifdən yazıya və yaxud Gizli Dədə Qorqud", Əli Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti", Geosiyasət", "Azərbaycanın geosiyasəti", Əlikram Abdullayevin "İnsan hüquqları: beynəlxalq və milli müdafiə mexanizmləri", Əmrəli İsmayılovun "Ermənilyin və erməni faşizminin ideologiyası, fəlsəfəsi və cinayəti", Seyfəddin Qəndilovun "Müstəqillik illərinin düşüncələri", Ağababa Rzayevin "Azərbaycanda siyasi və hüquqi təlimlər tarixi (mənbələrdən XX əsrədək)", Etibar Nəcəfovun "İctimai elmlərdə akademik yazı və tədqiqat metodları", Yusif Rüstəmovun "Siyasi–hüquqi təlimlər tarixi", İlham Məmmədzadənin "Xeyir və şər arasında", "Vətəndaş cəmiyyəti və milli ideologiya", "Azərbaycanda siyasi proseslərin fəlsəfəsi", "Siyasi etika", "Etik analiz baxımından Azərbaycanda

etnik konfliktlər", Şamil Vəliyevin "Füyuzat ədəbi məktəbi", Aydın Balayevin "1917–1918-ci illərdə Azərbaycan milli hərəkatı", Fuad Məmmədovun "İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi", "Kulturologiya Mədəniyyət Sivilizasiya", Xaqani Məmmədovun "Azərbaycan milli hərəkatı 1875–1918-ci illər", Əlikram Tağıyevin "Milli ideya və milli ideologiya: problemlər və onların şərhi", Orta əsrlərin fəlsəfi və sosial-siyasi fikri (Qərbi Avropa və Azərbaycan), Hikmət Babaoğlunun "Siyasi təhlil və proqnozlaşdırma", Heydər Əliyev siyasi irsinin politoloji aspektləri", Elçin Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987–2011)", Mübariz Qurbanlının "Azərbaycanda dövlət-din münasibətləri: tarixi baxış və müasirlik", Zaur Bağırovun "Fəlsəfə", Nigar Ələkbərovanın "Siyasi elmin müasir problemləri", Rafael Həsənovun "Siyasi soisologiya", "Sosial siyasət", Məcid Əfəndiyevin "Siyasi elmin əsasları", "Siyasi və hüquqi təlimlər tarixi", Aydın Mirzəzadənin "Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri", "Yeni Azərbaycan Partiyası: yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri", "Demokratiya plyus", "Azərbaycan, Zaman, İnkişaf", "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri", Nəsib Nəsibzadənin "Azərbaycan Demokratik Respublikası", Bəxtiyar Nəcəfovun "Azərbaycan Demokratik Respublikası (daxili və xarici siyasəti)", Firdovsiyyə Əhmədovanın "Nəriman Nərimanov – ideal və gerçəklik", Musa Quluzadənin "Azərbaycanın dövlətçilik tarixi", Sevda Süleymanovanın "Azərbaycanda ictimai–siyasi hərəkat (XIX yüzilliyin sonu XX yüzilliyin əvvəlləri)", Fəxrəddin Nağıyevin "Konstitusiya hüququ. Mühazirə kursu. Ali məktəblər üçün dərs vəsaiti", Rəcəb Rəhimlinin "Azerbaycan Devlet Personel Yönetimi (Azərbaycan dövlət qulluğu sistemi)". "Kültür Ajansı Yayınları", "Azərbaycan Respublikasının idarəetmə sistemində yerli özünüidarələr", "Azerbaycan Kamu Personel Sistemi. Naturel Yayınları", Xaləddin İbrahimlinin "Azərbaycan siyasi mühacirəti", İradə Bağırovanın "XX əsrin əvvəllərində Azərbaycanın siyasi partiyaları və təşkilatları", İsmayıl Musayevin "Şimali Azərbaycanda ictimai–siyasi vəziyyət (1917–1920)", Nəsiman Yaqublunun "Məhəmməd Əmin Rəsulzadə", "Cümhuriyyət

qurucuları”, Səlahəddin Xəlilovun “Lider, dövlət, cəmiyyət”, “Şərq və Qərb: ümumbəşəri ideala doğru”, “İşraqilik və müasir fəlsəfi təlimlər”, “Sivilizasiyalararası dialoq”, Elşad Mirbəşiroğlunun “Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli”, Dilarə Seyidzadənin “Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar”, İsmayıl Eyyubovun “Azərbaycanın siyasi təlimlər tarixi”, Rahib Əkbərovun“Azərbaycanın dövlət və hüquq tarixi”, “Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hüquq tarixi” və s. əsərlər nəşr edilmişdir.

Qeyd olunan əsərlərdə Azərbaycanın ictimai-siyasi fikir tarixi ilə əlaqədar olan məsələlər obyektiv elmi müddəalara əsaslanılaraq tədqiq edilmişdir.

## 2.8.6. Azərbaycan dövlətinin multikulturalizm və tolerantlıq siyasəti

Tarixən fərqli dinlər və mədəniyyətlərin mövcud olduğu Azərbaycanda bugün də çoxsaylı müxtəlif dinlərə etiqad edənlər və müxtəlif mədəniyyətlərdən olan insanlar yaşayırlar. Əhalinin tərkibi etnik və dini baxımından zəngindir. Azərbaycan xalqın xarakterik xüsusiyyətlərindən biri olan tolerantlığın inkişafı üçün möhkəm hüquqi bazaya malikdir. Vətəndaşların vicdan azadlığı hüququ birbaşa Konstitusiyada təsbit olunur və “Dini etiqad azadlığı haqqında” qanunda da daha geniş şəkildə əks olunur.

Azərbaycan Respublikasının Konstitusiyasının 18-ci maddəsində də qeyd olunduğu kimi “din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır”. Konstitusiyanın 25-ci maddəsinə əsasən, “Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini,

dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəmizdə din və etiqad azadlığı tam təmin edildi, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, dini ayin və mərasimlərin yerinə yetirilməsi üçün bütün dinlərə mənsub olan insanlara bərabər və əlverişli şərait yaradıldı. Ümummilli lider Heydər Əliyev multikulturalizmi, milli və dini tolerantlığı Azərbaycan dövlətinin demokratik inkişaf prinsiplərinin tərkib hissəsinə çevirdi. Multikulturalizmin, milli və dini tolerantlığın demokratik prinsipləri Azərbaycan Respublikasınnın Konstitusiyasında öz əksini tapdı. Heydər Əliyev ölkəmizdə multikultural və tolerantlıq dəyərlərin mövcud olduğunu, Azərbaycan xalqının və dövlətinin bu dəyərlərə hörmət və qayğı ilə yanaşdığını bildirərək demişdir: "Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. Bildiyiniz kimi, Azərbaycanda İslam dini ilə yanaşı, xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın Prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".

Azərbaycan polietnik bir ölkədir. Onun ərazisində minilliklər ərzində çoxlu sayda xalqlar dinc və mehriban şəkildə birgə yaşamışlar və indi də yaşayırlar. Onlar Azərbaycanın dar günündə bir-birilərinə arxa olaraq düşmənə qarşı birgə mübarizə aparmış, dinc şəraitdə isə öz təsərrüfatlarını və mədəniyyətlərini inkişaf etdirmişlər. Azərbaycanda yaşayan bu xalqlar içərisində çoxluq təşkil edən və həmişə aparıcı olan azəri türkləri sayının çoxluğundan, azlığından asılı olmayaraq onunla yanaşı yaşayan xalqların və etnik topluların dinlərinə, dillərinə adət-ənənələrinə,

mədəniyyətlərinə çox hörmətlə yanaşmış və inkişaf etdirilməsinə şərait yaratmışdır. Məhz bunun nəticəsidir ki, xınalıq, buduq, udin kimi etnik qruplar, talış, kürd, ləzgi və s. kimi xalqlar minilliklər ərzində öz dillərini, adət-ənənələrini, mədəniyyət və mənəviyyatlarını qoruyub saxlaya bilmişlər.

Azərbaycanda yaşayan bütün xalqlar xaraktercə sülhsevər, təbiətcə mülayim və mehriban olduqlarına görə tarixən qonşu xalqlarla həmişə dostluğa, əməkdaşlığa, dinc və sülh şəraitində yaşamağa daha çox üstünlük vermişlər. Buna görə də Azərbaycanda multikuturalizm və dini tolerantlıq tarixi köklərə malik olmuş və əsrlər boyu bu bəşəri dəyərlər qorunaraq nəsillərdən-nəsillərə ötürülmüşdür.

Akademik Ramiz Mehdiyev yazır: “Suveren Azərbaycan dövlətinin ərazisində ənənəvi olaraq çoxsaylı xalqlar və milli azlıqlar (o cümlədən ermənilər), habelə müxtəlif konfessiyaların nümayəndələri yaşayır. Xalqımız ta qədimdən genişürəkli və humanist olması ilə səciyyələnir. Multikulturalizm müasir Azərbaycanın dövlət siyasətidir”.

Ümummilli lider Heydər Əliyev 16 noyabr 1999-cu ildə “Beynəlxalq Tolerantlıq Günü” münasibətilə keçirilən tədbirdə din xadimləri ilə görüşü zamanı demişdir: “Siz bilirsiniz ki, UNESKO 1995-ci ildə özünün qərarı ilə noyabrın 16-nı dünyada dözümlülük günü, səbirlilik, tolerantlıq günü elan etmişdir. XX əsrin sonunda demokratiklik prosesinin Yer kürəsinin bir çox ölkələrini əhatə etdiyini və insan hüquqlarının mühüm amil kimi ön plana çəkildiyini nəzərə alsaq, bu, çox vacib qərardır. Bu münasibətlə də mən istərdim sizinlə görüşüm, ölkəmizdə bu məsələnin nə vəziyyətdə olduğunu, qısaca da olsa, birlikdə təhlil edək, mən sizi dinləyim və öz fikirlərimi deyim. Bildiyimiz kimi tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir”.

Müasir dövrdə dini, milli-mənəvi və mədəni dəyərlərin inkişafı üçün yaradılan əlverişli şəraitdən istifadə edən qüvvələr müxtəlif təriqətləri təbliğ edərək yaymağa cəhd göstərirlər. Bu da ondan irəli gəlir ki, vaxtilə ateizmin dövlət siyasəti olduğu sovet

cəmiyyəti dağıldıqdan sonra yaranan dini-mənəvi boşluğu ilk növbədə Xristian və İslam dinlərinə məxsus olan müxtəlif missioner təriqətləri doldurmağa çalışdı. Konstitusiyanın verdiyi dini etiqad azadlığından istifadə edərək din pərdəsi altında fəaliyyət göstərən xristian missionerlərinin respublikanın müsəlman əhalisinin xristianlaşdırılması, islam missioner təriqətlərinin isə gələcəkdə dini dövlət və cəmiyyət yaratmaq kimi fəaliyyətləri ciddi narahatlıq doğurmağa başladı. Yarana biləcək bu təhlükələrin qarşısının alınması və aradan qaldırılmasında dini dəyərlərlə demokratik dəyərlərin qarşılıqlı əlaqəsinin elmi cəhətdən izahının verilməsinin böyük əhəmiyyəti vardır. Demokratik dəyərlərlə İslam dini dəyərlərinin qarşılıqlı vəhdəti XX əsrin əvvəllərində Əlibəy Hüseynzadənin tezis şəklində irəli sürdüyü məşhur "Bizə fədai lazımdır: Türk hissiyatlı, İslam etiqadlı, Avropa qiyafəli fədai!" – fikrinin "türkləşmək, islamlaşmaq, müasirləşmək" şəklində düstur halına gətirilməsi nəticəsində reallaşdı ki, məslək və əxlaq vəhdətini mükəmməl ifadə etdiyinə görə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət bayrağında mavi, yaşıl, qırmızı rənglərlə simvolizə edilmişdir".

Müxtəlif təriqətçi missionerlərin təbliğat fəaliyyətinin təsiri altına ən çox yeniyetmə və gənclər düşür. Bu da onların məsələnin həqiqi mahiyyətini dərk etməmələrindən irəli gəlir. Bu halların qarşısının alınması baxımından ali təhsil müəssisələrində tədris olunan "Multikulturalizmə giriş" fənni mühüm əhəmiyyət kəsb edir. Beləliklə, milli və dini tolerantlığın, multikultural ideyaların təbliği dövrün mühüm tələbidir.

İslam dünyasında qadın azadlığı problemi həmişə aktual olmuşdur. Müsəlman aləmində qadının hüquqsuz olmasına, onun cəmiyyətin və dövlətin idarəsində iştirakının məhdud olmasına baxmayaraq, Azərbaycan qadınının həmişə cəmiyyət və dövlət həyatında mühüm yeri olmuşdur. Bu da Azərbaycan millətinin müsbət milli keyfiyyətindən irəli gəlir.

Azərbaycanın dövlətçilik işlərində və ictimai həyatında qadınların böyük misssiyası olmuş və bu ənənə bugün də davam etməkdədir. Qadınlar qədim dövrlərdən ailənin, cəmiyyətin və dövlətin idarə olunması işlərində cəmiyyətin digər üzvləri ilə

bərabər olaraq yaxından iştirak etmişlər. Onlar həm ailədə, həm də cəmiyyətdə böyük nüfuza malik olmuşlar.

Azərbaycan tarixində hökmdarların əksəriyyəti dövlətin idarə olunmasında həmişə ya anaları ilə, ya da ağıllı və tədbirli xanımları ilə məsləhətləşiblər. Azərbaycan tarixində düşmən üzərində qələbə çalan qəhrəman qadınlarımız çox olub. Massaget tayfalarının hökmdarəsi Tomris ölkəsini düşməndən qoruyaraq Əhəməni imperiyasının hökmdarı II Kirin üzərində şanlı qələbə çalmış, Azərbaycan Eldənizlər dövlətinin yaradıcısı Atabəy Şəmsəddin Eldənizin nüfuz qazanmasında xanımı Möminə Xatunun əhəmiyyətli rolu olmuş, Eldənizlər dövlətinin digər hökmdarı Məhəmməd Cahan Pəhləvanın xanımı Zahidə Xatun Təbrizin müdafiəsini təşkil edərək düşməndən qorumuş, Azərbaycanın ilk diplomat qadını Sara Xatun Ağqoyunlular dövlətinin idarə olunmasında oğlu Uzun Həsənə yaxından köməklik göstərmiş, Gəncə xanı Cavad xanın xanımı Böyükxanım əri Cavad xan və oğlu Hüseynqulu ağa ilə birlikdə rus ordusuna qarşı rəşadətlə döyüşmüş, Quba xanı Fətəli xanın xanımı isə Dərbəndin müdafiəsini təşkil edərək düşməni şəhərə buraxmamışdır və s.

Müasir Azərbaycan Respublikasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində prezident İlham Əliyevin xanımı, Birinci vitse-prezident, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın böyük xidmətləri vardır.

Mədəniyyət və incəsənət sahələrində də hələ öz dövrlərində tanınmış və hörmət qazanmış Məhsəti Gəncəvi, Heyran xanım, Xurşudbanu Natəvan və digər görkəmli Azərbaycan şairə qadınları müxtəlif dövrlərdə Azərbaycan mədəniyyətinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişlər. Azərbaycan dövlətçiliyinin, ictimai-siyasi, mənəvi və mədəni həyatının inkişafında böyük xidmətləri olan bir çox digər görkəmli Azərbaycan qadınları da özlərinin ağıllı və müdrik məsləhətləri ilə cəmiyyətin və dövlətin idarə edilməsində yaxından iştirak etmiş və xalqın çətin günlərində onlara dayaq olmuşlar.

Sovet hakimiyyəti dövründə totalitar rejimin mövcud olmasına baxmayaraq qadınlara kişilərlə bərabər hüquq verilmiş və qadınlar dövlət və cəmiyyət həyatında fəal iştirak etmişlər. Elm,

mədəniyyət, incəsənət, təhsil, səhiyyə, təsərrüfat və sənaye sahələrində qadınların əhəmiyyətli dərəcədə rolu artmışdır. Belə ki, Azərbaycan qadınının cəmiyyət və dövlət həyatında yaxından iştirakının tarixi köklərə malik olması və ənənəyə çevrilməsi hazırda Azərbaycanda demokratikləşmə prosesinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bütün bunların hamısı İslamda qadına olan hörmət və sayğıdan irəli gəlir. Ümumiyyətlə, Qərb demokratik dəyərləri ilə İslam dəyərlərini bir-birinə yaxınlaşdıra biləcək çoxlu amillər vardır.

Ancaq buna baxmayaraq, müasir islam ölkələrinin əksəriyyətində insan haqlarının vəziyyəti dözülməzdir. Buna görə də hazırda bu ölkələrdəki insan haqlarının vəziyyəti demokratik dünya birliyini ciddi narahat edir. Bir sıra müsəlman ölkələrində, xüsusilə də Əfqanıstan, İran, İraq, Liviya, Suriya, Yəmən və başqa ölkələrdə qeyri-demokratik rejimlərin hökm sürməsini əsas götürən bəzi tədqiqatçılar belə bir yanlış nəticə çıxarırlar ki, islam mədəniyyəti ilə demokratiya bir araya sığa bilməz. Amerikadakı Harvard Universitetinin professoru Samuel Hantinqon "Sivilizasiyaların toqquşması" adlı məqaləsində yazmışdı ki, "Əksər müsəlman ölkələrində demokratiyanın uğursuzluğunun başlıca səbəbi islam mədəniyyətidir". Hantinqton həmin məqalədə həmçinin, demokratiyanın uğurlu inkişafını Qərb xristianlığı ilə bağlayır. S.Hantinqtonun islam mədəniyyətinə bu cür yanlış baxışı və qərəzli münasibəti doğru olaraq haqlı narazılıqlar yaratmışdır.

Bugün dünyanın mürəkkəb və ziddiyyətli, qanlı-qadalı olduğu bir şəraitdə sivilizasiyalararası dialoqa daha çox ehtiyac vardır. Prezident İlham Əliyev hazırkı dövrdə sivilizasiyalararası dialoqun zəruriliyinin əhəmiyyətli olduğunu qeyd edərək demişdir: "Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bugün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu çox təhlükəli meyllərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyllərin

yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin".

Ancaq S.Hantinqton və onunla eyni fikirdə olanlar unudurlar ki, Qərb xristianlığı uzun bir dövr ərzində (orta əsrlər dövründə) elmin, mədəniyyətin, incəsənətin, ümumilikdə cəmiyyətin mütərəqqi inkişafına qadağa qoyan və əngəl olan zaman İslam dini Şərqdə sivilizasiyanın inkişafına geniş şərait yaratmış və imkanlar açmışdır. Həmin dövrdə Qərb xristian mədəniyyəti dünya mədəniyyəti xəzinəsinə elə bir ciddi dahilər bəxş edə bilmədiyi halda, İslam Şərq mədəniyyəti Əl-Kindi, İbn-Rüşd, İbn Xəldun, İbn-Sina, Bəhmənyar, Əl Fərabi, Əbu Reyhan Biruni, Nəsirəddin Tusi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Ömər Xəyyam, Firdovsi və s. kimi elm və fikir dahilərinin böyük bir dəstəsini bəxş etmişdir. Təsadüfi deyil ki, Roma papası II İohann Pavel 2002-ci ildə Bakıda olarkən öz çıxışında dahi Azərbaycan şairi Nizami Gəncəvinin sosial ədalətlə bağlı fikirlərindən sitat gətirmişdir.

İslam dininə və İslam mədəniyyətinə, İslam dəyərlərinə qarşı dünya miqyasında aparılan çirkin təbliğat kampaniyalarının dövlətlər səviyyəsində aparılmasının təhlükəli hal aldığını qeyd edərək, Prezident İlham Əliyev demişdir: "Türkiyənin, Azərbaycanın dünya mədəniyyətinə verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Biz İslamafobiyaya qarşı bərabər, birgə səylərlə mübarizə aparırıq. Bugün İslamafobiya bəzi ölkələrdə dövlət siyasətinə çevrilmişdir. Əfsuslar olsun ki, bir çox media qurumları İslama, İslam mədəniyyətinə, bizim adət-ənənələrimizə qarşı məqsədyönlü şəkildə kampaniya aparır. İslamı ləkələmək, qaralamaq, terrorla eyniləşdirmək cəhdləri gözümüzün önündədir, bu, dünyada sivilizasiyalararası problemlərə gətirib çıxara bilər və artıq çıxarır".

Bütün bunlara baxmayaraq, dünya dinlərinin hər birini, o cümlədən yəhudilik, xristianlıq, buddizm və islam mənbələrini obyektiv şəkildə nəzərdən keçirərkən müəyyən etmək olur ki, hər bir dinin elə bir müddəaları var ki, onları həm demokratiya, həm də qeyri-demokratiya baxımından şərh etmək olar.

İslam dini özünün mahiyyəti və məzmunu etibarı ilə humanizmi, insan azadlığını, sosial ədaləti başlıca prinsip kimi

qəbul edən bir dindir. İslamın müqəddəs kitabı Qurani-Kərimin ayrı-ayrı surə və ayələrində insanlar və millətlər arasında bərabərlik, xalq hakimiyyəti, vicdan azadlığı, sosial ədalət, sosial təminat məsələləri İslamın əsas tələbləri kimi açıq-aydın şəkildə öz əksini tapmışdır. Həmçinin, İslamın yaradıcısı və böyük şəxsiyyət olan Məhəmməd peyğəmbər hədislərində (kəlamlarında) liberalizm prinsiplərindən olan seçmək azadlığını, bərabərliyi, şəxsin təhlükəsizliyini, zora müqavimət göstərmək hüququnu sonadək başa düşüb, qəbul edib və daim həyata keçirib. Məhəmməd peyğəmbər buyurmuşdu: "Heç kəs günah sayılan göstərişlərə tabe olmamalıdır", "Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil", "İslamdakı rəy müxtəlifliyi Rəbbimizin rəhminin nişanəsidir", "Biz (müsəlmanlar) başqa xalqların bizdən qabaq keçdiyi yolları addım-addım keçməliyik". Peyğəmbərin başqa bir kəlamı öz hüquqlarının müdafiəsinə qalxan insanlar üçün çox vacibdir: "Kim şərlə üz-üzə gəlsə silahla ona qarşı vuruşsun, gücü çatmırsa qoy şərə qarşı fikrini açıq söyləsin, ona da gücü çatmırsa onda bu şəri öz ürəyində bağlasın. Amma bu, iman gətirməyin ən zəif təzahürü olacaq''. Bütün bunların hamısı demokratiyanın əsasları ilə üst-üstə düşür.

Bugün müsəlman aləminə daxil olan ölkələrin əksəriyyətində hökm sürən despotizmin, cəhalətin, nadanlığın, insanların sosial passivliyinin və avamlığının İslamın qaynaqları ilə heç bir əlaqəsi yoxdur. Buna görə də İslam aləmindəki demokratiyanın uğursuzluqlarını İslamın mənbələri ilə, onun mahiyyəti və məzmunu ilə əlaqələndirilməsi düzgün deyil. Nəhəng İslam aləmini və zəngin İşlam mədəniyyətini bir qrup islam təməlçiləri, terrorçuları və islam fanatizmi ilə eyniləşdirmək heç bir məntiqə sığmır. İslam dini mahiyyətcə antidemokratik deyil, demokratiya islamın mahiyyəti, məzmunu və ruhundadır. İslam aləmindəki demokratiyanın uğursuzluqlarının başlıca səbəbi uzun illər ərzində insanların şüuruna hakim kəsilmiş cəhalət, avamlıq, nadanlıq və fanatizmdir.

XIX əsrin görkəmli Azərbaycan maarifçisi, Rusiya şərqşünaslıq elminin banisi Mirzə Kazımbəy fanatizmi həm İslam üçün, həm də istənilən başqa dinlər üçün olduqca təhlükəli hal hesab

etmitşdir. Alimin fikrincə fanatizm bütün dinlər üçün xasdır. Mirzə Kazımbəy Tiflisdəki İran konsuluna yazdığı məktubda deyir: “Fanatizm pis şeydir… söhbət təkcə müsəlmanlar arasındakı fanatizmdən getmir, həm də Avropadakı… fransızlar, ruslar, polyaklar arasındakı fanatizmdən gedir”.

İslam aləminin mütərəqqi fikirli liderləri demokratik müddəalardan əməli şəkildə faydalanmanın zamanın zəruri tələbi olduğunu dərk etmişlər. XIX əsrdə yaşamış Azərbaycanın və Şərqin görkəmli islahatçı mütəfəkkiri Panislamizm adlandırılan demokratik cərəyanın banisi Şeyx Cəmaləddin Əfqani “Mançestr qardyan” qəzetinin 18 dekabr 1891-ci il sayında islami reforma ilə bağlı müxbirin – İslama yeni və demokratik ruhu necə aşılamaq olar? – sualına belə cavab vermişdir: “Quranın həqiqi ruhu azadxah və eləcə də müasir fikirlərə uyğun gəlir. İndiki nizam-intizamsızlığın islam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin islama etdikləri əlavələrdir. Tarixi təkamül və inkişaf onların bu səhvlərini islah edəcək. Demək, bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurələrinə tamam aşina olsa o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər. Bu iş isə Lüterin üzləşdiyi maneələrlə üzləşməz”. C.Əfqaninin dediyi bu dahiyanə fikirlər bugünün tələbləri ilə səsləşir. Şeyx Əfqani həmçinin qeyd edirdi ki, Qərb öz təcrübəsində çağdaş Şərqə nisbətən daha çox əsl İslam normalarına və dəyərlərinə riayət edir.

Şeyx Cəmaləddin Əfqaninin İslamla bağlı islahatçılıq fəaliyyətinə XX əsr Hindistan xalqının milli azadlıq hərəkatının lideri Cəvahirləl Nehru yüksək qiymət verərək demişdir: “XIX əsrdə Misirdə ən böyük reformist Seyid Cəmaləddin olmuşdur. O, elə bir dini rəhbər idi ki, İslamı yeni dünyanın zərurətləri ilə uyğunlaşdıraraq yeniləşdirdi. Seyid Cəmaləddin deyirdi ki, tərəqqinin bütün formalarını İslam dini ilə uyğunlaşdırmaq mümkündür. Onun İslam dinini dirçəltməsi sahəsindəki səyinin və onu yeniləşdirməsinin Hindistanda hindu ayininin yeniləşdirilməsi ilə çox oxşarı vardır”.

Şeyx Cəmaləddin Əfqaninin və digər görkəmli dini liderlərin İslam dəyərləri ilə ümumbəşəri demoktatik dəyərləri

uyğunlaşdırmaq yolunda islahatçılıq cəhdləri uğursuzluqla nəticələnməsinə baxmayaraq son onilliklərdə müsəlman aləminin mütərəqqi yönlü dini liderləri İslam qaynaqlarındakı demokratik müddəalardan əməli şəkildə faydalanmağa və İslamda demokratiyanın köklərini axtarmağa başladılar. İslamı Quranda və sünnədə olduğu kimi bütünlüklə qəbul edən islahatçıların yeni nəslinin nümayəndələri Quranın dəyişməz mətni ilə dəyişkən həyat şəraiti arasında uyğunlaşma aparmağa çalışırlar. Onlar belə hesab edirlər ki, dövlət dini, cəmiyyət isə plüralist olmalıdır.

Nüfuzlu İslam mütəfəkkirlərindən biri olan İran professoru Əbdülkərim Sürüş yazır ki, "İslam və demokratiya nəinki bir araya gələ bilər, onların birliyi həyati zərurətdir". "Əsl dindar olmaq üçün insan ilk növbədə azad olmalıdır". "Cəza hədəsi ilə qəbul edilən inam həqiqi inam ola bilməz. Dindar öz dinindən imtina etmək hüququna da malik olmalıdır. Demokratiyanın əsası da bundan ibarətdir". Oxşar fikri Oman sultanı Kabus Hollandiya qəzetlərindən birinə verdiyi müsahibəsində (fevral 1993-cü il) qeyd etmişdir: "İslam mahiyyətcə demokratikdir. Biz imkanların bərabərliyinə inanırıq. Biz inanırıq ki, həm dünyəvi, həm də dini rəhbərlərimiz Allah qarşısında məsuliyyət daşıyırlar. Biz inanırıq ki, vətəndaşların öz fikirlərini sərbəst ifadə etmək hüququ olmalıdır. İslamın əsl mahiyyəti də elə bundan ibarətdir".

Müasir İslam ölkələrinin möhkəm birliyinin yaradılması başlıca vəzifələrdən biridir. İslam həmrəyliyinin möhkəmləndirilməsi islamafobiyaya qarşı aparılan dinc mübarizə formasıdır.

İslam həmrəyliyinin vacibliyi ilə bağlı Prezident İlham Əliyev demişdir: "Azərbaycan islam həmrəyliyinin güclənməsi üçün çox böyük səylər göstərir, ciddi addımlar atır. Azərbaycan müxtəlif ölkələrdə baş qaldıran islamafobiyaya qarşı çox ciddi mübarizə aparır. Biz açıq şəkildə müxtəlif səviyyələrdə, ən yüksək səviyyələrdə bu məsələ ilə bağlı öz sözümüzü deyirik, islamafobiyanı pisləyirik və öz nümunəmizi təqdim edirik. İslamafobiya həm müsəlman ölkələri və xalqları, eyni zamanda, bu cür çirkin meyllərə rəvac verənlər üçün də təhlükəlidir. Bu, qarşıdurmanı daha da dərinləşdirir, qarşılıqlı inamsızlığı artırır.

Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi, sülh şəraitində yaşayırlar. Biz qardaşlıq, dostluq şəraitində yaşayırıq. Nümayiş etdiririk ki, multikulturalizm dəyərləri yaşayır və yaşamalıdır. Bildiyiniz kimi, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdir. BMT-nin Sivilizasiyalar Alyansının bu il Azərbaycanda Qlobal Forumunun nəticələri bir daha onu göstərir ki, Azərbaycan bu yolda çox böyük uğurlara imza atıb".

Son zamanlarda makro-mədəni səviyyədə, günümüzün qlobal problemləri kontekstində insanlıq konsolidasiyasının əsasını təşkil edən inteqrativ bir mədəniyyət növünün yaranmasına ehtiyac yaranmışdır. Nəticədə milli mədəniyyətlərin və dəyərlərin yaxınlaşması, kommunikasiya və mədəni əlaqələrin möhkəmləndirilməsi, elm və sənətin nailiyyətləri, sosial və siyasi fəaliyyətin yeni formaları müasir dünyada sürətlə yayılmağa və öz bütövlüyünü formalaşdırmağa başlamışdır.

Azərbaycanda multikulturalizm ölkəmizin siyasi imicinin əsas xüsusiyyətlərindən birinə çevrilmişdir. Bugün Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin ənənələrinin qorunması və yayılması ilə bağlı olduqca əhəmiyyətli layihələr həyata keçirir. Bu layihələri bir çox ölkələr arasında Azərbaycan mədəniyyətinin inkişaf etdirilməsini və dünyada fəaliyyət göstərən din və mədəniyyətlərin müxtəlifliyi kontekstində həyata keçirir.

2008-ci ildən başlayaraq multikultural ənənələrin möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində Azərbaycanın ciddi töhfələri aydın müşahidə olunur. Belə ki, 2008-ci ildə "Bakı prosesi" başlamışdır. İlk dəfə olaraq İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirləri Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına dəvət edilmişlər.

Multikulturalizm dövlət siyasətinin ən vacib sahələrindən biridir. Multikulturalizmin dövlət siyasətinin əsas komponentlərindən biri kimi qiymətləndirilməsi nəticəsində 2014-cü il mayın 15-də Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ölkəmizin millətlərarası, konfessiyalararası və mədəniyyətlərarası

münasibətlər sahəsində təcrübəsini öyrənmək və inkişaf etdirmək üçün müxtəlif layihələr həyata keçirir.

Azərbaycanın dövlət siyasəti olan multikulturalizm hər bir şəxs üçün qarşılıqlı anlaşma və hörmətin təmin olunması məqsədini özündə cəmləyir. Şərqi Avropa ilə Qərbi Asiya arasındakı özünəməxsus yeri və onun sosial-siyasi konteksti Azərbaycanı xarici siyasətində multikulturalizm siyasətini strateji vasitəsi kimi qəbul etməyə yönəldirdi. Bugün Azərbaycanda 649-dan çox qeydiyyatdan keçmiş dini icmalar var, bunlardan 37-i qeyri-islamidir. 13 fəaliyyət göstərən kilsə var. Roma Katolik icması 2 aprel 1999-cu ildə (Ədliyyə Nazirliyində) qeydiyyatdan keçmişdir. Azərbaycan hökuməti ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış sazişə əsasən, 2007-ci ildə Bakı şəhərində Roma Katolik Kilsəsi tikilmişdir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə Azərbaycan Respublikasında multikulturalizm siyasətinin, eyni zamanda Azərbaycan xalqının tolerantlığını, dinindən, irqindən, milliyyətindən asılı olmayaraq hər kəsə göstərdiyi təqdirəlayiq münasibət nəinki azərbaycanlılar, hətta xarici alimlər, elm xadimləri, siyasət nümayəndələri və tələbələr tərəfindən bütün dünyaya çatdırılır. Bununla bağlı olaraq Azərbaycan Respublikasının Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkil etdiyi dəyirmi masalarda, o cümlədən yay və qış məktəblərində dünyanın qabaqcıl universitetlərdən gələn tələbələr Azərbaycan xalqının tolerantlığı, bölgələrdə yaşayan müxtəlif dinlərə mənsub xalqların həyat tərzi, ibadət evləri, dinləri ilə bağlı olan və qədim zamandan indiyədək dövlətimiz tərəfindən qorunan tarixi abidələrlə əyani şəkildə tanış olmuş, Azərbaycan Respublikasında multikulturalizm dəyərlərini dərindən öyrənmişlər.

Azərbaycan Respublikası müxtəlif dinlərin və xalqların nümayəndələrinin qardaşlıq mühitində yaşadığı bir ölkədir. Tarixin bütün dövrlərində Azərbaycan xalqı dünyaya tolerantlıq nümunəsi olmuşdur. Multikulturalizm Azərbaycan Respublikasında həm dövlət siyasəti, həm də bir həyat tərzidir.

Son illərdə Azərbaycanda müxtəlif mövzularda nüfuzlu beynəlxalq tədbirlər, zirvə toplantıları, beynəlxalq konfranslar keçirilmişdir və Bakı beynəlxalq əməkdaşlıq mərkəzlərindən birinə

çevrilmişdir. Buna misal olaraq, Bakıda indiyədək 2011-ci ildən keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunu, Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumunu (UNAOC, UNESCO, BMT-nin Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESKO ilə birgə), 2015-ci ildə Avropa Oyunlarını, BMT-nin Mədəniyyətlər İttifaqının 7-ci Qlobal Forumunu (25-27 aprel 2016), 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarını, Dünya dini liderlərinin II Bakı Sammitini (14 noyabr 2019) və s. göstərmək olar.

Multikulturalizm siyasətinin dövlətin strategiyasına uyğun özünəməxsus şəkildə həyata keçirilməsi, ölkənin etnik, dini-mədəni müxtəlifliyini qorumaq və Azərbaycanı dünyaya multikulturalizm mərkəzi kimi tanıtmaq məqsədi ilə 15 may 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Bugün multikulturalizm siyasəti istiqamətində əldə edilmiş uğurları və zəngin təcrübəsi ilə Azərbaycan dünyanın bir çox ölkələri, o cümlədən Qərb ölkələri üçün tanınan bir nümunədir.

Azərbaycan millətinin mədəniyyətində və milli xarakterindəki demokratiya ruhu Qərb demokratik mədəniyyətinin ümumbəşəri prinsiplərinə çox yaxın və uyğun olduğuna görə Azərbaycan keçid dövründə 1918-ci ildə yaradılmış və 1920-ci ildə bolşeviklər tərəfindən süquta uğradılmış demokratik dövlətçilik ənənələrini və milli-mənəvi dəyərlərini sovet imperiyasının dağılmasından sonra daha asan bərpa edə bildi. Bu da təsadüfi hal deyil, Azərbaycanın dərin köklərə malik olan milli-mənəvi dəyərləri və İslam dəyərlərindəki humanist, demokratik xarakterli keyfiyyətləri ilə bağlıdır.

Beləliklə, demokratik dəyərlərlə İslam dini dəyərlərinin vəhdəti Azərbaycan millətinin təbii, anadangəlmə ruhuna xas olan bir keyfiyyətdir, xüsusiyyətdir. Buna görə də demokratikləşmənin Azərbaycan yolunun daha uğurlu və səmərəli olmasına təsir edən amillər içərisində milli-mənəvi, mədəni, dini dəyərlər və demokratiya yönümlü ənənələr xüsusi əhəmiyyətə malikdir. Bütün bunların əsasında isə demək olar ki, Azərbaycanda müsəlman ölkələri üçün nümunə ola biləcək demokratiyanın Azərbaycan modelinin formalaşmasının möhkəm əsası qoyulmuşdur. Bugün Azərbaycanda mövcud olan multikultural və dini tolerantlıq

dəyərləri ilə demokratik dəyərlərin vəhdəti çoxmillətli və çoxkonfessiyalı dünya dövlətləri üçün gözəl bir nümunədir.

## Mövzu üzrə mühazirə və seminar planı

1. XX əsrin sonlarında Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai–siyasi fikir
2. XX əsrin sonlarında Azərbaycanda ictimai–siyasi şərait
3. Ümummilli lider Heydər Əliyevin ikinci hakimiyyəti dövründə milli dövlət quruculuğu və islahatçılıq fəaliyyəti
4. Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində və inkişaf etdirilməsində Prezident İlham Əliyevin islahatçılıq fəaliyyəti
5. Azərbaycan Respublikasında ideoloji və siyasi plüralizm şəraitində müxtəlif ictimai–siyasi baxışların meydana gəlməsi və çoxpartiyalılıq
6. 1991-ci ildə müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycanın ictimai–siyasi fikir tarixi ilə bağlı dərc olunmuş tədqiqat əsərləri
7. Azərbaycan dövlətinin multikulturalizm və tolerantlıq siyasəti

## Azərbaycanın siyasi təlimlər tarixi fənni üzrə imtahan sualları

1. Azərbaycanın siyasi təlimlər tarixi fənninin predmeti və tədqiqat sahəsi
2. Azərbaycanın siyasi təlimlər tarixinin dövrləşdirilməsi və mərhələləri
3. Azərbaycanın siyasi təlimlər tarixinin ictimai və humanitar elmlərlə qarşılıqlı əlaqəsi
4. Azərbaycanın şifahi xalq ədəbiyyatında siyasi ideyaların yaranması
5. Miflər, əfsanələr, dastanlar, nağıl və rəvayətlərdə xalqın ictimai-siyasi baxışlarının əks olunması
6. Adət və ənənələrin ictimai–siyasi fikrin formalaşmasına təsiri
7. "Astiaq" və "Tomiris" əfsanələrində müharibə və sülh məsələləri
8. "Avesta" Azərbaycan xalqının ictimai–siyasi baxışlarının öyrənilməsində başlıca mənbə kimi
9. "Avesta"da dövlətin və cəmiyyətin idarə olunması
10. "Avesta"da müharibə və sülh məsələsi
11. "Avesta"da ailə-nigah münasibətləri, təhsil və tərbiyə məsələləri
12. "Avesta"da iqtisadi həyat və cəmiyyətin sosial strukturu
13. "Kitabi–Dədə Qorqud" eposu Azərbaycanın ictimai–siyasi fikir tarixinin öyrənilməsində qiymətli mənbə kimi
14. "Kitabi–Dədə Qorqud" dastanında Azərbaycan xalqının ictimai–siyasi baxışlarının əks olunması
15. "Kitabi–Dədə Qorqud" eposunda insan, cəmiyyət və dövlət məsələləri
16. Azərbaycanın ilk dövlət qurumlarında ictimai-siyasi ideyaların meydana gəlməsi
17. Azərbaycanın cənub hissəsində meydana gələn qədim Aratta, Lullubi və Kuti dövlət qurumlarında ictimai-siyasi ideyalar
18. Manna və Midiya dövlətlərində cəmiyyət həyatının formalaşmasında ictimai–siyasi fikrin rolu
19. Atropatenanın və Albaniyanın sosial, iqtisadi və mədəni inkişafına ictimai–siyasi ideyaların təsiri

20. Azərbaycanda İslama qədərki dövrdə ictimai–siyasi ideyalar
21. Mani təlimində sosial-siyasi fikirlər
22. Məzdəkilər təliminin sosial-siyasi mahiyyəti
23. Albaniyada xristianlığın yayılması və onun cəmiyyətin ictimai-siyasi həyatında rolu
24. VII–X əsrlərdə Azərbaycanda İslam dininin yayılması nəticəsində yaranan yeni ictimai–siyasi təlimlər
25. VII–X əsrlərdə Azərbaycanda ictimai-siyasi ideyalar
26. İslam dininin Azərbaycanda yayılması və onun sosial-siyasi mahiyyəti
27. İslam dinində yaranan ictimai–siyasi təlimlər
28. Quranın ictimai-siyasi mahiyyəti
29. Mötəzililik təliminin ictimai-siyasi mahiyyəti
30. Mütəkəllimlər təliminin dini-siyasi mahiyyəti
31. İsmaililik təliminin ictimai-siyasi mahiyyəti
32. Sufizm təliminin ictimai-siyasi cəhətləri
33. "Saflıq qardaşları və vəfa munisləri" təşkilatının ictimai-siyasi fəaliyyəti
34. Azərbaycanda pavlikian hərəkatı
35. Xürrəmilər hərəkatının ictimai-siyasi ideyaları
36. Azərbaycan xalqının yaranması və formalaşması
37. XI–XIV əsrlərdə Azərbaycanda ictimai–siyasi təlimlərin inkişafı
38. XI–XII əsrlərdə ictimai-siyasi təlimlər
39. Eynəlqüzat Miyanəcinin baxışlarında insan azadlığı ideyası
40. Əfzələddin Xaqani Şirvaninin ictimai–siyasi dünyagörüşü
41. Nizami Gəncəvinin ictimai–siyasi ideyaları
42. XIII–XIV əsrlərdə siyasi fikir
43. Əvhədi Marağayinin siyasi dünyagörüşü
44. XIII–XIV əsrlər Azərbaycan hüquqşünas və filosoflarının ictimai-siyasi dünyagörüşləri
45. Siracəddin Urməvinin sosial-siyasi ideyaları
46. Nəsirəddin Tusinin dövlət idarəçilik nəzəriyyəsi
47. XV–XVIII əsrlərdə Azərbaycanda siyasi ideyaların inkişaf xüsusiyyətləri
48. XV–XVI əsrlərdə Azərbaycanda ictimai–siyasi tərəqqi, elm, incəsənət və ədəbiyyatın kamil dövrü

49. Hürufiliyin sosial-siyasi mahiyyəti: Fəzlullah Nəiminin və İmadəddin Nəsiminin baxışlarında humanizm
50. Məhəmməd Füzulinin yaradıcılığında insan, cəmiyyət və dövlət məsələləri ilə bağlı ictimai–siyasi ideyalar
51. Şah İsmayıl Xətainin yaradıcılığında dövlətçiliyin möhkəmləndirilməsi ilə bağlı ictimai–siyasi baxışlar
52. XVII–XVIII əsrlərdə rəsmi dövlət sənədlərində ictimai–siyasi ideyalar
53. XVII–XVIII əsrlərdə yaşamış mütəfəkkirlərin ictimai-siyasi baxışları
54. Saib Təbrizinin XVII əsr Azərbaycanın ictimai–siyasi fikir tarixində yeri
55. Hacı Zeynalabdin Şirvaninin utopik dövlət yaratmaq ideyası
56. XIX əsrdə ictimai-siyasi fikrin inkişafında maarifçiliyin rolu
57. XIX əsrdə Azərbaycanda maarifçiliyin meydana gəlməsini şərtləndirən ictimai–siyasi amillər
58. XIX əsrin birinci yarısında ictimai-siyasi fikrin inkişafına maarifçiliyin təsiri
59. Mirzə Cəfər Topçubaşovun siyasi baxışları
60. Abbasqulu ağa Bakıxanovun ictimai-siyasi ideyaları
61. Mirzə Şəfi Vazehin əsərlərində dövrün ictimai siyasi ideyaları və motivlərinin əks olunması
62. Mirzə Kazım bəyin XIX əsrdə Azərbaycanın ictimai-siyasi fikrinin inkişafında yeri
63. İsmayıl bəy Qutqaşınlının maarifçilik dünyagörüşü
64. Mirzə Fətəli Axundovun sosial-siyasi baxışları
65. Şeyx Cəmaləddin Əfqaninin maarifçilik və demokratik islahatçılıq fəaliyyəti
66. Həsən bəy Zərdabinin ictimai-siyasi baxışları
67. XIX əsrin sonları – XX əsrin əvvəllərində milli şüurun və millətin formalaşmasına mətbuatın təsiri
68. XIX əsrin sonları – XX əsrin əvvəllərində ictimai–siyasi fikrin formalaşmasında milli burjuaziyanın və ziyalıların rolu
69. “Füyuzat” və “Molla Nəsrəddin” jurnallarının milli–siyasi oyanışa təkanverici təsiri
70. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanın ictimai–siyasi fikrinə türkçülük və islamçılıq ideyalarının təsiri

71. Əlibəy Hüseynzadənin ictimai-siyasi baxışlarında türkçülük, islamçılıq və müasirlik
72. Əhməd bəy Ağaoğlunun ictimai-siyasi baxışları
73. XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai təşkilatların və siyasi partiyaların formalaşması
74. XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə şəraitində ictimai–siyasi fikir
75. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fikir
76. 1918-ci ildə Azərbaycanın dövlətçiliyinin bərpasından sonra ictimai-siyasi şərait
77. Azərbaycan Xalq Cümhuriyyəti Parlament və hökumətinin elm, təhsil, mədəniyyət və demokratik cəmiyyət quruculuğu sahəsində gördüyü işlər
78. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının ictimai-siyasi baxışları
79. Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi ideyaları
80. Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyəti
81. Fətəli xan Xoyskinin dövlət quruculuğu fəaliyyəti
82. Nəsib bəy Yusifbəylinin Cümhuriyyət quruculuğunda xidmətləri
83. Mirzə Bala Məmmədzadənin ictimai-siyasi baxışları
84. Üzeyir bəy Hacıbəylinin ictimai-siyasi fəaliyyəti
85. Ceyhun bəy Hacıbəylinin ictimai-siyasi fəaliyyəti
86. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrdə ictimai-siyasi fikir
87. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet rejiminə qarşı müqavimət hərəkatı
88. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevizmə qarşı mübarizədə siyasi təşkilatların gizli fəaliyyəti
89. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətdə olan liderlərin siyasi fəaliyyəti
90. Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin mühacirət mətbuatında siyasi təbliğatı
91. XX əsrin birinci yarısında Cənubi Azərbaycanda milli–azadlıq hərəkatı və ictimai–siyasi fikir
92. XX əsrin birinci yarısında Cənubi Azərbaycanın ictimai–siyasi fikir tarixində milli azadlıq mübarizəsinin başlıca yer tutması

93. Səttar xanın başçılığı ilə Təbriz milli-azadlıq hərəkatının Cənubi Azərbaycanda xalqın ictimai–siyasi fikrinə təsiri
94. Şeyx Məhəmməd Xiyabaninin ictimai–siyasi baxışları və azadlıq ideyaları
95. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə yaradılan Cənubi Azərbaycan Milli Hökümətinin sosial–siyasi və mədəni quruculuq işləri
96. Sovet hakimiyyəti dövründə Azərbaycanda ictimai-siyasi fikir
97. Azərbaycanda sovet hakimiyyəti illərində ictimai–siyasi fikrin marksizm–leninizm təliminin təsiri altında inkişafı
98. Sovet hakimiyyəti dövründə Azərbaycanın fəlsəfi və ictimai–siyasi fikir tarixi ilə bağlı ayrı–ayrı əsərlərin və tədqiqat işlərinin yazılması
99. Ümumilli lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə milli-mənəvi dəyərlərin dirçəldilməsində və bərpa edilməsində gördüyü böyük işlər
100. XX əsrin sonlarında Azərbaycanda totalitar rejimin iflası, kommunist ideologiyasının süqutu və müstəqillik uğrunda mübarizə şəraitində ictimai–siyasi fikirdə oyanış
101. 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin ictimai-siyasi əhəmiyyəti
102. 1991-ci ildə Şimali Azərbaycanda müstəqilliyin və dövlətçiliyin bərpasından sonrakı dövrdə ictimai–siyasi fikir
103. XX əsrin sonlarında Azərbaycanda ictimai–siyasi şərait
104. Ümummilli lider Heydər Əliyevin ikinci hakimiyyəti dövründə milli dövlət quruculuğu və islahatçılıq fəaliyyəti
105. Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində və inkişaf etdirilməsində Prezident İlham Əliyevin islahatçılıq fəaliyyəti
106. Azərbaycan Respublikasında ideoloji və siyasi plüralizm şəraitində müxtəlif ictimai–siyasi baxışların meydana gəlməsi və çoxpartiyalılıq
107. 1991-ci ildə müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycanın ictimai–siyasi fikir tarixi ilə bağlı dərc olunmuş tədqiqat əsərləri
108. Azərbaycan dövlətinin multikulturalizm və tolerantlıq siyasəti

# AZƏRBAYCANIN SİYASİ TƏLİMLƏR TARİXİ
fənni üzrə
# TESTLƏR

**Sual 1. Azərbaycanın ictimai-siyasi fikir tarixinin predmeti.**

A) Cəmiyyətin ictimai-siyasi məsələlərini öyrənir.
B) Cəmiyyətin siyasi və sosial, iqtisadi məsələlərini öyrənir.
C) Cəmiyyətin sosial-iqtisadi və siyasi məsələlərini öyrənir.
D) Cəmiyyətin mənəvi, psixoloji və sosioloji məsələlərini öyrənir.
E) Cəmiyyətin psixoloji, sosioloji və siyasi məsələlərini öyrənir.

**Sual 2. Azərbaycanın ictimai-siyasi fikir tarixinin obyekti.**

A) Cəmiyyətin ictimai-siyasi sahəsidir
B) Cəmiyyətin sosial-iqtisadi sahəsidir.
C) Cəmiyyətin sosial, iqtisadi və siyasi sahəsidir.
D) Cəmiyyətin mənəvi, sosial, siyasi və psixoloji sahəsidir
E) Cəmiyyətin etik, estetik və siyasi sahəsidir.

**Sual 3. Azərbaycanın ictimai-siyasi fikir tarixi hansı elmlərlə qarşılıqlı əlaqədədir?**

A) Sosial və humanitar elmlərlə qarşılıqlı əlaqədədir.
B) Humanitar və texniki elmlərlə qarşılıqlı əlaqədədir.
C) Texniki və dəqiq elmlərlə qarşılıqlı əlaqədədir.
D) Təbiət, cəmiyyət və dəqiq elmlərlə qarşılıqlı əlaqədədir.
E) Sosial, humanitar və texniki elmlərlə qarşılıqlı əlaqədədir.

**Sual 4. Azərbaycanın ictimai-siyasi fikir tarixinin öyrənilməsi mənbələri və qaynaqları.**

A) Miflər, əfsanələr, dastanlar, nağıllar, eposlar, tarixi əsərlər və xronikalar, ictimai-siyasi xadimlərin əsərləri, görüşləri və ideyaları.
B) Tarixi, etnoqrafik, demoqrafik və texniki mənbələr.
C) Sosial-iqtisadi, riyazi və fiziki mənbələr.
D) Coğrafi, tibbi, astronomik və iqtisadi mənbələr.
E) İctimai-siyasi, riyazi, texniki və bioloji mənbələr.

**Sual 5. Hansı qədim epos Azərbaycanın ictimai-siyasi fikir tarixinin öyrənilməsində qiymətli mənbədir?**
A) “Kitabi-Dədə Qorqud” dastanı.
B) “Avesta” dini kitabı.
C) “Astiaq” əfsanəsi.
D) “Bilqamıs haqqında dastan”.
E) “Manas” dastanı.

**Sual 6. Hansı dini, ədəbi və ictimai-siyasi abidə Azərbaycanın ictimai-siyasi fikir tarixinin öyrənilməsində dəyərli mənbədir?**
A) “Avesta”.
B) “Tomris”.
C) “Astiaq”,
D) “Kitabi-Dədə Qorqud”.
E) “Koroğlu”.

**Sual 7. Zərdüştlüyün və “Avesta”nın vətəni haradır?**
A) Azərbaycan.
B) İran.
C) Mesopotamiya.
D) Tacikistan.
E) Hindistan.

**Sual 8. “Avesta” hansı əlifba ilə yazılmışdır?**
A) Arami.
B) Ərəb.
C) Şumer.
D) Fars.
E) Hind.

**Sual 9. “Ədalət insanlar sevinən zaman zəfər çalır” ifadəsi hansı ədəbi-bədii abidədə verilmişdir?**
A) “Avesta”da.
B) “Kitabi-Dədə Qorqud” dastanında.
C) “Astiaq” əfsanəsində.
D) “Koroğlu” dastanında.
E) “Zərdüştnamə”də.

**Sual 10. "Avesta"ya görə dövlət başçısı:**
A) Həm də dini rəhbərdir.
B) Həm də sərkərdədir.
C) Həm də vəzirdir.
D) Həm də döyüşçüdür.
E) Həm də maqdır.

**Sual 11. Azərbaycanda islamaqədər hansı dini təlimlər olmuşdur?**
A) manilik, məzdəkilik, xristianlıq, zərdüştlik.
B) məzdəkilik, zərdüştlik, buddizm, xristianlıq.
C) manilik, zərdüştlik, iudaizm, buddizm.
D) tanrıçılıq, manilik, zərdüştlik, xristianlıq.
E) buddizm, xristianlıq, zərdüştlik, pravoslavlıq.

**Sual 12. "Aləmin başlanğıcı iki varlıqdır: biri işıq, digəri qaranlıq" ifadəsi kimindir?**
A) Maninin.
B) Zərdüştün.
C) Məzdəkin.
D) Astiaqın.
E) Tomrisin.

**Sual 13. Mani özünü kimlərin varisi adlandırırdı?**
A) Buddanın, Zərdüştün, İsanın.
B) İsanın, Brahmanın, Zərdüştün.
C) Zərdüştün, İsanın, Papanın.
D) Xəlifənin, İsanın, Zərdüştün.
E) Zərdüştün, İsanın, Maqın.

**Sual 14. "Allah öz nemətlərini ondan ötrü yaradıb ki, insanlar onu öz aralarında bərabər bölsünlər" sözləri kimindir?**
A) Məzdəkin.
B) Zərdüştün.
C) İsanın.
D) Buddanın.
E) Maninin.

**Sual 15. Azərbaycanını ilk dövlət qurumları hansılardır?**
A) Aratta, Lullubi, Kuti, Manna, Atropatena, Albaniya.
B) Manna, Midiya, Əhəmənilər, Sasanilər.
C) Atropatena, Parfiya, Sasanilər, Selevkilər.
D) Albaniya, Atropatena, Əhəmənilər, Midiya.
E) Lullubi, Kuti, Parfiya, Şumerlər, Sasanilər.

**Sual 16. İslam dini hansı dini sıxışdırıb aradan qaldırdı?**
A) Zərdüştlüyü.
B) Xristianlığı.
C) Buddizmi.
D) Tanrıçılığı.
E) İudaizmi.

**Sual 17. Pavlikian hərəkatı nəyə qarşı yönəlmişdir.**
A) Xristianlığın və kilsənin vergi siyasətinə qarşı.
B) Ərəblərin vergi siyasətinə qarşı.
C) Sasanilərin vergi siyasətinə qarşı.
D) Monqolların vergi siyasətinə qarşı.
E) Əhəmənilərin vergi siyasətinə qarşı.

**Sual 18. Xürrəmilərin ideyası və sosial proqramı özlərindən əvvəlki hansı təlimlərə əsaslanırdı?**
A) Zərdüştlüyə, Maniliyə, Məzdəkiliyə.
B) Brahmanizmə, Pavlikianlığa, Xristianlığa.
C) Maniliyə, Pavlikianlığa, Zərdüştlüyə.
D) Məzdəkiliyə, Pavlikianlığa, Zərdüştlüyə.
E) Xristianlığa, Maniliyə, Pavlikianlığa.

**Sual 19. Xürrəmilər nəyə qarşı çıxırdılar?**
A) İslama, ərəb zülmünə, feodal istismarına.
B) Sasani zülmünə, xristianlığa, zərdüştlüyə.
C) Əhəməni zülmünə, islama, zərdüştlüyə.
D) Monqol zülmünə, maniliyə. Pavlikianlığa.
E) Xristianlığa, ərəb zülmünə, məzdəkiliyə.

**Sual 20. Sufizmə görə insan Allaha qovuşmaq üçün hansı pillələrdən keçməlidir?**

A) Şəriət, təriqət, mərifət, həqiqət.
B) Təriqət, şəriət, mərifət, həqiqət.
C) Mərifət, təriqət, şəriət, həqiqət.
D) Həqiqət, mərifət, təriqət, şəriət.
E) Həqiqət, mərifət, şəriət, təriqət.

**Sual 21. "Mülk yalnız adamlarla, adamlar yalnız sərvətlə, sərvət yalnız quruculuqla, quruculuq isə yalnız ədalət və siyasət (idarəetmə) ilə olur" fikri kimindir?**

A) Siracəddin Urməvi.
B) Nizami Gəncəvi.
C) Məhəmməd Füzuli.
D) Nəsrəddin Tusi.
E) Əbülhəsən Bəhmənyar.

**Sual 22. "Siyasətnamə" əsərinin müəllifi kimdir?**

A) Nizamülmülk.
B) Nəsrəddin Tusi.
C) Mahmud Şəbustəri.
D) Rəşidəddin.
E) Şihabəddin Sührəvərdi.

**Sual 23. Hürufiliyin nümayəndələri kimlərdir?**

A) Fəzlulah Nəimi, İmadəddin Nəsimi.
B) Şihabəddin Sührəvərdi, Əvhədi Marağayi.
C) Zulfüqar Şirvani, İbrahim Urməvi.
D) Mahmud Şəbustəri, Əfzələddin Xunəci.
E) Şəmsəddin Xoylu, Mahmud Şəbustəri.

**Sual 24. İşraqilik fəlsəfəsinin əsasını kim qoymuşdur?**

A) Şihabəddin Sührəvərdi.
B) Eynəlqüzad Miyanəci.
C) Xətib Təbrizi.
D) Əbuhəfs Sührəvərdi.
E) Əbdülqadir Sührəvərdi.

**Sual 25 Şihabəddin Sührəvərdinin işraqilik təlimi hansı əsərində verilmişdir?**

A) “İşıq heykəllər” əsərində.
B) “Filosofların görüşləri” əsərində.
C) “Siyasətnamə” əsərində.
D) “Cavidnnamə” əsərində.
E) “Əxlaqi-Nasiri” əsərində.

**Sual 26. “Xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl” hansı dini-ədəbi mənbədə verilmişdir?**

A) “Avesta”da.
B) Quranda.
C) Tövratda.
D) Bibliyada.
E) İncildə.

**Sual 27. N.Tusi dövlətçilik nəzəriyyəsini hansı əsərində verib?**

1. “Əxlaqi-Nasiri” əsərində.
2. “Siyasətnamə” əsərində.
3. “Cami-cəm” əsərində
4. “Cavidannamə” əsərində.
5. “İskəndərnamə” əsərində.

**Sual 28. N.Tusi cəmiyyəti hansı təbəqələrə ayırıb?**

A) “Qələm əhli”, “qılınc əhli”, “iş adamları”, “təsərrüfat adamları”.
B) “Qələm əhli”, “ticarət əhli”, “din adamları”, “maldarlar”.
C) “Əkinçilər”, “maldarlar”, “döyüşçülər”, “alimlər”.
D) “İş adamları”, elm adamları”, “mühəndislər”, “həkimlər”.
E) “Qələm əhli”, “elm əhli”, “təsərrüfat əhli”, “döyüşçülər”.

**Sual 29. Nəsirəddin Tusi dövlət idarəetməsini hansı formalara ayırıb?**

A) Xeyirxah idarəetmə, bədxah idarəetmə.
B) Demokratik idarəetmə, monarxiya.
C) Respublika, monarxiya.
D) Aristokratiya, plutokratiya.
E) Demokratiya, aristokratiya.

**Sual 30. Nəsirəddin Tusi xeyirxah idarəetməyə əsaslanan dövləti necə adlandırıb?**

A) İdeal dövlət.
B) Rəsmi dövlət.
C) Utopik dövlət.
D) Aristokratiya.
E) Demokratiya.

**Sual 31. Nəsirəddin Tusi bədxah dövləti hansı tiplərə ayırıb?**

A) "Cahil", "kafir", "nöqsanlı".
B) "Aqil", "nöqsanlı", "mürtəce".
C) "Kafir", "cahil", "tiran".
D) "Tiran", "cahil", "kafir".
E) "Kafir", "cahil", "mürtəce".

**Sual 32. Nəsirəddin Tusi siyasəti hansı formalara ayırmışdır?**

A) Xeyirxah siyasət, bədxah siyasət.
B) Düzgün siyasət, səhv siyasət.
C) Ədalətli siyasət, ədalətsiz siyasət.
D) Xarici siyasət, daxili siyasət.
E) Beynəlxalq siyasət, daxili siyasət.

**Sual 33. Nəsirəddin Tusi müharibəni hansı formalara ayırıb?**

A) Ədalətli və ədalətsiz.
B) Təcavüzkar və sülhsevər.
C) Qorxulu və qorxusuz.
D) Xarici və daxili
E) Mütərəqqi və mürtəce.

**Sual 34. Əvhədi Marağalının ictimai-siyasi baxışları hansı əsərlərində verilib?**

A) "Dəhnamə" və "Cəmşid camı".
B) "Siyasətnamə" və "Zərdüştnamə".
C) "Əxlaqi-nasir" və "Dəhnamə".
D) "Cəmşid-camı" və "Siyasətnamə".
E) "Dəhnamə" və "İqbalnamə".

**Sual 35. İmadəddin Nəsimi hansı cərəyanın nümayəndəsidir?**
A) Hürufiliyin.
B) Sufizmin.
C) Xəlvətiliyin.
D) İsmailiyin.
E) Şiəliyin.

**Sual 36. Məhəmməd Füzulinin ictimai-siyasi fikirləri hansı əsərlərində verilib?**
A) "Şikayətnamə" və "Bəngü-Badə".
B) "Dəhnamə" və "Şikayətnamə".
C) "Leyli və Məcnun" və "Padşahi-mülk".
D) "Fərhad və Şirin" və "İskəndərnamə".
E) "Sirlər xəzinəsi" və "Şikayətnamə".

**Sual 37. Şah İsmayıl Xətai hansı Azərbaycan dövlətinin yaradıcısıdır?**
A) Səfəvilər.
B) Ağqoyunlular.
C) Qaraqoyunlular.
D) Atabəylər.
E) Elxanilər.

**Sual 38. I Şah Abbasın ictimai-siyasi dünyagörüşü dövrün hansı sənədlərində verilmişdir?**
A) "Tarix aləm arayi Abbasi" və "Came və Abbas".
B) "Koroğlu" və "Came və Abbas".
C) "Tarix aləm arayi Abbasi" və "Alban tarixi".
D) "Təzkirat əl-mülk" və "Xaqan tayfaları".
E) "Dəstur əl-amal" və "Came və Abbas".

**Sual 39. İskəndər Münşinin ictimai-siyasi baxışları hansı əsərində verilib?**
A) "Tarix aləm arayi Abbasi".
B) "Came və Abbas".
C) "Dəstur əl-amal".
D) "Xaqan tayfaları".
E) "Alban tarixi".

**Sual 40. XVIII əsrin sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti həmin dövrün hansı mənbələrində verilmişdir?**

A) “Dəstur əl-amal”, “Caro-Tal qanunnaməsi”, “İrəvan əyalətinin qısa dəftəri”, “Naxçıvan sancağının müfəssəl dəftəri”, “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”.

B) “Dəstur əl-amal”, “Caro-Tal qanunnaməsi”, “Qarabağnamə”, “Xaqan tayfaları”.

C) “Caro-Tal qanunnaməsi”, “Gülüstani-İrəm”, “Qarabağnamə”, “Kəmalüddövlə məktubları”.

D) “İrəvan əyalətinin qısa dəftəri”, “Naxçıvan sancağının müfəssəl dəftəri”, “Gülüstani-İrəm”, “Qarabağnamə”.

E) “Naxçıvan sancağının müfəssəl dəftəri”, “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”, “Kəmalüddövlə məktubları”, “Şəki xanlarının tarixi”.

**Sual 41. XVIII əsrdə Azərbaycanın dövlət strukturu, məhkəmə sistemi, inzibati və hərbi quruluşu və vergi sistemi haqqında zəngin məlumatlar hansı sənəddə verilib?**

A) “Təzkirat əl-mülk”.

B) “Gülüstani-İrəm”.

C) “Xaqan tayfaları”.

D) “Siyasətnamə”.

E) “Qarabağnamə”.

**Sual 42. Yusif Məhəmmədcan Qarabağinin ictimai-siyasi baxışları hansı əsəsrində verilib?**

A) “Anlaşılmazlıqların aradan qaldırılmasında haşiyələrin tamamlanması”.

B) “Qarabağnamə”.

C) “Tarixi Qarabağ”.

D) “Şəki xanlarının tarixi”.

E) “Gülüstani-İrəm”.

**Sual 43. "Dünya əhlinin danışıqlarının və xalqların tayfalarında müxtəlif məzhəblərin bəyanına dair xülasə", "Həqiqətlərdən seçmələr və incəliklərdə əsas mətləb" və "Xaqan tayfaları" traktatlarının müəllifi kimdir?**

A) Məhəmməd Əmin Sədrəddin oğlu Şirvani.
B) Məhəmməd Əli-Saib Təbrizi.
C) Yusif Məhəmmədcan oğlu Qarabaği.
D) Abbasqulu ağa Bakıxanov.
E) Hacı Zeynalabdin İsgəndər oğlu Şirvani.

**Sual 44. XVIII əsrin ictimai-siyasi hadisələri həmin dövrün hansı Azərbaycan şairlərinin əsərlərində öz əksini tapmışdır?**

A) Molla Vəli Vidadi və Molla Pənah Vaqif.
B) Qasım bəy Zakir və Mirzə Şəfi Vazeh.
C) Abbasqulu ağa Bakıxanov və Seyid Əzim Şirvani.
D) Mirzə Ələkbər Sabir və Abbas Səhhət.
E) Mirzə Şəfi Vazeh və Mirzə Fətəli Axundov.

**Sual 45. Hacı Zeynalabdin İsgəndər oğlu Şirvaninin ictimai-siyasi baxışları hansı əsərlərində verilib?**

A) "Səyahət çəməni", "Səyahət bağları", "Səyahət gülləri".
B) "Səyahətnamə", "Qarabağnamə", "Səyahət gülləri".
C) "Səyahət çəməni", "Qarabağnamə", "İqbalnamə".
D) "Səyahət babları", "Xaqan tayfaları", "Came və Abbas".
E) "Gülüstani-İrəm", "Qobusnamə", "Tutinamə".

**Sual 46. XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşamış hansı Azərbaycan mütəfəkkiri utopik dövlət yaradılması ideyasını irəli sürmüşdür?**

A) Hacı Zeynalabdin İsgəndər oğlu Şirvani.
B) Mirzə Şəfi Vazeh.
C) Abbasqulu ağa Bakıxanov.
D) Mirzə Fətəli Axundov.
E) İsmayil bəy Qutqaşınlı.

**Sual 47. XIX əsrdə yaşamış hansı Azərbaycan tarixçisi "Qarabağ xanlığının 1747–1805-ci illərdə siyasi mövcudluğu haqqında" əsərini yazıb?**

A) Əhməd bəy Cavanşir.
B) Əbdül Lətif Əfəndi.
C) Mirzə Camal Qarabaği.
D) Mirzə Adıgözəl bəy.
E) Abbasqulu ağa Bakıxanov.

**Sual 48. XIX əsr Azərbaycan tarixçisi Əhməd bəy Cavanşir hansı əsərin müəllifidir?**

A) "Qarabağ xanlığının 1747–1805-ci illərdə siyasi mövcudluğu haqqında".
B) "Qarabağnamə".
C) "Şəki xanlarının tarixi".
D) "Gülüstani-İrəm".
E) "Tarixi-aləm arayi-Abbasi".

**Sual 49. "Şəki xanlarının tarixi" əsərinin müəllifi kimdir?**

A) Əbdül Lətif Əfəndi.
B) Əhməd bəy Cavanşir.
C) Mirzə Camal Qarabaği.
D) A.Bakıxanov.
E) Mir Möhsün Nəvvab.

**Sual 50. XIX əsr Azərbaycan tarixçisi Əbdül Lətif Əfəndinin əsərinin adı nədir?**

A) "Şəki xanlarının tarixi".
B) "Tarixi Qarabağ".
C) "Qarabağnamə".
D) "Tarixi-aləm arayi-Abbasi".
E) "Gülüstani-İrəm".

**Sual 51. XIX əsrin hansı Azərbaycan tarixçiləri "Qarabağnamə" adlı əsərlər yazıb?**

A) Mirzə Camal Qarabaği və Mirzə Adıgözəl bəy.
B) Mirzə Camal Qarabaği və Əhməd bəy Cavanşir.
C) Mirzə Adıgözəl bəy və Əbdül Lətif Əfəndi.
D) Əbdül Lətif Əfəndi və Mirzə Kazım bəy.
E) Mirzə Kazım bəy və Əhməd bəy Cavanşir.

**Sual 52. Mirzə Camal Qarabaği və Mirzə Adıgözəl bəyin əsərlərinin adı nədir?**

A) "Qarabağnamə".
B) "Şəki xanlarının tarixi".
C) "Tarixi-aləm arayi-Abbasi".
D) "Gülüstani-İrəm".
E) "Siyasətnamə".

**Sual 53. Çar Rusiyasının "Bəylərə, yüzbaşlara və başqa şəxslərə verilmiş mülkiyyət hüququ haqqında siyahının təsviri" adlı sənədində hansı əyalətin əhalisinin sosial xarakteristikası verilib?**

A) Şirvan əyaləti.
B) Qarabağ əyaləti.
C) İrəvan əyaləti.
D) Şəki əyaləti.
E) Quba əyaləti.

**Sual 54. Şirvan əyaləti əhalisinin sosial xarakteristikası çar Rusiyasının hansı sənədində verilib?**

A) "Bəylərə, yüzbaşlara və başqa şəxslərə verilmiş mülkiyyət hüququ haqqında siyahının təsviri".
B) "Caro-Tal qanunnaməsi".
C) "İrəvan əyalətinin qısa dəftəri".
D) "Naxçıvan sancağının müfəssəl dəftəri".
E) "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri".

**Sual 55. Azərbaycan milli mətbuatının banisi kimdir?**
A) Həsən bəy Zərdabi.
B) Mirzə Fətəli Axundov.
C) Nəriman Nərimanov.
D) Cəlil Məmmədquluzadə.
E) Əlibəy Hüseynzadə.

**Sual 56. Azərbaycan diində nəşr olunan ilk qəzet hansıdır?**
A) "Əkinçi".
B) "Ziya".
C) "Füyuzat".
D) "Həyat".
E) "Kaspi".

**Sual 57. XIX əsr Azərbaycan maarifçilərinin görkəmli nümayəndələrini seçin.**
A) A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, M.Kazımbəy, M.C.Topçubaşov, İ.Qutqaşınlı, C.Əfqani.
B) A.Bakıxanov, H.Z.Şirvani, Ə.Cavanişr, M.Kazımbəy, N.Nərimanov, S.Ə.Şirvani, M.Ə.Sabir;
C) M.F.Axundov, C.Məmmədquluzadə, H.B.Zərdabi, S.Ə.Şirvani, Mirzə Adıgözəl bəy, Şeyx Məhəmməd Xiyabani.
D) H.B.Zərdabi, M.Kazımbəy, M.V.Vidadi, M.P.Vaqif, M.Ə.Sabir, H.Cavid, Ü.Hacıbəyli;
E) M.Kazımbəy, M.C.Topçubaşov, İ.B.Qutqaşınlı, Ə.Ağaoğlu, M.Müşviq, C.Cabbarlı, N.Nərimanov.

**Sual 58. A.Bakıxanovun ictimai-siyasi baxışları daha çox hansı əsərində öz əksini tapıb?**
A) "Gülüstani-İrəm".
B) "Qarabağnamə".
C) "Səyahət bağları".
D) "Aldanmış kəvakib".
E) "Kəmalüddövlə məktubları".

**Sual 59. M.F.Axundovun ictimai-siyasi və fəlsəfi fikri hansı əsərində geniş verilmişdir?**
A) “Aldanmış kəvakib”, “Kəmalüddövlə məktubları”.
B) “Kəmalüddövlə məktubları”, “Hacı Qara”.
C) “Aldanmış kəvakib”, “Sərgüzəşti vəziri-xani Lənkəran”.
D) “Kəmalüddövlə məktubları”, “Müsyö Jordan və Məstəli şah”.
E) “Aldanmış kəvakib”, “Sərgüzəşti vəziri-xani Lənkəran”.

**Sual 60. “Müridizm və Şamil” əsərinin müəllifi kimdir?**
A) Mirzə Kazım bəy.
B) Mirzə Fətəli Axundov.
C) Abbasqulu ağa Bakıxanov.
D) İsmayıl bəy Qutqaşınlı.
E) Mirzə Cəfər Topçubaşov.

**Sual 61. “Bab və babilər” əsərinin müəllifi kimdir?**
A) Mirzə Kazım bəy.
B) İsmayıl bəy Qutqaşınlı.
C) Mirzə Fətəli Axundov.
D) Həsən bəy Zərdabi.
E) Cəlil Məmmədquluzadə.

**Sual 62. İsmayıl bəy Qutqaşınlının ictimai-siyasi baxışları hansı əsərində verilib?**
A) “Rəşid bəy və Səadət xanım”.
B) “Aldanmış kəvakib”.
C) “Kəmalüddövlə məktubları”.
D) “Gülüstani-İrəm”.
E) “Nadir şah”.

**Sual 63. Panislamizm cərəyanının banisi kimdir?**
A) Şeyx Cəmaləddin Əfqani.
B) Şeyx Məhəmməd Xiyabani.
C) Əlibəy Hüseynzadə.
D) Əhməd bəy Ağaoğlu.
E) Məhəmməd Əmin Rəsulzadə.

**Sual 64. Göstərilən əsərlərdən hansı Şeyx Cəmaləddin Əfqaninindir?**

A) “Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti”.
B) “Kəmalüddövlə məktubları”.
C) “Gülüstani-İrəm”.
D) “Müridzm və Şamil”.
E) “Bab və babilər”.

**Sual 65. “Dünyanın sultanı həmişə elm olmuşdur, elmdir və elm olaraq qalacaqdır” fikri kimindir?**

A) Şeyx Cəmaləddin Əfqani.
B) Abbasqulu ağa Bakıxanov.
C) Mirzə Fətəli Axundov.
D) Mirzə Kazım bəy.
E) Mirzə Şəfi Vazeh.

**Sual 66. XIX əsrdə yaranan və inkişaf edən milli ideya cərəyanı hansıdır?**

A) Maarifçilik.
B) Turançılıq.
C) Azərbaycançılıq.
D) Panislamizm.
E) Pantürkizm.

**Sual 67. Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşr olunan qəzet hansıdır?**

A) “Əkinçi”.
B) “Ziya”.
C) “Kəşkül.
D) “Həyat”.
E) “Kaspi”.

**Sual 68. Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunan jurnal hansıdır?**

A) “Füyuzat”.
B) “Molla Nəsrəddin”.
C) “Novbar”.
D) “İrşad”.
E) Heç biri.

**Sual 69. “Bizə fədai lazımdır: türk hissiyyatlı, islam etiqadlı, Avropa qiyafəli fədai” fikri kimindir?**
A) Əlibəy Hüseynzadə.
B) Əhməd bəy Ağaoğlu.
C) İsmayıl bəy Qaspıralı.
D) Məhəmməd Əmin Rəsulzadə.
E) Əlimərdan bəy Topçubaşov.

**Sual 70. “Dildə, fikirdə, işdə birlik” istifadəsi kimə məxsusdur?**
A) İsmayıl Bəy Qaspıralı.
B) Əli bəy Hüseynzadə.
C) Məhəmməd Hadi.
D) Əhməd Cavad.
E) Abbas Səhhət.

**Sual 71. Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşr olunan jurnalı göstərir?**
A) “Molla Nəsrəddin”.
B) “Füyuzat”.
C) “Kəşkül”.
D) “Novbar”.
E) “Həyat”.

**Sual 72. Türkçülüyün başlıca ideoloqu kimdir?**
A) Əlibəy Hüseynzadə.
B) Əhməd bəy Ağaoğlu.
C) Nəsib bəy Yusifbəyli.
D) Əlimərdan bəy Topçubaşov.
E) İsmayıl bəy Qaspıralı.

**Sual 73. Panislamizm ideologiyasının yaradıcısı kimdir?**
A) Şeyx Cəmaləddin Əfqani.
B) Əlibəy Hüseynzadə.
C) Əhməd bəy Ağaoğlu.
D) İsmayıl bəy Qaspıralı.
E) Əlimərdan bəy Topçubaşov.

**Sual 74. Azərbaycanın rəsmi dövlət bayrağındakı üç rəng – göy, qırmızı, yaşıl rənglərlə rəmzləşən mill-mənəvi dəyərlərimiz haqqında ilk proqram xarakterli elmi-bədii yazılar hansı jurnalda daha çox nəşr olunmuşdur?**
A) “Füyuzat”.
B) “Novbar”.
C) “Molla Nəsrəddin”.
D) “Ziya”.
E) “Kaspi”.

**Sual 75. XXI əsrin əvəllərində milli-mənlik şüurunun formalaşmasına mütərəqqi təsir göstərən və milli-demokratik ideyaların yayılmasında əhəmiyyətli rol oynayan jurnal hansıdır?**
A) “Molla Nəsrəddin”.
B) “Füyuzat”.
C) “Kaspi”.
D) “Novbar”.
E) “Ziya”.

**Sual 76. XX əsrin əvvəllərində realist ədəbi cərəyanın nümayəndələri kimlərdir?**
A) C.Məmmədquluzadə, Ö.F.Nemənzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ü.Hacıbəyli, N.Vəzirov, F.Köçərli.
B) A.Bakıxanov, M.F.Axundov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ş.C.Əfqani, M.Ə.Rəsulzadə, S.Ə.Şirvani.
C) Ə.Ağaoğlu, M.Hadi, Ə.Cavad, C.Məmmədquluzadə, M.F.Axundov;
D) Ş.C.Əfqani, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, H.B.Zərdabi, A.Bakıxanov, M.Ə.Sabir, S.Ə.Şirvani.
E) Ö.F.Nemənzadə, A.Şaiq, M.Ə.Sabir, S.Ə.Şirvani, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli.

**Sual 77. Azərbaycanda ilk qiraətxananı kimlər açmışdır?**

A) Həbib bəy Mahmudbəyov və Sultan Məcid Qənizadə.
B) Ömər Faiq Nemanzadə və Əbdürrəhimbəy Haqverdiyev.
C) Firudin bəy Köçərli və Nəcəf bəy Vəzirov.
D) Cəlil Məmmədquluzadə və Üzeyir bəy Hacıbəyli.
E) Mirzə Ələkbər Sabir və Həsən bəy Zərdabi.

**Sual 78. XX əsrin əvvəllərində romantizm cərəyanının nümayəndələri kimlərdir?**

A) H.Cavid, M.Hadi, A.Şaiq, A.Səhhət, Ə.Cavad.
B) M.P.Vaqif, M.V.Vidadi, S.Ə.Şirvani, M.Ə.Sabir, S.Vurğun.
C) F.Köçərli, A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, A.Şaiq.
D) C.Məmmədquluzadə, Ə.Hüseynzadə, A.Şaiq, M.Ə.Sabir, M.Ş.Vazeh.
E) S.Ə.Şirvani, H.B.Zərdabi, Ü.Hacıbəyli, Ə.Cavad.

**Sual 79. XX əsrin əvvəllərində Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan milli hərəkat liderlərini seçin:**

A) M.Ə.Rəsulzadə, Ə.B.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, N.Yusifbəyov, F.Xoyski, H.Zərdabi, Ü.Hacıbəyli.
B) A.Bakıxanov, C.Məmmədquluzadə, S.C.Pişəvəri, Ö.F.Nemənzadə, M.B.Məmmədzadə, İ.Qutqaşınlı.
C) Ə.Topçubaşov, M.Ə.Sabir, S.Ə.Şirvani, N.Nərimanov, Ü.Hacıbəyli, M.C.Bağırov, M.F.Axundov, M.Kazımbəy.
D) Ə.Ağaoğlu, N.Nərimanov, Ş.C.Əfqani, Səttar xan, Bağır xan, M.F.Axundov, Ü.Hacıbəyli.
E) M.B.Məmmədzadə, Q.Musayev, M.Əzizbəyov, N.Nərimanov, M.Ə.Sabir, S.Ə.Şirvani, Ş.M.Xiyabani.

**Sual 80. XX əsrin əvvəllərində Azərbaycanda yaradılan milli siyasi partiyaları göstərin:**

A) "Qeyrət", "Difahi", "Müdafiə", "Müsavat", "Türk ədəmi-mərkəziyyət".
B) "Qeyrət", "Hümmət", "Kommunist", "İslam", "Bolşevik".
C) "Difahi", "Səadət", "Azadlıq", "Əmək", "Dirilik".
D) "Musavat", "Türk ədəmi-mərkəziyyət", "Sosial-demokrat", "Gənclik", "Bərabərlik".
E) "Müdafiə", "Menşevik", "Kadet", "Tudə", "Demokrat".

**Sual 81. XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli ideologiyanın formalaşması, milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə aparan islamçılığı, türkçülüyü və müasirliyi özünə əsas prinsip götürən siyasi partiya hansıdır?**

A) “Müsavat”.
B) “Qeyrət”.
C) “Difahi”.
D) “Müdafiə”.
E) “Hümmət”.

**Sual 82. “Diriliklərin ən qiymətlisi milli dirilikdir, milli istiqlala malik olmayan bir millət öz mövcudluğunu saxlaya bilməz” fikri kimə məxsusdur?**

A) M.Ə.Rəsulzadəyə.
B) Əlibəy Hüseynzadəyə.
C) Nəriman Nərimanova.
D) Əlimərdan bəy Topçubaşova.
E) Əhməd bəy Ağaoğluna.

**Sual 83. “Musavat” partiyasının orqanı hansı qəzet olub?**

A) “Açıq söz”.
B) “Əkinçi”.
C) “Həyat”.
D) “Kaspi”
E) “Ziya”.

**Sual 84. “Musavat” partiyası hansı siyasi partiya ilə birləşmişdir?**

A) “Türk ədəmi-mərkəziyyət”.
B) “Difahi”.
C) “Qeyrət”.
D) “Ədalət”.
E) “Hümmət”.

**Sual 85. Azərbaycan Xalq Cümhuriyyətinin əsasını qoyanlar kimlərdir?**
A) M.Ə.Rəsulzadə, Ə.B.Topçubaşov, F.Xoyski, N.Yusifbəyli, H.Ağayev.
B) M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, S.Ağamalıoğlu, Q.Qarabəyov.
C) Ə.Hüseynzadə, N.Nərimanov, Ə.Qarayev, A.Peginov, S.Əbilov.
D) F.Xoyski, N.Nərimanov, S.M.Qənizadə, Ə.Bayramov, M.C.Bağırov.
E) N.Yusifbəyli, Q.Qarabəyov, N.Nərimanov, H.Ağayev, Ç.İldırım.

**Sual 86. Azərbaycan Xalq Cümhuriyyətini kim devirdi?**
A) Bolşeviklər.
B) Menşeviklər.
C) Eserlər.
D) Eser-menşeviklər.
E) Kadetlər.

**Sual 87. Azərbaycan sovet dövlətinin tərkibində olduğu dövrdə hansı ideologiya hakim idi?**
A) Marksizm-Leninizm.
B) Sosial-demokratiya.
C) Demokratiya.
D) Liberalizm.
E) Liberal-demokratiya.

**Sual 88. Sovet hakimiyyəti dövründə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixi elminin əsasını kim qoymuşdur?**
A) Heydər Hüseynov.
B) Fuad Qasımzadə.
C) Zakir Məmmədov.
D) Firudin Köçərli.
E) Ziya Bünyadov.

**Sual 89. XX əsrin I yarısında Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının liderləri kimlər olub?**

A) Səttar xan, Ş.M.Xiyabani, S.C.Pişəvəri.
B) Qaçaq Nəbi, Qaçaq Kərəm, Bağır xan.
C) Ş.C.Əfqani, Səttar xan, Bağır xan.
D) S.C.Pişəvəri, Səttar xan, M.Ə.Rəsulzadə.
E) M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu.

**Sual 90. Şeyx Məhəmməd Xiyabaninin azadlıq demokratiya və istiqlaliyyət haqqında ictimai-siyasi baxışları hansı qəzetdə nəşr olunmuşdur?**

A) "Təcəddüd".
B) "Səhər".
C) "Azərbaycan".
D) "Ziya".
E) "Əkinçi".

**Sual 91. "Azərbaycan və Azərbaycanın demokratik qüvvələri" əsərinin müəllifi kimdir?**

A) Şeyx Məhəmməd Xiyabani.
B) Şeyx Cəmaləddin Əfqani.
C) Əlibəy Hüseynzadə.
D) Əhməd bəy Ağaoğlu.
E) Məhəmməd Əmin Rəsulzadə.

**Sual 92. 1945–1946-cı illərdə Cənubi Azərbaycan Milli Hökumətinin sədri kim olmuşdur?**

A) Seyid Cəfər Pişəvəri.
B) Səttar xan.
C) Şeyx Məhəmməd Xiyabani.
D) Bağır xan.
E) Şeyx Cəmaləddin Əfqani.

**Sual 93. 1991-ci il oktyabrın 18-də Azərbaycan tarixində hansı mühüm hadisə baş vermişdir?**

A) "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul edildi.

B) Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.

C) Azərbaycan Respublikası BMT-yə qəbul edildi.

D) Azərbaycan Respublikası Avropa Şurasına qəbul edildi.

E) Azərbaycan Respublikası İslam Konfransı Təşkilatına qəbul edildi.

**Sual 94. 7 cildlik "Azərbaycan tarixi" və Azərbaycanın ictimai-siyasi fikir tarixi ilə bağlı obyektiv elmi tədqiqat əsərləri hansı dövrdə yazılmağa başladı?**

A) Azərbaycan Respublikası dövründə.

B) Azərbaycan Xalq Cümhuriyyəti dövründə.

C) Azərbaycan SSR dövründə.

D) Azərbaycanın SSRİ-nin tərkibində olduğu dövründə.

E) Cənubi Azərbaycanda Milli Hökumət dövründə.

**Sual 95. 1995-ci il noyabrın 12-də Azərbaycan tarixində hansı mühüm hadisə baş verdi?**

A) Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.

B) Azərbaycan Respublikasında mətbuat üzərində senzura ləğv edildi.

C) Azərbaycan Respublikasında ölüm hökmü ləğv edildi.

D) Azərbaycan Respublikasının dövlət himni qəbul edildi.

E) Azərbaycan Respublikası Avropa Şurasına qəbul edildi.

**Sual 96. Azərbaycan Respublikasının Konstitusiyasının yaradıcısı kimdir?**

A) Heydər Əliyev.

B) Əbülfəz Elçibəy.

C) İlham Əliyev.

D) Ayaz Mütəllibov.

E) Əbdürrəhman Vəzirov.

**Sual 97. Azərbaycan Respublikasında mətbuat üzərində senzuranı kim ləğv etdi?**
A) Heydər Əliyev.
B) İlham Əliyev.
C) Əbülfəz Elçibəy.
D) Yaqub Məmmədov.
E) Ayaz Mütəllibov.

**Sual 98. 1999-cu il yanvarın 3-də Dövlət İdarəçilik Akademiyasında hansı mühüm hadisə baş verdi?**
A) Ümummilli lider Heydər Əliyev DİA-nın təsis edilməsi haqqında sərəncam verdi.
B) DİA-nın yaradılmasının 5 illiyi qeyd edildi.
C) DİA-nın yaradılmasının 10 illiyi qeyd edildi.
D) DİA-da beynəlxalq konfrans keçirildi.
E) DİA təhsilin Boloniya sisteminə qoşuldu.

**Sual 99. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının tarixində hansı mühüm hadisə baş verdi?**
A) İlham Əliyev prezident seçildi.
B) Parlament Seçkisi keçirildi.
C) Bələdiyyələrə seçki keçirildi.
D) Azərbaycan təhsilin Boloniya sisteminə qoşuldu.
E) Dünya azərbaycanlılarının I qurultayı keçirildi.

**Sual 100. Azərbaycan Respublikasında təhsilin Boloniya prosesi kredit sisteminə hansı prezidentin vaxtında keçirildi?**
A) İlham Əliyevin.
B) Heydər Əliyevin
C) Əbülfəz Elçibəyin.
D) Yaqub Məmmədovun.
E) Ayaz Mütəllibovun.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Hüquq yayın evi", 2018, 91 s.
2. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları (Azərbaycan multikulturalizminin qaynaqları seriyasından). Bakı, 2016, 288 səh.
3. Azərbaycan maarifinin yorulmaz carçısı: Həsən bəy Zərdabi – 170: metodik vəsait. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2012. 46 səh.
4. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı, BBMM, 2017, 416 səh.
5. Azərbaycanda ənənəvi din. Bakı, "Elm və təhsil", 2014, 444 səh.
6. Azərbaycan tarixi.Yeddi clddə.
7. Azərbaycan fəlsəfəsi tarixi: I cild, Bakı, "Elm", 2014. 456 səh.
8. Azərbaycan fəlsəfəsi tarixi: II cild, Bakı, "Elm", 2014, 684 səh.
9. Azərbaycan Respublikası 1991–2001. Bakı, "XXI–Yeni Nəşrlər Evi", 2001, 360 səh.
10. Azərbaycan Republikasının tarixi (1991–2003). Heydər Əliyev dövrü. I cild., Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi. 2016, 704 səh.
11. Azərbaycan Republikasının tarixi (2003–2006). İlham Əliyev dövrü. II cild., Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi. 2016, 716 səh.
12. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament (II kitab Stenoqrafik hesabatlar). Bakı, "Azərbaycan", 1998, 992 səh.
13. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild, "Lider", 2004, 440 səh.
14. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı,"Lider", 2005, 472 səh.
15. **Abdulla K.** Mifdən yazıya və yaxud gizli Dədə Qorqud. Bakı, "Mütərcim", 2009, 336 səh.
16. **Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V.** İnsan hüquqları: Beynəlxalq və milli müdafiə mexanizmləri. Bakı, "Açıq dünya", 2008. 487 səh.
17. **Abdullayev M.Q.** Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, "Bakı Universiteti", 2014, 380 səh.

18. **Axundov M.F.** Əsərləri, üç cilddə. II cild. Bakı, Elm 1988, 376 səh.
19. **Ağaoğlu Ə.** Sərbəst insanlar ölkəsində. Bakı, "TUTU", 2001, 47 səh.
20. **Ağaoğlu Ə.** Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, 392 səh.
21. **Araslı H.M.** "XVII–XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi". Ali məktəblər üçün dərslik. Bakı, Azərb. Un-ti, 1956, 324 səh.
22. **Aşurbəyli S.B.** Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü. Bakı, "Azərnəşr", 1998, 356 səh
23. **Aşurbəyli S.B.** Şirvanşahlar dövləti (VI–XVI əsrlər). Bakı, "Azərnəşr", 1997, 405 səh.
24. **Bakıxanov A.** Gülüstani-İrəm. Bakı, "Azərbaycan SSR Elmlər Akademiyası", 1951,
25. **Babaoğlu H.** Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. Dərslik. Bakı, "MSA", 2013, 456 səh.
26. **Babaoğlu H.** Siyasi təhlil və proqnozlaşdırma. Dərslik. Bakı, "MSA", 2012, 300 səh.
27. **Bağırov Z.S.** Fəlsəfə (sxemlərdə). Dərs vəsaiti. Bakı, "Elm", 2009, 205 səh.
28. **Bünyadov Z.M.** "Qırmızı terror". Bakı, "Azərnəşr", 1993, 331 səh.
29. **Bünyadov Z.M.** Azərbaycan VII–IX əsrlərdə. Bakı, 1989, 392 səh.
30. **Baykara Hüseyn.** Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, "Azərnəşr", 1992. 278 səh.
31. **Cahangirli C.X.** Azərbaycan Türkiyə…, Bakı, "Çaşıoğlu", 2004, 104 səh.
32. **Cahangirli C.X.** Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri, Bakı, "Araz", 2006, 109 səh.
33. **Cəfərov N.Q.** Azərbaycanşünaslığa giriş. Bakı, "Bakı Universiteti", 2001, 120 səh.
34. **Cəfərov N.Q.** Azərbaycanlılar: Etnokulturoloji birliyin siyasi – ideoloji üfüqləri. Bakı, "XXI-Yeni nəşrlər evi", 2001, 176 səh.
35. **Cəfərov N.Q.**Milli ictimai fikir tariximizdən (1904–1917). Bakı, "Azərnəşr", 1993, 78 səh.
36. **Cəmaləddin Ə.** Seçilmiş əsərləri. Bakı, "Azərnəşr", 1998,
37. **Çəmənzəminli Y.V.** Müstəqilliyimizi istəyiriksə... Bakı, "Gənclik", 1994, 72 səh.
38. **Dahl R.A.** Demokratiya haqqında. Bakı, 2004, 248 səh.

39.**Xəlilov S.S.** Lider. Dövlət. Cəmiyyət. Bakı, “Azərbaycan Universiteti”, 2001, 358 səh.
40.**Xəlilov S.S.** Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı, “Azərbaycan Universiteti”, 2004, 624 səh.
41.**Xəlilov S.S.** Sivilizasiyalararası dialoq. Bakı, “Adiloğlu”, 2009, 252 səh.
42.**Elçibəy Ə.** Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, “Gənclik”, 1992, 96 səh.
43.**Eyyubov İ.Ə.** Azərbaycanın siyasi təlimlər tarixi. Dərslik. Bakı, 2011, 351 səh.
44.**Əfəndiyev O.Ə.** Azərbaycan Səfəvilər dövləti. Bakı, “Şərq-Qərb”, 2007, 407 səh.
45.**Əfəndiyev M.Ə.** Siyasi elmin əsasları. Bakı, “Siyasət”, 2008, 636 səh.
46.**Əfəndiyev M.Ə.** Siyasi və hüquqi təlimlər tarixi. Bakı, “Bakı Universiteti, 2006, 625 səh.
47.**Əhmədov B.B.** XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Dərslik. 3 cilddə (II cild). Bakı, “Apostrof ÇapEvi”, 2010, 434 səh.
48.**Əhmədov E.İ.** Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, “Letterpress”, 2012, 912 səh.
49.**Əhmədov E.İ.** Ermənistanın Azərbaycan təcavüzü: sənədlər və materiallar. I kitab. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu, 2013, 134 səh.
50.**Əhmədov E.İ.** Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu, 2015, 408 səh.
51.**Əhmədov E.İ.** Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu, 2015, 368 səh.
52.**Əhmədova F.F.** Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı, 1998, 170 səh.
53.**Əkbərov R.A.** Azərbaycan Xalq Cümhuriyyətinin (I Respublikanın) dövlət və hüquq tarixi. Bakı, “Elm və təhsil”, 2018, 280 səh.

54.**Əkbərov R.A.** Azərbaycanın dövlət və hüquq tarixi (ən qədim dövrlərdən XXI əsrin əvvəllərinə qədər). Dərs vəsaiti. Bakı, "Hüquq ədəbiyyatı", 2009, 487 səh.
55.**Ələkbərov U.K.** Davamlı insan inkişafının əsasları. Ali Məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2017, 132 səh.
56.**Ələkbərov U.K.** Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2013, 224 səh.
57.**Ələkbərov U.K.** İnsan inkişafının əsasları. Ali Məktəblər üçün dərslik. Bakı, "Aspoliqraf", 2016, 280 səh.
58.**Ələkbərov U.K.** Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2017, 176 səh.
59.**Ələkbərov U.K.** İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali Məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2018, 216 səh.
60.**Ələkbərova N.İ.** Siyasi elmin müasir problemləri. Bakı, "Elm və təhsil", 2013, 372 səh.
61.**Ələkbərli F.Q.** Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi (XIX–XX əsrlər). I hissə. Bakı, "Elm və təhsil", 2018, 504 səh.
62.**Əliyev Heydər.** Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Çoxcildliyi, 56 cilddə.
63.**Əliyev İlham.** İnkişaf – məqsədimizdir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildliyi, 86 cilddə.
64.**Əliyev S.H.** Totalitar idarəetmə prinsiplərindən demokratik idarəetmə prinsiplərinə keçidin xüsusiyyətləri. "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". Elmi-nəzəri və praktiki jurnal. 2003. №03, səh. 89-101
65.**Əliyev S.H.** "Azərbaycanın ictimai-siyasi fikir tarixi" fənni üzrə proqram. Bakı 2003, 64 səh.
66.**Əliyev S.H.** Şeyx Cəmaləddin Əfqaninin maarifçilik və demokratik islahatçılıq fəaliyyəti, "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". Elmi-nəzəri və praktiki jurnal. 2011, № 2(34), səh. 239-246
67.**Əliyev S.H.** Demokratik Azərbaycan cəmiyyətində idarəetmə sisteminin formalaşması və inkişafının başlıca şərtləri, "Geostrategiya" jurnalı, 2011, № 01 (07)

68.**Əliyev S.H.** Demokratik idarəetmə və sosial ədalət, “Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları” mövzusunda beynəlxalq elmi konfransın materialları, Bakı 2012, səh. 110-114
69.**Əliyev S.H.** Heydər Əliyev müasir Azərbaycan Respublikasında demokratik idarəetmə sisteminin yaradıcısıdır. “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə”, Elmi-nəzəri və praktiki jurnal. (Xüsusi buraxılış) 2013 N2 (42) s.117-121
70.**Əliyev S.H.** Müstəqil Azərbaycanda demokratik və İslam dəyərləri vəhdətinin formalaşması, “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə”. Elmi-nəzəri və praktiki jurnal, 2016, № 4(56), səh. 139-144
71.**Əliyev S.H., Cahangirli C.X.** “Azərbaycanın siyasi təlimlər tarixi” fənni üzrə proqram. Bakı 2020, 88 səh.
72.**Əlibəyzadə E.M.** Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı, 1998. 222 səh.
73.**Əlibəyzadə E.M.** “Avesta” Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir. Bakı, 2005, 240 səh.
74.**Əlibəyzadə E.M.** Azərbaycan ədəbiyyatı tarixi: ən qədim dövrlər. Bakı, “Qarabağ”, 2009, 831 səh.
75.**Əmrahov M.İ.** XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı, “ADPU”, 2009, 371 səh.
76.**Əzizov T.Ə.** Azərbaycan XX əsrin əvvəllərində. Bakı, “Zaman”, 1997, 256 səh.
77.**Fazili A.H.** Ulusunu tanımayan tanrısını tanımaz (Atropatena e.ə. IV – e. VII əsri). Bakı, “Elm”, 1992, 216 səh.
78.**Fərzəliyev Ş.F.** Azərbaycan XV–XVI əsrlərdə (Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri üzrə). Bakı, “Elm”, 1983, 108 səh.
79.**Göyalp Z.** Türkçülüyün əsasları. Bakı, “Xəzər Universiteti” nəşriyyatı, 2010, 208 səh.
80.**Hatəmi H.** Mühacir İran qəzetlərinin müstəmləkəçilik və imperealizm əleyhinə mübarizəsi. Biblioqrafiya. Bakı, “Azərbaycan SSR EA”, 1964, 232 səh.
81.**Həsənov C.P.** Ağ ləkələrin qara kölgəsi. Bakı, “Gənclik” 1991, 200 səh.
82.**Həsənov R.M.** Siyasi soisologiya. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, 2010, 208 səh.

83.**Həsənov Ə.M.** Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, “Azərbaycan”, 2005, 631 səh.
84.**Həsənov Ə.M.** Geosiyasət. Dərslik. Bakı, “Aypara-3”, 2010, 604 səh.
85.**Həsənov Ə.M.** Azərbaycanın geosiyasəti. Dərslik. Bakı, “Zərdabi LTD MMC”, 2015, 1056 səh.
86.**Həsənov Ə.M., Vəliyev A.İ.** Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, “Zərdabi LTD MMC”, 2013, 776 səh.
87.**Hüseynzadə Əlibəy.** Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2007, 480 səh.
88.**Hüseynzadə Əlibəy.** Siyasəti – fürusət. Bakı, 1994,
89.**Hüseynzadə Əlibəy.** Türklər kimdir və kimlərdən ibarətdir. Bakı, 1997,
90.**Hüseynov H.N.** Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, “Şərq-Qərb”, 2007, 400 səh.
91.**İbrahimli X.C.** Azərbaycan mühacirəti tarixi. Bakı, “ADPU”, 2012, 358 səh.
92.**İbrahimov T.A.** İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858–1906-cı illər). Bakı, 1967,
93.İrəvan əyalətinin icmal dəftəri. Bakı, “Elm” 1996, 184 səh.
94.**Kalankatuklu Moisey.** Albaniya tarixi, Mxitar Qoş. Alban salnaməsi. Bakı, “Avrasiya press”, 2006, 296 səh.
95.**Kitabi-Dədə Qorqud**. Bakı, “Azərnəşr”, 1962, 176 səh.
96.**Köçərli F**.Q. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, “Azərb. SSR.EA”, 1965, 91 səh.
97.**Köçərli F.Q.** M.F.Axundovun dünyagörüşü. Bakı, “Elm”, 1999, 124 səh.
98.**Qasımlı M.C.** Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920–1994-cü illər). Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu, 2016, 520 səh.
99.**Qasımzadə F.S.** XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəblər üçün dərslik. Bakı, “ADU”, 1956, 553 səh.
100. **Qəndilov S.T.** Dövlət İdarəçilik Akademiyası Heydər Əliyev dühasının bəhrəsidir. Bakı, “Çaşıoğlu”, 2005, 444 səh.

101. **Qəndilov S.T.** Müstəqillik illərinin düşüncələri. Bakı, "Naksuana", 2006, 500 səh.
102. **Quliyev A.Ə.** Azərbaycanda QHT sektoru yeni mərhələdə: tarix və inkişaf. Bakı, "Elm", 2016, 178 səh.
103. **Quliyev A.İ.** Xürrəmiliyin sosial-siyasi və hüquqi ideyaları. Bakı: n. y., 2018. 150 səh.
104. **Quluzadə M.N.** Azərbaycanın dövlətçilik tarixi, Bakı, "Mütərcim" nəşriyyatı, 2016, 264 səh.
105. **Qurbanov Ş.D.** Cəmaləddin Əfqani və türk dünyası. Bakı, "Azərnəşr", 1997, 200 səh.
106. **Qeybullayev Q.Ə.** Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, "Azərnəşr", 1994. 248 səh.
107. **Mahmud Şəbüstəri.** Gülşəni-Raz. Bakı, "Elm və təhsil", 2013, 226 səh.
108. **Mahmudov Y.M.** Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk parlamentli respublika. "Respublika" qəzeti, 28 may, 2017
109. **Marağalı Əvhədi.** Cami–Cəm. Bakı, "Lider", 2004, 288 səh.
110. **Mehdiyev R.Ə.** Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, "Azərbaycan Milli Ensiklopediyası", 2001, 276 səh.
111. **Mehdiyev R.Ə.** XXI əsrdə milli dövlətçilik. Bakı, "XXI-Yeni Nəşrlər Evi", 2003, 248 səh.
112. **Mehdiyev R.Ə.** 2005-ci il parlament seçkiləri, ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar). Bakı, "XXI-Yeni Nəşrlər Evi", 2006, 264 səh.
113. **Mehdiyev R.Ə.** Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006, 607 səh.
114. **Mehdiyev R.Ə.** Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. I cild (məqalələr, çıxışlar, müsahibələr). İyun 1971 – iyun 2001. Bakı, "XXI-Yeni Nəşrlər Evi", 2006, 624 səh.
115. **Mehdiyev R.Ə.** Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. II cild (məqalələr, çıxışlar, müsahibələr), Yanvar 2002 – yanvar 2006. Bakı, "XXI-Yeni Nəşrlər Evi", 2007, 672 səh.
116. **Mehdiyev R.Ə.** Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2008, 792 səh.
117. **Mehdiyev R.Ə.** Yeni siyasət: inkişafa doğru. I cild, Bakı, "Oskar NPM", 2008, 581 səh.

118.**Mehdiyev R.Ə.** Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfı fıkrin yenidən nəzərdən keçirilməsinə dair. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2009, N2 (26).
119.**Mehdiyev R.Ə.** Azərbaycan – 2003–2008: Zaman haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2009, 240 səh.
120.**Mehdiyev R.Ə.** İctimai və humanitar elmlər: zaman kontekstində baxış. Bakı, "Oskar NPM", 2010, 416 səh.
121.**Mehdiyev R.Ə.** Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq-Qərb", 2010, 360 səh.
122.**Mehdiyev R.Ə.** Tarixi idrakın elmiliyi problemlərinə dair. Bakı, "Şərq-Qərb", 2013, 144 səh.
123.**Mehdiyev R.Ə.** Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu. Bakı, "Şərq-Qərb", 2014, 398 səh.
124.**Mehdiyev R.Ə.** Yeni dünya nizamı və milli ideya. Bakı, "Şərq-Qərb", 2016, 280 səh.
125.**Mehdiyev R.Ə.** Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında. Bakı, "Şərq-Qərb", 2019, 232 səh.
126.**Mustafa N.** Müsəlman Şərqində ilk demokratik cümhuriyyət. "Xalq qəzeti". 28 may, 2010,
127.**Məmmədova F.C.** Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr – b.e. VIII əsri). Bakı, "Azərnəşr", 1993, 262 səh.
128.**Məmmədov Z.C.** Azərbaycan fəlsəfəsi tarixi. Bakı, "Şərq-Qərb", 2006, 328 səh.
129.**Məmmədov Z.C.** Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978,
130.**Məmmədov F.T.** İdaretmə mədəniyyəti (Xarici ölkələrin təcrübəsi). Bakı, "Apostrof Çap Evi", 2013, 672 səh.
131.**Məmmədov F.T.**Kulturologiya, Mədəniyyət, Sivilizasiya. Bakı, "OL MMC", 2016, 260 səh.
132.**Məmmədov X.M.** Azərbaycan milli hərəkatı: 1875–1918-ci illər. Bakı, "Sabah", 1996, 175 səh.
133.**Məmmədov X.M.** Azərbaycanda maarifçilik və milli hərəkat (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri. Bakı, "Bakı Universiteti", 1998, 310 səh.

134.**Məmmədov X.M.** Aydınlarımızın istiqlal mücadiləsi. Bakı, “Səda”, 1999, 85 səh.
135.**Məmmədov X.M.** Azərbaycan xalqının milli istiqlal mübarizəsi: (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri). Bakı, “Elm”, 2005, 249 səh.
136.**Məhəmmədrza Afiyət**, “Sərdare Milli Səttar xan”. Bakı, 1968,
137.**Məmmədzadə Mirzə Bala.** Milli Azərbaycan hərəkatı. Bakı, “Nicat”, 1992, 248 səh.
138.**Məmmədzadə İ.R.** Siyasi etika. Bakı, “İnam”, 1997, 18 səh.
139.**Məmmədzadə İ.R., Məmmədzadə R.H.** Xeyir və şər arasında. Bakı, “Təbib”, 1993, 51 səh.
140.**Mirzəzadə A.B.** Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. Bakı, “Azərbaycan”, 2016, 240 səh.
141.**Mirzəzadə A.B.** Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri. Bakı, “Azərbaycan”, 2001, 280 səh.
142.**Mirzəzadə A.B.** Yeni Azərbaycan Partiyası: yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri. Bakı, “Azərbaycan”, 2002, 200 səh.
143.**Mirzəzadə A.B.** Demokratiya plyus. Bakı, “Azərbaycan”, 2004, 415 səh.
144.**Mirzəzadə A.B.** Azərbaycan, zaman, inkişaf. Bakı, “Azərbaycan”, 2008, 608 səh.
145.**Mirzəzadə R.R.** Multikulturalizm siyasəti: Din və Gender Dialoqunda. Bakı, “Təknur”, 2013, 168 səh.
146.**Mirbəşoroğu E**. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı, “Elm”, 2009, 523 səh.
147.**Multikulturalizmə giriş** (müəlliflər kollegiyası), Ali məktəblər üçün dərslik, Bakı: Şərq Qərb, 2019, 432 səh.
148.**Musalı N.S.** I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsəri əsasında). Bakı, “Nurlan”, 2011, 481 səh.
149.**Musayev İ.M.** Şimali Azərbaycanda ictimai–siyasi vəziyyət (1917–1920). Bakı, 1992,
150.**Mürşüdlü Q.C.** Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, “ULU İKF”, 2019, 141 səh.

151.**Nuriyeva İ.T.** Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin əvvəllərinədək). Ali məktəblər üçün dərslik, Bakı,“Mütərcim”, 2015, 336 səh.
152.**Nağıyev F.T.** Konstitusiya hüququ: mühazirə mətnləri. Dərs vəsaiti. Bakı, “Qanun”, 2011, 240 səh.
153.Naxçıvan sancaqlığının müfəssəl dəftəri. Bakı, “Elm”, 2001, 376 səh.
154.**Nəcəfov E.Ə.** İctimai elmlərlə akademik yazı və tədqiqat metodları. Ali məktəblər üçün dərslik. Bakı, “Mütərcim”, 2017, 236 səh.
155.**Nəsibzadə N.L.** Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı,“Elm”, 1990, 112 səh.
156.**Nəsibzadə N.L.** Azərbaycanın siyasi mühacirəti. “Ədəbiyyat” qəzeti, 7 fevral, 1992
157.**Oruclu M.R.** Azərbaycanda və mühacirətdə müsavat partiyasının fəaliyyəti: 1911–1992. Bakı, “Azərnəşr”, 2001, 272 səh.
158.**Rəfili M.H.** Mirzə Fətəli Axundov (həyatı, mühiti və yaradıcılığı). Bakı, “Elm”, 1990, 256 səh.
159.**Rəhimli R.Z.** Azerbaycan Devlet Personel Yönetimi (Azərbaycan dövlət qulluğu sistemi)”, Ankara, Kültür Ajansı Yayınları, 2011, 256 səh.
160.**Rəhimli R.Z.** “Azerbaycan Kamu Personel Sistemi”, Naturel Yayınları, Ankara, 2006, 144 səh.
161.**Rəhimli R.Z.** Azərbaycan Respublikasının idarəetmə sistemində yerli özünüidarələr. Bakı, “Elm”, 2009, 170 səh.
162.**Rəsulzadə M.Ə.** Azərbaycan Cümhuriyyəti. Bakı, “Elm”, 1990, 116 səh.
163.**Rəsulzadə M. Ə.**Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919). Bakı, “Qanun”, 2013,160 səh.
164.**Rəsulzadə M.Ə.** Əsərləri. 5 cilddə.
165.**Rəsulzadə M.Ə.** Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, “Gənclik”, 1991, 112 səh.
166.**Rüstəmov Y.İ.** Siyasi-hüquqi təlimlər tarixi. Bakı, “Azərbaycan Universiteti”, 2000, 318 səh.

167.**Rüstəmov Y.İ.** Türk fikir tarixi haqqında mülahizələr. Bakı, “Çaşıoğlu”, 2005, 140 səh.
168.**Rüstəmov Y.İ.** Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, “Azərbaycan Universiteti”, 2007, 423 səh.
169.**Rzayev Ə.H.** Şəxsiyyət Dövlət Möcüzə…, (II buraxılış). Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2017, 528 səh.
170.**Seyidov M.Ə.** Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, “Yazıçı”, 1983, 326 səh.
171.**Seyidzadə D.B.** Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 1998, 254 səh.
172.**Sultanov O.B.** 80-ci illərin sonu, 90-cı illərin əvvələrində Azərbaycanda siyasi mübarizə. Bakı, “Maarif”, 1995, 232 səh.
173.**Süleymanova M.S.** Nadir şah, Tehran 2010, 70 səh.
174.**Süleymanova S.Y.** Azərbaycanda ictimai-siyasi hərəkat: XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri. Bakı, “Azərbaycan Dövlət Kitab Palatası”, 1999, 422 səh.
175.**Süleymanova S.Y.** Türk xalqları tarixi ən qədim zamanlardan bugünümüzədək. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, “Elm və təhsil”, 2011, 351 səh.
176.**Tağıyev Ə.M.** Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı, “Təbib”, 2000,
177.**Tusi Xacə Nəsirəddin.** Əxlaqi-Nasiri. Bakı, “Lider”, 2005, 280 səh.
178.**Yaqublu N.Q.** Azərbaycan istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, 1999, 90 səh.
179.**Yaqublu N**.Q. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı, 2013, 506 səh.
180.**Yaqublu N**.Q. Cümhuriyyət qurucuları. Bakı, “Nurlar NPM”, 2018, 504 səh.
181.**Yunus O.** Təhmasib şah, Bakı “Apostrof” 2009, 504 səh.
182.**Yunus O.** Nadir şah, Bakı “Apostrof” 2010, 560 səh.
183.**Yunus O.** Sultan Alp Arslan. “OL” 2015, 288 səh.
184.**Yunus O.** Atabəy Eldəniz, Bakı “OL NPKT” 2017, 391 səh.
185.**Yusifov Y**.B. Qədim Şərq tarixi. Bakı, “Şərq-Qərb”, 2007, 536 səh.

186. **Vəliyev Ş.Q.** Füyuzat ədəbi məktəbi. Bakı, “Elm və təhsil”, 2009, 456 səh.
187. **Vəliyev Ş.Q.** Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar (1985–2000). Bakı, “Elm və təhsil”, 2011, 464 səh.
188. **Vəliyev Ş.Q.** Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar (2000–2010). Bakı, “Elm və təhsil”, 2011, 544 səh.
189. **Vəliyev Ş.Q.** Yaddaş səhifələri. Bakı, “Elm və təhsil”, 2012, 344 səh.
190. **Zeynalov M.B.** Fəlsəfə tarixi (Qərb fələsfəsi). Ali məktəblər üçün dərslik, Bakı, “Azərbaycan”, 2000, 544 səh.
191. **Zeynalov M.B.** Xarici ölkələrin fəlsəfə tarixi. Ali məktəblər üçün dərslik. Bakı, “Şərq-Qərb”, 2009, 648 səh.

## Rus dilində:

192. **Алескерова Н.**Э. Суфийское братство Халватийа. СПб.: Петербургское Востоковедение, 2015. 272 с.
193. **Али-заде А.А.** Социально–экономическая и политическая история Азербайджана XIII–XVI вв.Баку, “Кавказ”, 2012, 460 с.
194. **Алиев И.Г.** Очерки истории Атропатены. Баку,“Азернешр”, 1989, 160 с.
195. **Ахмедов Э.М.** Философия азербайджанского просвешения. Баку, “Азернешр”, 1983. 291 с.
196. **Багирова И.С.** Политические партии и организации Азербайджана в начале XX века (1900–1917). Баку, “ЕЛМ”, 1997, 336 с.
197. **Балаев А.Г.** Азербайджанское национальное движение в 1917–1918 гг. Баку, “ЕЛМ”, 1998, 280 с.
198. **Гасанлы Дж.П.** СССР-ИРАН: Азербайджанский кризис и начало холодной войны (1941–1946 гг). Москва, “Герои Отечества”, 2006, 560 с.
199. **Геюшов З.**Б. Мировоззрение Г.Б.Зардаби. Баку, 1962, 75 с.
200. **Гусейнов Г.Н.** К вопросу о социальных воззрениях Низами. Баку, “Известия Азербайджанского филиала Академии наук СССР”, 1943, № 4. 50-65.

201. **Дьяконов И.М.** История Мидии от древнейших времен до конца IV века до н.э. I книга.Москва – Ленинград, “Академия Наук СССР”, 1950, 330 с.
202. **Зярдаби Г.Б.** Избранные статьи и письма. Баку, 1962, 488 с.
203. **Исмаилов А.** Идеология, философия и преступления армянства и армянского фашизма. Баку, 2018, 602 с.
204. **Исмаилов Э.Р.** Очерки по истории Азербайджана. Москва, “Флинта”, 2010, 424 с.
205. **Касумова С.Ю.** Азербайджан в III–VII вв. (Этнокультурная и социально-экономическая история). Баку, “Элм”, 1993, 140 с.
206. **Казем-Бек М.** Избранные произведения. Баку, “Элм”, 1985, 420 с.
207. Книга моего деда Коркута. Москва-Ленинград, 1962, 302 с.
208. **Макавелский А.О.** Авеста, Баку, 1960, 70 с.
209. **Мамедова Ф.Дж.** “История албан” Моисея Каланкатуйского как источник по общественному строю раннесредневековой Албании. Баку, “ЭЛМ”, 1977, 198 с.
210. **Мамедова Ф.Дж.** Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII. н.э.), Баку, “ЭЛМ”, 1986, 284 с.
211. **Мамедов Т.М.**Кавказская Албания в IV – VII вв. Баку, “Маариф”, 1993, 133 с.
212. **Мамедов Ш.Ф.** Мирза-Фатали Ахундов. Москва, “Мысль”, 1978, 166 с.
213. **Мамедов Ф.Т.**Культурология. Баку, “Абилов, Зейналов и сыновья”, 2002, 534 с.
214. **Мамедов Ф.Т.**Культура управления. Опыт зарубежных стран. Баку, “Апостроф”, 2013, 776 стр.
215. **Мехтиев Р.Э.** Шах Исмаил Сефеви: портрет правителя и воина. Баку, “Şərq-Qərb”, 2014. 253 с.
216. Очеркипо истории Азербайджанской философии / Сектор философии АНАзербайджанской ССР.Т. 1 / Баку, “АНАзерб.ССР”, 1966, 348 с.
217. **Рафили М.Г.** Мирза Шафи в мировой литературе: к вопросу о литературном наследии Мирза Шафии плагиате Фридриха Боденшмедма. Баку,“Азернешр”, 1958. 119 с.

218. **Рахмани А.А.** Азербайджан в конце XVI и в XVII веке, 1590–1700 годы.Баку, “Элм”, 1981, 237 с.
219. **Рзаев А.К.** История политических и правовых учений в Азербайджане: от истоков до XX века. Баку,“Элм”, 2000, 526 с.
220. **Рзаев А.К.** Политические взгляды М.Ф.Ахундова. Баку, “АН Азерб. ССР”, 1968. 158 с.
221. **Рзаев А.К.** Мухаммед Али Мирза Казем-Бек. Москва, “Наука”, 1989, 199 с.
222. **Рзакулизаде С.Д.** Общественно-политические взгляды Хагани Ширвани. Баку, “АН Азерб. ССР”, 1960, 117 с.
223. **Эфендиев О.А.** Азербайджанское государство Сефевидов в XVI веке. Баку, “ЭЛМ” 1981, 306 с.



**Sakit Hacalı oğlu Əliyev** 1955-ci ildə anadan olmuşdur. 1978-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, 1978–1983-cü illərdə Beyləqan rayon Sarısu kənd məktəbində tarix müəllimi, 1983–1985-ci illərdə Memarlıq və İnşaat Universitetinin “Fəlsəfə” kafedrasında baş laborant işləmiş, 1988-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun “Tarixi materializm və sosial psixologiyanın fəlsəfi problemləri” şöbəsi üzrə əyani aspiranturasını bitirmiş, fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

1988–1992-ci illərdə Azərbaycan SSR EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi və elmi işçi vəzifələrində çalışmış, 1992–1993-cü illərdə Qərb Universitetinin “Sosiologiya” kafedrasında baş müəllim, 1993–1994-cü illərdə Azərbaycan Universitetinin “Beynəlxalq münasibətlər” fakültəsində dekan, 1994–1999-cu illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun “Sosiologiya” kafedrasında dosent vəzifəsində işləmişdir.

1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası “Fəlsəfə və sosial psixologiya” kafedrasının dosentidir. 2002–2004-cü illərdə DİA-da Magistratura üzrə məsul şəxs, 2004–2011-ci illərdə DİA “Siyasi İdarəetmə” fakültəsinin dekanı vəzifələrində işləmiş, 2011-ci ildən hal-hazıradək DİA-nın Elmi katibi vəzifəsində çalışır. DİA-nın Böyük Elmi Şurasının və İxtisaslaşdırılmış Müdafiə Şurasının nəzdində fəaliyyət göstərən Elmi Seminarın və İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvüdür.

2009-cu ildə Dövlət İdarəçilik Akademiyası üzrə “İlin ən yaxşı müəllimi” adına layiq görülmüş, 2014-cü ildə elm və təhsil sahəsində fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Tərəqqi” medalı ilə təltif edilmişdir.

50-yə yaxın elmi məqalənin, bir çox fənlər üzrə tədris proqramlarının müəllifi, müxtəlif ali məktəb müəllimləri tərəfindən hazırlanmış “Sosiologiya” və “Politologiya” dərsliklərinin həmmüəllifidir.

“Azərbaycan Respublikasında demokratik siyasi idarəetmənin formalaşması və inkişafı problemləri” mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. Azərbaycan Sosioloji Assosiasiyasının təsisçilərindən biridir.



**Cahangir Xanoğlan oğlu Cahangirli** 14 fevral 1982-ci ildə anadan olmuşdur. 1999–2003-cü illərdə bakalavr, 2003–2005-ci illərdə isə magistratura pilləsində Beynəlxalq münasibətlər ixtisasını bitirmişdir. 2014-cü ildə siyasi elmlər üzrə fəlsəfə doktoru (s.e.f.d) elmi dərəcəsi almışdır.

2007-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında kabinet müdiri, "Elektron tədris və qiymətləndirmə" sektorunda mütəxəssis, "Fəlsəfə və sosial psixologiya" kafedrasında müəllim, baş müəllim, 2018-ci ildən hal-hazıradək dosent əvəzi vəzifəsində çalışır.

2018–2019-cu illərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Analitika" şöbəsində çalışmışdır.

2019-cu ildən Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun "Beynəlxalq Münasibətlər və İnsan Hüquqları" şöbəsinin müdiri vəzifəsində çalışır.

Ayrı-ayrı illərdə Azərbaycan Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış sazişə əsasən həyata keçirilən Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi çərçivəsində "İnformasiya sistemlərinin idarə olunması", "Əsas idarəetmə bacarıqları", "Strateji idarəçilik və korporativ idarəetmə", "Layihə təsirinin qiymətləndirilməsi", həmçinin BMT-nin İnkişaf Proqramının (UNDP) təşkilatçılığı ilə keçirilən "İnsan İnkişafına dair Seminar: Nəzəriyyədən təcrübəyə" adlı müxtəlif treyninqlərdə, o cümlədən Türkiyənin Bilkent Universitetində təşkil olunmuş ixtisasartırma kurslarında iştirak etmişdir.

Bir çox respublika və beynəlxalq əhəmiyyətli konfranslarda məruzə ilə çıxış etmişdir. İki monoqrafiya, 40-dan artıq elmi və publisistik məqalənin müəllifidir.

**Sakit Hacalı oğlu Əliyev**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Cahangir Xanoğlan oğlu Cahangirli**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent əvəzi

# AZƏRBAYCANIN SİYASİ TƏLİMLƏR TARİXİ

**Bakalavr hazırlığı üçün dərslik**

Çapa imzalanmışdır: 26.05.2020

Formatı 60x84 1/16. Fiziki ç/v 2,8.Tirajı 200. Sifarişli

Ecoprint nəşriyyatı

Protect pdf from copying with Online-PDF-No-Copy.com